QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ

ELMİN QAPISI

قال رسول الله(ص)
أنا مدينة العلم و عليّ بابها
و ايضا
قال رسول الله(ص) أقضاكم علي

BAKI – 2007

Elmi məsləhətçi: **Şeyxülislam Hacı Allahşükür Paşazadə professor**

Rəyçilər: **Hacı Sabir Həsənli İlahiyyat elmləri namizədi**
Hacı Salman Musayev mufti

Redaktorlar: **Hacı Niyaz Niftiyev, Hacı Səid Seyidzadə**

QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ
ELMİN QAPISI, Bakı, 2007

Kitabda İmam Əlinin (ə) həyatı, imamət dövrü, qəzavətləri, fəzilətləri, hikmətli kəlamları, ayrı-ayrı hökumət başçılarına, valilərə göndərdiyi məktub və fərmanları öz əksini tapmışdır.

Tanınmış mötəbər din alimlərinin əsərlərində toplanmış sənədlər əsasında tərtib olunmuş bu kitab geniş oxucu kütləsi, tədqiqatçı alimlər, ali məktəb müəllimləri və tələbələri üçün nəzərdə tutulmuşdur.

© Mirəziz Seyidzadə, 2007

ELMİN QAPISINA GİRİŞ…
Bismillahirrəhmanirrəhim

“Elmin qapısı” elmi əsərini oxuduqca Mövla Əliyə (ə) məhəbbətim, heyranlığım hər an artırdı. Sanki İmam Əlini (ə) yenicə tanımağa başlamışdım. Beş fəsildən ibarət olan bu elmi əsəri oxuqca yorulmaq bilmirdim. Maraq dairəm genişlənir, başladığım mövzunu sona çatdırmaq istəyirdim. Bu həvəs bir daha ondan irəli gəlirdi ki, kitab başdan-başa Mövla Əliyə (ə) məxsüs idi. Mövla ifadəsini ona görə işlədirəm ki, kitabın müəllifi Hacı Mirəziz Seyidzadə İmam Əliyə (ə) Mövla ifadəsilə xitab etmişdir. Səbəbini soruşduqda, müəllif qürur hissi ilə dedi: **“Hacı, sən bilirsən ki, o, mənim doğma babamdır. Mən özümü dərk etdiyim gündən ata-babamla fəxr etmişəm. Ona görə ki, onlar Allahın saleh bəndələri, haqq-ədalət carçıları olmuşlar. Mövla ifadəsi cəddim Peyğəmbərin (s) Qədir-Xum çölündə İmam Əli (ə) haqqında dediyi ən gözəl ifadədir. O, İmam Əlinin (ə) əlindən tutub, yuxarı qaldırmış və məşhur gövhərbar hədisini belə buyurmuşdur: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Bu hədislə tanış olduğum gündən, “Mövla” ifadəsi məni cəlb etmiş, İmam Əli (ə) haqqında yazdığım bütün əsərlərdə Peyğəmbərin (s) kəlamına ehtiram əlaməti olaraq, onu Mövla Əli (ə) kimi təqdim etmişəm”**.

Əsərin müəllifinin bu ifadəni işlətməsi məni də heyrətə gətirdi. Doğrudur, İmam Əlinin (ə) çoxsaylı adları, təxəllüsləri, ləqəbləri var, hamısı da biri-digərindən qiymətli mənalar kəsb edir. Bunların içərisində müəllifin **“Mövla”** ifadəsinə üstünlük verməsi, görünür bir daha Peyğəmbərin (s) İmam Əli (ə) haqqında buyurduğu məxsus hədisin qorunması ilə əlaqədardır.

“Elmin qapısı” əsəri həcm etibarilə çox böyük bir əsərdir. Müəllifin dediyinə görə, hələ Orta Asiyada – Buxara şəhərində təhsil alarkən bu mövzuya müraciət etmiş, zaman-zaman İmam Əliyə (ə) aid olan hədisləri toplamağa başlamışdır. Çoxsaylı illə-

rin məhsulu olaraq, bu əsər nəhayət 2006-cı ildə **"Elmin qapısı"** adı ilə tamamlandı. Kitaba nə üçün belə bir adın verilməsinin cavabı da çətin deyil. Hər hansı bir din adamı və ya hədis elmindən xəbərdar olan ziyalı, asanlıqla bunu dərk edər. Peyğəmbərimiz Həzrət Mühəmməd (s) məşhur hədisində buyurmuşdur: **"Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır".** Heç şübhəsiz elm şəhərinə daxil olan hər hansı bir şəxs qapıdan daxil olmalıdır. O qapı da Peyğəmbərimizin (s) buyurduğu kimi məhz İmam Əlidir (ə).

"Elmin qapısı" elmi əsəri sənədlərə istinad olunaraq yazılmışdır. Həmçinin, ravilər-mühəddislər Həzrət Peyğəmbərin (s) dövründən başlayaraq, hədis toplayan mötəbər şəxsiyyətlərdirlər ki, bunların da adları hədis tarixində böyük hörmətlə qəbul olunmuşdur. Kitabda toplanan bütün hədislər demək olar ki, mötəbər hədislərdir. Bu hədislərə **"müttəfiqun əleyh"** deyilir. Bu da ona görədir ki, hədislər zaman-zaman tarixin süzgəcindən süzülüb gəlib bizə çatmış, özlərinə vəsiqə almışlar. Belə hədislərə heç kim heç vəch ilə irad edə bilmir. Həmçinin qeyd edim ki, müasir dövrdə belə bir kitabın yazılması böyük məsuliyyət tələb edir. Ən həssas nöqtə məzhəblərarası münasibətləri tolerantlıq nöqteyi-nəzərdən qoruyub saxlanmasıdır. Məsuliyyətlə deyə bilərəm ki, Hacı Mirəziz Seyidzadə yüksək səviyyədə bunu bacarmışdır. Əsərlə tanış olduqca biz bunun mahiyyətini daha gözəl və açıq-aydın şəkildə görürük. Bəzi kitablarda müəlliflər İslam xəlifələri haqqında təəssübkeşlik məqamını ortaya qoyur, istədiyi tərəfə meyl edirlər. Onlar on dörd əsr bundan öncə baş vermiş hadisələri qabarıq şəkildə, bir az da düşmən təmayüllü məzmunda verməyə çalışırlar. Hacı Mirəziz Seyidzadə isə özünün istinbat qüvvəsi ilə belə məsələləri yumşaltmış, onlara hörmətlə yanaşmışdır. Buna misal olaraq bir neçə ibarətlərə diqqət yetirək. Məsələn yazırlar: **"Romadan gələn elçilər xəlifə Ömər ibn Xəttabın (r) qəbulunda oldular. Ona bəzi suallar verdilər. Xəlifə sualların cavabını bilmədi və elçiləri müəyyən bəhanələrlə özündən uzaqlaşdırdı və s.."**

“Elmin qapısı” əsərində isə müəllif belə məsələlərə özünəməxsus incəliklə yanaşmış, xəlifələrin də ehtiramını, böyüklüyünü məharətlə qorumuşdur. Məsələn: **“Hər hansı bir elçinin çətin suallarının cavabında xəlifə belə cavab vermişdir: “Mən bu gün daha çox məşğulam, belə elmi suallara Əli cavab versə daha yaxşı olar. Çünki Həzrət Peyğəmbərimiz (s) “Əğzakum Əli (Ən yaxşı qaziniz Əlidir)”, - buyurmuşdur”**,-deməklə həm İmam Əliyə (ə) ehtiram etmiş, həm də özünün böyüklüyünü qoruyub saxlamışdır. Heç şübhəsiz heç kim bütün elmlərə mükəmməl şəkildə yiyələnə bilməz. Lakin bu sözü Mövla Əli (ə) haqqında demək ən azı insafsızlıqdır. Ona görə ki, dünya alimləri Qurani-Kərimdən sonra ikinci qiymətli kitab kimi Mövla Əlinin (ə) **“Nəhcül-Bəlağə”** əsərini qəbul etmişlər. Bu bir daha bizə əsas verir ki, **Mövla Əli (ə) Peyğəmbərin (s) buyurduğu kimi ən yaxşı qazi və elm şəhərinin qapısıdır.** Əsəri oxuduqca İmam Əlinin (ə) gənclik-cavanlıq dövründə olan hadisələri, azyaşlı Əlinin Həzrət Peyğəmbərə (s) qahmar çıxması, dövrünün ölüm-dirim müharibələrində İslamı müdafiə etməsi, Peyğəmbərin (s) hicrət məsələsində ölüm yatağında yatması, xüsusən 25 illik fasilə dövründə İslamın parçalanmasının qarşısını almaq üçün əlindən gələni etməsi, insanı heyrətləndirməyə bilmir. İmam Əlinin (ə) xəlifəlik dövründə - beş ilə yaxın bir müddətdə, Böyük İslam dövlətini qoruyub saxlaması misilsiz qəhrəmanlıqdır desək yanılmarıq. Belə bir çətin vəziyyətdə ayrı-ayrı dövlət başçılarına yazdığı məktubları, valilərə göndərdiyi fərmanları bu günün məmurlarını, dövlət görəvlilərini, diplomatlarını heyrətə gətirir, onları Əli məktəbini mütaliyə etməyə, öyrənməyə çağırır. Mövla Əlinin (ə) Malik Əştəri Misrə vali göndərərkən ona verdiyi yazılı tövsiyəsi - məktubu demək olar ki, başdan-başa dövlət idarəetmə sistemi üçün idarəedicilik toplusudur desək səhv etmərik. Məktubda ədalətli olmağı, yerli əhali ilə yalnız ədalətlə davranmağı əmr etməsi Mövla Əlinin (ə) ədalət pirinsipinin dünyada, xüsüsən də İslam aləmində bərqərar etməsinə işarədir. Kitabın "Nəfsinə qalib gəlmək" sərlöhvəli məqaləsində, imamın Bəsrə valisi Osman

ibn Huneyfə yazdığı məktubu da bütün zamanlarda aktual olduğu kimi bu gün üçün də çox səciyyəvidir. Mövla Əli (ə) xəbərdar olur ki, şəhərin varlılarından biri, Osman ibn Hüneyfi öz evinə - ziyafət məclisinə dəvət edir. Osmanın bu təklifi qəbul edib, həmin ziyafətdə iştirak etməsi Mövla Əliyə (ə) xoş gəlmir. Bu məqsədlə Osman ibn Hüneyfə bu məzmunda məktub yazır: **"Bu günlərdə Bəsrədə birinin səni ziyafətə çağırdığını, sənin də ora getdiyini, çeşid-çeşid yeməklərin xoşuna gəldiyini öyrəndim. Mən, bir qövmin yoxsullarının çağrılmadığı, hətta qovulduğu, zənginlərin dəvət edildiyi məclisə razılıq verib gedəcəyini sanmırdım. Çeynədiyin loxmaya bir bax, haram olduğuna şübhələnsən, onu ağzından at, halal olduğunu bilsən, azacıq ye. Sizin İmamınız dünyasını köhnəlmiş bir libas ilə, iki loxma çörəklə keçinməkdədir. Sizin belə etməyəcəyinizi bilirəm, amma çəkinib qeyrət edərək, təmiz və iffətli olmağınıza çalışıram, mənə yardım edin. Allaha and olsun ki, mən bu dünyamızda nə bir qızıl, nə də gümüş külçələri yığdım, nə qənimətlərdən mal mənimsədim, nə üzərimdə yırtılmış geyimimdən başqa libas aldım, nə də dünyada bir qarış topağa sahib oldum. Ancaq yaşamağıma kifayət edəcək qədər libas və yemək aldım. Nəfsimin mənə qalib gəlməsi, ləzzətli yeməyə sövq etdirməsi bir çörək belə tapmayan, doyumluq deyilən şeyə həsrət neçə-neçə yoxsullar varkən neçə mümkün ola bilər? Ətrafımda ac qarınlar, susuzluqdan yanıb qurumuş ciyərlər varkən, gecəni necə tox olaraq keçinə bilərəm?…"**

"…Ey Osman ibn Hüneyf! Mən sənin ancaq varlılar dəvət edilmiş və kasıbların dəvət edilməyərək qapı arxasında qalmaları süfrədə oturmaq dəvətini qəbul etməyinə inanmazdım".

Ümumiyyətlə məktub tamamilə Osmanın məzəmməti ilə qurtarır.

“Elmin qapısı” əsəri bu gün üçün bir daha ona görə əhəmiyyətlidir ki, bu məzmunda olan məktublar dövrün məmurlarına da ibrət dərsidir. Həmçinin, Müaviyəyə yazdığı məktublar da dövlət qanunlarının düzgün icra olunması, insanlara zülm olunmaması, haqq-ədalət prinsipinin qorunması, bir sözlə Həzrət Peyğəmbərimizin (s) gətirdiyi şəriət qanunlarına riayət olunması tövsiyə edilir. O cümlədən Möla Əlinin (ə) Kumeyl ibn Ziyadla söhbəti, gecənin qaranlığında qəlbini ona açması çox maraqlı mövzulardandır.

Əsərdə **“Mövla Əlinin (ə) qəzavətləri”** bəhsini oxuduqca heyrətlənməyə bilmirsən. Bəhsdə gedən maraqlı əhvalatlar demək olar ki, tam fiqh elminə - İslam hüququna aiddir. Mövla Əli (ə) bu elmi sözün əsl mənasında gözəl təhlil edir. Mənə qalsa müasir hüquq elminin alimləri də bu elmdən bəhrələnmələri daha məqsədəuyğundur. O, müasir hüquqşünaslara öyrədir ki, hər hansı bir qərar şablon qanunlar əsasında yox, yaradıcı təfəkkürə, hüquqşünasın özünün də istinbat elminə və şəxsi mühakiməsinə əsaslanmalıdır. Hər hansı bir məsələni təhlil edən şəxs hissə qapılmamlı, əsəbi halda hökm verməməlidir. Kitabda oxuyuruq: **“Uzun müddət borcunu ala bilməyən bir şəxs naəlac qalıb Mövla Əliyə (ə) şikayət edir. İmam cavabdehi yanına çağıraraq onunla söhbət edir. Lakin cavabdeh heç vəch ilə ona borclu olduğunu etiraf etmir. Söhbət zamanı məlum olur ki, pulu bir xurma ağacının altında çörək yeyən zaman ondan almışdır. Mövla Əli (ə) cavabdehi yanında saxlayıb zərərçəkənə deyir: “Həmin ağac yadındadırmı?”**

Bəli, ya Əli. Get o ağaca de ki, Əli səni çağırır.

Zərərçəkən gedir. Birazdan İmam cavabdehdən soruşur:

“Görəsən indiyə həmən yerə çatar?”

Cavabdeh dərhal cavab verir: “Əlbəttə çatar”.

İmam söhbəti dəyişərək zərərçəkənin gəlişini gözləyir. Bu zaman kişi içəri daxil olub deyir: "Ya Əli mən sizin sözünüzü xurma ağacına dedim, ondan isə bir səs çıxmadı".

Mövla Əli (ə) təbəssümlə buyurur: "Ağac gəldi, şəhadət də verib getdi."

Cavabdeh əsəbi halda: "İmam da yalan danışar?"

Mövla Əli (ə) buyurur: "Ağac o zaman gəldi ki, siz "əlbəttə çatar" dediniz. Əgər bu hadisə olmamışdısa, siz bu məsafəni yadda saxlamazdınız." Cavabdeh bu məntiq qarşısında aciz qalaraq imamdan üzrxahlıq edib bağışlanmasını diləyir və zərəçəkənin pulunu yerindəcə ödəyir.

Hacı Mirəzizin diqqət çəkən işlərindən biri də odur ki, kitabın VI fəslində Mövla Əli haqqında klassik ərəb şairlərinin yazdıqları şeirləri tərcümə edərək Azərbaycan dilində nəzmə çəkmiş və oxucuların təqdimatına buraxmışdır. Bunun özü də onun şair təbiətli bir ruhani olmasının bariz nümunəsidir.

Bütün bunları xatırlamaqda məqsədim, kitabın müasir hüquqşünaslar üçün də əhəmiyyətli olduğunu vurğulamaqdır. Həmçinin kitabın dördüncü fəslində **"Mövla Əli (ə) qeyri-müsəlman alimlərin gözü ilə"**, **"İmam Əli (ə) Şəhriyar poeziyasında"** və ya **"Mövla Əli (ə) klassiklərin gözü ilə"** bəhsləri günün oxucuları üçün çox əhəmiyyətlidir. Həmçinin beşinci fəsildə İmam Əliyə (ə) məxsus olan xütbələr, **"Ölkə saxlamağın əsas üsulları"**, **"Nəhcül-Bəlağə sahibi"**, **"Haqq alınmalıdır, xoşla verməzlər"** ən nəhayət **"Mövla Əli (ə) və İslamın sosial-iqtisadi prinsipləri"** başlıqlı məqalələr oxucular üçün həm dəyərli, həm də maraqlı olar.

Mən **"Elmin qapısı"** kitabının müəllifi Hacı Mirəziz Seyidzadəyə uzun illərin məhsulu olan belə bir əsəri ərsəyə gətirdiyinə görə təşəkkür edir, ona yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

HACI SABİR HƏSƏNLİ
İlahiyyat elmləri namizədi.

ELMİN QAPISINA BİR BAXIŞ

Moizələrinin birində Həzrəti Peyğəmbərimiz (s) buyurmuşdu: **«Eyyuhənnas elmi zəncirləyin».** Hamı təəccüblə bir-birinə baxaraq, görəsən elmi necə zəncirləmək olar deyə fikrə dalmışlar. Bu zaman o Həzrət buyurub: **«Yazmaqla, nəşr etməklə elmi zəncirləmək lazımdır».** Doğrudan da bu belədir. Nə qədər danışırsan, müəyyən məclislərdə söhbətlər edirsən, eşidənlərin bəziləri qəbul edir ürək qulağında saxlayır, bəziləri isə sadəcə dinləyir vəssəlam. Amma həmin söhbətləri yazıb saxladıqda, xüsusən kitab halına gətirdikdə-nəşr etdirdikdə elm aləminə, cəmiyyətə böyük xidmət etmiş olursan. O kitablar zaman-zaman insanların xidmətində olur, onların maariflənməsi üçün böyük şərait yaradır. Bütün bunlara görə elmi əsər yazanlara, gələcək nəsil üçün qiymətli töhfə qoyanlara, hər hansı bir kitab nəşr etdirənlərə təşəkkür edir, onları alqışlayıram.

«Elmin qapısı» kitabına gələndə isə böyük sevinc və fərəh hissi ilə deyə bilərəm ki, bu kitab müasirlərimiz üçün, xüsusən də gənclərimiz üçün çox qiymətli bir elmi əsərdir. **«Elmin qapısı»** kitabının müəllifinə, dostum, qardaşım Hacı Mirəziz Seyidzadə ağaya minnətdarlığımı bildirirəm, ona dünya və axirət səadəti arzulayıram. Sözün əsl mənasında belə bir sanballı elmi əsəri, ələlxüsus sənədlər əsasında, həm də tanınmış məşhur ravilərin yazdıqlarını eyni ilə xüsusi bir nizamla, gözəl tərtibatla cəmləyib ərsəyə gətirmək böyük zəhmət və səbr-dözüm tələb edir. Hacı Mirəziz məhz bütün bunlara qatlanmış, belə bir müqəddəs işi görə bilmişdir. 800 səhifəyə yaxın belə bir kitab yazmaq mən deyərdim ki həqiqətən qəhrəmanlıqdır. Ən əsası isə Hacı Mirəzizin böyük bir məsuliyyətli yükün altına girməsidir. Kitabın əsas ana xətti İmam Əlinin (ə) peyğəmbərin haqq vəsisi olması onun vilayət məsələsini sübut etməkdir. Hacı Mirəziz özünün yazdığı kimi illərlə çəkdiyi zəhmətləri ayrı-ayrı ravilərin, xüsusən də əksəriyyəti əhli-sünnə alimlərinin toplaqıqları

mütəvatir hədislərin dili ilə söyləməsi danılmaz həqiqətdir. Altı fəsildən ibarət olan bu kitab İmam Əlinin (ə) uşaqlıq, gənclik, cavanlıq, Peyğəmbərin (s) nubuvvət dövrü və Peyğəmbərdən (s) sonrakı dövrləri, həm də özünün xəlifəlik dövrünü özündə ehtiva edir. Hacı Mirəzizin istifadə etdiyi ədəbiyyatlar da İslam alimləri tərəfindən daimi mənbə kimi istifadə olunan kitablardır.

Ən əsası isə Hacı Mirəziz Seyidzadə yaxşı İslamşünas alim olduğundan məzhəb məsələlərinə ehtiyatla toxunmuş, onlara ehtiramla yanaşmışdır. Hacı Mirəziz çalışmışdır ki, əsl İslamı qorusun, onu Qurani-Kərim baxımından təbliğ eləsin. Heç şübhəsiz İslam tarixində təxribat aparanlar çox olub və onlar bu gün də var. Lakin imamlarımız, xəlifələrimiz və ümumiyyətlə din mübəlliğlərimiz həmişə çalışmışlar ki, İslamda birlik yaratsınlar, məzhəblər arası yaxınlıqlar etsinlər. Necə ki, yarada bilmişlər. Bu gün İslamın müqəddəs məkanlarında, xüsusən də Məkkədə, Mədinədə bütün məzhəblərin nümayəndələri bir yerdə namaz qılır, ibadət edir, ayrı-ayrı dini ehkamları birgə icra edirlər.

"Elmin qapısı" kitabını oxuduqca burada müxtəlif mənbəələrdən toplanan qiymətli materiallara heyran qalmaya bilmirsən. Məsələn, **"**Həzrəti Əli (ə) elm və hikmət mücəssəməsi kimi**" başlığı altında olan məqalədə** professor Z.Gülərin istinad etdiyi bəzi nüanslar çox maraqlıdır. O, hədis qaynaqlarından istifadə edərək yazır: **"Aişənin (r) yanında Həzrət Əlidən (ə) söhbət salınanda o, Həzrət Əlinin (ə) sünnəni ən yaxşı bilən şəxs olduğunu demişdir. O cümlədən, Abdullah ibn Abbas da Həzrət Əlinin (ə) sünnənin mənasını, hökm və məqsədini çox yaxşı bildiyini söyləmişdir. Bununla da, onların eyni həqiqəti vurğuladıqlarını görürük".**

Tarixi mənbələrə görə, Həzrət Əli (ə) Xəlifə Ömərin (r) Fələstin və Suriyaya səfəri zamanı Mədinədə hərbi vali kimi qalıb lazımi göstərişlərin verməsi də Əli (ə) şəxsiyyətinin İslam aləmində təsdiqi deməkdir.

Bütün bunlar onun üstünlükləri ilə yanaşı, böyük idari, siyasi və hərbi bacarığını da əks etdirir. Xeybərin fəthi əsnasında

Rəsulallah (s) ilə Həzrət Əli (ə) arasında cərəyan edən dialoq çox ibrətamizdir.

Burada yenə də professor Z.Gülər cənablarına müraciət edək. O, yazır: **"Səhl ibn Sədin dediyinə görə, Xeybər günü Peyğəmbər (s) belə buyurdu: "Sabah bu bayrağı Allahı və Rəsulunu sevən, Allah və Rəsulunun da onu sevdiyi elə bir adama verəcəyəm ki, Allah onun vasitəsilə qələbəni müyəssər edəcəkdir. Deyilən vaxt, tezdən səhabələr Peyğəmbərin (s) yanına gəldilər. Hər kəs bayrağın ona verilməsinə ümid bəsləyirdi. Nəhayət, Rəsulallah (s) bayrağı Həzrət Əliyə (ə) verdi. Həzrət Əli (ə) belə dedi: Ya Rəsulallah, Bizim kimi olana qədər onlarla döyüşümmü? Bunu eşidən Rəsulallah (s) belə buyurdu: Onların bölgəsinə enənə qədər tələsmə, narahat olma, sonra onları İslama dəvət et və vacib olan İlahi haqq və əsasları onlara xəbər ver. Allaha and olsun ki, Allahın sənin vasitənlə bir adamı hidayətə qovuşdurması sənin üçün o dəvətlərdən daha xeyirlidir".**

Daha sonra professor Zəkəriyyə Gülər Kumeyl ibn Ziyadın Mövla Əli (ə) ilə mükaliməsini qeyd etməklə Mövla Əlinin daxili aləmini açmağa çalışır. O, bununla saleh bəndə olan Əlinin dövlətidarəetmə məsələlərində siyasi baxışlarını təhlil edir: Professor yazır: "Kumeyl soruşdu: **"Əcəba, sənin haqq yolda olmağına, Təlhə və Zübeyrin də batil yolda olmalarına inansaq nə olar?"** Həzrət Əli (ə) də onun bu sözləri şüarlaşdırmaq istədiyini görüb belə cavab verir: **"Sən insanları haqq (islami ölçü) ilə tanımağa çalış, haqqı insanlarla tanıma. Haqqı tanı, bu zaman kimin haqlı olduğunu da bilərsən".**

Diqqətlə nəzər edək. Həzrət Əlinin (ə) Kumeylə verdiyi cavab bir tövsiyə kimi dünyada beynəlmiləlçilik, qardaşlıq anlayışını vurğulayan, insanların tanınmasında zəruri olan və obyektiv İslami-ölçüləri öyrədən bir sənəddir. Şübhəsiz, onun bu

birləşdirici əngin siyasəti müsəlmanlar arasında yeni bir fitnə-fəsadın qarşısını almaq üçün hər zaman və hər yerdə həyata keçirilməsi zəruri olan əhəmiyyətli bir tezisdir, desək yanılmarıq.

İnanıram ki, Hacı Mirəzizin yazdığı **«Elmin qapısı»** adlı kitabı Peyğəmbər əhli-beytinin daha yaxından tanınmasında, onların ehtiramının qorunub saxlanılmasında da yaxşı yolgöstərən olacaqdır. Mən Qafqaz Müsəlmanları İdarəsinin müftisi və qazisi olaraq İmam Əli (ə) adına yazılan bu kitaba böyük hörmətlə yanaşır, bununla da Peyğəmbər əhli-beytinə olan məhəbbətimi bir daha izhar edirəm. Ümidvaram ki, bu kitab məzhəbindən asılı olmayaraq bütün dindarlar tərəfindən seviləcəkdir.

Qoy bu kitab İslam əhlinə – mömin müsəlmanlara ən qiymətli bir hədiyyə olsun. Amin!

Qafqaz Müsəlmanları
İdarəsinin sədr müavini,
Müfti Hacı Salman Musayev

ÖN SÖZ

Bismillahirrəhmanirrəhim

Aləmləri yaradıb becərdən onlara pərvəriş verib bəsləyən qüdrət və kərəm sahibi olan Allaha həmdu sənalar olsun.

Yaratdıqlarının ən xeyirlisi və şərəflisi, peyğəmbərlərin xatəmi (üzüyün qaşı) olan Mühəmmədə (s) və onun Əhli-beytinə salavat və salam olsun. Şükürlər olsun belə bir Allaha ki, bizi ümməti-mərhumə, Əli (ə) və övlad Əlinin vilayət və məhəbbət yolçularından qərar vermişdir.

Hansı ki, Allah-Təala Əhli-beyt haqqında Qurani-Kərimdə buyurmuşdur: ***"Siz ey (Peyğəmbərin) ev əhli, Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"*** **("Əhzab" surəsi, 33-cü ayə)**

Axirəzzaman Peyğəmbərin Əhli-beytinin başçısı, elm şəhərinin qapısı, təqva dəryası, səbrin hüdudsuz ümmanı, ədalətin meyarı, qazilər-qazisi, füqəra-yetimlər atası, Həzrət Peyğəmbərin (s) damadı – kürəkəni, vəsisi, qardaşı və ən nəhayət Peyğəmbərin öz nəfsi olan birinci imamımız Əli Əbu Talib oğluna və onun pak övladlarına salavat və salam olsun.

Şiə məzhəbi və əksər əhli-sünnə alimləri tərəfindən məsum imam kimi tanınan, İlahi əmrilə Peyğəmbərin (s) bilavasitə xəlifəsi olduğuna etiqad bəslənən Əli ibn Əbu Talib (ə) haqqında bacardığımız qədər məlumat verməyə çalışacağıq.

Peyğəmbərin (s) doğma əmisi oğlu, dünya və axirət xanımı Həzrət Fatimənin ömür-gün yoldaşı Əlinin (ə) barəsində ətraflı söhbət açmaq çox çətindir. Bütün tədqiqatçılar tərəfindən **"Zatul-Əbad"** - yəni müxtəlif cəhətlər sahibi adlandırılan Mövla Əlinin (ə) şəxsiyyəti o qədər əhatəlidir ki, bir dəstə onun ədalətinə tab gətirməyib, onu kafir adlandırmış (xəvaric firqəsi), başqa bir dəstə isə onun fəzilətləri qarşısında heyran qalıb ona Allah demişlər. (Əliallahilər-ğulat firqəsi). Əlişünaslığı bir mərifət meyarı kimi təsəvvür etsək, insan zəkası bu vahidin başlanğıc və son nöqtəsi arasında öz acizliyini etiraf etmək məcburiyyətində qalır. Əlinin (ə) adının bu günə qədər yaşaması, onun ilahi bir həqiqət olduğunu açıq şəkildə isbat edir.

Mövla Əli (ə) tarixin hər hansı bir dahi şəxsiyyəti olsaydı (Sokrat, Aristotel (Ərəstun), Platon, Hegel, Marks, Kant və b.) çoxdan tarix

səhifələrindən silinmişdi. İman və insaf nümunəsi olan Əhli-sünnə alimi İbn Əbil Hədid Mötəzili **"Şərhu-Nəhcül-Bəlağə"** kitabında misli-bərabəri görünməmiş əvəzsiz bir cümlə yazmışdır: **"Nə deyim sənin şəxsiyyətin qarşısında, ya Əli? Sənin fəzilətlərini amansız düşmənlər qəlblərində yatan kin-küdurətdən, dostların isə qorxudan gizlətdilər. Bununla belə sənin fəzilətlərini sayıb qurtarmaq mümkün deyil... "**

Mövla Əli (ə) şəxsiyyətinin ən kamil tərifi qısa bir cümlədə gizlənmişdir: **"Əlini (ə) tanımaq mümkün deyil…"**

69 il minbərlərdə, namazlarda Əlini (ə) heç vəchlə sevməyən, onun kafir olduğunu dünyaya car çəkən Müaviyənin yəqin ki, ağlına belə gəlməzdi ki, vaxt gələcək beynəlxalq kitab sərgilərində bir xristian aliminin – Corc Cordanın Mövla Əli (ə) barəsində yazdığı kitab bütün əsərləri kölgədə qoyacaq: **"Əli - Bəşər Ədalətinin Fəryadı".**

"Ey zaman, var qüvvəni toplayıb o elmi ilə, o şücaəti ilə, o ədaləti ilə dünyaya bir də Əli gətirə bilərsənmi?!"

Bu kitabda həqiqəti əks etdirməyə aciz olan cümlələrlə Mövla Əlinin (ə) fəzilət dəryasından yalnız bir neçə damlanı yazmaq mümkündür. Onu da əgər Allah istəsə…

Bu yerdə Mövla Əlinin (ə) bir kəlamına diqqət edək: **"Soruşun məndən, nə qədər ki, sizin aranızdayam".** Və ya **"İstədiyiniz sualı məndən soruşun"** demək, zahirən sadə görünsə də, bu cümləni deməyə dünya tarixində heç kimin cəsarəti çatmamışdır.

Bu hədis **"Müsnəd"**, **"İstiab"**, **"Yənabiül-Məvəddə"**, **"Fəraid"**, **"Məvəddətül-Qurba"**, **"Mənaqib"**, **"Tarixül-xuləfa"**, **"Fəthül-Bari"**, **"Təfirül-İtqan"** və onlarla digər Əhli-sünnə kitablarında nəql olunmuşdur.

İbn Əbdül-Birr, Əbdül-Abbas Şafei, Xətib Bağdadi kimi alimlər çəkinmədən demişlər: **"Bu cümləni Əlidən (ə) özgə hər kəs demişsə, yalançı olduğu sübut olunmuşdur".**

Bu mövzunu İbn Əbil Hədid Mötəzilinin bir cümləsi ilə sona yetiririk: **"Çox təəccüblü və heyrətamizdir, bu kişi ömrünün sonunadək bir dəfə də olsun bilmirəm demədi… yəqin ki, bu bir möcüzədir. Axı belə şeylər bəşər qüdrətindən xaricdir…!"**

Professor Zəkəriyyə Gülər isə Əli (ə) haqqında elmi məqalələrinin birində yazır: **"Həzrət Peyğəmbər (s) Mövla Əlini (ə) Yəmənə hakim təyin etmək istəyərkən, o böyük şəxsiyyət özünün gənc olduğunu xatırladaraq, hal-hazırki bilik və təcrübəsinin həmin vəzifə üçün yetərli olmadığını bildirir. Buna görə də Rəsuli-Əkrəm (s) əlini onun sinəsinə qoyaraq təskinlik vermiş və "Allahım onun qəlbini doğru ilə ilhama gətir, dilinə də həqiqəti söyləməyi lütf et" - deyə buyuraraq dua etmişdir. Həmçinin təyin olunduğu yerdə heç bir tərəddüd etmədən necə hökm verəcəyini də ona təlim etmişdi".**

Əmirəl-möminin! İmaməl-Müttəqin olan Əli (ə) heç şübhəsiz məsumdur. Biz günahkarlar - məsum olmayanlar, məsum haqqında nə yaza bilərik, onu olduğu kimi necə vəsf edərik? Məgər şam işığı günəşin nuru ilə rəqabət edə bilərmi? Əlbəttə, yox!..

Allaha sığınaraq, elm qapısı olan Mövla Əli (ə) şəxsiyyətindən dönə-dönə üzr istəyərək, belə bir mövzuya müraciət etməyimin nə dərəcədə böyük bir məsuliyyət olduğunu dərk edirəm. Fəqət, cürət tapıb belə bir hüdudsuz ümmanlar ətrafında dolanmağımın əsas həvəs və maraq oyadan amili özümün də o zümrədən - seyyid-övladi-peyğəmbər olmağımdan irəli gəlir.

Gələcəkdə bu kitabla bağlı hər hansı bir irad və nöqsan olarsa, onları dinləməyə və obyektiv olanını qəbul etməyə hazıram. Qoy Qadir Allah ürəyimi şübhələrdən, dilimi yalan və böhtanlardan Özü qorusun. Və bu kitabın ərsəyə gəlməsində Öz qeyb xəzinəsinin açarını - elm və hikmətini bizdən əsirgəməsin. Amin!

Mövla Əli (ə) haqqında söhbətə keçmədən öncə, Əhli-sünnə məzhəb rəhbəri İmam Şafeinin dilindən iki beyt şeri sizin nəzərinizə çatdırmaq istərdim:

إلام إلام و حتي متي اعاتب في حب هذا الفتي
وهل زوجت فاطم غيره وفي غيره هل أتي(هل أتي)

Söylə haçanadək bu cavanın mən,
Danlaq görəcəyəm məhəbbətindən.
Ondan qeyri kimə yar olub Zəhra?
Ondan qeyri kimə gəldi «Həl, əta».

İslam aləmilə tanışlıqdan sonra Peyğəmbər (s) Əhl-beytinin acınacaqlı həyatı həmişə məni düşündürmüş, narahat etmişdir. Məclis-

lərdə ruhanilərin, İslam alimlərinin Əhl-beytin məzlumluğu haqqında söhbətləri və nəhayət mərsiyə-rövzə oxumaları camaatın hönkürtü ilə ağlamaları məni onların haqqında tarixin dərinliklərinə varmağa sövq etdi. Əhli-beyt haqqında mümkün qədər material toplayıb müasir oxucuların ixtiyarına vermək qərarına gəldim. Budur, artıq ömrümün əlli yaşında (kitabın yazılmasna 2000-ci ildə başlanılıb və o zaman mənim 50 yaşım var idi – müəl. M.S.) daxilimdə olan narahatçılığı sizinlə bölüşmək məcburiyyətindəyəm. Özümə sual verirəm, kimdir Əli (ə)? Onu tanıyıb təhlil etmək mümkünmü? Aciz və heyran qalıram Mövla Əli (ə) şəxsiyyəti qarşısında, sərgərdan dolaşıram İmam Əli (ə) səhrasında, Həzrət Əli (ə) aləmində zehnim və fikrim yorularaq fəqət bu sözü, Həzrət Peyğəmbərin (s) gövhərbar kəlamını təkrar edirəm **"Əli bəşərdir, lakin necə bəşər?.."**

Mövla Əlinin (ə) həyat tarixçəsinin görünən hissələrini varaqlayıram, fikirləşirəm, görəsən, onun görünməyən tərəfləri necə bir aləmdir? Kaş dünya vəfa qılaydı, Əli (ə) şəxsiyyəti öz tamlığı ilə cəmiyyət üçün açılaydı. Kaş müharibələrdə - vuruş meydanlarında keçən Əli (ə) ömrü İslam aləminin elm, maariflənmə və iqtisadiyyatına sərf olunaydı. Təəssüflər olsun ki, ömrünün ən fəal çağlarını müharibələrə, çəkişmələrə sərf etdi Mövla Əli (ə). Onun Səhabəsi Kumeyl ibn Ziyada dediyi sözlər kövrəldici və cansıxıcı bir məqamdır. Beləliklə, Əlini sinəsinə işarə edərək buyurub: **"Mənim bu sinəm, gizli elm xəzinəsidir. Bu xəzinəyə dünyada bir açar tapılmadı. Bunu elə belə də torpaqda dəfn edəcəyəm".**

Bütün bunlara baxmayaraq, Mövla Əli (ə) harada olursa-olsun fəqət İslama - Qurani-Kərimin və Həzrət Peyğəmbərin (s) göstərişlərinə xidmət etdi.

Belə bir keşməkeşli dünyada - mürəkkəbliyin içərisində Mövla Əli (ə) haqq və ədaləti qoruya bildi. Təsadüfi deyil ki, Movla Əlinin (ə) haqqında alman şərqşünas alimi Corc Cordan "Əli-Bəşər Ədalətinin Fəryadı" əsərində ürək ağrısı ilə yazmışdır: **"Əli (ə) ədalətin şiddət dərəcəsinə görə öldürüldü".**

Yəni, əgər Əli (ə) zəmanəsi ilə barışsaydı, öldürülməzdi. Əlbəttə, Mövla Əli (ə) şəxsiyyətini təhlil və tədqiq etmək onun haqqında əsər yazmaq çox da asan iş deyil. Bunun üçün ən azı adamda cürət olmalıdır. Bəlkə də mənim seyid-övladi-peyğəmbər olmağım mənə bu cürəti verdi ki, mən babam haqqında tədqiqatlarımı - eyni həqiqətləri

vərəqlərə köçürüm. Ümidvaram ki, Mövla Əlinin (ə) səxavət dəryasından mənə də pay düşə, inşaallah. Həm bağışlanam, həm də dünya və axirət səadətinə nail olam. Çünki Həzrət Peyğəmbərimiz (s) buyurub: **"Əlinin məhəbbəti ibadətdir, heç bir günah ona ziyan verə bilməz".** Həmçinin, **"Əliyə ədavət bəsləmək günahdır, heç bir yaxşılıq ona mənfəət verməz".** (Əhməd Xərəzmi Ənəs bin Malikdən. Yənabiül-Məvəddə. 42-ci bab, 1-ci cild səh 373-375).

Və ya **"Əlini sevmək cəhənnəm odundan bəraətdir"**. **"Əlini sevmək günahı yandırar, necə ki, od odunu yandırır".** (Deyləmi, Yənabiul – Məvəddə fi zikri fəzaili Əli. səh. 211)

Əli (ə) yaxşı ər, Əli (ə) gözəl ata, Əli (ə) igid və qəhrəman sərkərdə, Əli (ə) xəlifə, Əli (ə) mücahid, Əli (ə) şəhid...

Bir sözlə, Mövla Əli (ə) bütün müsbət sifətlərin fövqündə və bütün mənfi sifətlərdən uzaq olan bir şəxsiyyət idi.

Mövla Əli (ə) mömindir desək, azdır. Əli (ə) möminlərin ağasıdır. Peyğəmbər (s) öz bəndəçiliyi ilə fəxr etdiyi kimi, Əli (ə) də Allaha qul olmağını təsdiqləmək istəyində olaraq o mənsəbə nail olmağı ilə fəxr edir. Fəxr edir ki, Allah-Təala onu qulluğuna qəbul etmişdir.

Bir gün Həzrət Peyğəmbər (s) camaat arasında Əlinin (ə) müsbət keyfiyyətlərini aşkar etmək üçün buyurdu: **"Hər kəs iki rəkət namaz qılsa və o namazda dünya fikrlərini unuda bilsə, ona bir dəvə bağışlayacağam. Mövla Əli (ə) mən qılaram deyib ayağa qalxdı və iki rəkət namaz qıldı, sonra buyurdu, ya Rəsulallah vəd etdiyin dəvəni ver. Peyğəmbər buyurdu: "Əmioğlu, ya Əli! Sənin də namazın fikirsiz ötmədi. Fikr etdin ki, görəsən həmin dəvə kök olacaq, ya arıq. Amma ya Əli, sənin o fikrin də ibadətdir. Çünki sən o dəvəni kəsib fəqirlərə ehsan edəcəkdin, fikirləşdin ki, kök olsa, daha yaxşı olar…"**

Məhz Əli (ə) namaz qılanda İlahi razılığı ilə tamlaşırdı. Hansı ki, namaz üstə onun ayağından sınmış oxun qalığını çıxartdılar, O, narahat belə olmadı. Namaz üstə mübarək başına qılınc vuruldu, əks əməl göstərmədi. Əli (ə) idi başı yaralı halda üzünü günəşə tutub buyuran: **"Ey günəş, səni Allaha and verirəm, qiyamət günü şəhadət verəsən ki, Həzrət Rəsuldan namaz öyrəndiyim gündən bu günə kimi, sən məni namaz vaxtı yuxulu görməmisən, mən həmişə səni oyaq qarşılamışam…"**

Bəli, bu sözü deyən və bu iddianı edən məhz Mövla Əli (ə) kimi mömin ola bilərdi…

Hələ gənclik illərimdən həmişə fikirləşirdim ki, görəsən, müsəlmanların arasında bu ayrı-seçkilik nə vaxta qədər davam edəcək. Nə vaxta qədər sünni və şiə məsələləri İslamı zəiflədəcək, qan və din qardaşlar bir-birinə düşmən kəsiləcək.

1968-ci ildə Buxara **"Mir-Ərəb"** mədrəsəsində oxuyanda şiə olduğumuzu az qala danırdıq. Şiələri nəinki müsəlman kimi tanımırdılar, hətta kafir adlandırırdılar. Gecələr mədrəsənin damında oturub ulduzları seyr edə-edə fikirləşir, öz-özümə danışırdım: **"Məgər Peyğəmbərin (s) qızının ərini, istəkli nəvələrinin atasını - Əlini (ə) sevmək günahdırmı? Peyğəmbərin (ə) istəkli qızı Fatimənin balalarını sevmək nəyə görə insanı kafir edər? Görəsən, bu düşmənçilik toxumu haradan cücərib? Məgər bütün bu kimi suallara cavab tapmaq elm əhlinə nəsib olmayacaqmı? Bəs görəsən, Qurani-Kərimin "Soruşun elm (zikr) əhlindən, o şeyləri ki, bilmirsiniz" ayəsi nə vaxt aydın olar".**

Fiqh dərsi idi. Səhih Buxarinin hədislərindən oxuyurduq. **"Kitab Fəzail Əshab Nəbiy (ə) 9-cu bab Mənaqibi Əli ibn Əbu Talib-Qurəyşiyyil-Haşimiyyi Əbil-Həsəni rəziyyəllahu ənhu (4-cü cild səh-187)"** cümlələrini oxuyanda gözlərim yaşardı. Orada Əli (ə) haqqında 3701-3707 saylı yeddi hədis, Həsən və Hüseyn (ə) haqqında 3746-3753 saylı səkkiz hədis geniş şəkildə verilmişdi. Tənəffüs zamanı müəllimdən soruşdum, madam ki, Əhli-beyt haqqında olan bu fəzilət və mənaqibləri sizin öz mühəddislərinizin yazır, bəs nə səbəbə bunları sevənləri (şiələri) kafir adlandırırsınız? Nə üçün müsəlmanlar birləşə bilmir? Müəllim köks ötürüb dedi: **"Narahat olma Əziz (onlar mənə qısaca Əziz deyərdilər), zaman gələr, insanlar İslam maarifi ilə cəhalətə qalib gələrlər və bu kimi narahatçılıqlar aradan gedər".**

Bəli, artıq 30 ildən çoxdur ki, mənim daxilimdəki təlatümlər davam edir. Bu gün alimlər kosmos aləmini fəth edir, kompüter dövrünü yaşayır, lakin hələ də müsəlman yerində sayır. Biri sünni – digəri şiə olaraq qalır. Hələ bunlar az imiş kimi, yeni-yeni məzhəblər və təriqətlər artmaqda davam edir…

Bu gün biz din rəhbərləri arasında ayrı-seçkilik salmaqla biri-digərimizə qələbə çala bilmərik, əksinə, özümüzü zəiflədərək sıradan çıxararıq.

Bu gün biz **"Əli şiələrin imamıdır"** deməklə İslama zərbə vurmuş olarıq. Mövla Əli (ə) İslam rəhbəri, müsəlmanların imamı, hamımızın yol göstərəni və nicat verənidir…

Necə ki, ərəb klassiklərindən biri Bules Səlamə şerində buyurub:

بولس سلامه

جلجل الحق في المسيحي حتي عد من فرط حبه علويا
أنا من يعشق البطولة والإلها م و العدل والخلاق الرضيّا
فإذا لم يكن عليّ نبيّا فلقد كان خلقه نبويّا
أنت ربّ العالمين إلهي فأنلهم حنانك الأبويّا
و أنلني ثواب سطّرت كفّي فهاج الدموع في مقليّا
سفر خير الأنام من بعد طه ما رأي الكون مثله آدميّا
يا سماء اشهدي و يا أرض قرّي واخشعي إنّني ذكرت عليّا

Bules Səlamə

Haqq Məsihidə etdi təcəlla,
İfratda ələvi sayıldı hətta.
Aşiqəm ilhama və ədalətə,
Hər gözəl əxlaqa, hər şücaətə.
Baxmayaraq Əli deyil peyğəmbər,
Vardır xulqu onun Peyğəmbər qədər.
Atanın övlada olan eşqi tək,
İlahi, onların qayğısını çək.
Mənə səvabını ver hər sözümün,
Gözümdə quruyub yaşı gözümün.
Sən «Ta Ha»dan sonra oldun mötəbər,
Ki, onun kimisin görməyib bəşər.
Şahid ol ey səma, təzim et ey yer,
Əlini yad etdim, sən də salam ver.

Sonralar Səhih Müslimdə **"Fəzailis-Səhabə"**də **"Bab min fəzaili Əli ibn Əbu Talib, rəziyəllahu ənhu"** 6217-6229 sayda on üç hədis, Həsən (ə) və Hüseyn (ə) və Əhl-Beyt haqqında 6256-6261

sayda altı mötəbər hədislər bəyan etmişdir. Hətta ayəyi-təthirin kimlərin haqqında nazil olmasını səhabəyi-kübar vasitəsilə bəyan etmiş, hədisin özünü isə Aişə ümmül-möminin dilindən rəvayət edilərək buyurulmuşdur: **"Həzrət Peyğəmbər səhər-səhər evdən xaric oldu və çiynində qara yundan olan əba var idi. Həsən ibn Əli gəldi, Həzrət onu çağırıb əbanın altına saldı. Sonra Hüseyn gəldi, Həzrət onu da əbasının altına saldı. Sonra Fatimə (ə) gəldi, Həzrət o xanımı da əbasının altına saldı. Bir azdan Əli (ə) gəldi, Peyğəmbər onu da çağırıb əbasının altına saldı və Təthir ayəsini oxudu".** (**"əl-Əhzab" surəsi, 33-cü ayə, Hədis № 6261, səh. 1104)**

Həmçinin Cameit-Tirmizidə **"Bab Əliyyibni Əbu Talib, rəziyyəllahu ənhu".** (3712-3737 və ya 3796-3820) saylı hədislərdə Əli (ə) haqqında geniş məlumatlar verilmişdir.

Həmin hədislərin, bəzilərində hətta Həzrət Peyğəmbər (s) qəzəblə üç dəfə təkrarən buyurmuşdur: **"Nə istəyirsiniz Əlidən: - həqiqətdə Əli məndəndir və mən də Əlidənəm. Və O, məndən sonra bütün möminlərin Vəlisidir".**

Başqa bir yerdə Həzrət buyurmuşdur: **"Hər kəs Əli (ə) haqqında qəsdən yalan danışsa, onun oturacağı od olacaq".** Və ya **"Əlini münafiq sevməz, mömin də düşmən tutmaz".**

Habelə **"Cücə kabab"** və ya **"Quş"** hədisi ki, Ənəs ibn Malikdən rəvayətdir ki, "Peyğəmbər (s) dua edərək buyurdu: **"Hər kəs cücəni onunla yesə, həmin şəxs Allah yaratdıqlarının ən yaxşısıdır".** Və ya: **"Mən hikmət şəhəriyəm, Əli onun qapısıdır"** hədisi bütün əhli-sünnə alimlərin dilindən söylənilən hədislərdir.

Bu yaxınlarda Şeyx Saleh bin Əbdül-Əziz ibn Mühəmməd ibn İbrahim Aliş-Şeyxin **"Kütübüs-Sittə"** adlı əsərinin yeni nəşri əlimə düşdü. Təkrarən əsəri vərəqlədim. Mövla Əli (ə) və övladları haqda olan hədisləri dönə-dönə mütaliə edrək qeydlərimi apardım.

Habelə, **"Yənabiül-məvəddəh"** kitabından bəhrələnərək məşhur hədis alimlərinin mötəbər ravilərdən gətirdikləri Əhli-beyt haqqındakı hədislərdən yerli-yerində istifadə etdim. Onlardan da bir neçəsini oxucuların diqqətinə çatdırıram.

"Əl-babus-sadisu əşər fi bəyani Əli (ə) Qəsimun-nari vəlcənnəh"

İbnul-Məğaziluş-Şafii ibn Məsuddən rəvayət edərək deyir: "Allahın Rəsulu buyurdu: **"Ey Əli, həqiqətdə sən Cənnət və Cəhənnəmin qismət edənisən (bölgüsünü aparansan). Sən Cənnət qapılarını açıb istədiyin qədər dostlarını ora daxil edə bilərsən".**

Bu hədislə əlaqədar İmam Şafeinin dediyi bir şeirə nəzər salaq:

الشّافعي

عليّ حبه جنّة قسيم النّا رو الجنة
وصيّ المصطفي حقّا إمام الانس والجنة

ديوان الشافعى:68-83

Şafei

Əli məhəbbəti qalxandır həmən,
Odur Cənnət, cəhənnəm qismət edən.
Haqq vəsidir Mustafaya şübhə yox,
İnsu cinnə imam – rəhbərlik edən.

Yenə İbnul-Məğazili Səlman-Farsidən rəvayət edərək deyir: **"Rəsulullah buyurdu: "Birinci şəxs ki, hövz-kövsərdə mənə yetişər, İslamda sibqət edən (qabaqcıl olan) Əliyyibni Əbu Talib olacaq".**

Söləbi və Əbu Nəimil-Hafiz sənədlə ibn Abbasdan rəvayət edərək deyir: **"Həzrət Peyğəmbər (s) Məkkədən xaric olan gecə Əli (ə) onun yatağında yatmışdı. Bu ayəyi-şərifə Əli (ə) haqqında nazil oldu. «İnsanlardan eləsi vardır ki, Allah razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır".**

Qeyd: Heydər - şir kimi cəsur şəxsə deyərlər. Məhz Əli (ə) vuruş meydanında Aslana dönərdi. Lakin haqq-ədalət yolunda həlim və yumşaq idi. Necə ki, Allahın Rəsulu buyurmuşdur: **"Əli haqq ilədir və haqq da Əli ilədir".**

Burada Mövla Əli (ə) ilə bağlı gözəl bir xatirə yadıma düşdü: **"Savaşların birində düşmən ordusu ilə üzbəüz düşərgə salın-**

mışdı. Danışıqlar gedirdi. Əli (ə) həmişə olduğu kimi, Peyğəmbərin (s) buyurduqlarına əməl edir, düşmənlə danışıqsız vuruşmaq istəmirdi. Çalışırdı ki, sülh yolu ilə məsələləri həll etsin. Uzun sürən danışıqlar heç bir nəticə vermədi. Nəhayət vuruş əmri verildi. Bu zaman əsgərlər qəribə bir mənzərənin şahidi oldular. Mövla Əlinin (ə) çadırını sökən zaman çadırın üstündəki yuvada iki göyərçinin yumurta üstündə kürt oturduğunu gördülər. Bu vəziyyəti Əliyə (ə) xəbər verdilər. İmam sərəncam verdi ki, göyərçinlərin balaları pərvaz edib uçana qədər çadır sökülməməli, iki əsgər onu mühafizə etməlidir... ”

Bu xəbər tez bir zamanda düşmən ordusunun sərkərdəsinə yetişir. Düşmən sərkərdəsi Əli (ə) helmi-siyasəti qarşısında dəhşətə gəlir. Sərkərdə **“Görün mən kim ilə vuruşuram. Bu adam iki göyərçinin balasız qalmasına razılaşmır”**, - deyə öz-özünə fikirləşir...

Dərhal Mövla Əliyə (ə) onu qəbul etməsi üçün xəbər göndərir. Mövla Əli (ə) bu xəbəri müsbət qarşılayır və onu qəbul edir. Həmin sərkərdə İslam dininin insanpərvərliyini, onun necə də ictimai, mütərəqqi bir din olduğunu danılmaz həqiqət kimi dərk edərək ordusu ilə birgə İslamı qəbul edir.

Bəli, Əmirəlmöminin Əli ibn Əbu Talib xilafətində belə incə mətləblər çox olmuşdur. Məhz Əli (ə) öz elmi və helminin gücünə İslamı yaşatmış, lazım gələndə, canını da əsirgəməmişdir.

Təsadüfi deyil ki, Həzrət Peyğəmbər (s) buyurmuşdur: **“Mən elmin şəhəriyəm, Əli onun qapısıdır”** və ya **“Mən hikmət eviyəm, Əli onun qapısıdır”.** (Tirmizi 5-ci cild, səh-301)

Hər iki hədis Əlinin (ə) şərəf və fəzilətinə dəlalət edir.

Heç şübhəsiz ki, Mövla Əli (ə) bütün gözəlliklərin fövqündə duran elm və hikmət sahibidir. Məhz bu kitabın yazılmasına yuxarıda göstərilmiş hədisi-şərif səbəb olmuş və Mövla Əlinin (ə) kimliyini aşkar etmək üçün ömrümü bu müqəddəs işə sərf etmişəm. Nə qədər müvəffəq olmuşamsa əhli-xübrə alimləri qiymət verərlər...

Allah daha gözəl bilir.

I FƏSİL

ƏHLİ-BEYT HAQQINDA BİR NEÇƏ SÖZ

Həzrət Peyğəmbər (s) Əhli-beyt haqqında buyurmuşdur: **"Onlardan irəliyə keçməyin, yoxsa həlak olarsınız, onlara qoşulmaqdan çəkinməyin, yoxsa məhv olarsınız, onlara bir şey öyrətməyin, çünki onlar sizdən daha alimdirlər".**

Bütün bunlara baxmayaraq siyasət öz işini görməkdə idi. Bizə məlumdur ki, İslamın əvvəlində siyasətin nə tələbatı var idisə onu da etdilər.

Bu bir danılmaz həqiqətdir ki, keçmişdəki pak adamlar və onlardan sonra gələnlər – yəni, müsəlmanların yarısını təşkil edən Ali-Muhəmməd (s) şiələri – Əhli-Beyt imamlarının məzhəbinə, Rəsulullahın (s) Səqələyninə (Quran və Əhli-Beyt) həmişə sadiq qalmışlar və bu yoldan azacıq da olsa belə, dönməmişlər?! Onlar Əli (ə) və Fatimə (ə) zamanından, ərbəə məzhəbi (dörd məzhəb) imamlarının və hətta onların atalarının da heç birinin olmadığı zamandan indiyədək bu yol ilə getmişlər. Bu, yəqin ki, bizim üçün heç də gizli deyil.

Bundan əlavə müsəlmanlar əvvəlki üç əsrdə bu məzhəblərin heç birisinə inanmırdılar. Bu məzhəblər hara və birinci, ikinci və üçüncü əsrlər hara. Bunlar ən yaxşı əsrlər sayılır. Bütün bunlar ona görədir ki, Əşəri 270-ci hicri ilində anadan olmuş və təqribən 335-ci ildə dünyadan getmişdir.

Əhməd Hənbəl 134-cü ildə anadan olmuş, 241-ci ildə vəfat etmişdir. Şafei 150-ci ildə anadan olmuş, 204-cü ildə vəfat etmişdir. Malik 95-ci il dünyaya gəlmiş və 179-cu il dünyanı tərk etmişdir. Əbu-Hənifə 80-ci ildə doğulmuş və 105-ci ildə vəfat etmişdir.

Amma gün kimi aydındır ki, şiələr İslamın əvvəlindən «Əhli-Beyt» məzhəbinə inanmış və onların göstərişlərinə əməl etmişlər. Bu da məlumdur ki, ev əhli evdə olan hər şeyi daha yaxşı bilər. Bu mənada Peyğəmbər (s) Əhli-Beyti ona daha yaxın olduğundan, onların söylədikləri hədislər daha etibarlıdır.

Belə olan halda Allahın Kitabı ilə eyni sırada və eyni qiymətdə olan şəxslərdən – Peyğəmbərin (s) qiymətli canişin və ardıcıllarından, onun **"Elm xəzinəsi"**, **"Nicat gəmisi"**, **"Aman"** və **"Hittə qapısı"**ndan niyə üz döndərməlidirlər?

İmam Zeynul-Abidinin (ə) bu barədə dedikləri: **"Əmirəl-möminin (ə) buyurmuşdur: "Ey camaat, həqiqəti peyğəmbərlərin sonuncusundan öyrənin ki: "Bizdən hər kəs ölsə, həqiqətdə ölməmişdir, bizdən kim köhnəlmişsə, həqiqətdə köhnəlməmişdir". Belə ki, bilmədiyiniz şeyi deməyin, çünki həqiqətlərin çoxu sizin inkar etdiyiniz şeylərdir və əleyhinə sübutunuz olmayan şəxsdən üzrxahlıq edin ki, mən həmin şəxsəm, məgər mən sizin aranızda "Siqli-Əkbər"ə Qurani-Kərimə əməl etmədimmi?"**

Yenə o Həzrət buyurur: **"Nəzəriniz Peyğəmbərinizin Əhli-Beytinə tərəf olsun, onların getdiyi yol ilə gedin, addımlarınızı onların ləpirlərinə qoyun. Onlar sizi hidayət yolundan kənara çıxarmazlar və zəlillik mənzilinə sövq etməzlər. Sükut etsələr, siz də edin, qiyam etsələr, siz də edin. Onlardan qabaqda getməyin ki, yolu itirərsiniz və onlardan geridə qalmayın ki, həlak olarsınız".**

Yenə İmam sözünə davam edərək buyurur: **"Biz Peyğəmbər elminin şüarı, səhabələri, xəzinələri və qapılarıyıq. Evin də ki, yalnız qapısından daxil olarlar. Qapısından daxil olmayan şəxsə oğru deyirlər".**

O Həzrətin başqa bir sözü: **"Biz nübuvvət ağacı, peyğəmbərlik dayağı, mələklərin gediş-gəliş yeri, bilik mədənləri, hikmət çeşməsiyik, dostlarımızı rəhmət gözləyir, düşmənlərimizi isə İlahi cəza".**

Yenə imam buyurur: **"Haradadır o kəslər ki, yalandan və zalımcasına özlərini "elmdə möhkəm olan" xəyal edirdilər? Görsünlər ki, Allah bizə necə uca məqam bəxş etdi, onları isə xar və zəlil etdi, bizə rəhmət verdi, onlara isə yox. Bizim tərəfimizdən hidayət hər yana yayılır və idraksızlar işıq tapırlar. İmamlar və rəhbərlər Qüreyşdəndirlər. Onların bu nəsildən olan vücudlarının ağacı "Haşim" budağından əkilmişdir. İmamət başqalarına**

layiq deyil, rəhbər və yol göstərənlər onlardan savayı başqası ola bilməz ". Sonra imamların düşmənləri haqqında sözə belə davam edir: **"Onlar, bu dünyada yaşamağı seçdilər. Axirətdən əl çəkdilər, saf və içməli suyu istəmədilər, qoxumuş və çirkli suyu içdilər".**

Cənnət cavanlarının seyyidi, Peyğəmbərin (s) nəvəsi İmam Həsən (ə) öz xütbəsində buyurur: **"Bizim barəmizdə Allahdan qorxun, çünki biz sizin əmiriniz və başçılarınızıq".**

Mövla Əlinin (ə) fəzilətlərinə aid 10-dan çox doğru **nəss** ki, o Həzrətdən savayı heç kimdə olmamışdır;

Bu barədə İmam Əhməd **"Müsnəd"**in birinci hissəsində, İmam Nisai **"Xəsaisül-Ələviyyə"**də, Hakim **"Müstədrək"**in 3-cü hissəsində, Zəhəbi öz **"Təlxis"**ində onun doğru olmasına etiraf etmişlər. Bunlardan əlavə, doğru olmasında hamı eyni fikirdə olan bir vasitə ilə **"Sünən"** yazıçıları onu Əmr ibn Meymundan söyləmişlər. O deyir: **"İbn Abbasın yanında oturmuşdum, doqquz dəstə onun yanına gəldi. Dedilər: "Ey İbn Abbas, ya bizimlə gəl, ya da ətrafını xəlvət et ki, sənə sözümüz var".**

İbn Abbas dedi: **"Sizinlə gəlirəm! İbn Meymun deyir: İbn Abbas o gün hələ sağlam idi, görmək qabiliyyətini itirməmişdi. Onlar kənara çəkildilər və söhbətə başladılar. Biz nə dediklərini bilmədik. İbn Abbas paltarını silkələyə-silkələyə gəldi: "Tfu! Elə adamın dalınca pis danışırlar ki, başqalarında olmayan on fəzilətə malikdir. Elə adamın dalınca danışırlar ki, Peyğəmbər (s) onun haqqında demişdir: "O kəsi döyüşə göndərəcəyəm ki, Allah heç vaxt onu zəlil və rüsvay etməz, o, Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər". Həzrət buyurdu: "Əli haradadır? Əli gəldi, gözü ağrıyırdı. Həzrət mübarək ağzının suyunu onun gözünə sürtdü, bayrağı üç dəfə yellətdikdən sonra onu Əliyə verdi. Əli getdi, qələbə çaldı. Mərhəb Xeybəri öldürdü və Həyyin qızı Səfiyyəni əsir tutandan sonra qayıtdı".**

İbn Abbas dedi: **"Peyğəmbər bir nəfəri "Tövbə" surəsini məkkəlilərə oxumaq üçün göndərdi, lakin Əlini onun ardınca**

yolladı ki, surəni ondan alsın və buyurdu: "Bu surəni elə adam aparmalıdır ki, o, məndən olsun və mən ondan".

İbn Abbas dedi: **"Peyğəmbər əbasını Əli, Fatimə, Həsən, Hüseynin (ə) üstünə salıb dedi: Allah iradə etmişdir ki, pisliyi siz Əhli-beytdən silsin və sizi pak-pakizə etsin".**

İbn Abbas dedi: **"Əli öz canını Allah xatirinə təhlükə qarşısında qoydu və dedi: "Peyğəmbər (s) Təbuk döyüşünə yollandı, camaat da onunla birlikdə Mədinədən xaric oldular. Əli dedi: "Mən də sizinlə gəlirəm". Buyurdu: "Yox". Əli ağladı. Peyğəmbər (s) ona buyurdu: "Razı deyilsənmi sənin mənə olan nisbətin Harunun Musaya (ə) olan nisbəti kimi olsun? Bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur. Yalnız sən mənim xəlifəm və canişinim olmağa layiqsən".**

Bu hədisdə olan qəti və aydın dəlillər heç kəsə gizli deyil. Bu dəlillərdən çox yaxşı aydın olur ki, Mövla Əli (ə) Peyğəmbərin (s) vəliəhdi və ondan sonra xəlifəsidir. Rəhmətlik məşhur şair Kümeytin dediyi kimi: **"Nə yaxşı vəlidir, o, təqva mərkəzi və ən yaxşı ədəb öyrədəndir".**

Peyğəmbərin (s) pak dilindən çıxan **"mənzilət"** hədisi Ümmi-Səlimin söylədiklərindən: Ümmi-Səlim Məlhan ibn Ənsarinin qızı və Həram ibn Məlahın bacısı idi. Atası və qardaşı Peyğəmbərin (s) gözü önündə şəhid olmuşdu. O, fəzilətli və ağıllı qadın idi. Cahiliyyə vaxtı, Malik ibn Nəzri ilə evlənmişdilər. Lakin əri İslamı qəbul etməkdən imtina etdiyi üçün ondan ayrılmışdı. Ümmi-Səlim 10 yaşlı oğluna əmr etdi ki, Peyğəmbərin (s) xadimi olsun. İkinci əri Əbu-Təlhə Ənsari ona elçi göndərən vaxt hələ kafir idi. Ümmi-Səlim onunla evlənməzdən əvvəl ona İslamı qəbul etməsini bildirdi. O da qəbul etdi. Bu izdivacdan dünyaya bir oğlan uşağı gəlsə də o doğulduğu gün vəfat etdi. Əbu-Təlhə bu hadisəni Peyğəmbərə (s) nəql etdi. Allahın Rəsulu buyurdu: **"Bu axşamınız mübarək olsun"**. Həmin gecə Ümmi-Səlim, Abdullah ibn Əbi-Təlhəyə hamilə oldu. Ümmi Səlim Peyğəmbərlə (s) birlikdə döyüşə gedərdi. O İslam yolunda çoxlu bəla və çətinliklərə dözmüşdü. Ondan başqa elə bir qadın olmayıb ki, Peyğəmbər (s) onun evinə getsin və ona hədiyyə aparsın. O, Peyğəmbərin (s) pak Əhli-Beytinin məqamından agah idi və onların hüquqlarını yaxşı bilirdi. Bir gün Peyğəmbər (s) ona buyurdu: **"Ey**

Ümmi-Səlim! Əlinin əti mənim ətimdən, qanı mənim qanımdandır. Onun mənimlə nisbəti Harunun Musaya olan nisbəti kimidir".

Buna bənzər hədis Həmzənin qızının əhvalatıdır. Belə ki, Əli, Cəfər və Zeyd arasında onun haqqında söhbət gedən zaman Peyğəmbər (s) buyurdu: **"Ey Əli, sən mənim üçün Harun Musa üçün olan kimisən…"**

Yenə bir gün Əbu-Bəkr (r), Ömər (r) və Əbu-Übeydə Cərrah Peyğəmbərin (s) yanında idilər. O həzrət Əliyə (ə) söykənərək əlini onun çiyninə qoydu. Sonra buyurdu: **"Ey Əli, sən möminlərdən ilk iman gətirənsən və İslamı qəbul edən ilk şəxsən. Sən mənim üçün Harun Musa üçün olan kimisən".**

Məkkədə təşkil olunmuş **"ilk qardaşlıq peymanı"**ndakı hədislər də elə məhz bu mövzudadır. Bəli, Məkkədə hicrətdən əvvəl Peyğəmbər (s), mühacirlər arasında qardaşlıq bərqərar etdi, qardaşlıq peymanı bağladı və bu mətləbi buyurdu.

Mühacirətdən beş ay sonra Mədinədə **"Qardaşlıq əqdi və ikinci qardaşlıq peymanı"** keçirildi, Peyğəmbər (s) mühacir və ənsarlar arasında qardaşlıq bərqərar etdi, həmin məna yenə təkrar olundu. Bəli, hər iki dəfədə o Həzrət Əlini öz qardaşı kimi seçdi və onu başqalarından daha üstün gördüyü üçün başqasını özünə qardaş qəbul etmədi, yenə ona buyurdu: **"Sən mənim üçün Harun Musa üçün olan kimisən."**

Peyğəmbərin (s) pak Əhli-Beyti təriqi ilə bu haqda ardıcıl xəbərlər vardır və başqa yollarla Zeyd ibn Əbu-Övfdən çatmış hədislər də varid olmuşdur. Bu hədisi İmam Əhməd Hənbəlin **"Mənaqibi Əli"** kitabında İbn Əsakirin öz tarix kitabında, Bəğəvi və Təbərani öz **"Məcmə"**lərində, Barudi **"Əl-Məricət"**, ibn Ədi və başqaları söyləmişlər.

Hədis uzundur. **"Qardaşlıq peymanı"**nın keyfiyyətini nəql edərək sonunda belə deyilir: **"Əli dedi: Ey Allahın Rəsulu, qəlbim sınmışdır, çünki gördüm məndən başqa əsəhabələrin üçün fikirləşmisən, əgər bu mənə qarşı qəzəbin nəticəsidirsə, səndən bağışlanmağımı istəyirəm və sən kəramətli və əzəmətlisən. Peyğəmbər (s): "Məni haqq üzrə peyğəmbərliyə qəbul edən kəsə and olsun ki, səni özüm üçün axıra saxlamışam. Sən mənim üçün Harun Musa üçün olduğu kimisən, bu fərq ilə ki, məndən sonra**

peyğəmbər yoxdur! Sən mənim qardaşım və varisimsən. Sən Behiştdə qızım Fatimə ilə mənim qəsrimdəsən, sən mənim qardaşım və yoldaşımsan. Sonra Peyğəmbər (s) ayənin bu hissəsini tilavət etdi: Qardaşlardır ki, taxt üstündə üzbəüz oturmuşlar. Yəni o adamlardır ki, Allah xatirinə bir-birilərini sevirlər."

İkinci qardaşlıq peymanı haqqında Təbəraninin **"Kəbir"** kitabında ibn Abbasdan söylənilən xəbərə diqqət edək. Orada deyilir, Peyğəmbər (s) Əliyə buyurdu: **"Mən mühacir və ənsarlar arasında qardaşlıq bərqərar edəndə, səni heç kəs ilə qardaş etmədiyimçün məndən narahatmı oldun? Razı deyilsənmi mənimlə Harun Musa üçün olan kimi olasan, bu fərq ilə ki, məndən sonra peyğəmbər olmayacaqdır."**

Habelə Əlinin qapısından başqa məscidə açılan bütün qapıların bağlanması haqqındakı bəzi hədisləri misal gətirmək yerinə düşər. Bu haqda Cabir ibn-Abdullahın hədisi kifayətdir. O, deyir: **"Peyğəmbər (s) buyurdu: Ey Əli! Mənim üçün məsciddə halal olan şey sənə də halaldır. Sən mənim üçün Harunun Musa üçün olduğu kimisən, bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur."**

Hüzeyfə ibn Üseyd Qifaridən nəql olunur: **"Peyğəmbər qapıları bağlayan gün ayağa durdu, xütbə oxuduqdan sonra buyurdu: Bəzi adamların ürəyinə elə gəlir ki, mən Əlini məsciddə məskunlaşdırmışam, onları isə xaric etmişəm. Allaha and olsun ki, mən onları xaric etməmişəm və Əlini mən məskunlaşdırmamışam, əksinə Allah onları xaric etmiş və Əliyə sükunət yeri vermişdir. Allah Müsaya və qardaşına vəhy göndərdi ki, öz qövmünüz üçün Misirdə evlər seçin və evinizdə qibləyə namaz qılın. Əli də mənim üçün Harunun Musa üçün olduğu kimidir. O mənim qardaşımdır…"**

Bunun kimi misallar çoxdur. Kitabın həcmini nəzərə alaraq, onların hamısını burada toplamaq istəmirəm. Mənzilət hədisinin yalnız Təbuk döyüşünə aid olmasını sübut etmək üçün dediklərimiz kifayətdir.

Əbu-Davud Təyalisinin **"İstiab"**da Əlinin şərhi-halında yazıldığı kimi İbn Abbasdan söylədiyini mütaliə etməyimiz də bizə çox şeyləri

söyləyəcək. O, deyir: **"Peyğəmbər (s) Əli ibn Əbi Talibə buyurdu: Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan."**

Bu da yuxarıdakı kimi doğru bir hədisdir. İmran ibn Həsindən nəql olunsmuşdur ki, Allahın Rəsulu (s) bir dəstəni göndərdi və Əlini qoşunun başçısı təyin etdi. Əli (ə) qələbədən sonra xüms payından bir kənizi özü üçün seçdi. Ordudakılar ona irad tutdu. Onlardan dörd nəfəri əhd bağladılar ki, Peyğəmbərə (s) şikayət etsinlər. Qayıdandan sonra onlardan biri qalxdı və dedi: **"Ey Allahın Rəsulu, Əlinin nə etdiyini bilirsənmi?"** Peyğəmbər (s) üzünü ondan çevirdi. İkincisi qalxdı, həmin sözü dedi. Peyğəmbər (s) ondan da üz döndərdi. Üçüncüsü qalxdı və o iki nəfərin sözünü təkrar etdi. Peyğəmbər (s) ondan da üz döndərdi. Dördüncüsü qalxdı və o üç nəfərin dediyini təkrar etdi. Bu dəfə Peyğəmbər (s) üzünü onlara tutub qəzəbli halda buyurdu: **"Əlidən nə istəyirsiniz? Əli məndən, mən də ondanam. O, məndən sonra bütün möminlərin vəlisidir."**

Habelə Bureydənin hədisidir ki, onun sözləri **"Müsnədi Əhməd"**in beşinci hissəsinin 356-cı səhifəsində yazılmışdır. O deyir: **"Allahın Rəsulu iki dəstə qoşunu Yəmənə göndərdi. O dəstədən birinin başçısı Əli ibn Əbu Talib, digərinin başçısı isə Xalid ibn Vəlid. Peyğəmbər (s) buyurdu: "Bir-birinizə çatanda hər iki dəstənin başçısı Əli olacaq. Əgər ayrılsanız hərə öz qoşununun başçısı olsun."** Büreydə deyir: **"Biz Yəmən əhlindən olan Bəni Zübeydə qəbiləsi ilə üzləşəndə döyüşdə qələbə çaldıq və Bəni Zübeydə qəbiləsindən əsir tutduq. Əli (ə) əsir qadınlardan birini özü üçün seçdi."**

Büreydə nəql edir: **"Xalid ibn Vəlid bir məktub yazdı və mənə verdi ki, Allahın Rəsuluna (s) çatdırım. O, bu məktubda Peyğəmbəri (s) işdən agah etmək istəyirdi. Peyğəmbərin (s) yanına çatanda məktubu verdim. Məktubu ona oxudular, gördüm qəzəbləndi. Sən məni bir nəfərlə göndərdin və ona itaət etmək əmrini verdin. Mən də boynumda olan vəzifəni yerinə yetirmişəm. Allahın Rəsulu (s) buyurdu: "Əli haqqında pis danışma ki, o, məndəndir və mən ondanam. O, məndən sonra sizin vəlinizdir."**

Bu sözləri eyni ilə Nisai **"Xəsayisül-Ələviyyə"**nin 17-ci səhifəsində bu cür yazmışdır: **"Elə iş etmə ki, məni Əliyə qəzəbləndirmək**

istəyəsən, çünki Əli məndəndir, mən də ondanam və məndən sonra o, sizin vəliniz olacaqdır."

Bu hədisin sözləri ibn-Cərirdə də bu cürdür: **"Büreydə dedi: Birdən gördüm Peyğəmbərin (s) üzü qızardı və buyurdu: Hər kəsin mən vəlisiyəmsə, Əli də onun vəlisidir."**

Büreydə deyir: **"Ürəyimdə olanların hamısı məhv oldu, dedim daha onu heç vaxt pis niyyətlə yad etməyəcəyəm."**

Təbərani bu hədisi müfəssəl şəkildə nəql etmişdir. O yazır: **"Büreydə Yəməndən qayıdıb məsçidə daxil olanda Peyğəmbərin evinin qapısında çoxlu adamın oturduğunu müşahidə etdi, onu görəndə ayağa durdular, salam verdilər və səfər haqqında soruşdular: "Nə xəbər var?"**

Cavab verdi: "Xeyir və yaxşılıqdır. Allah qələbəni müsəlmanlara nəsib etdi".

Soruşdular: "Sənin tez gəlməyinə səbəb nə oldu?"

Cavab verdi: "Əli xüms payından özü üçün bir kəniz götürdü. Gəldim ki, bu xəbəri Peyğəmbərə (s) deyim".

Dedilər: "Ona xəbər ver, ona xəbər ver ki, Əli Peyğəmbərin (s) gözündən düşsün!"

Peyğəmbər (s) qapının arxasından onların səsini eşidirdi. Allah Rəsulu acıqlı halda evdən çıxdı və buyurdu: Nə üçün bir dəstə adam Əlinin haqqında pis danışırlar? Məqsədləri nədir? Əliyə kin bəsləmiş şəxs mənə kin bəsləmiş olur. Əlidən ayrılan şəxs məndən də ayrılmış olur. Əli məndəndir, mən ondanam. O, mənim gilimdən (torpağımdan) yaranmışdır, mən də İbarhimin gilindən və mən İbrahimdən üstünəm. Elə nəsillər var ki, biri digərindən alınmışdır. Allah eşidən və biləndir. Ey Büreydə! Məgər bilmirsənmi ki, Əlinin o kənizdən də çox payı vardır, ona mən icazə vermişəm, çünki o, məndən sonra sizin vəlinizdir."

Bu hədisin yaranmasında heç şübhə yoxdur. Büreydəyə qədər müxtəlif yollarla nəql olunmuşdur və hamısı etimadlıdır.

Bu hədisin oxşarını Hakim ibn Abbas nəql etmiş və o ən qiymətli hədisdir. Orada Əlinin (ə) on xüsusiyyəti və üstünlüyündən bəhs olu-

nur. Hədisdə bəhs olunur ki, Peyğəmbər (s) Əliyə (ə) buyurdu: **"Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan."**

Həzrət Peyğəmbərin (s) ona dediyi bu sözlər digər bir hədisdə də təkrarlanır: **"Ey Əli! Allahdan sənin üçün beş şey istədim, onlardan dördünü verdi, birini vermədi. Verdiyi şeylərdən biri bu idi ki, sən məndən sonra möminlərin vəlisi olacaqsan."**

Buna oxşar hədisi ibn Səkin Vəhəb ibn Həmzədən nəql etmişdir. **"Əs-Səhabə"** kitabında Vəhəbin **"Şərhi-hal"**ında yazılır: **"Əli ilə səfərə çıxdım, ondan narahatçılıq gördüm, dedim ki, qayıdanda ondan şikayət edəcəyəm. Qayıdanda Allah Rəsuluna şikayət etdim. O Həzrət buyurdu: "Bunu Əli haqqında demə ki, o məndən sonra sizin vəliniz olacaqdır."**

Təbərani **"Kəbir"** kitabında Vəhəbdən onu nəql etmişdir, yalnız bu fərq ilə ki, orada yazılmışdır: **"Bunu Əli haqqında demə ki, o məndən sonra sizə hamıdan daha yaxşıdır."**

İbn Əbi Asim açıq şəkildə Əlidən (ə) nəql edərək yazmışdır: **"Peyğəmbər buyurdu: Mən möminlərə özlərindən daha yaxın deyiləmmi?**

Dedilər: Bəli!

Buyurdu: Mən kimin vəlisiyəmsə, Əli onun vəlisidir."

Mövla Əlinin həqqaniyyətini sübut edən qırx hədis haqqında qısaca söhbətə ehtiyac duyulur.

Peyğəmbər (s) əlini Mövla Əlinin (ə) çiyninə qoyub uca səslə dedi: **"Bu yaxşıların imamı, pislərin və yolunu azmışların qatilidir. Elə bir şəxsdir ki, ona kömək edən qalib olacaq, alçaltmaq istəyən isə alçaldılacaqdır."**

Bu hədisi Hakim **"Müstədrək"**in 3-cü cildinin 129-cu səhifəsində Cabirdən nəql edərək demişdir: **"Bu hədisin sənədi doğrudur. Amma Buxari və Müslim onu nəql etməmişdir."**

Həzrət Peyğəmbər (s) buyurdu: **"Əli haqqında üç şey vəhy olunmuşdur: O, müsəlmanların ağası, təqvalıların imamı, alnı açıqların, nurluların yol göstərəni və rəhbəridir."**

Hakim **"Müstədrək"**in 3-cü hissə 138-ci səhifəsinin əvvəlində bu haqda yazmışdır: **"Bu hədisin sənədləri düzgündür, amma Buxari və Müslim o haqda yazmamışlar."**

Həzrət Peyğəmbər (s) buyurdu: **"Mənə vəhy gəlmişdir ki, Əli müsəlmanların seyyidi, təqvalıların vəlisi, alnı açıqların və nurluların rəhbəridir."**

İbn Nəccar və başqa Sünən yazanlar da onu nəql etmişlər.

Həzrət Mühəmməd (s) Mövla Əliyə (ə) buyurdu: **"Müsəlmanların seyyidinə, mənim və təqvalıların imamına mərhaba!.."**

Əbu-Nəim **"Hilyətül-Övliya"**da onu nəql etmişdir.

Peyğəmbər (s) buyurdu: **"Bu qapıdan daxil olan ilk şəxs pəhrizkarların imamı, müsəlmanların seyyidinin başçısı, xatəmül vəsiyyin, nurlu üzlülərin rəhbəridir."**

Hədislərin birində buyurulur: **"Əli daxil oldu. Onun haqqında müjdə verən Peyğəmbər (s) ayağa durdu. Onu qucaqladı, alnının tərini silərək buyurdu: "Sən mənim borcumu əda edən, mənim səsimi insanlara çatdıran, ixtilaflarımı bəyan edənsən."**

Həzrət Peyğəmbər (s) buyurdu: **"Allah mənə belə tövsiyə etdi ki, Əli hidayət bayrağı, dostlarımın imamı, mənə itaət edənlərin nurudur. Bu elə bir sözdür ki, təqvalılar ona əməl etməlidir. Mülahizə edirsinizmi? Bu altı hədis onun imaməti və ona itaətin vacibliyi haqqındadır. Ona salam olsun!"**

Peyğəmbər (s) əli ilə Həzrət Əlini (ə) göstərərək buyurdu: **"Bu mənə iman gətirmiş ilk şəxsdir və birinci adamdır ki, qiyamətdə mənimlə görüşəcəkdir. Bu böyük vəfadar ümmətin faruqudur, haqqı batildən ayıran və möminlərin başçısıdır."**

Həzrət Peyğəmbər (s) buyurdu: **"Ey ənsar əhli, istəyirsinizmi sizə elə bir şəxsi göstərəm ki, ona arxalansanız heç vaxt yolunuzu azmazsınız. Bu Əlidir! Məni sevdiyiniz qədər onu sevin, mənə etdiyiniz hörmət qədər ona ikram və hörmət edin. Sizə dediklərimi Cəbrayıl Allah tərəfindən mənə əmr edib."**

Peyğəmbər (s) Əliyə (ə) buyurdu: **"Sən məndən sonra ümmətimə ixtilaflı olan hər bir şeyi açıb, bəyan edəcəksən."**

Peyğəmbər (s) buyurdu: **"Ey Əli, məndən ayrılan kəs, Allahdan ayrılmış və səndən uzaqlaşan kəs, məndən uzaqlaşmışdır."**

Peyğəmbər (s) Əliyə (ə) buyurdu: **"Ey Əli, sən dünya və axirətdə ağasan, sənin dostun mənim dostum və mənim dostum Alla-**

hın dostudur, sənin düşmənin mənim düşmənim və mənim düşmənim Allahın düşmənidir. Vay o adamın halına ki, məndən sonra səninlə düşmənçilik edə."

Peyğəmbər (s) buyurdu: **"Ey Əli, xoş o adamın halına ki, səni sevir və sənin haqqında doğru danışır və vay o şəxsin halına ki, sənin düşmənin ola və sənin haqqında yalan danışa."**

Hakim **"Müstədrək"**in 3-cü hissə 135-ci səhifəsində bu hədisi vermiş və sonra demişdir: **"Bu hədis sənəd baxımından düzgündür. Amma Buxari və Müslim onu verməmişdir."**

Peyğəmbər (s) buyurdu: **"Kim ki, həyatının mənim həyatım, ölümünün mənim ölümüm kimi olmasını və Allahın mənə vəd etdiyi əbədi Behişt sakini olmasını istəyirsə, gərək Əli ibn Əbu Talibin vilayətini qəbul etsin. Çünki o, heç vaxt sizi doğru yoldan çıxarmaz, yolunuzu azmağa qoymaz."**

Peyğəmbər (s) buyurur: **"Mənə iman gətirən və məni təsdiq edən şəxsə Əli ibn Əbu Talibin vilayətini sifariş və tövsiyə edirəm. Beləliklə, onun vilayətini qəbul edən, mənim vilayətimi qəbul etmiş və mənim vilayətimi qəbul edən Allahın vilayətini qəbul etmişdir."**

Peyğəmbər (s) buyurdu: **"Həyatının mənim həyatım, ölümünün mənim ölümüm kimi Cənnət bağlarında sakin olmasını istəyən şəxs məndən sonra Əlinin vilayətini qəbul edə və məndən sonra Əhli-Beytimə iqtida etməlidir. Onlar mənim ailəmdir, mənim tinətimdən yaranmış, mənim dərrakəm və biliyimi Allah onlara vermişdir. Ümmətimdən onların ağıl və üstünlüyünü təkzib edən, mənim onlarla bağlılığımı qıran adamların vay halına! Allahın şəfaəti onlara çatmayacaq."**

Peyğəmbər (s) Əmmara buyurdu: **"Ey Əmmar, əgər Əlinin bir yol, camaatın isə başqa bir yolla getdiyini görsən, Əli ilə get. O, səni alçaqlığa dəvət etməz, hidayət yolundan çıxartmaz."**

Əbu-Bəkrin (r) hədisində deyilmişdir ki, Peyğəmbər (s) buyurdu: **"Mənim ovucum ilə Əlinin ovucu ədalətdə bərabərdir."**

Peyğəmbər (s) Fatiməyə (ə) buyurdu: **"Bu peyvəndə - Əliyə həyat yoldaşı olmağa razı deyilsənmi? Allah yer əhlinə nəzər saldı və iki nəfəri seçdi, biri atan o birisi həyat yoldaşın."**

Peyğəmbər (s) buyurdu: **"Mən (Allahın əzabından) qorxudanam, Əli isə hidayət edəndir. Ey Əli, məndən sonra hər kəs hidayət olsa, sənin vasitənlə hidayət olar."**

Allahın Rəsulu (s) buyurur: **"Nuhun əzmini, Adəmin helmini, İbrahimin elmini, Musanın zirəkliyini, İsanın zöhdünü (pəhrizkarlıq) görmək istəyən şəxs Əli ibn Əbu Talibə nəzər yetirsin."** Bu hədisi Beyhəqi özünün **"Səhih"**ində və İmam Əhməd Hənbəl **"Müsnəd"**ində nəql etmişdir.

Allahın Rəsulu (s) Əliyə (ə) buyurdu: **"Ey Əli, səndə İsa peyğəmbərdən bir nişanə var. Yəhudilər onunla o dərəcədə düşmən oldular ki, anasını ittiham etdilər. Xristianlar ona o qədər məhəbbət bəslədilər ki, malik olmadığı mənzilət və məqamı ona nisbət verdilər."**

Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: **"Məndən sonra, ümmətim tezliklə sənինlə düşmən olacaq və sən mənim ayinimlə yaşayacaqsan. Mənim qanunuma görə öldürüləcəksən. Səni sevən məni sevmiş, sənինlə düşmənçilik edən, mənimlə düşmənçilik etmişdir. Tezliklə saqqalın başının qanına bulaşacaq."**

Mövla Əlidən (ə) bizə yetişən xəbərlərdə deyilir: **"Peyğəmbərin (s) məni agah etdiyi mətləblər aşağıdakılardır: "Ondan sonra ümmət mənimlə düşmən olacaq. Tezliklə məndən sonra, məşəqqət və narahatlığa düçar olacaqsan". Ərz etdim: "O vaxt dinim salamat olacaqmı?" Buyurdu: "Bəli, dinin salamat olacaq."**

Peyğəmbər (s) bir gün səhabələrinin toplantısında buyurdu: **"Sizin aranızda Quran təvilinə əsasən vuruşan var, necə ki, mən onun nazil olmasına əsasən vuruşdum. Camaat çiyinlərini çəkdi. Əbu-Bəkr (r) və Ömər (r) də orada idilər. Əbu-Bəkr (r) dedi: "O şəxs mənəm?" Buyurdu: Yox. Ömər (r) soruşdu: Mənəm? Buyurdu: "Yox, o şəxs ki, çəkmə yamayır" (yəni Əli). (Əli bu zaman çəkmə yamamaqda idi.)"**

Əbu-Səid Xidri deyir: **"Əlinin yanına gəldim və ona bu şad xəbəri verdim, heç başını da qaldırmadı. Elə bil ki, onu dəfələrlə Allahın Rəsulundan eşitmiş idi."**

Əbu-Əyyub Ənsari deyir: **"Allahın Rəsulu (s) Əliyə (ə) nakisinlər (əhdləri sındıranlar), qasitinlər (zalımlar) və mariqlərlə (yoldan çıxanlar) mübarizə edib onları öldürmək fərmanını verdi."**

Əmmar Yasir bir hədisdə deyir: **"Peyğəmbər (s) buyurdu: Ey Əli, tezliklə üsyançılar dəstəsi sənlə mübarizə aparacaqlar. Amma sən düz yoldasan. Sənə kömək etməyən məndən deyil."**

Həmçinin Əbu-Zər hədisdə deyir: **"Peyğəmbər buyurdu: And olsun o kəsə ki, mənim canım onun əlindədir, sizin aranızda bir kişi var ki, məndən sonra Quranın təvilinə (şərhi-təfsirinə) əsasən vuruşacaq, necə ki, mən müşriklərlə onun tənzilinə (Allah-Təala tərəfindən nazil olunmasına) əsasən vuruşdum."**

Habelə Mühəmməd ibn Übeydüllah hədisi ki, ibn Əbi-Rafe atasından, o da babası Əbu-Rafedən xəbər vermişdir: **"Peyğəmbər (s) buyurdu: Məndən sonra bir qrup Əli ilə vuruşacaq. Onlarla cihad etmək bir İlahi vəzifədir. Cihad etmək qüdrətinə malik olmayan kəs dili ilə, bundan da aciz olan qəlbi ilə onlarla cihad etməlidir."**

Yenə də Əxzər-Ənsari hədisində deyilir: **"Peyğəmbər (s) buyurdu: Mən Quranın tənzilinə əsasən vuruşuram və Əli onun təvilinə əsasən vuruşacaq."**

Həzrət Peyğəmbər (s) buyurdu: **"Ey Əli, mənim sənə olan imtiyazım yalnız nübuvvətdir. Məndən sonra nübuvvət və peyğəmbərlik yoxdur. Sənin camaat qarşısında yeddi imtiyazın var: birinci şəxssən ki, Allaha iman gətirmisən, Allahın əhdinə hamıdan artıq əməl edənsən, Allahın əmrlərində hamıdan möhkəmsən, Beytül-malın bölünməsində bərabərliyə daha çox riayət edənsən, rəiyyət barəsində hamıdan çox adilsən, mühakimədə daha gözüaçıq və məziyyətlərdə (üstünlüklərdə) Allahın yanında hamıdan üstünsən."**

Əbu-Səid Xidridən bizə çatan hədisdə deyilir: **"Peyğəmbər (s) buyurdu: Ey Əli, sənin yeddi xislətin var ki, heç kəs sənin tayın deyil. Sən Allaha ilk iman gətirən, Onun əhdinə daha vəfadar, əmrinə hamıdan artıq əməl edən, rəiyyətə qarşı daha ədalətli, mühakimədə daha xəbərdar, məziyyətlərdə hamıdan daha üstünsən."**

Qırx hədis bunlardır ki, müxtəsər halda nəql etdik. Onların hamısı bir mənanı kəsb edir: **"Əli bu ümmətdə Allahın Rəsulundan sonra ikinci şəxsiyyətdir və Peyğəmbərdən (s) sonra bu ümmətin rəhbərliyi Əli ilədir."**

Fətviyyül-Hamidiyyə yazıçısı özünün **"Əssələvatül-Faxirə-Fil-Əhadisil-Mütəvatirə"** adlandırdığı müxtəsər risaləsində böyük inadla bu hədisin təvatürünü (doğruluğunu) bəyan edir. Süyuti, məşhur təfsirçi və tarixçi Mühəmməd ibn Cərir Təbəri, Əhməd ibn Mühəmməd ibn Səid ibn Üqdə və Əhməd ibn Osman Zəhəbi, bu hədislərin mənbələrini cəmləməyə rəhbərlik etmiş və hər biri bu haqda ayrıca bir kitab hazırlamışlar. İbn Cərir kitabında onu 75 mənbədən İbn Üqdə isə 105 mənbədən nəql etmişdir. Zəhəbi inadkarlığına baxmayaraq onun bütün mənbələrini təshih (düzəliş) etmişdir. Qayətül-Məram kitabının 16-cı babında 89 hədis Əhli-sünnə mənbələrindən **"Nəssi-Qədir"**də nəql etmişdir. Xüsusilə o, həmin hədisi bu kitabda Tirmizi, Nisai, Təbərani, Bəzzar, Əbu-Yəla və həmçinin onu nəql etmiş bir çox mühəddislərin adından verməmişdir.

Süyuti bu hədisi **"Tarixul-Xuləfa"** kitabında Mövla Əlinin (ə) şərhi-halını Tirmizidən nəql edərək demişdir: **"Əhməd onu Əli, Əbu-Əyyub Ənsari, Zeyd ibn Ərqəm, Ömər və Zimərdən nəql etmişdir. Əbu-Yəla onu Əbu-Hüreyrə və Büreydədən nəql etmiş və bu hədisin yayılması nəşrinə dəlalət edən mətləblər o rəvayətdir ki, İmam Əhməd Müsnəddə Riyah ibn Haris iki təriqlə nəql etmişdir: Bir dəstə adam Əlinin (ə) yanına gəldilər və ərz etdilər: Ey mövlamız, salam olsun sənə. Həzrət soruşdu: siz kimsiniz? Dedilər: "Sənin qullarındanıq, ey əmirəl-möminin". Həzrət soruşdu: "Mən necə sizin ağanız ola bilərəm ki, siz ərəbsiniz?" Cavab verdilər: "Biz Qədiri-Xum günü Rəsuli-**

Əkrəmdən (s) eşitdik: Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır."

Riyah deyir: **"Onlar gedəndə mən soruşdum: "Bunlar kimlərdir?" Dedilər: Mədinədən bir qrupdur ki, Əbu-Əyyub Ənsari onların arasındadır."**

Həmçinin onun təvatürünə dəlalət edən mətləblər Əbu-İshaq Sələbinin "Məaric" surəsinin təfsirində özünün iki mötəbər sənədlə verdiyi hədisdir. Elə ki, Allahın Rəsulu (s) Qədiri-Xum günü camaatı yığdı, Əlinin əlindən tutub buyurdu: **"Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır."**

Bu xəbər hər yerə yayıldı, Haris ibn Nöman Fehriyə də çatdı. O, Allah Rəsulunun yanına gəldi, dəvədən düşdü, onu bağladı. Sonra üzünü Peyğəmbərə tutub dedi: **"Ey Muhəmməd, bizə əmr etdiniz ki, Allahın birliyinə şahidlik edin, elədik. Dedin, Allahın Rəsulusan, qəbul etdik. Əmr verdin gündə beş dəfə namaz qılın, qəbul etdik. Zəkatı əmr etdin, qəbul etdik. Ramazan ayının orucunu əmr etdin, qəbul etdik. Həcc əmri verdin, eşitdik və itaət etdik. Yenə də bunların hamısına razı olmadın, axırda əmioğlunun əlini tutdun, onu bizim hamımızdan üstün hesab etdin və dedin: Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Bu əmr öz tərəfindəndir, ya Allah tərəfindən? Peyğəmbər (s) buyurdu: And olsun o Allaha ki, bu fərman Onun tərəfindəndir. Haris dönüb, dəvəsinə tərəf hərəkət etdi və dedi: "Ey Pərvərdigar, Muhəmmədin dedikləri həqiqətdirsə, göyün daşlarını üstümüzə yağdır və ya bizə dərdli bir əzab göndər". Haris hələ dəvəsinə çatmamışdı ki, Allah-Təala bir daş göndərdi və daş onun başına dəyərək, lənətə vasil oldu."**

Allah-Təala aşağıdakı ayəni nazil etdi: **"Bir zaman da: Ya Allah! Ədər bu (Quran, ayə) Sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər! – demişdilər. (Əl-Ənfal surəsi, ayə 32).**

Tanınmış əhli-sünnə alimlərindən bir qrupu bu hədisi mübahisəsiz qəbul etmişlər.

Həmçinin Həzrət Peyğəmbərin (s) Mövla Əliyə (ə) vəsiyyətini inkar etmək olmaz. Həzrət Əlini (ə) özünün elm və hikmətinin varisi

seçəndən sonra vəsiyyət etdi ki, ona qüsl versin, kəfənləsin, dəfn etsin. Vəzifələrinə vəfa, vədələrinə sözsüz əməl etsin. Onu borclardan azad edib, ondan sonra adamların ixtilaflı məsələlərini bəyan etsin. Öz ümmətinə vəsiyyət etdi ki, ondan sonra Əli (ə), ümmətin vəlisi olacaqdır. Əli (ə) onun qardaşı, övladlarının atası, onun vəziri, pıçıltı ilə danışdığı adam olduğundan onun vəlisi və vəsisi, elm şəhəri və hikmət evinin qapısıdır. Bu ümmətin Hittə qapısı onun amanı və nicat gəmisidir. Ona itaətsizlik Peyğəmbərə (s) itaətsizlik kimi böyük xəta və günahdır. Ona tabe olmaq Peyğəmbərə (s) tabe olmaqdır. Ondan müfariqət və ayrılma Rəsullulahdan (s) müfariqət və ayrılma kimidir.

Peyğəmbər (s) sülhdədir o şəxslə ki, Əli (ə) ilə sülhdədir. Müharibə edir o şəxslə ki, onunla müharibə edir. Onunla dost olanla dost, düşmən olanla düşməndir. Əlini (ə) dost bilən, Allah və Rəsulunun dostu olmuş, onun kininə ürəyində yer verən, ürəyində Allaha və Rəsuluna kin bəsləyər. Əlinin (ə) vilayət və dostluğunu ürəkdən qəbul etmiş şəxs, Allahın və Peyğəmbərin (s) vilayət və dostluğunu qəbul etmiş, onu düşmən bilən o ikisini düşmən bilmiş, onu incidən Allah və Rəsulunu incitmişdir. Kim onu təhqir edib söysə, bu ikisini söymüşdür. O, yaxşıların imamı, yolunu azmışların qatilidir. Kömək etdiyi qalib, onu unudan unudulmuş olar. Müsəlmanların ağası, pəhrizkarların imamı, nurluların rəhbəridir. O, hidayət bayrağı Allahın övliyalarının imamıdır. Allaha itaət edənə nur, işıq və Allahın pəhrizkarlara lazım bildiyi söz və üsuludur. O, böyük siddiq, ümmətin faruqu, möminlərin sərkərdəsidir. O böyük fürqan və zikri-həkim hökmündədir. Onun Rəsulullaha nisbəti Harunun Musaya olan nisbəti kimidir. Onun Peyğəmbərə (s) nisbəti Peyğəmbərin (s) Allaha nisbəti kimidir. O, Peyğəmbərin başının bədəninə olan mövqeyindədir. O, Peyğəmbərin (s) canı və ruhu kimidir. Allah yer əhlinə nəzər saldı və bu ikisini seçdi. Ərəfatda **"Həccətül-Vida"**da buyurduğunu nəzərdən keçirmək kifayətdir: **"Əlidən başqa onun göstəriş və hökmlərini heç kim yaymamalıdır. Əlidən və Peyğəmbər məqamına layiq adamdan başqa çoxları bu xüsusiyyətlərə malik deyillər."**

Bütün bunlardan sonra onun vəsiyyətini inkar etmək mümkünsüzdür. Bunu qərəzi olandan başqa əlbəttə heç kəs inkar etməz!

Amma Buxari və başqaları Təlhə ibn Müsrifdən rəvayət edərək yazırlar ki, Abdullah ibn Əbi-Ufadan soruşdu: **"Peyğəmbər vəsiyyət etdi? Cavab verdi: Yox**. **Ona dedim: Necə ola bilər ki, Peyğəmbər (s) vəsiyyəti xalqa lazım bildi, amma özü onu tərk etdi? O da cavabında: Peyğəmbər (s) vəsiyyət etmədi, Allahın kitabını sifariş etdi**."

Fiqh elmindən bizə məlumdur ki, onların bu dedikləri höccət və dəlil deyil. Çünki bu hədis yanımızda sabit deyildir. Onu da qeyd edək ki, bu zəmanə hökümətinin siyasətindən başqa bir şey deyil.

Amma Buxarinin ibn Əbi-Ufadan Peyğəmbər (s) Allahın kitabını sifariş etmişdir deməsi bir cəhətdən doğrudur. Çünki burada o, Peyğəmbərin (s) Səqəleyn hədisinə arxalanaraq, kitab və Əhli-Beyti birlikdə vəsiyyət edərək, ümmətdən tələb etmişdir ki, hər iki ipdən birlikdə yapışsınlar. Ümmətinə tapşırdı ki, onlara arxalanmasalar, yollarını azmış olacaqlar. Həmçinin ümmətə xəbərdarlıq etdi ki, bu ikisi bir-birindən hovuzun kənarına qədər ayrılmayacaqlar.

Səhabənin çoxunun həyatının şərhi və tarixi göstərir ki, onlar rəvayətə tabe olmuşlar. Bunlardan bəziləri ibadətə və axirətə məxsus məsələlərdir. Məsələn, Ramazan ayının orucu, namazda üzün qiblə-yə tərəf olması, gündəlik vacib namazların sayı, hər birinin rükətlərinin sayı, onların yerinə yetirilməsinin keyfiyyəti, Allahın evinin ətrafında 7 dəfə dövr etmək və s. Amma siyasətə aid olan məsələlərdə, məsələn, hökumət və əmirliyi müəyyən bir şəxsə tapşırmaq, dövlət işlərinin tədbiri, məmləkətin əsasının qoyulması və ordunun təchizi kimi məsələlərdə ona tabe olmurdular və nüsusunun lazımlığını bütün hal və işdə münasib bilmirdilər. Əksinə, özləri üçün bəhs, danışıq, fikir söyləmə və ictihad üçün də müəyyən bir yer saxlamışdılar. Yəni əgər onların fikri nəssin ziddinə olsa da onların nəzərincə bu İslamın məsləhəti idi habelə onların rəyasət və hökumətlərinə xeyir verirdisə, belə bir fikir ayrılığını nəinki, günah bilmir, hətta düşünürdülər ki, Peyğəmbərin (s) bu işdə razılığını əldə edirlər.

Mövla Əlinin (ə) xilafəti haqqında deyəsən onların fikri bu mənada qələbə əldə etdi ki, ərəb ona və xilafətin nəssinə tabe olmur, çünki o Allah yolunda ərəbin belini əymiş, onun qanını tökmüş, haqq sözünü ucaltmaq uğrunda mübarizədə üzündən niqabı açmışdır. O vaxta kimi ki, kafirlərin istəyinin əksinə olaraq Allahın dini aşkar və qalib oldu. Buna görə də onlar gücdən başqa bir şeylə ona müti olmaya-

caqlar, gücdən başqa heç bir vasitə ilə nəssin qarşısında tabe olmayacaqlar. Ərəb öz adətinə əsasən, belə bir vəziyyətdə İslam uğrunda tökdüyü qanlara görə Əlidən (ə) öz intiqamını alacağını fikirləşirdi. Çünki Peyğəmbərdən (s) sonra qəbiləsində, ərəblərin fikrincə, Əlidən (ə) başqa qanların intiqamını alacaqları layiqli bir adam yox idi. Onlar tökülmüş qanların intiqamını tayfanın başbiləni və qəbilənin daha üstün şəxsindən alırdılar. Əli (ə) də sözsüz ki, Rəsullullahdan sonra Bəni-Haşimin nümunəvi adamı və onların ən üstün şəxsiyyəti idi. Buna görə ərəblər onun üçün plan çəkib, işləri dəyişib, ürəyində kin, qəzəb və ədavəti onun özünün və nəslinin qarşısında gizli saxlayıb, bacardıqları hər adla ona həmlə etdilər. Nəhayət planları həyata keçdi, amma ona aid müsibətlərlə yer-göy doldu.

Həmçinin Qüreyş və ərəb Allahın düşmənləri və Allahın haramlarına mürtəkib olanlar ilə çox sərt rəftar etdiyindən, habelə onlara görə müqəddəsləri təhqir edənləri öldürüb mübarizə apardığına görə Əlidən intiqam aldılar. Ərəb onun əmr-bə-məruf və nəhy-əz-münkərindən qorxurdu, rəiyyət və ağanın arasında bərabərliyə riayət olunmasından dəhşətə gəlirdi. Onun dövründə nə bir kəs tamahkarlıq edə bilir, nə də birinin xeyirxahlığı ona təsir edirdi. Onun yanında güclü, zalım zəlil olur, zəif isə haqqının geri qaytarıldığı üçün güclü və əziz olurdu. Belə olan halda rəğbət və maraq üzündən onun qarşısında necə itaət göstərə bilərdilər? Bütün bunlara görə Allah-Təala Qurani-Kərimdə onların barəsində buyurmuşdur: ***"Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın Öz Peyğəmbərinə nazil etdiyi hökmləri (cahillik üzündən) bilməməyə (başa düşməməyə) daha layiqdirlər." Allah (hər şeyi) biləndir, hikmət sahibidir!*** **" (Tövbə surəsi, 97-ci ayə)**

Həmçinin Qüreyş və başqa ərəb tayfaları xilafətin onların qəbilələrində növbələşməsinə şad idilər. Onların tamahı bu yolda işə düşmüşdü. Bu məqsədlə əhdi pozmağa başladılar. Əhdi sındırmaqda himmətlərini işə saldılar. Əl-ələ verdilər ki, nəssi unutsunlar. Birbirinə beyət etdilər ki, onu heç cür yada salmasınlar. İcmalaşdılar ki, elə birinci gündən xilafəti Peyğəmbər (s) tərəfindən təyin olunmuş vəlidən uzaqlaşdırsınlar. Ona görə onu seçkiyə qoydular ki, bir müddətdən sonra hər bir qəbilənin ona çatmaq arzusu olsun. Əgər nəssə tabe olsaydılar və Əlini (ə) Rəsullullahdan (s) sonra birinci bilsəydilər, xilafət Peyğəmbərin (s) pak itrətindən kənara çıxmazdı.

Çünki Peyğəmbər (s) Qədr günü Əhli-Beyti Quranla bir sırada və yaxın hesab etmişdi. Amma ərəb, xilafəti xüsusi xanidana mənsub edə bilmirdi. Xüsusilə bütün qəbilələrin gözü ona tərəf dikilmişdi və bütün tayfalardan olan adamlar bu yolda bir-birlərinə himayədarlıq edirdilər.

Qüreyş və ərəb tarixini yaxşı mütaliə edən şəxs bilər ki, onlar Bəni-Haşimin nübuvvəti qarşısında itaətkar olmadılar. Baxmayaraq ki, bir müddət dağıldılar, qüvvə və qüdrətləri qalmadı. Onda bəs necə Bəni-Haşimdə nübuvvət və xilafətin cəmləşməsinin qəbuluna razılaşa bilərdilər?

Saleh sələf imkan tapmadı ki, onları nəssə tabe olmağa məcbur etsin. Qorxdu ki, nəssə tabe olmaqda israr etsə və müqavimət göstərsə İslamdan dönərlər və həmçinin ixtilafın pis nəticəsindən vəhşət edirdi. Xüsusilə, Peyğəmbərin (s) ölümü ilə nifaq özünü aşkar surətdə göstərdi və nifaqçıların qüdrətini artırdı.

Mövla Əli (ə) bir vaxtda xalqın qiyam edərək öz iradə və qərarını izhar etməyə, beləliklə də fitnə-fəsadın artması, müsəlmanların nizamının tezliklə dağılmasından ehtiyat etdi. Çünki adamların ruhiyyəsi izah etdiyimiz şəkildə idi. Nifaqçılar xatırlatdığımız kimi fikirləşirdilər.

Birdəki onlar əsasən Peyğəmbər (s) dünyadan köçən zaman Mövla Əlini (ə) cavan, sayırdılar. Görün hamıya rəhbərlik etməklə bir qoşuna sərkərdə olmaq arasında nə qədər fasilə var?! Deməli, onlar bir neçə günlük döyüşdə bir cavana itaət etməlidilərsə, əlbəttə ki, bütün ömürləri boyu bir cavanın həm dünya, həm də axirət işlərində itaətində olmaqdan boyun qaçıracaqlar.

Əgər siz bu sözü ümumi surətdə söyləyirsinizsə, bu qəbul deyildir, çünki mömin qocalar Allahın və Peyğəmbərinin (s) itaəti naminə cavan adamlara itaət etməyə nifrət bəsləmirlər. Nəinki cavanlara itaət etməkdən, hətta Allah-Təalanın hökmünə boyun əymək üçün hər bir şeyə təslim olmaqdan belə çəkinmirlər.

Qurani-Kərimin buyurduğu kimi: ***"Amma, xeyr! (Ya Mühəmməd!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam itaətlə boyun əyməyincə (həqiqi surətdə) iman gətirmiş olmazlar."*** **("ən-Nisa" surəsi, 65-ci ayə)**

Amma Usamənin qoşununda hərəkət etməkdən boyun qaçıranlar barəsindəki nəql etdiyimiz hədisi Şəhristani səhih saymış və sənədli hədislə nəql etmişdir. Əbu-Bəkr Əhməd ibn Əbdül Əziz Cövhərinin **"Əs-Səqifə"** kitabında bu məsələyə işarə etdiyi nəzəri olduğu kimi burada dərc edirik: **"Həmid ibn İshaq-Saleh Əhməd ibn Səyyardan, Səid ibn Kəsir Ənsaridən, Əbdullah ibn Əbdür-Rəhmandan belə nəql etmişdir ki, Peyğəmbər (s) Usamə ibn Zeydi elə xəstə olduğu zaman mühacir və ənsarın toplaşmış olduğu orduya əmir təyin etdi. Bu qoşunda Əbu-Bəkr, Ömər, Əbu-Übeydə Cərrah, Əbdür-Rəhman ibn Ovf, Təlhə, Zübeyr, xülasə hamı iştirak edirdi. Sonra Həzrət, Usaməyə Movtə məntəqəsinə gedərək Fələstin vadisində döyüşə girişməsini buyurdu. Amma həm Usamə, həm də onun qoşunu ora getməkdə süstlük etdilər. Peyğəmbər (s) isə onların getməyinə təkid edirdi. Nəhayət Usamə o Həzrətə belə ərz etdi: Atam-anam sənə fəda olsun, mənə icazə verirsənmi Allah sənə şəfa verənə kimi burada qalım! Peyğəmbər isə cavabında belə buyurdu: Hərəkət elə, Allahın bərəkəti ilə qoşunu yola sal."**

Usamə dedi: **"Axı səni bu halda qoyub necə gedim? Həzrət buyurdu: Müvəffəqiyyət üçün hərəkət et."**

Usamə dedi: **"Ey Allahın Rəsulu, mənim üçün yolda sənin əhvalını gələn karvanlardan xəbər almaq çox çətindir. Mən bu iş üçün həddindən artıq narahatam. Həzrət də ona belə buyurdu: Sənə əmr etdiklərimə əməl et». Bu zaman Peyğəmbər (s) bihuş oldu. Usamə də Mədinədən getməyə hazırlaşdı. Peyğəmbər (s) huşa gəldikdə, Usamə və qoşunu barəsində soruşduqda ona getməyə hazırlaşdığını söylədilər."**

Allahın Rəsulu daim buyurardı: **"Usamənin qoşununu yola salın. Allah Usamənin qoşunundan boyun qaçıranı bağışlamayacaq."**

Usamə hərəkət etdi. Bayraq başının üstündə səhabə də gözləri önündə idi. Curufa çatdıqda atdan endi, bu zaman Əbu-Bəkr (r), Ömər (r) və mühacirlərdən çoxu onunla idilər. Ənsarlardan da Əsyəd ibn Xüzeyr, Bəşir ibn Səd və başqaları orada idi. Bu vaxt Ummu Əymənin göndərdiyi qasid çaparaq Usaməyə Mədinəyə dönmələrini

xəbər verdi. Çünki, Peyğəmbər (s) ölüm ayağında idi. Usamə də gecikmədən Mədinəyə qayıtdı. Əlindəki bayrağı Peyğəmbərin (s) evinin qapısına sancdığı zaman Peyğəmbər (s) də dünyadan köçdü.

Bu hədisi bir qrup tarixçilər, həmçinin Əllamə Mötəzili ibn Hədid **"Nəhcül-Bəlağənin şərhi"**nin ikinci cildinin 20-ci səhifəsindən sonra nəql etmişlər.

İslama zərbə dəyməsin deyə, nəssləri yaymaqda İmam ehtiyata çox riayət edirdi. Müsəlmanların əzəmət, şan-şöhrətinin qorunması naminə onlarla da ciddi mübarizəyə girişmədi. Həzrət Əli (ə) sükut edərək haqqını tələb etməməsini bu cür izah edirdi: **"İnsana haqqını geri almasında gecikdiyinə görə irad tutmurlar, eyb-iradı o şəxsə tuturlar ki, haqqı olmadığı bir şeyi qəsb etsin."**

O Həzrətin nəssləri nəşr etmək yolunda xüsusi bir üsulu var ki, çox hikmətamiz idi. Bildiyiniz kimi, Rəhbə günündə özünün xilafəti günlərində də camaatı onlara Qədir gününü xatırlatmaq üçün toplayıb belə buyurdu: **"Sizi Allaha and verdirirəm, hər kəs ki, Qədir günü Peyğəmbərin (s) buyurduğunu eşidibsə, ayağa qalxıb öz eşitdiklərinə şəhadət versin. Amma Peyğəmbəri (s) görənlərdən savayı heç kəs ayağa qalxmasın."**

Səhabədən 30 nəfər (onların 12-si Bədr döyüşündə iştirak etmişdilər) ayağa qalxdılar və Qədir nəssi barəsində eşidib-gördüklərinə şəhadət verdilər. Həzrətin bu səyi o zamanın çətin şəraiti (Osmanın (r) öldürülməsi, Bərsə və Şamın fitnəsi) nəticəsində həyata keçmişdi. Canıma and olsun ki, belə bir gündə hikmət üzündən dəlil gətirmək çox nadir hallarda baş verir. Salam olsun ona bütün o böyük məqamı ilə birlikdə ki, Qədir nəssi yavaş-yavaş zehnlərdən silinməkdə, unudulmaqda olduğu bu təqdirdə onu yenidən canlandıraraq Rəhbədə toplaşan cəmiyyət üçün keçmişi bir daha aydınlaşdırdı.

Həzrət Peyğəmbər (s) Qədir-Xum günündə Mövla Əlinin (ə) əlindən yapışaraq, ümmətindən yüz min (ya çox) nəfərin gözünün ona dikildiyi bir halda, buyurdu: **"Əli məndən sonra sizin mövlanızdır (vəlinizdir)."**

Elə buna görə də Qədir hədisi mütəvatir rəvayətlərin ən aydın olanlarından sayılır. Sən Peyğəmbərin (s) hikmətinə bir bax ki, bu mətləbi hamının hüzurunda elan etdi. Beləcə də o Həzrətin vəsisi Əlinin (ə) hikmətinə də bax ki, Rəhbə günündə camaatı bir yerə toplayaraq onların öz şəhadətləri əsasında həmin hədisi yenidən

diriltdi. Beləliklə, o Həzrət zamanın tələb etdiyi yumşaqlıqla öz haqqını sübut etdi və özü də bütün bunları çox aramlıqla əncam verdi. İmamət əhdinin və vəsayət nəssinin yayılmasında İmamın metodu bu cür idi. O Həzrət qafil insanları elə bir üsulla qəflət yuxusundan oyadardı ki, səs-küyə camaatın bilmərrə nifrətlə uzaqlaşmasına səbəb olmasın.

Bu barədə Əhli-sünnə yazıçılarının nəql etdikləri hədisləri araşdırıb oxumaq bizə kifayət edər. Misal üçün göstərmək olar ki, Peyğəmbər (s) Allahın əmrilə bir gün öz qohumlarını əmisi Əbu-Talibin evində yığaraq o məlum mətləblərini buyurdu. Camaat bu məsələni nübuvvət nişanələrindən hesab edirdilər, həqiqətdə bu bir möcüzə idi ki, o Həzrət az bir yeməklə çox böyük bir qrupu doyuzdurdu. Bu hədisin axırında Peyğəmbərin (s) Əlini (ə) qucaqlayıb ona belə buyurması da gəlmişdir: **"Bu mənim qardaşım, vəsim, eləcə də sizin aranızda olan xəlifəm (canişin)dir. Ona qulaq asın və itaət edin."**

İmam (ə) həmişə deyirdi ki, Peyğəmbər (s) onun haqqında buyurmuşdur: **"Sən məndən sonra bütün möminlərin vəlisisən."**

Dəfələrələ bu hədisi Peyğəmbərdən (s) nəql edərdi ki, Həzrət ona belə buyurmuşdur: **"Sənin mənimlə olan nisbətin, Harunun Musaya olan nisbəti kimidir."**

Həmçinin Peyğəmbərin (s) Qədir-Xum günündə buyurduğu bu sözləri çox təkrar edərdi: **"Məgər mən möminlərə öz canlarından da artıq deyiləmmi? Ərz etdilər ki, bəli! Buyurdu: Mən hər kəsin vəlisiyəmsə, Əli onun vəlisidir."**

Mövla Əli (ə) öz xilafət çağlarında da böyük məzlumiyyətlə dəlil gətirib, mənbərdə şikayət buyurdu: **"Xilafət əbasını filankəs çiyninə salmış idi, halbuki Allaha and olsun çox yaxşı bilirdi ki, mənim xəlifəliyə olan nisbətim dəyirman daşının mehvəri kimidir, elmlərin dəryası mənim vücudumdan qaynaqlanır, heç kəsin fikir quşu mənim fəzilətlərimin qülləsinə qədər yüksələ bilməz, mən sadə paltar geyərək, özümü ondan uzaqda saxladım. Fikirləşirdim ki, görəsən yalın əllə öz haqqımı (geri) almaq üçün qiyam edimmi? Yaxud qarşıya çıxan bu qaranlıq və zülmətin içərisində (oturub) səbr edim? (Bu elə bir vəziyyət idi ki) yaşlıları əldən salır, kiçik uşaqları isə qocaldırdı. Möminlərə öz Rəbblərinə qovuşanadək əziyyət verirdi. Mən isə səbr və**

dözümün ağılla daha uyğun gəldiyi üçün, buna görə də səbr etdim, amma necə? Gözündə çöp, boğazında sümük qalan kimi. Görürdüm ki, bütün mirasımı (mənə yetişən irsi) qəsb-qarət edirlər." (Şiqşiqiyyə xütbəsinin axırına kimi).

O Həzrət bu sözləri həmişə deyərdi: **"İlahi, mən Qüreyş və onların əlaltıları müqabilində Səndən kömək istəyirəm. Onlar mənimlə olan qohumluqlarını unudaraq uca məqamımı kiçik saydılar və mənə aid olan xilafət işində mənimlə mübarizə etmək üçün əl-ələ verdilər."**

Sonra belə buyurdu: **"Bu elə bir haqdır ki, onu almaq lazımdır, elə bir haqdır ki, onu tərk etmək lazımdır. Bir nəfər o Həzrətə belə dedikdə ki, ey Əbu-Talibin oğlu, sən bu xilafət işində nə yaman hərissən (yəni əldən vermək istəmirsən)! Buyurdu: Allaha and olsun ki, siz daha hərissiniz. Çünki, mən öz haqqımı tələb edirəm, siz isə mənimlə haqqım arasında maneçilik törə-dirsiniz."**

Həmçinin buyurdu: **"Allaha and olsun ki, Peyğəmbər (s) vəfat edəndən bu günə qədər məni öz haqqımdan ayrı salaraq mənimlə zülmlə rəftar etmişlər."**

Başqa bir vaxt isə buyurdu: **"Bizim haqqımız var, əgər versələr, yoxsa səbr edəcəyik, hər nə qədər uzun olsa da."**

Qardaşı Əqilə yazdığı məktubda belə buyururdu: **"Allah mənə görə Qüreyşi cəzalandırsın, onlar mənimlə olan qohumluqlarını kəsərək Peyğəmbərdən (s) mənə yetişəcək hökumət və qüdrəti əlimdən aldılar. Dəfələrlə buyurmuşdu ki, Əhli-Beytimdən savayı mənə kömək edəcək bir kimsənin qalmadığını gördükdə, onların ölümünə də paxıllıq etdim (heyfim gəldi). Gözlərimi çöplə dolu olan halda-örtdüm, sümük ilişib qalmış boğazımla qəzəbimi (içəri) uddum, bu (iş), Hənzəldən (acı bir meyvədir) də acı olsa belə səbr etdim."**

Bəzi dostlar o Həzrətdən **"necə oldu ki, sizin qohumlarınız - hamıdan layiq olduğunuz bir halda - bu məqamı sizdən aldılar"-** ,deyə soruşduqda o Həzrət buyurdu: **"Ey qardaşım Əsədi, yersiz vaxtı soruşursan (yəni indi yeri deyil bu sualın). Amma sənin**

soruşmaq haqqın var, belə isə bil: gördüyün kimi bəzilərinin mənə qarşı zülm edərək, haqqımı qəsb etməsi (baxmayaraq ki, mənim Peyğəmbərə (s) nə qədər də yaxın olduğumu bildirirlər) və s. Bütün bunlar mənim üstün olmağıma görə idi ki, çoxları ona həsəd aparırdılar, bəziləri də (bəzi məsləhətçiləri nəzərə alaraq) bu haqdan səxavətli surətdə keçdilər. Hakim bir olan Allahdır, Qiyamət günü də dönüş Onun tərəfinədir."

O Həzrət yenə də buyurmuşdu: **"Kimdir bizdən başqası ki, özünün elmdə möhkəm olduğunu iddia edir. (Rasixun fil elm) Hər kim bu iddianı etsə bizim əleyhimizə çıxaraq, bizə zülm etmişdir. Onlar haradadırlar, gəlsinlər görsünlər ki, Allah bizi necə ucaltdı, onları isə alçaltdı, bizə əta etdi, onları isə məhrum etdi, bizi öz nemət və lütfünə daxil, onları isə xaric etdi. Camaat bizim əlimizlə hidayətə qovuşur; ya kor, ya da gözü olur. İmamlar Qüreyşdən idilər ki, Allah onları Bəni-Haşimin nəslindən yaratdı. Onlardan başqalarının bu işə heç bir ləyaqətləri yoxdur. Onlardan başqa heç kim rəhbər ola bilməz!"**

Həmçinin o Həzrətin xütbələrinin bəzisində gəlmiş bu sözlər kifayət edər: **"Peyğəmbər vəfat edən kimi bəziləri keçmişə qayıtdılar, belə ki, həvayi-nəfsləri onları yoldan çıxarıb, məkr və hiyləyə əl ataraq, öz qohumlarından başqaları ilə əhd-peyman bağladılar. Dostluğu vacib olmuş adamdan uzaqlaşdılar, xilafət binasını öz əsil məhəllindən başqa yerə köçürdülər. Elə bir yerə apardılar ki, bütün xətaların mədəni, bütün zəlalətlərin keçidi ora idi, onlar kin-küdurət, həsəd içində boğulub, başqalarını itirmiş, heyrətlə o yan, bu yana baxaraq, məstlik və həvayi-nəfs girdabında çapalayan adamlar idilər ki, eynilə Ali Firon üslubu ilə rəyasət edirdilər. Sanki hər bir şeydən əl üzüb dünyadan yapışmış, ya da ki, aşkar surətdə dindən əl çəkmişdilər."**

Beyətdən sonra buyurduğu xütbəsində (Nəhcül Bəlağənin ən parlaq xütbələrindəndir) buyurdu: **"Bu ümmətdən heç kimi Ali-Mühəmmədlə (s) müqayisə etmək olmaz və Ali-Mühəmmədin (s) nemətinin şamil olduğu şəxsləri onlarla bir sırada tutmaq olmaz. Onlar (nemətə şamil olan şəxslər) dinin əsasları, yəqinin sütun-**

larıdır. İrəlidəkilər onlara tərəf qayıdır, geridə qalanlar onlara qoşulurlar, vilayət, vəsayət, virasət xüsusiyyətləri onların rəhbərliyi altındadır. İndi isə haqq öz əhlinə qayıdaraq, götürüldüyü yerə yenidən qaytarılmışdır."

Başqa bir xütbədə isə Mövla Əli (ə) öz müxaliflərinə olan təəccübünü bildirir: **"Mən təəccüb edirəm, axı necə də təəccüb etməyim ki, bu qruplar nə Peyğəmbərdən (s) təbəiyyət edir, nə də onun vəsisinə təqlid edirlər (dinlərində olan dəlillərdə ixtilafları vardır)."**

Zəhra (salamullahi əleyha) bu barədə çox tutarlı bir dəlil gətirmişdir. (İki xütbəyə şamil olub, çox məşhurdur). Bu xütbə dildən-dilə nəql olunmuş, Əhli-Beyt öz uşaqlarını onları öyrətməyə məcbur edərdilər. (Qurani-Kərimi hifz etməyə onları məcbur etdikləri kimi). Bu xütbələrdə xilafəti öz yerindən götürüb başqa bir yerə köçürənlərə qarşı etiraz olunmuşdur: **"Vay olsun onlara! Xilafəti böyük və möhkəm dağların qülləsindən, nübuvvət sütunlarından, Ruhul-Əminin (Cəbrayıl) (ə) nazil olduğu yerdən uzaqlaşdırdılar. Onu elə bir şəxsin əlindən aldılar ki, din və dünya işlərində hamıdan agah idi. Onların bu işlərinin nəticəsi aşkar ziyandan savayı bir şey deyildir. Əbül Həsənə nə eyib tuta bilərdilər? Niyə onlar narahat idilər? And olsun Allaha ki, onun qılıncından, işləri ədalətlə gördüyünə görə döyüş meydanlarındakı şiddətinə görə Allahın əmrlərinin həyata keçirilməsində olan səyinə görə narahat idilər. Allaha and orlsun ki, əgər ümmətinin cilovunu ona verib Peyğəmbərin (s) ona verdiyi kimi müqabilində təslim olsaydılar, Əli onları elə bir aram və asayişlə dolu həyatla təmin edərdi ki, heç bir narahatlıq yaranmaz, heç kim də zəhmətə düşməzdi və onları sağ-salamat mənzil başına çatdırardı. (Bu həyatın) şirin və içməli suyu fəvvarə vurar, bu suda heç bir qarışıqlıq (bulaşıqlıq) olmazdı. O, daim onları sirab edərdi, aşkar və gizlin onlara nəsihət edərdi, onları sirab etməkdən - doyurmaqdan savayı heç bir şeyə razı olmazdı. Bu zaman yer və göyün nemətləri onların üzünə açılardı. Tezliklə Allah-Təala etdikləri işin cəzasını onlara göstərəcək. Doğrusu bunlar kimə pənah aparmışlar? Kim onların əlindən tutacaq? Nə qədər də pis**

bir rəhbər özlərinə seçdilər! Zalımlar nə qədər də pis bir müamilə etdilər! Bu quş əsl qanadlarını əldən vermiş, süni (ikinci dərəcəli) lələklərlə uçmağa hazırlaşır, atın yalından tutmaq əvəzinə quyruğundan yapışdılar. Bu camaatın (görüm) burnu (üzü) yerə sürtülsün, elə bilirlər ki, yaxşı iş görmüşlər, halbuki fəsad törətmişlər, amma şüurları yoxdur ki, bunu dərk edələr. Vay olsun onların halına! Xalqı haqqa doğru hidayət edənə tabe olmaq yaxşıdır, yoxsa özünün hidayətə ehtiyacı olana tabe olmaq? Sizə nə olmuşdur? Bu necə hökm etməkdir?"

Burada sizin nəzərinizi İbn Abbasla Xəlifə Ömər (r) arasında olan uzun bir mübahisəyə cəlb etmək istəyirəm:

İbn Abbas deyir: **"Mən onun cavabını vermək istəmirdim, ona görə də dedim: Əgər mən də bilməsəm, Əmirəlmöminin bilər."**

Ömər (r) dedi: **"Onlar həm nübuvvətin, həm də xilafətin hər ikisinin sizdən olmasını istəmirdilər ki, bundan sevinib fərəhlənirsiniz. Elə buna görə də Qüreyş xilafəti özünə götürdü və öz işində müvəffəq də oldu."**

Dedim: **"Əgər mənə danışmağa icazə versən və mənə qəzəblənməsən, sənin cavabını verərəm."**

Ömər (r) dedi: **"De görüm!"**

Dedim: **"Siz ki, deyirsiniz Qüreyş onu özünə götürdü və müvəffəq oldu - əgər onların bu işi belə olsaydı ki, Allah onu onlar üçün qərar vermişdi, bu iş düzgün olardı və daha bundan sonra onu Qüreyşdən almaq olmazdı."**

İbn Abbas davam edir: **"Onlar istəmirdilər ki, nübuvvət və xilafət hər ikisi sizin olsun - dediniz, bu surətdə bu ayə onlara şamil olacaqdır: Onlar Allahın nazil etdiyindən narahat idilər, elə buna görə də Allah onların əməllərini aradan apardı."**

Ömər (r) dedi: **"Heyhat, ey ibn Abbas, sənin barəndə mənə elə sözlər gəlib çatıb ki, istəmirəm bunları özün iqrar edəsən, beləliklə məqamın mənim yanımda aradan getsin."**

Dedim: **"Nə sözlər? Əgər haqq söz demişəmsə, məqamım sənin yanında aradan getməməlidir. Yox, əgər batil sözlərdirsə, onları özümdən uzaqlaşdırıram."**

Ömər (r) dedi: **"Mənə xəbər veriblər ki, sən "xilafəti həsəd və zülm ilə öz mərkəzindən uzaqlaşdırmışlar" söyləmisən, doğrudur?"**

Dedim: **"Bu ki, hər bir nadan və ağıllıya aydındır. Amma bu ki, deyirsən "həsəd ilə" elə Adəmin özünə də həsəd etdilər, bizə - onun balalarına da həsəd edirlər."**

Ömər (r) dedi: **"Heyhat! And olsun Allaha siz Bəni-Haşimin qəlbləri elə bir həsədlə doludur ki, bir daha aradan getməyəcəkdir."**

Dedim: **"O qəlbləri ki, Allah bütün pislikləri onlardan silmiş və onları pak qərar vermişdir, bu cür vəsfləndirmə."**

Yenə bir gün Xəlifə Ömərlə (r) İbn Abbas arasında mübahisə düşdükdə Ömər (r) soruşur: **"Əmin oğlu necədir?"**

İbn Abbas deyir ki, elə bildim məqsədi Əbdullah Cəfərdir. Dedim ki, o, öz yoldaşları ilə gününü keçirir.

Ömər (r) dedi: **"Məqsədim o, deyil. Məqsədim siz Əhli-Beytin böyüyüdür."**

Dedim: **"O, öz vedrəsi ilə su çəkmək və Quran oxumaqla məşğuldur."**

Dedi: **"Bütün qurban olmuş dəvələrin qanı sənin boynunda qalsın, əgər soruşacağım şeyi məndən gizlətsən. De görüm, onun qəlbində yenə də xilafət arzusu vardırmı?"**

Dedim: **"Bəli."**

Dedi: **"Yəni belə güman edir ki, Peyğəmbər (s) onun xəlifəliyinə aşkar surətdə işarə etmişdir?"**

Dedim: **"Mən atamdan bu barədə soruşmuş, atam da belə demişdi: (Əli (ə) düz deyir (yəni Peyğəmbər (s) açıq buyurdu ki, Əli (ə) xəlifədir)."**

Dedi: **"Düzdür ki, Peyğəmbər danışıqda onun (Əli (ə) üçün çox böyük məqama qail idi (onu çox tərifləyirdi). Amma bu söhbətlər heç bir şeyi sübüt etmir. Peyğəmbər istəyirdi ki, bu ümməti – onun və xilafəti ona tapşırmaq barəsində imtahana çəksin, (hətta) xəstələndiyi zaman onun adını aşkar surətdə çəkmək də istəyirdi, lakin mən qoymadım."**

Bir dəfə də onlar mübahisə etməyə başladılar. Bu zaman Ömər (r) ibn Abbasa dedi: **"Sənin dostunu məzlum görürəm."**

İbn Abbas dedi: **"Belə isə, ondan zorla alınanı ona qaytar."**

İbn Abbas davam edir: **"Bu vaxt Ömər (r) əlini əlimdən çəkib getdi, bir saata yaxın elə hey öz-özü ilə deyinirdi, sonra dayandı. Mən ona çatdıqda dedi: İbn Abbas, mənə elə gəlir ki, onun öz haqqına çatmamasının səbəbi qohumlarının onu kiçik görməsidir."**

Dedim: **"Amma Alllaha and olsun ki, Allah və Rəsulu ona əmr etdikdə "Bəraət" (Tövbə) surəsinin sənin dostundan (Əbu-Bəkrdən (r)) alıb (məkkəlilərə) oxusun, (onu) kiçik saymırdılar."**

İbn Abbas bildirir ki, Ömər (r) üzünü məndən çevirib sürətlə uzaqlaşdıqda, mən də geri qayıtdım.

Əhli-beyt və dostlarının xəbərlərini mütaliə edənlər başa düşürlər ki, onlar heç bir fürsəti əldən vermirdilər, hər yerdə ki, bir fürsət əllərinə düşürdü işarə edirdilər.

HƏZRƏT ƏLİNİN (Ə) SƏADƏTLİ DOĞUMU VƏ NƏSƏBİ

Həzrət Əlinin (ə) atası Əbu Talib bin Əbdül Mütəllibdir. Əbdül Mütəllibin atası da Haşim bin Əbdül Mənafdır. Anası Haşimin oğlu Əsədin qızı Fatimədir. Bir sözlə, Həzrət Əli (ə) hər iki tərəfdən Haşim soyundandır.

Həzrət Əlinin (ə) təvəllüdü qeyri-adi, insanı təəccübləndirəcək bir şəkildə olmuşdur. Onun anası Allaha inanan və Həzrət İbrahim (ə) - hənif dininə əməl edən bir xanım idi. Tez-tez Allah-Təalanın dərgahına əl açıb münacat edərək doğum anının özü üçün asan olmasını istəyirdi. Çünki Həzrət Əliyə (ə) hamilə olduğu gündən bəri özünü İlahi nur içərisində görürdü. Sanki mələkut aləmindən ona bu mövludun digər uşaqlardan fərqli olduğu barədə ilham gəlmişdi.

Şeyx Səduq Peyğəmbərin (s) əmisi Abbasdan belə rəvayət edir: **"Mən, Abbas bin Əbdül Mütəllib və Əbdül Üzza bir qrup adamlarla bərabər Kəbənin kənarında oturmuşduq. Bu vaxt Həzrət Əlinin (ə) anası Fatimə binti-Əsəd doğum sancısı tutduğu bir halda Kəbəyə yaxınlaşaraq dedi: "Ey Allahım! Mən Sənə və**

Sənin tərəfindən göndərilən peyğəmbərlərə və kitablara inanıram. Mən babam İbrahimin (ə) söylədiklərini qəbul edirəm. Bu Beyt Ətiqi (Kəbəni) düzəldən odur. Bu evi düzəldənin və qarnımda olan uşağın hörmətinə onun doğumunu mənim üçün asan et."

Yezid bin Kənən belə deyir: **"Biz öz gözümüzlə Kəbənin arxa tərəfdən yarıldığını və Fatimənin Kəbənin içərisinə girib gözümüzdən itdiyini gördük. Sonra Kəbənin divarı birləşərək əvvəlki halını aldı. Biz Kəbənin qapısının kilidini açmaq istədik amma açılmadı. Bundan sonra bu işin Allah tərəfindən olduğunu başa düşdük."**

Fatimə dörd gündən sonra uşaq qucağında Kəbədən çıxdı və belə dedi: **"Mən bütün keçmiş qadınlardan daha üstünəm, çünki Asya Allaha ibadətin qorxulu olduğu bir yerdə, Allaha gizli olaraq ibadət etdi. İmranın qızı Məryəm də qurumuş bir xurma ağacını silkələyərək ondan təzə xurma yığıb yedi. Ancaq Beytül Müqəddəsdə doğum sancısı tutunca ona belə nida olundu: "Buradan çıx! Bura ibadət yeridir, doğum yeri deyil". Lakin mən Allahın evinə girdim, Cənnət meyvələrindən və yarpaqlarından yedim. Çölə çıxmaq istədiyimdə isə mənə belə səslənildi: "Ey Fatimə! Onun adını Əli qoy, çünki o, Əlidir (ucadır)."**

Allah-Təala Həzrəti Peyğəmbərə buyurur: **"Mən onun adını Öz adımdan götürdüm, onu Öz xislətlərimlə xislətləndirdim və ona elmimin sirrini öyrətdim. Bütləri Mənim evimdə qıracaq olan şəxs odur. Onu sevib əmrinə tabe olan kəslərin xoş halına, ona düşmən olub əmrlərinə qarşı çıxan kəslərin vay halına."**

Həzrət Əlidən (ə) başqa Kəbədə doğulmaq nə keçmişdə, nə də gələcəkdə heç kimə nəsib olmamış və olmayacaq da. Bu elə bir açıq həqiqətdir ki, nəyinki Əhli-sünnə alimləri, hətta heç bir dinə xidmət etməyən alimlər belə onu qəbul etmək məcburiyyətində qalmışlar. Necə ki, İbn Səbbaci Maliki **"Fusulul-Muhummə"** adlı kitabında yazır: **"Ondan (Əlidən) əvvəl heç bir kimsə Kəbədə doğulmamışdır. Bu, Allah-Təalanın Onun məqamına yüksəltmək və əzəmətini bildirmək üçün ona xas etdiyi bir fəzilətdir."**

“Biharul Ənvar” kitabının 9-cu cildində o Həzrətin Əli adlandırılmasının səbəbi belə izah olunur: **“Əbu Talib uşağı anasından aldıqda onu bağrına basıb Fatimənin əlindən tutaraq Kəbənin yanına gəldi və Allah-Təalaya belə minacat etdi: “Ey bu qaranlıq gecənin Rəbbi! Ey nur saçan ayın Rəbbi! Bizə dəqiq hökmünü bildir. Bu uşağın adı haqqında nəzərin nədir?” Elə bu an qeyb aləmindən bir nida gəldi: “Siz ikiniz tər-təmiz bir uşağa məxsus edildiniz. O tər-təmiz seçilmiş və sevilən uşaqdır. Onun adı Uca olan Allahdan Əlidir.”**

Bəzi rəvayətlərdə də belə nəql edilmişdir: **“Fatimə binti Əsəd doğumdan sonra hələ qeybdən nida gəlməmiş onun adını Heydər qoymuş və uşağı ərinə verərək belə demişdir: “Tut bunu, bu, Heydərdir.”**

Buna görə də Həzrət Əli (ə) Xeybər döyüşündə yəhudilərin məşhur pəhləvanı Mərhəbə belə səsləndi: **“Mən o kəsəm ki, anam adımı Heydər qoymuşdur. Çöldəki aslan kimi çox güclüyəm.”**

O Həzrətin adı Əli qoyulduqdan sonra Heydər adı onun digər ləqəbləri arasında yer tutdu. Həzrətin məşhur ləqəblərindən Heydər, Əmirəlmöminin, Əsədulla, Mürtəza və Rəsulullahın qardaşı saya bilərik. Əbül Həsən və Əbu Turab isə Həzrətin məşhur künyələridir.

Bu yerdə Mövla Əlinin (ə) şərafətli doğumu haqqında Seyyad Əli Nəği Hindinin dediyi bir şeirə nəzər salaq:

السيّد علي نقي الهنديّ

لم يكن في كعبة الرّحمن مولود سواه
إذ تعلي في البرايا عن مثيل في علاه
وتولّي ذكره في محكم الذكر الإله
أيقول الغرّ فيه بعد هذا لست أدري
أقبلت فاطمة حاملة خير جنين
جاء مخلوقا بنور القدس لا الماء المهين
و تردّي منظر اللاهوت بين العالمين
كيف قد اودع في جنب و صدر؟ لست أدري
أقبلت تدعو و قد جاء بها داء المخاض
نحو جذع النخل من ألطاف ذي اللطف المفاض
فدعت خالقها الباري بأحشاء مراض

كيف ضجّت كيف عجّت كيف ناحت؟ لست أدري
لست أدري غير أنّ البيت قد ردّ الجواب
بابتسام في جدار البيت أضحي منه باب
دخلت فانجاب فيه البشر عن محض اللّباب
إنما أدري بهذا غير هذا لست أدري
كيف أدري و هو سرّ فيه قد حار العقول
حادث في اليوم لكن لم يزل أصل أصول
مظهرالله لكن لا اتّحاد لا حلول
غاية الإدراك أن أدري بأنّي لست أدري
ولد الطهر عليّ من تسامي في علاه؟
فاهتدي فيه فريق و فريق فيه تاه
ضلّ أقوام فظنّوا أنّه حقّا إله
أم جنون العشق هذا لا يجازي؟ لست أدري

(ألأميني:ألغدير-6-37)

Seyid Əli Nəgi Hindi

Ondan özgə Kəbədə bir kimsə mövlud olmadı,
Ən uca kəs tək onu hər dəfə Haqq xatırladı.
Daima Quranda Allahdan sora gəldi adı,
Haqqını korlar necə inkar edibdir, bilmirəm.

Hamiləykən Fatimə üz tutdu Kəbə səmtinə,
Bir xeyirli şəxsi çün salmışdı Xaliq bətninə.
Aləmi-lahuti sarmışdı, o qarın, o sinə,
Onda hər əmni necə pərkar edibdir, bilmirəm.

Allaha üz tutdu ağrı təndə etdikcə şərar,
Xurma nəxli tək, açıb əl lütfə oldu intizar.
Ağladı, can narahat, bətnin hər üzvü tarmar,
Hansı yolla güc tapıb, rəftar edibdir bilmirəm.

Onu billəm ki, o saat beyt ona verdi cavab,
Bir qapı açdı divarda, oldu daxil ol cənab.
Bilməmək bilməkdi, bildi ki, olur əqlim xərab,
Kim bu dərki, dərkimə vadar edibdir bilmirəm.

Bir uşaq gəldi cahana adı, Haqqın zirvəsi,
O Əli ki, yaxşılarçun oldu nurun qibləsi.
Onla ayrıldı tamam dostilə düşmən pərdəsi,
Kim onu Allah bilib, aşkar edibdir bilmirəm.

Qeyd etdiyimiz rəvayətlərdən bəlli olur ki, Əbu Talib və Fatimə binti Əsəd Allaha inanmış və İslam dinini qəbul etmişlər. Onlar Məkkədə cahiliyyə dövrünün hökm sürdüyü zamanlarda belə, uşaqlarının adının qoyulması üçün Allaha dua etmişlər. Fatimə binti-Əsəd Rəsulullaha (s) bir növ analıq etmişdir. O, həm də Rəsulullaha (s) iman gətirib Mədinəyə hicrət edən ilk qruplar arasında olanlardandır. Fatimə binti-Əsəd vəfat edərkən Rəsulullah (s) öz köynəyini ona kəfən etmiş, namazını qılmış və özü də onu dəfn etmişdir. Fatiməni qəbir əzabından qurtarmaq üçün Peyğəmbər (s) onun məzarında uzanmış və ona təlqin verib dua etmişdir.

İmam Sadiqə (ə) **"sizin babanız Əbu Talib iman gətirməyib, kafir olaraq dünyadan köçmüşdür"** deyiləndə, o cənab belə buyurmuşdur: **"Bunlar yalan sözlərdir deyirlər. O, "Mühəmmədin (s) Musa kimi bir peyğəmbər olduğunu keçmiş kitablarda yazıldığını bilirsinizmi?" dediyi halda necə kafir ola bilərdi..."**

Həzrət Əli (ə) buyurur: **"Mənim Rəsulullaha (s) olan soy yaxınlığımı və xüsusi mövqeyimi bilirsiniz. Mən hələ kiçik uşaq ikən mənə öz otağında yer vermişdi, məni bağrına basır və yatağında öz yanında yatırırdı."**

Digər rəvayətlərdə Peyğəmbərin (s) onu dəfn edəndə üç dəfə **"qul ibni"** (de mənim oğlum) deməsi onun müsəlman olub, dünyadan köçməsinə böyük bir dəlildir. Sonradan Həzrət Peyğəmbərdən (s) soruşdular: **"De mənim oğlum" ifadəsi nə deməkdir ki, üç dəfə təkrar etdiniz."** Həzrət buyurdu: **"Qəbrin sorğu-sualında Allahın kimdir, Peyğəmbərin kimdir suallarına tam cavab verdi. Lakin imamın kimdir soruşulanda o, (Əbu Talib) dayandı. Mən ona kömək edib, de mənim oğlum – Əli İmamımdır dedim."**

Giriş söhbətinin axırında Mövla Əli (ə) elmindən bəhrələnərək yenicə yazdığım bu kiçik qəsidəni də oxuculara ərməğan edirəm:

İMAMƏT NƏ DEMƏKDİR?

İslamın ən mühüm məsələlərindən biri də İmamətdir. İmamət haqqında həmişə çoxlu müzakirələr olmuşdur. Zaman-zaman din alimləri məzhəb ayrı-seçkiliyinə görə, bu müzakirələri bəzən mübarizə və münaqişə meydanına da çevirmişlər.

Quran və Peyğəmbər (s) sünnəsindən, xüsusən də mötəbər ravilərdən istifadə etməklə İmamət məsələlərində ehtiyatlı olmaq, təəssübkeşlik etmədən, təfriqə salmadan İslamın nəfinə olaraq məntiqi sübut və dəlillərlə bu əqidə məsələsini əsl məcrasına salmaq günün vacib problemlərindəndir. İmamət məsələsində aşağıdakı şərtlərə riayət etməklə müəyyən qaranlıq məqamlara aydınlıq gətirmək olar:

- Məntiqi və üsuli bəhsləri qeyri-məntiqi bəhslərdən və lüzumsuz təəssübkeşlikdən ayıraraq Qurana və Peyğəmbər (s) sünnəsinə istinad etmək.

- **"Dünya və axirət"** məqamlarını tənzim etməkdə **"İmamət"** rəhbərliyini tətbiq etmək.

- **"İmamət"** məsələsini Quran vasitəsilə aydınlaşdırmaq və ayələrin təfsirini dəqiqləşdirməklə, nəinki müsəlman aləminə, bəlkə də dünya ictimaiyyətinə çatdırmaq.

- İmamət məsələsi, nübuvvətin yaşaması, İslamın müqəddəratıdır, desək səhv etmərik.

Şeyx Müfid imaməti belə tərif edir: **"İmamlar, məsum peyğəmbərlərin yerində qaimdirlər. Ehkamı icra edib, həddləri qaim edib, şəriəti qoruyub, xalqı tərbiyələndirirlər. Onlar da ənbiyalar kimi məsumdurlar."**

Bu düzgün tərifə uyğun olaraq vəhydən başqa peyğəmbərlərə sabit olan vəzifələrin hamısı imamlara da aiddir. Çünki Allah-Təala vəhy qapısını sonuncu peyğəmbərindən sonra bağladı. Buna baxmayaraq, sonuncu Peyğəmbərin davamçılarını imamət yolu ilə nizamlamış və bu statusu Qiyamət gününə qədər onlara həvalə etmişdir. Bu baxımdan imamlar da peyğəmbərlər kimi məsumdurlar.

Bu tərifə əsasən, imam Allah tərəfindən təyin olunaraq peyğəmbər vasitəsilə xalqa çatdırılır. Habelə imam peyğəmbərin davamçısı olmaqla müəyyən fəzilət və imtiyazlara da malik olur. Ona görə də **"imamət"** məsələsi üsuliddin maddələrindən biridir.

İmamət barəsində ixtilaflı nəzərlər çoxdur. Əhli-sünnə alimlərindən Fazili Quşçi öz **"Şərhi təcridi Quşçi"** əsərində yazır: **"İmamət -**

ümumə, dünya və din işlərində rəhbərlik etməkdir, peyğəmbərin canişini ünvanı ilə."

İbni Xəldun da eyni ilə bu tərifə qoşulmuşdur.

Bəzi alimlər isə imaməti peyğəmbərin canişini kimi qəbul edərək dini qorumağı İmam üçün vəzifə hesab etməklə ona itaət etməyi vacib sayıblar. Amma imamətə verilən bu cür təriflər heç də düzgün deyil. Belə bir İmamı xalq da seçə bilər. Lakin xalqın seçdiyi imam elə xalq səviyyəsində olar. Bu məsələyə bir azdan qayıdacağıq.

İmam Əli ibn Musadan bu barədə olan bir hədisi nəzərinizə çatdırırıq: **"Həqiqətən imamət, dinin başçısı, müsəlmanların nizamı, dünyanın silahı və möminlərin izzətidir. İmamət həqiqi İslamın əsası və onun uca olan budağıdır. İmamın vasitəsilə namaz, oruc, zəkat, həcc və cihad kamilləşir. İmamın vasitəsilə mal-dövlət, insanların ehtiyaclarına görə paylanması asanlaşır. İmamın vasitəsilə ehkam və hüdud icra olunur. Ölkənin sərhədləri imamın vasitəsilə qorunur. İmamın vasitəsi ilə Allahın halal və haramı bərpa olunur. İmam Allahın dinini müdafiə edir və İlahi dəlil ilə xalqı Allaha tərəf aparır..."**

Bu barədə etiqadımız belədir. İmam ki, peyğəmbərin canişini və davamçısıdır, gərək peyğəmbər kimi günah və xətadan məsum olub İlahi elmə malik olsun. Eyni zamanda xalqı günah işlərdən çəkindirməklə kamillik dərəcəsinə çatdırsın. Bununla belə insanların dünya və axirət səadətinə nail olmalarını təmin etsin. Bu dəstəyə **"İmamiyyə"** və yaxud da **"şiə"** deyilir.

Yuxarıda qeyd etdiymiz kimi imam (canişin) Allahın təyinatı ilə Peyğəmbərə (s) xəbər verilir və Peyğəmbər (s) də öz növbəsində bu təyinatı xalqa çatdırır.

Heç şübhəsiz ki, müəyyən təriqət və məzhəb sahibləri **"nə üçün Peyğəmbər (s) özü sağlığında imamət məsələsini həll etmədi və ya yazıb camaat üçün qoymadı?"** sualını verəcəklər.

Cavabı çox sadədir. Belə ki, hamımıza məlumdur ki, Həzrət Peyğəmbər (s) vida həccindən qayıdarkən Qədir-Xum çölündə qızmar günəşin altında müxtəlif vilayətlərdən olan hacıların hüzurunda əmisi oğlu və kürəkəni Əli ibn Əbu Talibi (ə) özündən sonra vəsi və canişin təyin etdi. Məşhur kəlam olan **"Mən kimə ağa olmuşamsa, məndən sonra Əli onun ağasıdır"** hədisini də orada söylədi.

Bununla belə Həzrət Peyğəmbər (s) bilirdi ki, ondan sonra bəzi adamlar camaat arasında ixtilaf salacaqlar. Ona görə də ömrünün axır saatlarında buyurdu: **"Mənə yazmaq üçün qələm-kağız gətirin. Sizə lazım olan bəzi məsələləri yazım ki, məndən sonra dəstələrə bölünməyəsiniz."**

Bu vaxt yanında oturanlardan biri dedi: **"Bu kişi sayıqlayır. Quran bizə kifayət edər."** Beləliklə, Həzrət Peyğəmbərin (s) bu işinin də qarşısı alındı.

Məlumat üçün bildirirəm ki, bu deyilənlərə inansaq, bu qənaətə gəlmək olar ki, Peyğəmbərin uşaqlığı və qocalığı, sağlamlığı və xəstəliyi onun ağlının zəifləməsinə dəlalət etməz. Onun haqqında mənfi rəy yaratmağın özü də ən böyük günahdır. Hansı ki, Quran-Kərimdə aşikar dəlil-sübutlarla Peyğəmbər (s) haqqında Allah-Təala Özü arayış vermişdir:

"Batmaqda olan ulduza (Sürəyya ulduzuna) and olsun ki,

Sizin yoldaşınız (Mühəmməd əleyhissəlam) nə haqq yoldan sapmış, nə də azmışdır!

O, kefi istəyəni (havadan) danışmır.

Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir.

Onu (Məhəmməd əleyhissəlama) çox qüvvətli olan (Cəbrail) öyrətdi. (**"ən-Nəcm"** surəsi, 1-5-ci ayələr)

Və ya:

"*Doğrudan da sən böyük bir əxlaq sahibisən.(Böyük bir din üzərindəsən!)*" (**"əl-Qələm"** surəsi, 4-cü ayə)

Bu və bunların timsalında olan digər ayələrdə də Allah-Təala Peyğəmbərin (s) bütün hərəkət və sükunətlərini bəyənmiş, onu çirkinliklərdən məhz Özü qorumuşdur. Bütün bunlar bizə deməyə bir daha əsas verir ki, Peyğəmbərin (s) həyatı (uşaqlığı və qocalığı) Allah dərgahında musavidir. O heç zaman səhv etməz və hədyan danışmaz…

Cabir ibn Əbdüllah Ənasridən belə nəql olunub: **"Biz Peyğəmbərin (s) yanında idik. Əli (ə) gəldi. Həzrət Peyğəmbər (s) buyurdu: And olsun Allaha "xeyrülbəriyyə" sənsən və sənin şiyələrindir. Onlar Qiyamət günü nicat tapacaqlar."** (**"Dürrül-Mənsur", 6-cı cild, səh. 379)**

Əhli-sünnə alimlərindən olan Hakim Nişaburi özünün **"Şəvahidut Tənzil"** kitabında Peyğəmbərdən (s) iyirmidən çox hədis nəql edib. Nişapuri həmçinin ibn Abbasdan nəql edir ki, Peyğəmbər (s) buyur-

du: **"Bu ayənin məfhumu, ya Əli, sən və sənin şiələrindən ibarətdir."** Nişapuri eyni zamanda Əbu Bərzədən və digər Əhli-sünnə alimləri - Hücrinin **"Səvaiq"**, Mühəmməd Şəblənçinin isə **"Nurul Əbsar"** kitabında sözügedən məzmunlu hədisi nəql edib.

Bu hədislərə diqqət yetirəndə **"şiə"** kəlməsinin Peyğəmbər (s) zamanında və onun özü tərəfindən meydana gəldiyi bir daha məlum olur.

İmam kəlməsi əslində **"Əmm"** maddəsindən götürülmüşdür və **"qəsd"** etmək mənasını daşıyır. **"Ümm"** əsl, mərcə, cəmaət və din mənasındadır. İmam da o adama deyilir ki, ona iqtida olunur və bütün işlərdə qabaqcıllıq edir. **"İmam – əmam, qabağ"** mənasında işlənib. Baxmayaraq ki, ərəb dilində bunun çoxlu - qabaqcıl, müəllim, bina tikiləndə divarı düzəltmək üçün istifadə olunan ip və yol mənaları var.

"Əttəhqiq" kitabının yazdığına görə bunların hamısının kökü **"qəsd etmək"** mənasındadır. Anaya ərəb dilində **"ümm"** deyirlər. Bu da ona görədir ki, insanın məqsədi və xüsusi diqqəti həmişə ona tərəfdir. Həmçinin **"İmam"** da ona görə, deyilir ki, insan xüsusi bir məqsəd və diqqətlə onun sorağına gedir. Quranda yeddi yerdə tək (imam), beş yerdə isə cəm şəkildə (əimmə) gəlib. Bir yerdə isə **"lövhi məhfuz"** mənasına gəlib. Qurani-Kərimə müraciət edək:

"*Həqiqətən ölüləri dirildən, onların (dünyada) nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb açıq-aydın kitabda (lövhi məhfuzda, yaxud zəmanə imamının yanında) təsbit etmişik.*" (**"Yasin"** surəsi, 12-ci ayə)

Lüğətdə **"İmam"** kəlməsi ism, məsdərdir. Bu kəlmə müəyyən yerlərdə müxtəlif mənalar verir.

Qurani-Kərimdə yol mənasında işlənilmişdir. Müqəddəs kitaba diqqət edək:

"*(Göydən od göndərib) Onlardan da intiqam aldıq. Hər iki şəhər, (Sədum və Əykənin qalıqları) açıq-aşkar göz qabağındadır (yol üstündə aşikardır). (Məkkə müşrikləri onlara baxıb niyə ibrət almırlar).*" ("əl-Hicr" surəsi, 79-cu ayə)**

İki dəfə kitab mənasına gəlib:

"*Ondan (Qurandan) əvvəl Musanın (İsrail oğullarına, möminlərə) rəhbər və mərhəmət olan kitabı (Tövrat) var idi. Bu (Quran özündən əvvəlki İlahi kitabları) ərəb dilində təsdiq edən, zalimləri*

***(Allahın əzabı ilə) qorxutmaq və yaxşı əməl sahiblərinə (Cənnətlə) müjdə vermək üçün olan bir kitabdır!*" (“Əhqaf” surəsi, 12-ci ayə)**

“*Məgər Rəbbindən açıq-aydın bir dəlilə (Qurana) istinad edən, ardınca Allahdan bir şahid (Cəbrail) gələn, ondan da əvvəl Musanın (öz ümməti üçün) bir rəhbər və mərhəmət olan kitabının (Tövratın) təsdiq etdiyi kimsə (dünyaya meyl edənlər, ona bel bağlayanlar kimi ola bilərmi)!? Bunlar (bu dəlilləri təsdiq edən müsəlmanlar) Qurana inanırlar. (Ya Mühəmməd!) Quranı inkar edən zümrənin (bütün müşriklərin və kafirlərin) vəd olunduğu yer Cəhənnəmdir. Artıq sən də onun barəsində şübhəyə düşmə. O, sənin Rəbbindən (gələn) haqdır, lakin insanların (Məkkə əhlinin) əksəriyyəti buna inanmaz!*" (“Hud” surəsi, 17-ci ayə)

Beş yerdə ilahi rəhbərlərə itlaq olunub. Onlardan biri Allah-Təalanın İbrahim peyğəmbərlə (ə) olan mükaliməsidir. Qurani-Kərimdə buyurulur:

***“(Ya Mühəmməd!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrlərilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrini) tamamilə yerinə yetirdi. (Belə olduqda) Allah ona: Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm, - dedi. (İbrahim isə:) Nəslimdən necə? - deyə soruşdu. (Allah onun cavabında:) (Sənin nəslindən olan) zalimlər Mənim əhdimə (imamlığıma) nail olmazlar, - buyurdu.”* (“Əl-Bəqərə” surəsi, 124-cü ayə).**

Bu ayəi-şərifədə diqqəti çəkən bir neçə məqam var. Bunlardan biri **“imamət”**dir ki, Allah-Təala onu İbrahim peyğəmbərə (ə) **“nübüvvət və risalətdən”** sonra verdi. Bəzi üləmaların əqidəsi belədir ki, İmamət məqamı peyğəmbərlik məqamından da üstündür. Belə ki, peyğəmbərlər xüsusi imtahanlardan çıxandan sonra risalətə təyin olunurlar. Sonra isə Allah-Təala onlara imamət məqamı da verir. Burdan belə qənaətə gəlmək olar ki, bu məqam əvvəlkindən üstün olmasaydı, sonradan verilməzdi.

Bundan əlavə o imtahanlardan ki, Həzrət İbrahim (ə) çıxıb. Bu bizim başa düşdüyümüz adi insanların imtahanları deyil. Butün bu kimi imtahanların öhdəsindən fəqət peyğəmbərlər gələ bilərlər.

“Nübüvvət” və **“İmamət”** arasındakı fərq bundan ibarətdir: **“Nübüvvət”** - Peyğəmbərlik vəzifəsi Allah-Təala tərəfindən gələn vəhyləri xalqa çatdırmaq və onlara doğru-düzgün yol göstərməkdir. **“İmamət”** isə bu qanunları şəraitə uyğun olaraq insanları tərbiyə etmək,

kamillik məqamına çatdırmaqdır. Həmçinin dövlət və hökumət qurmaqla bu qanunları ictimai şəkildə icra etməkdir. Göründüyü kimi **"İmamət"** bəlkə də **"Nübüvvət"**dən də ağır bir vəzifədir.

Kəlam elmində bunlara **"İraeyi-təriq"** (yol göstərmək) və **"isal be mətlub"** (məqsədə çatdırmaq) deyilir. Bunun da birincisi peyğəmbərlərə, ikincisi isə imamlara şamil edilir.

Qeyd: Yuxarıda dediklərimizdən bir daha aydın olur ki, **"imamət"** və **"nübüvvət"** vəzifələri bir adamda cəmləşə bilər. Hansı ki, Həzrət İbrahimdə (ə) və son olaraq Həzrət Mühəmməd Peyğəmbərdə (s) cəmləşmişdi. Peyğəmbərimiz (s) dünyadan rehlət buyuranda **"imamət"**i öz canişini Həzrət Əli ibn Əbu Talibə (ə) və onun nəslindən olan 11 övladlarına (12 imama) əmanət olaraq çatdırdı. Biz bu əmri Qurani-Kərimin **"Maidə"** surəsində açıq-aydın görürük:

"… Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a.) tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim…" **("Əl-Maidə" surəsi, 3-cü ayə)**

Yuxarıdakı **"əl-Bəqərə"** surəsinin 124-cü ayəsinin davamı olaraq **"Maidə"** surəsindəki bu ayədə Mövla Əlininin (ə) Qədir-Xum çölündə Allah-Təala tərəfəindən rəhbər elan edilməsi, bununla belə dinin kamilləşməsi imamət məsələsinə əyani bir sübutdur.

"Əl-Bəqərə" surəsinin 124-cü ayəsindəki bir nüansa da diqqət edək. Bu mətləb Həzrət İbrahimin (ə) **"bu vəzifəyə övladlarımdan da qərar verəcəksənmi?"**,- deyə Allah-Təalaya sual etməsidir. Allah-Təala isə İbrahim peyğəmbərə (ə) cavab olaraq **"Bu vəzifə zalımlara qismət olmaz"** deməsi ilə tamamlandı. Yəni sənin övladlarından, onlar ki, özlərini günaha salmayıblar və məsumdurlar, ancaq onlara qismət olar. Burada zülmdən məqsəd təkcə başqasına zülm etmək deyil, tam olaraq ədalətin müqabilində olan zülmdən söhbət gedir. Kamil ədalətdən - yəni hər şeyi yerli-yerində qərar verməkdən. Burada zalım sözü öz-özünə zülm edən adama da aiddir. Hansı ki, haqqı dərk etməmək, Allahı qoyub başqa batil tanrılara tapınmaq – kafir olmaq, elə zülm etmək deməkdir. Necə ki, Qurani-Kərimdə buyurulur:

"(Ya Mühəmməd!) Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: **"Oğlum!** ***Allaha şərik***

qoşma. Doğrudan da Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır).” (**“Loğman” surəsi, 13-cü ayə)**

Qurani-Kərimdə bir yerdə isə imam kəlməsi hidayət və zəlalət başçılarına ümumi şəkildə işarə edilərək buyurulur:

“Bir gün (Qiyamət günü) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri, yaxud peyğəmbərləri və ya əməl dəftərləri) ilə birlikdə hüzurumuza çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar), onlara tük (xurma çərdəyinin yarığındakı tel) qədər haqsızlıq edilməz.” (**“Əl-İsra” surəsi, 71-ci ayə)**

İmamət din və şəriət məsələsi olmaqla yanaşı, bütün yaranışın təşrii və təkvini qanunlarını özündə birləşdirən bir məfhumdur. Hansı ki, onun da fövqündə Allah-Təala özü durur.

Qurani-Kərimdə **“imamət”**ə xüsusi əhəmiyyət verilir və o insan təkamülünün sonuncu mərhələsi kimi qiymətləndirilir. Tarixi faktdır ki, bəşər aləmində bu yüksək məqama - imamətə ancaq **“ululuəzm”** - şəriət gətirən peyğəmbərlər nail olublar. Ən başlıcası isə bu şərəfə sonuncu peyğəmbər Həzrət Mühəmməd (s) öz on iki canişini ilə (hansı ki, onlara on iki imam deyilir) birgə yetişmiş və bu gün də zəmanə imamının (Sahib əz-Zamanın) idarəçiliyindədir.

Əbdullah ibn Məsud Peyğəmbərdən (s) nəql edərək yazır: **“Allah-Təala İbrahimə (ə) dedi: Mən imamət vəzifəsini sənin övladlarına - zülm edənlərə verməyəcəyəm.”**

Həzrət İbrahim (ə) ərz etdi: **“İlahi, mənim nəslimdən imamətə yetişməyənlər kimlərdir?”**

Allah-Təala buyurdu: **“Onlar ki, bütə səcdə ediblər, onları İmam qərar verməyəcəyəm. Onların İmam olmağa ləyaqəti də yoxdur.”**

Bu hədisi məşhur əhli-sünnə alimi ibn Məğazəli **“Mənaqib”** kitabında nəql edərək yazır: **“Həzrət Peyğəmbər (s) bu sözün ardıyca buyurdu: Axır ki, Həzrət İbrahimin (ə) duası qəbul olundu. Mən və Əli ömrümüzdə heç vaxt bütə sitayiş etməmişik, zülmlə aludə olmamışıq. Allah-Təala da bizi İmam qərar verdi.”**

Bu hədisdən göründüyü kimi, İmam bütün hallarda günahsız və məsum olmalıdır. Fərqi yoxdur, istər vəzifəni icra edəndən əvvəl, istərsə də icra edən vaxt.

Fəxri Razi də öz **"Təfsir"**ində Peyğəmbərin imamətindən danışaraq yuxarıdakı ayəni onların məsum olmağına dəlil gətirmişdir.

Mövla Əli (ə) məhəbbəti, onun eşqi və ona olan böyük sevgi həmişə olduğu kimi bu gün də (onun haqqında düşünərkən) məni ilhama gətirir. Bu kiçik qəsidəni də elə Mövla Əlini (ə) düşünən zaman yazmağa müvəffəq olmuşam:

Ey dəlili-Kibriya, ey ümmətə Mövla Əli,
Ey olan müşkülgüşa dünyavu həm uğba Əli.

Zat pakundan sənün heyrandu nəfs natiqə,
Səndən heç vaxt olmayıb xali, fəna dünya Əli.

Elm Adəm bab elmində çü dərya qətrəsi,
Adəm üçün sən deyildin əlləməl-Əsma Əli?!

Gəştiyi-Nuhə nicat verdin ki, ta qərq olmaya,
Nuh heyrandır sənə, sənsən ona «lövla Əli».

Olmasaydı zülfüqarın - tiğ la seyfun əgər,
Dini-islam ruşt tapmazdı ola xəzra Əli.

Aşikara səs gəlirdi ol Öhüddə vəsfüvə,
Nəğməyi-soti mələkdən «la fəta illa Əli».

Mən özüm heyranu sərgərdanəm hər bir felüvə,
Olmuşam eşq aləmində valehi şeyda Əli.

Etiqadım günbəgün artır cəlalu rütbüvə,
Bab elmilə olubsan mərd müstəsna Əli.

Ver Əziz Pünhanə bu elm nəhayətdən bir az,
Qoy ola qəlbi onun elmilə ta əhya Əli.

İMAMƏTİN FƏLSƏFƏSİ

Peyğəmbərlərin besət məsələlərində lazım olan dəlil və sübutlar eyni zamanda imamətə də aiddir. Burada hədəf eynidir, lakin bircə fərq odur ki, **"risalət"**də vəhy var, **"imamət"**də isə ilham və kəramət.

Əllamə Hilli mərhum Xacə Nəsrəddin Tusinin **"Təcridül Etiqad"** kitabının nübüvvət bəhsində peyğəmbərlərin besət fəlsəfəsinə aid şərhini verəndə maraqlı fikirlər irəli sürmüşdür. Subyektiv fikirləri zamanı doqquz fəlsəfəyə işarə edən Ə.Hillinin münasibətinin böyük əksəriyyəti imamətə də aiddir.

- Əqli, mərifəti, nəqli bəyanla qüvvətləndirmək. Hansı ki, biz əqlin vasitəsilə üsuliddin və firuiddin məsələlərinin həqiqətlərini dərk etməyə qadirik. Amma bəzən ürəyimizdə vəsvəsələr yaranır ki, bu da bizim əməl etməyimizə mane olur. Amma bu əqli hökmlər məsumların dilindən bəyan olunanda belə vəsvəsələr qəlbimizdən çıxır və biz o əmələin ardınca arxayın gedirik.

- Bəzən insan bir işi görməkdən qorxur. Məsələn, qorxur ki, birdən bu əməl Allah razılığının əksi ola bilər. Lakin İlahi rəhbərlərin – İmamın bəyanı insandan bu qorxunu götürür.

- İnsanın əməllərinin hamısı ağlın çərçivəsinə sığışmır. Çünki bəzi əməllər var ki, zahirən ağılla düz gəlmir və insan onun yaxşı və pisliyini dərk edə bilmir. Bu zaman yenə İlahi rəhbərlər insanın köməyinə çatır.

- Bəzi şeylərin ziyan və xeyrini insan öz düşüncəsilə ayıra bilmir. Bu zaman İlahi bir mənbədən ilham alan rəhbərlər onun ziyan və xeyrini müəyyən edilmiş qaydada xalqa çatdırırlar.

- Cəmiyyət formasında yaşayan insanlar əməkdaşlıq etmədən, bir-birinə köməklik göstərmədən öz problemlərini həll edə bilmirlər. Bu halda cəmiyyətdə müəyyən qanun olmasa, insanlar bir-birilə əməkdaşlıq edə bilməzlər. Deməli, elə bir qanun mövcud olmalıdır ki, cəmiyyəti təkamül yoluna yönəldib kamilliyə apara bilsin. Bu qanunun hansının cəmiyyəti kamilliyə aparmağa qadir olmasını onu icra etməyə layiq olan ilahi rəhbərlər bacararlar.

- İnsanlar kamalı, elm və təhsili kəsb etməkdə müxtəlif istedadlara malikdirlər. Bəziləri bu işə qadir, bəziləri isə acizdir. Burada isə məsum rəhbərlər birinci dəstəni daha da inkişaf etdirir, ikinci dəstəyə isə kömək etməklə kamala çatdırırlar.

- İnsanların əxlaqları bir-birindən fərqlidir. Bu zaman bu fəzilətləri inkişaf etdirmək üçün mütləq İlahi rəhbərlərə ehtiyac var.

- İlahi rəhbərlər əməllərin nəticələrindən xəbərdardırlar. Yəni ancaq İlahi əzabdan və İlahi savabdan xəbərdar olan imamlar - məsumlar insanlara dəqiq məlumat vermək iqtidarındadırlar.

Bütün bunlardan məlum olur ki, imamət, nübüvvət xəttinin davamı və onun yaşamasına xidmət edən bir vəzifə olaraq sadaladığımız fəlsəfi fikirlər onda sabitdir. Qurani-Kərimdə bunlar üç ünvanda xülasə olunub: **"Təlim"**, **"Tərbiyə"** və **"Ədaləti bərpa etmək."** Bunların hər üçünə aşağıda qeyd etdiyimiz ayrı-ayrı ayələrdə işarə olunub:

"(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur… Allahın ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı və hikməti (Quranı və şəriəti) öyrədər." **("Əl-Cumuə" surəsi, 2-ci ayə)**

Bu ayədə peyğəmbərlərin və imamların əhəmiyyətli olan məqsədlərinə **"Təlim"** və **"Tərbiyə"** ünvanı iiə işarə edilib.

"And olsun ki, biz peyğəmbərlərimizi açıq-aşkar dəlillər (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər. Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də icad etdik ki, Allah özünü görmədən Ona (Onun dininə) və peyğəmbərlərinə kömək göstərənləri (dəmirdən düzəlmiş silahlarla kafirlərə qarşı vuruşan mücahidləri) bəlli etsin. Həqiqətən, Allah yenilməz qüdrət, qüvvət sahibidir!" **("Əl-Hədid" surəsi, 25-ci ayə)**

Bu ayeyi-şərifədə **"ədalət"** prinsipləri bir meyar olaraq ortaya qoyulmuşdur.

Ədalət məsələlərində dünyəvi rəhbərlər öz şəxsi mənafelərini qorumaq fikrində olduqları halda, özlərini elə göstərirlər ki, biz ictimai mənafeləri qoruyuruq. Heç şübhəsiz ki, imanı olmayan, din və şəriət bilməyənlər ədalət carçısı ola bilməzlər. Çünki ilahi elmdən, ən əsası isə əqidə və iman çeşməsindən qidalanmayıblar. Onların axirət aləminə, Qiyamətin ədalət məhkəməsinə inamları yoxdur. Buna görə də belə adamlar günün və zamanın adamları olurlar. Bu gün vəzifə başında cinayətdə yaxalandısa, vəziyyətdən müxtəlif yollarla çıxmaqla özünə bəraət qazandırır.

İlahi rəhbərlər isə Allah elmindən qidalandıqları üçün eyni həqiqəti və ədaləti bərpa etməyə çalışırlar. İnsan kimi ali bir əsərin memarı Allah olduğu üçün öz yaratdığı bu kamilliyi istədiyi formada yaşatmağa da qadirdir. Heç şübhəsiz ki, bunun üçün də insanlara Qurani-Kərim kimi İlahi qanunlar və İlahi rəhbərlər təyin etmişdir. Bu İlahi rəhbərlər də belə elm və biliklərdən bəhrələnməklə insan cəmiyyətini doğru və düzgün idarə edə bilərlər.

Bu mövzuya aid Mövla Əlinin (ə) dediklərinə diqqət edək: **"Bəli, yer üzü heç vaxt İlahi rəhbərdən boş olmaz. Onlar həmişə var, İlahi dəlil ilə ya aşkar, ya da gizlin surətdə Allah dinini qoruyub saxlayırlar." (Nəhcül-Bəlağə. Kəlmə 147).**

Həmçinin İmam Cəfər Sadiqdən (ə) bir hədisə nəzər salaq: **"Biz Əhli-Beyt, İslamda həddini aşanların əlini kəsirik. Bidət qoyan və özündən din düzəldənləri aşkar edirik. Cahillərin nadürüst olan təfsirlərini Qurandan ayırırıq." (Üsuli-Kafi, 1-ci cild, səh. 32)**

Buradan belə bir nəticəyə gəlirik ki, İmamın vücudunun əsas fəlsəfəsi ədaləti bərpa etmək, Peyğəmbərlərin gətirdiyini qoruyub saxlamaq və xalqı bu dinə hidayət etməkdən ibarətdir.

İmam Əli ibn Musa Rzanın (ə) Mərv məscidində imamətə aid olan bir söhbətinə diqqət edək: **"İmamət ənbiya məqamı, ovsiya irsidir. İmamət Allah və peyğəmbər canişinliyidir. İmam işıqlı aydır. İmam aşkar çıraqdır. İmam nur və zülmətdə hidayət edən bir ulduzdur. İmam ölümdən və süqutdan xilas edəndir. İmam bərəkət yağışıdır, işıqlı günəşdir. İmam Allahın xalq arasında olan əminidir. İmam Allahın höccətidir. İmam Allahın yer üzərində xəlifəsi və Onun tərəfinə hidayət edəndir. İmam Allahın qanunlarını müdafiə edəndir. İmam dinin nizamı, müsəlmanların izzətidir. İmam münafiqləri qəzəbləndirən və kafirləri həlak edəndir. " (Üsul-Kafi, 1-ci cild, səh. 200)**

Mövla Əli (ə) isə imamət barəsində buyurur: **"İmam xalqın içərisində həlqələri bir-birinə bağlayan bir ipə bənzəyir. Əgər o ip qırılsa, həlqələr dağılar və heç vaxt nizamlanmaz. Əgər İmam xalqın arasında olmasa, cəmiyyətin bəndləri dağılar və heç vaxt düzəlməz." (Nəhcül-Bəlağə, 46-cı xütbə.)**

İMAMƏT BARƏSİNDƏ İKİ NƏZƏRİYYƏ

Şiə alimlərinin nəzərinə görə, xilafət İlahi bir mənsəbdir və Allah tərəfindən İslam cəmiyyətinin ən ləyaqətli və ən bilikli şəxsinə verilir. Peyğəmbərlə İmam arasında olan aydın sərhəd və hədd budur ki, Peyğəmbər şəriətin əsasını qoyan, vəhyin nazil olduğu şəxsdir, həmçinin kitab və şəriət sahibidir. Amma imam bu deyilənlərin heç birinə malik deyil. Lakin hökumət işləri və rəhbərlikdən başqa, o, (imam) Peyğəmbər olmadığı halda onun canişini öhtəsinə düşən dini məsələləri bəyan edib aydınlaşdırır.

Buna görə şiə nöqteyi-nəzərindən xəlifə təkcə dövrün hakimi, İslamın rəhbəri, qanunların icraçısı, hüquqları qoruyan və ölkə sərhədlərinin keşikçisi yox, həm də müəmmalı və çətin məzhəbi məsələləri aydınlaşdıran, müəyyən səbəblərə görə dinin banisi tərəfindən bəyan olunmayan hökmləri və qanunları Qurani-Kərim baxımından təkmilləşdirən şəxsdir. Şiə baxımından Peyğəmbərə aid olan sifətlərin əksəriyyəti İmamda olmalıdır. Aşağıdakılara nəzər yetirək:

- Peyğəmbər dediyimiz şəxs məsum (pak və günahsız) olmalıdır. Bütün ömrü boyu dini hökmləri, həqiqətləri bəyan etməkdə, camaatın məzhəbi süallarına cavab verməkdə səhvə və xətaya düçar olmamalıdır. İmamda da bu keyfiyyətlər olmalıdır.

- Peyğəmbər şəriətdə ən bilikli şəxs olmalı və şəri məsələlərin heç biri onun üçün məxfi qalmamalıdır. İmam da Peyğəmbər zamanında bəyan olmayan şəriət məsələlərini bəyan və təkmil edən olduğu üçün gərək dini hökmlərdə və məsələlərdə heç bir şey onun üçün məxfi olmasın.

- Nübüvvət seçki yolu ilə yox, nəsib - yəni Allah tərəfindən təyin olunmalıdır. Peyğəmbəri gərək Allah tanıtsın və Onun tərəfindən peyğəmbərlik məqamında otursun. Çünki yalnız peyğəmbər məsumu qeyri-məsumdan seçər və qeybi inayətlər sayəsində müəyyən məqama çataraq dinin bütün incəliklərinə vaqif və agah olan şəxsi tanıyar.

Yuxarıda sadalanan bu şərtlər Peyğəmbər barəsində mötəbər olduğu qədər onun canişinində - imamda da mötəbər olmalıdır.

Bu danılmaz bir həqiqətdir ki, İslam dünyəvi din olmaqla yanaşı, həm də ictimai və mütərəqqi dindir. Nə qədər ki, Peyğəmbər (s) diri idi, ümmətə rəhbərlik etmək onun öhdəsində idi. Onun vəfatından sonra rəhbərlik məqamı hökmən cəmiyyətin ən ləyaqətli fərdinə tapşırılmalı idi. Peyğəmbərdən (s) sonra rəhbərlik məqamının seçkili, yaxud intisabi olması barədə iki nəzəriyyə mövcuddur.

Şiələrin etiqadı budur ki, rəhbərlik bir intisabi məqamdır, Peyğəmbərin (s) canişini Allah tərəfindən təyin olunmalıdır.

Lakin sünnilərin etiqadlarına görə, bu məqam seçkilidir və ümmət gərək Peyğəmbərdən (s) sonra ölkə işlərini idarə etmək üçün bir nəfər seçsin. Hər iki nəzəriyyə tərəfdarları özləri üçün dəlillər gətirmişlər. Hansı ki, bu dəlillər əqaid kitablarında zikr olunmuşdur. Burada araşdırıla biləcək məsələ risalət əsrinə hakim olan şəraitin təhlil olunmasıdır. Bu da öz növbəsində hər iki nəzəriyyədən birini isbat edə bilər.

Risalət əsrində İslamın daxili və xarici siyasəti tələb edirdi ki, Peyğəmbərin (s) canişini Allah tərəfindən və Peyğəmbərin (s) özünün vasitəsilə təyin olunsun. Çünki İslam cəmiyyəti həmişə təhdid edici xətər - yəni Roma və İran imperiyaları və münafiqlər tərəfindən müharibə, fəsad və ixtilaf törətməklə hədələnirdi. Həmçinin, ümmətin mənafeyi tələb edirdi ki, Peyğəmbər (s) siyasi bir rəhbər təyin etməklə bütün cəmiyyəti xarici düşmənə qarşı vahid bir cəbhədə birləşdirsin. Bununla da düşmənin hər hansı bir hiylə ilə hakim olması zəminini aradan qaldırsın.

Peyğəmbərin (s) vəfatından sonra Əbu Süfyan hiyləyə əl atdı və Əliyə (ə) beyət etməklə müsəlmanları bir–birinə zidd olan iki cinaha parçaladı, **"Suyu bulandırıb balıq tutmaq"** istədi. Amma Həzrət Əli (ə) bu çirkin niyyətindən xəbərdar olduğu üçün onun sözünü rədd etdi: **"Allaha and olsun sənin fitnə – fəsad salmaqdan başqa bir məqsədin yoxdur! Fitnə odunu şölələndirmək heç də sənin bugünkü işin deyil, əksinə, dəfələrlə şər yaratmaq istəmisən. Bil ki, mənim sənə ehtiyacım yoxdur". (İbn-Əsir "Kamil", 2-ci cild, səh. 220; Əl-İqdül Fərid, 2-ci cild, səh. 249)**

Münafiqlərin təxribatçılıq fəaliyyəti barədə Qurani-Kərimin **"Ali–İmran", "ən-Nisa, "əl-Maidə", "əl-Ənfal", "ət-Tövbə", "əl-Ənkəbut", "əl-Əhzab", "Mühəmməd", "əl-Fəth", "əl-Mücadilə", "əl-Hədid", "əl-Münafiqun"** və **"əl-Həşr"** surələrində də geniş qeydlər vardır.

Görəsən, İslama qarşı pusquda durmuş bu cür qüvvəli düşmənlərin mövcud olması ilə belə, necə düzgün olardı ki, Peyğəmbər (s) yenicə əsası qoyulmuş İslam cəmiyyəti üçün özündən sonra bir rəhbər təyin etməsin? Peyğəmbər (s) rəhbər təyin etməklə hər növ yaranmaqda olan ixtilafın qarşısını almalı, möhkəm və davamlı müdafiə xətti yaratmaqla İslam vəhdətini təmin etməli idi. Çünki Peyğəmbərin (s) vəfatından sonra hər dəstənin **"Əmir bizdən olmalıdır"** deməsinin qarşısını almaq və hərc-mərcliyi birdəfəlik yox etmək üçün onun sağlığında rəhbər təyin etməkdən başqa yol mümkün deyildi. Bütün

bunlara görə Peyğəmbər (s) besətin ilk günlərindən həyatının son anlarına qədər dəfələrlə canişinlik məsələsini ortaya atmış və vaxtında öz təyinatını Allah-Təalanın əmri ilə vermişdir. Bu işi Həzrət Peyğəmbər (s) müxtəlif məqamlarda təkrarən etmişdir. O, təkcə ömrünün axırında yox, həmçinin risalətin başlanğıcında, hələ yüz nəfərdən artıq adamın iman gətirmədiyi bir dövrdə öz canişinini camaata tanıtdırmışdı. Bu hadisə **"yaxın qohum-əqrəbanı Allah əzabından qorxut"** ayəsi nazil olanda Həzrət Mühəmməd (s) 45 nəfərdən ibarət olan yaxın qohum-əqrəbasını bir evə dəvət edərək İlahi söhbətlər edəndən sonra öz əksini tapdı. O məclisdə Həzrət belə buyurdu: **"Sizin aranızda mənə kömək edəcək ilk şəxs mənim sizin içinizdəki vəsim və canişinim olacaqdır".** O, zaman birinci olaraq Həzrət Əli (ə) onların arasından ayağa qalxıb onun risalətini təsdiq etdi. Peyğəmbər (s) orada olanlara üz tutub demişdi: **"Bu cavan mənim qardaşım, vəsim və canişinimdir".** Təfsirçilər və hədis yazanlar arasında bu hədis **"Hədis bədid – dəvət"** adı ilə məşhurdur.

Həzrət Peyğəmbər (s) münasib bildiyi hər yerdə – səfərdə, döyüşlərdə və digər yerlərdə Əlinin (ə) vilayət (rəhbərlik) və canişinliyini aşkar şəkildə demiş və öz tapşırığını vermişdir. Amma onların heç biri əzəmət nöqteyi–nəzərdən **"Hədisi Qədir"**ə çata bilməz.

Burada **"Hədisi-Qədir"**i təfsilatı ilə diqqətə çatdırmaq yerinə düşər. İslam aləmində Qədir-Xum əhvalatı danılmaz həqiqətdir.

Hicrətin onuncu ilində Peyğəmbər (s) fərizəni yerinə yetirmək və həcc mərasimini icra etmək üçün Məkkəyə yola düşdü. Bu dəfə bu fərizənin yerinə yetirilməsi əziz Peyğəmbərin (s) ömrünün sonuncu ilinə təsadüf edirdi. Bu səbəbə görə də onu **"həccətül – vida"** (vida həcci) adlandırdılar. Həcc mərasimini öyrənmək və Peyğəmbərlə (s) həmsəfər olmaq həvəsi ilə o Həzrətlə yoldaş olanların sayı təxminən 120 min nəfərdən çox idi.

Həcc mərasimi sona çatdı. Əzəmətli bir cəmiyyət o Həzrəti yola salmaq məqsədi ilə Mədinəyə tərəf yola düşdü. Karvan Qədir–Xum adlı susuz bir yerə - Cöfədən üç millik məsafəyə çatanda vəhy mələyi – cənab Cəbrail nazil oldu və Peyğəmbərə (s) arxada qalanların da gəlib çatması üçün dayanmağı əmr etdi.

Tarixi sənədlərə görə, o yerə qədər cənab Cəbrayıl üç dəfə Peyğəmbərə (s) nazil olmuşdu.

Karvandakılar Peyğəmbərin (s) susuz bir məntəqədə, qızmar günəşin altında gözlənilməz və yersiz görünən dayanmasından hey-

rətləndilər. Camaat öz–özünə deyirdi: **"Deyəsən, Allah tərəfindən böyük əmr gəlmişdir".**

Vəhy mələyi gətirdiyi ayəni Peyğəmbərə (s) çatdırdı:

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən Allah kafir camaatı düz yola yönəltməz!". **("əl-Maidə" surəsi, 67-ci ayə)**

Ayənin məzmununa diqqət edək. Peyğəmbərə (s) vəhy olundu ki, Allah-Təalanın əmrini camata çatdırsın. Əks halda onun peyğəmbərlik vəzifəsi naqis qalardı. Çünki ayədə buyurulur ki, əgər çatdırmasan, elə bil peyğəmbərlik etməmisən. Ayənin ardınca buyurulur: **"Allah-Təala səni insanlardan qoruyacaq".** Çox maraqlıdır, görəsən, həmin insanlar, Peyğəmbərlə (s) bir yerdə olan hacılar, nəyə görə o Həzrətə əziyyət verəcəkdilər ki, Allah-Təala da öz peyğəmbərini onlardan qorumağa söz verirdi. Heç şübhəsiz ki, bu məsələ Peyğəmbərin (s) özündən sonra vəsiyy təyin etməsi idi ki, çoxları da bu məqama meyilli idilər. Amma gün kimi aydındır ki, Peyğəmbərin (s) yerində oturan bütün cəhətlərdən ona bərabər və kamil bir şəxsiyyət olmalı idi. Ən əsası isə təyinat Allah-Təalanın öz seçimi olmalı idi.

Başqa cür desək, məqsəd heç də Quran ayələrini və İslam qayda–qanunlarının məcmusu deyildi. Çünki deyilməmişdən məlumdur ki, əgər Peyğəmbər (s) İlahi qayda–qanunların məcmusunu təbliğ etməsəydi, öz risalətini yerinə yetirməmiş olacaqdı və belə bir iş tam aşkardır və ayə nazil olmasına heç bir ehtiyac yoxdur. Əksinə, onu deməkdə məqsəd xüsusi bir əmr idi ki, bu təbliğ olunmayınca mühüm olan risalətin vəzifəsi özünün kamillik zirvəsini tutmazdı. Buna görə də, bu əmr İslamın mühüm əsaslarından biri olmalı idi ki, İslamın əsl qaynaqları ilə qarşılıqlı əlaqədə olsun. Bu da Allah-Təalanın birliyi və Peyğəmbərin (s) risalətindən sonra ən mühüm məsələ sayılsın.

Yuxarıda qeyd etdiyimiz kimi, Peyğəmbərin (s) qorxu məsələsinə gəlincə, o Həzrət bu məsələnin yerinə yetirilməsi yolunda camaatdan ona bir zərər yetişə biləcəyini ehtimal edirdi. İndi görək İslam təfsirçilərinin məmuriyyət mövzusunu təyin etməkdə verdikləri ehtimallardan hansı ayənin məzmununa daha yaxındır?

Şiə və sünnü hədisçilərindən otuz nəfəri bəhs etdiyimiz ayənin birmənalı şəkildə Qədir–Xumda nazil olmasını təsdiq edirlər. Mərhum Əllamə həmin bu otuz nəfərin adını özünün **"əl-Ğədir"** kitabında (1–

ci cild, səh. 196-209) ətraflı bəyan etmişdir. Onların arasında Təbəri, Əbu Nəim İsfahani, İbn Əsakir, Əbu İshaq Həmvini, Cəlaləddin Siyuti kimi şəxslərin adlarını görə bilərik. Eyni zamanda bunların arasında Peyğəmbərin (s) yaxın səhabələrindən İbn Abbas, Əbu-Səid Xudri və Bəra ibn Azibinin də adı qeyd olunmuşdur.

Bu ayədə onların dediyi kimi, əsas məqsəd Allah-Təala Peyğəmbərinə (s) əmr etmişdir ki, Əlini (ə) **"möminlərin mövlası"** kimi tanıtdırsın. Çünki Peyğəmbərdən (s) sonra İmamın canişinliyi, vilayəti və rəhbərliyi böyük və əhəmiyyətli məsələ idi. Elə buna görə də bu əmrin çatdırılması, risaləti təkmilləşdirən mühüm bir məsələ idi. Əks halda onun bəyan olunmamasından çəkinmək risalətin naqisliyi və İslamın böyük nöqsanı olardı.

Bir cəhəti də bu idi ki, hələ 33 yaşı tamam olmayan Əlinin (ə) canişin və vəsiyy olması səhabələrin içərisində yaş cəhətdən ondan çox böyuk olan şəxslərə ağır gələrdi.

Bundan əlavə elə Peyğəmbərin (s) ətrafında olan şəxslərin çoxunun yaxın adamlarının qanı döyüş səhnələrində İslam mücahidi Həzrət Əlinin (ə) qılıncı ilə tökülmüşdü. Bu halda belə bir fərdin camaata rəhbər təyin olunması onlara çox ağır gələcəkdi. Üstəlik Əli (ə) Peyğəmbərin (s) əmisi oğlu və kürəkəni idi. Belə bir şəxsin xilafətə təyin olunması dar düşüncəli adamların nəzərində bir növ qohumluq təəssübü kimi də canlanacaqdı.

Məlum olduğu kimi, hələ o zaman ərəblərin böyük əksəriyyəti həmişə mühüm mənsəblərə qəbilənin ağsaqqallarını layiq görürdülər. Cavanların isə təcrübəsizliyini bəhanə edərək, onlara heç bir qədir–qiymət vermirdilər. Bütün bunları nəzərə alan Peyğəmbər (s) Mövla Əlinin (ə) vəsiyyliyini elan etməsində tərəddüd edirdi. Amma onu da qeyd edək ki, hələ neçə il bundan əvvəl Peyğəmbər (s) cavanlardan bir neçəsini rəhbər vəzifəyə təyin etmişdi. Onlardan İtab ibn Üseydi Məkkəyə vali, Üsamə ibn Zeydi Təbuka ezam olunan qoşuna sərkərdə təyin etməsi və başqalarını misal gətirmək olar.

Amma bu kimi qeyri–münasib şəraitə baxmayaraq, Allahın iradəsi bu oldu ki, İslamın davamlılığına təzminat versin və öz Peyğəmbərinin (s) cahanşümul risalətini ondan sonra layiqli bir rəhbər və yol göstərən təyin etməklə kamilləşdirsin.

QƏDİR-XUM HADİSƏSİ

Zülhiccə ayının on səkkizində günortanın qızmar günəşi şiddətlə Qədir-Xum çölünü döyəcləyirdi. 120 mindən artıq olan izdihamlı dəstə Peyğəmbərin (s) əmri ilə miniklərdən yerə enib o günün tarixi hadisəsinin intizarını çəkirdilər. Onlar istinin təsirindən əbalarını iki yerə bölərək birini başlarına, digərini isə ayaqlarının altına atmışdılar. O həssas dəqiqələrdə ətrafı bürüyən azan səsi yorğun-arğın düşən möminlərə xüsusi ruh gətirdi. Müəzzinin təkbir səsi ucaldıqca mömin müsəlmanlar Zöhr namazı qılmaq üçün hazırlaşırdılar. Peyğəmbər (s) Zöhr namazını o əzəmətli cəmiyyətlə birgə qıldı. Qədir diyarı heç vaxt o cür əzəmətli bir cəmiyyət görməmişdi.

Namaz qurtardıqdan sonra Həzrət Peyğəmbər (s) camaatın arasına gəlib dəvələrin cihazlarından düzəldilmiş uç pilləli minbərə çıxdı və uca səslə bir xütbə oxudu: **"Sitayiş Allaha məxsusdur. Ondan kömək istəyirik, Ona iman gətirmişik, Ona təvəkkül edirik və öz nəfslərimizin şərrindən, əməllərimizin pisliyindən elə bir Allaha pənah aparırıq ki, yolunu azanlar üçün ondan başqa heç bir hidayətedici və yolgöstərən yoxdur və onun hidayət etdiyi şəxsi heç bir azdıran yoxdur. Şəhadət veririk ki, ondan başqa heç bir məbud yoxdur, Mühəmməd Allahın bəndəsi və elçisidir.**

Ey camaat! Yaxın vaxtlarda mən haqqın dəvətinə ləbbeyk deyib sizin aranızdan gedəcəyəm. Mən də məsulam, siz də məsulsunuz. Mənim barəmdə nə fikirləşirsiniz?"

Peyğəmbərin (s) dostları dedilər: **"Şəhadət veririk ki, sən Allah dinini təbliğ etdin, bizə qarşı xeyirxahlıq edib bizə nəsihət etdin. Bu yolda çox çalışdın. Allah sənə gözəl mükafat versin."**

Camaat sakitləşəndən sonra Peyğəmbər (s) yenidən buyurdu: **"Siz şəhadət vermirsinizmi ki, Allahdan başqa bir məbud yoxdur, Mühəmməd Allahın bəndəsi və Onun Rəsuludur? Şəhadət vermirsinizmi ki, Cənnət, Cəhənnəm, ölüm haqdır və Qiyamət günü şəksiz gəlib çatacaq, Allah torpaqda gizlənən insanları dirildəcək?"**

Dedilər: **"Bəli! Bəli! Şəhadət veririk."**

Peyğəmbər (s) yenə buyurdu: **"Mən sizin aranızda iki qiymətli əmanət yadigar qoyuram, onlarla necə rəftar edəcəksiniz?"**

Bir nəfər soruşdu: **"Bu iki qiymətli şeydən məqsəd nədir?"**

Peyğəmbər (s) buyurdu: **"Siqli–Əkbər (ağır əmanət) Allahın kitabıdır. Onun bir tərəfi Allahın əlində, o biri tərəfi isə sizin əlinizdədir. Onun kitabına çəng vurun ki, yolunuzu azmayasınız. Siqli–Əsğər isə mənim itrətim, Əhli–Beytimdir. Allahım mənə xəbər vermişdir ki, mənim bu iki yadigarım Qiyamət gününə kimi bir–birindən ayrılmayacaq. Ey camaat! Allahın kitabından və mənim itrətimdən qabağa keçməyin və o ikisindən geri qalmayın ki, nəticədə məhv olmayasınız."**

Bu vaxt Peyğəmbər (s) Mövla Əlinin (ə) əlindən tutub yuxarı qaldırdı. O qədər qaldırdı ki, onun böyrünün ağlığı hamıya göründü. Hamı Əlini (ə) Peyğəmbərin (s) yanında gördü və onu yaxşıca tanıdı. Onlar dərk etdilər ki, bu yığıncaq Həzrət Əliyə (ə) aid olan bir məsələ barəsindədir. Hamı xüsusi bir diqqətlə Peyğəmbərin (s) sözlərinə qulaq asmağa hazırlaşdı.

Peyğəmbər (s) buyurdu: **"Ey camaat! Möminlərə qarşı onların özlərindən də ləyaqətli olan kimdir?"**

Peyğəmbərin (s) dostları dedilər: **"Allah və onun Rəsulu daha yaxşı bilir."**

Peyğəmbər (s) buyurdu: **"Allah mənim mövlam, mən də möminlərin mövlasıyam və onların özlərindən ləyaqətliyəm. Ey camaat! Mən hər kəsin mövlası və rəhbəriyəmsə, Əli (ə) də onun mövlası və rəhbəridir."**

Peyğəmbər (s) bu axırıncı cümləni üç dəfə təkrar edib sonra buyurdu: **"Pərvərdigara, Əlini sevən hər kəsi sev, Əli ilə düşmənçilik edən hər kəsə düşmən ol! İlahi, Əlinin dostlarına kömək et, düşmənlərini xar və zəlil et! Pərvərdigara, Əlini haqqın mehvəri qərar ver."** (Əhməd ibn Hənbəlin Müsnəddə nəql etdiyinə əsasən, Peyğəmbər (s) bu cümləni dörd dəfə təkrar etmişdir)

Sonra əlavə etdi: **"Gərək burada olanlar burada olmayanlara xəbər verib başqalarını da bu işdən xəbərdar etsinlər."**

Hələ əzəmətli yığıncaq davam edirdi ki, vəhy mələyi nazil olub Peyğəmbərə (s) müjdə verdi. Allah-Təala bu gün öz dinini kamilləşdirib, öz nemətini bütün möminlərə bol etdi.

Qurani-Kərimə diqqət edək:

"…Bu gün dininizi sizin üçün kamil etdim. Sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmləndirilməsi, cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a.) tamamladım. Və sizin üçün din olaraq İslamı bəyənib seçdim…" **("əl-Maidə" surəsi, 3-cü ayə)**

Bu vaxt Peyğəmbərin (s) təkbir səsi ucaldı və buyurdu: **"Allaha şükr edirəm ki, öz dinini kamil etdi və öz nemətini sona çatdırdı, mənim risalətimdən və məndən sonra Əlinin vilayətindən (rəhbərliyindən) razı oldu".**

Peyğəmbər (s) öz yerindən aşağı endi və onun dostları dəstə-dəstə gəlib Əlini (ə) təbrik edir, onu özlərinin və hər bir mömin kişi və qadının mövlası deyə çağırırdılar. Ömər ibn Xəttab (r) və Əbu Bəkr (r) də birinci təbrik edənlərdən oldular.

Bu vaxt Peyğəmbərin (s) şairi olan Həssan ibn Sabit ayağa qalxdı və böyük tarixi hadisəni gözəl bir şer qəlibinə saldı, ona bir əbədilik rəngi verdi. Onun məşhur qəsidəsinin yalnız iki beytinin tərcüməsini veririk:

"Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Qalx ayağa, mən səni özümdən sonra camaatın rəhbəri və yol göstərəni seçirəm. Mən hər kəsin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır. Camaat! Sizə vacibdir ki, Əlinin (ə) həqiqi dostları və onun düzgün ardıcılları – havadarları olasınız".

Qeyd etdiklərimiz, bu böyük tarixi hadisə əhli-sünnə alimlərinin tarixi mənbələrindən bizə yetişənlərin xülasəsidir. Bu hadisə şiə kitablarında daha geniş şəkildə bəyan olunmuşdur. Mərhum Təbərsi **"Ehticac"** kitabında Peyğəmbərin (s) xütbəsini eyni ilə -olduğu kimi vermişdir.

Sonda Seyid Əzim Şirvaninin Qədir-Xum haqqında yazdığı **"Bu gün"** adlı qəsidəsini oxuculara təqdim edirik:

BU GÜN
(ixtisarla)

Saqi, mey ver bizə kim dövlət olub yar, bu gün.
Sövqidən conbeş edər Sabiti Səyyar bu gün.
Dövr edər vəcd ilə nöh günbədü dəvvar bu gün.
Mən gərək nuş qılam badəyi gülnar bu gün.
Badə içməkdə mənim bir qərəzim var bu gün.

Etmişəm tövbə əgər badəyi tərsadan mən,
Kеçmişəm deyrü künişt ilə kəlisadan mən.
İçmişəm badəyi rəngin xum İsadan mən,
Almışam indi xəbər badəyi mövladan mən.
Meyi mövladan elə saqəri sərşar bu gün.

Badeyi Müstəfəvi xumda edər cuşi-xuruş,
Ki, səfasından onun qarət olur taqəti huş.
Badədir ruhu Xuda saqiye gülçöhrə süruş,
Aləmə nəşri maarif eləyir badə füruş.
Açılıb rəhmət ilə xanəyi xümmar bu gün.

Piri meyxanə meyi nabə işarət eylər,
Dürdi nüşan vilayətə bəşarət eylər.
Dini təkmili qılıb kəşfi kəramət eylər,
Müxtəsər aləmə təbliği risalət eylər,
Faş olur mərtebeyi Heydəri- Kərrar bu gün.

Mən də peyğəmbəri namürsəliyəm Şirvanın,
Ki, gərək zahir edəm şənini hər zişənun.
Faş edəm rəmzini həqdən yetişən fərmanın,
Saqiya, yoxmu ayağında meyi rəmmanın,
Şəhri qıl badə ilə cənnətü ənhar bu gün.

Haqq edib çün məni peyğəmbəri fövcü şüəra
Ki, gərək aləmə təbliği qılam sübhü məsa,
Ərşidən haqq mənə təbliğə qılır faşu nida.
Ki, əgər eyləməsəm xəlqə bu təbliği əda,
Olmayıb xalqa risalət dəxi izhar bu gün.

Mən rəsulu şüəra mülkü vəfadan gəlirəm,
Hüdhüdu namәbərəm şəhri Səbadan gəlirəm.
Aləmə sibqət edib badu səbadan gəlirəm,
Həcc mənaya gedib kuhi Minadan gəlirəm.
Şahidi vəhdət olub kəsrətü zəvvar bu gün.

Axiri həccini çün xətmi Rəsul qıldı tamam
Azimi Yəsrib olur Əhmədi Mahmudi məqam
Ol şəhə Xumm Qədir üzrə olundu ilham
Gəldi Cibril ki, ey Sərvəri səyyar məqam
Sənə göndərdi salam İzədi Qəhhar bu gün.

Sən gərəkdir edəsən Xumm-Qədir üzrə nüzul
Qüftü-qu eyləməsin zümrəyi əshabu füzul
Bəs gərək zahir ola mərtəbəyi zovcu bətul
Olacaqdır o şıhın ziddi zəlumən və cəhul
Açılır aləmə məxvi olan əsrar bu gün.

Yetir afaqa o Şahənşahın ovlağını
Sabit et cümləyi mövlalara mövlalığını
Əliyyü ali əla gövhəri əlalığını
Zatının dürr kirənmayəyi valalığını
Mənbər üstə çıxıban eyləginən car bu gün.

Etdi çün hökmü nüzul ey şahi səyyarə xədəm
Oldu əshabilərin surəti hali dərhəm
Etdilər ərzi ki, ey zübdəyi əhli aləm

Su tapılmaz bu Qədir içrə hərarətdən həm
Kürrəyi xak olubdur kürrəyi nar bu gün.

Nazil olmağa deyil heç münasib bu məqam
Hökm hökmündür vəli biz sənə etdik elan
Açıban dürçü dəhən sərvəri ecazi kəlam
Dedi bu hökmü xüdavəndidür, ey qövmi kiram,
Eyləyib hökmü mənə Qadiri Cabbar bu gün.

Etdi əshabə bu hökmü çü şəhi ərşi sərir
Dedilər sot ilə ləbbeyk ucaldı təkbir
Oldular cümlə piyada çe səqirü çe kəbir
Müntəzir kim nədü fərmani xudavənd Qədir
Nə büruz eyləyəcək əzədi- Dəvvar bu gün.

O şahənşaha hicazi şotor oldu mənbər
Bədə təmhidi Xudavəndi Qədimu Davər
Dedi ayə deyiləm mən sizə candan behtər
Dedilər cümlə bəli, ey şəhi vala gövhər
Sənsən ovlalığa mövlayi səzavar bu gün.

Dedi hər şəxsə ki, aləmdə mən olsam mövla
Ona Mövladu Əli, ol şəhi mülkü məna
Ona nasir olana nasir olar bari Xuda
Hasidi düşməninə düşmən olar Rəbbi Səma
Bu duanı elədi Əhmədi Muxtar bu gün.

Dutdu bir xeymədə bəs Heydəri Kərrar qərar
Təhniyət etdilər ol şiri dilə xurdu kübar
İbni Xəttab xitab eylədi, ey Şiru Şikar,
Bəxxun-bəxxun ləkə mövla səni qıldı Cabbar
Oldun, ey sərvəri din, aləmə sərdar bu gün

O qədər çəkmədi kim Xətmi Rəsul qıldı vəfat
Zülməti xakidə məstur olub abi həyat
Dutdular Xızr təriqindən o qovmu zülmat
Qıldılar üzlərinə həqqi ziyafat isbat
Dedilər rehlət edib Seyyidi Əbrar bu gün.

Uydular əhrimənə hökmü Süleyman qaldı
Bir də həqqin bizə göndərdiyi fərman qaldı
Bənd olub zahirinə batini Quran qaldı
Kəsdilər suyunu əfsurda gülüstan qaldı
Necə kim indində zahiridür asar bu gün.

Heç şəkk yoxdu ki, əlan kəma-kan saqi
Oldu hər əsrdə bu nöqtə nümayan saqi
Bizə haqq naibdir Fazili Şirvan saqi
Əliyyü Ali o səbti Şəhi Mərdan saqi
Ki, Onun həqiqini qovmu edər inkar bu gün.

Elmdə tay deyildir O Cənabə bir əhəd
Bu Əli mənqəbətun vəsfinə yoxdur sərhəd
Nə qəmi etsə əgər hasidi iqbali həsəd
Hasidi boynuna zəngir olacaq həblü məsəd
Münkiri rütbəsinin mənzilidir dar bu gün.

…Nə üçün saz elədün bir belə hədyan, Seyyid,
Ki, dedin hər kəsə bu növ ilə böhtan, Seyyid.
Olacaqdır dili əhbab pərişan, Seyyid,
Gəl usan xətmi-kəlam et, sənə qurban, Seyyid.
Ramazan kimi tapıb tuli bu güftar bu gün.

ŞİƏ SÖZÜNÜN MƏNASI VƏ YARANMA TARİXİ

Şiə sözünün mənası lüğət kitablarında tabe, ardıcıl kimi göstərilmişdir. Ərəb dilində **"şiətur-rəcul"** sözü deyildikdə, o kişinin arxasıyca gedən, ona tabe olan mənası nəzərdə tutulur. Məşhur Əhli-sünnə lüğət və ədəbiyyatçıları Firuzabadi **"Qamusul-lüğət"** və İbn Əsir **"Nihayətul-lüğət"** kitabında şiə sözünün mənası haqda belə yazırlar: **"Həqiqətən bu ad (şiə) Əli (ə) və onun Əhli-beytini sevənlərə şamil olunurdu. Daha sonra bu ad onlar üçün xüsusiləşdi."**

Şiə məzhəbi ardıcılları Əlinin (ə) tabeləri olduqları üçün onlara aid edilən bu ad sonradan xüsusiləşdi. Belə bir sual ortaya çıxır: Nə üçün bu məzhəb Həzrət Mühəmmədin (s) ümməti kimi müsəlman deyil, sonradan qondarılmış şiə adını daşıyır?

Əvvəla, biz insanlar yalnız və yalnız öz yaradanımıza baş əyir, Ona itaət edirik. Allahdan başqa heç bir kəsin əmrinə itaət etmək bizim vəzifəmiz deyil. Fiziki və ya mənəvi gücündən asılı olmayaraq, kimsənin bizlərə göstəriş vermək hüququ yoxdur. Lakin əmr və itaət sahibi olan Allah-Təala bizlərə müəyyən bir şəxsə itaət etməyi əmr edərsə, bu şəxsin itaəti bizim üçün vacib sayılır. Bu şəxsin itaəti, onun əmrlərinə tabe olmaq bilavasitə Allah-Təalanın əmrinə itaət etmək deməkdir. Allah-Təala bəşəriyyətin atası Adəmi (ə) yaratdıqdan sonra bütün mələklərə onun qarşısında səcdə etməyi əmr etdi. Bu səcdə Allahın Öz icazəsi və əmri ilə olduğu üçün sözsüz ki, Allah-Təalanın özünə səcdə hesab olunur. Uca və əzəmətli Allah bizlərin hidayəti üçün Həzrət Mühəmmədi (s) peyğəmbərlik məqamına təyin etdi. O, Həzrətin bütün əmrlərinə itaət etməyi bizlərə əmr etdi. Allah Rəsulunun (s) əmrlərinə itaət etmək heç də Allahdan qeyrisinə itaət etmək sayılmır. Bu itaət bilavasitə Allah qarşısında baş əymək, Onun əmrlərinə tabe olmaqdır. Necə ki, Qurani-Kərimdə buyurulur:

"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin!) Biz ki səni onların üzərində gözətçi olmağa göndərməmişik." **("Ən-Nisa" surəsi, 80-ci ayə)**

Bu məntiqlə Həzrət Peyğəmbər (s) müsəlmanlara müəyyən bir şəxsin itaətini əmr edərsə, bu itaət bütün müsəlmanlara vacib olur. Bu şəxsin itaəti Peyğəmbərin (s) itaəti və bilavasitə Allah-Təalanın itaəti sayılır. Biz gələcək bəhslərimizdə isbat edəcəyik ki, Allahın Rəsulu bütün müsəlmanlara özündən sonra Əliyə (ə) itaət etməyi vacib buyurmuşdur. Deməli, əgər Mövla Əlinin (ə) itaəti Peyğəmbərin

(s) əmri və göstərişidirsə, onun ardıcılı (şiə) olmaq Peyğəmbər (s) itaətindən kənara çıxmaq deyil.

Şiə sözünün Həzrət Peyğəmbərdən (s) sonra qondarılması həqiqətə uyğun deyil. Bu söz hətta Qurani-Kərimdə də işlədilmiş, insanların bəziləri digərlərinin şiəsi adlandırılmışdır:

"Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən (Nuhun firqəsindən) idi." **("əs-Saffat" surəsi, 83-cü ayə)**

Bu ayədə İbrahim peyğəmbər (ə) Nuh peyğəmbərin (ə) şiəsi kimi təqdim olunur.

Şiə sözü Peyğəmbərin (s) zamanında da işlədilmiş, bu barədə yüzlərlə hədis və rəvayətlər nəql olunmuşdur.

Böyük Əhli-sünnə alimi, hədisşünas Hafiz Əbu-Nəim İsfahani mötəbər sənədlərlə İbni Abbasdan nəql edir: **"Bəyyinə surəsinin 7-ci ayəsi nazil olduqdan sonra iman gətirib saleh əməl edənlər ən yaxşı məxluqdurlar. Onların mükafatı Rəbblərinin hüzurunda altından çaylar axan cənnət bağlarıdır. Onlar əbədi olaraq bu bağlarda qalarlar. Allah onlardan, onlar da Allahdan razıdırlar."**

Peyğəmbər (s) Mövla Əliyə (ə) üzünü tutaraq buyurdu: **"Ya Əli, onlar sən və sənin şiələrindir. Qiyamət günü sən və sənin şiələrin Allahdan razı, Allah da sizdən razı olar."**

Həmçinin bu mötəbər hədis aşağıdakı Əhli-sünnə kitablarında - İbn Əhməd Xarəzminin **"Mənaqib"**ində, Ubeydullah ibn Əbdullah əl-Həskaninin **"Şəvahidut-Tənzil fi Qəvaidit-Təfsil"**ində, Məhəmməd ibn Yusif Gəncinin **"Kifayətut-Talib"**ində, Sibt ibn Cuzinin **"Təzkirətu Xəvvasil-Ümmə fi Mərifətil Ümmə"**sində, Cəlaləddin Siyutinin **"Durrul-Mənsur fi Kitabilliahil-Məsur"**unda, İbn Həcərın **"Səvaiq"**ində, İbn Əsirin **"Nihayə"**sində, Əllamə Səmhudinin **"Cəvahirun-Nəqdeyn"**ində, Nurəddin Əli ibn Məhəmməd ibn Əhməd Malikinin **"Füsulul-Mühimmə"**sində açıq-aydın yazılmışdır.

Əhli-sünnə raviləri (hədisşünaslar) Seyyid Əli Həmdani Şafei **"Məvəddətul-Qurba"** kitabında və İbn Həcər **"Əs-Səvaiqul-Mühriqə"** kitabında Həzrət Peyğəmbərin (s) xanımı Ümmu-Sələmədən nəql edirlər ki, Peyğəmbər (s) buyurdu: **"Ya Əli, sən və sənin səhabələrin, sən və sənin şiələrin cənnətdə olacaqlar."**

Bu hədislərdən məlum olur ki, şiə sözü heç də sonradan qondarılmış bir termin deyil. Əksinə, bu kəlmə Peyğəmbərimizin (s) dilindən bəyan olunmuşdur və o Həzrət Əlinin (ə) tərəfdarlarını şiə adlandırmışdır.

İSLAM XƏLİFƏLƏRİ NECƏ TƏYİN OLUNDU?

İslam xəlifəsi və İslam hökumətinin rəhbəri yalnız Allahın əmri ilə təyin olunmalıdır. Bu məsələnin hətta Peyğəmbərə (s) də aidiyyatı yoxdur. O cənab fəqət Allah-Təalanın əmrinə müntəzirdir. Necə ki, Qədir-Xum çölündəki hadisə bunun bariz nümunəsi kimi açıqlandı.

Həzrət Peyğəmbər (s) 23 il ərzində ağır zəhmətlərin və saysız-hesabsız şəhidlərin qanı hesabına qurduğu ideal bir hakimiyyəti heç şübhəsiz özbaşına qoya bilməzdi. Dəfələrlə müharibəyə gedən Peyğəmbər (s) Mövla Əlini (ə) öz yerində qoymuş və ona **"mən qayıtmayınca şəhəri tərk etməyəcəksən"** əmrini vermişdir.

Dinindən və məzhəbindən asılı olmayaraq hər bir ağıl sahibi bu məsələni belə də qəbul etməlidir. Qurani-Kərimdə Həzrət Musa (ə) tərəfindən seçilən 70 nəfər Sena dağında həlak oldular. Fəqət, Musa peyğəmbər (ə) dağda yaranan dəhşətli gərginliyə dözə bildi. Bu da o deməkdir ki, Musa (ə) və onun qardaşı Harun peyğəmbəri (ə) Allah-Təala seçib təyin etdiyi üçün onlar digərlərindən qüvvətli və müqavimətli oldular. Buradan belə nəticəyə gəlirik ki, Peyğəmbər (s) və onların yerində oturanların təyinatı Allah-Təala tərəfindən olmalıdır. Əks təqdirdə göründüyü kimi, hərc-mərclikdən başqa müsbət bir keyfiyyət görmək mümkün deyil.

İndi isə Əhli-sünnənin mötəbər saydığı səsvermə və ya icma məsələsinə nəzər salaq.

Peyğəmbər (s) vəfat etdiyi gün, hətta dəfn mərasimindən öncə bir dəstə müsəlman Səqifə adlı bir yerə toplanıb Əbu Bəkr ibn Qəhafəni (r) xəlifə seçdilər. Hamıya aydındır ki, səsvermə bütün xalqın iştirakı və əksəriyyətin səsverməsi ilə müəyyənləşən bir prosesdir. Belə olduğu halda, azlıq təşkil edən bir dəstə heç vaxt xalqın əksəriyyətinə hakim ola bilməz.

Yuxarıda qeyd etdiyimiz Səqifə adlı məkan da Bəni-Saidə tayfasının müzakirə üçün toplaşdığı üstübağlı kiçik bir yer idi. Peyğəmbər (s) vəfat edən günü bu kiçik yerdə müsəlmanların neçə faizinin toplaşmasının mümkünlüyü də hamıya aydındır?!

Belə olan təqdirdə ortaya maraqlı bir sual çıxır: digər müsəlmanların - böyük əksəriyyətin bu seçkidə iştirak etmək hüququ yox idimi? Bəs, Yəmən, Taif və digər ölkələrdə yaşayan yüz minlərlə müsəlmanı özlərinə rəhbər seçmək hüququndan kim məhrum etmişdir?

Böyük Əhli-sünnə alimləri İmam Fəxri Razi, Cəlaləddin Süyuti, İbn Əbil Hədid Mötəzili, Təbəri, Buxari, Müslim və başqaları öz kitablarında açıq şəkildə bəyan etmişlər ki, hətta bu səsvermədə heç olmasa Mədinə müsəlmanlarının böyük əksəriyyəti iştirak etməli idi.

Əgər icma və səsvermə hüququ təkcə səhabələrə aiddirsə, Əhli-sünnə alimlərinin yazdığı kitablar belə bir iş üçün tələb olunan yetərsayın olmadığını niyə yazırlar. Peyğəmbərin (s) Mədinə şəhərində olan səhabələrinin böyük bir qismi nəinki bu səsvermədə iştirak etmədilər, hətta Əbu-Bəkrə (r) beyət etməkdən belə boyun qaçırdılar. Əhli-sünnə alimlərindən İbn Həcər Əsqalani, Bilazari öz tarix kitablarında, Mühəmməd Xandşah **"Rövzətus-səfa"** kitabında, İbn Əbdül-Birr **"İstiab"** kitabında yazırlar: **"Səd ibn Ubadə, Xəzrəc tayfası (Mədinə şəhərində böyük tayfalardan biri), Qüreyş tayfasının bir hissəsi və 18 nəfər məşhur səhabə Əbu Bəkrə beyət etmədilər."** Onlar aşağıdakılardır: Salman Farsi, Əbuzər Ğəffari, Miqdad ibn Əsvəd Kəndi, Əmmar Yasir, Xalid ibn Səid ibn As, Bureydə əl-Əsləmi, Əbi ibn Kəb, Xəzimə ibn Sabit, Əbul Heysəm ibn Teyhan, Səhil ibn Hənif, Osman ibn Hüneyf, Əbu Əyyub Ənsari, Cabir ibn Abdullah Ənsari, Həzifə ibn Əl-Yəman, Səd ibn Ubadə, Qeys ibn Səd, Abdullah ibn Abbas və Zeyd ibn Ərqəm.

Digər hədislərdə, o cümlədən Əhli-sünnə tarixçisi Yəqubinin kitabında Mövla Əlinin (ə) və Peyğəmbərin (s) əmisi Abbasın beyət etmədikləri xüsusi vurğulanır. Ümumiyyətlə, Bəni-Haşim tayfasının beyət etməməsi bir çox tarixi məxəzlərdə qeyd olunmuşdur.

Əgər həqiqətən müsəlmanlar yığışıb səsvermə yolu ilə özlərinə rəhbər seçirdilərsə, nə üçün bu işə bütün müsəlmanları, heç olmasa səhabələri dəvət etmədilər? Peyğəmbərin (s) cənazəsi qüsl-kəfən olunan bir zamanda onu ortada qoyub gizli şəraitdə səs-səmir salmadan bir xəlvətə çəkilib ümmətə rəhbər, xəlifə təyin etmələri nə dərəcədə doğrudur? Ən başlıcası Peyğəmbərin (s) mübarək cənazəsi dəfn olunmamış onun yerinə canişin seçmək hansı məntiqə sığır? Həmçinin bu məsələ əgər fövqəladə lazım idisə, nə üçün səsverməni **"Peyğəmbər məscidi"**ndə (Məscidun-nəbi) deyil, kiçik bir yerdə təşkil etdilər?

Məşhur tarixçi, Əhli-sünnə alimi Mühəmməd ibn Cərir Təbəri öz **"Tarix"** kitabının ikinci cildində yazır: **"İkinci xəlifə Ömər ibn Xəttab Peyğəmbərin (s) evinə yaxınlaşdı, lakin evə daxil olmadı. İçəri**

xəbər göndərib, Əbu Bəkri çağırdı. Əbu Bəkr indi vaxtım yoxdur dedikdə, bir daha xəbər göndərdi ki, mühüm bir məsələ ortaya çıxmışdır, sənin orada olmağın lazımdır. Əbu Bəkr bayıra çıxdıqdan sonra Ənsarın (Mədinə əhli - Ovs və Xəzrəc tayfaları) Səqifəyə yığışıb özlərinə rəhbər seçmək istədiklərini dedi. Onlar birlikdə Səqifəyə tərəf yola düşdülər. Yolda Əbu Ubeydəyə rast gəldilər, üç nəfər yollarına davam etdilər…"

Əgər İslam xəlifəsi icma və səsvermə yolu ilə təyin olunmalı idisə, bəs ikinci xəlifə Ömər ibn Xəttabın (r) bu qayda ilə seçilməməsinin səbəbi nə idi? Birmənalı olaraq bütün Əhli-sünnə alimləri Ömər İbn Xəttabın (r) birinci xəlifə Əbu Bəkrin (r) vəsiyyəti ilə hakimiyyətə təyin olunduğunu yazırlar. Belə olduğu halda bəs, Peyğəmbərin (s) vəsiyyətinə niyə əməl olunmadı? Halbuki Peyğəmbərin (s) vəsiyyəti Allah-Təalanın təyinatı üzrə olmuşdu.

Ən maraqlısı isə üçüncü xəlifə Osman ibn Əfvanın (r) necə **"seçilməsi"** məsələsidir. Bu da tarixə gün kimi aydındır ki, onun təyinatında heç bir icma və səsvermə olmamışdır.

Bir zəruri məsələni də qeyd etmək yerinə düşərdi. Hansı ki, ikinci xəlifə Ömər ibn Xəttabın (r) təyin olunduğu üsul qanuni idisə (vəsiyyət), bəs nə üçün o, vəsiyyətində özündən sonra müəyyən bir şəxsi xəlifə təyin etmədi?! Çox müəmmalı bir tarixdir!

Yuxarıda qeyd etdiyimizi təkrarən xatırlayaq. Əgər xəlifənin seçilməsində vəsiyyət üslubunu qəbul ediriksə, bəs nə üçün Həzrət Peyğəmbərin (s) bu məsələ ilə bağlı hər hansı bir vəsiyyət etdiyini qəbul etməyək?!.. Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, xəlifələrin təyin olunmasında müəyyən bir üsul və qayda-qanun yox imiş. Zaman, məkan və şərait necə tələb edirdisə, o cürdə xəlifələr **"seçilmiş"**dir. Göründüyü kimi, heç bir xəlifənin hakimiyyətə gəlmə üsulu bir-biri ilə uyğun gəlmir.

Bütün bunlara baxmayaraq, İslam aləmini təngə gətirən 25 il xəlifəlik dövrü Ən nəhayət xalqın təkidi ilə Peyğəmbərin (s) hələ sağlığında təyin etdiyi Əli ibn Əbu Talibi (ə) məcburən xəlifəlik kürsüsünə əyləşdirmələri ilə nəticələndi…

ƏLİNİN (Ə) XİLAFƏTƏ MÜNASİBƏTİ

Yuxarıda İslam hökumətinin ilk xəlifələrinin necə hakimiyyətə gəlməsi məsələsindən danışdıq. Tarixi məlumatlardan aydın oldu ki, xəlifələrin seçilməsi heç bir məntiqi əsasa uyğun gəlmir. Adları çəkilən xəlifələr hətta Əhli-sünnənin qəbul etdiyi meyarlarla da seçilməmişlər.

Qəribədir, əgər bu xəlifələr (ilk üç xəlifə) məntiqi və sağlam meyarlarla seçilməmişdisə, nə üçün şiələrin mütləq imam və məsum hesab etdikləri İmam Əli (ə) onlara beyət etməklə yanaşı, hətta xilafət və hakimiyyət məsələlərində yaxından köməklik də göstərmişdir.

Bildiymiz kimi, İmam Əlinin (ə) xəlifələrə beyət və yaxından kömək etməsi ilk əvvəl siyasi əhəmiyyət kəsb edirdi. Lakin bu beyət də onların hakimiyyətə gəlişinin ilk günlərində deyil, müəyyən müddətdən sonra İslamın nəfinə görə olmuşdur. Hansı ki, Əhli-sünnə tarixçilərinin böyük əksəriyyətinin yazdığına əsasən, İmam Əli (ə) altı aydan sonra xəlifə Əbu Bəkrə (r) beyət etmişdir. Həmçinin bütün Əhli-sünnə alimləri bu beyətin zor gücünə alınmasını təsdiq etmişlər. Dediklərimizi bir daha təsdiq etmək üçün bəzi Əhli-sünnə kitablarına müraciət edək. **"Səhih Buxari"** (3-cü cild), **"Səhih Müslim"** (5-ci cild), **"Əl-İmamətu Vəs-Siyasə"** (Müslim ibn Qüteybə Dinuri), **"Mürucuz-Zəhəb"** (1-ci cild, Məsudi), **"Şərhu-Nəhcil-Bəlağə"** (2-ci cild, İbn Əbil Hədid Mötəzili) və digər kitabların hamısında **"Əli (ə), Fatimə (ə) vəfat etdiyi günə qədər beyət etmədi"** sözləri təkrarən vurğulanır.

Həmçinin bütün tarixçilər Həzrət Fatimənin (ə) Peyğəmbərdən (s) altı ay sonra vəfat etdiyini yazırlar. Bu müddətin dəqiq olmasını aşağıdakı kitablar bir daha isbatlayır. Əhməd ibn Əsəm Kufi Şafeinin **"Fütuh"** kitabında və Əbu Nəsr Həmidinin **"Cəm Bəynə Səhihəyn"** kitabında yazılır: **"Əli (ə) Əbu Bəkrə altı aydan sonra beyət etdi."**

Bundan başqa aşağıda qeyd edəcəyimiz hədislər İmam Əlidən (ə) zorla beyət alınmasını təsdiq edən sənədlərdir:

Əhli-sünnə alimləri Əbu Cəfər Bilazi Əhməd ibn Yəhya və İbn Cəfər Bağdadi özlərinin tarix kitablarında yazırlar: **"Əbu Bəkr Əlidən beyət etməsini istədi. Əli beyət etməyi qəbul etmədikdə Ömər ibn Xəttabı bir parça odla onun evinə göndərdi. Ömər bir parça odla Əlinin evini yandırmağa getdi. Qapıda Həzrət Fatimə ilə rastlaşdı. Həzrət Fatimə ona dedi: "Ey Xəttabın oğlu, bizim evimizi yandırmaq üçün gəlmisən?"**

Ömər dedi: **"Bəli…"**

İbn Xəzabə **"Ğürər"** kitabında Zeyd ibn Əsləmdən nəql edir: **"Mən həmin gün Ömərlə birlikdə idim. Odun götürüb Fatimənin evinin qapısına apardıq. Ömər Fatiməyə dedi: Evdə kim varsa çölə çıxsın, yoxsa evi və evdəkiləri yandıracağam…"**

İbn Əbdi Rəbbih **"Əqdul-Fərid"** kitabının 3-cü cildində yazır: **"Əli və Abbas Fatimənin evində oturmuşdular. Xəlifə Əbu Bəkr Ömərə dedi: Get onları gətir. Gəlmək istəməsələr, zorla gətir. Ömər bir parça od götürüb onların evinə yollandı…"**

Əbu Əbdullah ibn Müslim ibn Qətibə ibn Əmr Bahili Dinuri **"Tarixul-Xüləfa Ər-Raşidin"** kitabının 1-ci cildində yazır: **"Əbu Bəkr bir dəstə şəxsin Əlinin evində toplanaraq ona beyət etmədiyini eşidən kimi Öməri onların üzərinə göndərdi. Ömər gəlib onların evdən çıxmasını tələb etdi. Onlar boyun qaçırdıqda Ömər od-alov gətirməyi əmr etdi və dedi: "And olsun Ömərin canı əlində olan Allaha, çıxmasanız evi sizinlə birlikdə yandıracağam". Ömərə bu evdə Fatimənin olduğunu dedikdə cavab verdi ki, Fatimə olsa belə evə od vuracağam. Bu zaman Əlidən başqa hamı çıxıb beyət etməyə getdi. Əli (ə) dedi: "And içmişəm ki, Quranı bir yerə toplayıb yazım, bu işi qutarmayınca çölə çıxmayacağam". Ömər yenə təkid etdikdə Fatimənin naləsini eşidib geri qayıtdı. Qayıtdıqdan sonra Əbu Bəkri təhrik etməyə başladı. Əbu Bəkr bir neçə dəfə Qunfuzu göndərsə də, Əli rədd cavabı verdi. Nəhayət Ömər bir dəstə adamla yenidən Əlinin evinə getdi. Qapıdan Peyğəmbərin qızı onların səsini eşidib nalə etməyə başladı: "Atacan, ey Allahın Rəsulu, səndən sonra Xəttabın oğlu (Ömər) və Əbu Qəhafənin oğlundan (Əbu Bəkr) biz nələr çəkdik". Xalq Fatimənin səsini eşidib geri qayıtdı. Ömər bir neçə nəfərlə qalıb Əlini zorla evdən çıxararaq Əbu Bəkrin yanına aparıb ona beyət etməsini istədi. Əli "əgər beyət etməsəm nə edəcəksiniz?"-deyə soruşdu. Cavabında "and olsun Allaha boynunu vuracağıq"-deyə bildirdilər. Əli dedi: "Deməli, Allahın bəndəsi, Peyğəmbərin (s) qardaşını öldürəcəksiniz?" Ömər cavab verdi: "Sən Peyğəmbərin (s) qardaşı deyilsən?" Bu zaman sakit əyləşən Əbu Bəkr dilləndi: "Nə qədər ki, Fatimə sağdır, onu incitməyin…"**

Mövla Əli (ə) özünü Peyğəmbərin (s) qəbrinə çatdırıb Qurani-Kərimdə Harunun (ə) qardaşı Musa peyğəmbərə (ə) dediyi ayəni oxudu: **"Anam oğlu, bu tayfa məni zəiflətdi və az qala məni öldürəcəkdilər."**

İbn Əbil-Hədid Mötəzili **"Şərhu-Nəhcil-Bəlağə"** kitabının 1-ci cildində yazır: **"Əli və Bəni-Haşim tayfası Fatimənin evində idilər. Zübeyr də onlarla birlikdə idi. Ömər bir dəstə ilə o evə tərəf gedib onlardan çölə çıxmalarını istədi. Zübeyr qılıncını götürüb, çölə çıxdı. Ömər yanındakılara əmr etdi: "Bu iti tutub saxlayın". Sümmə ibn Əsləm onun qılıncını alıb daşa vuraraq sındırdı…"**

Məhəmməd ibn Cərir Təbəri öz məşhur **"Tarix"** kitabının 2-ci cildində yazır: **"Təlhə, Zübeyr və bir dəstə səhabə Əlinin evində toplaşmışdılar. Ömər ibn Xəttab ora gəlib dedi: "Beyət etmək üçün çölə çıxmasanız hamınızı odda yandıracağam."**

Fikrimizcə, bu qədər mötəbər Əhli-sünnə kitabları Mövla Əlinin (ə) beyətinin bir məcburiyyət olduğunu təsdiq etmək üçün kifayət edər. Onlarla Əhli-sünnə kitabı təsdiq edir ki, Mövla Əli (ə) bu xəlifələrin hakimiyyəti ilə heç zaman ürəkdən razılaşmamış və səbr etmək məcburiyyətində qalmışdır. Burada bütün şiə və sünni alimlərinin qəbul etdiyi məşhur Əhli-sünnə alimi İbn Əbil Hədidin şərh yazdığı **"Nəhcül-Bəlağə"** kitabından **"Şiqşiqiyyə"** xütbəsinə nəzər salmağımız yerinə düşərdi. Mövla Əli (ə) bu xütbədə hansı zülmlərlə üzləşdiyini, bu zülmlərin qarşısında səbr etməyə məcbur olduğunu ürək yanğısıyla bəyan edir.

Bu xütbədən bəzi parçaları təqdim edirik: **"And olsun Allaha ki, filankəs (Əbu Bəkr) xilafəti bir köynək kimi əyninə geyindi. Amma o bilirdi ki, mənim xilafətə ləyaqətim bir qütb kimi idi. Bütün elmlər axar çaylar kimi məndən mənşə alırdı. Heç bir quş mənim zirvəmə qanad çala bilmədi. Xilafət libasını kənara atıb fikirləşdim ki, əlsiz-ayaqsız hücum edim, yoxsa bu korluğa səbr edim? Gördüm ki, səbr etmək daha düzgün və əlverişli yoldur. Mən səbr etdim, lakin elə bil ki, gözlərimdə tikan, boğazımda sümük qalmışdı. Gözlərimin önündə mənim mirasımı talan edirdilər. Nəhayət birinci (Əbu Bəkr) dünyadan getdi, xilafəti isə özündən sonrakı filankəsin (Ömərin) qucağına atdı…"**

ELM ŞƏHƏRİNİN QAPISI

"Ey Əli, məndən ayrılan Allah-Təaladan ayrılmış, səndən ayrılan məndən ayrılmış kimidir." Bu hədis Riyadun Nazrada (Dəməşq tarixi, səh. 268, hədis-788) ardıcıl olaraq Rəsulullahın (s) belə buyurduğu qeyd etmişdir. Hakim də bunu öz **"Mustədrək"**ində (səh.146) və **"Zəxairul-Üqba"**da xüsusi vurğulayır.

Rəsulullah (s) buyurmuşdur: **"Sənin lənətin mənim lənətimdir."** Bu həmçinin Zeyd ibn Əlinin **"Musnəd"**ində (973-cü hədis) qeyd olunmuşdur.

Camaat **"artiq əmisi oğlu ilə gizli duaları çoxaldı"**,-dedikdə Peyğəmbər (s) buyurdu: **"Ona mən əmr etməmişəm. Ona Allah-Təala əmr edib."**

Bu hədis Səhih Tirmizidə Həsənə nisbət verilərək **"Kitabul-Mənaqib"**də (3810-cı hədis, 50-ci kitab, 21-ci bab) qeyd olunmuşdur

Rəsulullah (s) buyurmuşdur: **"Allah-Təala Peyğəmbərləri müxtəlif ağaclardan yaratmışdır. Məni və Əlini isə bir ağacdan yaratmışdır. Mən o ağacın köküyəm, Əli budaqları, Fatimə mayası Həsən və Hüseyn meyvələridir…"**

Təbəri bunu öz əsərində və iki hərəmin rəisi Mühəmməd ibn Yusif **"Kifayətut-Talib"**də rəvayət etmişdir.

Rəsulullah (s) buyurmuşdur: **"Mən qorxudanam, Əli hidayət edəndir. Ey Əli! Məndən sonra hidayət olanlar, sənin əlinlə hidayət olacaqlar."** Bu həmçinin **"Fusulul-Muhimmə"**də İbn Sabbağdan **"Tarixi-Dəməşq"**də İbn Əsakirdən **"Əli ibn Əbu Talibin həyatı"** (2-ci cild, 916-cı hədis, səh. 417) Həskaninin **"Şəvahidut-Tənzil"** (1-ci cild, 398-402-ci hədis, səh. 293) Şafinin **"Kifayətut-Talib"**ində qeyd olunmuşdur.

Peyğəmbərin (s) əyalı Ayişə onun yanına gəldikdə o Həzrət buyurdu: **"Seyyidil-Ərəbi mənim yanıma çağır. Ayişə dedi: "Ey Rəsulullah! Seyyidil-Ərəb sən deyilsənmi?" Həzrət buyurdu: "Mən Adəm övladlarının seyyidiyəm, Əli isə ərəblərin seyyididir."** Bu hədis **"Mustədrək"**də (3-cü cild, səh. 124) çoxlu rəvayətlərdə qeyd olunmuşdur.

Başqa bir yerdə isə Həzrət Peyğəmbər (s) buyurur: **"Müsəlmanların seyyidinə, müttəqilərin imamına salam olsun."**

Bu faktı Əbu Nəim **"Hilyətul-Övliya"**da, İbn Əbil Hədid isə **"Şərhi Nəhcul-Bəlağə"**də eyni ilə qeyd etmişdir.

İbn Abbasdan uzun bir hədisi qeyd edən Hakim **"Mustədrək"** kitabında (3-cü cild, səh. 132) bunun səhih isnadlı bir hədis olduğunu söyləmişdir. Zəhəbi də onun səhihliyini öz **"Təlxis"**ində təsdiq etmişdir: **"Əmr ibn Meymun deyir: Mən İbn Abbasın yanında oturmuşdum. Onun yanına doqquz nəfər gəlib dedi: "Ey İbn Abbas ya bizimlə birgə dur, ya da bunların arasından ayrıl". Mən sizinləyəm. (O, həmin gün sağlam idi, gözləri tutulmamışdı) Sonra danışmağa başladılar, mən nə dediklərini bilmədim. Paltarını çırpıb, ah-uh edərək gəlib dedi: "Elə bir kişinin haqqında pis danışırdılar ki, onun bir neçə üstünlükləri var ki, o üstünlüklər heç kimdə yoxdur. Elə bir kişinin haqqında pis danışırdılar ki, Rəsulullah (s) onun haqqında buyurmuşdur: "Elə bir şəxsi göndərəcəyəm ki, Allah-Təala heç vaxt onu xəcalətli etməyəcək. Həmən şəxs Allah və Rəsulunu sevir. Allah və Rəsulu da onu sevir. Şərafətli olan onunla şərəf tapır". Sonra soruşdu: "Əli haradadır?" Dəyirmana un üyütməyə getdiyini bildirdilər. Buyurdu: Kimsə un üyütməyə gedə bilərmi? Əli (ə) gəldi, onun gözü ağrıyırdı, ağrıya da dözmək çox çətin idi. Rəsulullah (s) onun gözlərinə üfürdü, sonra da bayrağı üç dəfə yelləyib ona verdi. Əli düşmənə qalib olandan sonra Əsir etdiyi Səfiyyə binti Həyyi də gətirib Peyğəmbərə (s) təslim etdi."**

İbn Abbas deyir: **"Rəsulullah filankəsi "Tövbə" surəsini oxumağa göndərdi. Sonra da Əlini arxasınca göndərib ondan almasını tapşırdı və buyurdu: "Onu yalnız elə bir şəxs aparmalıdır ki, məndən olsun və mən də ondan."**

İbn Abbas deyir: **"Rəsulullah (s) əmisi oğlanlarına dedi: "Hansı biriniz dünya və axirətdə mənimlə dostluğa razısınız?" Əli də orada oturmuşdu. Rəsulullah (s) onlara yenə buyurdu: "Hansı biriniz dünya və axirətdə mənimlə dostluğa razısınız?"**

Hamı üz çevirdi. Rəsulullah (s) bir nəfərə buyurdu: "Sən dünya və axirətdə mənim dostumsan." Həmən bir nəfər Əli (ə) idi."

Xədicədən sonra iman gətirən ilk şəxs Mövla Əlidir (ə). Rəsulullah (s) paltarını-əbasını Əlinin (ə), Fatimənin (ə), Həsən (ə) və Hüseynin (ə) üzərinə çəkərək buyurdu: **"Həqiqətən Allah-Təala siz Əhli-beytdən mənəvi çirkinliyi uzaq edib, pak etmək istəyir."**

İbn Abbas deyir: **"Öz canını qurban verib, Rəsulullahın (s) paltarını geyib, onun yerində yatan da o idi."**

İbn Abbas deyir: **"Müşriklər Rəsulullahı (s) daşlayırdılar. Əbu Bəkr ora gəldi. Əli (ə) də yataqda yatmışdı. Əbu Bəkr onun peyğəmbər olduğunu zənn edərək dedi: "Ey Allahın Peyğəmbəri". Əli (ə) buyurdu: "Peyğəmbər meymun quyularına tərəf getdi, get ona çat". Əbu Bəkr də gedib ona çatdı və mağaraya daxil oldular. Rəsulullahı daşa basdıqları kimi Əlini (ə) də daşa basdılar. O da bütün bu olanlara dözərək səhərə qədər başını örtüb çölə çıxartmadı. Səhər olduqda isə başını açanda müşriklər dedilər: "Sən necə də pis adamsan, biz sənin dostunu bu cür daşlayanda, o, belə dözmürdü, sən isə dözürsən, bizi də əsəbiləşdirirsən."**

İbn Abbas deyir: **"Təbuk döyüşünə Rəsulullah (s) camaatla birlikdə gedərkən Əli (ə) Rəsulullaha (s) dedi: "Mən də sizinlə gəlirəm". Rəsulullah (s) buyurdu: Xeyir. Əli (ə) ağladı. Rəsulullah (s) söylədi: "Razı deyilsənmi sənin mənə olan münasibətin Harunun Musaya olan münasibəti kimi olsun, lakin yeganə fərq odur ki, məndən sonra peyğəmbər olmayacaq, sən mənim xəlifəm olmamış, mənim getməyim yaxşı deyil."**

İbn Abbas deyir: **"Rəsulullah (s) buyurdu: "Sən məndən sonra bütün mömin kişi və qadınların vəlisisən."**

İbn Abbas deyir: **"Rəsulullah (s) məscidə açılan bütün qapıları bağladı. Əlinin (ə) qapısından başqa. Rəsulullah (s) buyurdu: "Kimin mövlası mən olmuşamsa, Əli (ə) də onun mövlasıdır."**

Yəhya Əbu Səltdən eşitdim ki, **"bu miskindən nə istəyirsiniz?"** deyə rəvayət edir. Çünki o, Əbu Müaviyənin bu hədisi rəvayət etdiyini çox adamdan eşitmişdir və bunlar hamısı yuxarıda qeyd etdiyimiz

kimi, doğru və səhihdir. Bu hədis Əbu Müaviyədən və hətta İbn Abbasın Peyğəmbərdən (s) nəql etdiyindən başqa yolla da, yəni Əlinin (ə) öz təriqi ilə də gəlmişdir.

Bu hədis Cabir ibn Abdullah Ənsari, Abdullah ibn Məsud, Huzeyfə ibn Yəmani, Abdullah ibn Ömər və başqaları tərəfindən də söylənilmişdir.

Sənədlər barəsində olan bu sözlər, yalnız hədis [1] **انا مدينة الفقه و على بابها**"

kəlmələri ilə olduqdadır. Bu kəlmələrlə olmadıqda isə sənədi heç kəsin saya bilməsi mümkün olmayan qədərdir. Necə ki, Peyğəmbərin (s) **"انا دار الحكمة و على بابها", "انا مدينة الفقه و على بابها"** və başqa kəlmələri ilə söylədiyi çoxlu hədisləri aşağıda araşdıracaq və onun təvatür hədis olduğunu aydınlaşdıran hədisə işarə edəcəyik.

Bu hədisin səhih olmasını çoxlu alimlər **"Siyər"**, **"Təracüm"**, **"Mənaqib"** və **"Mütəvvəl"** kitablarında qeyd etmişlər. Onlardan, Hakim, Xətib və başqalarının dediklərinə əsasən, İbn Muin və Hakim öz **"Mustədrək"**ində bir neçə yolla onun səhih olduğunu söyləmişlər. Onlardan Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri **"Təhzibul-Asar"** əsərində onun səhih olduğuna hökm etmişdir. Yenə də onlardan Cəlaluddin Əbdurrəhman ibn Kəmaluddin Əs-Siyuti (911-ci ildə vəfat etmişdir) bu hədisi **"Mədinətul elm"** babından başqa yerlərdə də dəfələrlə yad etmiş, yazmış, çox yerdə **"Həsən"** saymış, sonra isə **"Tərtib"** kitabında (səh. 401) olduğu kimi, **"Cəmul-Cəvame"** kitabında da onun səhih olmasına hökm edərək demişdir: **"İbn Cəririn "Təhzibul Əsrar", Hakimin və İbn Abbasın bu hədisini səhih saymasını bilməyənədək bir müddət hədisi "Həsən" bilirdim. Onları gördükdən sonra, Allaha istixarə edərək, bu hədisi "Həsən" mərtəbəsindən "Səhhət" mərtəbəsinə qaldırmağı qət etdim. Allah daha doğrusunu bilir."**

Alimin sözündən aydın olur ki, bu hədis onun nəzərində zəif olmamaqdan əlavə, hətta, onun **"Həsən"** və **"Səhih"**liyi arasında tərəddüd etmiş və nəhayətdə səhihliyi sabit olmuşdur.

Onlardan, Şəmsuddin, Mühəmməd ibn Mühəmməd Əl-Cəzəri (833-cü ildə vəfat etmişdir) **"Əsnəl Mətalib fi Mənaqibi Əli ibn Əbu Talib"** kitabının 14-cü səhifəsində Hakimin təriqi ilə çıxarış edərək bu hədisin səhihliyini demiş və hətta bu kitabın əvvəlində Əmirul mö-

minin Əlinin (ə) mənaqibinə (məşhur olan yaxşı sifətləri) aid yalnız mütəvatir, səhih və həsən hədisləri söyləyəcəyini şərt etmişdir.

Hafiz Əbu Mühəmməd Əl-Həsən ibn Əhməd Əl-Səmərqəndi, Əz-Zihəbinin **"Təzkirə"** kitabında olduğu kimi, öz **"Bəhrul-Əsanid fi-Səhihil-Əsanid"** kitabında bu hədisin səhih olduğunu göstərmişdir.

Hafiz Sələhuddin Əbu Səid əl-Əlləali (761-ci ildə vəfat etmişdir) **"Əlləaliil-Məsnuə"** kitabında neçə nəfərdən hekayət edərək İbn Muinin təriqi ilə səhih sayaraq demişdir: **"Peyğəmbərin (s) Əli (ə) haqqında belə deməsi məhaldır."** Bütün bu hədisi gətirənlər onun İbn Muinin təriqi ilə səhih olmasını söyləmişlər. Bununla belə onun da buna dəlili Tirmizinin bu hədisi **"Cami"** kitabında gətirməsidir. Bəlkə də mən deyərdim ki, dəlili çoxdur və inhisardan yuxarıdır.

Hədisə inananlardan və elmin şəhəri babında işi Əliyə (ə) mənsub edənlərdən biri də Əbu Nəim İsfəhanidir (430-cu ildə vəfat etmişdir). O, **"Hilyətul Övliya"** kitabında (1-ci cild, səh. 61) buyurur: **"Bu Əli ibn Əbu Talib (ə), ümmətin ağası, qiyamət gününün vurğunu, Məbudun sevimlisi, elm və elmlər şəhərinin qapısı, natiqliyin başçısı, işarələri başa düşən, ağıllar qəlbinin, sual edən dillərin, eşidən qulaqların və vəfalıların əhdinin sahibi olan Əli ibn Əbu Talib (ə) barəsində nəssdir."** Gördüyünüz kimi, bu onun elm şəhərinin qapısı olduğunu açıq-aşkar söyləyir.

Qazi Sənaullah Bani Betti **"Əsseyful-Məslul"** kitabında Hakimin bu hədisi səhih və onu zəif sayanların özlərini zəif saymasını qeyd edərək deyir: **"Sonra İbn Həcər onu "Həsən" sayaraq, mənasını açıqlayır və belə buyurur ki, sənəd baxımından İbn Həcərin seçdiyi yaxşıdır. Lakin dəlilinin çoxluğu bizə onun səhihliyinə hökm etmək imkanı verir."**

Onlardan Məcduddin Mühəmməd ibn Yəqub Əl-Firuzabadi (816-cı ildə vəfat etmişdir) **"Ənnəqdus-Səhih"** kitabında hədisi İbn Muindən rəvayət edərək onun ətrafında uzun-uzadı söz yürütmüş, sonra demişdir: **"انا مدينة العلم"** hədisi barəsində Yəhya ibn Muindən başqa heç kəs bu sözü deməmişdir. Lakin onu bundan aşağı hesab etmək qəti şəkildə batildir. Bu hədis bütün hallarda Əbu Müaviyədə sonlanır, **"Həsən"** dərəcəsi ilə şərikdir və dəlil kimi istifadə olunur.

Əgər **Həsən**dən (ə) yuxarı olmazsa, heç zəif də deyildir. Bu, Firuzabadinin sitatının sonu idi.

İbn Fəhd əl-Haşimi əl-Məkki əş-Şafii adı ilə məşhur olan Hafiz İzzuddin Əbdul Əziz (922-ci ildə vəfat etmişdir) də bu hədisə işarə etmişdir.

Seyyid Mühəmməd ibn Cəlal ibn Həsən Ən-Nəccari **"Təzkirətul-Əbrar"** kitabında hədisin səhih olduğunu təsdiq edir.

Əmir Mühəmməd ibn İsmail ibn Səlah əl-Yəməni əs-Sənani (1182-ci ildə vəfat etmişdir) **"əl-Rövzətun-Nədiyyə fi-Şərhi-Əttuhfətul-Ələviyyə"** kitabında hədisi zikr etmiş, Hakim, İbn Cərir və Siyutiyə tabe olaraq (çünki onlar bu hədisi səhih bilirlər) onun səhihliyinə hökm etmişdir. Sonra isə, onu səhih sayanların doğruluğunu qeyd etmiş və **"Həsən"** sayanları tərifləmiş, hədisi aşağı sayanların, yuxarıda qeyd etdiyimiz kimi, iddiasının batilliyini və Siyutinin seçdiyi Hakim və İbn Cərir kimi səhih sayanların doğruluğunu demişdir.

Hafiz Şəmsuddin Mühəmməd ibn Əhməd Əzzihəbi Əşşafii (748-ci ildə vəfat etmişdir) **"Təzkirətul-Hafiz"** kitabında (4-cü cild səh. 28) Hafiz Səmərqəndinin səhihindən nəql edərək demişdir: **"Bu hədis səhihdir."**

Şeyx Mühəmməd Sədrul-Aləm **"Məaricul-Əli fi-Mənaqibil-Murtəza"** kitabında Siyutinin **"Cəmul-Cəvame"** kitabında dediyi kimi, hədisin səhihliyini vurğulamışdır.

Bildiyiniz kimi, biz **"Müstədrək"** sahibinin dediyindən çox və çoxlu təriqlə bu hədisi çıxartdıq. Əgər uzunçuluq olmasaydı, bundan da artığını çıxardaraq təqdim edərdik. Çünki biz onun iyirmidən artıq sünnə təriqi ilə gəldiyini tapmışıq.

Hədisi **"Həsən"** sayanlardan biri də Şihabuddin Əhməd ibn Mühəmməd ibn Həcr əl-Heytəmi əl-Mələki (974-cü ildə vəfat etmişdir) **"əs-Səvaiq"** kitabının 9-cu babının 2-ci fəslində, Əlinin (ə) fəzilətləri barəsində olan 9-cu hədisdə, onu səhih və zəif sayanları rəvayət edərək deyir: **"Bəzi mütəəxxir təhqiqatçılar bu hədisi araşdıraraq onun "Həsən" olmasını yaxşı saymışlar."**

Hədisi səhih sayanlardan biri də Şeyx Fəzl ibn Ruzbəhandır. O, **"Nəhcül-Həqq"** kitabını rədd edərkən yazır: **"Müəllifin yazdığı "amma əmir əl-mömininin elmi"nə cavab olaraq deyirik ki, bəli şübhəsiz ki, o (əmirəlmöminin) ümmətin alimlərindəndir və ca-**

maat onu sübut gətirir. Necə də belə olmasın? Halbuki o, elmi təbliğ etməkdə və maarifin həqiqətlərinə çağırmaqda Peyğəmbərin (s) vəsisidir. Bu məsələdə heç kəs mübahisə etməmişdir. Lakin Tirmizinin yazdığı hədis səhihdir." Bununla o " **انا مدينة الحكمة و علي بابها**" hədisini nəzərdə tutur.

Şihabuddin Əhməd **"Tovzihud-Dəlail"** kitabında bu hədis barəsində deyir: **"Bu bir fəzilətdir ki, ona səhabələr də etiraf etmiş və təriqinə müvafiq şəkildə yol seçmişlər."**

Beləliklə, aydın oldu ki, çoxlu böyük alimlər bu hədisin səhih olmasını demişlər.

Hədisin qəbul olunmasında dayanmağı üstün tutanları sadalamaq onu səhih sayanları sadalamaqdan asandır. Çünki onu səhih sayanları çoxluğuna görə sadalamaq mümkün deyildir.

Səhiheyndə (Buxari və Müslim) Buxari (62-ci kitab, 9-cu bab) Əlinin (ə) fəzilətləri babında, Müslüm səhabənin və Əlinin (ə) fəzilətləri kitabında deyilir: **"Peyğəmbər (s) buyurdu: Sən mənə Harunun Musaya olan mənziləsi kimisən", Müslümdə "Məgər ki, məndən sonra peyğəmbər olmaz"**- sözü də əlavə olunmuşdur.

Bu kitablarda buna oxşar hədislər çoxdur. Lakin kitabın həcmini nəzərə alaraq bunlarla kifayətlənirik.

SƏHABƏLƏRDƏN HAMISI ƏDALƏTLİ DEYİL

"Mənim səhabələrim ulduzlar kimidir, hansı birinin arxasınca getsəniz, hidayət taparsınız." Bu hədis bütün dövrlərdə çox ciddi müzakirə obyektinə çevrilib. Bəzi alimlər - hədisşünaslar bu hədisin düzgün olmadığı iddiasındadırlar. Əhli-sünnə məzhəbinin tutarlı sənəd hesab etdiyi sözügedən hədisin bu gün də geniş izahına ehtiyac var.

Təbii ki, hər hansı bir hədis araşdırılarkən ilk növbədə onun sənədləri diqqət mərkəzində olmalıdır. Burada sənəd dedikdə hər hansı bir möhürlü kağız parçası deyil, bilavasitə həmin hədisi nəql edən şəxslər nəzərdə tutulur. Zəncirvari olaraq hədisi nəql edən şəxslər arasında ən azı bir nəfər yalançı və etimadsız şəxs olarsa, deməli, həmin hədis sənəd etibarı ilə zəif sayılır və ona tutarlı mənbə kimi istinad etmək düzgün olmaz. Bu məsələdə Əhli-sünnə və şiə məzhəbləri arasında heç bir fikir ayrılığı yoxdur. Məşhur Əhli-sünnə alimləri Buxari və

Müslim öz kitablarına **"Səhih"** adını qoymuşlar. Onların fikrincə, bu kitabda toplanan hədislər sənəd etibarilə səhih və düzgündürlər.

Yuxarıda qeyd olunan hədisin sənədinə nəzər salan bəzi alimlər, xüsusən də Qazi İyaz **"Şərhuş-Şifa"** kitabının 2-ci cildində bu hədisin sənəd etibarı ilə zəif olduğunu yazır.

Əbdu ibn Həmid **"Müsnəd"** kitabında Abdullah ibn Ömər ibn Xəttabdan nəql edərək bu hədisin sənədlərinin mötəbər olmadığını bildirir.

İbn Ədi **"Kamilut-Tarix"** kitabında Nafedən, Nafe isə Abdullah ibn Ömər ibn Xəttabdan nəql edərək sözügedən hədisin sənədlərinin zəif olduğunu vurğulayır.

İbn Hişam isə yazır: **"Bu hədis yalan, qondarma və batildir."**

İslam alimləri, xüsusən də hədisşünaslar hesab edirlər ki, hədisin mətni, məna və məfhumu bir-birini tamamlamalıdır. Hədisin sənəd və ravilərini araşdırmaqla yanaşı, onu mətninə, məna və məfhumuna da diqqət yetirmək lazımdır. Hədisin mənası Qurani-Kərimin hökmləri, real həqiqət və insan ağlı ilə müxalif olarsa, o hədisə istinad etmək olmaz. Məsələn, bütün sənədləri səhih olan bir hədis Allahın şəriki olduğunu və ya Peyğəmbərin (s) günah etdiyini və digər şəri fərzləri təhrif edib çatdırırsa, o hədis mötəbər sayılmır.

Haqqında bəhs etdiyimiz hədisin sənəd etibarilə zəif olduğunu onun mətnini, məna və məfhumunu araşdırmaqla isbat etsək, daha yaxşı olar. Hədisin mətnindən belə başa düşülür ki, bütün səhabələr günah və azğınlıq ehtimalından uzaqdırlar. **"...Hansı birinin arxasınca getsəniz hidayət taparsınız"** ifadəsindən belə aydın olur ki, səhabələr istisnasız olaraq bu ehtimaldan (günah və azğınlıq) tamamilə uzaqdırlar. Çünki Peyğəmbər (s) günahkar bir şəxsin arxasınca getməyə əmr etməz.

Qeyd olunduğu kimi, Həzrət Peyğəmbərin (s) dövründə iman gətirib onunla həmsöhbət olan on minlərlə şəxs səhabə sayılır. Bu qədər insanın kütləvi şəkildə günah ehtimalından uzaq olmasını normal ağıl qəbul edə bilmir. Yəni, həqiqətən o dövrdə yaşayan müsəlmanlar günah etmirdilər?!

Bu hədisin düzgün olmamasının ən böyük dəlili onun tarixi həqiqətlərə uyğun gəlməməsidir. Yüzlərlə Əhli-sünnə kitabları səhabələrin hətta böyük günahlar etdiyini yazmışlar.

On minlərlə səhabənin günahdan uzaq olmadığını yəqin ki, heç kim təkzib etməz. Lakin burada yenə bir addım geri çəkilərək məşhur

səhabələrin mübtəla olduqları aşkar günahların bəzilərini nəzərə çatdırırıq.

İmam Əhməd ibn Hənbəlin **"Müsnəd"**, Əbu Bəkr Əhməd ibn Hüseyn Şafeinin **"Dəlailun-Nübuvvət"**, İbn Əbil Hədid Mötəzilinin **"Şərhu-Nəhcül-Bəlağə"** kitabında yazılır: **"Təbuk döyüşündən qayıdarkən səhabələrdən 14 nəfəri sözü bir yerə qoyaraq Həzrət Peyğəmbəri (s) "Əqəbə" adlı bir yerdə öldürmək qərarına gəldilər… Onlar dəhşətli səslər çıxararaq qum doldurulmuş kisəni Peyğəmbərin (s) dəvəsinin qarşısına atdılar ki, dəvə qaranlıqda hürküb Həzrət Mühəmmədi (s) dərəyə aşırsın. Lakin Allah-Təala öz Rəsulunu bu bəladan hifz etdi…"**

Fəxzil Təftazani **"Şərhul-məqasid"** kitabında yazır: **"Səhabələrin arasında yaranan kəskin ixtilıaf və qarşıdurmalar göstərir ki, onların bəziləri haqq yolundan azmış, öz nəfslərinə uyub zalım və fasiq olmuşlar."**

Bütün bunları yazmaqda məqsədimiz heç də səhabələri müsəlmanların gözündən salmaq deyil. Bəlkə də mötəbər ravilərin - hədis sahiblərinin səhabələr arasında heç bir fərq qoymadan olanları vaxtında, olduğu kimi qeyd etmələri İslamın əsl demokratik prinsipləri kimi bəyan etməkdir.

ƏMR SAHİBLƏRİ VƏ ƏHLİ-BEYT KİMLƏRDİR?

Bildiyimiz kimi, Qurani-Kərim nəss kəlamdır. Heç şübhəsiz, bu kəlamlar Allah-Təalaya məxsusdur. Ona görə də Allah-Təalaya öz bəndələri tərəfindən mütləq şəkildə itaət olunması müzakirə və təhlilə ehtiyacı olmayan bir məsələdir. Çünki Quran heç bir vəchlə insanlar tərəfindən müzakirə obyektinə çevrilə bilməz. Qurani-Kərimə ancaq itaət etmək və bu müqəddəs kitabda buyurulan əmrləri yerinə yetirmək lazımdır. Həmçinin Peyğəmbərə (s) itaətin sorğusuz-sualsız vacib olması o qədər də dərin fikir və araşdırma tələb etmir. Çünki, Peyğəmbər (s) ilk növbədə İlahi vəhylə həmişə rabitədədir, buyurduğu bütün əmrlər bilavasitə İlahi əmr olduğu üçün qeyd-şərtsiz qəbul olunmalıdır. Lakin **"əmr sahibləri"**nin itaətinin mütləq şəkildə əmr olunması, yəni onun itaətinin Allah və Peyğəmbərin (s) itaəti ilə fərqli olmaması bir anlaşılmazlıq və sual doğurandır.

Görək **"əmr sahibləri"** kimlərdir. Şübhəsiz ki, burada söhbət bütün ümmətin vahid rəhbərə itaət etməsindən gedir. Lakin bu rəhbərin hansı keyfiyyətlərə malik olması, kim tərəfindən təyin olunması məsələsi diqqətdən kənarda qalmamalıdır. Bu barədə kitabın müəyyən bölmələrində İslam ümmətinin rəhbərinin təyin olunması yollarının bəzi nüanslarını qeyd etmişik. Qurani-Kərimdə buyurulur:

"*Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin. Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin. Bu, daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır.*" ("Nisa" surəsi, 59-cu ayə)

Ayəyi-şərifənin tərcüməsində **"ixtiyar sahibləri"** ifadəsi **"əmr sahibləri"** deməkdir. **(müəl. M.S.)**

Allah-Təala bu ayədə bütün möminlərə özünə, Peyğəmbərə (s) və **"əmr sahiblərinə"** mütləq şəkildə itaət etməyi əmr edir. Ayədə itaət əmrinin mütləq və istisnasız olduğu diqqətdən kənarda qalmamalıdır. Allah-Təala özünə və məsum Peyğəmbərinə (s) vacib olduğu itaət miqdarında **"əmr sahibləri"**nə də itatəti vacib etmişdir.

Bu ayədə itaətin vacib olduğunu **"əmr sahibləri"** qeyd olunan yolların hansı biri ilə təyin olunan rəhbərlərə deyilir, sualına nəzər salaq. İrsi yolla təyin olunan rəhbərlər, zor gücü ilə hakim olan rəhbərlər, icma və səsvermə yolu ilə təyin olunan rəhbərlər.

Çox təəssüflər olsun ki, bəzi alimlər kor-koranə şəkildə təyinolunma üsulundan asılı olmayaraq, bütün hakim və rəhbərlərin **"əmr sahibi"** olduğunu və onlara itaətin vacib olduğunu demişlər.

Bu fikrin batil və bütün səmavi dinlərin mahiyyətinə zidd olduğunu isbat etmək o qədər də çətin deyil.

Tarixə nəzər salaq. İlahi peyğəmbərlər heç vaxt öz zamanlarının zalım hakimlərinə itaət etməyiblər. Qurani-Kərimdə açıq-aydın görürük ki, Musa peyğəmbər (ə) Fironun, İbrahim peyğəmbər (ə) Nəmrudun zülm və tüğyanları qarşısında müqavimət göstərərək onları islah etməyə çalışdılar. Nəticədə onlar öz iddialarında qalaraq məğlubiyyətə düçar oldular və əbədi lənət qazandılar.

Peyğəmbərdən (s) sonrakı dövrlərə gəldikdə də bü təfəkkür tərzinin bünövrəsinin qəsbkar Əməvilər sülaləsinin hakimiyyət illərinə təsadüf etdiyini görürük. Burada da zalım və qəsbkar hakimiyyət zor

gücü ilə İslam xilafətini qəsb edərək insanları xürafat və nadanlıq məngənəsində saxlamaqla öz çirkin niyyətlərini həyata keçirirdilər. Belə bir halda Peyğəmbər (s) nəslinin davamçıları olan İmam Hüseyn (ə) və onun övladları Allahın dinini təkzib edən mənfur Yezid İbn Müaviyə və digərlərini əmr sahibi hesab edərək onların əllərini öpməli idilərmi?!

İcma və səsvermə üsulu ilə seçilən rəhbərlərə də itaətdən söhbət gedə bilməz. Allah-Təala bu üsulla təyin olunan rəhbərə mütləq şəkildə itaət olunmasını vacib buyurmamışdır. İcma və səsvermə yolu ilə təyin olunan rəhbər müəyyən dərəcədə səhv edə bilər. Çünki xalqın əksəriyyətinin seçdiyi hər hansı bir şəxs günahdan uzaq və məsum hesab olunmur. Buna imkan da yoxdur.

Şübhəsiz ki, insanların zahiri keyfiyyətlərlə qiymətləndirib seçdikləri heç bir şəxs səhv və günah ehtimalından xali deyil. Çünki, biz insanlar bir-birimizin daxilini görmək, qəlbindən xəbər verməyə qadir deyilik. Bəzən insanları nikbinliklə tanımaqda elə böyük səhvlərə yol veririk ki, illərlə onun peşmançılığını çəkirik. Allah-Təala səhv və günah ehtimalı olan bir şəxsin itaətini Öz itaəti qədərində vacib buyurmaz. Belə bir vəziyyət, yolu yaxşı tanımayan bir adamı başqalarına bələdçi təyin etməyə bənzəyir. Bütün aqil insanlar qəbul edirlər ki, mütləq şəkildə itaəti vacib olan şəxs hökmən məsum və günah ehtimalından uzaq olmalıdır.

İmam Fəxri Razi **"Məfatihul-Ğeyb"** təfsirində bu ayəni şərh edərkən yazır: **"Əgər bu ayədə "əmr sahibləri"nin məsum olmadığını desək, iki zidd məfhumu bir yerə cəm etmiş olarıq - gecə ilə gündüzün eyni vaxtda cəm olması kimi… (iki zidd məfhum dedikdə günah və itaət nəzərdə tutulur)".**

Beləliklə, təsdiq etməliyik ki, itaəti vacib olan şəxs mütləq məsum olmalıdır.

Yuxarıda **"Əhzab"** surəsinin 33-cü ayəsinə istinadən Əhli-beytin bütün günah və pisliklərdən paklanması və məsum olması barədə məlumat vermişik. Müxtəlif Əhli-sünnə kitablarında Əhli-Beytin Mövla Əli (ə) və onun övladlarına şamil olduğunu da bəyan etdik. Bu barədə bir neçə mötəbər hədis gətirməklə bir daha həqiqəti açıqlamaq niyyətindəyik. Şeyx Süleyman Hənəfi **"Yənabiul-Məvəddə"** kitabında Peyğəmbərdən (s) nəql edir: **"Mən, Əli, Həsən, Hüseyn və Hü-**

seynin övladlarından doqquz şəxs bütün pisliklərdən paklanmış və bütün günahlardan məsumdurlar."

Əbu İshaq Şeyxulislam Həmvini **"Fəraidus-Simətəyn"** kitabında Salman Farsidən nəql edir: **"Peyğəmbər (s) əlini İmam Hüseynin çiyninə qoyub buyurdu: O, İmam oğlu İmamdır. Onun sülbündən gələn doqquz İmam ən yaxşı insanlar, əmanətdar və məsumdurlar."**

Göründüyü kimi, bütün mötəbər hədislər göstərir ki, itaəti vacib olan **"əmr sahibləri"** İlahi əmrlə təyin olunan məsum imamlardır.

Bundan əlavə, digər hədislərdə və bu ayənin şərhində **"əmr sahibləri"**nin Mövla Əli (ə) və onun övladları olduğu açıq şəkildə bəyan edilmişdir.

Əbu İshaq Şeyxulislam Həmvini **"Fəraidus-Simətəyn"** kitabında özünün mötəbər saydığı hədislərə istinad edərək yazır: **"Peyğəmbərdən bizim əlimizə belə çatmışdır ki, "əmr sahibləri" Əli (ə) və digər Əhli-beytdir."**

İsa İbn Yusif Həmədani Şafei Səlim İbn Qeysdən nəql edərək yazır: **"Bir gün Əli (ə) bir dəstə səhabənin müqabilində Peyğəmbərdən (s) "əmr sahibləri" barəsində soruşdu: O Həzrət buyurdu: "Ya Əli! Sən onların birincisisən."**

Mühəmməd İbn Mömin **"Risalətul-Etiqadat"** kitabında yazır: **"Əmr sahibləri Əlinin (ə) barəsində nazil olmuşdur."**

Şeyx Süleyman Hənəfi **"Yənabiul-məvəddə"** kitabında yazır: **"Peyğəmbər (s) Əlini Mədinədə canişin təyin edəndən sonra bu ayə Əlinin barəsində nazil oldu."**

Mövla Əlinin (ə) imamət və xilafətinin İlahi əmrlə təyin olunduğu barədə müəyyən qədər dəlil və sübutlarla fikrimizi tamamlaya bildik. Lakin İslam hakimiyyəti və İlahi xilafət Mövla Əli (ə) ilə tamamlanmır. Şiə məzhəbinin əqidəsinə görə, bu İlahi xilafət Mövla Əlinin (ə) on bir övladının imaməti ilə dünyanın sonuna qədər davam etməlidir. Necə ki, bu gün zamanın sahibini – Əli (ə) övladının 12-cisi - İmam Mehdinin (ə.c.) zühurunun intizarındayıq. Bu da o deməkdir ki, zaman İmamsız davam edə bilməz. O cənab qaib də olsa, lazım gələndə dünyanı idarə etmək iqtidarına malikdir.

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, bu on bir məsum imamın hakimiyyəti atadan-övladlarına keçməsinə baxmayaraq irsiyyət hüququ kimi qəbul olunmamalıdır. Çünki İlahi hakimiyyət heç kəsin şəxsi malı deyil ki, irsiyyət və varislik yolu ilə bir şəxsdən digər şəxsə ötürülsün. Məsələn, İmam Həsəndən (ə) İmam Hüseynə (ə) təhvil verilən imamətin varisliklə heç bir əlaqəsi yoxdur. Əgər belə olsaydı İmam Həsən (ə) Mövla Əlinin (ə) oğludur və İmam Həsəndən (ə) sonra oğlu Həsənə və ya Qasıma keçməli idi. Amma buna baxmayaraq, bu mənsəbə İmam Hüseyn (ə) layiq görüldü. Deməli, burada Allahın təyinatı öz hökmündə bərqərardır. Necə ki, əvvəlcədən Həzrət Peyğəmbərimizə (s) 12 imamın təyinatını adbaad, ardıcıl şəkildə Cəbrail-Əmin tərəfindən gətirilmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, İlahi əmrlər ümumi şəkildə Qurani-Kərimdə öz əksini tapmışdır. Məsələn, hal-hazırda biz müsəlmanların xüsusi bir tərzdə qıldığımız namaz, Qurani-Kərimdə yalnız **"namaz qılın"** əmri ilə ifadə olunmuşdur. Lakin namazın necə rəkət olması, hansı surələrin oxunması və digər təfsilatı Quranda göstərilməmişdir. Bu təfsilat və onun təlimləri Həzrət Peyğəmbərin (s) öhdəsinə buraxılmışdır. Peyğəmbərin (s) göstərişlərinə itaət etmək də hamıya – bütün müsəlmanlara vacibdir.

Qurani-Kərim bu barədə buyurur:

"Peyğəmbərin əmr etdiyi bütün şeylərə itaət edib, nəhy (qadağan) etdiyi bütün şeylərdən çəkinin!"

Biz **"namaz qılın"** ifadəsini bəsit bir şəkildə qəbul edib öz istədiyimiz kimi namaz qıla bilmərik. Bunun üçün mütləq şəriət rəhbərinin göstərişi labüddür. Hansı ki, Həzrət Peyğəmbərimiz (s) buyurmuşdur: **"Namaz qılın, necə ki, mən qılıram."** Həzrətin buyurduğu bu kəlam zaman-zaman bəzi xırda dəyişikliyə uğrasa da bu gün müsəlmanlar namaz qılmaqda davam edirlər.

Aydın olduğu kimi, hakimiyyət və imamət məsələsi Qurani-Kərimdə dəfələrlə ümumi şəkildə bəyan olunub. Məsələn, **"Nisa"** surəsinin 59-cu ayəsində **"əmr sahiblərinə itaət edin"**-deyə Allah-Təala bizlərə hakimiyyət və imamət qarşısında olan vəzifələrimizi müəyyənləşdirir. Namaz məsələsində olduğu kimi, bu məsələdə də əmr sahiblərinin kim olduğunu təfsilatı ilə öyrənmək üçün yenə də Həzrət Peyğəmbərə (s) müraciət etmək lazımdır. Bildiyimiz kimi, bu da

mötəbər hədislər vasitəsilə dövrümüzə qədər gəlib çatmışdır. Həzrət Peyğəmbərin (s) mübarək hədislərinə müraciət etdikdə görürük ki, İlahi hakimlər hər zaman mübahisə mövzusu olmasına baxmayaraq mühüm sənədlərlə bəyan olunmuşdur.

Şeyx Süleyman Hənəfi **"Yənabiul-Məvəddə"** kitabında (77-ci bab) yazır: **"Əhli-sünnə alimi Yəhya İbn Həsən "Əl-Ümdə" kitabında mötəbər sənədlə Peyğəmbərin (s) xəlifələrinin Bəni-Haşim tayfasında on iki nəfər olduğunu yazmışdır."**

Həmçinin **"Səhih Buxari"** 3, **"Səhih Müslim"** 9, **"Səhih Əbi Davud"** 3, **"Səhih Tirmizi"** 1 sənədlə Həzrət Peyğəmbərin (s) xəlifələrinin 12 nəfər olduğunu yazmışlar.

Əbu İshaq Şeyxulislam Həmvini **"Fəraidus-Simətəyn"** kitabında Mücahid ibn Abbasdan nəql edərək yazır: **"Nəsəl adlı bir yəhudi, Peyğəmbərin (s) hüzuruna gəlib İslam dini barəsində sorğu-sual etməyə başladı. O, qənaətbəxş cavablar aldıqdan sonra İslam dinini qəbul edərək soruşdu: "Ey Rəsuləllah, Musa (ə) özündən sonra Yuşə ibn Nunun xəlifə olmasını vəsiyyət etdi. Bəs, sizin xəlifələriniz kimlərdir? " Peyğəmbər (s) buyurdu: "Mənim xəlifələrim Əli, Həsən, Hüseyn və onun 9 övladlarıdır". Nəsəl bir daha sual edərək onların (9 nəfərin) adlarını bilmək istədiyini dedi. Həzrət buyurdu: Hüseyn şəhid olduqdan sonra onun övladları Əli (Zeynul-Abidin), Muhəmməd (Baqir), Cəfər (Sadiq), Musa (Kazim), Əli (Riza), Mühəmməd (Təqi), Əli (Nəqi), Həsən (Əskəri) və Mühəmməd-əl-Mehdi sıra ilə imamətə nail olurlar. Daha sonra Peyğəmbər (s) buyurdu: Xoş o kəsin halına ki, onları sevər və itaət edər. Bu zaman Nəsəl sevinclə İslam və Əhli-beyt barəsində şer oxumağa başladı…"**

Əbul-Müəyyəd Xətib Xarəzmi **"Mənaqib"**, Şeyx Süleyman Hənəfi isə **"Yənabiül-Məvəddə"** kitabında Cabir İbn Abdullah Ənsaridən nəql edərək yazırlar: **"Cəndəl İbn Cünadə adlı bir yəhudi, Peyğəmbərin (s) hüzuruna gəlib İslam dinini qəbul edərək dedi: Bu gecə yuxuda Musa peyğəmbəri gördüm. Həzrət mənə buyurdu: Sonuncu peyğəmbər Mühəmmədin dininə iman gətir və ondan sonra onun xilafətinə itaət et. Həmd və şükürlər olsun Allaha ki, sənin dininə iman gətirdim, bəs, sənin xəlifələrin**

kimlərdir? Peyğəmbər (s) buyurdu: Onların birincisi Əlidir, sonra Həsən, Hüseyn və onun 9 övladı. Sən bunların 3 nəfərinin imamətinə şahid olacaqsan. Dördüncü İmam dünyaya gəldikdən sonra dünyanın son nemətini dadacaq və bir qab süd içdikdən sonra vəfat edəcəksən. Cəndəl İbn Cünadə dedi: Ey Rəsuləllah, mən Əli, Həsən və Hüseynin adını Tövratda İlya, Şəbər və Şübeyr kimi görmüşəm, bəs, qalan 9 nəfər kimlərdir? Həzrət Peyğəmbər (s) buyurdu: Əli (Zeynul-Abidin), Mühəmməd (Baqir), Cəfər (Sadiq), Musa (Kazim), Əli (Rza), Mühəmməd (Təqi), Əli (Nəqi), Həsən (Əskəri) və Mühəmməd əl-Mehdidir ki, (axırıncısı) qeybə çəkilər. Sonra zühur edib zülm və fəsadla dolmuş yeri - dünyanı ədalətlə gülüstana döndərər. Xoş o kəslərin halına ki, o, qeybdə olduğu zaman səbrli olarlar, Allahdan qorxub onları sevərlər."

Qeyd edək ki, gözlərdən qeybdə olan və Allahın iradəsi ilə bir zaman zühur edib yer üzündə mütləq ədalət bərqərar edəcək 12-ci İmam Həzrət Mühəmməd əl-Mehdi əl-Höccət ibn Həsənin (ə) varlığını təsdiq edən 500-dən artıq mötəbər hədis 70-ə qədər Əhli-sünnə kitablarında qeyd olunmuşdur.

Əhli-beytə (onlara salam olsun) gələndə isə bu barədə mərhum Əllamə Təbatəbai **"Əlmizan"** təfsirində 70-dən çox rəvayət qeyd edib. Əhli-sünnə mənbələrində olan hədislər şiə mənbələrində olan hədislərdən çoxdur, desək yanılmarıq. Hətta bir çoxları bu barədə yazılan kitabların sayını 100-dən artıq qeyd edir.

Vahidi **"Əssabiqul"** kitabında yazır: **"Bu ayə ("Təthir") Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn (ə) barəsində nazil olub və onlara bu məsələdə heç kim şərik deyil."**

Bu mətləbə dəlalət edən rəvayətlər həddindən artıq çoxdur. Təkcə **"Dürrül Mənsur"** təfsirində (səh.196-199, 5-ci cild) 17 rəvayət qeyd edilib. Bu rəvayətlərin hamısı Əhli-beytin Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) olduğunu bildirirlər. Bu rəvayətlərin beşi Ümmüsələmədən, üçü Əbu Səid Xüdridən, biri Ayişədən, biri Ənəsdən, ikisi İbn Abbasdan, biri də Zeyd ibn Ərğəmdən nəql olunub.

Bu haqda qeyd olunan rəvayətləri dörd qismə bölmək olar:

- Peyğəmbərin (s) bəzi xanımlarından nəql olunan rəvayətlərdir ki, açıq-aydın bəyan olunur: **"Peyğəmbər (s) "Təthir" ayəsindən danışanda, o həzrətdən soruşduq: Ya rəsulallah, bu ayə bizə də aiddir? Həzrət cavabında buyurdu: Siz yaxşısınız, amma bu ayə sizə aid deyil."**

O cümlədən Peyğəmbərin (s) hörmətli xanımı Ümmüssələmədən Sələbi öz təfsirində nəql edir: **"Bir gün Peyğəmbər (s) mənim yanımda idi. Fatimə ona yemək gətirdi. Peyğəmbər (s) ona buyurdu: Əlini, Həsəni və Hüseyni çağır. Onlar gəldilər, bir yerdə yemək yedilər. Sonra Peyğəmbər (s) onların üstünə bir əba atdı və buyurdu: Ey mənim Allahım, bunlar mənim Əhli-beytimdir, itrətimdirlər. Onlardan pisliyi uzaq et və onları hər cür çirkinliklərdən pak et. Elə həmin vaxt "Təthir" ayəsi nazil oldu. Ümmüssələmə deyir: Mən dedim, ya Rəsulallah, mən də sizinləyəm? Peyğəmbər (s) buyurdu: Sən xeyirli adamsan, amma bunlardan deyilsən."**

Sələbi özünün **"Kəbir"** təfsirində Ayişədən nəql edərək yazır: **"Ayişədən Cəməl müharibəsi barəsində soruşdular. O dedi: Mən çox təəssüf edirəm bu müharibəyə görə**. **Amma Əli (ə) barəsində soruşanda dedi: O, Peyğəmbərin (s) yanında ən sevimli adam idi. O, Peyğəmbərin (s) yanında, camaatın ən sevimlisi olan bir xanımın əri idi. Mən öz gözlərimlə gördüm Peyğəmbər (s) Əlini, Fatiməni, Həsən və Hüseyni əbasının altına toplayıb buyururdu: İlahi bunlar mənim Əhli-beytim və mənim himayət edənlərimdir. Onlardan pisliyi uzaq et və onları paklandır. Ayişə deyir: Mən dedim: Ya Rəsulallah, mən də sənin əhlindənəm? Peyğəmbər (s) buyurdu: Sən xeyirlisən, amma onlardan deyilsən."**

"Hədisi-Kisa" dastanındakı rəvayətlər müxtəlif ibarələrlə nəql olunub. Hamısı da ona dəlalət edir ki, Peyğəmbər (s) Əlini (ə), Fatiməni (ə), Həsən (ə) və Hüseyni (ə) çağırıb üstlərinə əbasını atıb dedi: **"İlahi, bunlar mənim Əhli-beytimdirlər, pisliyi bunlardan uzaq et."** Bu zaman **"Təhtir"** ayəsi (**"Əhzab"** surəsinin 33-cü ayəsi) nazil oldu.

Bu hədisi **"Səhih Müslim"** (4-cü cild, səh. 1883) Ayişədən, Hakim **"Müstədrək"** kitabında, Beyhəqi **"Sünən"**də, İbn Cərir öz təfsirində, Suyuti **"Dürrül Mənsur"** kitabında nəql edib.

Hakim Həskani **"Şəvahidut-Tənzil"** kitabında (2-ci cild, səh. 33, 376-cı hədis) qeyd edib. **"Səhih Tirmizi"**də də bu hədis dəfələrlə Əli ibn Əbu Sələmdən və Ümmüssələmədən nəql olunub.

Fəxr Razi **"Mübahilə"** ayəsinin (**"Ali-İmran"** surəsi, 61-ci ayə) təfsirində bu hədisi (**"Kisa"**) nəql edəndən sonra yazır: **"Bu rəvayətin hədis və təfsir alimlərinin arasında səhihliyinə ittifaq olunubdur."**

Bu hədisi Əhməd ibn Hənbəl **"Müsnəd"**inin 1-ci cild, 33-cü səhifə, 4-cü cild, 107-ci səhifə və 6-cı cild, 292-ci səhifəsində müxtəlif yollarla nəql edib.

Bir çox rəvayətlərdən oxuyuruq ki, **"Təthir"** ayəsi nazil olandan sonra Həzrət Peyğəmbər (s) neçə ay Fatimənin (s) evinin yanından sübh namazına gedərkən çağırırdı: **"Ey Əhli-beyt, namaz vaxtıdır. Allah-Təala ancaq sizdən pisliкləri uzaqlaşdırmağı iradə edib və sizləri paklanldırıb."**

Bu hədisi Hakim Həskani **" Şəvahidut-Tənzil"** kitabında Ənəs ibn Malikdən nəql edib. Həmin kitabda **"7 ay"** ünvanı ilə Əbil Həmradan bu barədə başqa bir hədis nəql edilib. Yenə də həmin kitabda Əbu Səid Xudridən **"8 ay"** ünvanı ilə bu barədə bir hədis nəql olunub.

Bu ayənin təkcə Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə), Hüseyn (ə) və onun nəslindən olan imamlara aid olmasına heç bir şübhə yeri qalmır. Çünki, ayə özü də buna dəlalət edir. Bundan əlavə də hədislər, Peyğəmbərin (s) həyat yoldaşlarının dilindən, xüsusən də Ayişənin özündən eşidilən hədislər və Peyğəmbərin (s) Fatimənin (ə) evinin qarşısında dayanıb onlara **"Əhli-beyt"** kəlməsi ilə müraciət etməsi, bu mətləbi çox aydın və dəqiq surətdə sübuta yetirir.

Əbu Səid Xudridən nəql olunan rəvayətdə oxuyuruq: **"Bu ayə ("Təthir") beş nəfərin - Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) barəsində nazil olub."**

Bir sözlə **"Təthir"** ayəsinin Peyğəmbər (s) Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynə (ə) aid olması barədə İslam mənbələrində olan hədislər, böyük əksəriyyətlə Əhli-sünnə mənbələrində qeydə alınmışdır.

HƏZRƏT ƏLİNİN (Ə) ƏSHABI

Mövla Əlinin (ə) məhəbbəti və itaəti yolunda can verməkdən belə çəkinməyən bir neçə fədakar səhabələri olmuşdur. Onların bir neçəsi haqqında qısa məlumat verməklə kifayətlənirik.

MALİK ƏŞTƏR NƏXƏİ. Malikin tərif və vəsflərini bir neçə sətrlə qeyd etmək mümkün olmadığından Mövla Əlinin (ə) Misir xalqına yazdığı məktub səhifələrindən bəzi vəsfləri söyləməklə kifayətlənirik. Mövla Əli (ə) o məktubda belə yazır: **"…Allahın qullarından birini sizə tərəf göndərdim. O qorxulu günlərdə yatmır, vəhşət və iztirablı saatlarda düşmən qarşısından qorxub qaçmır. Pislərə qarşı atəşdən daha yandırıcıdır. O Məzhəc qəbiləsindən Malik ibn Harisdir. Onu dinləyin və haqq olan əmrlərini yerinə yetirin. Çünki o Allahın qılınclarından bir qılıncdır ki, kəskinliyini itirməz, vuruşu təsirsiz qalmaz…"**

Daha sonra Mövla Əli (ə) onun haqqında belə buyurmuşdur: **"Malikin mənə olan nisbəti, Mənim Rəsulullaha olan nisbətim kimidir."**

Müaviyə ona Həzrət Əlinin (ə) sağ əli deyərdi. Siffeyn döyüşlərindən qayıtdıqdan sonra Həzrət Əli (ə) onu Misirə vali təyin etdi. Gülzüm deyilən yerdə Nafi tərəfindən zəhərləndi. Malik Əştərin şəhadəti Həzrət Əlini (ə) çox üzdü, onun üçün çox ağladı: **"Allah Malikə rəhmət etsin, əgər dağ idisə böyük bir dağ idi. O daş idisə sərt bir daş idi. Onun ölümü Şamlıları (Müaviyə tərəfdarlarının) əziz, İraqlıları zəlil etdi. Bundan sonra Malik kimi birini görməyəcəyəm."**

ÜVEYS QƏRƏNİ. Üveys Qərəni çox abid və arif bir şəxs idi. Tarixçilər onu səkkiz məşhur zahiddən biri saymışlar. Yəməndə dəvəçiliklə məşğul idi. Anasının götür-qoyunu, təmizliyini özü edirdi. Rəsulullahı (s) ziyarət etmək niyyəti ilə Mədinəyə getmək üçün annasından izn istədi. Anası dedi: **"Get, amma yarım gündən artıq qalma."**

Bəzi xəbərdə isə anasının ona belə dedliyi bildirilir: **"Sənə gedib-qayıtma müddəti icazə verirəm, Peyğəmbəri gördün də qayıt, görmədin də."**

Üveys Mədinə şəhərinə gəlib Rəsulullahın (s) evinə getdi. Amma o anda Rəsulullah (s) Mədinədə deyildi. Üveys bir neçə saat sonra, anasının sözünə görə, Rəsulullahı (s) ziyarət etməmiş Yəmənə döndü. Rəsulullah (s) Mədinəyə qayıtdıqda həyətə girər-girməz dedi: **"Burada gördüyüm nur kimin nurudur?"** Bildirdilər ki, Yəməndən Üveys adlı bir dəvəçi gəlmişdi, bir müddət qaldıqdan sonra geri qayıtdı. Rəsulullah (s) buyurdu: **"Bu nuru bizim evə hədiyyə olaraq qoymuşdur."**

"Məcalisul Muminin" adlı kitabda belə yazılır: **"Rəsuli Əkrəm (s) onu nəfsurrəhman deyə anaraq belə buyurdu: Mən Yəmən tərəfdən Allahın qoxusunu alıram. Bu zaman Salman soruşdu: Bu şəxs kimdir? Həzrət Rəsuli Əkrəm: O Yəmənli bir kişidir. Ona Üveys Qərəni deyirlər. Qiyamət günündə tənha həşr alacaq. Muzir və Rəbiə qəbilələrinin sayı qədər insanlara şəfaət edəcək. Sizdən kim onu görərsə, salamımı ona çatdırsın."**

Anası vəfat edəndən sonra Üveys azad bir şəxs kimi yenidən Həzrət Peyğəmbərin (s) görüşünə gəlir. Artıq bu zaman Həzrət Peyğəmbər (s) dünyasını dəyişmişdi. Peyğəmbərlə (s) görüşə bilmədiyi üçün məyus olan Uveys narahatçılıq keçirir. Bu zaman ona müjdə olaraq Peyğəmbərin (s) vəsiyyət edib qoyduğu əbanı verirlər. Bütün varlığı ilə sevinən Üveys Peyğəmbərin (s) əbasını ömrünün sonuna qədər qiymətli bir hədiyyə kimi özündə saxlayır.

Üveys Siffeyn döyüşündə Həzrət Əlinin (ə) hüzuruna gələrək biət etdi və onun ordusu ilə birlikdə döyüşə başladı. Həmin döyüşdə də şəhid oldu.

KUMEYL İBN ZİYAD. O, tabeinin böyüklərindən və Həzrət Əlinin (ə) yaxın səhabələrindən idi. Allah dostları ona **"Əmirəlmöminin sirrinin sahibi"** deyərdilər. Həzrət Əlinin (ə) ona öyrətdiyi dua tarixdə **"Kumeyl"** adı ilə məşhurdur.

MÜHƏMMƏD İBN ƏBU BƏKR. O da Mövla Əlinin (ə) yaxın səhabələrindən idi. Mühəmməd ibn Əbu Bəkr Həzrət Əlinin (ə) oğlu yerində idi. Bu o deməkdir ki, o həmişə Mövla Əlinin (ə) xidmətində oğul kimi dayanardı. İmam Əli (ə) onun haqqında buyurmuşdu: **"Mühəmməd mənim oğlum idi, amma Əbu Bəkrin sülbündəndir."**

Siffeyn döyüşündən sonra Mövla Əli (ə) tərəfindən Misirə vali təyin edildi. Muaviyə və Əmr ibn Asın hiyləsi ilə Misir xalqı ona qarşı

çıxdılar. Daha sonra onu öldürərək cəsədini ölmüş bir ulağın qarnına qoyub yandırdılar.

ABDULLAH İBN ABBAS. Mövla Əlinin (ə) əmisi oğludur. O İbn Abbas adı ilə məşhurdur. Fiqh, hədis və təfsir elmlərinin çox yaxşı bilicisi olub. İbn Abbas Mövla Əlinin (ə) həqiqi dost və şiələrindən idi. Mövla Əlinin (ə) şəhadətindən sonra o çox təsirlənmiş, həmişə hüzn içində olmuşdur. Çox ağlaması səbəbi ilə ömrünün sonlarına yaxın gözləri kor olmuş və o halda da dünyadan köçmüşdür.

MƏYSƏM TƏMMAR. Məysəm Təmmar Mövla Əlinin (ə) yaxın səhabələrindən idi. Ömrünün demək olar ki, yarısından çoxunu Mövla Əlinin (ə) qapısında keçirmiş, ona xidmət etməkdən zövq almışdır. Ubeydullah ibn Ziyad tərəfindən dar ağacından asılıb şəhid edildi. Mövla Əli (ə) hələ sağlığında İbn Ziyad tərəfindən şəhid ediləcəyini, hətta asılacağı xurma ağacının budağını belə ona göstərmişdi. Rəvayətlərdə Məysəm Təmmarın hərdən o ağaca su verdiyi və onun dibində namaz qıldığı söylənilir.

QƏMBƏR. Qəmbər Həzrət Əlinin (ə) xüsusi xidmətçisi idi. Həccac ona **"Əlinin dinindən üz çevir"** dedikdə, Qəmbər də ona **"onda sən məni Əlinin (ə) dinindən daha üstün bir dinə hidayət et"**-deyə cavab vermişdir. Həccac: **"Madam ki, onun dinindən üz çevirmirsən, onda necə bir ölüm istəyirsən de, səni elə öldürüm."** Qəmbər cavabında **"seçmək haqqı sənin olsun, çünki məni öldürdüyün şəkildə mən də Qiyamət günü səni öldürəcəyəm"** demişdir.

İmam Sadiqin (ə) buyurduğuna görə, Qəmbər Mövla Əlini (ə) çox sevirmiş. Həzrət evdən çıxanda Qəmbər də əlində qılınc çölə çıxarmış. Bir gecə Mövla Əli (ə) deyir: **"Qəmbər nə üçün arxamdan gəlirsən?"** Qəmbər cavab verir: **"Sənə bir zərər gəlməsindən qorxuram."** Mövla Əli (ə) buyurur: **"Sən məni göy əhlindən qorumağı düşünürsən, yoxsa yer əhlindən?"** Qəmbər deyir: **"Yer əhlindən."** Mövla Əli (ə) buyurur: **"Allahın izni olmadan, yer əhli mənə zərər verə bilməz."**

Bu cavabdan sonra Qəmbər geri dönür.

RUŞEYD HACƏRİ. Ruşeyd Hacəri Mövla Əlinin (ə) yaxın səhabəsi idi. Bir gün Mövla Əli (ə) ona belə buyurdu: **"Ey Ruşeyd! Bəni Üməyyənin zinazadəsi (İbn Ziyad) sənin əllərini, iki ayaqlarını və**

dilini kəsmək istədiyi zaman səbrin necə olacaq - (Allah-Təaladan diləyin nə olacaq?)" Ruşeyd Hacəri cavab verir: **"Ya əmirəlmöminin! Son bağışlanma və cənnətimi."** Mövla Əli (ə) buyurur: **"Ey Ruşeyd! Sən dünya və axirətdə mənimləsən."**

Həzrət Əlinin (ə) Əmmar Yasir, Səhl ibn Huneyf, Səsəə ibn Suhan və Zeyd ibn Suhan, Hicr ibn Ədi, Qeys ibn Səd və bunlara bənzər bir çox səhabələri var idi. (Allah onlardan razı olsun).

ƏLİ (Ə) NƏ ÜÇÜN SƏBR EDİRDİ?

"Nəhcül-Bəlağə" kitabından oxuduğumuz **"Şiqşiqiyyə"** xütbəsində Mövla Əlinin (ə) necə səbr etməsi, bu səbrin İlahi bir məsləhət olduğunu açıq şəkildə bəyan etməsinin şahidi oluruq.

Bəzi alimlər bu xütbənin bir iftira olduğunu və məşhur şiə alimi Seyyid Rəzi (**"Nəhcül-Bəlağə"**ni toplayıb yazan) tərəfindən qondarıldığını iddia edirlər. Lakin insaf və imanı hər şeydən üstün tutan Əhli-sünnə alimlərinin kitabları bu iddianı təkzib edir.

Uzun illər Misirin müftisi olmuş Şeyx Məhəmməd Əbduh **"Tarixil-Uməmil-İslamiyyə"** kitabında bu xütbənin mötəbər olduğunu etiraf etmiş və ona geniş şərh vermişdir.

İbn Xişab ləqəbi ilə məşhurlaşan Şeyx Əbu Əbdillah ibn Əhməd yazır: **"Mən bu xütbəni Seyyid Rəzi dünyaya gəlməmişdən 200 il öncə yazılan kitablarda görmüşəm…"**

Kəmaləddin ibn Əli ibn Meysəm Bəhrani yazır: **"Mən bu xütbəni Zəyr ibn Fürat və mötəzilə şeyxlərindən olan Əbu Cəfər ibn Qubbənin dəsti-xətti ilə oxumuşam. Onlar Seyyid Rəzi dünyaya gəlməmiş vəfat etmişdilər."**

Bu xütbəyə geniş şərh yazmış İbn Əbil Hədid Mötəzili **"Şərhu-Nəhcul-Bəlağə"** kitabında yazır: **"Mən bu xütbəni Abbasi xəlifəsi Muqtədir Billahın dövründə yaşamış mötəzilə imamı Əbulqasim Bəlxinin kitablarında dəfələrlə görmüş və oxumuşam."**

"Şiqşiqiyyə" xütbəsinin mötəbər olması və Mövla Əlinin (ə) xilafətin qəsb olunması ilə heç zaman razı olmadığı bütün elm əhlinə məlumdur.

Mövla Əlinin (ə) xilafətlə zahirən razılaşmasının siyasi bir zərurət olduğu barədə yuxarıda bir neçə məsələ üzərində dayanmışdıq. Maraqlıdır, görəsən, bütün döyüşlərdə öz şücaəti ilə fərqlənən və **"Əsədullah"** (Allahın aslanı) ləqəbini qazanan Mövla Əli (ə) bu xilafətin qeyri-qanuni olduğunu bildiyi halda nə üçün səbr edir, öz hüquqlarını müdafiə etmirdi? Şübhəsiz ki, burada söhbət silahlı qiyamdan gedir. Çünki Mövla Əlinin (ə) öz hüquqlarını elmi şəkildə, müasir ifadə ilə desək, mədəni mübarizə yolu ilə müdafiə etdiyini bir az əvvəl qeyd etmişik.

Bəzi tarixi mənbələrdə Mövla Əlinin (ə) ağır iztirablara dözməsi və hüquqlarının tapdalanmasına səbr etməsi bir sıra səbəblərlə izah olunur. Onlardan ən başlıcası yuxarıda qeyd etdiyimiz kimi, güc faktorudur ki, Mövla Əli (ə) bunu istəmirdi. Çünki yaxşı bilirdi ki, silahlı qiyama əl atması onun ətrafındakı vəfalı səhabələrin, vilayət və imamətinə sadiq olan möminlərin kütləvi qırğınına səbəb ola bilər. Həmçinin o həzrətin imaməti ilə razılaşmayan, lakin küfr və bütpərəstliyin qarşısında möhkəm sipər kimi dayanan səhabələr bu döyüşdə həlak ola bilərdilər.

İbn Əbil Hədid **"Şərhu-Nəhcil-Bəlağə"** kitabında Mövla Əlinin (ə) bu məsələyə toxunduğu bir xütbəni belə qeyd etmişdir: **"Allah-Təala Öz Rəsulunun ruhunu cismindən ayırdığı gündə, Qüreyş lovğalıqla özünü bizdən önə çəkdi. Biz ümmətə rəhbər layiq olduğumuz halda bizi öz haqqımızdan məhrum etdilər. Amma mən gördüm ki, səbr etmək, müsəlmanlar arasına ixtilaf salmaqdan, onların qanının tökülməsindən daha yaxşıdır."**

Tarixdən məlum olduğu kimi, müsəlmanların böyük əksəriyyəti Peyğəmbərə (s) ömrünün son illərində iman gətirmişlər. Xüsusilə, Məkkənin fəthindən sonra bir çox müşriklər can və mallarını qorumaq üçün iman gətirərək müsəlman olmuşlar. Qurani-Kərimdə müsəlmanların böyük əksəriyyətinin Məkkənin fəthindən sonra iman gətirdikləri haqda buyurulur:

"(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman;

"İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman;

"Rəbbini həmd-səna ilə təqdis et (Sübhanəkə Allahümmə və bihəmdikə» kəlməsini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən O, tövbələri qəbul edəndir." **("ən-Nəsr" surəsi, 1-3-cü ayələr)**

Peyğəmbərin (s) vəfat xəbərini eşidən kimi ayrı-ayrı yerlərdə yeni iman gətirənlər İslamdan üz döndərib mürtəd olmağa başladılar. Onlar hətta qoşun toplayaraq Mədinəyə hücum etmək fikrinə düşdülər.

Məhz belə bir zamanda Allahın müqəddəs dinini öz canından artıq sevən Mövla Əli (ə) silah götürüb qiyam edə bilməzdi. İbn Əbil Hədid Mövla Əlinin (ə) yazdığı bir məktubu öz kitabında qeyd edərək yazmışdır: **"Mən əl saxladım, çünki öz gözlərimlə görürdüm ki, bir dəstə İslamdan üz döndərib Mühəmmədin (s) dinini məhv etmək istəyir. Qorxdum ki, İslam və müsəlmanlara kömək etməsəm, İslamın parçalanmasına, məhv olmasına şahid olacağam. Bu müsibət xilafət hüququndan məhrum olmaqdan daha böyük idi…"**

Hamıya məlumdur ki, İslam hakimiyyəti bərqərar olunan gündən etibarən Rum imperiyası onun qarşısında ciddi bir təhlükə kimi dayanırdı. Peyğəmbərin (s) vəfatından sonra bu təhlükə əvvəlkindən daha da ciddiləşdi. Bu xristian imperiyasının təhlükəsi qarşısında bütün müsəlmanlar birləşməli, ixtilafları kənara qoymalı idilər. Belə bir zamanda təbii ki, Mövla Əli (ə) müsəlmanlarla həmfikir olmaq əvəzinə, yeni bir bayraq götürüb İslam xilafətinə qarşı çıxa bilməzdi. İmam Əlinin (ə) belə bir həssas zamanda İslama ürək yandırıb birinci xəlifəyə Rum imperiyası ilə döyüş barədə məsləhətlər verməsini Əhli-sünnə tarixçisi İbn Vazeh Yəqubi özünün **"Tarixi-Yəqubi"** kitabının 3-cü cildində xüsusi qeyd etmişdir.

İYİRMİ BEŞ İL SÜKUT

Mövla Əlinin (ə) Peyğəmbərin (s) sağlığındakı həyatından az da olsa bəhs etdik. İmamın şəxsiyyətini yetişdirən və o Həzrətin inamının möhkəmliyini, ruhunun əzəmətini göstərən böyük hadisələr ardıcıllıqla da olmasa qeyd olundu. Butün bunlarla bahəm hadisələrin gedişində o Həzrətin insani fəzilətləri və əxlaqi səciyyələri ilə kifayət qədər tanış olduq. Amma Mövla Əlinin (ə) həyatının ən həssas və çətin dövrü həyatının 25 il xanənişin olma müddətidir. Bu aləmə də nəzər salmaq onun dərdli anlarını bölüşmək bir müsəlman kimi həm savabdır, həm də islami borcdur.

Heç şübhəsiz bu zaman İmamın qarşısında iki yol var idi. Bunlardan biri risalət ailəsinin görkəmli şəxsiyyətləri, özünün həqiqi dostları, hava-

darlarının köməyi ilə ayağa qalxıb əldən getmiş haqqı geri qaytarmaq, digəri isə sükut edərək bütün ictimai işlərdən kənara çəkilmək və öz şəxsi əxlaqi vəzifələri ilə məşğul olmaq. O Həzrət bütün deyilənlərə və yazılanlara rəğmən ikinci yolu – sükutu - səbr etməyi seçdi.

Həzrət Peyğəmbərin (s) qeyd edəcəyi əlamətlər və nişanələr şəhadət verirdi ki, İmamın (ə) o şəraitdə qiyam etməsi cavan İslam cəmiyyətinin xeyrinə olmazdı. Ona görə də, ikinci yolu seçmək İmam (ə) üçün İslam xatirinə su və hava kimi lazım idi. Həm də ki, bu yolun gedişini Həzrət Peyğəmbər (s) öz vəsiyyətində ona buyurmuşdu.

Yuxarıda qeyd etdiyimiz kimi, Peyğəmbər (s) və onun vəsiləri Allah tərəfindən təyin edilir. Amma insanlar Allah qanunlarını pozduqları kimi (günah işlər gördükləri kimi) bu işi də pozaraq **"seçkili"** üsula keçdilər. Özü də necə seçki. Əvvəldə qeyd etdiyimiz kimi xalqın böyük əksəriyyətinin xəbəri olmadan bir qrup şəxs Səqifədə cəmləşib xəlifə seçdilər. Sonra müəyyən adamların göstərişi ilə evlərə yürüş edib insanları beyət etmək üçün silah gücünə məscidə dartıb apardılar.

Zübeyr də Fatimənin (ə) evinə yığışanlardan biri idi. O zaman onun risalət ailəsi ilə olan əlaqəsi gərginləşməmişdi. Məmurlar evdəkilərə həddindən artıq təzyiq göstərdikdə Zübeyr qılıncını siyirib çölə çıxdı və dedi: **"Heç vaxt beyət etməyəcəyəm. Siz Peyğəmbərin (s) vəsiyyətini pozursunuz, gərək hamınız Əliyə (ə) beyət edəsiniz!.."**

Tarixi sənədlərə görə, İmam Əlini (ə) məscidə gətirdikləri vaxt Əbu Bəkr (r) ona dedi: **"Bizim rəhbərliyimiz sənin xoşuna gəlmir?"**

Mövla Əli (ə) buyurdu: **"Nə danışırsan, əksinə, mən özümə söz vermişdim ki, Peyğəmbərin (s) vəfatından sonra Quranı bir yerə yığmayınca çiynimə əba salmayam. Buna görə də, başqalarından geri qaldım və sonra beyət etdim."**

Ümmül-möminin Ayişədən (r) nəql edirlər ki, Fatimənin (ə) sağ olduğu altı ay müddətində Əli (ə) beyət etmədi və yalnız onun vəfatından sonra xəlifəyə beyət etdi. (**"Əqdül-Fərid"**, 4-cü cild, səh. 260)

Mövla Əlinin (ə) beyət etməsi İslamın xeyrinə görə idi. İslamın parçalanmaması üçün Həzrət Əli (ə) bütün münaqişələri yatırdı və hətta lazım gələndə xəlifəyə lazımı köməkliyini də əsirgəmədi. İslam aləmin-

də imanda dərəcə alan böyük səhabə Əli (ə) vilayətinin ən böyük köməkçisi Salman Farsi Xəlifə Əbu Bəkrin (ə) xilafəti haqqında Əliyə (ə) belə dedi: **"Elə bir adamın xilafətini qəbul etdiniz ki, yalnız yaş cəhətindən sizdən böyükdür və öz Peyğəmbərinizin (s) Əhli-Beytini kənara vurdunuz. Halbuki, əgər xilafəti öz məhvərindən çıxarmasaydılar, heç vaxt ixtilaf meydana çıxmazdı və hamınız (haqq) xilafətin meyvələrindən bəhrələnərdiniz".** (Əbdühün **"Nəhcül-Bəlağə"**sinin şərhi, 1-ci cild, səh. 69).

Bu İmam Əlinin (ə) onları haqqın məhvəri və həqiqi rəhbər hesab etmələri demək deyildi. O Həzrət onların siyasi və elmi müşküllərini həll edir və bununla risalət ailəsini haqq ustadları, həqiqi rəhbər kimi tanıtdırırdı. Hətta İmam aşkar şəkildə buyurur: **"Bu ümmətdən heç kəs Peyğəmbər (s) ailəsi ilə müqayisə oluna bilməz və onların nemətindən bəhrələnən kəs heç vaxt onlarla bərabər ola bilməz".** Və ya İmam (ə) başqa yerdə Ali-Mühəmmədin (s) elmi fəzilətlərinə işarə edərək buyurur: **"Peyğəmbərin (s) Əhli-Beyti onun gizli sirlərinin keşikçisi, fərmanlarına itaətkar olanlar, onun elmi xəzinələri, kitablarının mühafizəçiləridir. Onlar İslam ölkəsini titrəyişlərdən qoruyan dağlardır. Peyğəmbər (s) onların vasitəsi ilə özünə arxa və rahatlıq bəxş etdi".**

Yenə həmin xütbənin başqa bir yerində buyurur: **"Peyğəmbərinizin (s) Əhli-Beytinə baxın və onların yolu ilə gedin ki, onların ardınca getmək sizi həqiqət yolunadan çıxarmaz və azğınlığa salmaz. Əgər onlar bir yerdə dayansalar, siz də dayanın, ayağa qalxsalar, siz da qalxın. Heç vaxt onlardan qabağa keçməyin ki, düz yoldan azarsınız və onlardan geri qalmayın ki, həlak olarsınız".** (Əbdühün **"Nəhcül-Bəlağə"**sinin şərhi, 2-cü xütbə)

Mövla Əli (ə) Peyğəmbərin (s) dilindən eşitdiyi hədisi belə nəql edir: **"Hər kəs öz zəmanə imamını tanımayan bir halda ölsə, cahiliyyə ölümü ilə dünyadan getmişdir".**

İmamətlə bağlı olan hədislərin haqqında isə hər bir əsrdə və zamanda ilahi feyzin davam etməsinə işarə edərək buyurur: **"Peyğəmbər ailəsinin misalı səma ulduzları kimidir: Əgər biri batsa, digəri çıxacaqdır".**

“Vilayət və imamət xüsusiyyətləri (elm və kəramət) onlarındır, Peyğəmbərin (s) vəsiyyəti onların barəsindədir və onlar Peyğəmbərin (s) varisləridir“. (Əbdühün **“Nəhcül-Bəlağə”**si, 2-ci xütbə)

İslamın ən böyük qəhrəmanı, ən ali rəhbəri və parlaq bir siması kimi tanınmış Həzrət Əli (ə) artıq təqiblərə məruz qalırdı. Bunun da əsas səbəbi gələcəkdə bəyan olunan hadisələrin özəyini təşkil edir. Bəri başdan qeyd edək ki, əgər bu 25 il Əlinin (ə) sükut ili – səbr etməsi olmasaydı, İslam da olmazdı. Mövla Əlinin (ə) sükut dövrünün axırıncı günlərində olan bir hadisəni qısa da olsa diqqətə çatdırmaq istəyirik.

…Artıq cana yetmiş xalq Mövla Əlini (ə) evində rahat buraxmır, İslama rəhbərlik etməsini tələb edirdilər. Bir neçə gün idi ki, bu adamların izdihamı Əli (ə) dudumanı qarşısında getdikcə çoxalırdı. Bu zaman iki qadın Mövla Əlidən (ə) kömək almaq məqsədi ilə ona müraciət etdilər. Qadınlar hər ikisi danışdılar ki, biz iki bacı hər ikimiz hamilə idik. Bir gecədə dünyaya uşaq gətirdik. Hər ikimizin uşağı oğlan idi. Səhər yuxudan ayılanda uşaqlardan biri ölmüşdu. Ölən uşağın kimə məxsus olması bizim üçün şübhəlidir. Ola bilsin o bacımın uşağı ölüb və ölü uşağı mənim yatağıma qoyub. Xahiş edirik diri uşağın kimə məxsus olmasını aydınlaşdırın. İmam qadınların hər ikisini ayrı-ayrılıqda sorğu-suala tutdu. İkisi də eyni iddia ilə çıxış edirdilər. Həzrət üzünü camata tutub buyurdu: **“Əgər biri oğlan, biri qız olsaydı qadının südü ilə bilinərdi ki, oğlan kimə məxsusdur, qız kimə. Bunlar isə hər ikisi oğlan uşağıdır. Ancaq bir çarə yolu qalır. Bu uşağı bunların arasında tam bərabər bölmək.”**

Bunu deyib qılıncını çəkir. Qadınlardan biri fəryad çəkib Həzrətin ayaqlarına yıxılır: **“Uşaq mənim deyil, bacımındır, bölməyə ehtiyac yoxdur, verin ona“.** Bu zaman İmamın gözləri dolur. Camaat təəccüblə soruşur: **“Sənə qurban olaq ya Əli (ə), döyüş səhnələrində öldürdüyün adamlar üçün uf da demirdin, amma bir uşağın ölümündə ağlayırsan.“** İmam buyurdu: **“Döyüş səhnəsində öldürdüklərim insanlığdan çıxan və ölümə məhkum olanlar idilər. Ağlamağım uşağa görə deyil, bir həqiqətin aydın olmasına görədir. Bu uşaq həmin bu ağlayan qadınındır ki, deyir**

uşaq mənim deyil. Ona görə ki, bu uşaq onun ciyərinin parasıdır. O istəyir ki, uşağı harada və kimin əlində olursa-olsun təki salamat qalsın. Bu eyni mənim İslamdakı vəziyyətimdir. Mən 25 il ona görə sakit dayandım, haqqımı tələb etmədim ki, qoy, İslam parçalanmasın, kimin əlində olursa-olsun, kim rəhbərlik edirsə-etsin təki İslam salamat qalsın. Həzrət Peyğəmbərin (s) 23 il çəkdiyi zəhmət, gətirdiyi İslam yenidən bütpərəstliyə, günəşpərəstliyə, aypərəstliyə və başqa-başqa batil dinlərə bölünməsin. Budur, artıq buna da nail olmuşam…"

İslam aləmində Peyğəmbərin (s) vəfatından sonra heç kəs fəzilət, mövqe, elm, bilik, Allah yolunda cihad və digər vacibi əməllərdə Əli (ə) şəxsiyyətini əvəz edə bilməmişdir. Eyni zamanda heç kim yoxsullara, əlsiz-ayaqsızlara, yetimlərə və digər imkansızlara kömək etmə cəhətində İmam Əlinin (ə) səviyyəsində olmamışlar. Hər yerdə - istər Hicaz olsun, istərsə də Yəmən, Peyğəmbərin (s) Əliyə (ə) olan dərin mehr-məhəbbətindən, onun şücaətindən, qəhrəmanlığından, fədakarlığından və canından keçməsindən danışılırdı.

Buna görə, qayda üzrə gərək Əli (ə) Peyğəmbərin (s) vəfatından sonra da İslam məhvəri və müsəlman cəmiyyətinin rəhbəri kimi mərkəzdə oturmalı idi. Amma tarixin səhifəsini vərəqlədikcə bunun tam əksini görürük. Çünki İmam həyatının bu mərhələsində (təqribən 25 il) yaranmış xüsusi şərait nəticəsində ictimai səhnədən kənara çəkilərək sükut – səbr etmək yolunu seçdi. Nə cihadda şəxsən iştirak etdi, nə də ki cəmiyyətdə rəsmi şəkildə söz deyə bildi. Qılıncdan əl çəkib şəxsi işlərlə və şagird yetişdirməklə məşğul oldu.

Bu uzun sükut və güşənişinlik keçmişdə cəmiyyətin içində olan, İslam dünyasının ikinci şəxsiyyəti və müsəlmanların böyük dayağı sayılan belə bir şəxsiyyət üçün çox da asan deyildi. Bütün bunlara dözüb səbr etməyə fəqət Əli (ə) şəxsiyyəti davam gətirə bilərdi.

İmamın bu dövrdəki fəaliyyəti aşağıdakı qaydada xarakterizə olunur:

- Allaha ibadət - həm də Əli (ə) kimi layiqli bir şəxsin ibadəti. Hətta İmam Səccad (ə) özünün heyrətləndirici ibadət və səyini əziz cəddinin ibadətləri qarşısında çox-çox az sayırdı.

- Quran təfsiri-ayələrdəki müşkülləri həll etmək, İbn-Abbas kimi şagirdlər tərbiyə edib yetişdirmək.

- Başqa millətlərin və məzhəblərin alimlərinin suallarına cavab vermək. Xüsusilə, Peyğəmbər (s) vəfat edəndən sonra İslam barəsində tədqiqat aparmaq üçün Mədinəyə gələn Yəhudi və Məsihilər elə suallar qarşıya qoyurdular ki, onlara Həzrət Əlidən (ə) başqa heç kəs cavab verə bilmirdi. O Həzrət Tövrat və İncili dərindən bilirdi. Əgər bu boşluq Əlinin (ə) vasitəsi ilə doldurulmasaydı, heç şübhəsiz İslam cəmiyyəti ağır xiffətlərə, xarlıqlara düçar olardı. Danılmaz bir həqiqətdir ki, Mövla Əli (ə) bütün suallara aydın və qəti cavab verdikdə Peyğəmbərin (s) yerində oturmuş xəlifələrin üzündə böyük heyrət yaranır və vəziyyətdən çıxdıqları üçün çöhrələri açılırdı.

- İslamda əvvəllər olmayanların haqqında Quranın göstərişi və Peyğəmbərdən (s) ehtiyac olmayan məsələlərin haqqında deyilməyən hədislərə Quranla müvafiq hökmlər bəyan etmək, İmamın həyatının ən həssas işlərindən biri idi. Əgər səhabə arasında Əli (ə) kimi bir şəxsiyyət olmasaydı, (Peyğəmbərin (s) təsdiq etdiyi kimi, ümmətin ən biliklisi, hökm və qəzavət işlərinə ən yaxşı şəkildə yiyələnən bir şəxs sayılırdı) İslamın əvvəlində bir çox məsələlər həll olunmamış bir düyün - yetişməmiş bir çiban kimi qalardı.

Təsadüfi deyildi ki, Həzrət Peyğəmbər Mövla Əli (ə) haqqında "Əğzakum Əli" – Sizin ən yaxşı Qazini Əlidir buyurmuşdur.

Qarşıya çıxan yeni məsələlər tələb edirdi ki, Peyğəmbərin (s) vəfatından sonra camaatın içində Peyğəmbər (s) kimi bir məsum və elmi biliklərdən xəbərdar (imam) olsun. Nəticədə İslamın bütün üsul və fürüatına kifayət qədər hakim olub, onun hərtərəfli və geniş elmi ümməti xoşagəlməz istiqamətlərə meyl etməkdən - qiyasa və gümana əməl etməkdən saxlasın. Belə böyük bir nemət və istedad Peyğəmbərin (s) və bütün dostlarının təsdiq etdiyi kimi, Mövla Əlidən (ə) başqa heç kimdə yox idi. İmamın qəzavətlərinin bir qismi Quran ayələri kimi maraqlı və tayı-bərabəri olmayan şəkildə istifadə etməsi tarix və hədis kitablarında öz əksini tapmışdır.

- Xilafət aparatı siyasi məsələlərdə və bəzi müşküllərdə çıxılmaz vəziyyətdə qalan vaxtda İmam Əli (ə) etimad olunacaq yeganə məş-

vərətçi idi. O, çox ali bir həqiqət və uzaqgörənliklə müşkülləri asanlıqla həll edib işin sonunu müəyyənləşdirirdi. Bu məşvərətlərin bəziləri **"Nəhcül-Bəlağə"** və tarix kitablarında nəql olunmuşdur.

- Mənəviyyatda addım atmaq üçün ruhi hazırlıqları olan və batinləri pak olan insanları yetişdirib tərbiyə etmək. Nəticədə İmamın mənəvi rəhbərliyi və təcrübəsi sayəsində kamillik zirvəsini fəth edib, zahiri gözlə görünməyən şeyləri batin və qəlb gözü ilə görsünlər, deyə böyük kömək idi.

- Yoxsulların və köməksizlərin çoxunun həyatını təmin etmək üçün işləyib çalışmaq. Hətta İmam öz əli ilə bağ salır, kəhriz qazır, sonra isə onları Allah yolunda vəqf edirdi.

Bunlar İmamın bu 25 il ərzində gözə çarpan iş və fəaliyyət üsulunun görünən tərəfi idi. Amma təəssüflə qeyd etmək lazımdır ki, İslamın böyük tarixçiləri İmamın həyatının bu hissəsinə lazımi əhəmiyyət verməmiş, bu dövrdə Əlinin (ə) həyatının xüsusiyyətlərini və incəliklərini düzgün şəkildə nəinki qələmə almamış, hətta qiymətləndirə bilməmişlər. Lakin Bəni-Üməyyə və Bəni-Abbas hakimlərinin həyatını ətraflı şəkildə qələmə almış və tarixə salmaqla onlardan heç nəyi əsirgəməmişlər.

Təəssüf doğuran məsələ budur ki, Mövla Əlinin (ə) 25 illik əzab və iztirablı zahiri həyatının xüsusiyyətlərini müəmmalı saxlamaqla gələcək nəsildən pərdələmişlər. Lakin saxta tarix yazanlar cinayətkarcasına Abbasi xəlifələrini, Müaviyə və Mərvan övladlarının eyş–işrət məclislərini incəliyinə qədər yazıb saxlamış, bu məclislərdə "xəlifə"lərin və müğənnilərin arasında oxunan şerləri, bihudə sözləri və s. xoşagəlməz hərəkətləri öz kitablarında bir ləkə olaraq İslam tarixi adı ilə rəsmiləşdirməyə çalışmışlar. Hələ bu azmış kimi, onların xidmətçilərinin, nökərlərin həyatını, mal–qaralarının sayını, bərbəzəklərinin xüsusiyyətlərini, qadın və məşuqələrinin bəzənmələrini böyük zövqlə qələmə almış və çox təəssüf ki, İslam tarixi ənənələri kimi sığortalamışlar. Yazıqlar olsun ki, İslamın parlaq siması, möminlər ağası Həzrət Əli (ə) kimi şəxsiyyət isə kölgədə qalmışdır.

Amma bütün bunlara baxmayaraq Günəş nə qədər qara bulud arasında qalsa da yenə Günəş kimi parlayacaqdır...

II FƏSİL

MÖVLA ƏLİ (Ə) HAQQINDA AYƏ VƏ HƏDİSLƏR

Bəzi alimlər (xüsusən dünyəvi) iddia edirlər ki, Mövla Əli (ə) şiə məzhəbinin təsəvvür etdikləri qədər fəzilət sahibi olsaydı, onun adı Qurani-Kərimdə mütləq çəkilərdi. Qeyd edək ki, hər hansı seçilmiş bir şəxsin Qurani-Kərimdə adının çəkilib-çəkilməməsi onun fəzilətini təsdiq və ya təkzib etmək deməməkdir. Bununla belə, Zeyd ibn Haris səhabələr arasında yeganə şəxsdir ki, Qurani-Kərimdə adı ilə zikr olunmuşdur. Onun da tarixi hamımıza məlumdur...

Qurani-Kərimin şəxsən Mühəmməd Peyğəmbərə (s) nazil olmasına baxmayaraq, onun adı bu müqəddəs kitabda yalnız beş dəfə çəkilmişdir. (**"Ali-İmran"** - 144, **"Əhzab"** - 40, **"Səff"** - 6, **"Muhəmməd"** - 2, **"Fəth"** - 29)

Əgər bir şəxsin adının Qurani-Kərimdə zikr olunması fəzilət hesab edilsəydi, o zaman Peyğəmbərin (s) mübarək adı hamıdan çox zikr olunmalı idi. Halbuki, Adəm (ə), Nuh (ə), Musa (ə), İsa (ə), İbrahim (ə) və digər peyğəmbərlərin adları İslam Peyğəmbərinin (s) adından dəfələrlə çox zikr olunmuşdur.

İlahi nemət olan ağıl və zəka biz insanlara ona görə verilmişdir ki, düşünməyi, nəticə çıxarmağı bacaraq. Əgər gözlərimizin önünə pərdə çəkən təəssübkeşlikdən yaxa qurtarıb Qurani-Kərimə nəzər salsaq, Mövla Əlinin (ə) təkzibolunmaz fəzilətlərini rahat şəkildə müşahidə edə bilərik. Bu fəzilətlər o qədər çoxdur ki, Əhli-sünnə təfsirçiləri Əbu Nəim İsfahani və Əbu-Bəkr Şirazi onun haqqında nazil olan ayələri toplayaraq xüsusi bir kitab yazmışlar. **(Ma Nəzələ Minəl Qurani fi Əli, Nüzulul-Qurani fi Əli)**

Əgər biz İmam Sələbi, İmam Fəxr Razi, Siyuti, İmam Əhməd ibn Hənbəl, Təbəri, Müslim, Nəsai, İbn Həcər kimi alimlərin kitablarına baxsaq, Mövla Əli (ə) barəsində nazil olan ayələrin təkcə Əhli-sünnə kitablarında 30-dan artıq olduğunu görərik. Bu qədər dəlillərin müqabilində Əlinin (ə) adı Quranda yoxdur-deyə, inad edənlərin mövqeyi Bəni-israilin **"Allahı görməsək, iman gətirmərik"** fikrinə bənzəyir desək, heç də yanılmarıq.

Übbad ibn Abdullah Əsədi deyir: **"Eşitdim ki, Əli (ə) minbərdə buyurdu: Qureyşdən elə bir kişi yoxdur ki, onun haqqında bir, ya da iki ayə nazil olmamış olsun. Bir kişi ayağa qalxaraq dedi: (bir növ tənə və paxıllıqla) Sənin haqqında hansı ayə nazil olub? Əli (ə) onun sözündən qəzəblənərək buyurdu: Əgər cəmiyyətin içərisində soruşmasaydın sənə cavab verməzdim. Amma vay olsun sənə, "Hud" surəsini oxumamısanmı? Sonra yuxarıdakı ayəni oxuyaraq buyurdu: Bəyyinə və Qurana istinad edən şəxs Həzrət Peyğəmbər və orada olan şahid də mənəm."** (**"Kəşfül–Ğümmə"**, 1-ci cild; **"Dürrül Mənsur"**, 3-cü cild; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 275, hədis 372; **"Müntəxəbi Kənzül Ümmal"**, Müsnəd Əhməd ibn Hənbəlin haşiyəsində, 1-ci cild, səh. 449; **"İmam Əli ibn Əbu Talibin Tərcümeyi Halı"**, Dəməşq tarixindən 2-ci cild, səh. 420, hədis 927; **"Kifayətut-Talib"** 62-ci bab, səh. 235; **"Mənaqib ibn Məğazəli"**, səh. 270, hədis 318.; **"Təzkirətul Xəvvas"**, 2-ci bab, səh. 61)

Mövla Əlinin (ə) fəzilətlərini isbat edən bir neçə ayəni misal olaraq əziz oxuculara təqdim edirik.

1. "Əs-Saffat" surəsi, 24-cü ayə: Allah-Təala Qurani-Kərimdə buyurur: ***"Ey mələklər "Onları yubadıb saxlayın, çünki sorğu-sual olunacaqlar!"***

İbn Abbasdan nəql olunub ki, Qiyamət günü Əlinin (ə) vilayət və imamətindən bütün insanlar sorğu-sual olacaqdırlar. (**"Kəşfül Ğümmə"**, 1-ci cild, səh. 315; **"Xəsaisül Vəhyül Mübin"**, İbn Bətriq, 8-ci fəsil, hədis 87-88.; **"Əlifirdövs Deyləmi"**, hədis 89; **"Təfsir Hibri"**, səh. 335, 482-484-cü say; **"Ğayətül-Məram"**, 5-ci bab, səh. 259; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hədis 785, səh. 106; **"Mənaqib ibn Şəhraşub"**, 2-ci cild, səh. 152; **"Təzkirətul-Xəvvas"**, 2-ci bab, səh. 17; **"Lisanül-Mizan"**, 4-cü cild, səh. 211, 559-cu say; **"Əraibus-Simətеyn"**, 1-ci cild, səh. 79, 14-cü bab, hədis 47; **"Səvaiqül-Movhiqə"**, İbn Həcər, səh. 79)

2. "Ət-Tövbə" surəsi, 119-cu ayəsində buyurulur:

"Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun! (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun)".

Qurandakı **"səbil", "sirat", "mizan"** və **"siratun müstəqimun"** kəlmələrindən məqsəd Əlidir (ə).

Həzrət Əli (ə) Məkkə şəhərinə gedib **"bəraət"** ayələrini kafirlər üçün oxudu.

Həzrət Əli (ə) **"Nəcva"** (mücadilə surəsi) ayəsinə əməl etdi. Öz dinarını on dirhəmə satdı və on dəfə sirrini Rəsulullaha dedi. On dəfənin hər birində sirrini deməmişdən qabaq bir dirhəm ehsan etdi. Nəhayət, Allah-Təala aşağıdakı ayə ilə **"Nəcva"** ayəsini öz əvvəlki qüvvəsindən saldı.

İbn Abbasdan nəql olunub ki, mübarək ayədə olan doğru olanlardan məqsəd Əli ibn Əbu Talibdir. (**"Kəşfül-Ğümmə"** 1-ci cild, səh. 315; **"Dürrül-Mənsur"** 3-cü cild, səh. 390; **"İmam Əli ibn Əbu Talibin tərcümeyi-halı"**, Dəməşq tarixində, İbn Əsakir, 2-ci cild, hədis 930, səh. 422; **"Təzkirətul-Xəvvas"**, Sibt ibn Covzi, səh 16; **"Fəraidus-Simətеyn"**, 1-ci cidl, 68-ci bab, hədis 299, səh. 369; **"Mənaqib Xarəzmi"** hədis 273, səh. 28)

3. "Əl-Bəqərə" surəsinin 274-cü ayəsində buyurulur: ***"O şəxslər ki, öz mallarını gecə, gündüz, gizli və açıq-aşkar sədəqə verərlər…"***

İbn Abbasın nəqlinə görə, bu ayə Əli (ə) şənində nazil olunub. Çünki həmin gün onda cəmi dörd dirhəm var idi ki, birini gecə, birini gündüz, birini gizli, birini də aşkar təsəddüq verdi. (**"Kəşfil-Ğümmə"** 1-ci cild, səh. 315; **"Səvadüt-Tənzil"**, 1-ci cild, səh. 109; **"İmam Əli ibn Əbu Talibin tərcümeyi-halı"** Dəməşq tarixindən, İbn Əsakir 2-ci cild, səh. 413; **"Təzkirətul-Xəvvas"**, 2-ci bab, səh. 13; **"Kifayətut-Talib"**, səh. 231; **"Məcməüz-Zəvad"**, 6-ci cild, səh. 324; **"Zəxairül-Üqba"**, səh. 88; **"Mənaqib ibn Məğazəli"**, hədis 325, səh. 280; **"Mənaqib Xarəzmi"**, hədis 275, səh. 281; **"Dürrül-Mənsur"**, 1-ci cild, səh. 363)

4. "Əl-Mucadələ" surəsinin 12-ci ayəsində buyurulur: ***"Ey iman gətirənlər! Peyğəmbərlə (hər hansı bir iş barəsində) məxfi danışacağınız zaman bu danışıqdan əvvəl (Ona hörmət əlaməti olaraq yoxsullara) sədəqə verin. Bu (əməl) sizin üçün (Allah yanında) daha xeyirli, daha pakdır…"***

Bu ayəyə Mövla Əlidən (ə) başqa heç kəs əməl etməyib. (**"Dürrül-Mənsur"** 6-cı cild, səh. 185; **"Təzkirətul-Xəvvas"**, 2-ci bab, səh. 17; **"Mənaqib ibn Məğazəli"**, hədis 372-373, səh. 325; **"Təfsir Fərat ibn İbrahim Kufi"**, hədis 614, səh. 469)

5. "Əl-Maidə" surəsinin 55-ci ayəsində buyurulur: ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər".*** (Ruku halətində zəkat verirlər – müəl. M.S.)

Bu ayənin Mövla Əli (ə) haqqında nazil olmasını istər şiyə, istərsə də əhli-sünnə alimləri təsdiq edirlər. O Həzrət günorta namazının nafiləsini qıldığı halda öz üzüyünü (namaz qılarkən barmağda əqiq üzüyünün olması namazın savabını artırır) dilənçiyə verdi. Allah-Təala bu işi bəyənərək yuxarıda qeyd olunan ayəni öz əziz Peyğəmbərinə (s) nazil etdi.

Bu məsələ o qədər aşkar yayıldı ki, Peyğəmbər (s) dövrünün tanınmış şairi Həssan ibn Sabit belə bir məzmunda şeir qoşaraq buyurmuşdur:

…Sən idin ki, ruku halətində zəkat verdin,
Canım sənə fəda olsun ey ən yaxşı ruku eləyən…

Bu ayə Mövla Əli (ə) şənində nazil olub. Hansı ki, o zaman Həzrət namaz üstündə (rüku halında) öz üzüyünü fəqirə verdi. (**"Dürrül-Mənsur"** 2-ci cild, səh. 293; **"Mənaqib ibn Məğazəli"**, hədis 345, səh. 311; **"Mənaqib Əlarəzmi"**, 17-ci fəsil, hədis 248, səh. 266; **"Təfsir ibn Kəsir"**, 2-ci cild, səh. 71; **"Təfsir-Təbəri"**, 6-cı cild, səh. 186; **"Dürrül-Mənsur"**, 2-ci cild, səh. 293; **"Əsbabun-Nüzuli-Vahidi"**, səh. 114; **"İmam Əli ibn Əbu Talibin Tərcümeyi-Halı",** Dəməşq tarixindən, İbn Əsakir. 2-ci cild, hədis 16 və 915, səh. 409; **"Ənsabul-Əşrəf"**, 2-ci cild, hədis 151, səh. 150; **"Nəzm Dürərul Simətеyn"**, səh. 86-88; **"Kənzul-Ümmal"**, Müsnət Əhməd ibn Hənbəlin haşiyəsi. 5-ci cild, səh. 38; **"Təzkirətül-Xəvvas"**, 2-ci bab, səh. 15)

6. "əl-Bəyyinə" surəsinin 7-ci ayəsində buyurulur: ***"İman gətirib yaxşı əməl edənlər isə yaradılmışların ən yaxşılarıdır."***

Mövla Əli (ə) buyurub: **"Həzrət Peyğəmbər mənim sinəmə söykənmişdi və bu ayəyə işarə edərək buyurdu: Ya Əli, bu ayədən məqsəd sən və sənin şiələrindir. Sən və şiələrin qiyamət günü görüşdüyümüz yer Kövsər hovuzunun yanı olacaqdır, o zaman qiyamət gününün hesabı üçün hamı diz üstə oturur, amma sənə tabe olanlar nurani çöhrələrlə behiştə daxil olacaqlar."** (**"Mənaqib Xarəzmi"**, hədis 247, səh. 265; **"Təfsir Fərat ibn İbrahim Kufi"**, say. 748, səh. 583; **"Dürrul-Mənsur"** Süyuti, 6-ci cild, səh. 379; **"Fəzailül-Xəmsə"**, 1-ci cild, səh. 324; **"Şəvahudut-Tənzil"**, 2-ci cild, səh. 356)

7. "Ali-İmran" surəsinin 61-ci **"Mübahilə"** ayəsidir. ***"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən bilikdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair sənninlə mübahisə edənlər olsa, onlara de: Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!"***

Bu ayədəki **"Ənfüsanə"**-özümüzü kəlməsində məqsəd Mövla Əlidir (ə). Burada Mövla Əlinin (ə) Həzrət Peyğəmbərin (s) bir müqəddəs nəfs olduğu sübuta yetirilir. **"Ənfüssanə"** kəlməsi ilə məlum olur ki, Mövla Əli (ə) bütün kamilliklər və fəzilətlərdə Həzrət Peyğəmbərlə (s) şərikdir, Peyğəmbərdə (s) olan bütün İlahi xüsusiyyətlərə Mövla Əli (ə) də malikdir. Mövla Əlinin (ə) Peyğəmbərdən (s) fərqli cəhəti yalnız peyğəmbərliyə çatmamasıdır.

Söhbətlərin birində Məmun Həzrət İmam Rzaya (ə) dedi: **"Həzrət Əlinin (ə) haqqında olan ən böyük fəzilət hansıdır?"**

Həzrət buyurdu: **"Mübahilə" ayəsindəki fəzilət ən böyük fəzilətdir".**

Şeyx Rəzi bu fəzilətə aşağıdakı şerlə işarə etmişdir. Şerin məzmunu belədir: **"O (Həzrət Əli (ə), Həzrət Mühəmməd Mustafanın (s) nəfsi və canıdır (özüdür). Ondan başqa heç kəs bu cür deyil".**

Bu ayədə işarə olunan oğlan, qadın və özümüz dedikdə Peyğəmbər (s), Əli (ə), Fatimə (s), Həsən (ə) və Hüseyn (ə) nəzərdə tutulub. Deməli, bu ayə onların şənində nazil olub.

Qeyd: Çox hədislərdə Peyğəmbər Əliyə "Əntə nəfsi" – sən mənim özümsən deməsi danılmaz faktdır.

(**"Dürrül-Mənsur"**, Suyuti, 2-ci cild, səh. 38; **Mənaqib İbn Məğazəli,** hədis 310, səh. 316)

8. "Əl-Fəth" surəsinin 29-cu ayəsində buyurulur: ***"…Möminlərin ibadət vasitəsilə qüdrətli olması, əkinlərin kökünün və budaqlarının möhkəm olarkən faydalı olmasına oxşayır..."***

Hənsaənidən rəvayət olub ki, İslam dini Mövla Əli (ə) şəmşirilə qüvvətləndi və öz yerini tapdı. (**"Şəvahidut-Tənzil"**, Hənsani, 2-ci cild, hədis 890. səh. 184)

9. "Ət-Təhrim" surəsinin 4-cü ayəsinin məzmununda buyurulur: ***"…Möminlərin ən saleh və səlahiyyətlisi…"***

Əsma bint-Umeys və ibn Abbas rəvayət edir ki, Peyğəmbərdən (s) eşitdik: **"Saleh sözündən məqsəd Əli ibn Əbu Talibdir."** (**"Rəstul-Ğummə"**, 1-ci cild, səh. 316; **"Dürrul-Mənsur"**, 6-cı cild, səh. 244; Mənaqib İbn Məğazəli, hədis 316, səh. 296; Təfsir İbn Kəsir, Dəməşqi, 4-cü cild, səh. 389; **"Kifayətül-Talib"**, 30-cu bab, səh. 138; **"İmam Əli İbn Əbu Talibin Tərcümeyi-Halı"** Dəməşq tarixindən, İbn Əsakir, 2-ci cild, hədis 932, səh. 425; **"Ət-Tənzil"**, hədis 933, **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hədis 979, səh. 254; **"Müntəxəb-Kənzil"**, **"Ümmal Müsnəd"** Əhməd ibn Hənbəlin haşiyəsində, 2-ci cild, səh 31; **"Təfsir-Hibəri"**, hədis 97, səh. 369)

10. "Ər-Rəd" surəsinin 4-cü ayəsində buyurulur: ***"Yer üzündə bir-birinə yaxın (qonşu) qitələr (münbit, qeyri-münbit, şirin-şoran, dağlıq-aran yerlər, müxtəlif iqlimli torpaq sahələri) eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbu ki, biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb dərk edən insanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır."***

Cabir ibn Abdulla Ənsari Peyğəmbərdən (s) buyurulanı nəql edərək yazır: **"Bütün insanlar müxtəlif köklərdən əmələ gəlib. Hər kəsin kökü və bünövrəsi başqasilə fərqlidir. Yalnız mən və Əli**

(ə) bir kökdən nəsəblənmişik. Sonra yuxarıda qeyd olunmuş ayəyə isnad etdi." (**"Kəşfül-Ğümmə",** 1-ci cild, səh. 316; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 395, səh. 288; **"Müstədrək"**, Hakim Nişapuri, 2-ci cild, səh. 241; **"Əl-Mizan"**, 11-ci cild, səh. 296)

11. "Ət-Təhrim" surəsinin 8-ci ayəsində buyurulur: ***"…O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz…"***

İbn Abbasın dediyinə görə, bu ayə Mövla Əli (ə) və onun dostları haqqındadır. Bu şərhlə ki, Behişt libası və bəzəyini geyinən ilk şəxs İbrahim Xəlil olacaqdır (Xəlil olduğuna görə). Sonra Mühəmməddir. Çünki Allah-Təalanın seçdiyidir. Sonra isə Mövla Əli (ə) Behişt paltarını geyinəcək. Bu iki böyük şəxslərin arasında əzəmətli İslam Peyğəmbəri (s) xüsusi nuraniyyət ilə Behiştə daxil olacaq.

İbn Abbas bu zaman dedi: **"Əli (ə) və onun dostu, köməkçiləri Peyğəmbərlə birlikdə behiştə daxil olacaqlar."** (**"Kəşful-Ğümmə"**, 1 cild, səh. 316; **"İhqaqül-Həqq"**, 4-cü cild, səh. 500, 6-cı cild, səh. 588, 21-ci cild, səh. 682; **"Ən-Nuzul-Muştəəl"**, Əbu Nəim, hədis 72, səh. 263; Mənaqib Əlarəzmi, hədis 305, səh. 219, Qum çapı və Nəcəf çapı; **"Yənabiul-Məvəddə"**, hədis 35, səh. 236)

12. "Əl-İnsan" surəsinin 8-ci ayəsində buyurulur: ***"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər."***

Bu ayə Mövla Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) şənində nazil olmuşdur. (**"Dürrül-Mənsur"**, 6-cı cild, səh. 299; Fəzat ibn İbrahim Kufinin təfsiri , 676-cı say, səh. 519)

13. "Əl-Əhzab" surəsinin 23-cü ayəsində buyurulur: ***"Möminlər içərisində elələri də vardır ki, Allahla etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir..."***

Bu ayə Mövla Əlinin (ə) şənində nazil olmuşdur. (**"Kəşfül-Ğümmə",** 1-ci cild, səh 316.; **"Əssəvaiqül-Möhrəqə"**, səh 80.; **"Səvahidut-Tənzil"**, 2-ci cild, hədis 627-628, səh 1.; **"Təvilul-Ayatuz-Zahirə"**, 2-ci cild, hədis 8, səh 449.; **"Biharul-Ənvar"**, 5-ci cild, səh 410.; **"Təfsirul-Burhan"**, 3-cü cild, səh 301.)

14. "Əl-Fatir" surəsinin 32-ci ayəsində buyurulur: ***"Sonra kitabı bəndələrimizdən seçdiklərimizə (Mühəmməd ümmətində) miras verdik…"***

Bu ayə Mövla Əlinin (ə) şənində nazil olub. Çünki o Allah-Təalanın seçilmiş bəndəsidir. **("Kəşfül-Ğümmə"** 1-ci cild, səh. 318.; **"Təfsiri-Furat"**, ibn İbrahim, say 474, səh. 348; **"Sədus-Süud"**, ibn Tavus, səh. 107; **"Təfsire-Burhan"**, 3-cü cild, səh. 364; **"Təvilul Ayatuz-Zahirə"**, 2-ci cild, hədis 782. səh. 481)

15. "Yusif" surəsinin 108-ci ayəsində buyurur: ***"Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq..."***

Bu ayə Mövla Əli (ə) haqqında və onun şənində nazil olub. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 318. **"Təfsiri-Furat"**, ibn İbrahim, səh. 202, hədis 265, səh. 266; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 391, səh. 286; **"Təvilul-Ayətuz-Zahirə"**, 1-ci cild, hədis 1, səh. 227; **"Üsulul-Kafi"**, 1-ci cild, hədis 66, səh. 425; **"Biharul-Ənvar"**, 24-cü cild, hədis 42, səh. 21)

16. "Ər-Rəd" surəsinin 19-cu ayəsində buyurulur: ***"(Ya Mühəmməd!) Rəbbindən sənə nazil edilənin (Quranın) haqq olduğunu bilən kimsə (haqqı görməyən) korla eyni ola bilərmi? Yalnız ağıl sahibləri öyüd –nəsihət qəbul edərlər!"***

Bu ayənin də Mövla Əli (ə) haqqında nazil olması aşağıdakı dəlillərlə isbatlanıb. (**"Biharul-Ənvar"**, 24-cü cild, səh. 37, hədis 176, səh. 181; **"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 316; **"Təvilul-Ayatuz-Zahirə"**, 1-ci cild, səh. 231)

17. "Əl-Ənkəbut" surəsinin 1-2-ci ayələrində buyurulur: **"**Əlif, Lam, Mim!**"** **"**İnsanlar (möminlər) yalnız: ***"İman gətirdik!"-deməklərilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Xeyr, iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacağıq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edə bilək!)"***

Mövla Əli (ə) buyurur: **"Peyğəmbərdən soruşdum: Bu imtahan nədir? Həzrət buyurdu: Bu imtahan sənə məxsusdur. Çünki camaat sənin vasitənlə və sənə görə, sən də onlara görə imta-**

han olunacaqsınız.” Başqa cür desək, camaat sənlə düşmənçilik edəcək, sən də onlarla düşmənçiliyə hazır ol. Hər nə varsa Allah-Təala əmrindən ilham almışdır və bu işləri Onun əmrilə etmişəm. Sonra bu ayəni tilavət eylədi.

18. “Əl-Əsr” surəsinin 1-3 ayələr: ***“And olsun axşam çağına (ikindi vaxtına, əsr namazına, zamana və ya Peyğəmbərin əsrinə) ki, İnsan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir? Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyyə edən və səbri tövsiyyə edən kimsələrdən başqa! (Belələri Cənnətə nail olub əbədi səadətə qovuşanlardandır!”*** (**“Kəşfül-Ğümmə”**, 1-ci cild, səh. 320; **“əl-İsabə”**, 1 cild, say 1946, səh. 373; **“Dürrül-Mənsur”**, 7-ci cild, səh. 642; **“Ərcəhul-Mətalib”**, səh. 241; **“İhqaqül-Həqq”**, 5-ci cild, səh. 570; **“İmam Əli ibn Əbu Talibin Tərcümeyi-Halı”,** Dəməşq tarixindən, 1-ci cild, hədis 323, səh. 275)

İbn Abbas yazır: **“(Yuxarıda qeyd olunan ayədəki ziyankar və saleh) ziyankar insan Əbu Cəhl, o kəs ki, iman gətirib və yaxşı əməl edib, sözləri isə Mövla Əli (ə) və Salman Farsiyə aiddir.”** (**“Kəşfül-Ğümmə”**, 1-ci cild, səh. 320; **“Dürrül-Mənsur”**, 8 cild, səh. 622; **“Səvahidut-Tənzil”** 2-ci cild, hədis 1154; **“Ehqaqül-Həqq”** 3-cü cild, səh. 382 və 14-cü cild, səh. 331 və 20-ci cild, səh. 117)

19. “Ət-Tövbə” surəsinin 100-cü ayəsində buyurulur: **“(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur (uğurdur)!”**

Bu ayədən məqsəd mühacir və Ənsarların ən qabaqcılları Əli ibn Əbu Talib (ə) və Səlmandır. (**“Kəşful-Ğümmə”** 1-ci cild, səh. 320; **“Şəvahidut- Tənzil”** 1-ci cild, hədis 346; **“Xəsaisul-Vəhyil-Mübin”** İbn Bitriq, 9-cu fəsil, hədis 93, səh. 127)

20. “Əl-Həcc” surəsinin 34-35-ci ayələrində buyurulur: ***“…(Ya Mühəmməd!) Sən də (Allaha) itaət edənlərə (təvazökar olanlara***

Cənnətlə) müjdə ver!" və "…Və onlara verdiyimiz ruzidən (ehtiyacı olanlara) sərf edərlər."

İbn Abbas nəql edir ki, bu ayə Mövla Əli (ə) və Səlmanın şənindədir. (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 320; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 550, 193-cü bab; **"Qayətul-Məram"**, səh. 429.)

21. "Əş-Şüəra" surəsinin 84-cü ayəsində buyurulur: ***"Sonra gələnlər arasında mənə yaxşı ad qismət elə! (Gələcək nəsillər məni həmişə yaxşı yad etsinlər, xətrimi əziz tutub adımı hörmətlə çəksinlər!)"***

İbn Abbas bu ayənin Mövla Əli (ə) və onun səhabələri haqda nazil olduğunu yazır. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 319; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 251, səh. 194; **"Təfsir- Əl-Burhan"**, 1-ci cild, səh. 494)

İmam Sadiqdən (ə) nəql olunub ki, bu ayədən məqsəd (yəni yuxarıda qeyd olunan ayə) Mövla Əli ibn Əbu Talibdir (ə). Çünki Allah-Təala öz vilayətini İbrahimə (ə) verəndə İbrahim (ə) dedi: **"Ey mənim Allahım! Bu mənsəbi mənim övladlarıma da ver: Allah-Təala bu duanı qəbul etdi və Mövla Əliyə (ə) bu mənsəb və məqamı bəxş etdi."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 320. **"Ehqaqül-Həqq"**, 3-cü cild, səh. 380 və 14-cü cild, səh. 33 və 20-ci cild, səh. 116)

Həbbeyi Ərəni nəql edir: **"O zaman ki, Peyğəmbər (s) göstəriş verdi. Səhabələrin evlərinin məsçidə açılan qapıları bağlansın. Bu göstəriş Peyğəmbərin (s) yaxınlarına ağır gəldi. Həbbə deyir: Mən Həmzə ibn Əbdül Müttəlibə baxırdım, qırmızı rəngli qətfə başına bükmüşdü, gözləri yaşla dolu idi və giley edərək Peyğəmbərə (s) dedi: Məni, əmin Abbası, Əbu Bəkri və Ömәri məsçiddən çıxartdın. Amma əmin oğluna məsçidə yol verdin (yəni məsçidə açılan qapısını bağlamadın). O zaman bir kişi də yerindən qalxdı və dedi: Peyğəmbər həmişə əmisi oğlunun məqamını qaldırmaq üçün çalışır."**

Bu xəbərdən agah olan Peyğəmbər (s) səhabələri məsçidə toplayaraq söhbətə başladı. Allah-Təalaya həmd-sənadan sonra çox gözəl və bəlağətli danışaraq buyurdu: **"Camaat, nə mən bu qapıları**

bağlamışam və açmışam, nə də başqalarını çıxartmışam. Mən ancaq Allah-Təalanın istəyini yerinə yetirmişəm…"

22. "Ən-Nur" surəsinin 36-cı ayəsində buyurulur: ***"(Həmin taxça və çıraq) Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izn verdiyi o evlərdir (o məscidlərdir) ki, orada səhər-axşam Onu təqdis edib şəninə tərifl ər deyərlər."***

Ənəs və Bureydədən nəql olub ki, Peyğəmbər (s) elə ki, bu ayəni axıra qədər oxudu, bir kişi ayağa qalxaraq dedi: **"Ya Rəsulallah! Bu evlər hansılardır?"** Həzrət Peyğəmbər (s) buyurdu: **"Peyğəmbərlərin evləri."** Əbu Bəkr (r) barmağını Mövla Əlinin (ə) evinə tərəf uzadaraq dedi: **"Ya Rəsulallah! Bu ev də onlardandır?"** Həzrət Peyğəmbər (s) buyurdu: **"Bəli! Onlar ən yaxşılarındandır."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 319; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 568-567-566, səh. 410)

23. "Əl-Maidə" surəsinin 87-ci ayəsində buyurulur: ***"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi də aşmayın. Doğrudan da Allah həddi aşanları sevməz!"***

Mövla Əli (ə) və bəzi səhabələr söz qoydular ki, halal ləzzət və şəhvətləri özlərinə haram etsinlər. O zaman bu ayə nazil oldu. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 319; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 251, səh. 194)

Qutadə deyir: **"Əli (ə) və bəzi səhabələr ki, Osman bin Məzun da onların içərisində idi. Qəti söz qoydular ki, dünyadan uzaqlaşsınlar, qadınları tərk etsinlər və ancaq axirət işi ilə məşğul olsunlar. O halda yuxarıda qeyd etdiyimiz ayə nazil oldu."** (**"Kəşfil-Ğümmə"**, 1-ci cild, səh. 319; **"Dürrül-Mənsur"**, 2-ci cild, səh. 308)

24. "Əl-Maidə" surəsinin 67-ci ayəsində buyurulur: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz."***

Bu ayə Mövla Əlinin (ə) vilayət və imamətini bəyan etmək üçün Qədir-Xum çölündə vida həccində nazil olmuşdur. (**"Kəşful-Ğüm-**

mə”, 1-ci cild, səh. 317; **“Ən-Nurul-Müştəəl”**, hədis 16, səh. 86; **“Şəvahidut-Tənzil”**, 1-ci cild, hədis 243, səh. 187; **“Təfsir-Furat”**, İbn İbrahim, hədis 149, səh. 130; **“Buşarətul-Mustəfa”**, Təbəri, səh. 243; **“İmam Əli ibn Əbu Talibin Tərcümeyi-Halı”,** Dəməşq tarixindən, İbn Əsakir, 2-ci cild, səh. 86; **“Fəzailil-Mühümmə”**, İbn Səbbağ, səh. 42; **“Yənabiul-Məvəddə”**, 39-cu bab, səh. 40; **“Dürrul-Mənsur”**, 2-ci cild, səh. 289; **“Ehqaqul-Həqq”**, 2-ci cild, səh. 415, 3-cü cild, səh. 512, 14-cü cild, səh. 32 və 20-ci cild, səh. 172)

Zeyd ibn Əli deyir: **“Cəbrail vilayət xəbərini gətirəndən sonra Həzrət Peyğəmbər bu xəbəri çatdırmaqdan bir qədər nigaran oldu və buyurdu: Mənim gövmüm cahiliyyə dövründən elə də uzaqlaşmayıb, olmaya bu xəbəri eşitdikdə yenə cahiliyə tərəf qayıdarlar.”**

O zaman bu ayə bir daha təkidlə nazil oldu və Həzrət bu xəbəri camaata çatdırdı. (**“Kəşful-Ğümmə”**, 1-ci cild, səh. 317; **“Dürrül-Mənsur”**, 3-cü cild, səh. 116; **“Şəvahidut-Tənzil”**, 1-ci cild, hədis 250, səh. 192)

Zərr (Abazərin oğlu) Abdullahdan nəql edir: **“Həzrət Peyğəmbərin (s) həyatında hər zaman “Maidə” surəsinin 67-ci ayəsini oxuyurduq. Dərhal deyirdik ki, Əli - əmirəlmöminin və möminlərin mövlası və ağasıdır.”** (**“Kəşful-Ğümmə”**, 1-ci cild, səh. 319; **“Dürrül-Mənsur”**, 2-ci cild, səh. 298; **“Ehqaqul-Həqq”**, 3-cü cild, səh. 512; **“Fəthul-Bəyan”**, 3-cü cild, səh. 89; **“Ərcəhul-Mətalib”**, səh. 203)

25. "Ali-İmran" surəsinin 173-174-ci ayələrində buyurulur: O kəslər ki, xalq onlara: "Camaat (Əbu Süfyan və tərəfdarları) sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" – dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl Vəkildir!" – deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər. Və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir.

Əbu Rafe deyir: **“Öhud davasından sonra Peyğəmbər (s) Əli (ə) və bəzi səhabələri Əbu Süfyanı təqib etmək üçün göndərdi. Xəzaə qəbiləsindən olan bir kişi yolda Əlini (ə) görüb ona xəbər**

verdi ki, Əbu Süfyan və onun yoldaşları yenidən qüvvə toplayaraq sizinlə müharibəyə gələcəklər. Əli (ə) buyurdu: Hər halda bizim etimadımız və güvəncimiz Allah-Təaladır. Heç vaxt düşmənin hücumundan qorxumuz yoxdur. Bu açıqlamadan sonra yuxarıdakı ayələr Əli (ə) və onun yoldaşları haqda nazil oldu." (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 317; **"Dürrül-Mənsur"**, 2-ci cild, səh. 103; **"**Təfsiri-Burhan**"**, 1-ci cild, hədis 3, səh. 326)

26. "Əl-Əhzab" surəsinin 25–ci ayəsində buyurulur: ***"Allah kafirləri qəzəbli olduqları (məqsədlərinə çatmadıqları) halda geri oturtdu. Onlar heç bir xeyir (qənimət) əldə edə bilmədilər. Döyüşdə (zəfər çalmağa) Allah möminlərə kifayət etdi. Allah qüvvət, qüdrət sahibidir!"***

İbn Məsud belə qiraət edir ki, Allah-Təala Əli (ə) vasitəsilə möminlərdən müharibə zəhmətini götürdü. (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 317; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hədis 630, səh. 4; **"Dürrül-Mənsur"**, 5-ci cild, səh. 192; **"Xəsaisul-Vəhyul-Mubin"**, İbn Bitriq, 20-ci fəsil, hədis 166, səh. 219; **"Kifayətut-Talib"**, 62-ci bab, səh. 239; **"Qayətul-Məram"**, Bəhram, 169-cu bab, səh. 420; **"İmam Əli ibn Əbu Talibin Tərcümeyi-Halı",** Dəməşq tarixindən, 2-ci cild, hədis 927, səh. 420)

İbn Abbas nəql edir: **"Allah-Təala Peyğəmbərin (s) səhabələrini bəzi ayələrdə danlayıb Əlidən (ə) bir nişanə olan kimi, ondan ehtiram və böyüklük qeyd edir. Hər yerdə Quran "Ey iman gətirənlər" dedikdə Həzrət Əli (ə) onların əmiri və rəhbəridir. Elə buna görə də biz də əmr olunduq və özümüzə borc bildik ki, Əlini (ə) yalnız yaxşılıqla zikr edək və həmişə Allahdan ona istiğfar və bağışlamaq istəyək."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 317; **"Tarixul-Xülafə"**, Süyuti, səh. 160; **"Yənabiul-Məvəddə"**, səh. 126; **"Nəzmu Dürərus-Simətеyn"**, səh. 79; **"Zəxairul-Üqba",** səh. 79; **"Müntəxəbi Kənzul-Ummal"**, Musnəd Əhməd ibn Hənbəlin haşiyəsində 5-ci cild, səh. 38; **"Xəsaisul-Vəhyul-Mubin"** 18-ci fəsil, səh. 201; **"Şəvahidut-Tənzil"**, 6-cı fəsil, hədis 70)

Hüzeyfə nəql edir ki, Əli (ə) imanın sirri və həqiqətidir. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 317; **"Mənaqib ibn Şəhraşub",** 3-cü cild, səh. 52; **"Şəvahidut-Tənzil"**, hədis 67, 6-cı fəsil)

27. "Əz-Zümər" surəsinin 32-ci ayəsində buyurulur: ***"Allaha qarşı yalan uydurub söyləyən (Allaha övlad istinad edən, Onun şərikləri olduğunu deyən), özünü həqiqət (Quran, peyğəmbər) gəldikdə onu təkzib edən kimsədən daha zalim kim ola bilər? Məgər Cəhənnəmdə kafirlər üçün yer yoxdur?! (Əlbəttə, vardır!)"***

İmam Musa (ə) ibn Cəfər atalarından nəql edir ki, **"zülümkar o kəslərdir ki, Peyğəmbərin (s) Əli (ə) haqqında dediyi sözləri rədd ediblər."** (**"Kəşful-Ğümmə",** 1-ci cild, səh. 317; **"Təfsirul-Burhan"**, 4-cü cild, səh. 76)

28. "Əl-Haqqə" surəsi, 12-ci ayədə buyurulur:

"Ona görə ki, bunu (möminlərə nicat verib kafirləri məhv etməyimizi) sizə bir ibrət dərsi edək və dərk edən (öyüd-nəsihəti cani-dildən dinləyən) qulaq bunu eşidib yadda saxlasın".

Bureydə nəql edir ki, Mövla Əli (ə) buyurdu: **"Allah-Təala Həzrət Peyğəmbərə (s), o da mənə səni özümə yaxın edim və özümdən uzaqlaşdırmayım və çətin elmləri sənə öyrədim, çünki səndən başqa heç kim onu hifz edib, qorumağa qadir deyil. Allah-Təala öz elmini o yerdə saxlayır ki, bütün bəladan və təhlükədən qorunsun o zaman bu ayə nazil oldu."** (**"Kəşfül- Ğümmə",** 1-ci cild, səh. 322; **"Şəvahidut-Tənzil"**, 2-cild, səh. 1012)

Hüzeyfədən rəvayət olunub ki, Peyğəmbər (s) bu ayəni qiraət edərək üzünü Həzrət Əliyə (ə) tutub buyurdu: **"Allah-Təaladan istədim o eşidən qulaq ki, Allah elmlərini və Quran ayələrini yaxşı eşidir sənin qulağın olsun."** (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh 322.; **"Şəvahidut-Tənzil",** 2-ci cild, səh 277. hədis 1015.)

29. "Ət-Tövbə" surəsinin 19-cu ayəsində buyurulur: ***"(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidulhəramı təmir etməyi Allah və Qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz."***

Bu ayə Həzrət Əli (ə) haqqında nazil olub. (**"Kəşfül- Ğümmə",** 1-ci cild, səh. 322; say 142; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 328; **"Dürrul-Mənsur"**, 4-cü cild, səh. 145; **"Mənaqib ibn Məğazəli"**, səh. 321; hədis 367; **"Təfsiri-Təbəri"**, 10-cu cild, səh. 28; **"İmam**

Əli ibn Əbu Talibin Tərcümeyi-Halı", Dəməşq tarixindən. Səh. 411; hədis 917; **"Fəraidus-Simətеyn"**, 1-ci cild, səh. 203, 41-ci bab)

30. "Əl-Fəth" surəsinin 29-cu ayəsində buyurulur: ***"Mühəmməd (əleyhissəlam) Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rukü edən, səcdəyə qapanan Allahdan riza və lütf diləyən görərsən…"***

İmam Musa Kazım (ə) buyurur: **"Bu ayə Əlinin (ə) şənində nazil olub."** (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 322; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hədis 886.; **"Əl-Mənaqibul-Mürtəzəvi"**, səh. 66; **"Ruhul-Məani"**, 26-cı cild, səh. 177; **"İhqaqul-Həqq",** 3-cü cild, səh. 416)

31. "Əl-Əhzab" surəsinin 58-ci ayəsində buyurulur: ***"Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər."***

Məqatil ibn Süleyman nəql edir: **"Bu ayə Əli (ə) haqqında nazil olub. Çünki bir dəstə münafiqlər onu incidirdilər və ona yalan nisbət verirdilər."** (**"Kəşfül-Ğümmə",** 1-ci cild, səh. 322; **"Təfsiri-Qirtəbi"**, 14-cü cild, səh. 240; **"Əsbabun-Nuzul"**, səh. 208; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 417)

32. "Ən-Nur" surəsinin 47-ci ayəsində buyurulur: ***"(Münafiqlər) Allaha, Peyğəmbərə iman gətirdik, itaət etdik – deyər, bundan sonra isə onlardan bir dəstə (Peyğəmbərdən) üz çevirər. Bələləri mömin, (dilləri ilə ürəkləri bir olan müsəlman) deyillər."***

İbn Abbas nəql edir ki, bu ayə Əlinin (ə) şənində və Qüreyşdən olan bir kişinin haqqında nazil olub ki, ondan torpaq almışdır. (**"Kəşfül-Ğümmə"**, 1-ci cild, səh. 322)

33. "Əl-Furqan" surəsi, 54-cü ayədə buyurulur: ***"Ya əyyühəlləzinə amənu" Ey iman gətirənlər! cümləsi olan bütün ayələrin ən parlaq nümunəsi Həzrət Əlidir (ə): "İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsl qohum (qan qohumu) və sonradan qohum edən Odur. Rəbbin (hər şeyə) qadirdir! (Birinci ata-ana tərəfdən, ikincisi isə bacı, qız tərəfdən olan qohumluqdur)".***

Çünki Həzrət Əli (ə) Peyğəmbərin (s) əmisi oğlu və qızının (Fatimeyi-Zəhranın (ə) həyat yoldaşıdır.

"Mərəcəl-bəhrəyni yəltəqiyan" ayəsi Həzrət Əli (ə) və Fatimeyi-Zəhra (ə) haqqındadır:

"Maidə" surəsinin 54-cü ayəsində buyurulur:

"Tezliklə Allah-Təala bir dəstəni gətirəcək, Allah onları və onlar Allahı çox istəyirlər".

Ayədəki **"qövm"** kəlməsinin ən parlaq nümunəsi Həzrət Əlidir (ə).

Allah-Təala başqa bir ayədə buyurur:

"(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz?"

Peyğəmbər (s) müşriklərin şiddətli təzyiqi altında idi. Müşriklər o Həzrəti öldürmək qərarına gəldikdə Cəbrail mələk onların bu çirkin planını Peyğəmbərə (s) xəbər verdi. Peyğəmbər (s) gecə qaranlıq hər yeri bürüyəndən sonra Məkkədən çıxdı. Həmin gecə Həzrət Əli (ə) Peyğəmbərin (s) yatağında yatıb öz canını Allah yolunda fəda etməyə hazır oldu. Çünki müşriklər Peyğəmbəri (s) öz yatağında yatdığı yerdə öldürmək istəyirdilər.

Həmçinin **"Həşr"** surəsinin 9-cu ayəsi, **"Əraf"** surəsinin 44-cü, 48-ci ayəsi və **"əs-Saffat"** surəsinin 24-cü ayəsi Həzrət Əlinin (ə) haqqındadır. Qeyd etdiyim ayələri yuxarıdakı tərtiblə yazıram:

Bu ayə Həzrət Əli (ə) və Fatimeyi Zəhra (s) haqqında nazil olub. (**"Kəşfül-Ğümmə"** 1-ci cild, səh. 322; **"Şəvahidut-Tənzil"** 1-ci cild, səh. 414, say 573; **"Nəzm-Dürərüs-Simətеyn"**, səh. 92; **"İhqaqul-Həqq"** 3-cü cild, səh. 294; 14-cü cild, səh. 268; 20-ci cild, səh. 142)

34. "Əl-Əhzab" surəsinin 6-cı ayəsində buyurulur: ***"…Qohumlar (bir-birinə vərəsə olmaq baxımdan) Allahın kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar...»*** **(Yəni mömin və mühacirlərin içərisində ən qabaqcıl)**

O şəxs Əli ibn Əbu Talibdir (ə) ki, həm mömin, muhacir, həm də Həzrət Peyğəmbərlə (s) qohumdur. (**"Kəşfül-Ğümmə",** 1-ci cild, səh. 322; **"Mənaqib-Mürtəzəvi"**, səh. 62; **"İhqaqul-Həqq"** 3-cü cild, səh. 419)

35. "Yunus" surəsinin 2-ci ayəsində buyurulur: ***"İçərilərindən bir adama: İnsanları (Allahın əzabı ilə) qorxut. İman gətirənləri***

(yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!..”

Cabir ibn Abdullahdan rəvayətdir ki, İmam Mühəmməd Baqir (ə) buyurub: **“Bu ayə Həzrət Əli (ə) vilayəti haqqında nazil olub.”** (**“Kəşfül-Ğümmə”** 1-ci cild, səh. 322; **“Ərcəhul-Mətalib Şüştəri”**, səh. 83; **“İhqaqul-Həqq”** 14-cü cild, səh. 347, 20-ci cild səh. 126; **“Tozihud-Dəlail Şurazi”**, səh. 160)

36. “Əl-Vaqiə” surəsinin 10-11-ci ayələrində buyurulur: ***“Və bir də öndə olanlar, öndə olanlar. (Cənnətin ən yüksək təbəqələri onlara məxsusdur*. Mühacirlər və ənsar bu zümrəyə daxildir. Onlar necə də xoşbəxtdir) Onlar Allaha və Onun peyğəmbərlərinə hamıdan qabaq iman gətirən, yaxşı əməllər etməkdə hamını ötüb keçən, ömürlərini Allaha ibadətə həsr edən, var-dövlətlərini isə Allah yolunda xərcləyənlərdir”.**

Bu ayədə öndə olanlardan məqsəd Mövla Əli (ə) və onun dostlarıdır. Necə ki, **“Bəyyinə”** surəsinin 7-ci ayəsində buyurulur: **“İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır”.**

“Bunlar (Allah dərgahına, Allahın lütfünə və mərhəmətinə) yaxın olanlardır.”

İbn Abbas nəql edir ki, Yuşə ibn Nun Musaya (ə) iman gətirməkdə hamıdan qabaq oldu. Ali-Yasinin mömini, İsa ibn Məryəmə (ə) hamıdan yaxın oldu. Əli ibn Əbu Talib (ə) də hamıdan birinci Peyğəmbərə (s) iman gətirdi və hamıdan qabağa keçdi. (**“Kəşfül-Ğümmə”** 1-ci cild, səh. 323; **“Mənaqib ibn Məğazəli”**, səh. 320; hədis 365; **“Mənaqib Xarəzmi”** 4-cü fəsil, səh. 55, hədis 20; **“Məcməuz-Zəvaid”**, 9-cu cild, səh. 102; **“Xəsaisul-Vəhyul-Mübin”**, 9-cu fəsil, səh. 127, hədis 92; **“Şəvahidut-Tənzil”,** 2-ci cild, hədis 924; **“Fəzailul-Xəmsə”** 1-ci cild, səh. 323)

37. “Əl-Maidə” surəsinin 3-cü ayəsində buyurulur: ***“…Bu gün sizin dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a)…”***

Əbu Səid nəql edir: **“Bu ayə Əlinin (ə) Qədir-Xumda olan vilayətinə dəlalət edir. Həzrət Peyğəmbər (s) Həzrət Əlinin (ə) əlindən tutaraq camaata təqdim etdi və sonra sevinərək təkbir dedi:**

"Din kamil və əbədi vilayət nemətilə tamam oldu. Allah-Təala mənim Peyğəmbərliyimə və Əlinin (ə) vilayətinə razı oldu. O zaman bu ayə nazil oldu." (**"Kəşfül-Ğümmə"** 2-ci cild, səh. 323; **"Şəvahidut-Tənzil"** 1-ci cild, hədis 211-212; **"Təfsiri-Burhan"**, 1-ci cild, səh. 435; **"Məqtəl Xarəzmi"**, 4-cü fəsil, səh. 47; **"Mənaqib-Xarəzmi"**, 14-cü fəsil, səh. 80; **"İhqaqul-Həqq",** 3-cü cild, səh. 320, 14-cü cild, səh. 289, 20-ci cild, səh. 195)

38. "Əl-Bəqərə" surəsinin 207-ci ayəsində buyurulur: ***"İnsanların içində elələri də var ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!"***

Bu ayə **"Leylətül-Məbit"** gecəsi nazil olub. Bu o zaman baş verib ki, Həzrət Əli (ə) Peyğəmbərin (s) yerində yatmışdı, o, öz canını Allahın Rəsuluna qalxan etmişdi. (**"Kəşfül-Ğümmə"** 1-ci cild, səh. 323; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 96, hədis 133, 134, 142; Amale Şeyx Tusi, 16-cı cild, səh. 83; **"Üsulul-Ğabə"**, 4-ci cild, səh. 25; **"Təfsiri-Burhan"**, 1-ci cild, səh. 208; **"Kifayətut-Talib"**, 62-ci bab, səh. 239; **"Əl-Fusulul-Mühimmə"**, səh. 33; **"Nurul-Əbsar Şəblənci"**, səh. 86; **"Ər-Qədir"**, 2-ci cild, səh. 47)

39. "Ən-Nisa" surəsi 59-cu ayəsində buyurulur: ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!.."***

Əbdül-Qəffar ibn Qasım deyir: **"İmam Sadiqdən (ə) soruşdum, bu ayədə olan "əmr sahibləri" kimlərdir? İmam buyurdu: And olsun Allaha ki, Əli (ə) onlardandır."** (**"Kəşfül-Ğümmə"**, 1-cild, səh. 323; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 202; **"Təfsir Furat ibn İbrahim"**, səh. 108; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 343, 14-cü cild, səh. 348-350)

40. "Ət-Tövbə" surəsinin 3-cü ayəsində buyurulur: ***"Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü (zülhiccə ayında vacib, fərz olan həcc; qurban bayramı və Ərəfə günü) insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur..."***

Bu ayə o zaman nazil oldu ki, Əli (ə) **"Bəraət"** surəsinin bəzi ayələrini bir dəstə müşriklərin içərisində elan etmişdi.

Əhməd ibn Hənbəl öz **"Müsnəd"** kitabında yazır: **"Bu ayə o zaman nazil oldu ki, Həzrət Peyğəmbər (s) "Bəraət" surəsinin bəzi ayələrini Əbu Bəkrə (r) tapşırdı ki, Məkkəyə gedib oxusun. Sonra Əlini (ə) onun dalınca göndərdi və buyurdu: Bu ayələri mən və məndən olan bir nəfərdən başqa heç kəs oxuya bilməz. Bu məsələni cənab Cəbrail Allah-Təala tərəfindən mənə sifariş etdi."** (**"Kəşful-Ğümmə"** 1-ci cild, səh. 323; **"Müsnəd Əhməd ibn Hənbəl"**, 1-ci cild, səh. 151 və 331; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 307; **"Təfsir-Furat ibn İbrahim"**, səh. 158, say 197; Əl-Fəzail Əhməd ibn Hənbəl, hədis 212; **"İmam Əli ibn Əbu Talibin Tərcümeyi-Halı"**, 2-ci cild səh. 2, hədis 878, Dəməşq tarixindən; **"Əl-Qədir"**, 6-cı cild, səh. 338)

41. "Ər-Rəd" surəsinin 28-ci ayəsində buyurulur: ***"O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!"***

Bu ayənin Mövla Əli haqqında nazil olması da gün kimi aydındır. Burada zikr olunan "ürəkləri rahət olan" və "aram qəlb" məhz Əlidir.

42. "Əz-Zuxruf" surəsinin 41-ci ayəsində buyurulur: ***"Əgər Biz səni (onlara əzab verməmişdən əvvəl Öz dərgahımıza) aparsaq, (bil ki, qiyamət günü) onlardan mütləq intiqam alacağıq."***

İbn Abbas nəql edir: **"Allah-Təala o kəslərdən (Həzrət Peyğəmbərin (s) vəfatından sonra İmam Əli (ə) ilə düşmənçilik etdilər) intiqam alıb cəzalandıracaq."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 323; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 851; **"Təfsir Furat ibn İbrahim"**, hədis 537, səh. Mənqaib ibn Məğazəli, hədis 321, səh 274.; **Müstədrək** Hakim Nişapuri, 3-cü cild, səh 126.; **"Səhih Müslim"**, 29-cu bab.; **"Kitabul-İman"**, hədis 118 və 120, səh. 82; **"Kitabul-Asimə"**, 29-cu say, 3-cü cild, səh. 1305)

43. "Ər-Rəhman" surəsinin 19-cu ayəsində buyurulur: **"(Suları şirin və acı olan) iki dənizi O qovuşdurdu (bir-birinə qovuşdurmaq üçün açıb buraxdı)"**

44. "Ər-Rəhman" surəsinin 22-ci ayəsində buyurulur: **"Onlardan (O iki dənizdən) inci və mərcan çıxır."**

Hər iki ayə Əli, Fatimə və övladları Həsən və Hüseynə aiddir. (**"Kəşful-Ğümmə"** 1-ci cild, səh. 323; **"Dürrül-Mənsur"**, 6-cı cild, səh. 143; **"Nurul-Əbsar"**, səh. 112; **"Təfsirul-Burhan"**, 4-cü cild hədis 1, səh. 265; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, 918 və 922-ci say)

İbn Abbas nəql edir: **"O iki dərya Əli (ə) və Fatimədir (ə). Onların arasında bir fasilə vardır ki, o da Peyğəmbərdir. O iki Lölü və mərcan - yəni Həsən (ə) və Hüseyndən (ə) ibarətdir."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 323; **"Ənnarul-Müştəəl"**, hədis 64, səh. 236; **"Dürrul-Mənsur"**, 6-cı cild, səh. 142; **"Mənaqib ibn Şəhraşub"**, 3-cü cild, səh. 318; **"Xəsaisul Vəhyil-Mübin"**, hədis 153, səh. 207; **"Mənaqib ibn Məğazəli"**, səh. 339; **"Yənabiul-Məvəddə Qunduzi"**, 39-cu bab, səh. 118; **"Əl-Fəzailul Xəmsə"**, 1-ci cild, səh. 333; **"Dürrul-Mənsur"**, 6-cı cild, səh. 142; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hədis 918-919, səh. 208; **"Təfsirul Burhan"**, 4-cü cild, hədis 5, səh. 265)

45. "Əş-Şura" surəsində olan 23-cü **"Məvəddət"** ayəsidir. Bu ayədə Allah-Təala buyurur:

"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görər, onun yaxşılığının savabını (mükafatını) artırarıq! Həqiqətən Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir)".

Ayədəki **"Qurba"**-qohumluq kəlməsindən məqsəd Mövla Əli (ə), Fatimeyi-Zəhra (ə), İmam Həsən (ə) və İmam Hüseyndir (ə). Ayənin ikinci hissəsində buyurur:

"Kim bir yaxşı iş görə, onun yaxşılığının savabını, mükafatını artırarıq. Həqiqətən, Allah bağışlayandır və qədirbiləndir".

Burada **"Həsənətən"** kəlməsindən məqsəd onların məhəbbətidir.

İbn Abbas nəql edir: **"Həzrət Peyğəmbərdən (s) "Zəvil-Qurba" (yaxınlar) ki, onlara məhəbbət vacibdir, soruşuldu ki, onlar kimlərdir? O Həzrət buyurdu: Onlar Əli (ə), Fatimə (s), Həsən (ə) və Hüseyndir (ə) ki, məhəbbətləri sizə vacibdir. O bu adları üç dəfə təkrar etdi."** (**"Kəşful-Ğummə"**, 1-ci cild, səh. 324; **"Mənaqib**

ibn Məğazəli", 352-ci say, səh. 307; **"Kifayətul-Talib"** 11-ci bab, səh. 90; **"Əlkəşşaf-Zəməxşəri"**, 4-cü cild, səh. 220; **"Məcməuz-Zəvaid"**, 7-ci cild, səh. 1803 və 9-cu cild, səh 168; **"Zəxairul-Üqba"**, səh. 25; **"Möcəmul-Kəbir Təbərani"**, səh. 131; **"Nurul-Əbsar"**, səh 11.; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh 130, say 823-dən sonra)

46. "Əz-Zümər" surəsinin 33-cü ayəsində buyurulur: ***"Haqqı (Quranı) gətirən və onu təsdiq edənlər (Peyğəmbər və mömin-lər) isə əsl müttəqilərdir."***

Mucahid deyir ki, bu ayə Əli ibn Əbu Talib (ə) haqqında nazil olub. (**"Kəşful-Ğummə"**, 1-ci cild, səh. 324; Mənaqib ibn Məğazəli, hədis 317, səh. 269; **"Dürrül-Mənsur"**, 5-ci cild, səh. 328; **"Kifa-yətut-Talib"**, 62-ci bab, səh. 233; **"Nəhcul-Həqq"** və **"Kəşfüs-Sidq"**, səh. 185; **"Şəvahidut-Tənzil"**, 3-cü cild, hədis 810)

İmam Baqir (ə) buyurur: **"O kəs ki, düz söz gətirdi Həzrət Peyğəmbər idi. O şəxs ki, onu təsdiq etdi Əli ibn Əbu Talibdir (ə)."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"Təfsirul-Burhan"**, 4-cü cild, 3-cü hədis. səh. 76)

47. "Əl-Muminun" surəsinin 74-cü ayəsində buyurulur: ***"Axirətə inanmayanlar isə doğru yoldan sapanlardır."***

Mövla Əlidən (ə) nəql olub ki, o Həzrət buyurub: **"Onlar o dəstə-dirlər ki, bizim vilayətimizdən uzaqlaşıb və yolumuzdan çıxıb-lar."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 557-558.; **"Təfsiri-Furat ibn İbrahim"**, səh. 278, hədis 378; **"Fəraidus-Simətеyn"**, 2-ci cild, hədis 556, səh. 300)

48. "Ən-Nəml" surəsinin 89-cu ayəsində buyurulur: **"Hər kəs (Rəbbinin hüzuruna) yaxşı əməllə (tövhid kəlməsi ilə, səmimi-qəlbdən inamla) gəlsə, onu (bu əməlin) müqabilində daha bir yaxşı mükafat (Cənnət) gözləyir. Belələri ücün (Qiyamət günü) dəhşətli qorxudan da əmin ola bilərlər."**

Mövla Əli (ə) buyurur: **"Bəyənilmiş iş bizim dostluğumuzdur. Pis iş bizimlə düşmənçilikdir."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 581-682, səh. 426; **"İhqa-qul-Həqq"** 14-cü cild, səh. 639 və 20-ci cild, səh. 92; **"Tozihud-Dəlail"**, səh. 165)

49. "Əl-Əraf" surəsi, 44-cü ayə:

"Elə bu zaman onların arasında bir carçı: Allah zalimlərə lənət etsin! - deyə səslənəcək".

"Əl-Əraf" surəsinin 48-ci ayəsində buyurulur: ***"Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz bir fayda verdi",-deyəcək."***

Mövla Əli (ə) buyurur: **"Əraf Əshabı bizik və hər kəsi Simasından tanıyarıq ki, bizim tabeçilərimizdəndir və onu behiştə göndərərik."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 545; **"Mənaqib-Məğazəli"**, səh. 59; **"Müftahun-Nica Bədəxsi"**, 14-cü cild, səh. 398)

50. "Ən-Nəhl" surəsinin 76-ci ayəsində buyurulur: ***"Allah iki nəfər (Özü ilə bütlər) barəsində yenə belə bir məsəl buyurdu: (bu iki nəfərin) biri dilsizdir (laldır), heç bir şeyə gücü çatmaz. O öz ağasına bir yükdür, onu hara yollasa, xeyirlə qayıtmaz. O heç doğru yolda olub haqq-ədaləti əmr edən (insanların ədalətli işlər görməyə sövq edən) bir kimsə kimi ola bilərmi?!"***

Ayə Mövla Əli haqqındadır.

(**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 447 və 20-ci cild səh. 171; **"Torihud-Dəlail Şafii"**, səh. 163)

51. "Əs-Saffat" surəsinin 130-cu ayəsində buyurulur: ***"(Onu belə yad edirlər:) "İlyasinə (İlyasa) salam olsun!"***

Bu ayədə "İlyasin" Mövla Əliyə işarədir.

(**"Kəşful-Ğümmə",** 1-ci cild, səh. 324; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 109, hədis 791 və 792; **"Əmali-Səduq"**, 72-ci məclis, səh. 381; **"Təfsir Furat ibn İbrahim"**, hədis 485-486, səh. 356; **"Dürrul-Mənsur"**, 5-ci cild, səh. 282; **"Əmali Şəcərə"**, 7-cdi hədis, səh. 148 və 151)

52. "Ər-Rəd" surəsinin 43-cü ayəsində buyurulur: ***"(Ya Mühəmməd!) Kafirlər: "Sən Peyğəmbər deyilsən!"- deyirlər. (Onlara) belə cavab ver: "Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və Kitabı bilənlərin (Tövratı, İncil bilən mömin yəhudi və xaçpərəstlərin, yaxud Qurana bələd olan mömin müsəlmanların və ya lövhi-məhfuzdan xəbərdar olan Cəbrailin) şahid olması yetər!"***

Bu ayə Mövla Əlinin (ə) şəninədir. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; Mənaqib ibn Məğazəli, hədis 358, səh. 314; **"Təfsirul-Burhan"**, 2-ci cild, səh. 302)

53. "Əl-Haqqə" surəsinin 19-cu ayəsində və **"əl-İnşiqaq"** surəsinin 7-ci ayəsində buyurulur: ***"Mələk dəftəri sağ əlinə verilən kimsə deyəcək: "Alın, əməl dəftərimi oxuyun!"***

Bütün bu yuxarıda qeyd olunan 2-3 ayənin təfsirində İbn Abbas nəql edir: **"Ali Yasin" - Ali Mühəmməddir (s)."**

Buyurublar ki, biz Bəni İsrailin həyat əhəmiyyətli kitabıyıq. O kəs ki, kitabın elmi onun yanındadır, bu, Əli ibn Əbu Talibdir (ə). O kəs ki, kitab onun sağ əlinə veriləcək və behiştə gedəcək, o da Əlidir (ə). (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 324; **"İhqaqul-Həqq"**, 14-cü cild, səh. 479)

54. "Əl-Əhzab" surəsinin 33-cü ayəsində buyurulur: ***"…Allah-Təalanın qəti iradəsi bu olubdur ki, siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər."***

Hafiz ibn Mərdəveyh yüzdən artıq ravidən hədis nəql edir ki, bu ayə Mühəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) haqqında nazil olub. Heç kəs bu fəzilətdə onlara tay ola bilməz. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 321; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 47, 694-cü say və 702, 2-ci cild, 637-ci say, səh. 10; **"Mənaqib Xarəzmi"**, 5-ci fəsil, səh. 22; **"İmam Əli (ə) ibn Əbu Talibin Tərcümeyi-Halı"**, 1-ci cild, səh. 272, say 320-322, Dəməşq tarixindən; **"Dürrul-Mənsur"**, 5-ci cild, səh. 198; **"Təfsirul-Burhan"**, 3-cü cild, səh. 309-325)

Əbu Abdullah Məhəmməd ibn İmran Mərzbani Əbul Həmradan nəql edir: **"Təqribən 9, ya 10 ay Həzrət Peyğəmbərin (s) xidmətçisi oldum. Bütün bu müddət ərzində Həzrət Peyğəmbər (s) sübh namazına gedəndə və məsciddə namazı başlamamış İmam Əlinin (ə) mənzilinin qapısına iki əllərini qoyaraq buyurardu: Allahın salamı sizə olsun! O tərəfdən Əli (ə), Fatimə (ə), Həsən (ə), Hüseyn (ə) ərz edərdilər: Ey Peyğəmbər! Sizə də salam olsun. Peyğəmbər o zaman buyurardu: Qalxın namaza. Allah sizə rəhmət etsin. Sonra bu ayəni tilavət eləyirdi və namaz**

qıldığı yerə təşrif aparırdı." (**"İhqaqul-Həqq"** 3-cü cild, səh. 529, 2-ci cild, səh. 536, 9-cu cild, səh. 62, 14-cü cild, səh. 51, 80, 82, 18-ci cild, səh. 375; **"Dürrul-Mənsur",** Süyuti, 5-ci cild, səh. 199; **"Rüşfətüs-Savi"**, səh. 28; **"Üsudul-Ğabə"**, 5-ci cild, səh. 174, **"Məcməuz-Zəvaid"**, 9-cu cild, səh. 121, 128; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, hələd 702)

55. "Əl-Qəsəs" surəsinin 61-ci ayəsində buyurulur: ***"Məgər verdiyimiz gözəl bir vədə (Cənnətə) qovuşan kimsə, (əvvəlcə) fani dünya malı bəxş etdiyimiz, sonra da qiyamət günü (cəhənnəm oduna) gətiriləcək kimsə ilə eyni ola bilərmi?!"***

Mücahid nəql edir ki, bu ayə Həzrət Əli (ə) və Həmzənin (ə) haqqında nazil olub. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 325; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 436, say 599; **"Təfsiri-Təbəri"**, 20-ci cild, səh. 62; **"Əsbabun-Nüzul"**, səh. 194; **"Ərriyazun-Nəzrə"**, 2-ci cild, səh. 157)

56. "Əl-Həcc" surəsinin 23-cü ayəsində buyurulur: ***"Əlbəttə, Allah-Təala iman gətirib və yaxşı işlər görənləri (ağacların) altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada altun və incilərlə bəzənəcəklər (qızıldan və mirvaridən bilərziklər taxacaqlar), orada libasları da ipəkdən olacaqdır!."***

Bir rəvayətə görə, bu ayə Həzrət Əli (ə), Həmzə (ə) və Ubeydə ibn Haris haqqında nazil olub ki, onlar **"Bədr"** savaşında müşriklərlə - yəni Ütbə, Vəlid və Şeybə ilə vuruşmuşdular. (**"Kəşful-Gümmə"** 1-ci cild, səh. 325; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 546; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 552 və 14-cü cild, səh. 406; **"Təfsiri-Hibəri"**, 45-ci say, səh. 291; **"Təfsiri-Fürat ibn İbrahim"**, say 363, səh. 271)

57. "Əl-Hicr" surəsi, 47-ci ayə: **"Biz onların ürəklərindəki kin-küdurəti çıxardıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər".**

Əbu Hüreyrə nəql edir: **"Əli ibn Əbu Talib (ə) Həzrət Peyğəmbərə (s) ərz etdi: Ey Allahın Rəsulu! Bizim hansımız sənin yanında daha məhbub və sevimliyik, mən ya Fatimə? Həzrət Peyğəmbər (s) buyurdu: Fatiməni səndən çox istəyirəm. Amma mənim üçün Fatimədən əzizsən. Görürəm ki, sən mənim hovuzuma (Kövsərə) sahibsən. O hovuzda ulduzların sayı qədər**

su qabları vardır. Sənin vilayət xəttindən uzaq olan, ayrı düşən hovuzdan uzaqlaşdırılacaq. Sənin uca məqam və mərtəbən üçün bu kifayətdir ki, o gündə Həsən (ə), Hüseyn (ə), Fatimə (s), Əqil (ə) və Cəfər birlikdə behişt taxtlarına oturub, xoşhal və şad olacaqsınız. Sənin digər mənzilət və hörmətin budur ki, "şiələrinlə" birlikdə behiştdə mənimlə və mənim yanımda yeriniz olacaqdır. Sonra ayəni tilavət edərək buyurdu: O qədər bir-birinizi görməkdə şad olacaqsınız ki, heç kəs gözünü başqasının üzündən çəkməyəcək və başqa yerə baxmayacaq." (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 325; **"Məqtəl-Xarəzmi"**, 5-ci fəsil, səh. 69; **"Yənabiul-Məvəddə"**, səh. 132; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, hədis 436; **"Məcməuz-Zəvaid"**, 9-cu cild, səh. 173; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 454 və 14-cü cild, səh. 603)

58. "Əl-Fəth" surəsinin 29-cu ayəsində buyurulur: ***"Mühəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) ruku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir. (Qiyamət) günü onlar üzlərindəki möminlik nuru, alınlarındakı möhr yeri ilə tanınarlar. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxartmış, onu bəsləyib, cana-qüvvətə gətirmiş, o da möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbihi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib, yaxşı əməllər edənlərə Allah məğfirət, (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!"***

İmam Sadiq (ə) buyurub: **"O qüdrətli insan (ki, kafirlərin təəccüb və qəzəbinə səbəb olmuşdur) Əli ibn Əbu Talibdir (ə)."** (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 325; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 258, hədis 891; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 456; **"Təfsiri-Ruhul-Məani"**, 26-cı cild, səh. 117)

59. "Əl-Bəqərə" surəsinin 43-cü ayəsində buyurulur: ***"(Müsəlmanların namazı kimi) namaz qılın, zəkat verin və ruku edənlərlə birlikdə rüku edin."***

İbn Abbas nəql edir ki, bu ayə Həzrət Peyğəmbər (s) və Mövla Əlinin (ə) şənində nazil olub. Çünki bu iki böyük ağa birinci namaz qılan və rüku edən olublar. (**"Kəşful-Ğümmə"**, 1-ci cild, səh. 335; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 124; **"Təfsir Furat ibn İbrahim Kufi"**, hədis 20, səh. 59; **"Təfsiri-Hibəri"**, hədis 5, səh. 237; **"Biharul-Ənvar"**, 35-ci cild, səh. 347; **"Təfsirul-Burhan"**, səh. 92; **"Mənaqib ibn Şəhraşub"**, 2-ci cild, səh. 13; **"Ənnurul-Müştəəl"**, səh. 140; **"Mənaqib-Xarəzmi"**, 17-ci fəsil, səh. 280, hədis 274; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 29 və 14-cü cild, səh. 276)

60. "Ən-Nəcm" surəsinin 1-ci ayəsində buyurulur: ***"Batmaqda olan ulduza (Sürəyya ulduzuna) and olsun ki."***

Ənəs nəql edir: **"Peyğəmbərin (s) vaxtında bir ulduz ulduzlardan ayrılıb yerə enməyə başladı. O zaman Həzrət Peyğəmbər (s) üzünü əshabələrinə tutub buyurdu: Bu ulduza baxın! Hər kimin evinə qonsa o mənim vəsiyyim və xəlifəm olacaq. Səhabələr o ulduza gözlərini dikdilər ki, görsünlər kimin evinə qonur. (Əlbəttə, hamının arzusu bu idi ki, bu mənzilət ona nəsib olsun. Amma yəqin ki, İmam Əlidən (ə) başqa bu məqama heç kim layiq deyildir). Hamı öz gözlərilə gördü ki, o ulduz - işıq (yəqin ki, hər hansı bir göy cismi) Əlinin (ə) evinin üstünə qondu və Allah-Təala Peyğəmbərə bu ayəni nazil etdi."** (**"Mənaqib ibn Məğazəli"**, hədis 319, səh. 266 və səh. 310, hədis 353; **"Mizanul-İtidal"**, 2-ci cild, səh. 45, say 2756; **"Lisanul-Mizan"**, 2-ci cild, səh. 449, say 1835; **"Kifayətut-Talib"**, səh. 62; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 275, say 910; **"Mənaqib Məhəmməd ibn Süleyman Kufi"**, hədis 493; **"Xəsaisul-Vəhyul-Mubin"**, səh. 64; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 336 və 4-cü cild, səh. 85 və 14-cü cild, səh. 297; **"İmam Əli ibn Əbu Talibin (ə) Tərcümeyi-Hal"**, Dəməşq tarixindən; İbn Əsakir, 3-cü cild, səh. 11, hədis 1032)

61. "Ən-Nisa" surəsinin 54-cü ayəsində buyurulur: ***"Yoxsa onlar Allahın Öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar? Halbuki biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik."***

Cabir nəql edir: **"İmam Baqir (ə) bu ayə haqqında buyurdu: Bizik o insanlar ki, fəzilətli olduğumuz üçün bizə həsəd edirlər."**

(Mənaqib ibn Məğazəli, səh. 267, hədis 314; **"Yənabiul-Məvəddə"**, 39-cu bab, səh. 121.; **"Əmali Şeyx Tusi"**, 1-ci cild, səh 278; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 457)

62. "Əl-Əraf" surəsinin 172-ci ayəsində buyurulur: ***"(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onları özlərinə (birbirinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" - deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: "Biz bundan qafil idik" - deməməniz üçündür."***

Əsbəğ ibn Nəbatə bu ayəni Əliyə (ə) oxudu. O Həzrət bu ayəni eşidərkən ağladı və buyurdu: **"Bəli, o gün Allah-Təala biz Adəm övladlarından bəndəçilik əhd-peymanı almağı mənim yadıma gəlir."** (Mənaqib ibn Məğazəli, hədis 319, səh. 271; **"İhqaqul-Həqq"**, 14-cü cild, səh. 404)

63. "Əl-Bəqərə" surəsinin 124-cü ayəsində buyurulur: ***"(Ya Muhəmməd!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona) "Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm", - dedi. (İbrahim isə) "nəslimdən necə?"- deyə soruşdu. (Allah onun cavabında) (Sənin nəslindən olan) zalimlər mənim əhdimə (imamlığıma) nail olmazlar, - buyurdu..."***

İbn Məsud nəql edir: **"Peyğəmbər (s) buyurdu: Mən atam İbrahimin (ə) istədiyiyəm. Ərz etdik: Ey Allahın Peyğəmbəri! Sən həmin atan İbrahimin istədiyisən? Peyğəmbər buyurdu: Bəli! Allah-Təala İbrahimə (ə) vəhy etdi ki, səni insanların imamı qərar verəcəyəm. İbrahim bu müjdədən sevinərək ərz etdi: Ey mənim Allahım! Mənim övladlarımı da imam qərar ver: Allah-Təala vəhy ilə ona çatdırdı ki, Öz əhdi-peymanıma əməl edəcəyəm. İbrahim (ə) buyurdu: O hansı peymandır? Allah-Təala buyurdu: Öz bəndələrim arasında olan imamət sənin övladlarının zalımına çatmaz. İbrahim ərz etdi: Ey mənim Allahım! Mənə və övladlarıma tovfiq ver və kömək et ki, bütlərə pərəstiş etməyək. Çünki camaatın böyük bir dəstəsi bütlər vasitəsilə gümrah olub,**

yoldan çıxacaqlar. Ey mənim Allahım! Məni və övladlarımı pisliklərdən təmizlə. İbrahimin (ə) bu duasını Allah-Təala mən və Əli haqqında qəbul etdi. Çünki Mən və Əli (ə) heç vaxt bütə səcdə etməmişik. Elə buna görə də Allah-Təala məni Peyğəmbərliyə, Əlini (ə) isə mənim vəsim və xəlifəm seçdi." (**"Mənaqib ibn Məğazəli"**, səh. 276, hədis 322; **"İhqaqul - Həqq",** 3-cü cild, səh. 80; Əllameyi Hilli, **"Nəhcul-Həqq"**, səh. 179)

64. "Ən-Nur" surəsinin 35-ci ayəsində buyurulur: **"Allah göylərin və yerin nurudur…"**

Məhəmməd ibn Səhl Bağdadi Musa ibn Qasimdən, o da Əli ibn Cəfərdən nəql edib ki, Əbul-Həsəndən soruşdum: **"Bu ayədə olan "Mişkat"** nədir? Buyurdu: **"Mişkat (yəni çıraqdan) Fatimə (ə), işıq isə Həsən (ə) və Hüseyndir (ə)."**

Həmin ayədə buyurulan: **"Elə bir şüşədir ki, işıqlıqda parlaq ulduz kimidir" Sonra buyurdu: "Fatimə aləmdə olan qadınların yanar ulduzudur."**

Yenə həmin ayədə buyurulur: **"Mübarək olan zeytun ağacından işıqlıq alır və o da İbrahim şəcərəsidir."**

Sonra buyurur: **"Nə Şərqə məxsusdur, nə də Qərbə. Onun yağı işıqlıq verir. Əgər ona atəş yetişməsə belə işıqlıq üstündədir. Allah-Təala hər kəsi istəsə, bizim hidayət və vilayət nurumuza yönəldər."** (**"Mənaqib ibn Məğazəli"**, səh 316, hədis 361.; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh 458.; **"Biharul-Ənvar"**, 23-cü cild, səh 316.)

65. "Ən-Nisa" surəsinin 29-cu ayəsində buyurulur: ***"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"***

Xarəzmi ibn Abbasa istinad edərək buyurur: **"Siz camaat, Peyğəmbərin (s) Əhli-beytini öldürməyin (çunki onlar sizin canınız kimidir və ondan da üstün sizin vücud və varlığınızın səbəbidirlər)"** (Mənaqib ibn Məğazəli, səh. 319, say 362; **"Şəvahidut-Tənzil"**, 1-ci cild, səh. 141, hədis 193; **"Təfsiri Furat ibn İbrahim Kufi"**, say 90, səh. 102)

66. "Əl-Fəth" surəsinin 29-cu ayəsində buyurulur: ***"…Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!"***

Xarəzmi ibn Abbasa istinadən nəql edir: **"Bir dəstə səhabə Həzrət Peyğəmbərdən (s) soruşdu! Bu ayə kimin haqqında nazil olub? Həzrət buyurdu: Qiyamət günü ağ nurdan bir bayraq qalxar. Bir nəfər səslənər: Möminlərin seyyidi, ağası və o kəslər ki, onunla birlikdə Peyğəmbərin (s) besətindən sonra ona iman gətirdilər, qalxsınlar! O zaman Əli ibn Əbu Talib (ə) qalxar və həmin ağ bayraq ona verilər. O bayrağın altında bütün "Mühacir" və "Ənsarın" qabaqcılları toplaşarlar (başqa heç kəs olmaz). O zaman Əli (ə) nurdan olan Allah-Təalanın qüdrətilə düzəldilmiş mənbərə əyləşər və onların hər biri tək-tək onun hüzuruna gələrlər. Bütün mükafatlar alındıqdan sonra, onların hamısına xitab olar: İndi öz sifətlərinizi bilib, məqamlarınızı behiştdə tanıdınız. Allah-Təala sizə xüsusi və böyük hədiyyə verib ki, qiyməti yalnız behiştdir. Ondan sonra Əli (ə) onların qabağında hərəkət edər və onun bayrağının altında onları da behiştə aparar. Sonra Əli (ə) yenə də qayıdar və həmin minbərdə əyləşər, hər dəstədən olan möminlər onun hüzuruna gələrək, öz behişt paylarını istəyərlər. Amma bir dəstə birbaşa cəhənnəmə aparılar. Çünki Əlinin (ə) vilayət və rəhbərliyindən uzaqda olanlar olarlar. Bu dəstənin cəzası ağrılı və dəhşətli cəhənnəm odu olacaqdır. Elə buna görə də Allah-Təala "əl-Maidə" surəsinin 9-10-cu ayələrində buyurur:**

"Allah, o kəslər ki, iman gətirib və ləyaqətli işlər görüblər, böyük mükafatlar verməsinə vədə verib, amma o kəslər ki, kafir olublar və bizim ayələrimizi təkzib ediblər, onlar cəhənnəm əhlidirlər." **Yəni Əlinin (ə) vilayətini və haqqını zay edən insanlar."** (Mənaqib ibn Məğazəli, səh. 322, hədis 369; Əmali Şeyx Tusi, 1-ci cild, səh. 387; **"İhqaqul-Həqq"**, 3-cü cild, səh. 471 və 14-cü cild, səh. 370; **"Şəvahidut-Tənzil"**, 2-ci cild, səh. 887; Mənaqib ibn Məğazəlidən nəql olaraq səh. 117, Səna kitabxanasının nüsxəsi)

Həzrət Əli (ə) haqqında olan bu ayələr, o ayələrdir ki, əhli-sünnə və ümumislam alimlərinin kitablarından bizə gəlib çatıb. Burada şiə təriqilə gələn hədisləri qeyd etməmişik.

Ət-Təbərani **"əl-Kəbir"** kitabında ibn Ömərdən, **"Kənzül-Ummal"** Əl-Müttəqi Hindidən nəql edir: **"Həzrət Peyğəmbərin (s) Əli (ə) haqqında dua etməsini qeyd etmişdik ki, mənim əhlimdən olan qardaşım Əlini (ə) mənə vəzir qərar ver".** Belə ki, bunu İmam Əbu İshaqın təfsirində zikr etmişik."

Bu sifət və xasiyyətlərə çox alimlər işarə etmişdir ki, Həzrət Peyğəmbər (s) Mövla Əlini (ə) belə adlandırmışdır. Bunu biz Əl-Buveysərinin Həmziyəsində zikr etmişdik. (**"Məcməuz-Zəvaid"**, 9-cu cild, səh 121.)

67. "Əl-Furqan" surəsi, 35-ci ayə: ***"Biz Musaya kitab (Tövrat) verdik onunla qardaşı Harunuda vəzir (köməkçi) qərar verdik."***

Bir çox yerdə Həzrət Peyğəmbərdən (s) bu kəlmə zikr olunub. Orada Harunun Musaya qardaş və vəzir olmasını buyurdu:

Bəlkə Peyğəmbərin (s) adəti və dəbi bu idi ki, ümmətə hər bir münasibətdə Əlinin (ə) övladlarının adlarını Harunun övladlarının adları ilə adlanmasını xatırlatsın. Bu hədisə Hakimin **"əl-Müstədrək"**ində işarə edilmişdir. Həmçinin Zəhəbi də bu hədisin səhih olmasını təsdiqləyib. Eyni zamanda Əhməd ibn Hənbəl də öz **"Müsnədin"**də bu hədisin səhih olmasını qeyd edib (**"Müsnəd"**, 2-ci cild, 769-cu hədis, səh 155)

"Təzrikətul-Xəvvas", **"Əssəbt ibn Cuzi"** və **"Əssəvaiqil-Muhri"**də qeyd olunub ki, Həzrət Peyğəmbər (s) Əlinin (ə) övladlarını Harunun övladlarının adına uyğun olaraq (yəni Şəbər, Şubeyr, Müşəbbir) qoymuşdur. Sonralar onların mənasını ərəbcə dəyişdirərək Həsən, Hüseyn və Möhsün adlandırmışdır. Bununla aydın olur ki, ümmətin **"Harun"** məsələsi nəyə işarədir.

Həzrət Peyğəmbər (s) hər dəfə buyurduğu hədislərdə bir cür istisnalar etmişdir. Məsələn: **"Ey Əli (ə) sən məndənsən, necə ki, Harun Musadan idi. Bu fərqlə ki, məndən sonra Peyğəmbər yoxdur."**

Həzrət Mühəmməd (s) demək istəyirdi ki, Harun peyğəmbər olub, amma peyğəmbərlik mənimlə xətm olduğu üçün ey Əli, sən peyğəmbər deyilsən.

Göründüyü kimi, Peyğəmbər (s) ayrı-ayrı vaxtlarda Mövla Əlini (ə) özunə mənzilə və nisbətdə Harunun Musaya olan nisbətinə oxşadıb.

Təbuk davası zamanı İmam Əlini (ə) Mədinədə qoyanda bu hədisi buyurmuşdur. Sonra səhabələri arasında qardaşlıq siğəsi oxuyarkən Həzrət Əliyə (ə) bu sözü demişdir. Əshabın məsçidə açılan qapılarını bağlamaq əmrini verdikdə buyurdu: **"Mən onları oradan çıxarıb yalnız Əlini sakin etmədim. Bəlkə Allah onları çıxarıb Əlini sakin etdi. Necə ki, Musa da Harunla belə etmişdi".**

Həzrət Peyğəmbər (s) İmam Əli (ə) haqqında Musanın Haruna etdiyi duanı etmişdir: **"Mənim əhlimdən olan Əlini mənim vəzirim qərar ver."**

Bunlardan başqa hədislər həddən artıq çoxdur. Qeyd etdiyimiz **"Mənzilət"** hədisi 4-5 hədislə məhdudlaşmır. Bu hədislərin bəzilərində istisnalar var ki, yuxarıda onların haqqında qeyd etdik. Yeri gəldikcə də bu barədə məlumat verəcəyik.

"Ey Əli (ə) sən Peyğəmbər olmayacaqsan. Çünki məndən sonra Peyğəmbər yoxdur." Bu hədislər Əbu-Nəimin **"Hilyətul-Övliya"** 1-ci cild, səh. 65-66; İbn Əsakir **"Əli ibn Əbu Talibin Tərcümeyi-Hal"**, Dəməşq tarixindən, hədis 160-da qeyd olunmuşdur.

68. "Ət-Taha" surəsi, 90-cı ayə ***"…Sizin Rəbbiniz şübhəsiz ki, rəhmandır. Mənə tabe olub əmrimə itaət edin."***

Peyğəmbərin (s) bu hədisdə olan istisnaya təkid etməsinə nəzər salaq. Peyğəmbər (s) müharibələrdə olduğu zaman ümmətin bilmədiyi məsələlərdə Mövla Əliyə (ə) müraciət etməsi Musanın (ə) ümmətinin işinə oxşardır. Çünki Musanın (ə) ümməti yollarını azdıqda Harun (ə) onlara yuxarıdakı ayəni demişdi.

Musadan (ə) sonra onların içərisində hamısından alim Harun (ə) idi. O Musanın (ə) elm qapısı idi. Qurani-Kərimdə buyurulur: ***"Biz Musa və Haruna Furqanı (haqqı batildən ayıran Tövratı - doğru yolu göstərən) bir nur və müttəqilərdən ötrü öyüd-nəsihət olaraq vermişdik."*** (**"əl-Ənbiya"** surəsi, 48-ci ayə)

Buradan belə aydın olur ki, Mövla Əliyə (ə) **"elmul-kitab"** verilmişdir. O Peyğəmbərə (s) Harunun Musaya olan mənziləti və nisbəti kimidir.

Qurani-Kərimdə buyurulur: ***"…Eşidən qulaqlar onu tapsın və anlasın."*** (**"əl-Haqqə"** surəsi, 12-ci ayəsi)

Bu ona işarədir ki, ümmətin arasında eşidib və başa düşən qulaq vardır. Əlbəttə, bu da Mövla Əlinin (ə) **"elmin qapısı"** olmasının başqa bir sözlə ifadəsidir.

Fəxr Razi **"Təfsiri-Kəbir"**də Həzrət Peyğəmbərdən (s) nəql edərək yazır: ***"Ey Əli (ə)! Allah-Təaladan istədim ki, o qulaq (ayədən qeyd olunan qulaq) sənin qulağın olsun."***

Mövla Əli (ə) buyurur: **"Ondan sonra mən heç şeyi unutmadım."**

Əbu Nəim **"Hilyətul-Övliya"** kitabında (1-ci cild, səh 76) yazır: **"Həzrət Peyğəmbər Əliyə dedi: Allah mənə əmr edib ki, səni özümə çox yaxın edim və sənin**lə danışım ki, sən bilib, düşünəsən."

Yuxarıda qeyd olunan ayə o zaman nazil oldu: **"Eşidən qulaqlar onu düşünər**. **Ya Əli (ə), sən mənim elmimin eşidən qulağısan."**

Bununla məlum olur ki, Mövla Əliyə (ə) **"elmul-kitab"** verilib. Bu iki kitab bir-birinə həm elmi, həm məzmunu cəhətdən yaxındırlar. Biri o birindən üstün olsa belə.

69. "Əl-Ənam" surəsi, 154-cü ayədə Allah-Təala Qurani-Kərimdə buyurur: **"Sonra biz yaxşı işlər görən kimsəyə - Musaya (bəxş etdiyimiz neməti) tamamlamaq, hər şeyi ətraflı izah etmək üçün ona bir hidayət (ilahi) mərhəmət olaraq kitabı (Tövratı) verdik ki, bəlkə, yəhudilər (bununla) öz Rəbbinə qovuşacaqlarına, (Onun hüzuruna gedəcəklərinə) inansınlar!"**

Yuxarıda qeyd olunan ayədə deyilir ki, **"Haruna verildi"**. Musaya və Haruna fərq qoymağı (haqla batil arasında) verdik.

Deməli, Musa (ə) və Harun (ə) hər ikisi peyğəmbər və qardaş idilər. Allah-Təala onlara Tövratı haqq ilə batil arasında fərq qoymaq üçün nazil etdi. Sözügedən hədisdə Həzrət Peyğəmbər (s) Əlini (ə) özünə qardaş, və vəsi buyurur. Fəqət, bircə fərqlə ki, məndən sonra peyğəmbər olmadığı üçün sən peyğəmbər deyilsən. Bu ayələrdə eyni ilə həmin məzmun Allah tərəfindən bəyan olunmuşdur. Diqqət edək:

70. "Ən-Nəhl" surəsi, 89-cu ayə: ***"…Biz Quranı sənə hər şeyi (dini hökümləri, halal-haramı, günahı və savabı) izah etmək üçün, müsəlmanlara (və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) da bir hidayət, mərhəmət və mücdə olaraq nazil etdik."***

Həqiqətən bu ümmətin (müsəlmanların) Harununa - Əliyə (ə) də **"elmul-kitab"** verilib. Bu izahla da qapını bağlayanlara qapının açıq olması aydınlaşır.

Həzrət Peyğəmbər Mövla Əliyə (ə) buyurur: **"Sən mənim elmim üçün düşünən və hazır qulaqsan".**

Elə bu hədisin özü də Mövla Əlinin (ə) elm qapısı olmasına böyük bir sübutdur.

Diqqət edək. Əgər bir şəxs ümmətin Harunudursa, Peyğəmbər elminin qapısı olmasına da şübhə yoxdur.

Allah-Təalanın kitabından yaxşı şahid ola bilməz. Belə ki, **"Mubahələ"** ayəsində açıq-aşkar Mövla Əlini (ə) Peyğəmbərin (s) nəfsi və özü kimi təsdiqlənib. Ayədə buyurulur:

"…Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!" (**"Ali-İmran"** surəsi, 61-ci ayə)

Bu məsələni Fəxr Razi **"Təfsiri-Kəbir"**də, İbn Kəsir **"Təfsirul-Əzim"**də qeyd etmişlər. **"Biz də özümüzü, siz də özünüzü"** ifadələri məhz Peyğəmbər (s) və Əliyə (ə) şamil olunub.

Cabir qeyd edir ki, **"biz də özümüzü"** ifadəsində məqsəd Həzrət Peyğəmbər (s) və Əli ibn Əbu Talibdir (ə). Demək bir adam ki, Peyğəmbərin (s) özü kimi ola, necə ola bilər ki, onun elminin qapısı olmasın?!

Təbəri **"Camiul-Bəyan"**da **"Ali-İmran"** surəsi, 61-ci ayəsinin təfsirində çoxlu rəvayət nəql edir.

Ümumiyyətlə, həm Əhli-sünnə, həm də şiə alimləri tərəfindən bu məsələ geniş qeyd edilir.

Həzrət Peyğəmbərin (s) buyurduğu şeylərdən yaxın və təsdiq olunmuş başqa bir şey ola bilməz. Belə ki, Buxarı öz **"Səhih"** kitabında (əl-Kitab 62, əl-Bab 9, Əlinin fəzilətində) Əlinin (ə) fəzilətlərini

zikr edərək deyir: **"Həzrət Peyğəmbər buyurur: Ey Əli! Sən məndənsən və mən də səndən".**

Bu rəvayət həmin yuxarıda haqqında bəhs etdiyimiz ayəni təsdiq edir. Göründüyü kimi, bu hədislərdən sonra necə deyə bilərik ki, Mövla Əli (ə) Peyğəmbər (s) elminin qapısı deyil.

Termizi **"Səhih"**də **"əl-Mənaqib"** kitabında (bab 21, hədis 3719) yazır: **"Peyğəmbər buyurdu: Əli məndən və mən də Əlidənəm. Əlidən başqa heç kəs mənim tərzimdə bir şey (söz) çatdıra bilməz".**

Həzrət Peyğəmbər (s) də Allah-Təalanın istədiyini çatdırırdı. Belə ki, Qurani-Kərimdə buyurulur:

71. "Əl-Cumuə" surəsi, 2-ci ayə: ***"(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən Peyğəmbər göndərən Odur. (Bu peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara Kitabı və hikməti (Quranı və şəriəti) öyrədər".***

Deməli, o şəxsin ki, yalnız Peyğəmbərdən hədis demək və bütün hallarda onu əvəz etmək haqqı var (Peyğəmbərin öz buyurduğuna görə), onun elminin qapısıdır ki, bu da yalnız Əlidir (ə).

Bir dəstə xristian Həzrət Peyğəmbərin (s) hüzuruna gəlib İslamın İsa peyğəmbər (ə) barəsində nə buyurduğunu soruşdular. Peyğəmbər (s) İsanın bir insan olduğunu, Allah və ya Allahın oğlu olmadığını buyurdu. Onlar, bəs onun atası kim idi? deyə soruşdular. Həzrət onların sualına sualla cavab verdi: Adəm insan idi, yoxsa Allah? Dedilər: Şübhəsiz ki, insan idi. Həzrət soruşdu: Bəs onun atası kim idi?!... Sonra bu ayəni oxudu.

"Allah yanında İsanın misalı Adəm kimidir ki, onu torpaqdan yaratdı, sonra ona bir "ol" kəlməsi dedi, o da oldu".

Bu möhkəm dəlillərin müqabilində xristianlar yenə də inad etmək istəyəndə, Allah-Təala tərəfindən ayə nazil olaraq onları mübahələyə dəvət etdi.

İmam Fəxr Razi, İmam Sələbi, Siyuti, Zəməxşəri, Müslim və başqaları bu ayəni şərh edərkən yazmışlar: **"Zilhiccə ayının 25-də xristianlar bu mübahələyə hazır olduqlarını elan etdilər. Bu zaman Peyğəmbərin (s) sağ tərəfində Əli, sol tərəfində Fatimə,**

qarşısında isə Həsən və Hüseyn qalanın (Mədinə) qapısından gəldilər. Xristianlar bu nurani şəxsləri görüb nifrin etməkdən boyun qaçırdılar".

Ayəyə diqqət etsək görərik ki, Peyğəmbər (s) üç dəstə şəxsi mübahələyə dəvət edir: Oğlanlarımız, qadınlarımız və canlarımız (özümüz).

Hadisənin təfsilatı göstərdi ki, oğlanlarımız Həsən və Hüseynə, qadınlarımız Fatimə xanıma, canlarımız (özümüz) isə Əliyə (ə) olunan işarədir. Qurani-Kərimin bu mübarək ayəsində **"canlarımız"** kəlməsinin Əli (ə) olduğunu bütün əhli-sünnə təfsirçiləri təsdiq etmişlər.

"Həqiqətən sizin mövla və rəhbəriniz Allah, Allahın rəsulu və iman gətirən, namaz qılıb ruku halında zəkat verənlərdir".

Bu ayənin barəsində böyük təfsirçilərin nəzər və fikirlərini bəyan etməzdən öncə, ayənin mənasına diqqət yetirək. Əgər ayənin sonunu **"namaz qılıb, zəkat verib, ruku edənlər"** kimi tərcümə etsək, bu ayə bütün möminlərə şamil olar. Çünki, bütün möminlər namaz qılır, zəkat verir və ruku edirlər. Lakin ayənin qrammatik quruluşu göstərir ki, bu tərcümə düzgün deyil. **Təəssüflər olsun ki, bizim hörmətli tərcüməçilərimiz də bu ayəni Azərbaycan dilinə belə tərcümə etmişlər.** Lakin ayənin sonunda **"ruku edən halda"** ifadəsi göstərir ki, bu ayə xüsusi bir hadisəyə işarə edir. Ayə ruku halında zəkat verən müəyyən bir şəxsdən söhbət açır. Ruku etdiyi halda zəkat və sədəqə verən şəxs kim idi?

İmam Sələbi, İmam Fəxr Razi, Carullah Zəməxşəri, İbn Sədun Qurtəbi, Fazil Nişapuri, Əbu Bəkr Cəssas, Əbu Bəkr Şirazi, Beyzavi, Siyuti, Şukani, İmam Nəsai, İbn Təlhə Şafei, İbn Səbbağ Sibti, İbn Cuzi və başqa əhli-sünnə alimləri bu ayənin şərhində müxtəlif ifadələrlə yazmışlar: **"Bu ayə nazil olan kimi Peyğəmbər (s) məscidə getdi. Bu zaman bir dilənçinin sevincək məsciddən çıxdığını gördü. Həzrət bunun səbəbini soruşduqda, dilənçi namaz halında olan bir şəxsi göstərib dedi: O rukuda olduğu zaman əlini mənə tərəf uzadıb barmağındakı bu üzüyü mənə verdi. Peyğəmbər (s) namaz halında olan şəxsin Əli (ə) olduğunu görəndə təkbir deyərək buyurdu: "Ayə Əlinin barəsində nazil olmuşdur".**

“Həqiqətən Allah iradə etmişdir ki, siz Əhli-beyti bütün pisliklərdən təmizləyib, sizi tamamilə paklığa çıxarsın”.

Ayədə Peyğəmbər (s) Əhli-beytinin bütün pisliklərdən, günahlardan tamamilə paklanmasından söhbət açılır. Ayəni təfsir edərkən bəzi alimlər Əhli-beytin Peyğəmbərin (s) xanımları olduğunu demişlər. Lakin ərəb dilinin çoxşaxəli, geniş bir dil olduğunu nəzərə alsaq, ayədə qadınlar deyil, kişilər barəsində söhbət açıldığını rahat şəkildə anlaya bilərik. Azərbaycan dilindən fərqli olaraq, ərəb dilində hər hansı bir cümlədə nəzərdə tutulan şəxslərin qadın və ya kişi cinsindən olduğunu anlamaq çox asandır.

Bu ayədə Əhli-beyt sözünə işarə olunan əvəzliklərin kişi cinsində olması yuxarıdakı təfsirin yanlış olduğundan xəbər verir. Doğrudur, bu ayədən əvvəl və sonra gələn ayələr Peyğəmbərin (s) xanımlarından söhbət açır. Lakin baxmayaraq bütün bu ayələr qadın cinsindən olmaları ilə bu ayədən tamamilə fərqlənirlər. Qurani-Kərimin digər ayələrində də belə hallara təsadüf etmək olar. Məsələn, Yusif surəsinin 29-cu ayəsinə diqqət edək:

“Yusif, bu məsələdən vaz keç və öz günahından tövbə et…”

Ayənin zahirindən hər iki əmrin Yusif peyğəmbərə (ə) olunmasını başa düşürük. Lakin ikinci əmrin qadın cinsinə aid olması bunun Yusifə deyil, Züleyxaya məxsus olunduğunu açıqlayır. Gördüyünüz kimi, bir ayənin daxilində qrammatik cinsiyyət, mövzuları bir-birindən tamamilə ayırır. Necə ki, Müslim ibn Həccac **“Səhih”** kitabında Hüseyn ibn Səmrədən nəql edir:

“Zeyd ibn Ərqəmdən soruşdum ki, Peyğəmbərin (s) xanımları bu ayədə Əhli-beytə daxildirlərmi? Cavab verdi: Allaha and olsun ki, xeyr. Çünki qadınlar bir müddət kişinin evində qalırlar. Tələqdan sonra isə başqa bir şəxsin evinə gedirlər. Əhli-beyt yalnız o kəslərdirlər ki, hansı evdə olsalar da, Peyğəmbərin (s) yaxın qohumu sayılırlar”.

İmam Fəxr Razi, İmam Sələbi, Suyuti, İbn Həcər Əsqəlani, İmam Əhmədi ibn Hənbəl, Müslim ibn Həccac, Şeyx Süleyman Hənəfi, İbn Həcər Məkki, Məhəmməd Məbəri bu ayənin barəsində nəql etdikləri hədisdə deyirlər: **“Əhli-beyt Peyğəmbər (s), Əli (ə), Fatimə, Həsən və Hüseynə şamildir”.**

Yeri gəlmişkən qeyd edək ki, Həzrət Fatimənin buraya daxil olması ayənin kişi cinsindən olmasına maneçilik törətmir. Ərəb dilinin qrammatik qaydalarına əsasən bir toplumda həm kişi, həm də qadın olarsa, cümlə kişi cinsini ifadə edən bir formada olur (ərəb dilində buna təğlib-qələbə deyilir). Qurani-Kərimin bütün ayələri həm kişilərə, həm də qadınlara aid olmasına baxmayaraq, kişi cinsində işlədilmişdir.

Beləliklə, Mövla Əlinin (ə) fəzilətlərini əks etdirən yüzlərlə ayədən bir neçə nümunə ilə xülasə şəklində tanış olduq. İndi isə Əli (ə) barəsində nazil olmuş ayələri davam edək.

Qurani-Kərimdə Həzrət Peyğəmbərdən (s) sonra ehkamların bərpasında imamətin bir vəzifə kimi davam etməsi və xüsusən də Mövla Əli (ə) və onun övladlarının imamətə sahib olmalarına dəlalət edən bir neçə ayələr vardır ki, biz onların bəziləri haqqında söhbət açacağıq.

72. **"Ət-Təthir"** ayəsidir. Bu ayeyi-şərifə Həzrət Peyğəmbərin (s), Mövla Əlinin (ə), Fatimeyi-Zəhranın (ə), İmam Həsən və İmam Hüseynin (ə) barəsində Ümmü Sələmənin evində nazil olmuşdur.

"Ət-Təthir" ayəsi haqqında geniş məlumat toplamaq istəyənlər Ayətullahul-üzma Fazil Lənkəraninin Azərbaycan dilində tərcümə olunmuş **"Əhli-beyt"** kitabına müraciət edə bilərlər.

Mövla Əli (ə) buyurur ki, Rəsulullah (s) hər gün sübh çağı bizə gəlir və buyururdu: **"Namaz vaxtıdır, Allahın rəhməti sizin üçün olsun! Siz ey (peyğəmbərin) Əhli-beyti! Allah sizdən çirkinliyi yox etmək və sizi tər-təmiz, pak etmək istər! "**

73. "Əl-İnsan" surəsində olan bu ayələr. Mövla Əli (ə), Fatimeyi-Zəhrə (ə), İmam Həsən (ə) və İmam Hüseynin (ə) haqqında nazil olmuşdur.

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər".

(Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik".

"Həqiqətən biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin gündən (üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin

tutulub-qaralacağı Qiyamət günündən) qorxuruq!“ (**“əl-İnsan“** surəsi, 8-10-cu ayələr)

74. “Əs-Səcdə” surəsi, 18-ci və 19-cu ayələrdə Həzrət Əliyə (ə) işarə edilir: ***“Məgər mömin kimsə ilə (Allahın itaətindən çıxmış) fasiq eynidirmi?! Əlbəttə, onlar eyni ola bilməzlər. İman gətirib yaxşı işlər görənləri etdikləri əməllər müqabilində qonaq qalacaqları (sakin olacaqları) Məva cənnətləri gözləyir (Onlar orada Allahın əbədi qonaqları olacaqlar)”.***

75. “Zumər“ surəsi, 33-cü ayə: **“Haqqı gətirən (Peyğəmbər (s) və onu təsdiq edən (Əli (ə) əsil müttəqilərdir”.**

Bu ayədəki **“Və səddəqə bihi”** cümləsi Həzrət Əliyə (ə) aiddir.

76. **“Əl-Ənfal”** surəsi, 62-ci ayəsində buyurulur:

“Əgər onlar səni aldatmaq istəsələr, (qorxma və bil ki, onların şərindən və məkrindən qorumaqa) sənə təkcə Allah kifayətdir. (O Allah ki) səni öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi”.

Burada **“Möminin”** kəlməsindən məqsəd Mövla Əlidir (ə).

77: **“Əl-Mücadələ”** surəsi, 13-cü ayəsində buyurulur:

“Məgər siz (Peyğəmbərlə) məxfi danışmazdan əvvəl sədəqə verməkdən qorxdunuzmu? Madam ki, siz (bunu) etmədiniz (sədəqə vermədiniz) və Allah da tövbənizi qəbul buyurdu, onda namaz qılın, zəkat verin, Allaha və Onun Peyğəmbərinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır”.

Qurandakı **“şəhid”, “sadiq”, “müsəddiq”, “siddiq”, “fəzl”, “rəhmət”, “nemət”** və **“imamun mubin”** kəlmələrinin hamısında məqsəd Həzrət Əli (ə) şəxsiyyətidir.

“Və o kəs ki, ilahi kitabın bütün elmini bilir”.

Allah-Təalanın bu ayədə buyurduğu şəxs Mövla Əlidir (ə). Allah-Təalanın məndən böyük ayəti (nişanəsi yoxdur). Və məndən böyük başqa bir xəbər Allahın yanında mövcud deyil.

Quranda **“Validəyni”** kəlməsindən məqsəd Allahın rəsulu və Həzrət Əlidir (ə). Çünki Rəsulullah buyurub: **“Mən və Əli (ə) bu ümmətin atasıyıq və onların boynundakı haqqımız öz ata-analarının haqqından böyükdür. Əgər onlar bizə itaət etsələr, Cəhənnəm odundan nicat və əbədi Behiştə daxil olacaqlar”.**

78. "Ali-İmran" surəsi, 103-cü ayəsində buyurulur: ***"Hamınız bir yerdə Allahın ipindən (dinindən möhkəm) yapışın, bir-birinizdən ayrılmayın!.."***

79. "Əl-Həşr" surəsi, 9-cu ayə:

"Özləri ehtiyac içində olsalar da, başqasını özlərindən üstün tuturlar". Ayənin məzmunu yenə də Əli (ə) Fatimə (ə) Həsən və Hüseynə aiddir.

80. **"Əl-Əraf"** surəsi, 48-ci ayə:

"Əraf əhli üzlərindən tanıdıqları (bir dəstə) adama müraciət edib: Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz bir fayda verdi – deyəcəklər".

81. "Ər-Rəd" surəsi, 7-ci ayə **"İnzar və Hidayət"**:

"Kafir olanlar: Məgər ona Rəbbindən bir möcüzə endirilməli deyildimi?-deyirlər. Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (doğru yol göstərən) bir rəhbəri (peyğəmbəri) vardır".

Fəxr Razi öz **"Təfsirin"**də yazır: **"İnzar edən peyğəmbərdir (s), hidayət edən isə Əlidir (ə)".** Hədis ibn Abbasdandır. O deyir: **"Peyğəmbər (s) əlini öz sinəsinə qoyub buyurdu: Mən münziləm. Sonra əlini Həzrət Əlinin (ə) sinəsinə qoyaraq: Sən də, ey Əli, hidayət edənsən. Məndən sonra hidayət olanlar sənin vasitənlə olacaqlar".**

Ayədən belə məlum olur ki, Peyğəmbər (s) dinin bünövrəsini öyüd-nəsihət və qorxu yolu ilə qoyur, İmam isə bu yolu hidayət etməklə davam etdirir.

Həmçinin Cəlaləddin Suyuti bu ayə haqqında **"Dürrül Mənsur"** təfsirində Peyğəmbərdən (s) çoxlu rəvayətlər nəql etmişdir.

O İbn Cüreyrədən, İbn Mərdəviyyədən, Əbu Nəimidən, Deyləmidən, İbn Əsakirdən və İbn Nəccardan nəql edərək yazır: **"Bu ayə nazil olanda Həzrət Peyğəmbər (s) əlini öz sinəsinə qoyub buyurdu: Mən inzar edənəm, sonra əlini Əlinin (ə) sinəsinə qoyub dedi: Sən isə, ya Əli, hidayət edənsən, sənin vasitənlə hidayət olanlar nicat tapacaqlar".**

Əbu Bərəzə Əsləmi deyir: **"Mən özüm Peyğəmbəri (s) əlini sinəsinə, sonra da Əlinin çiyninə qoyub, mən münzirəm, sən də**

ya Əli, hidayət edənsən, deyəndə gözümlə gördüm və qulağımla eşitdim."

Abdullah ibn Əhməd, İbn Əbi Hatəm, Təbərani, Hakim, İbn Mərdəvaiyyə, İbn Əsakir deyirlər: **"Biz bu ayənin təfsirini Əlidən (ə) bu cür eşitdik: Peyğəmbər (s) inzar edəndir, mən isə hidayət edənəm".**

İbn Abbasdan da bu barədə eyni məzmunda hədis nəql olunub.

Mir Qiyasüddin **"Həçbisseyr"** kitabında yazır: **"Həqiqətən müxtəlif yollarla sübuta yetib ki, bu ayə nazil olanda Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Mən öyüd və nəsihət verənəm, sən isə, ya Əli, hidayət edənsən. Sənin vasitənlə insanlar hidayət olacaqlar".**

Bu hədisi Həmvini Əbu Hüreyrədən nəql edibdir.

Hakim **"Müstədrək"** kitabında bu məzmunda olan bir hədisi Əbu Büreydə Əsləmidən geniş surətdə nəql edib: **"Həzrət Peyğəmbər (s) su istədi və o su ilə dəstəmaz aldı. Sonra Əlinin (ə) əlindən tutub dedi: Ya Əli, mən inzar edənəm, sən isə hidayət edənsən. Ya Əli, sən işıqlı çıraq və hidayətin ən yüksək həddisən. Sən Quran oxuyanların əmirisən, mən buna şahidlik verirəm. Sən həqiqətən beləsən."**

Bu hədisi Əhli-sünnə alimlərindən çoxu, o cümlədən Hakim **"Müstədrək"**də, Zəhəbi **"Təlxis"**də, Fəxri Razi və İbn Kəsir öz **"Təfsir"**lərində, İbn Subağ Maliki **"Füsulul Mühümmə"**də, Gənci Şafei **"Kifaytüttalib"**də, Əllamə Təbəri öz **"Təfsir"**ində, İbn Həyyan Əndəlisi **"Bəhrül mühit"**də, Nişaburi öz **"Təfsir"**ində, Həmvini **"Fəraid əssəmteyn"**də və başqaları öz kitablarında bu hədisi qeyd ediblər.

Bütün bunlarla belə şiə mənbələrində də bu ayənin təfsirində çoxlu rəvayətlər var. Lakin kitabın həcmini nəzərə alaraq onlardan birini verməklə kifayətlənirik. İmam Baqir (ə) və İmam Sadiq (ə) buyururlar: **"Hər bir zamanda imam var və o imam öz zəmanəsinın insanlarını hidayət edir".**

Həzrət Peyğəmbər (s) yaşadığı dövrdə hər vəchlə xalq arasında Mövla Əlini (ə) özünə yaxın etmək üçün belə hədislərdən istifadə etmişdir: **"Sən məndən və mən də səndənəm".**

Buxari özünün **"Səhih"** kitabında bu mətləbə işarə etmişdir.

Peyğəmbərin (s) başqa bir hədisində deyilir: **"Hər kim Əlini (ə) söysə, elə bil ki, məni söyübdür".** Bu hədisi Hakim öz **"Müstədrək"**ində (3-cü cild, səh. 121) Şeyxeynə istinad edərək səhih bilmişdir.

Zəhəbi öz **"Təlxis"**ində bu hədisin səhih olmasını təsdiq edib.

Həmçinin bu hədisi Əhməd öz **"Müsnəd"**ində (6-cı cild, səh. 323) Ümmüssələmdən nəql edib.

Nisai **"Xəsaisül Ələviyyə"**də (səh. 17), Xarəzmi **"Əl-Mənaqib"**də (səh 82-91), **"Zəxairul-Üqba"** (səh. 66) və başqaları qeyd etmişlər.

O cümlədən, digər hədisdə Həzrət Peyğəmbər (s) buyurur: **"Hər kəs məndən itaət etsə, Allahdan itaət etmiş olar. Hər kəs mənə üsyan etsə və günahkar olsa, Allaha qarşı günahkar olubdur. Hər kəs Əliyə itaət etsə, mənə itaət edibdir. Hər kəs Əliyə qarşı günah etsə, mənə qarşı günah etmişdir".**

Bu hədisi Hakim Şeyxeynə istinad edərək **"Nəfsil-Məkanis-salif"**də səhih qəbul etmişdir.

Zəhəbi **"Təlxis"** kitabında və İbn Əsakiri **"Safi"**də bu hədisin səhih olmasını qeyd etmişlər.

Mühəmməd ibn Sirin nəql edir: **"Tuba" bir ağacdır ki, behiştdədir. Onun kökü Əlinin (ə) evindədir. Behiştin hər bir evində onun budaqlarından bir budaq var."** (**"Kəşful-Ğümmə""** 1-ci cild, səh. 323; **"Mənaqib ibn Məğazəli"**, səh. 268, say 315; **"Dürrül-Mənsur"**, 4-cü cild, səh. 59; **"Təfsiri-Əyyaşi"**, 2-ci cild, səh. 212, say 48; **"Təfsiri-Burhan"**, 2-ci cild, səh. 293, 10 və 23-cü hədislər; **"Yənabiul-Məvəddə"**, səh. 131; **"Məcməul-Bəyan"**, 5-6-cı cild)

Tirmizinin **"Səhihi"**, Əhməd Həmbəlin **"Müsnəd"**ində, İbn Macə, İbn Səid və Hakim özünün traktatında (3-cü cild, səh. 109) qeyd etmişlər.

Biz belə dəlillərin sayını çoxalda bilərik. Lakin bu qədər dəlillərlə kifayətlənirik.

Vəssəlamu əleykum və rəhmətullahi və bərakatuhu.

"NƏHCÜL-BƏLAĞƏ" ƏLİ (Ə) – PARLAQ SİMA

Bəşər tarixinin ilahiyyat mənbələri və mətnlərinə maddi çərçivədən baxan hər bir şəxs üçün Mövla Əlinin (ə) özünəməxsus şəxsiyyət olması danılmaz həqiqətdir. Peyğəmbərimiz Həzrət Mühəmməddən (s) sonra övliyalar və ilahi şəxsiyyətlərdən heç kəs vücudunun əzəmət və genişliyi baxımından Mövla Əliyə (ə) çata bilməz. Səmavi kitablardan məlum olduğu kimi, onun son peyğəmbərin canişini olması əvvəlcədən xəbər və müjdə verilmişdi. Mövla Əli (ə) maddi aləmə qədəm qoyduqdan sonra, dünyaya gəlməsinin ilk vaxtlarından hamının diqqət mərkəzində olmuş, daha sonra özünün parlaq həyatı boyu elə heyrətləndirici cazibə və əzəmətə malik olmuşdur ki, bəşəriyyət onün vurğunu olmaya bilməzdi. Bəli, insan və insanlıq o Həzrətin dünyəvi həyatından 1400 il keçməsinə baxmayaraq, hələ də təəccüb və heyrətlə onun vücudunun əzəmət və kamilliyinin vurğunudur. Bəşər tarixinin müxtəlif dövrlərində, bir çox alim və tədqiqatçılar özlərinin Mövla Əliyə (ə) olan hədsiz sevgiləri nəticəsində onun vücudunun məhəbbət doğuran minlərlə sirlərindən birini açmağa nail olmaları ilə fəxr etmişlər desək, yanılmarıq. Bütün bünlara baxmayaraq, əvvəlkindən daha artıq heyranlıqla öz ağıl səviyyələri ilə onu tanımaqda özlərini aciz görmüş, aşiqanə şəkildə onu vəsf etməyə çalışmışlar. Bəzən də həmin şəxslər o Həzrətin dünya həyatının heç olmasa, bir anını görmək arzusunda olublar. Bunu deməyi özümə borc bilirəm ki, Mövla Əli (ə) şəxsiyyəti heç vaxt bəşəriyyətin seçilmiş dahi şəxsiyyətləri ilə müqayisə edilməməlidir. Ona görə ki, Həzrət Peyğəmbərimiz (s) **"Əli bəşərdir, lakin necə bəşər?**"-deyə buyurmuşdur. Heç şübhəsiz, bu parlaq sima ancaq bəşər tarixinin müqəddəsləri - peyğəmbərləri və övliyalarilə müqayisə edilməlidir. Bu da eyni həqiqətdir ki, peyğəmbərlərin sonuncusu Həzrət Mühəmməddən (s) başqa hamıdan üstündür. Bunun sübuta ehtiyacı yoxdur, lakin Həzrət Peyğəmbərin (s) bir hədisi ilə sözümü daha da qüvvətləndirmək istəyirəm. O Həzrət buyurmuşdur: **"Mənim ümmətimin alimləri Bəni-İsrail Peyğəmbərlərindən fəzilətlidir**". Deməli, Peyğəmbərin (s) fərmayişindən məlum olur ki, ümmətin alimi bu fəzilətə malikdirsə, görün Mövla Əlinin (ə) şərəfi hansı məqamdadır.

Peyğəmbər və övliyalar bəşər tarixində həmişə kamil örnək kimi ön sırada durmuşlar. Bu məqsədlə Qurani-Kərim peyğəmbər və övliyaların əhvalatlarından müxtəlif dastanlar nəql edərək onların timsalında Həzrət İbrahimi (ə) tam aşkar şəkildə örnək və nümunə kimi təqdim edir. Peyğəmbərlərin sonuncusu Həzrət Mühəmməd (s) ən kamil sifətlərə malik olduğu və kamil insanın vücudunda varlığı mümkün olan bütün fəzilət və üstünlükləri bir yerə topladığı üçün xüsusi imtiyaza malikdir. Allah-Təala Qurani-Kərimin **"əl-Əhzab"** surəsinin 21-ci ayəsində onu gözəl nümunə və kamil örnək olaraq təqdim etmişdir: ***"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!"***

Əqlə və nəql edilmiş rəvayətlərə, eləcə də vücudunun nişanələrinə əsasən, Mövla Əli (ə) Həzrət Mühəmmədin (s) tərbiyə etdiyi insanların içərisində yeganə kamil varlıqdır. Bəlkə bu da onun Allahın Rəsulu ilə bir kökdən olmasından irəli gəlir. Mövla Əli (ə) dünyaya gəldikdən sonra uşaqlıq dövründən Peyğəmbərin (s) qucağında böyümüş, əlindən yemək alıb yemiş və onun həyatının son anlarına kimi yanında olmuşdur. Qurani-Kərimdə buyurulur: ***"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən bilikdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlər olsa, onlara de: "Gəlin, biz də öz oğulanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!"*** (**"Ali-İmran"** surəsi, 61-ci ayə).

Müsəlman alimlərinin fikirincə, həmin ayədə oğul, qadın və nəfs-özmüz sözlərinin mənası Həsən (ə), Hüseyn (ə), Fatimə (ə) və Mövla Əlidən (ə) ibarətdir. (Bu barədə ayələr haqqında geniş şərh verilmişdir.) Həzrət Peyğəmbərin (s) vəfatından sonra Mövla Əli (ə) bütün rəftar, danışıq və əzəmətilə ilk növbədə İslam və müsəlmanlarına, sonra isə bütün bəşəriyyət üçün Allahın Peyğəmbərlərinin əvəzsiz nümunəsi olmuşdur.

MÖVLA ƏLİNİN (Ə) İMAMƏTİNİ SÜBUT EDƏN BƏZİ HƏDİSLƏR

Şiə məzhəbinin əqidəsinə görə, İslam ümmətinin rəhbər və imamı yalnız İlahi əmrlə təyin olunmalıdır. Bütün aqil insanlar kimi, Peyğəmbər (s) də özündən sonra İslam hökumətini və müsəlmanları öz ixtiyarına buraxıb gedə bilməzdi. Başqa dinlərdən fərqli olaraq müqəddəs İslam dini müəyyən zaman və məkan çərçivəsində məhdudlaşmır. İslamın hökmlərinə diqqət etsək, görərik ki, bunlar təkcə Peyğəmbərin (s) 23 illik risalət dövrünü deyil, qiyamətə qədər olacaq bütün zamanları əhatə edir. Bəs, bütün bu hökmlərin fövqündə dayanan, demək olar ki, İslamın müqəddəratını həll edən hakimiyyət məsələsi həll olunmamış qala bilərdimi? Şübhəsiz ki, bu taleyüklü məsələ İlahi göstərişlə həll ounmalı, ümmətin gələcək taleyi müəyyənləşdirilməli idi.

Tarixi sənədlərdən məlum olur ki, xilafət məsələsi İslam dini yarandığı gündən risalətin son gününədək Peyğəmbərin (s) diqqət mərkəzində olmuşdur. Bəs, Peyğəmbər (s) bu ağır məsuliyyəti kimin öhdəsinə qoymuş, imamət və xilafətə kimi təyin etmişdir? Bu barədə nəql olunan yüzlərlə hədisdən bir neçəsini təqdim edirik:

QƏDİR-XUM HƏDİSİ. Bu hədisi həm şiyə, həm də sünni rəvayətçiləri nəql ediblər və heç kəs onu inkar edə bilməz.

Əhməd İbn Hənbəl öz **"Müsnəd"** (cild 1, səh- 84) kitabında, Səid İbn Cübeyr və İbn Abbasdan nəql edərək yazır: **"Kufə məscidinin qarşısında Əlinin (ə) başına xeyli cəmiyyət yığışmışdı. Soruşdular: Qədir-Xum hədisini Peyğəmbərin dilindən eşidən varmı? On yeddi kişi ayağa qalxıb dedi: Biz şahidik. Həzrət Peyğəmbər (s) Həzrət Əlinin (ə) əlindən tutub dedi: Mən hər kəsin mövla və rəhbəriyəmsə, Əli də onun rəhbəridir. Ey Allah, Əli (ə) ilə dostluq edənlə dostluq et, onunla düşmənçilik edənlə düşmənçilik et, Əliyə (ə) kömək edənə kömək et və onu xar edəni zəlil et!"**

Bu hədisi Abdulla İbn Əhməd **"Ziyadatül-Müsnəd"** kitabında, Mühəmməd İbn Cərir Təbəri **"Kitabül-Vilayə"**də, İbn Məğazili, İbn Macə və Möfiq İbn Əhməd və başqaları dönə-dönə qeyd etmişdir.

SALAM HƏDİSİ. Həzrət Əliyə (ə) salam vermək haqqında olan hədis. Büreydənin rəvayətinə görə, Rəsulullah (s) bizə əmr etdi ki, bundan sonra Həzrət Əliyə (ə) salam verəndə deyin: **"Əssəlamu əleykə ya Əmirəlmöminin".**

Həzrət Peyğəmbər (s) burada Mövla Əliyə (ə) **"Əmirəl-möminin"**, yəni **"möminlərn rəhbəri və imamı"** ləqəbini verir. Bu ləqəb yalnız Mövla Əliyə (ə) məxsusdur. Ona görə ki, Allah-Təala merac gecəsi Həzrət Peyğəmbərə (s) Mövla Əlinin (ə) **"Əmirəlmöminin"** ləqəbi ilə çağırılmasını möminlərə əmr etməsini tapşırmışdır.

Həzrət Mühəmməd (s) buyurub: **"Əli (ə) haqq ilə və haqq Əli (ə) ilədir. Hər yerdə Əli (ə) olsa, haqq da oradadır".**

TEYRÜL-MƏŞVİY HƏDİSİ (Cücə-kabab hədisi). Bu hədis çoxlu sənədlərlə nəql olunub. Onlardan biri də Əhməd İbn Hənbəl öz **"Müsnədində"** yazır: **"Ənsar arvadlarından biri Həzrət Peyğəmbər (s) üçün hədiyyə ünvanı ilə cücə kabab gətirmişdi. Bu zaman Peyğəmbər (s) Allah-Təalaya dua edərək buyurdu: "Ey Allah, öz xəlqinin ən yaxşısını mənim yanıma yetir və mənimlə birlikdə bu xörəyi yesin!"** (**"Yənabiül-Məvəddə"** kitabı, səh. 62. hicri 1384. Nəcəf).

Bu vaxt Mövla Əli (ə) Peyğəmbərin (s) yanına gəldi və onlar birlikdə həmin kababı yedilər. Baxmayaraq, Ənəs ibn Malik Həzrət Əlinin (ə) gəlməsinə dəfələrlə mane oldu, lakin Allah istədi və Mövla Əli (ə) bu şərəfə nail oldu.

HƏDİSÜD-DAR. İmam Əhməb İbn Hənbəlin **"Müsnəd"**, İmam Sələbinin **"Kəşful-bəyan"**, İbn Əhməd Xarəzminin **"Mənaqib"**, Mühəmməd Təbərinin **"Təfsiri-kəbir"** və həmçinin **"Tarixul-Ümməvəl-Müluk"**, İbn Əbil Hədid Mötəzilinin **"Şərh-Nəhcül-Bəlağə"**, İbn Əsirin **"Kamilut-Tarix"**, Həmidinin **"əl-Cəm Bəynəs-Səhihəyn"**, İmam Nəsainin **"Xəsaisul-Ələvi"** kitabında və Qurani-Kərimin **"əş-Şüəra"** surəsinin 214-cü ayəsinin şərhində yazmışlar: **"Bu ayənin hökmünə əsasən, Peyğəmbər (s) öz yaxın qohumlarını əmisi Əbu Talibin evinə dəvət etdi. Onlar Peyğəmbərin (s) çox az miqdarda hazırladığı yeməkdən yeyib doyduqdan sonra Həzrət sözə başladı: (Xülasə) Ey Əbdül-Müttəlibin övladları! Allah məni xalq üçün peyğəmbər təyin etmişdir. Mən sizi sözdə yüngül,**

həqiqətdə ağır olan iki cümləyə dəvət edirəm: Allahdan başqa Allah yoxdur, Mühəmməd onun rəsuludur. Hər kəs mənim bu dəvətimi birinci qəbul etsə, mənim qardaşım, vəzirim, varisim və məndən sonra xəlifəm olacaq…"

Peyğəmbər (s) bu sözləri üç dəfə təkrar etsə də hər dəfə Əlidən (ə) başqa heç kim cavab vermədi. Bu zaman Peyğəmbər (s) üzünü Əliyə (ə) tutub buyurdu: **"Sən mənim qardaşım və məndən sonra xəlifəmsən"**.

Bu hadisəni müsəlman tarixçilərindən başqa, Tomas Karlayl (XVIII-ci əsr, London), Tol Lehojur (18-ci əsr, Paris), Haşim Nəsrani (18-ci əsr, Dəməşq) kimi xristian alimləri də öz tarix kitablarında yazmışlar.

HƏDİSÜS-SƏQƏLEYN. Otuzdan artıq Əhli-sünnə kitablarında, o cümlədən **"Səhih Müslim", "Sünən Əbi Davud", "Səhih Tirmizi", "Sünən Nəsai", "Sünən", "Müstədrək", "Hilyətul-övliya", "Əl-Cəm Bəynəs-Səhihəyn", "Əl-Cəm Bəynəs-Sihah-Sittə", "Əqdul-Fərid", "Məhtalibus-Sual", "Mənaqib", "Yənabiul-Məvəddə", "Şərhu-Nəhcil-Bəlağə", "Fəraidus-Simətəyn", "Kəşful-Bəyan"** və başqalarında Peyğəmbərdən (s) nəql olunur: **"Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Onlardan biri Allahın kitabı - Quran, digəri isə mənim Əhli-Beytimdir. Bu iki əmanət bir-birindən qiyamətə qədər ayrılmazlar. Hər kəs onlara itaət etsə, nicat tapar, onlardan ayrılanlar isə həlak olarlar".**

Hədisin mənası açıq-aşkar Mövla Əlinin (ə) və onun məsum övladlarının itaətinin vacib olduğunu bəyan edir.

HƏDİSÜL-MƏNZİLƏ. Bütün şiə və Əhli-sünnə alimlərinin nəql etdikləri **"Hədisül-Mənzilə"** rəvayəti Mövla Əlinin (ə) imamət və xilafətini isbat edən təkzibolunmaz faktdır. Hədisdə Əlinin (ə) Peyğəmbərə (s) olan nisbəti Harunun (ə) Musa peyğəmbərə (ə) olan nisbətinə bənzədilir. Qurani-Kərim Harunun (ə) Musa peyğəmbərin (ə) qardaşı, vəziri, özü olmayanda xəlifəsi olmasından xəbər verir. Peyğəmbərdən (s) nəql olunan bu hədisin mətni belədir: **"Əlinin mənə olan nisbət və məqamı Harunun Musaya olan nisbət və məqamı kimidir. Laikn məndən sonra Peyğəmbər gəlməyəcək".**

Bu hədis müxtəlif şəkilli cümlələrlə 31 Əhli-sünnə kitablarında 25 məşhur səhabədən nəql olunmuşdur. **"Səhih Buxari", "Sünən Tirmizi"** (cild 5, səh-302), **"Sünən Nəsai", "Tarixi-Təbəri"** və **"Müsnədi İmam Hənbəl", "Səhih Müslim"** (cild 7, səh- 120).

Gördüyünüz kimi, nəql etdiyimiz hədislər **"mütəvatir"** həddindən keçmişdir. (Təqribən ondan artıq yolla nəql olunan hədislərə **"mütəvatir"** deyilir.) **"Mütəvatir"** hədislərin qondarılma ehtimalı yoxdur. Buna görə də belə hədislər bütün məzhəblərdə səhih və mötəbər sayılırlar.

SƏFİNƏ HƏDİSİ. "Səqəleyn" hədisi bizə Əhli-beyti Quranın məna və həqiqətlərini, hikmət və sirrlərini bəyan edən şəxslər kimi tanıtdırdı. **"Səfinə"** hədisi isə onların müsəlmanlar üçün nicat gəmisi və qurtuluş yolu olduqlarını müəyyən edir. Bu hədisdə izah olunur ki, hər kim bu gəmidən istifadə etməzsə və onunla birgə hərəkət etməzsə, şübhə yoxdur ki, günah dənizində bataraq məhv olacaq. Eyni zamanda Əhli-Beytin nicat gəmisinə minməyən şəxs, insanları hidayət və mənəviyyat sahillərinə aparan İlahi rəhbərləri rədd edir və bununla da özünün əbədi bədbəxtçilik dənizində boğulmasına razı olur.

Şəbravi Şafeyi, Əbuzər Ğəffarinin xidmətçisindən belə rəvayət edir: **"Bir gün Əbuzər Kəbənin astanasına çıxdı və qapının halqasını tutub özünə tərəf çəkərək belə dedi: "Ay camaat! Hər kim məni tanıyırsa, tanıyıb, tanımayanlar bilsinlər ki, mən Əbuzərəm! Mən Peyğəmbərdən (s) eşitdim ki, o, buyurdu: Mənim Əhli-Beytim Nuhun gəmisi kimidir. Hər kim ondan uzaq düşsə cəhənnəm oduna düşər". Yenə də Peyğəmbərdən (s) eşitdim: "Mənim Əhli-Beytimi bir bədəndə baş və yaxud bir başda gözün yerində fərz edin. Şübhəsiz bədən başsız və baş da gözsüz heç bir zaman bir iş görməyə qadir deyildir".**

Əbu Nəsim öz sənədi ilə Səid ibn Cubeyr və ibn Abbasdan belə rəvayət edir: **"Peyğəmbər belə buyurdu: "Mənim Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Hər kim ona minsə, nicat tapar və hər kim ondan üz döndərsə məhv olar".**

Bu hədisi Hakim öz **"Müstədrək"**ində (2-ci cild, səh. 343) nəql etdikdən sonra demişdir: **"Bu hədis "Səhihi Müslim" nöqteyi nəzərindən də düzgün bir hədisdir".**

Bu hədis Ənəs ibn Malikdən də bu şəkildə rəvayət edilmişdir: **"Həzrət Peyğəmbər (s) buyurmuşdur: Mən və mənim Əhli-Beytim Nuhun gəmisi kimiyik, hər kim ona minsə nicat tapar və hər kim ondan üz döndərsə boğulub, həlak olar".**

Süyuti də bu hədisi **"Dürrül-Mənsur"** kitabında **"əl-Bəqərə"** surəsinin, 58-ci ayəsinin təfsirində nəql etmişdir: **"Biz (Bəni İsrailə bu qəsəbəyə dediyimiz zaman, onlara söylədik ki, oradan arzuladığınız şeyləri yeyin. Qəsəbənin qapısından içəri girən zaman səcdə edin və "İlahi, bizi bağışla" söyləyin və biz də sizi bağışlayaq".**

Süyuti bu ayənin izahında ibni Əbi-Şeybədən, o da Həzrət Əlidən (ə) belə nəql edir: **"Həqiqətən biz (Əhli-Beyt) bu ümmətin içərisində Nuhun nicat gəmisi və Bəni İsrailin "məğfirət qapısı" (bağışlama qapısı) misalındayıq".**

Bu hədisi Müttəqi də **"Kənzul-Ümmal"** kitabında (6-cı cild, səh. 216) bu şəkildə nəql etmişdir: **"Mənim Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Kim ona minsə xilas olar və hər kim üz döndərsə həlak olar. Həmçinin, (Əhli-Beytim) Bəni-İsrailin "məğfirət" qapısına bənzəyirlər".**

Bu hədisi Təbərani də Əbu-Zər Ğəffaridən nəql etmişdir.

AMAN HƏDİSİ. Bu şərəfli hədis də öz növbəsində Həzrət Peyğəmbərin (s) Əhli-beytinin müsəlmanlar arasında siyasi-etiqad mahiyyətini izah edir. Hər hansı bir millətin ən təhlükəli və xətərli məsələsi, onun siyasi-etiqad məsələlərdə ixtilaf və təfriqlərlə üzləşməsidir. Həzrət Peyğəmbər (s) də öz ümmətinin gələcəkdə belə vəziyyətlərə düçar olmaması üçün və yaxud bu kimi şəraitlərdən çıxış yolu tapmaları üçün, xüsusi bir layihə hazırlamışdır. O layihə, Allahın əmri ilə ümməti Əhli-Beytə tərəf sövq etdirmək və onların ətrafında birləşdirməkdən ibarət idi. Əvvəldə söylədiyimiz hədislərdə Əhli-Beyt **"nicat gəmisi"** və **"bağışlanma qapısı"** kimi təqdim edildi. İndi söyləyəcəyimiz hədis isə Əhli-Beyti ümmətin vəhdət mərkəzi və onları ixtilaf və azğınlıqdan qoruma vəsitəsi kimi müəyyən edir. Əgər ümmət onların

yolu ilə getsə daimi olaraq ixtilaf və təfriqlərdən amanda qalarlar. Məhz, buna görə də bu hədisin adına **"Aman hədisi"** deyilmişdir.

Təbərani ibn Abbasdan rəvayət edir ki, Peyğəmbər (s) buyurmuşdur: **"Ulduzlar yer sakinlərini (gecələr dənizlərdə üzərkən yolu tapmaqda) qərq və həlak olmaqdan amanda saxlayırlar, mənim Əhli-Beytim isə yer üzünün sakinlərini ixtilafdan amanda saxlayır".**

Mühibəddin Təbəri də Əlidən (ə) rəvayət etmişdir ki, Peğəmbər (s) belə buyurdu: **"Ulduzlar asimanın sakinlərinin əmin-amanlıq vasitələridir, onlar yox olub getsələr, sakinləri də aradan gedər. Mənim Əhli-beytim də yer əhlinin əmniyyət vasitəsidir, onlar aradan getsə yer üzünün sakinləri də aradan gedər"**. Sonra əlavə edir ki, Hənbəl də öz **"Müsnəd"**ində (mənaqib fəslində) bu hədisi nəql etmişdir.

KƏSA HƏDİSİ. Həzrət Peyğəmbər (s) bu hədisi **"Təthir"** ayəsi nazil olan zaman Əhli-Beyt (Əli, Fatimə, Həsən və Hüseyn (ə)) haqqında buyurmuşdur.

Bu hədis təfsir və hədis kitablarında müxtəlif şəkillərdə nəql edilmişdir. Biz onlardan yalnız bar neçəsinə işarə edəcəyik:

Əhməd ibn Hənbəl öz **"Müsnəd"**ində Ümmü-Sələmədən belə rəvayət etmişdir: **"Bir gün Peyğəmbər (s) mənim evimdə olarkən, xidmətçi gəlib ona dedi ki, Əli və Fatimə (ə) qapıda gözləyirlər. O həzrət mənə buyurdu: Qalx ayağa və mənim Əhli-Beytimdən kənarda dur. Mən də qalxdım və evin yaxın bir guşəsinə çəkildim. Sonra Əli, Fatimə və hələ xırda uşaqlar olan Həsən və Hüseyn otağa daxil oldular. Peyğəmbər (s) Həsən və Hüseyni qucağında oturdub öpdü, sonra bir qolunu Əlinin digərini isə Fatimənin boynuna saldı və üstlərini bir qara çadra ilə örtüb, belə dua etdi: İlahi, mən və Əhli-Beytim Sənə sarı üz tutmuşuq, cəhənnəmə sarı yox".** Ümmü-Sələmə dedi: **"Mən də ey Allahın Peyğəmbəri (s)".** Buyurdu: **"Sən də"**.

Vahid də **"Əsbabün-Nüzul"** kitabında Ümmü-Sələmdən bu şəkildə rəvayət etmişdir: **"Bir gün Peyğəmbər (s) mənim evimdə idi. Bu zaman Fatimə (ə) bir qab dolusu yeməklə Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) buyurdu: Get ərini və uşaqlarını da çağır. O, da Əli (ə) və övladları Həsən və Hüseyni çağırdı.**

Onlar birlikdə əyləşib, yeməyə başladılar. Peyğəmbər (s) yerdə əyləşmişdi və altında bir xeybər əbası var idi. Ümmü-Sələmə deyir ki, mən də otaqda idim. Gördüm ki, o Həzrət əbanı götürüb onların üstünə örtdü və belə dua etdi: Ey Allah! Bunlar mənim Əhli-Beytim və seçilmişlərimdir. Onları bütün pislik və çətinliklərdən uzaqlaşdır və pak-pakizə et. Ümmü-Sələmə deyir: Mən də başımı örtüyün altına daxil etdim və dedim, ey Allahın Peyğəmbəri! Mən də sizinlə birlikdəyəm? Peyğəmbər (s) buyurdu: Sən də xoşbəxt və səadətlisən. Amma Əhli-Beytdən deyilsən. Bu vaxt Allah-Təala tərəfindən "ət-Təthir" ayəsi nazil oldu".

MƏVƏDDƏT HƏDİSİ. Əhməd Təbərani və Hakim ibn Abbasdan rəvayət etmişlər ki, **"Qul la əsəlukum"** ayəsi Peyğəmbərə (s) nazil olan zaman müsəlmanlar dedilər: **"Ey Allahın Peyğəmbəri! Əqrəbalarından bizlər üçün, dostluq və məhəbbətləri vacib olanlar kimlərdir?"** O Həzrət cavab verdi: **"Onlar Əli, Fatimə və oğlanlarından ibarətdir".**

Bəzzaz və Təbərani nəql edirlər ki, İmam Həsən ibn Əli (ə) bir gün xütbə oxuyaraq belə buyurdu: **"Məni tanıyanlar tanıyır, tanımayanlar bilsinlər ki, mən Mühəmməd (Peyğəmbər (s)) oğlu Həsənəm. Bilin ki, mən sizləri Cənnətlə mükafatlandıran və Cəhənnəmlə qorxudan şəxsin balasıyam. Mən o Əhli-Beytin övladıyam ki, Allah onları sevməyi bütün müsəlmanlara vacib etmişdir və onların haqqında bu ayəni nazil etmişdir:**

"(Ey Peyğəmbər, müsəlmanlara) söylə ki, Mən sizlərdən (Çəkdiyim zəhmətlərin müqabilində) əqrəbalarımı sevməkdən başqa heç nə istəmirəm. Hər kim yaxşı əməl etsə, biz o əməlin yaxşılığını artırarıq".

Ayədə işarə olunan yaxşı əməldə məqsəd biz Əhli-Beytin məhəbbət və dostluğudur".

Əbülhəsən Bəğəvi öz təfsirində ibn Abbasdan belə rəvayət edir: **"Allah-Təala "Qul la əsəlukum" ayəsini nazil etdiyi zaman müsəlmanlar dedilər**: **"Ey Allahın Peyğəmbəri! Bu ayədə Allah tərəfindən bizlər üçün, dostluq və məhəbbətləri vacib olan şəxslər kimlərdir?"** Buyurdu: **"Onlar, Əli, Fatimə və iki oğlanları Həsən və Hüseyndir"**.

Səəd, ibn Malikdən, o da ibn Abbasdan nəql edərək deyir: **"Hər kim bir yaxşı əməl edərsə, biz də onun o əməlinin yaxşılığını artırarıq"**, ayəsindəki **"yaxşı əməl"**dən məqsəd Mühəmmədin (s) övladlarını - Əhli-Beyti sevməkdir.

Təbərani **"Möcəmul-Ovsət"** kitabında nəql etmişdir: **"Peyğəmbərin (s) ömrünün axır anlarında söylədiyi sözlər bunlar idi: Məndən sonra Əhli-Beytimə (hüquqlarına) riayət edin. Yəni Təbərani "Möcəmul-Ovsət" kitabında Cabir ibn Abdullah Ənsaridən, o da Peyğəmbərdən (s) belə nəql edir: "Ey insanlar! Hər kim biz Əhli-Beytlə düşmən ola, Allah-Təala qiyamət günü onu yəhudi şəklində məşhur edər. Müslim, Tirmizi və Nisai, Zeyd ibn Ərqəmdən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər: "(Ey müsəlmanlar!) Əhli-Beytimin haqqında (düşünərkən) Allahı yaddan çıxarmayın"**.

Xətib Bəğdadi öz tarixində Həzrət Əli (ə) vasitəsilə Peyğəmbərdən (s) belə rəvayət etmişdir: **"Mənim şəfaətim ümmətimdən o şəxslərə yetişəcək ki, Əhli-Beytimi sevirlər"**.

DİGƏR HƏDİSLƏR. Peyğəmbər (s) belə buyurmuşdur: **"Biz Əhli-Beyt ilə heç kəs müqayisə oluna bilməz"**. Göründüyü kimi bu şərəfli hədisdə Peyğəmbər (s) Əhli-beytinin ülvi məqamını və nəhayətsiz dərəcələrini göstərərək, ümməti onlara tərəf istiqamətləndirir. Həmçinin, ümmətlə onların arasında olan müqayisə olunmaz fərqləri açıqlayaraq onları insaniyyət, şərafət, ülviyyət və mədəniyyət xəzinələrinə doğru hərəkət etməyə təşviq edir.

Peyğəmbər başqa bir hədisdə Əhli-beytin haqqında bu şəkildə söhbət açır: **"Biz elə bir ailəyik ki, Allah bizim üçün axirəti, dünyadan (dünyada yaşamaqdan) yüksək bilmişdir. Mənim Əhli-Beytim məndən sonra müxtəlif ədalətsizlik və çətinliklərələ rastlaşacaq. Belə vəziyyət bu tərəfdən (şərq tərəfinə işarə edərək) qara bayraqlı insanlar gələnə qədər davam edəcək. Onlar həqiqəti tələb etdikləri halda, haqqı onlara verməzlər. Onlar həqiqət yolunda müharibə edib, zəfər qazanarlar. Sonra onlara istədiklərini verərlər, lakin onlar o (zəfər) bayrağı mənim Əhli-Beytimin bir nümayəndəsinə və yer üzünü bürüyən zülmü ədalətlə əvəz edən şəxsə çatdırmayanadək qəbul etməzlər. Hər kim o zaman həyatda olsa və (ayaq üstə durmağa imkanı**

olmazsa) üzü üstündə yol getməyə məcbur olsa da çalışsın, özünü o insanlara yetirsin".

Deyləmi Əbu-Səiddən belə nəql edir: **Peyğəmbər (s) buyurdu: "Hər kim mənim Əhli-Beytimlə (pis) rəftar etməklə məni narahat etsə, Allahın qəzəbi o adam üçün şiddətli olar"**.

Mövla Əli (ə) Peyğəmbərdən (s) belə rəvayət etmişdir: **"(Ey müsəlmanlar!) Üç keyfiyyəti övladlarınıza öyrədib, tərbiyələndirin; Peyğəmbərimizi (s) sevmək, Əhli-Beytini sevmək və Quran oxumaq. Şübhəsiz, Quran daşıyanlar (onu öyrənib əməl edənlər) qiyamət günündə heç bir kölgə olmayan zaman, Allahın sayəsində kölgələnərlər. (Onlar) Allahın Peyğəmbərləri və digər seçilmiş bəndələrilə birlikdə, məşhur olar"**.

Təbərani ibni Abbasdan, o da Peyğəmbərdən (s) belə rəvayət edir: **"(Qiyamət günü) bütün bəndələrə bu dörd sualı verməmiş qoymazlar bir addım irəliləsinlər. Ömrünü hansı şeylərdə fənaya verdiyindən, bədənini nələrdə qocaltdığından, mal-dövləti harada qazanıb, harada məsrəf etdiyindən və biz Əhli-Beytin məhəbbət və dostluğundan"**.

Başqa bir hədisdə Peyğəmbər (s) ümmətini Əhli-beytə tərəf sövq etdirərək, onların elmi, bilik dərəcələrini müsəlmanlara göstərir, yollarını itirdikləri və fitnələrə qapıldıqları zaman onları müraciət etməyə rəğbətləndirir. Quranın kamil alimləri və onun dərin mənalarına mükəmməl bələdçilər onlardır deyir Həzrəti Peyğəmbər.

Təbərani Mütəllib ibn Abdullah Həntəbədən, o da babasından belə nəql edir: **"Bir gün Peyğəmbər (s) "Cöhfə" məntəqəsində xütbə oxuyaraq buyurdu: "(Ey müsəlmanlar!) Mən sizə özünüzdən yaxın deyiləmmi? (Sizin ixtiyar sahibiniz deyiləmmi?)". Dedilər: "Bəli, ey Allahın Peyğəmbəri! Sən bizə özümüzdən yaxınsan". Sonra buyurdu: "Bilməlisiniz ki, (qiyamət günü) mən iki şeyin haqqında sizdən mütləq soruşacağam. O iki şeyin biri Quran, digəri isə Əhli-Beytimdir"**.

Xülasə Əhli-Beyti sevmək, onlara itaət etmək və yollarından çıxmamaq haqqında nəql olunan hədislərin hamısını bu kitabda yazmaq mümkün deyildir. Biz onların bəzilərini seçib, siz oxuculara təqdim etdik.

MÜSƏLMANLARIN QARDAŞLIĞI

Bu gün biz müsəlmanların birliyə, qardaşlığa daha çox ehtiyacı var. Müqəddəs dinimiz bəşəriyyəti zülm və sitəmlərdən xilas etmək üçün bütün insanları birliyə dəvət edir. Haqqı əldə etmək üçün biz insanlar ən azı sağlam vicdan ətrafında birləşməliyik. Qurani-Kərimdə buyurulur: ***"Yapışın Allah ipindən və heç vaxt dağılmayın. Allahın sizə bəxş etdiyi nemətləri yada salın. Bir-birinizlə düşmən olduğunuz zaman, Allah sizin qəlblərinizi birləşdirdi və Onun neməti ilə bir-birinizə qardaş oldunuz. Sanki, atəş dolu bir dərəyə tökülməkdə idiniz, lakin, Allah sizi ondan xilas etdi…"*** *Surə və ayə.*

Hər hansı bir müsəlman bizləri mübahisəyə, qarşıdurmaya səsləyirsə, çəkinmədən deyə bilərik ki, bu şəxsin İslam dini haqqında qətiyyən anlayışı yoxdur. Biz müqəddəs Quruni-Kərimə baxsaq görərik ki, vəhdət və qardaşlıq prinsipi ilə yaşamaq bəlkə də bizim vacib ibadətlərimizdən daha zəruridir. Qurani-Kərim zülmə, cəhalətə son qoymaq üçün hətta xristian və yəhudiləri təkallahlığa etiqad bəsləyən bir din kimi birliyə dəvət edir:

"De ki, ey kitab əhli (xristian və yəhudilər) gəlin sizinlə bizim aramızda müştərək olan kəlmənin ətrafında birləşək…" *Surə və ayə.*

Belə bir prinsip və şüarlar verən bir dinin nümyəindələrinin parçalanması, ardıcıllarının bir-birinə düşmən gözü ilə baxması sadəcə nadanlıqdan başqa bir şey deyil.

Yuxarıda qeyd etdiyimiz kimi, bu gün bizim dini qardaşlığa həmişəkindən daha çox ehtiyacımız var. Bu gün dinimiz özünün ən çətin və ən ağır günlərindən birini yaşayır. Tarix boyu sərvətlərimizə, namusumuza göz dikmiş missionerlər dişlərini həmişəkindən daha artıq itiləyərək boşluqlardan sui-istifadə edib üzərimizə gəlməkdədirlər. Bir zamanlar xristian dininin tarixi düşməni olan yəhudilər bu gün onların necə də səmimi dostuna çevriliblər. Müqəddəs Məryəmə (ə) zinakar, Həzrət İsaya (ə) isə zinazadə deyən yəhudilər barəsində Roma Papası rəsmi şəkildə belə bir bəyanat verdi: **"Yəhudilər biz xristianların tarixi dostudurlar. Onlar İsa Məsihin dar ağacına çəkilməsində iştirak etməyiblər".**

Müsəlmanları özlərinə qul etmək istəyən küfrün qarşısında əl-ələ verib qardaş olmaqdan başqa çarəmiz yoxdur. Burada Livan müsəlmanlarından olan görkəmli mütəfəkkir Seyyid Şərəfüddinin zamanında Misirin **"əl-Əzhər"** Universitetində söylədiyi bir kəlamı xatırlatmaq yerinə düşərdi: **"Müsəlmanları siyasət parçalamışdır. Bu gün də onları siyasət birləşdirməlidir".**

Bu gün Hənəfi, Şafei, Hənbəli, Maliki və Cəfəri məzhəblərinin arasında düşmənçilik həddinə gətirəcək heç bir fərq yoxdur. Bütün müsəlmanlar **"Allahdan başqa məbud yoxdur, Mühəmməd (s) Onun rəsuludur"** deyə bir-biriləri üçün doğma qardaşa çevrilirlər. Hamımız əziz Peyğəmbərimiz və onun Əhli-beytinin sevgisi ilə yaşayırıq. Əhli-Beyt sevgisini tərənnüm edən şer və mədhlər qoşan Əhli-sünnə qardaşlarımız heç də şiələrdən geri qalmırlar. Burada Şafei məzhəbinin rəhbəri İmam Şafeinin Əhli-beyt haqqında söylədiyi bir şerin tərcüməsini təqdim edirik: **"Əlinin (ə), Fatimənin (ə), Həsən (ə) və Hüseynin (ə) barəsində söz düşəndə bəzi nakəslər başqa şeylər danışmağa cəhd göstərirlər. Onlar bu tərifi deyənlərə "rafizi", yəni dindən çıxmış deyirlər. Allaha pənah aparıram bu insanlardan! Onlar bilmirlər ki, mənim Allahım Əhli-beytə salavat göndərir. Lənət olsun, min lənət olsun belə nadanlığa…"!**

الشّافعي

إذا في مجلس نذكر عليا — و سبطيه و فاطمة الزكية
يقال تجاوزوا يا قوم هذا — فهذا من حديث الرافضية
برءت إلى المهيمن من اناس — يرون الرفض حب الفاطمية

Şafei

Əli, Fatimədən düşəndə söhbət,
Pak övladlarına edərkən rəğbət.
Söylərlər ki, onlar rafizidirlər,
Boş-boş bu söhbətlə etməyin hünər.
Əhli-beytçün bunu deyən kəslərdən,
Pənah aparıram Yaradana mən.

İMAM ƏLİ (Ə) XƏLİFƏLƏRİN YEGANƏ MƏHKƏMƏ VƏ FİKİR MƏNBƏYİ İDİ

İmamın (ə) xanənişin dövründəki xidmətlərindən biri də İslamın yenicə bünövrəsi qoyulan məhkəmə sisteminə rəhbərlik etməsi idi. İnsanlar qarşıya çıxan problemlərin həllindən ötrü Həzrət Əliyə (ə) müraciət edir və onun həlli yollarının araşdırılmasını istəyirdilər. O, həzrət özünün möcüzəli və qəti qəzavətləri ilə Peyğəmbər (s) səhabəsinin zehnlərində təəccüb dalğası yaradırdı.

Təsadüfi deyildi ki, Həzrəti Peyğəmbər onun haqqında, "Əğzakum Əli" sizin Ən yaxşı Qaziniz – hakiminiz Əlidir deyə buyurmuşdu. Biz bu kitabın "Qəzavat" bəhsində bu hədisin necə də haqq olamsının şahidi olacağıq…

İmamın (ə) şəni uca, ruhu böyük idi. O, bəziləri kimi fikirləşmirdi ki, əgər xilafəti ondan alsalar, daha məmləkətin heç bir işində müdaxilə etməsin. Nəticədə İslam cəmiyyətini hərc-mərclik bürüsün və xilafət aparatı süstlüyə düçar olub süqut etsin.

İslamın dünyada yayılıb möhkəmlənməsi, ümməti dinin təlimləri, üsul və fürusundan agah etmək, Mədinəyə gələn dəstə–dəstə Yəhudi və Nəsrani alimlərinin yanında İslamın əzəmətini hifz etmək kimi məsələlər İmamın (ə) mədd nəzərində idi. Nə qədər ki, yol o Həzrətin üzünə açıq idi və xilafət aparatı ona maneçilik törətmirdi, yol göstərməyi və rəhbərliyi əsirgəmirdi. İmam (ə) Malik Əştərin vasitəsilə Misir camaatına göndərdiyi məktubda bu həqiqəti açıb göstərmiş və özünün xəlifələrlə həmkarlıq etməsinin səbəbini belə bəyan etmişdir: **"Mən əvvəldə əl saxladım (və onları özlərinə tapşırdım), nəhayət gördüm ki, bəziləri İslamdan dönərək camaatı Mühəmmədin (s) dinini məhv etməyə dəvət edirlər. Qorxdum ki, əgər İslamın və müsəlmanların köməyinə çatmasam, İslamda elə bir itki, yaxud viranlıq görəcəyəm ki, onun müsibəti mənim üçün ilğım kimi zail olan bir neçə günlük hökumətdən uzaq olmaqdan daha böyükdür".**

İSLAMDA İMAN GƏTİRƏN İLK ŞƏXS

Bütün tarixi sənədlərdə Həzrət Peyğəmbərə (s) ilk iman gətirən şəxsin Əli ibn Əbu Talib (ə) olduğu göstərilir. İmam Əli hələ on yaşında olarkən Həzrət Mühəmməd (s) ömrünün 40-cı ilində nübüvvətə – Peyğəmbərliyə yetişdi. Bu zaman onu dinləyib əlini tutub ilk biət eləyən, **"La ilahə illəllah Mühəmmədun rəsulullah"** deyən məhz Həzrət Əli (ə) oldu.

Bu dövr on üç ildən artıq olmamışdır. Məhz Əli (ə) bütün bu müddət ərzində Peyğəmbərin (s) yanında olmuş, müəyyən vəzifələri öhdəsinə götürmüş və icra etmişdir.

Bu dövrün həssas və maraqlı məsələləri gənc Əliyə (ə) nəsib olmuş və bir çox iftixarlarla yaddaşlarda qalmışdır. Hansı ki, bu iftixarlar tarix boyu Əlidən (ə) başqasına nəsib olmamış və heç kəs onları yaşamamışdır.

Onun ilk iftixarı İslamı qəbul etməkdə qabaqcıl olması, daha dəqiq desək, qəbul etmiş çoxdankı müsəlmanlığını aşkar etməsidir.

Bəli, anası Fatimənin doğum günləri yaxınlaşdı. O zamanlar özlərində çətinlik hiss edən adamlar Kəbəyə gəlir, oranı təvaf edir və Kəbənin Allahından köməklik istəyirdilər. Fatimə də bu məqsədlə Kəbəyə yaxınlaşdı və doğumunun asan olmasını Allahdan arzu elədi. Elə bu zaman Kəbənin divarı yarıldı, sanki bir qüvvə Fatiməni o müqəddəs məkanın daxilinə çəkdi. Bir müddətdən sonra o müqəddəs məkanda Əli (ə) şəxsiyyəti dünyaya gəldi. Qeyd edək ki, dünya tarixində nə Əlidən əvvəl, nə də sonra belə bir iftixar heç kəsə nəsib olmayıb. Hətta Beytül-müqəddəsdə Məryəmə hamilələk güc gələndə onu oradan xaric etdilər və o, İsa peyğəmbəri (ə) səhrada – xurma ağacının altında dünyaya gətirdi...

Bəli, Bəni-haşim hamilə qadının itməsindən nigaran idi. Hamı ayğa qalxmışdı. Bu zaman Kəbə tərəfdən Fatimənin qucağında körpə uşaqla gəlməsi hamını heyrətə saldı. Fatimə vəziyyəti olduğu kimi söhbət edəndə artıq məsələ aydınlaşdı və bildilər ki, bu, Allah-Təala tərəfindən olan bir iftixarlı möcüzədir. Hamı körpəni alıb baxır, təəssüf edirdilər ki, heyf ola bu uşağın gözləri kordur. Bu zaman Həzrət Mühəmməd (s) onlara yaxınlaşıb **"verin mənim qardaşımı, qucağıma"** deyib uşağı alıb və onu özünə yaxınlaşdırıb öpmək istədi. Özünü Peyğəmbər (s) qucağında hiss edən Əli ilk dəfə

gözlərini onun mübarək çöhrəsinə açdı və sanki bununla onun Peyğəmbərliyini təsdiq etdi.

Tarixi sənədlərə görə, hələ Fatimə bu uşağa hamilə olarkən həmişə Peyğəmbər (s) otağa daxil olanda ehtiram edib ayağa qalxardı. Dəfələrlə ömür-gün yoldaşı Əbu Talib ona etiraz etmişdir ki, **"sən bu ağır vəziyyətdə heç kim üçün ayağa durmursan, amma yaşca özündən kiçik Mühəmməd üçün ayağa qalxırsan".** Fatimə etiraf edib deyərdi; bu məndən asılı deyil, Mühəmməd içəri girəndə sanki bətnimdə olan bu uşaq, mənə təkan verib ayağa qaldırır. Bu və bunun timsalında olan qayibanə ehtiramlar Əlinin Peyğəmbərə (s) olan sonsuz məhəbbəti və əvvəlcədən iman gətirməsi idi…

İslamı qəbul etməkdə və tövhid ayininə iman gətirməkdə qabaqcıl olmaq Quranın istinad etdiyi işlərdəndir. Quran aşkar şəkildə elan edir ki, İslamı qəbul etməkdə qabaqcıl olan şəxslər Allah-Təalanın razılığını əldə etməkdə və İlahi rəhmətə nail olmaqda da qabaqcıldırlar. Qurani-Kərimdə buyurulur:

"Və bir də öndə olanlar, öndə olanlar! (Cənnətin ən yüksək təbəqələri onlara məxsusdur. Mühacirlər və ənsar bu zümrəyə daxildir. Onlar necə də xoşbəxtdirlər!)"

"Bunlar (Allah dərgahına, Allahın lütfünə və mərhəmətinə) yaxın olanlardır." (**"Əl-Vaqiə"** surəsi, 10-11-ci ayələr).

Qurani-Kərim **"İslamı qəbul etməkdə qabaqcıl olmaq"** mövzusuna o qədər diqqət yetirmişdir ki, hətta Məkkənin fəthindən əvvəl iman gətirib Allah yolunda öz mal və canlarından keçənləri, Məkkəlilərə qələbə çaldıqdan sonra iman gətirib cihad edənlərdən üstün tutmuşdur. Müqəddəs kitabda buyurulur:

"Göylərdə və yerdə nə varsa, (hamısı) Allahı təqdis edib şəninə təriflər deməkdədir. O, yenilməz qüvvət, hikmət sahibidir." (**"Əl-Hədid"** surəsi, 1-ci ayə).

O ki, qaldı İslamın ilk çağlarındakı müsəlmanlara və Mədinəyə mühacirət etməzdən əvvəl İslamı qəbul edənlərə onlara daha artıq üstünlük verilir.

Qeyd: Məkkənin fəthi, hicrətin səkkizinci ilində olmuşdur. İslam Peyğəmbəri (s) bəsətdən on səkkiz il sonra bütpərəstlərin möhkəm qoruduğu qalanı sındırmış, bütləri yerə çırparaq məhv etməklə İslamı açıq şəkildə elan etməyə nail olmuşdur. Məkkənin fəthindən əvvəl iman gətirənlərin imanlarına üstünlük verilməsinin səbəbi də elə

budur ki, onlar bütpərəstliyin Ərəbistan yarımadasında cəmiyyətə hakim kəsildiyi bir dövrdə canlarından və mallarından keçərək heç bir təhlükə və hədələri gözə almadan iman gətirmişdilər. Baxmayaraq ki, müsəlmanlar Peyğəmbərin (s) Məkkədən Mədinəyə mühacirət etməsi və Ovs-Xəzrəc qəbilələrinin, həmçinin Mədinə ətrafındakı qəbilələrin İslamı qəbul etmələri nəticəsində nisbi qüdrət əldə edərək, hərbi əməliyyatların çoxunda qələbə çalırdılar, amma hələ də təhlükə bütövlükdə aradan qaldırılmamışdı.

Belə bir çətin şəraitdə İslamı qəbul etməyi canlarından əziz tutan şəxslər əlbəttə, daxili əqidələrinə inanır və əgər öldürülsəydilər belə, şəhid olub əbədiyyətə qovuşacaqlarına əsla şübhə etmirdilər. Onlar daha yaxşı bilirdilər ki, İslama üz çevirmək daha artıq və daha yüksək dəyərə malik olmaq deməkdir. Bu səbəbdən Məkkədə və Peyğəmbərin (s) dostları arasında İslamı qəbul etməkdə qabaqcıl olmaq heç bir fəzilətlə müqayisə oluna bilməyən iftixarlardan hesab olunurdu.

Xəlifə Ömər (r) öz xilafət günlərindən birində İslamın ilk çağlarında işgəncə altında olmuş – Xəbbabdan soruşdu ki, Məkkə müşriklərinin sənin lə rəftarı necə olmuşdu. O, öz köynəyini bədənindən çıxarıb kürəyindəki yanıqları və işgəncə izlərini xəlifəyə göstərərək dedi ki, dəfələrlə ona dəmir zirehdən paltar geyindirib saatlarla Məkkənin qızmar günəşin altında saxlayırdılar, bəzi vaxtlarda od qalayıb onu odun üstündə sürüyürdülər. (**"Usudül-Ğabə"** 2-ci cild, səh. 99).

Bəli, doğrudan da böyük fəzilət və mənəvi üstünlük, İslam yolunda hər cür əziyyət, işgəncələri canla-başla və səmimi qəlbdən qəbul edən şəxslərə məxsusdur.

Tarixi sənədlərə və hədis elminə istinad etsək, Peyğəmbərin (s) besətə yetişməyi (peyğəmbərliyə) bazar ertəsi günü olmuşdur. O günün sabahı da Həzrət Əli (ə) ona iman gətirmişdir. (**"Müstədrəki-Hakim"**, 2-ci cild səh. 112; **"Əl-İstiab"**, 2-ci cild səh. 32).

Hətta Həzrət Peyğəmbər (s) özü hamıdan əvvəl İslamı qəbul edən şəxsin Əli (ə) olmasını aşkar şəkildə elan edib səhabələrin ümumi yığıncağında belə buyurdu: **"Qiyamət günü (kövsər) hovuzunda mənimlə görüşəcək ilk şəxs İslamı qəbul etməkdə ən qabaqcıl olanınız – Əli ibn Əbu Talibdir".** (**"Müstədrəki-Hakim"**, 2-ci cild, səh. 136).

Mövla Əlinin (ə) İslamı başqalarından əvvəl qəbul etməsi ilə bağlı Həzrət Peyğəmbərdən (s) bizə gəlib çatan rəvayət və hədislər,

həmçinin tarixçi hədisçilərin rəyləri o qədər çoxdur ki, bütün deyilənləri bu kitabda cəm etmək qeyri–mümkündür. Mərhum Əllamə Əmini İslam tarixçiləri və hədisçilərinin Əlinin (ə) Peyğəmbərə (s) iman gətirməkdə birinci olması haqqındakı hədislərinin mətnini **"Əl-Ğədir"** kitabının 3-cü cildinin 191-213-cü səhifələrində qeyd etmişdir. Biz burada İmamın öz sözlərini və bir tarixi dastanı qeyd etməklə kifayətlənirik.

Mövla Əli (ə) buyurur: **"Mən Allahın bəndəsi, Peyğəmbərin qardaşı və "Siddiqi-Əkbər"əm. Məndən sonra bu sözü yalançı və iftiraçıdan başqa bir kəs deməz, mən Rəsulullah ilə yeddi il camaatdan əvvəl, namaz qılmışam və onunla namaz qılan ilk şəxsəm".**

Mövla Əli (ə) öz fikrini başqa bir yerdə belə ifadə edir: **"O günlər İslam, Peyğəmbərin (s) və Xədicənin evindən başqa bir yerə yol tapmamışdı və mən də bu ailənin üçüncü şəxsi idim".** (**"Nəchül – Bəlağə"**, (Əbdüh) 187-ci xütbə).

Başqa bir yerdə isə İmam İslamı qəbul etməkdə qabaqcıl olmasını belə bəyan edir: **"İlahi, mən Sənə tərəf gələn, Sənin peymanını eşidib Sənin Peyğəmbərinin (s) dəvətini qəbul edən ilk şəxsəm və məndən qabaq İslam Peyğəmbərindən (s) başqa, heç kim namaz qılmırdı…"**

İslam tarixçilərindən biri Mühəmməd ibn Cərir Təbəri **"Tarixi–Təbəri"** kitabında bu tarixi fəzilətləri etibarlı sənədlərlə qeyd etmişdir. Hansı ki, bütün bunlar aşağıdakı mənbələrdə nəql olunub: **"Tarixi – Təbəri"**, 2-ci cild, səh. 216; **"Təfsiri-Təbəri"**, 19-cu cild, səh. 74; Kamili ibn Kəsir, 2-ci cild, səh. 24; Qazi Əyaz, **"Şərhi Şəfa",** 3-cü cild, səh. 37; **"Siyreyi-Hələbi"**, 1-ci cild, səh. 321 və s.

Təbəri yazır: **"Aşkardır ki, "vəsiyyi" və "xəlifəti" kimi iki mühüm kəlmənin ixtisara salınması və onların yerinə şübhəli və aydın olmayan sözlərin (yəni "kəza" və "kəza" sözlərinin) deyilməsi təəssübkeşlikdən, xəlifələrin mövqeyini və məqamını qoruyub saxlamaqdan başqa bir şey olmamışdır."** (**"Təfsiri-Təbəri"**, 10-cu cild, səh. 74).

MÖVLA ƏLİNİN (Ə) ELM VƏ HİKMƏTİ

Həzrət Peyğəmbərdən (s) sonra ikinci şəxsiyyət olan Əli ibn Əbu Talib (ə) sözün əsl mənasında İslam mücahidlərinin fövqündə dayanan Allah-Təalanın saleh bəndəsi (əbdühsaleh) və möminlərin ağasıdır. Həzrət Peyğəmbərimiz (s) bütün anlarda ona ehtiram etmiş və onu bütün gözəlliklərin mücəssəməsi kimi tanıtmışdır. Rəsulullah (s) çox zaman Mövla Əlidən (ə) söhbət edəndə, onu özündən əvvəlki mürsəl peyğəmbərlərlə bərabər tutar bəzən və müqayisə edərdi.

Allah-Təala Həzrət Xızır (ə) haqqında buyurur: ***"Biz ona lədunni elmi (tərəfimizdən qeybi bir elm) öyrətdik."*** (**"əl-Kəhf"** surəsi, 65-ci ayə)

Digər bir ayədə isə buyurulur: ***"Allah qeybi biləndir. Qeybini heç kəsə əyan etməz. Ancaq bəyənib seçdiyi elçilərdən başqa."*** (**"Ali-İmran"** surəsi, 179-cu ayə)

Bu ayələri əsas tutaraq Həzrət Mühəmməd (s) peyğəmbərlərin əşrəfi və Allaha ən yaxın şəxs olduğuna görə İlahi tərəfindən ona da qeybi-elm verilmişdir. Qurani-Kərimdə buyurulur:

"Onu (Müəhəmməd əleyhissəlama) çox qüvvətli olan (Cəbrail) öyrətdi". (**"ən-Nəcm"** surəsi, 5-ci ayə)

Buna görə də Rəsulullah (s) hər kəsdən daha çox kainat (varlıq) sirlərini bilirdi. Mövla Əli (ə) də elmini Rəsulullahdan (s) almışdır. Çünki Həzrət Əli (ə) Peyğəmbərin elm qapısı idi. Şiə və Əhli-sünnə mənbələrinə görə, Rəsulullah (s) belə buyurmuşdur: **"Mən elmin şəhəriyəm, Əli onun qapısıdır, elm istəyən o qapıya gəlsin".** Yenə belə buyurduğu nəql edilir: **"Mən hikmət eviyəm, Əli onun qapısıdır".**

Mövla Əlinin (ə) özü isə belə buyurmuşdur: **"Peyğəmbər (s) elmdən min qapı üzümə açdı ki, hər qapıdan da min qapı açılırdı".**

Şeyx Süleyman Bəlxi **"Yənabiul Məvəddə"** kitabında (cild 3, səh- 434). Mövla Əlidən (ə) belə nəql edir: **"Qeyb sirlərini məndən soruşun, çünki mən peyğəmbər və elçilərin elminin varisiyəm."**

Peyğəmbər (s) belə buyurmuşdur: **"Elm və hikmət 10 qismə bölünmüş, onun doqquz qismi Əliyə (ə), bir qismi isə digər**

insanlara verilmişdir. Əli (ə) o bir qismdə də xalqın ən biliklisidir".

Tanınmış Əhli-sünnə alimlərindən olan İbn Əbil Hədid **"Nəhcül-Bəlağə"**nin şərhində belə yazmışdır: **"Bütün İslami elmlər Həzrət Əlidən (ə) qaynaqlanmışdır. O İslam maarifini öz danışıqlarında ən gözəl şəkildə anlada bilmişdir".**

Mövla Əli (ə) dəfələrlə açıq şəkildə buyurmuşdur: **"Məni itirmədən qabaq, məndən soruşun".** Əhli-sünnə və şiə alimləri Mövla Əlinin (ə) belə buyurduğunu çoxsaylı hədislərlə nəql etmişlər: **"Məni itirmədən istədiyiniz şeyi məndən soruşun. Allaha and olsun ki, əgər fətva kürsüsündə otursam, Tövrat əhli arasında Tövratla, İncil əhli arasında İncil ilə, Zəbur əhli arasında Zəbur ilə, Quran əhli arasında Quranla hökm verərəm. Belə ki, əgər Allah-Təala o kitabları danışdırmış olarsa: - "Əli doğru danışdı, bizdə nazil olan hökmə görə fətva verdi" - deyərdilər".**

Mövla Əli (ə) bütün elm və bilgisi ilə cahillər arasında qalmışdı. Yaxın səhabələrdən başqa heç kəs onun elmindən faydalanmırdı. Mövla Əli (ə) qəlbində olan sirlərini kiməsə anlatmaq üçün həmişə kamil bir insan axtarırdı. O öz sinəsinə işarə edərək belə buyurardı: **"Burada dəniz kimi ləpələnən bir elm var. Lakin kimsə anlamır…"**

Mövla Əlinin (ə) xilafəti dövründə yunan və yəhudi filosofları onun yanına gəldilər. Bir az söhbət etdikdən sonra çölə çıxdılar. Yunanlı filosof belə dedi: **"Fəlsəfəni Sokrat və Aristoteldən daha yaxşı bilir".** Yəhudi filosof isə **"bütün elmləri bilir"**,-deyə söylədi.

Mövla Əli (ə) bir çox alim və ariflər tərbiyə etmişdir. Bunların sırasında Abdulla ibn Abbas, Üveys Qərəni, Kumeyl ibn Ziyad, Məysəm ibn Təmmar, Rəşid ibn Hücri kimi zahid və mərifət sahibləri var idi.

Mövla Əlinin (ə) hər hansı bir yerdə (bazarda, döyüşdə, məclislərdə və s.) ona verilən sualları dərhal cavablandırması hamının təəccübünə səbəb olurdu. Bir gün Xəlifə Ömər (r) dedi: **"Ya Əli məni təəccübləndirən bütün elmləri bilməyin deyil, hər şeyə dərhal cavab verməyindir".**

Mövla Əli (ə) cavabında əlini göstərərək buyurdu: **"Əlimdə neçə barmaq var?"**

Xəlifə Ömər (r) **“beş barmaq var”**,- deyə cavab verdi.

Mövla Əli (ə): **“Bəs nə üçün dərhal cavab verdin?”** Xəlifə Ömər (r) dedi: **“Bu adi şeydir və fikirləşməyə ehtiyac yoxdur”.**

Mövla Əli (ə) buyurdu: **“Bütün məsələlər də mənim yanımda beş barmağım kimi aydındır”.**

Mövla Əlinin (ə) hikmət, tövhid, qeyb aləmi və digər elmi məsələlər haqqında buyurduqlarını **“Nəhcül-Bəlağə”** əsərində açıq-aydın oxuya bilərsiniz.

İbn Abbas nəql edir ki, Həzrət Peyğəmbər (s) həmişə buyurardı: **"Əli (ə) mənim ümmətimin ən biliklisi və hökm verməkdə hamıdan üstündür".** Başqa yerdə buyurur: **"Mən elm şəhəriyəm, Əli (ə) o şəhərin qapısı yerindədir. Hər kim elm axtarırsa, gərəkdir Əlidən öyrənsin".**

Rəvayət İbn Məsuddandır. O deyir: **“Mən orada idim. Peyğəmbər (s) Əlini (ə) tələb edib yanına çağırdı. Onunla xəlvətdə söhbət etdi. Qayıdanda ona nə dediyini soruşdum”. Əli (ə) buyurdu: “Peyğəmbər mənə min elmin min qapısını açdı. Bu qapıların hər birindən də min qapı açdı."** (**“İrşadi-Mufid”**, səh. 57-58)

Burada Seyid Əzim Şirvaninin bir qəsidəsi yerinə düşər:

Cənab Əmir əl-möminin rözeyi pakinə bir napak məlun Paşa ədəbsizlik etdiyinə görə cənabi Seyfulla iki əngüşt xeybərgüşa ilə belindən vurub Cəhənnəmə vasil elədiyini mərğum edir.

Yetişdi güşunə ilhami ğeyb böhcətlə,
Ki ey keçən cahan içrə ömrü qəflətlə.

Məgər eşitməmisən möcizi-şəhi-dini,
Nədəndümi degüsən şad bu bəşarətlə.

Ki sal min iki yüz səksən üçdə bir Paşa,
Vürud edib Nəcəfü-əşrəfə hökumətlə.

Gəlibdü təncə onun cümlə xəlqü zülmündən,
Edibdü onları azürdədil əziyyətlə.

Gəlib məzarinə o sərvərü fələk ğədrün,
Ayaqda çəkmə, belində qılınc fəxarətlə.

Deyil bu rozəyi pürətr Kəbədən kəmtər,
Çıxart bu çəkməni qoy tiri gir ləyaqətlə.

Bu barigahidə sərdarilər, sələtinlər,
Sorur ğübarə yüz ixlasla, məzəllətlə.

Bu töfigahidə seyran edər mələiklər,
Qulamidü buna kürrubiyan sədaqətlə.

Bu sərzəminidü qəbir Həzrəti Adəm,
Məzari Nuhi-nəbi bundadır rəvayətlə.

Bu asitanədə həm müstəcəb olur dəavat,
Bu yerdə asi olur naci bir ziyarətlə.

Budur xəlifəyi-rəhman, budur imami ənam,
Ki aləm əhli buna göz dikib iradətlə.

Budur bu vodiyi əğdəst ki gəldi Musayə,
Nidayə fəxlə nəleykə sot izzətlə.

Deyir tamam ona xüddamələr ey sərvər,
Bu rozə içrə sağın, girmə bu qəbahətlə.

Bu giftugulə ona hər gecə etməyib təsir,
Bu əmridən daha ğeyz eyləyib küdurətlə.

Ki mən həmişə sələtinlər hüzurunda,
Qılıncla, çəkməylə olmuşam məhabətlə.

Əbəs fəsanədü bu söz deyib qoyanda qədəm,
O səhn pakə o zalım kəmali cürətlə.

Ki nagahın ucalıb qəbridən iki əngüşt,
Çalıb belindən o napaki şəsti qüvvətlə.

Fəda o barmağa kim zülfüqari-bürran tək,
Edibdü nim o məluni bir işarətlə.

Tökülməyib hərəmi pakinə onun qani,
Çəkiblə dişrəyə cari olub kəsafətlə.

Bu möcizi eşidib şad olur dili mömin,
O kəs ki, münkirdir rəşg edür bəxarətlə.

Ola bu möcizə münkir yəqinidür kafir,
Mübəddəl eyliyər imanini zəlalətlə.

Bu noi möcizi görməz imamə rəva,
Nə bəhsidir bu qılır rütbəyi imamətlə,

Bu əl o əl degümi babbi xeybəri qoparıb,
Həava üzündə tutub saxladı rəşadətlə.

Bu əl o əl degümi əmr ibn Əbdüvədi,
Cəhimə vasil edib bayədi şücaətlə.

Bu əl o əl degümi Mərhəbi qılıb yeksan,
Qubari tirəyə bir cangüzar zərbətlə.

Bu əl o əl degümi mərrət ibn Qeysi bölüb,
Nədür bu əmridən bəhs eyləmək cəhalətlə.

İmamidən dirilikdə hər iş zühura gəlir,
Vəfati olsa da ol iş olur o halətlə.

Neçünki yoxdur əzizim imam üçün ölmək,
İmamın ölməyini sanmayın şəhadətlə.

Olan bu möcizə mümkir imamə münkirdir,
Gəlib qiyamətə məşhur əhli-bidətlə.

Bular nə rütbədir ol padşahi kuyinə,
Tanı Əlini baxıb dideyi-bəsarətlə.

Degülmi dürr bu o soltan kim şəbü merac,
Təkəllum eylədi ol xatəmi risalətlə.

Degülmidür bu o sərvər ki, gəştiyi Nuhi,
Qurtardı qərqəyi tufanidən inayətlə.

Degülmidür ki, bu mövla ki od Pəmrudi,
Xəlilinə eylədi gülüzar şəfqətlə.

Budur o hakimi zişən ki, dönər abə,
Əgər ki, kurəyi narə baxar siyasətlə.

Budur Əli Vəliyullah şiri-Həzrəti Həqq,
Budur yədullah məqsud nəssi ayətlə.

Əli deyilmi edən tinəti-əbül bəşəri,
Zəman xəlqidə icad dəsti-qüdrətlə.

Deyül xuda vəli ondan südur olan işlər,
Degül bəşərdə olan qüdrətu bizaətlə.

Dəxilüdür bu şahın aşiyaninə Seyyid,
Ki qurtarar onu məhşər günü şəfaətlə.

Yüzü qara əli boş asiyu günahkaram,
Cəza günündə məni qoyma bu xəcalətlə.

MÖVLA ƏLİ (Ə) VƏ ALLAHTANIMA

Mövla Əlinin (ə) vücudu Allah-Təala eşqi ilə dolu olmaqla bütövlükdə tövhid məzhərinə, Allahı tanımaq istəyinə maraq və yüksək əlaqə ilə əhatə olunmuşdur. Xilqətin gözəlliklərinin cazibəsinə və yaradılmış qəribəliklərinə heyran və aşiq olan bu vücud hər səhər bu bənzərsiz cazibənin təsirilə qəlbimizi heyrət və həyacanla çırpındırır, hər qürub vaxtı bu Allah eşqi yolunda damcı-damcı tökülən şəhid qanı ilə al rəngə boyanmış şəfəqlər görünür. Qan tökülüb getsə də, lakin bu qan bir coşqunluq yaradır və Allah eşqinin yolunda düşmən bostanını dağıdıb məhv edir.

Mövla Əlinin (ə) əbədiyyət qazanmış **"Nəhcül-Bəlağə"** əsərində yeganə Yaradan olan Xaliqin–Allah-Təalanın qovuşmasına və onun tanınmasının müxtəlif yolları öyrədilir. Burada elə üsullar və yollar verilir ki, dəlil və məntiq sahiblərinin ayağı hələ onların astanasına yetməmişdir.

Mövla Əli (ə) bəzən fəlsəfi, əqli mühakimə və mübahisələrdən tövhid və tanrışünaslıq məsələsinə baxır. Allah-Təalanın mütləq mücərrəd anlam olmasını söyləməklə sifət və zat arasında hər sayaq təzadı, onların bir-birindən ayırd edilməsini rədd və inkar edir, Mövla Əli (ə) Allah-Təalanı hər sayaq birləşmə və ayrılmadan azad və uzaq bir anlam kimi təqdim edir. Öz xütbə, dua və dəyərli sözlərində bu həqiqətə bir daha dönə-dönə işarə edir.

"Nəhcül-Bəlağə"nin ilk xütbəsində buyurur: **"O (Allah) öz müqəddəs zatına dayanmış və söykənmişdir, kainatın düzüm və qurumu onun qüdrətli iradəsinə arxalanır".**

Bunun ardınca öz məbud və məhbubu haqqında belə deyir: **"Mən o kəsə sitayiş edirəm ki, Onu tərifləyənlərin və vəsf edənlərin pərəstişi, Onun kamalının tərifi üçün kifayət etmir, hətta bacardıqları qədər mübaliğə etsələr də, Onun vəsfini verməkdə aciz və gücsüz qalırlar, nə qədər çalışsalar da Onun şükrünün mindən birini yerinə yetirə bilmirlər. Onun kamal sifətlərinin hüdudu yoxdur ki, onların ölçü və hüdudunu anlaya biləsən. Ürəyə yatımlı adları o dərəcədə böyük və şöhrətlidir ki, geniş yayılmış ən ali sözlərin səthindən çox-çox dərindir".**

Dinin başlanğıcı Allahın tanınması və mərifətidir. Mərifətini kamalı və imanın tanınması isə Allah-Təalanın zatı əsasında gerçəkləşir. İmanı Allahın tək olması ilə, yəni Allah-Təalanı bənzərsiz anlamaqla və birliyinə şəhadət verməklə təkminləşdirmək olar.

Mövla Əlinin (ə) ilkin xutbəsində Allah-Təalaya tapınmaq və mərifət barəsində ən gözəl və dəqiq kəlamlar verilir: **"O elə bir vücuddur ki, ədəm (yoxluq) dünyası ilə keçmişin əlaqəsi yoxdur. Onun varlığı üçün başlanğıc yoxdur. O hər şeylə birlikdədir və hər şeydən uzaqdır. Necə ki, Günəşin kütləsi öz nüfuzedici işığı ilə kainatı nurlandırır, özü isə ondan fərsəxlərcə (km-lərlə) uzaqdadır. Varlıq və həyat karxanası istidir, lakin əbədiyyət gücü və iradəsi olmadan işıq və istilik ala bilmir. O, tənhadır, lakin bu tənhalıqdan qorxuya və dəhşətə düşmür. Kimsəsizdir, çünki onunla qonşu və həmxana olmağa qabil bir kəs yoxdur…"**

Başqa bir yerdə isə Allah-Təalanı belə tanıtdırır: **"Hamı Onu görmədən tanıyır, hansı dildə, hansı sözlərlə danışsalar da, Onun pak adını tanıyırlar. O tək Allahdır ki, başqalarının köməyi olmadan dünyanı yaratdı, bir kəslə və kimsələrlə məsləhətləşmədən müqəddəratını təyin etdi və imzaladı..."**

"Başlanğıcı olmayan əzəl səhər Onun bənzərsiz camalının işığı ilə işıqlandı və parladı. Həyat sərçeşməsini sonsuz qaranlıqdan çıxarıb dünya üzərinə yönəltdi".

"Bu fəza və hava, buludların nazik və qalın pərdələri, bu firuzəyi rəngli göy qübbəsi, bu günəş və ay, bu sabit və hərəkət edən ulduzlar, bütün bu əcayib və qəribə xilqətlər o böyük şah əsərlər Yaradanın məhsuludur ki, sənət qələmi ilə varlıq dünyasında belə bir naxışlar və bəzəklər vurmuşdur. Dağların göyə yüksələn zirvələri Onun üluhiyyət (Allahlıq) astanasına baş çəkən aydın dəlillərdir. Yer kürəsi bütün möhkəmliyi ilə yanaşı, Tanrı əzəmətinin düşüncələrindən titrəyir. Günəş və ay heyran, vurğun aşiqlər kimi onu axtarırlar, dünya ətrafına fırlanmaqda isə onların öz başlanğıcına qovuşmaq rəmzi olan kamal dərəcəsinə yetişməkdən başqa məqsədləri yoxdur".

"Tanrı intiqam alan və istintaq edəndir. Bu elə bir dərəcədir ki, ən kiçicik qəzəbi bir göz qırpımında külə döndərər".

"Heç bir əl Tanrının əlinə yetişməz və onunla bacarmaz. Lakin o biçarə zəlilə diqqət yetirin: bir damla sudan başını çıxarıb bir müddət zillət və əzabla keçirdi, bədəni bir qədər güclənəndə adam kimi özündə parlaqlıq gördü. Bu mərhələləri keçəndən sonra başına bir papaq qoydu ki, onun ətrafında gövhər kimi cəvahirat rəngində yetimlərin göz yaşından və kimsəsizlərin ürək qanından əldə edilən daş-qaş düzüldü. Belə bir papaq qoymaqla bu adam özünü böyük və qüdrətli padşah adlandırdı…"

"Sonra Allah-Təala diri, yumşaq, şirin və şor şeylərdən torpağı topladı. Onu su ilə elə şəkildə qarışdırdı ki, xalis gil əmələ gəldi. Onu rütubətli xəmir halına saldı və palçıq kimi yapışqanlı oldu. Sonra ondan elə bir surət düzəltdi ki, onun müxtəlif tərəfləri, əyriləri, bəndləri, birləşmə yerləri, üzvləri və oynaqları var idi. Bu tərkibi qurutdu və tərkib özünü tutdu, sonra onu bərkitdi, düz şəklə saldı və hazır gil halına düşdü (səlsal). Bu tərkib müəyyən vaxta və məlum bir möhlətə kimi belə qaldı. O zaman Öz ruhundan ona damızdırdı. Beləliklə, insan yarandı və düzəldi".

"Allah-Təala mələklərə əmr etdi ki, vədələrini yerinə yetirsinlər, vəsiyyət və əhdlərinə vəfa qılsınlar, yəni Adəmə səcdə üçün təslim olsunlar, onun kəraməti qarşısında baş əysinlər. Allah-Təala buyurdu: Hamınız birlikdə Adəmə səcdə edin. Hamı səcdə etdi, təkcə İblisdən başqa. O, burnunu dik tutdu, bədbəxtlik ona üstün gəldi, səlsalın xilqətini xar hesab etdi. Allah ona möhlət verdi ki, qəzəbinin gerçəkləşdirilməsi mütləq başa çatsın. Sınaq üçün tam həddə yetişdi, vədəsi bitdi. Ona dedi: Sənə müəyyən günə və məlum vaxta kimi möhlət verilir. Onda Tanrı Adəmi (ə) evdə yerləşdirdi, onun yaşayışını zənginləşdirdi, yerini asudə və rahat, əmin-amanlıq etdi, onu İblis və onun düşmənçiliyi ilə qorxutdu".

"O zaman rəzalət əlini çıxardı, pis div kimi adamlara hücum etdi. Birinin paltarını soyundurdu, başqasının papağını başından çıxartdı. Abad olan hər şeyi viran etdi, səliqə-səhmanı olan hər kəsi nizamsız hala saldı. Sonra ondan alçaq olan ləyaqətsiz

bir dəstənin məqbul hesab edilməyən kirdarlarını tərifləmələr və o qaniçən ifritəni rəhmətlə yad etdilər. O murdar yaltaqların tərifinə aldandı, öz ilkin çağını və son məqamını unutdu. Tanrını - o əzəmətli dəryanı yaddan çıxartdı, ilham məqamını pərdənin arxasına qoydu və heçnəsiz öldü."

"Pərvərdigarın qəzəbi birdən şölələndi, o sitəmkarın təkəbbür ətəyini tutdu, belə bir halda qabaqlar olduğu kimi, bir daha külü göyə sovruldu. Mehribanlıq halında qəzblənən Allah budur, qəzəb halında isə öz bəndələrinə olan məhbbət və rəhmət duyğularını əsirgəmir".

"Ey qüdrətli Xaliqin bəndələri! Belə bir qüdrətli, bilici və mehriban Pərvərdigarı unutmayın, onun ədalət göstərən və çanüzən qəzəbindən qafil olmayın!" (Tərcümə və şərhi Nəhcül-Bəlağə. Mahmud Hüseyni, səh. 35, 36, 37)

Dua, razi-niyaz, xütbə və yazışmadan sonra bir daha Allahı nəticə və məxluq yolundan, filosofların istilahı ilə desək, nəticə axtarmaq yolundan səbəbə doğru - yəni səbəb yolunu açmağa yönəldir. Bu yolda o Tanrının heyrət doğuran əlamət və izlərini göstərir. Adamları göylərin və yerin sirlərini, qəribəliklərini öyrənmək yolu ilə, mövcudatdan əlamət və izlərini göstərir. Adamları göylərin və yerin sirlərini, qəribəliklərini öyrənmək yolu ilə mövcudatın yaranışına diqqət yetirmək yolu ilə (məsələn, qarışqa, tavus, yarasa və bu kimi varlıqlar) Tanrışünaslığa dəvət edir, Yaradanı yaradılan məxluq yolu ilə Onu axtaranlara göstərir.

"Nəhcül-Bəlağə"nin 177-ci xütbəsində yaranışın ən kiçik məxluqu olan qarışqa barəsind belə buyurur: **"Siz ey Tanrını axtaranlar! Qarışqanın bu nazik cüssəsi və zəif bədəni haqqında düşünün. O qədər kiçikdir ki, az qala adi gözlə (tam diqqət yetirmədikdə) görünmür, düşüncə və qavrayışdan gizli qalır. Qarışqa öz arıq bədəni ilə yer üzündə necə hərəkət edə bilir, özünə ruzi toplamaq üçün necə çarpışır, dənələri öz yuvasına aparır, anbarda saxlayır və ehtiyat yığır. Yay fəslində qış fəsli üçün tədarük görür. Qış zamanı baharda yuvadan bayıra çıxması haqqında nə düşünür? Belə bir zəif və kiçik varlıq xilqət dəsgahında hər şey baxımından təzmin edilmiş və Tanrı öz xilqət proqramında heç**

vaxt heç nəyi unutmamışdır. Əgər bu kiçik heyvanın qida qəbul etməsi və ifrazı haqqında, onun qarnının quruluşu, baş nahiyəsində yerləşən qulaq və gözünün şəkli barəsində fikirləşsəniz, onun yaranışının sirləri haqqında dərindən düşünsəniz bu qəribəliklərdən heyrətə düşəcəksiniz."

Mövla Əlinin (ə) parlaq xütbələrinin birində deyilir: **"Qoyun – imkan verin, naqis düşüncə sahibləri Tanrını tanımaqdan çəkinsinlər, okeanların dərinliklərinə və kəhkəşanların zənginliklərinə diqqət yetirməkdən qəflətdə olsunlar. Halbuki azca diqqət yetirməklə bütün xilqətin əzəmətinə və yaradılışına əbədiliyinə özləri şahidlik edərlər".**

Bəli, Tanrını tanımaq üçün insan bəlkə də dərin təfəkkürə və alimsayağı düşüncələrə ehtiyac duymur. Təkcə bir qədər fikirləşmək və azacıq düşünmək yolumuzu o müqəddəs Zatı tanımağa aparar, Günəşi, ayı, ulduzları tanımağ, ağac, meyvəni tanımaq, gülü, bitkini və onların varlığının gerçəkliyini tanımaq üçün alim təfəkkürünə ehtiyac varmı? Necə ola bilər ki, böyük, əzəmətli Tanrı haqqında bizim ətrafımızı və bütün həyatımızı öz aşkar nişanələri ilə əhatə edən Qüdrət sahibi haqqında susaraq göz yumaq? Necə ola bilər ki, gün tək aydın həqiqətləri və düzgünlüyü qəbul etməyək?

Bu qəbildən olan təsvirlər, tərifl ər, tavus, yarasa həmçinin həyatı təzahürlər, təbiət hadisələri haqqında gətirilən misallar, nümunələr, yaradılışın başqa heyrətləndirici hadisələri Mövla Əlinin (ə) əsərlərində və söhbətlərində olduqca çoxdur. Bu nümunələr və misallar düşüncəyə dalmaqla, dərin elmi-fəlsəfi fikirlər irəli sürməyə bizə imkan verir. Sələflərin və keçmiş alimlərin kitablarında müşahidə edilməyən bu sayaq incə təsvirlər varlığın və mövcudluğun görünməyən məqamlarının izahı və şərhi bir sıra elm xadimlərinin bu qəbildən olan mülahizələrin Əliyə (ə) mənsub olmasına şübhə ilə yanaşmağa məcbur etmişdir. Hətta bu sözləri qədim Yunan və Roma fəlsəfəsinə aid edir, bəzən də İran və başqa maarifpərvər ölkələrin alimlərindən iqtibas gətirirdilər. Lakin Əlinin (ə) vücudunun sirrinə bələd olanlar, onun feyz məktəbi ilə tanış olanlar tam aydınlıq və yəqinliklə bilirlər ki, Əlinin (ə) məqamı bu məsələlərin, bu anlamların və bu fikirlərin fövqündədir.

O, Peyğəmbəri-Əkrəmin (s) bariz şagirdi və onun xüsusi tərbiyə görmüş davamçısıdır ki, peyğəmbərlik beşiyində tərbiyə almış, Mühəmməd (s) əxlaqı ilə qaynayıb qarışmış, İlahi hidayətlə İslamın ali məktəbində yetkinləşmişdir. İlahi bir universitetdə və Quran məktəbində Tanrı barəsində yüksək məfhumları mənimsəmişdir. Lakin Yunan filosofları, onların sələf və davamçıları bu məfhumların bir cüzi hissəsi ilə belə tanış ola bilməmişlər.

Mövla Əlinin (ə) sözlərində Allah cilvəsi müşahidə edilir. Hər nədən söhbət açırsa, orada Allah-Təalanın vücudunun işığı şölə saçır. Lakin Allah-Təaladan birbaşa söhbət açıdığı yerlərdə onun kəlamının sanki başqa rəngi vardır.

Mövla Əlinin (ə) xütbələrinin birində insan bədənini təşkil edən ünsürlərdən bəhs edilir. Orda deyilir ki, bunlar müxtəlif maddələrdən əmələ gəlmişdir. Təkamülə doğru inkişaf yolu keçərək insanın bədən və surətində uyğunlaşmışdır. Bədəninin möhkəmliyi və davamı sümük düzümünə əsaslandığından, bunların möhkəmliyi qığırdaqla təmin edilir. O zaman mələklərin Adəmə (ə) səcdə və təzimi, Şeytanın isə onu rədd etməsi, Adəmin (ə) rahatlıq və asayiş evini seçməsi, Şeytanın isə məğrurluq etməsi həsədlə bağlı oldu. Adəmin (ə) süstlük qərarı, qorxusu və əmin-amanlığı, bəla mənzilində qərar tapması, can keşməkeşi, doğum, böyümə və bunun ardınca Adəmin (ə) üzünə tövbə qapısının açılması həmin xütbədə xüsusi qeyd olunur.

Bütün bunları yazmaqla biz, Mövla Əlinin (ə) kəramət dəryasından nəinki bir damla götürə bildik, bəlkə, həmin dəryaya tamaşa etməklə kifayətlənirik…

MÖVLA ƏLİNİN (Ə) İMAN VƏ İBADƏTİ

Mövla Əli (ə) ibadət, zöhd, iman, təqva və yəqində Peyğəmbərdən (s) sonra misilsiz bir şəxsiyyət idi. Bu mövzuda Rəsulullah (s) buyurmuşdur: **"Əgər göylər və yer üzünü tərəzinin bir tərəfinə, Əlinin imanı o bir tərəfə qoyulsa, Əlinin imanı ağır gələr".**

Mövla Əli (ə) eşq və məhəbbətlə ibadət edirdi. Çünki o, ibadəti sadəcə vacib olduğu üçün yerinə yetirmirdi. O Allahı həqiqətdə sevirdi və həqiqətin camalından başqa heç bir şey onun gözündə cilvəli görünməzdi.

Mövla Əli (ə) ibadətə elə maraq göstərirdi ki, Rəsulullaha (s) Əlinin (ə) soyuqqanlığından şikayət edildikdə **"Əlini qınamayın, çünki o Allaha aşiqdir"**-deyə buyurardı. Mövla Əli (ə) namaz qıldığı və münacat etdiyi zamanlarda gözləri görməz, qulaqları eşitməz, göy və yer üzünü, dünya və içindəkiləri unudurdu. Bütün vücudu ilə məbdəi-həqiqətə yönəlirdi. Döyüşlərin birində ayağına bir ox batmışdı. Ağrının çoxluğundan oxun çıxarılması çətinlik yaradırdı. Həzrət Peyğəmbər (s) buyurdu: **"Əli namaza duranda oxu ayağından çıxararsınız".** Belə də etdilər. Hamının gözü önündə sanki Mövla Əlinin (ə) hissiz olduğunu gördülər.

Mövla Əli (ə) dəstəmaz alarkən titrəyərdi. Mehrabda dayandığı vaxtda da eyni halda olardı. Allahın əzəməti qorxusundan göz yaşları mübarək saqqalına axardı. Səcdələri çox uzun və səcdəgahı daima gözyaşları ilə islanmış olardı.

Həzər Peyğəmbərin (s) əshabından olan Əbu Fərda belə deyir: **"Qaranlıq gecədə bir xurmalıqdan keçirdim. Bu zaman bir kəsin münacat və dua səsini eşitdim. Yaxınlaşdıqda bu adamın Həzrət Əli (ə) olduğunu gördüm, tez bir ağacın arxasında gizləndim. Həzrət çox həzin bir səslə dua edirdi. Cəhənnəm atəşi qorxusundan ağlayıb Allaha sığınır əfv və məğfirət diləyirdi. O qədər ağladı ki, səssiz bir şəkildə yerə yıxıldı, yatdığını zənn etdim, irəli getdiyimdə quru bir ağac kimi yerə düşmüş olduğunu gördüm, hərəkət etmədiyini görüncə öldüyünü zənn edərək evinə tərəf qaçdım. Onun öldüyünü Həzrət Fatiməyə (ə) xəbər verdim. Həzrət Fatimə (ə) onu necə gördüyümü soruşdu. Mən də olub keçəni danışdım. Ondan sonra, Həzrət Fatimə (ə) onun ölmədiyini, Allah qorxusundan özündən getdiyini bildirdi".**

Mövla Əli (ə) fərz namazlarından başqa müstəhəbləri də qılırdı. Heç vaxt gecə namazlarını tərk etmirdi. Hətta döyüş zamanı belə onları unutmurdu. Leylətul-hərir gecəsində səhərə yaxın üfüqə baxırdı. İbn Abbas **"o tərəfin fikrin çəkirsənmi? Düşmən o səmtə yaxınlaşmışdırmı?",-**dedikdə, Əli (ə) **"xeyr, namaz vaxtının çatıb çatmadığına baxıram",** - buyurdu.

Babası kimi Əli ibn Hüseyn (ə) də çox ibadət və uzun səcdələrinə görə Səccad və Zeynül-Abidin ləqəblərini almışdı. Nə üçün özünə bu

qədər zəhmət verirsən? dediklərində **"kim cəddim Əli ibn Əbu Talibin ibadətini edə bilər?"**,- deyə buyurmuşdu.

İbn Əbil Hədid belə deyir: **"İbadətdə nəhayət dərəcəyə çatan Əli ibn Hüseynə (ə) "sənin ibadətinin cəddinin ibadətinə nisbəti necədir?" soruşulanda "mənim ibadətimin cəddimin ibadətinə nisbəti, Onun Rəsulullahın ibadətinə olan nisbəti kimidir".**

Mövla Əlinin (ə) cariyəsi Ummi Səifdən **"Həzrət Əli (ə) ramazan ayında daha çox ibadət edir, yoxsa başqa aylarda?"**,-deyə soruşulduqda o demişdir: **"Həzrət Əli (ə) hər gecə dua və ibadətlə məşğuldur. Ramazan və digər aylar onun üçün bərabər idi".**

Mövla Əli (ə) zərbətləndikdən sonra məsciddən evə aparılarkən şəfəqin doğduğu yerə baxıb **"Ey sabah! Şahid ol ki, Əlini yalnız indi uzanmış olaraq görürsən"**,-deyə buyurdu.

İbn Əbil Hədid belə yazır: **"Həzrət Əlinin ibadəti hər kəsin ibadətindən daha çox idi. Çünki günlərin çoxunu oruc tutur, gecələri isə namaz qılırdı. Hətta döyüşdə belə bu ibadətləri tərk etmirdi. O öz əməlləri ilə camaata dinin hökmlərini öyrədirdi".**

Mövla Əli (ə) buyurur: **"Bir dəstə insan savab üçün Allaha ibadət edər. Bu ibadət tacirlərin ibadətidir. Bir dəstə insan da Allaha qorxudan ibadət edər, bu da kölələrin ibadətidir. Bir dəstə insan da Allaha şükr edərək ibadət edər, bu isə hürr – azad insanların ibadətidir".**

Mövla Əli (ə) özü Allah-Təalaya ərz edir: **"Ey Rəbbim! Nə sənə Cənnətin tamahına görə, nə də cəhənnəmin qorxusundan ibadət edirəm. Bəlkə səni ibadətə layiq gördüyüm üçün ibadət edirəm".** Bu hədis də mütəvatir hədislərdəndir.

Mövla Əli (ə) sırf Allah rizası üçün ibadət edirdi. Bu növ ibadət onun yəqinliyindən qaynaqlanırdı. Necə ki, onun özü belə buyurmuşdur: **"Əgər pərdələr (gözümün önündən) götürülsə, yəqinliyimdə hər hansı bir dəyişiklik olmaz".**

Bu hədisin açılışı o deməkdir ki, Əli (ə) Allahı o dərəcədə tanımışdır ki, əgər gözlərinin önündən pərdələr götürülsə və Allahı görmək mümkün olsa, onun buyurduğuna görə, yəqin etdiyi Allahında heç bir dəyişiklik görməyəcəkdir.

Mövla Əli (ə) ruhu tərbiyə etməkdə və kəmala gedən yolları qət etməkdə Həzrət Peyğəmbərdən (s) sonra yeganə və misilsiz bir şəxs idi. O baxdığı hər şeydə Allahı görürdü. Necə ki, özü belə buyurmuşdur: **"Hər şeyi gördüyümdə Allahı ondan qabaq, Onunla bərabər və Ondan sonra görürəm".** Başqa bir ifadəsində isə belə buyurmuşdur: **"Görmədiyim Rəbbimə ibadət etmərəm".**

Ona **"Allahı necə gördün?"**, - deyə sual etdikdə, **"qəlb gözü ilə gördüm, zahiri gözlə deyil"** buyurmuşdur.

"Kumeyl duası" adı ilə məşhur olan duada o Həzrətin güclü iman və yəqinini görməmək mümkün deyil. Bu dualar çox gözəl ibarə və ləfzləri ilə çox böyük mənaları əhatə edir. Bəzən Allahın geniş rəhməti qarşısında bütün vücudu ümidlə dolmuşdur, bəzən də Allahın qüdrəti və əzəməti qarşısında özünü elə kiçik və həqir görmüş ki, əlində olmadan xüzu və xuşuya qərq olmuşdur.

Zarar ibn Zəşrə Muaviyənin yanında olanda Müaviyə **"Əlini mənim üçün təsvir et!"**- demişdir. O da: **"Həzrət Əli (ə) gecələri çox az yatardı, gecə və gündüzləri çox Quran oxuyardı, canını Allah yolunda verməyə hazır idi, Allah əzəməti qarşısında həmişə göz yaşı tökərdi, özünü bizdən gizləməzdi, bizdən içi qızıl ilə dolu kisələr toplamazdı, yaxınlarına şəfqətli idi, ona zülm edənlərlə sərt davranmazdı, gecənin zil qaranlığında onu ilan vurmuş bir insan kimi büküldüyünü və Allah qorxusundan ağladığını və belə dediyini görərdin: "Ey dünya, mənə naz edirsənmi? Məni özünə məftun etmək istəyirsənmi? Heyhat! Mənim sənə ehtiyacım yoxdur. Sənə üç tələq vermişəm. Artıq sənə geri dönməyim mümkün deyil".**

Müaviyə bunları eşitdikdə özünü saxlaya bilməyib ağlamağa başladı: **"Ey Zarar yetər, bəsdir, daha danışma. Allaha and olsun ki, Əli belə idi. Allah ona rəhmət etsin".**

Hələ bu, Həzrət Əlinin (ə) digər insanlardan üstün olmasına səbəb olan xüsusiyyətlərindən bir neçəsi idi. Onun ibadət məqamına gəldikdə isə, aşağıdakı bəzi nüansları – xüsusən də gecə ibadətlərini qeyd etməyi zəruri hesab edirik. Bəli, Mövla Əlinin (ə) ibadət gecələri…

Bu gecələr Əlinin (ə) gecələridir. Allahın saleh bəndəsi və dostu olan Mövla Əlinin (ə) gecələri. Həzrət Əlinin (ə) Allah-Təala və gecə ilə peyvəndi. Allah-Təalanın isə hər ikisi ilə peyvəndi. Bunlar xilqət, rəhmət və ibadətin sirləri ilə dolu peyvəndlərdir. Mövla Əlinin (ə) tanıdığı və yerinə yetirdiyi bir ibadətdir. Elə bir ibadət ki, başqalarını da ona sövq edirdi.

Bundan başqa iman çoşğunluğu ilə, Allaha eşq və məhəbbətlə, Allah və Onun Rəsulunun məktəbi yolunda fədakarlıqla dolu bir həyat Mövla Əlinin (ə) həyatı idi. Onun gecələri başdan-başa həyəcan, qığılcım və şölə saçmaq, ürəyin dərinliklərindən gələn sözlər, əzəli və əbədi məbudun yolunda ürək sözünü bəyan etmək, canını qurban vermək məktəbi idi.

Mövla Əli (ə) ilə gecə arasında incə bir sirr bu idi ki, gecələr səhərə qədər oyaq qalırdı, gecə və gündüzü yaradana sızlayaraq dönə-dönə ürək nəğmələrini - sirlərini söyləyirdi.

Mövla Əli (ə) hər şeydə və hər işdə yeganə idi. İbadət üsulu və Allahla dərdləşmək yolu da onun özünəməxsus yeganə üsul və yolu idi. Hətta ürəyində dərd üstündən dərd toplansa da, öz sirrini, ürək dərdini Allah-Təalaya söyləmək üçün gecələri seçirdi. Gecələr evdən çıxar, şəhər ətrafındakı xurma bağlarına gedərdi. Çünki xurma ağacları ay işığının aydın kölgəsində su quyularına sarı əyilirdi. Dərdini, canüzücü nalələrini, sinəsində qalan, kimsəyə demədiyi fəryadını izhar edərdi.

Tək Allaha pərəstiş yolunda seyr və süluk, Onun böyük dərgahı qarşısında bəndəlik, sorğu-sualsız əzəməti qarşısında edilən dua və raz-niyaz, həmçinin nəfsin təmizlənməsi yolunda çalışma, yaradılanın yaradana qovuşması peyğəmbərlər məktəbinin ən məşhur üsullarından biridir ki, məhz Mövla Əli (ə) bunları icra edirdi.

İslamda Allah-Təalaya ibadət etmək bir sıra elmi, ictimai və əxlaqi vəzifələrdən ibarətdir. Bunların əsas cəhətləri aşağıdakılardır. Başqa din qardaşları ilə sülh və səmimiyyət yaratmaq, başqalarının hüquqlarına hörmət bəsləmək, vaxtın qiymətini bilmək, hisləri və qəzəbi ələ almaq, camaata mehribanlıq və ülfət göstərmək, təmizliyə riayət etmək, sirr saxlamaq, sözbazlıq, qeybət və bu kimi işlərdən çəkinmək yuxarıdakı məsələnin ilkin şərtlərindəndir.

İslam baxımından pak Allah duyğusu ilə yerinə yetirilən hər bir xeyirli və faydalı iş ibadət və bəndəçilik deməkdir. Buna görə dərs oxumaq, bilik qazanmaq, məlumat toplamaq, elm öyrənmək, halal və

faydalı qazanc, xalqa xidmət üçün göstərilən ictimai fəaliyyət Allah duyğusu və İlahi niyyətlə olarsa, elə bütün bunlar özü Allah-Təala qarşısında ibadət və bəndəçilik sayılır. Hansı ki, namaz, oruc, zəkat, xums, həcc, cihad və başqaları İslam ibadətinin bariz nümunələrindəndir.

İbadət və ilahi sitayiş İslam anlamında insan ruhunun yüksəlişi, meracı və Allaha yaxınlığı, ruhun varlıq və yaranış dünyasının görünməz bir başlanğıcına doğru uçuşu kimi xarakterizə edilir. Bəli, burada müsəlman olan şəxs öz Yaradanına təşəkkür əlaməti kimi bu ibadətləri yerinə yetirir, həmin yolda öz seyr və rəftarını davam etdirərək təkamül məqamına yetişir.

Mövla Əli (ə) məktəbində pərəstiş bir məsələdə xülasə olunur: **"Haqqı yad etmək və Onu hifz etmək, Ondan qeyri nə varsa yaddan çıxarmaq, həmişə Tanrını yad etməklə yaşamaq".**

Quranı-Kərimdə buyurulur:

"Namazı Məni xatırlamaq və yada salmaq üçün qıl" (**"Taha"** surəsi, 14-cü ayə)

Mövla Əlinin (ə) ruhi yüksəlişi hər gün daha çox artırdı. O özünü daha yüksəklikdə olan üfüqə doğru çəkdi və uçuşuna ağırlıq gətirən hər bir şeyi özündən uzaqlaşdırdı. Xüsusilə gecə, hər yer qaranlığa bürünərkən, gecənin ağır sükutunda Allahın əzəmətli, pak və şəffaf firuzəyi rəngli aynada və göyün sayrışan ulduzları arasında cah-cəlal ilə əks olunurdu. Həzrət Əli (ə) bu sayaq ruhi əzəmət, qüdrətli və tək Yaradanın qarşısında özünü zərrədən artıq hesab etmirdi. Həmişə və hər yerdə bu cür raz-niyazlar, kəlmələr və ibarətlər onun dodağında zümzümə kimi səslənirdi: **"Bu nəfsimdir ki, onu pəhrizlə tərbiyə edirəm. Ta ki, hesab və qiyamət günü-ən qorxulu, dəhşətli gündə iztirabdan əmin-amanlıq tapsın".**

Digər bir yerdə isə başqa bir ifadə tərzi ilə buyururdu: **"Ey dünya, ey şəhvət, məndən uzaq ol. Sənin cilovunu möhkəm bağlamışam və özümü sənin ağır bəndindən azad etmişəm. Allaha and olsun ki, öz nəfsimin cilovunu zəncirə vuracağam, öz nəfsimə qarşı elə ciddi və sərt olacağam ki, gözlərimdən zülal çeşməsi axsın".**

Mövla Əli (ə) ibadət işində qərarsız və vurğun bir aşiq idi. Bütün vücudu ilə ibadət edirdi. Onun ibadəti təkcə dini ayini yerinə yetirmək

üçün deyildi. O haqq camalının həqiqi aşiqi idi, onun nəzərində həqiqətin dilrüba camalından başqa heç nə cilvələnmirdi. Mövla Əlinin (ə) səcdələri uzun çəkirdi, səcdəgahı isə həmişə şövq göz yaşı ilə islanırdı.

İmam Zeynül-Abidin (ə) uzun-uzadı səcdə edirdi. Allah-Təala qarşısında üzü üstə torpağa düşərdi, sanki heç yerdən qalxmaq bilməzdi. Ondan xahiş etdilər ki, öz ibadət və səcdəsinin vaxtını bir qədər qısaltsın. O isə cavabında belə buyurdu: **"Mən nə zaman cəddim Əli ibn Əbu Talib qədərincə Allah-Təala ibadəti ilə məşğul olmuşam?.."**

Mövla Əli (ə) ibadət məqamında torpağa döşənir, öz dua və razniyazlarında Allah-Təalaya belə minacat edirdi: **"Ey Allahım! Sənin yeganəliyinə və əzəmətinə pərəstiş edirəm. Sənin şan-şöhrətli və cah-cəlallı dərgahında bəndəlik alnımı torpağa sürtürəm Səni adi gözlə görmürlər, lakin görünməzlik halında da güman etmirlər..."**

"…Sənin camalının işığı qəlblərdə incə insani duyğular oyadır, eşq şöləsini artırır, lakin Sənin dilbərlik cilvən torpaqdan yaranan bəşərin nəzərindən gizli və pərdəlidir. Sənin şan-şöhrətin və əzəmətin o qədər yüksək və alidir ki, düşüncə pərvazının onun yanına yönəlməsi mümkün deyildir. Lakin Sənin mehriban və ürəkləri oxşayan mənəvi əlin dəryaların dərinliklərində, dərələrin yamaclarında, dağların sıldırımlı zirvələrində varlığın ən kiçik və seçilməz zərrəciklərində hər şeyi nəvazişi və mehriban qayğıları ilə əhatə edir…"

"…Sənə sitayiş edirəm və istəyirəm ki, bu sitayişlə rəhmət buludları bizim ürəyimizə daha çox yağsın. Belə bir məqamda Sənin nemətin kamil və bütöv olsun. Sənə pərəstiş edirəm və bu sitayişlə öz canımı Sənin izzət dolu hüzurunda təslim edirəm. Sənin ismət pərdəndə yol azmaqdan və günahdan pənah aparıram".

Mövla Əlinin (ə) dilindən deyilən gözəl və dolğun mənalı dua ilə Allah dərgahına üz tutaraq o Həzrətin Allahı tanıması haqqında fikirlərini başa çatdırırıq: **"Ey Allah! məni öz qüdrətinə və gücünə möhtac et, lakin güclülərdən ehtiyacsız et. Sən mənə yol göstər**

ki, yoldan çıxmayım. Sən mənə dost ol ki, düşmənlərin yanından uzaq olum".

Yenə də Həzrət Peyğəmbərin (s) Mövla Əli (ə) haqqında buyurduğu gövhərbar kəlamlara diqqət edək: **"Əli dünya və axirətdə mənim qardaşımdır".** (**"Yənabiul-Məvəddə"**, səh. 180)

"Bütün peyğəmbərin dostu var. Həqiqətən mənim dostum və qardaşım isə Əlidir." (**"Kənzul-Ummal"**, cild 11, səh. 634)

"Behişt əhlindən Cənnətə daxil olacaq birinci şəxs Əli ibn Əbu Talibdir". (**"Ərcəhul-Mətalib"**, səh. 661)

"Hər peyğəmbərin sirlərini bilən bir nəfər olur. Mənim sirlərimi bilən Əli ibn Əbu Talibdir". (**"Yənabiul-Məvəddə"**, səh. 235)

"Mənə ilk iman gətirən və məni təsdiq edən şəxs Əlidir." (**"İbn Əsakir"**, c. 1, səh. 63)

"Əli kimi cavan, Zülfüqar kimi qılınc yoxdur". (**"Kənzul-Ummal"**, c. 11, səh. 601, Mənaqibi İbn Məğazili, səh. 243)

"Mən və Əli bu ümmətin atalarıyıq".

"Əli Behişt və cəhənnəmi bölüşdürəndir". (**"Kifayətut-Talib"**, səh. 235, Yənabiul-Məvəddə, səh. 180)

"Mən elmin şəhəriyəm, Əli onun qapısıdır. Hər kim elm öyrənmək istəyirsə o qapıya gəlsin". (**"İrşad-Mufid"**, səh. 15, **"Biharul-Ənvar",** c. 40, səh. 200)

"Xəndəq döyüşündə Əlinin vurduğu bir zərbə Səqəleyn ibadətindən üstündür". (**"Müstədrək"**, c. 3, səh. 32)

"Mənim ümmətimin içində məndən sonra ən çox biləni Əli ibn Əbu Talibdir". (**"Kənzul-Ümmal"**, c. 1, səh. 98, **"Yənabiul-Məvəddə"**, səh. 235)

"Mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir". (**"Müstədrək"**, c. 3, səh. 34)

"Xeybər döyüşündə ordu sərkərdəsi bir iş görə bilmədiyi və meydandan çıxmadığı zaman Peyğəmbər (s) buyurdu: "Əlbəttə, mən sabah İslam bayrağını o şəxsə verəcəyəm ki, Allah və Peyğəmbəri onu sevsin və o da Allahı və Peyğəmbərini sevir. Əli savaşdan qaçmayan bir döyüşçüdür. Allah ona qələbə və zəfər nəsib etməyincə o düşmənlə döyüşdən qaçmaz. Səhər bayrağı

Əliyə verdi və döyüş müsəlmanların qələbəsi ilə sona yetdi". (**"Biharul-Ənvar"**, səh. 21-22, **"Səhihi-Buxari"**, c. 5, səh. 171)

"Ya Əli! Sən mənim qardaşımsan və mən də sənin qardaşınam". (**"Səhih Tirmizi"**, c. 5, **"Biharul-Ənvar"**, c. 38)

"Ya Əli! Allahı məndən və səndən başqa heç kəs tanımadı. Məni Allahdan və səndən başqa heç kəs tanımadı və səni Allahdan və məndən başqa heç kəs tanımadı". (**"İrşadul-Qulub"**, c. 2, səh. 18)

"Ya Əli! Heç bir mömin səni düşmən saymaz və heç bir münafiq də səni sevməyəcəkdir". (**"Nəhcül-Bəlağə"**, hikmət 45)

"Hər peyğəmbərin bir vəsisi və varisi olur. Mənim vəsim və varisim Əli ibn Əbu Talibdir". (**"Mənaqib"**, səh. 201)

"Bütün insanların içində Allahı ən çox tanıyan Əlidir". (**"Kənzul-Ümmal"** c. 11, səh. 614)

"Hər bir mömin insanın qəlbində Əli sevgisi vardır". (**"Tarixi-Təbəri"** c. 4, səh. 410, **"Mənaqibil-Xarəzmi"**, səh. 107, **"Kifayətul-Qulub"**, səh. 277)

"Əlinin mənə olan nisbəti, ruhun bədənə olan nisbəti kimidir". (**"Tarix Bağdad"**, c. 7, səh. 12)

"Məclislərinizi Əlini zikr etməklə zinətləndirin". (**"Mənaqib ibn Məcazili"**, səh. 211)

"Əli Quran ilədir, Quran da Əli ilədir". (İmamət Əli (ə) dər ayineye əql və Quran)

"Əli və onun şiələri Qiyamət günü nicat tapacaqlar". (**"Yənabiul Məvəddə"**, c. 18, səh. 237)

"Sizin aranızda mənimlə birgə kövsər hovuzuna daxil olacaq birinci şəxs Əlidir". (**"Tarixi Bağdad"**, c. 2, səh. 81, **"Müstədrək"**, c. 3, səh. 136, **"Kənzul Ümmal"**, c. 11, səh. 616)

"Hidayət bayrağı, iman minarəsi, övliyaların imamı və mənə bütün itaət edənlərin nuru Əlidir". (**"Tarixu Bağdad"**, c. 14, səh. 99)

"Ya Əli! Sən mənim elmimin varisi, hikmətimin mədəni və məndən sonra İmamsan".

"Əli haqq ilədir, haqq da Əli ilədir. Harada haqq varsa, Əli oradadır". (**"Sünəni Tirmizi"**, c. 5, səh. 633, **"Kənzul Ümmal"**, c. 11, səh. 621)

"Əli haqq ilədir, haqq da Əli ilədir. Onlar kövsər hövuzunda mənə qovuşana qədər bir-birindən ayrılmazlar". (**"Tarixu Bağdad"** c. 14, səh. 321)

"Allahım! Həqiqətən mən Mühəmməd Peyğəmbər və Sənin seçdiyinəm. Allahım! Qəlbimi genişlət və işlərimi asan et. Mənim üçün bir vəzir və canişin qərar ver. Sən Əlini bu iş üçün yaratmısan və onun vasitəsilə arxamı gücləndir". (**"Əl-Qədir"**, c. 3, səh. 86, **"Təbəri"**, c. 2, səh. 165)

"Sizin aranızda mənim Əhli-beytim həqiqətən Nuhun gəmisinə bənzər. Hər kəs ona minsə, nicat tapar. Hər kəs ondan üz döndərsə, həlak olar".

"Əliyə itaət edən mənə itaət etmiş olur. Əliyə asilik edən mənə asilik etmiş olur".

"Ya Əli! Sən mənim yanımda Harunun Musaya olan nisbəti kimisən. Ancaq məndən sonra peyğəmbər olmayacaqdır".

"Həqiqətən sənin nurani simalı işlərin nurlu minbərlər üstündə mənim ətrafımda olacaqlar. Mən onlara şəfaət edəcəyəm və onlar behiştdə mənim qonşularım olacaqlar". (**"Kifayətut-Talib"**, səh. 265)

"Ya Əli! Həqiqətən mən nə eşidirəm, sən də onu eşidirsən. Mən nə görürəm, sən də görürsən. Ancaq sən peyğəmbər deyilsən". (**"Nəhcul-Bəlağə"**, səh. 192)

"Canım əlində olan Allaha and içirəm ki, bu (yəni Əli) və şiələri Qiyamət günü nicat tapacaqlar". (**"Yənabiul-Məvəddə"**, səh. 180)

"Ya Əli! Sən dünyanın və axirətin ağasısan. Sənin dostun mənim və Allahın dostudur. Sənin düşmənin mənim və Allahın düşmənidir. Vay o adama ki, məndən sonra sənlə düşmənçilik edər". (**"Səhih- Müslim"**, c. 1, **"Biharul-Ənvar"**, c. 39)

"Bu (Əli) məndən sonra sizin İmamınızdır. Ona itaət edin. Məndən sonra ayrılıb pərakəndə düşməyin ki, o vaxt dininiz məhv olar".

"Əli məndəndir, mən də Əlidən və o məndən sonra mömünlərin vəlisidir". (İbn Əsakir, c. 1, səh. 389)

"Əgər İslam xilafətini Əliyə tapşırsanız, onda siz həmişə haqq yönəldən bir rəhbərə malik olacaqsınız". (**"Tarixi Bağdad"**, Hafiz Əbu Bəkr Xətib Bağdadi, c. 47)

"Həqiqətən Allah-Təala hər peyğəmbərin nəslini öz sülbündən yaratdı. Mənim nəslimi isə Əbu Talibin oğlu Əlinin sülbündən yaratdı".

"Ya Əli! Allah, Rəsulu və Cəbrail səndən razıdırlar".

"Əli məndəndir və mən də ondanam". (**"Kənzul-Həqaiq"**, səh. 37)

"Kim mənə itaət edərsə, Allaha itaət etmişdir. Kim mənə qarşı gələrsə, Allaha qarşı gəlmişdir. Kim Əliyə itaət edərsə, mənə itaət etmişdir. Əliyə qarşı çıxan da mənə qarşı çıxmışdır". (**"Müstədrək Səhiheyn"**, c. 3, səh. 126)

"Mən və Əli Allahın qullarına göndərdiyi hüccətlərik". (**"Kənzul-Həqaiq"**, səh. 24)

"Mən peyğəmbərlərin ən böyüyü, Əli də vəsilərin ən böyüyüdür. Məndən sonra vəsilərim 12 nəfərdir. Birincisi Əli, sonuncusu isə Mehdidir (ə.c)". (**"Yənabiul-Məvəddə"**, səh. 445)

"Atəş odunları yandırdığı kimi, Əlinin sevgisi də günahları yox edər". (**"Tarixi-Bağdad"**, c. 4, səh. 194)

"Ya Əli! Mən və sən bir ağacdanıq (soydanıq) . Mən kökü, sən isə gövdəsisən. Həsən və Hüseyn də budaqlarıdır. Kim o budaqlardan birinə yapışsa, Allah onu Cənnətə salar". (**"Kifayətut-Talib"**, səh. 318)

Mücahid İbn Abbas belə nəql edir: **"Rəsulullah (s) buyurdu: "Əli Qiyamət günü hovuzun yanındadır. Əlidən (ə) izin almayan kimsə Cənnətə girməz".** (**"Mənaqib ibn Məğazəli"**, səh. 119)

Qeys ibn Kazım belə deyir: **"Xəlifə Əbu Bəkr (r) ilə Əli (ə) yolda qarşılaşdılar, elə bu vaxt Əbu Bəkr (r) təbəssüm etdi. Həzrət Əli**

(ə) nə üçün təbəssüm etdiyini soruşduqda Əbu Bəkr (r) belə dedi: "Peyğəmbərdən sirat körpüsündən heç kimsənin Əli izni olmadan keçməyəcəyini eşitdim". (**"Riyazun Nəzrə"**, c. 2, səh. 177)

Vəssəlamu əleykum və rəhmətullahi və bəraktuhu.

AZADLIQ ANLAMI MÖVLA ƏLİNİN (Ə) GÖZÜ İLƏ

Azadlıq gözəl, ürəyəyatımlı və müqəddəs bir ifadədir ki, insanların dillər əzbəridir. Lakin onun həqiqi məfhumu az öyrənilmiş və ona az əməl edilmişdir. Mövla Əli (ə) maraqlı kəlamlarının birində dostları ilə söhbət əsnasında belə buyurmuşdur: **"Heç vaxt başqasının qulu olma, çünki Tanrı səni azad yaratmışdır".**

Bu qısa cümlədə elm və agahlıqla dolu bir məna gizlənmişdir. Bu mənanın izahı və şərhi belədir. Əgər insanlar azadlığın məfhum və qayəsini başqalarında axtarırlarsa, azadlığı başqalarından almaq istəyirlərsə, Mövla Əli (ə) onu fərdin öz vücudunda axtarır. Beləliklə, fərdi özünə dəvət edir, onu özünə qaytarır ki, özünü azadlıq əldə etməyə layiqli hala salsın. Daha anlaşıqlı tərzdə desək, azadlığı zati bir məsələ kimi tanıyır, öz-özünə coşub çağlayan meyar hesab edir.

Başqasının qul və köləsi olmaq uzun-uzadı və geniş mənalı bir söhbətdir ki, insanlara, var-dövlətə, dünyəvi məqamlara, cilovlanmayan hisslərə, cinsi meyllərə, tünd və təxribedici fikirlərə – ideyalara habelə başqa mövzulara şamil ola bilər. Lakin azad və qurtuluş tapmış insan, həqiqi azadlıq istəyən insan, İmamın təbirinə görə elə bir fərddir ki, özünü o qədər tərbiyə edib, nəfsinin, iradə və hisslərinin cilovunu əlində saxlamışdır ki, heç zaman istismar və müstəmləkə boyunduruğunun altına getmir. Eyni zamanda başqalarından faydalanmır, rəva görülməyən istək və meyllərin hücumuna məruz qalmır, həqiqətdə isə fitri toxunulmazlıq qabiliyyətinə malik olur. Belə bir qurtuluş tapmış fərd İslam tərbiyəsi məktəbində yetkin bir şəxsiyyət olur. Azad və məntiqli İslam, heç bir çirkinliyə bulaşmamış İlahi və ülvi bir İslam olaraq yaşayacaq. Bu İlahi məktəbin şagirdləri, burada təhsilini bitirənlər və yetişənlər öz azadlıqlarını nə qiymətə olursa-olsun, hər bir çətin və xoşagəlməz şəraitdə saxlaya bilərlər. Qızıl, pul, zor, hiylə, məqam, vəzifə və şəhvət kimi amillərə boyun əymir və onların vasitəsilə əl-qolları bağlanmır. Məhz İmam Əlinin (ə) görkəmli

şagirdləri həmin tərbiyənin ən bariz nümayəndələrindəndir. Əbuzər, Salman, Miqdad, Əmmar ibn Yasir, Malik Əştər, Əbu Həmzə Səmali və digərləri öz istək və təmənnalarını tərk etməklə azadlığa - yəni ən şərafətli sərvətə və fitri var-dövlətə yetişmişlər. Bu mənada Mövla Əli (ə) belə buyurur: **"Ən şərafətli sərvət daxilli meylləri, istək və təmənnaları tərk etməkdir."** (**"Nəhcül-Bəlağə"**, 44-cü xütbə)

Azadlıq və azadəlik insanın ruhi ehtiyacından doğan bir nəsnədir. Ehtiyac, bağlılıq və asılılıq məhdud olmaq, asılı və bağlı olmaq deməkdir. Bu baxımdan dünyanın azad adamları həmişə yüngül qanadlı olub, yüksəklikdə pərvaz edə biliblər. Hafiz Şirazi - azad düşüncəli şair bu barədə belə deyir:

Mən o kəsin himmətinin qulamıyam ki, mavi çarxın altında
Bağlılıq rəngi (nişanəsi) olan hər bir şeydən azaddır.

Ustad Şəhid Murtəza Mütəhhəri isə bu barədə belə yazır: **"Azad ruhlu insan yüngüllüklə həyat sürür, hərəkət və şadlıq tapır. Azad şəkildə pərvazlanır, həyatın əbədi mübarizəsində yüngüllüklə ayağa qalxır, onun həyat meydanındakı hərəkəti suda üzməyə bənzəyir. Yəni asılılıq nə qədər az olarsa, üzmək imkanı da bir o qədər çox olur. Çox asılılıq üzmək imkanını aradan götürür, bəzən isə insanı suda batırmaq təhlükəsi ilə qarşılaşdırır. Qandi zahidlik yolu ilə və öz yüngülləşmə üsulu vasitəsilə ingilis imperatorluğunu dizi üstə çökdürməyə nail oldu. Yəqub Leys Səffari soğan-çörəkdən əl çəkmədi və onunla da xəlifəni dəhşətə saldı. Vitekegin heyrətamiz müqaviməti isə İslamda az şeyə qənaət etmək adlanan bir amilə borcludur. O bir ovuc düyü ilə gündüzləri sığınacaqlarda keçirməyə və öz rəqibi ilə vuruşmağa qadirdir. Heç bir dini və ya siyasi rəhbər indiyədək naz və ləzzət keçirməklə dünyada bir dəyişiklik yarada bilməmişdir. Maddi həvəslərə bağlılıq yükünü yüngülləşdirmək hərəkətlərin, sıçrayış və inqilabların əsas şərtidir". (Seyri dər "Nəhcül-Bəlağə"**, səh. 226)

Artıq rəsmi təmtəraqların, ruhsuz mərasimlərin qarşısını almaq Mövla Əli (ə) hökumətinin səciyyəvi xüsusiyyətlərindən idi. Mövla Əli

(ə) hökumətinin əsası çalışma və fəaliyyət özülünə söykənirdi. Həzrət Əli (ə) şəxsiyyəti yaltaqlıq və ikiüzlülükdən uzaq idi və belə şeylərə nifrət edirdi.

Yazırlar ki: "bir gün Mövla Əli (ə) Əmbar şəhərinə gəldi. Bu şəhərin sakinlərinin çoxu qeyri-ərəb müsəlmanlardan ibarət idi. Şəhərin kəndxudaları, əkinçiləri və əhalinin hamısı sevinib şadlanırdılar ki, böyük xəlifə onların şəhərindən keçəcək. Buna görə də onu qarşılamağa tələsirdilər. Belə ki, Mövla Əlinin (ə) miniyi yola düşdü, onlar miniyin qarşısında sinəsi üstə sürünürdülər. Bununla da Mövla Əliyə (ə) səmimiyyət və pak sevgilərini bildirmək istəyirdilər. Mövla Əli (ə) öz miniyini saxladı və onlardan soruşdu:

"- Niyə belə edirsiniz, bu nə işdir siz görürsünüz"?

Cavabında onlar dedilər:

"- Bu bir növ ehtiramdır ki, biz öz əmirlərimizə, hökmdarlarımıza və hörmətə layiq olan adamlara göstəririk. Bu rəsmi bir adətdir ki, ta qədimlərdən bizə qalmışdır".

Mövla Əli (ə) buyurdu:

"- Bu iş sizi dünyada zəhmət və əziyyətə salar, axirətdə də sizi bədbəxtliyə və uğursuzluğa düçar edər. Sizi süst edən və alçaldan bu sayaq işlərdən həmişə çəkinmək lazımdır. Bu əməlin nə sizə nə də sizin vəziyyətinizə və istədiyiniz adamların halına heç bir müsbət təsiri olmayacaq. Ona görə də belə bir faydasız və nəticəsiz işi görmək rəva deyildir".

Mövla Əli (ə) sinfi təbəqələşmə üzrə üstünlük və imtiyazlara, qanun qarşısında bərabərsizlik, əyan-əşrəfin tərəfini saxlamaq hallarına qarşı tələbkarlıqla çıxış edirdi. Onun, Bəsrədəki varisi Osman ibn Hüneyfə yazdığı məktub dediklərimizə bariz misaldır ki, keçən söhbətlərdə mətni verilmişdir.

Bu qısa münasibətlə Mövla Əlinin (ə) azadlıq anlamı ilə bağlı fikirlərindən bəzi nümünələri nəzərə çatdırdıq.

Vəssəlamu əleykum və rəhmətullahi və bərakatuhu.

MÖVLA ƏLİNİN (Ə) ƏDALƏTİ

Əli (ə) məktəbində ədalət və hüquq mühafizəsi

İslamın ən erkən vaxtlarından etibarən müsəlmanlar arasında ədalət məsələsinə münasibətdə müxtəlif fikirlər olmuşdur. Bu məsələ də bir çox hallarda fərqli və ziddiyyətli mövqelərdən izah edilmişdir.

Həzrət Mühəmməddən (s) sonra onun ideyalarının ən layiqli davamçısı olan birinci imamımız Əli ibn Əbu Talib (ə) ədalət məsələsində öz mövqeyini qətiyyətlə ifadə etmişdir. İslamı, cahiliyyə dövründə olduğu kimi deyil, heç bir bütə sitayiş etmədən qəbul edən, Peyğəmbər (s) məktəbinin müdavimi olan İmam Əli, (ə) ədalət məsələsini sosial, fəlsəfi və hüquqi aspektlərdə nəzərdən keçirərək təbliğ etmişdir.

İmam Əlinin (ə) həyat yolu, İslamın saflığı uğrunda mübarizəsi, onun dünyagörüşü, fəlsəfi baxışları nə qədər ətraflı öyrənilsə də, bu sahədə hələ deyilməmiş söz və fikirlər həddindən artıq çoxdur. Hər zaman Mövla Əlinin (ə) müxtəlif vaxtlarda yazdığı məktubları, dediyi kəlamları araşdıranda yeni-yeni səhifələr açılır, qiymətli fikir mənbələri ortaya çıxır. İmam Əlinin (ə) ədalət barədə fikirləri də belədir. Hər dəfə bu barədə yeni söz demək, yeni ifadə işlətmək mümkündür.

O özü ədalətli olduğu kimi, ətrafdakıları da nəinki ədalətə dəvət etmiş, eyni zamanda onlardan tələb etmişdir. İş o yerə gəlib çatmışdır ki, rəqibi Müaviyə ibn Əbu Süfyanın öz şairi Zirar ibn Zəmrəyə onu vəsf etməyi tapşırmışdır. Zəmrə də öz növbəsində Həzrət Əlinin (ə) digər fəzilətləri ilə yanaşı, ədalətli olduğunu da vəsf edərək demişdi: **"O, din əhlini böyük tutur, yoxsulları sevir, güclü olan ondan batil şey görmək tamahına düşməz, zəif olan onun ədalətinə ümidini itirməz…"**

İmam Əlinin (ə) ədaləti, yaxşılıq ilə onun mükafatı, pislik ilə onun cəzası arasında müvafiqlik olmasıdı. Qurani-Kərimdə buyurulur: ***"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər və kim də pis iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz".*** (**"əl-Ənam"** surəsi, 160-cı ayə)

Sözügedən ayənin hökmünə müvafiq olan bu mövqe sonralar İslami fikirlərdə və ayrı-ayrı hüquqi məsələlərdə öz əksini tapmış, qeyri-islami dövlətlərdə də geniş vüsət almışdır.

İmam Əli (ə) Qurani-Kərimdə buyurulan ***"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara***

(haqqını) verməyi (kasıb qohum-əqrabaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər. (Allah) sizə, bəlkə, düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir". (**"ən-Nəhl"** surəsi, 90-cı ayə) ayəsində ədalət və ehsan məfhumlarını mənalandıraraq fikrini belə ifadə edir: **"Burada insaf (əl-insaf), ehsan isə lütfkarlıq (ət-təfəzzül) mənaları daşıyır".**

O, insanları biri-digəri ilə münasibətdə insaf və ədalətli rəftar etməyə çağıraraq buyurmuşdur: **"Kim insanlara münasibətdə insaflı olsa, Allah-Təala onun izzətini artırar".** İmam Əli (ə) ədalət prinsipini o dərəcədə ortaya qoymuşdur ki, hətta öz moizə və imana çağırışlarında aşağıdakı kəlamları dönə-dönə təkrarlayardı: **"Allah-Təala varlıların malında yoxsullar üçün gündəlik ruzu xərci qərar vermişdir. Və əgər hansı yoxsul ac qalırsa, varlının öz çörəyini ondan əsirgəməsi hesabına ac qalır. Allah onlardan bu barədə sorğu-sual edəcəkdir".**

İmam Əli (ə) insanda ədaləti ən mühüm keyfiyyət hesab edərək onu İslamda əsas əxlaqi fəzilətlərdən sayılan səxavətdən belə üstün tutmuşdur. İstər özündən əvvəlki xəlifələr dövründə, istərsə də öz xəlifəlik illərində Mövla Əli (ə) Qurani-Kərimə və Peyğəmbər (s) sünnəsinə istinadən ictihad yolu ilə verdiyi fətvalarda ədalətə riayət edilməsinə xüsusi diqqət yetirmiş və onu həyata keçirməyə nail olmuşdur. Onun verdiyi bu fətvaların insanların hüquqi vəzifələri, cinayət və cəzaları arasında müvafiqliyin təmin edilməsi əsas meyar olmaqla dövlətin idarəçiliyində də böyük rolu olmuşdur. Rəvayətlərə görə, xəlifə Ömər ibn Xəttab (r) Əli ibn Əbu Talibin (ə) iştirakı olmadan hər hansı bir hüquqi məsələnin həllindən çəkinirmiş. Hansı ki, zina etmiş hamilə bir qadının Ömər ibn Xəttab (r) tərəfindən daşqalaq edilməsi barədə hökmün icrasının İmam Əli (ə) tərəfindən qadının uşağı dünyaya gətirənədək dayandırılması ədalət naminə qəbul edilmiş möhtəşəm bir qərar idi. Bu qərar həmçinin İslam fikir tarixində hüquqi ədalət prinsipinin bərpasına və təşəkkülünə güclü bir təkan idi.

Həmişə nikbin baxışlarla həyata nəzər salan İmam Əli (ə) haqqın qalib gələcəyinə inam bəsləyərdi. O həmişə deyərdi: **"Haqqa qarşı mübarizə aparanı haqq yıxar".**

Mövla Əli (ə) ədalətin əksinin zülm olduğunu, zülmün də insanlarda bir neçə şəkildə təzahür etməsini buyurub: **"Zalım adamın üç əlaməti var: özündən yuxarıda olan (Allaha) asilik etməklə zülm edər, özündən aşağıda olana onu əzməklə zülm edər və zalımlara arxa olar".**

İmam Əlinin (ə) fikirlərində sosial ədalət məsələləri də xüsusi yer tutmuşdur. Bu ədalət istər dünyada, istərsə də axirətdə məzlumun zalım üzərində qələbəsi ilə gerçəkləşir. Mövla buyurur: **"Zalım üzərində ədalət günü məzlum üzərində cövr-cəfa günündən çox ağırdır".** Başqa bir yerdə isə İmam Əli (ə) bu fikri belə ifadə edir: **"Məzlumun zalım üzərində qələbəsi günü, zalımın məzlum üzərində qələbəsi günündən çox ağırdır".**

İmam Əli (ə) ədalət haqqında söylədiyi gövhərbar fikirlərini sonradan toplanıb böyük bir kitab olan **"Nəhcül-Bəlağə"** əsərində dönə-dönə yad etmiş, bunu özü də icra etməklə övladlarına, dövrün hakimlərinə və gələcəkdə **"bu yazdıqlarım kimə yetişərsə"** həyata keçirilməsinə əmr etmişdir. O bütün bunlarla bu gün də öz ictihadı ilə İslam fikrinin, xüsusilə İslamda ədalət konsepsiyasının təşəkkül tapmasına güclü təsir göstərə bilmişdir.

Mövla Əli (ə) İlahi qanunları icra etməkdə çox dəqiq və ciddi olduğu kimi, yaltaqlıq və digər mənfi cəhətlərdən də uzaq olmuşdur.

Yaxşı–pislə qızınan, müsəlman və qeyri–müsəlmanla keçinən, heç kimi qəzəbləndirmək istəməyən şəxslər məsləkli ola bilməzlər.

İmam Əlinin (ə) hakimiyyəti dövründə bir nəfər öz yaşadığı vilayətin icra hakimini tərifləyib, bütün siniflərin ondan razı olduğunu bildirdi. O zaman İmam buyurdu: **"Məlum olur ki, o, adil bir insan deyil, çünki hamının mehrini düzüb-qoşmaq olmaz. Hadisələrin çoxunda tərəflərin biri razı, digəri isə narazı olur. Görünür, bu adam haqq və ədaləti yerində işlətmir. Əgər belə olmasaydı, hamı ondan razı olmazdı".**

Əmirəlmöminin Əli (ə) zahid qəzavətçilərin və pak qəlbli insanların mehr–məhəbbətini qazanmış, bunun müqabilində də hərislərin və qanunpozan şəxslərin qəlblərində qəzəb və kin şöləsini qaldıran şəxsiyyətlərdən olmuşdur.

Mövla Əli (ə) qanun və onun üsullarına riayət etməkdə çox ciddi olmuşdur. Mövla ədalətinin əks–sədası təkcə onun hakimiyyəti döv-

rünə məxsus deyil. O, bütün dövrlərdə eyni olmuş, Əli (ə) kimi rəftar etmişdir. Həzrət Əlinin (ə) həyatını tədqiq edənlər İmamın qəzavətindən və zahidliyindən söz açanda çox vaxt o Həzrətin hakimiyyəti dövründəki hadisələrə istinad edirlər. Ona görə ki, bu ali və insani fəzilətin aşkara çıxması üçün lazım olan şərait o həzrətin hökuməti dövründə daha çox mümkün olmuşdur. Bu dövrlərdə İmamın ədaləti, qəzavəti, həmçinin onun qanunlara çox dəqiq şəkildə riayət etməsi xalq kütlələrinin dilində əzbər idi. Buna görə də İmamın (ə) qəzavətinə - ədalətli mühakiməsinə dözə bilməyən şəxslər yerli–yersiz Peyğəmbərə (s) ondan şikayət edirdilər. Həmişə də Peyğəmbərdən (s) mənfi cavab və o Həzrətin buyurduğu **"Əli ilahi qanunlara riayət etməkdə heç nə tanımır"** sözünü eşidirdilər. İmamın (ə) risalət dövründəki həyatında baş vermiş bir neçə hadisə bu deyilənlərə əyani sübutdur. Nümunə üçün iki hadisəni oxucuların diqqətinə çatdırmaq yerinə düşər.

Hicrətin sonuncu ilində Allah evini ziyarət etmək istəyində olan Həzrət Mühəmməd (s) Mövla Əlini (ə) bir qrup müsəlmanlarla birlikdə Yəmənə göndərdi. Əliyə (ə) tapşırılmışdı ki, Yəməndən qayıdanda Nəcran məsihlərinin mübahilə günündə söz verdikləri parçaları onlardan alıb Peyğəmbərə (s) çatdırsın. O, göstərişi yerinə yetirdikdən sonra xəbər tutdu ki, Peyğəmbər (s) Allah evinə tərəf yola düşmüşdür. Buna görə də öz yolunu dəyişib Məkkəyə tərəf getdi. Həzrət Əli (ə) sürətlə Məkkəyə doğru irəliləyirdi ki, tez bir zamanda Peyğəmbərə (s) yetişsin. Bu səbəbə görə də parçaları öz zabitlərindən birinə tapşırıb oradan uzaqlaşdı. Nəhayət, Məkkənin yaxınlığında Peyğəmbərin (s) hüzuruna çatdı. Həzrət onunla görüşdükdə son dərəcədə xoşhal oldu. Onu ehram paltarında görəndə necə niyyət etdiyini soruşdu. Əli (ə) dedi: **"Mən ehram bağlayanda dedim: Mən elə Peyğəmbərin (s) ehram bağladığı niyyətlə ehram bağlayıram".**

Mövla Əli (ə) Yəmən və Nəcran səfərindən, gətirdiyi parçalardan Peyğəmbərə (s) məlumat verdi. Sonra Peyğəmbərin (s) əmri ilə öz əsgərlərinə tərəf yollandı ki, onlarla birlikdə Məkkəyə qayıtsın. Əli (ə) gəlib əsgərlərə çatanda gördü ki, onun canişini olan zabit bütün parçaları əsgərlərin arasında bölmüş, onlar da parçaları ehram paltarı olaraq bədənlərinə örtmüşlər. Əli (ə) öz zabitinin yersiz hərəkətindən bərk narahat oldu və dedi:

- Nə üçün parçaları Peyğəmbərə (s) təhvil verməmiş əsgərlərin arasında bölüşdürmisən?

Zabit dedi:

- Sizin əsgərləriniz israr etdilər ki, mən parçaları əmanət olaraq onların arasında bölüşdürəm və həcc mərasimindən sonra onlardan alam.

Əli (ə) onun üzrünü qəbul etməyib dedi:

- Sənə belə bir ixtiyar verilməmişdi.

Sonra əmr etdi ki, bölünmüş parçaların hamısını bir yerə yığıb Məkkədə Peyğəmbərə (s) təhvil versinlər.

Həmişə ədalətdən, nizam–intizamdan əziyyət çəkən və işlərin öz istəklərinə uyğun olaraq cərəyan etməsini istəyən şəxslər Peyğəmbərin (s) hüzuruna gəlib Əlinin (ə) çox ciddi və tələbkarlığından, inzibatçılığından şikayət edirdilər. Amma onlar bilmirdilər ki, belə bir qanunu pozmaq və yersiz güzəştlər bir sıra daha böyük qanunsuzluqlara gətirib çıxaracaqdır.

Həzrət Əlinin (ə) fikrincə, **"Bir xətakar şəxs, (xüsusilə öz xətasını kiçik sayanlar) vəhşi və çilovu buraxılmış atı minən bir süvari kimidir. Şübhəsiz, belə bir minik heyvan öz sahibini dərələrin dərinliklərində sərt qayalara çırpıb məhv edəcəkdir".** (**"Nəhcül– Bəlağə"**, 16-cı xütbə)

Belə bir təşbehdən İmamın məqsədi budur ki, hər bir günah iş, hər nə qədər kiçik olursa-olsun, əgər kiçik sayılsa, arxasınca başqa günahlara qərq edib oda salmayınca o şəxsdən əl çəkməz. Buna görə də gərək ilk gündən etibarən zahidliyi özünə yol seçib İslam qanunları ilə hərəkət edəsən.

Peyğəmbər (s) Əlinin (ə) işlərindən, onun ciddiliyi və tələbkarlığından şikayət edənlərin birini çağırıb dedi ki, bu xəbəri onlara çatdırsın: **"Əlinin (ə) barəsində bədxahlıqdan əl çəkin, çünki, o, İlahi qanunları icra etməkdə çox dəqiq və ciddidir və həyatında heç vaxt yaltaqlıq və yalana yol verməz".**

Xalid ibn Vəlid Qureyşin güclü sərkərdələrindən biri idi. O, hicrətin yeddinci ilində Məkkədən Mədinəyə mühacirət edib müsəlmanlara qoşuldu. Amma tövhid dininə iman gətirməmişdən əvvəl Qureyşin tərəfindən yenicə əsası qoyulmuş hökumətin məhv edilməsi üçün törədilən müharibələrdə dəfələrlə iştirak etmişdi. Uhud döyüşündə gecə ikən və gözlənilmədən müsəlmanlara hücum edib

onların arxasından meydana daxil olmuş, İslam mücahidlərini həmləyə məruz qoymuşdu. Bu adam İslamı qəbul edəndən sonra da Əliyə (ə) olan ədavət və düşmənçiliyi unutmamışdı. O, həmişə İmamın misilsiz şücaətinə və güclü qollarına həsəd aparırdı. Peyğəmbər (s) vəfat edəndən sonra, onda olan kin və qəzəb onu rahat buraxmır, Əlini (ə) hər hansı bir vəchlə qətlə yetirmək qərarı dəyişməz qalmışdı. Həmçinin bəzi təbəqələrdən də ona dəstək verilirdi. Amma müəyyən səbəblərə görə o bu işə müvəffəq ola bilmirdi.

Əhməd ibn Hənbəl öz **"Müsnəd"** kitabında yazır: **"Həzrət Peyğəmbər (s) Əlinin (ə) rəhbərlik etdiyi dəstəni Yəmənə göndərəndə Xalid ibn Vəlid də onların arasında idi. İslam qoşunu Yəmənin bir məntəqəsində Zeyd qəbiləsi ilə döyüşə başladı və düşmənə qələbə çalaraq çoxlu qənimət ələ keçirdi. İmamın qənimətləri bölüşdürməkdə seçdiyi üslub Xalidin xoşuna gəlmədi. Peyğəmbərlə (s) Əlinin (ə) arasında soyuqluq yaratmaq üçün ona bir məktub yazıb Bureydəyə verdi ki, təcili olaraq Peyğəmbərin (s) hüzuruna çatdırsın. Bureydə deyir: Sürətlə özümü Mədinəyə çatdırdım və məktubu Peyğəmbərə (s) təhvil verdim. O Həzrət məktubu dostlarından birinə verdi ki, onun üçün oxusun. Məktub sona çatdıqda birdən Peyğəmbərin (s) üzündə qəzəbin nişanələrinin zahir olduğunu gördüm. Belə bir məktubu gətirdiyim üçün çox peşman oldum. Özümə bəraət qazandırmaq üçün belə bir işə Xalidin göstərişi ilə qol qoyduğumu bildirdim. Əlavə etdim ki, mənim yüksək rütbəli şəxslərin əmrinə tabe olamqdan başqa çarəm yox idi. Mənim sözüm qurtardıqdan sonra bir neçə dəqiqə məclisdə sükut hökm sürdü. Birdən Peyğəmbər (s) sükutu pozub dedi: "Əli (ə) barəsində bədgümanlıq etməyin. O məndən, mən ondanam. O məndən sonra sizin rəhbərinizdir". Mən öz etdiyim işdən çox peşman oldum və Peyğəmbərdən (s) xahiş etdim ki, məni bağışlasın. Peyğəmbər (s) buyurdu ki, Əli (ə) gəlməyincə belə bir işə razı olmaram və sənə Allahdan istiğfar (bağışlanmaq) istəmərəm. Nəhayət, Əli (ə) gəldi. Xahiş etdim ki, Peyğəmbərə (s) mənim barəmdə istiğfar etməsini istəsin".** (**"Usdül-Ğabə"**, 1-ci cild, səh. 176; **"Əd-Dərəcatür-Rafiə"**, səh.401).

Bu hadisədən sonra Bureydə Xalid ilə dostluğunu kəsib, ixlas və hörmət əlini Əliyə (ə) tərəf uzatdı. Hətta Peyğəmbərin (s) vəfatından sonra da o, xəlifə Əbu Bəkrə (r) beyət etmədi. Hətta Əbu Bəkrdən (r) hesabat istəyib onu rəsmiyyətlə tanımayan on iki şəxsdən biri oldu. (Maməqaninin **"Rical"** kitabı, 1-ci cild, səh. 199)

Yuxarıda qeyd etdiklərimiz Mövla Əli (ə) ədalət məktəbinin demək olar ki, bir damlasıdır. Aşağıda onun ədalət məsələləri ilə bağlı bəzi məqamları oxucuların diqqətinə çatdırırıq.

Bildiyimiz kimi, insanın bir insan kimi ehtiyacı təkcə su, çörək, paltar və mənzillə bitmir. Bunlardan əlavə insanın ruhi ehtiyacları, fikri tələbləri və mənəvi istəkləri vardır ki, onların təmin edilməsi olduqca mühümdür. Bunlardan biri də ictimai ədalətin genişlənməsi və bərqərar olması, cəmiyyətdəki ayrıseçkiliyin aradan götürülməsi, fərqqoyma və ikitirəlik hallarının qarşısının alınmasıdır.

Cəmiyyətdəki ictimai tarazlığı qoruyub saxlayan əsas qüvvə ədalət və hüququn qorunması, qanunçuluğa riayət edilməsidir. Bu iş cəmiyyəti süqut etməkdən qoruyur, ümumi razılığı təmin edir, cəmiyyətin varlığına sağlamlıq və təravət gətirir. Zülm, çövür, sitəmkarlıq, ayrıseçkilik nəinki zülm çəkənlərin və ya haqqı tapdananların ruhunu, hətta zalım sitəmkarın özünün ruhunu da razı salıb xatircəm edə bilməz.

Mövla Əli (ə) ədalətin bariz nümunəsi, insan hüququnun qorunması və təminatının nümunəvi meyarı idi. Mövla Əlinin (ə) 63 illik həyatı həmin ifadədə – ədalət sözündə xülasə olunur. Mövla Əlidə (ə) ədalət kəsb edilmiş və keçib gedən bir iş kimi anlaşılmırdı, o bir üsul və məhzəb idi...

Ağıllı, hüşlu və arif bir adam Əlindən soruşur:

- Ədalət şərafətlidir, yoxsa səxavət və bağışlamaq?

Mövla Əli (ə) cavabında buyurur:

- Ədalət hər hansı bir işi öz təbii yoluna və axarına yönəldir, səxavət və bəxşiş isə onları öz təbii və həqiqi hüquqlarını diqqət mərkəzində saxlayır. Ədalət hər kəsə öz ləyaqət, istedad və bacarığına görə qiymət verir, bəxşiş etmə isə adi və təbii axarı bir-birinə qarışdırır.

Mövla Əli (ə) qələbə çalıb hakimiyyətə yetişdikdən sonra keçmiş rejimin tör-töküntülərindən bir qismi istədi ki, onların istifadəsinə verilən var-dövlət və keçmiş hökumət aparatı tərəfindən bir sıra yaltaqlara, ikiüzlülərə verilən əmlak onların ixtiyarında qalsın.

Mövla Əli (ə) onların cavabında buyurdu: **"Köhnə haqqı heç bir ağıllı adam batil edə bilməz və görməməzliyə vurmaz. Allaha and olsun, o mallar qadınların mehriyyəsi olsa belə və ya o**

malların vasitəsilə kənizlər satın alınmış olsa, yenə onları beytül-malın hesabına qaytaracağam".

Mövla Əli (ə) ədalət və hüquq mühafizəsində o qədər dəqiq və aşkarlıq tərəfdarı idi ki, ümumi istəkləri təmin edə bilirdi. Ədalətin icrası təmin olunmayan bir cəmiyyətdə zülm, cövr və haqsızlığın məngənəsində sıxılan xeyirxah dostlarından bir dəstəsi Əlinin hüzuruna gəlib təmiz ürəklə tələb edirlər ki, daha mühüm mənafelərin qorunması xatirinə öz siyasətində müəyyən yumşaqlıq göstərsin. Təklif edirlər ki, hay-küyçülərin baş ağrısından rahat olmaq üçün İmam gərək İslam başçılarından bir sıra şəxsiyyətlərə - nüfuz sahiblərinə müəyyən qədər güzəştə getsin. Onların dəlili bundan ibarət idi ki, Müaviyə Suriya kimi qızıl çıxan və gəlirli əyaləti öz ixtiyarında saxlasın. Hələlik daha böyük mənafelərin xatirinə bərabərlik mövzusu və proqramı üzərindən sükutla keçməyin nə maneçiliyi vardır – deyə Mövla Əlini dunyavi siyəsətə çəkmək istəyirdilər.

Mövla Əli (ə) onlara cavabında buyurdu: **"Siz istəyirsiniz ki, hakimiyyəti ayrıseçkilik və zülm bahasına ələ keçirim, ədaləti siyasət və siyasətbazlıq ayağında qurban verim? Yox! And olsun Allaha, neçə ki, dünya durur, belə etməyəcəyəm, belə işin ardınca getməyəcəyəm. Mən və ayrıseçkilik? Heç vaxt belə iş baş tutmaz!**

Mən və ədalətin, bərabərliyin ayaq altında tapdalanması? Xeyr! Heç vaxt belə iş mümkün deyil. Bir hökumət kimi əgər mənim əlimdə olan bütün mallar şəxsi əmlakım və öz zəhmətimin məhsulu olsaydı, onu camaat arasında bölmək istəyim, həyata keçsəydi, heç vaxt ayrıseçkiliyə yol verməzdim. O ki qaldı bu mala, Allah malıdır, beytülmala aiddir, mən Allahın əmanətini qoruyanam".

Mövla Əlinin (ə) ictimai və fərdi həyatına dair çoxlu dastan və rəvayətlər var. Hər bir müsəlmanın ictimai və fərdi həyatında bir məktəb, örnək ola bilər. Nümunə üçün Sövdə adlı şücaətli, fədakar bir qadının dilindən söylənilən hadisəni xatırlamaq yerinə düşər. Bu hadisə o zamankı İslam dünyası həqiqətlərinin çoxundan xəbər verir. Hadisə belə baş vermişdir:

- İş vaxtı qurtarmışdı. Müaviyə, onun yaxın adamları və ətrafına toplaşanlardan bir neçəsi oturmuşdular və ordan-burdan danışırdılar. Qapıçılardan, biri daxil olub, təzim etdi və dedi:

- Xəlifə sağ olsun, iraqlı bir qadın var, özünü Sövdə kimi təqdim etmişdir. Deyir ki, yenicə İraqdan gəlib, Xəlifə ilə təcili və zəruri işi vardır. Hüzuruna gəlmək istəyir. Müaviyə bir an fikrə getdi və yavaşca, dodaqaltı pıçıldadı: **"Sövdə"**...

Sonra dedi:

- İcazə verin gəlsin. Ucaboylu bir qadın daxil oldu, əynində sadə bir paltar vardı. Qiyafəsindən bəlli olurdu ki, ağır ruzigar keçirib, həyatın eniş-yoxuşu belini əyib, vaxtından tez qocalmağa başlayıb. Bəlkə də o günə kimi Xəlifəni şadlandırmaq və əyləndirməkdən savayı başqa bir məqsədlə heç bir qadının ayağı bu saraya dəyməmişdi. Sövdə salam verdi və cavab eşitdi.

Müaviyə soruşdu:

- Sən Əmmarə Həmədaninin qızı deyilsən?

- Bəli.

- Sən o adam deyilsən ki, Süffeyn davasında öz qəbilə kişiləri ilə bərabər Əlinin (ə) ordusunda idin. Bir gün isə döyüşün qızğın çağında öz qardaşını ruhlandırmaq üçün bu şerləri qoşdun: **"Əmir oğlu! Döyüş günündə vuruşan ərlər üzbəüz dayanırlar. Sən atan kimi himmət qolunu çırmala və mərdliklə vuruş. Əli, Hüseyn və risalət nəslinə yardım et, kömək göstər. Hind və onun oğlunu xar və zəlil et. Bizim rəhbərimiz Əlidir, Peyğəmbərimiz Həzrət Mühəmmədin (s) əziz qardaşı, hidayət bayraqdarı, iman və təqvanın parlaq çırağının məşəlidir."**

- Bəli, Müaviyə, mən idim. Allaha and olsun mən elə adam deyiləm ki, haqq və sədaqətdən üz döndərəm. Həqiqəti pərdələyəm və ya yersiz üzr istəyəm. O gün bu şerləri oxuyan mən idim.

- Yaxşı, o gün nə marağın və hansı məqsədin var idi?

- Əlinin (ə) dostluğu, haqqın ardına getmək, doğru rəhbərliyə vəfadarlıq göstərmək.

- Mən güman edirəm ki, Əlinin ardına getməkdən bir nəticə əldə etməmisən.

- Xahiş edirəm, keçmişimi xatırlama, unudulmuş xatirələri yenidən qaytarma. O gün başqa gün idi və bu gün başqa gündür.

- Belə bir şey heç vaxt mümkün deyildir. Mən heç vaxt qardaşını unutmaram. Ondan, başqa qohumlarından mənə dəyən ziyan başqa heç bir kimsədən dəyməmişdir.

- Doğrudur, qardaşım tanınmış adam deyildi. Onun mövqeyi, xidmətləri və fəaliyyəti, hiss və həyacanları həqiqət yolunun çırağı və həqiqət yolçularının yol göstərəni idi. Lakin indi vəziyyət dəyişib, biz öz başçımızı itirmişik, planlarımız yarımçıq qalıb. Yaxşısı budur ki, bu gündən danışaq, keçmişi unudaq.

- Yaxşı, de görüm istədiyin nədir?

Sövdə bir qədər dinmədi, özünə gəlib nəsihətamiz tərzdə söhbətə başladı:

- Müaviyə! Sən bu gün hökuməti və xalqa rəhbərliyi ələ keçirmisən. Millətin ehtiyacının ödənməsi və rifahının təminatı sənin vəzifəndir. Sənin məsuliyyətin adi adamlardan daha böyük və daha mühümdür. Sabah Allah-Təala səndən sorğu-sual edəcək ki, millətlə necə rəftar etdin? Onların qarşısında öhdənə götürülmüş vəzifələri necə yerinə yetirmisən? Sənin üsulundan və işçilərinin fəaliyyətindən görünür ki, öz vəzifəni düzgün yerinə yetirmisən. Sənin işçilərin, nümayəndələrin, əyalət və vilayət başçıları xudpəsəndlikdən öz mənfəətini güdməkdən, sizin şəxsi nüfuz və qüdrətinizi genişləndirməkdən başqa bir iş görməyiblər. Həmişə sizdən danışırlar, sizə yaltaqlanırlar, camaatla kobud rəftar edirlər, bizi quru sünbül çöpləri kimi biçirlər, xırman döyən öküz kimi vələ qoşurlar. Bir tərəfdən bizi təhqir edir və həqarətlə baxır, başqa bir tərəfdən isə ağır, dözülməz və ağlasığmaz vergilər tələb edirlər. Büsr ibn Ərtat adlı təzə vilayət başçısı sənin adının və qüdrətinin köməyi ilə qəbiləmizə gəldi, bizim nəslin kişilərini öldürdü, mal-dövlətimizi qarət elədi. İndi də bizi yava danışmağa məcbur edir. Allah bizim qabağımıza o günləri gətirməsin ki, belə yava sözlər danışaq, Əlinin (ə) dostluq və vilayətindən bizar olaq. Biz dava-dalaş və qarşıqlıq düşməsini istəmirik. Yoxsa bizim igidlərimiz və güclü adamlarımız hələ tükənməyib. İndi mən sizdən iki məsələnin yerinə yetirilməsini istəyirəm: ya onu vəzifəsindən kənar et, onda bütün qəbilə camaatının təşəkkürünü qazanarsan. Ya da mənim sözlərimə etina göstərməsən, səni necə ki, varsan hamıya belə də tanıdacağam.

Müaviyə onu diqqətlə dinləyirdi. Gözləmirdi ki, məğlub edilmiş düşmən qəbiləsindən olan bir qadın onun qarşısında bu cür sözlər danışsın. Çox qəzəbləndi və qışqırdı:

- Sövdə, məni qorxudursanmı? İndi əmr edərəm səni dəlisov bir dəvəyə mindirsinlər və öz vilayət başçınızın yanına göndərsinlər. Qoy o özü necə istəsə, sənlə rəftar etsin.

Ətrafa ölüm sükutu çökdü. Müaviyənin yanındakılar qorxudan başlarını aşağı salmışdılar, kimsə söz danışmağa cürət etmirdi. Xəlifənin qəzəbindən qorxub dəhşətə gəlməyən yeganə adam Mövla Əli (ə) məktəbinin yetirməsi, əzab çəkmiş və zülm görmüş bu qadın idi. O Mövla Əli (ə) hökumətinin keçmiş şirin xatirələrini yada saldı, bu şerləri zümzümə etdi. Müaviyəni məsələdən xəbərdar etmək istədi. Onun şerinin məzmunu belə idi:

"Onun pak ruhuna Tanrının salamı olsun!
İndi o qəbrin ağuşunda rahatlanıb.
Ədalət və insaf onunla torpağa tapşırıldı.
Haqqın salamı və rəhməti bu ruha olsun ki,
Həmişə haqq ilə həmpeyman idi.
Və heç nəyə görə ondan əl çəkməzdi.
Həmişə haqqın, imanın və sədaqətin keşikçisi idi"…

Müaviyə soruşdu:

- Bu keyfiyyətləri söyləyərkən kimi nəzərdə tutursan?

- Bu şəxs ancaq Əli ibn Əbu Talibdir.

- Bəli, məqsədim odur. Həmişə ədalət və insafın köməkçisi, zülm çəkənlərin və əzaba qatlaşanların arxası o idi. Müaviyə, mən Əli (ə) hökuməti dövranından bir mövzunu nəql edəcəyəm ki, bu gün sənin üçün faydalı ola bilər. Bir gün onun nümayəndələrindən biri ilə aramızda ixtilaf düşdü. Şikayət üçün onun yanına getdim. Ehtiyat və vacib olmayan namaz qılmaqla məşğul idi. Məni gördü və başa düşdü ki, təcili işim var. Namazı qısaltdı və mehribanlıqla soruşdu:

- Bir ehtiyacın var?

Vəziyyəti ona aydınlaşdırdım, işçisinin pis rəftarını və kobudluğunu söylədim. Mənim şikayət, ehtiyac və istəklərimi eşidən kimi məsum göz yaşı axıtdı. Mirvari damlalar yanaqlarında diyirləndi və səmavi çöhrəsini qat-qat cazibədar etdi. Sonra əllərini göylərə tərəf tutub belə söylədi: **"Ey Allah! Sən agahsan, mən heç vaxt öz nümayəndələrimə göstəriş verməmişəm ki, kimsəyə zülm etsinlər, başqalarının haqqında sitəmə yol versinlər, haqqın yerinə yetirilməsində bir şeyi əsirgəsinlər və ya əksiltsinlər".**

Bu cümləni dedi, dərhal bir parça dəri götürdü, belə yazdı: **"Bağışlayan və mehriban Allahın adı ilə! Tanrı tərəfindən sizin üçün aşkar dəlillər gəlmişdi. Xalqın haqqını və payını bütövlüklə özünə verin. Xalqın hüququnu kəsirdə qomayın. Yer üzündə fitnə-fəsad etməyin. Bu məktub sənin əlinə yetişərkən aldığın mal-dövləti qoruyub saxla. Başqa bir məmur göndərəcəyəm ki, onları sizdən təhvil alsın. Vəssəlam!"**

Məktubu mənə verdi, bununla da öz məmurunu vəzifədən kənar etdi.

Müaviyə ətrafındakıların üzünə diqqət yetirdi. Əlinin ədalət və hüquq üzərində tənzimlənmiş hakimiyyəti haqqında söhbəti eşidərkən onun məktəbində yetişənlərin igidlik, qorxmazlıq və şücaətindən heyrətə düşüb, heyran qalmışdılar. Öz məğlubiyyətinin əvəzini çıxmaq və varlığını bildirmək üçün göstəriş verdi ki, vilayət başçısına bir məktub yazsınlar. Göstərsinlər ki, bu qadınla insaf və ədalətlə rəftar etsin.

Sövdə dedi:

- Niyə təkcə mənimlə? Yalnız mənimlə?

Müaviyə dedi:

- Sənin başqaları ilə nə işin var?

Sövdə:

- Heç vaxt! Bu iş rəva və düzgün deyil, zillət və alçaqlıqdır. Əgər ədalət qanunu icra edilməlidirsə, gərək qəbilənin bütün adamları onun bayrağı altında himayət tapsınlar, yoxsa mənim qanım başqalarından qırmızı deyil ki...

Müaviyə bir qədər yerində qurdalandı və bir daha gözlərini qadına zilləyərək dedi:

- Bəli, Əli ibn Əbu Talib sizi yetişdirib ki, hökmdarların qarşısında bu cür qorxusuz, cəsarətlə danışırsız.

Katibə və mirzəyə göstəriş verdi ki, bu qadının istədiyi kimi yazsınlar…

Bu hadisə Mövla Əli (ə) məktəbində yetişənlərin və Mövla Əlinin (ə) özünün ədalət, insaf, demokratiya və azadlıq ideallarının canlı tablosu və gözəl ifadəçisidir. Tarix səhifələrində Əməvi hökuməti dövründən çoxlu şahidlər və nümunələr vardır. Araşdırıcı və tədqiqatçılar əgər istəsələr tarixin künc-bucağından belə saysız rəvayətlər tapa bilər. Bəhs etdiyimiz hadisə isə yüzlərlə nümunədən biridir.

Vəssəlamu əleykum və rəhmətullahi və bərakatuhu.

İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ

Mövla Əli (ə) istər Peyğəmbərin (s) sağlığında, istər ilk üç xəlifənin hakimiyyəti dövründə, istərsə də öz zahiri xilafəti illərində çox möcüzəli qəzavətlər (məhkəmələr) etmişdir. Mövla Əlinin (ə) qəzavətləri onun elmindən və ədalətindən qaynaqlanırdı. Onun ən ədalətli və düzgün hakim olması haqqında hədis və tarix kitablarında saysız-hesabsız rəvayətlər var.

Mövla Əlinin (ə) hər bir qəzavətdə haqlı olmasının səbəbi imamətin gücü ilə hökm verməsində idi. Həzrət Mühəmməd Peyğəmbər (s) dəfələrlə onun barəsində ümmətə xitabən buyurmuşdur: **"Sizin aranızda ən yaxşı qazi Əlidir".**

Bu hədis şiə və əhli sünnə alimlərinin kitablarında dəfələrlə xatırlanmışdır. Mərhum Şeyx Müfid **"Əl-İrşad"** kitabında yazır: **"Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əli İbn Əbu Talib ümmətin ən elmlisi və məndən sonra ortaya çıxacaq mübahisəli məsələlərdə ən yaxşı qəzavət edən şəxsdir".** ("**İrşad**", c. 1, səh. 29)

Məşhur mötəzili alimi, **"Nəhcül-Bəlağə"**nin şərhcisi İbn Əbil Hədid Şafei Mövla Əlinin (ə) ən savadlı qazi olduğu barədə fikrinin bütün müsəlman alimləri tərəfindən qəbul olunduğunu qeyd edərək yazırdı: **"Bütün müsəlman məzhəblərində (həm şiə, həm sünni) rəvayət etmişdir ki, Peyğəmbər buyurmuşdur: "Sizin aranızda ən yaxşı qazi Əlidir". Qəzavət fiqh deməkdir. Deməli, Əli fiqhi hamıdan yaxşı biləndir".** (**"Nəhcül-Bəlağə"**, İbn Əbil Hədid, c. 1, səh. 15)

Hənəfi məzhəb Şeyx Süleyman Qunduzi **"Yənabiül-Məvəddəh"** kitabında rəvayət edir: **"Peyğəmbər buyurmuşdur: "Ümmətin ən yaxşı qazisi Əli ibn Əbu Talibdir".** ("**Yənabilü-Məvəddə**", s.1, səh. 215)

Ənəs İbn Malikdən rəvayət edirlər ki, Həzrət Mühəmməd (s) öz səhabələrindən hərəsini bir sahədə seçib ayırmışdır. Mövla Əlini (ə) də qəzavət elmi sahəsində seçərək başqalarından üstün saymışdır.

Həmçinin, rəvayət edirlər ki, Həzrət Peyğəmbər (s) İmam Əlinin (ə) qəzavətlərini eşitdikdə buyurmuşdur: **"Allaha həmd olsun ki, hikməti biz Əhli-Beytdə qərarlaşdırdıq".** (**"Yənabilül-Məvəddəh**", c. 1, səh. 225)

Buna oxşar hədisi Şeyx Küleyni də rəvayət etmişdir: **"Allaha həmd olsun ki, peyğəmbərin yolu ilə hökm edən şəxsi (yəni Əlini) mənim Əhli-Beytimdən qərar verdi".** (**"Üsuli-Kafi"** c. 7, səh. 352)

Şeyx Müfid isə **"Əl-İrşad"** kitabında rəvayət edir ki, Peyğəmbər (s) Həzrət Əlinin (ə) verdiyi hökmü eşidəndə buyurmuşdur: **"Allaha həmd olsun ki, Davud peyğəmbərin (ə) yolu ilə hökm verən şəxsi (yəni Əlini) bizə Əhli-Beytdən qərar verdi".** (**"İrşad"**, c. 1, səh. 186).

Sünən İbn Macədə Həzrət Əlinin (ə) öz dilindən aşağıdakı rəvayət xatırlanır: **"Allahın Rəsulu məni qazilik etmək üçün Yəmənə göndərəndə dedim: "Ey Allahın Rəsulu! Məni qaziliyə təyin etdin, halbuki mən qəzavət qaydalarını tam bilməyən cavan, təcrübəsiz bir adamam. Bu zaman Peyğəmbər əlini mənim sinəmə qoyub buyurdu: "İlahi, bunun qəlbini hidayət et, dilinə səbat və tutarlılıq ver"! Allaha and olsun ki, bu duadan sonra hətta iki nəfər arasında hökm verərkən belə, heç zaman şəkkə düşmədim".** (**"əl-Kutubi-Sittə"**, səh. 2615, **"Şünən İbn Macə"**, hədis. 2310, səh. 280; **"Üsuli-Kafi"**, c. 4, səh. 22; **"İrşad"**, c.1, səh. 185-186)

Ən maraqlısı ondan ibarətdir ki, Mövla Əlinin (ə) yalnız dostları deyil, hətta müxalifləri də onun ən ədalətli qazi olduğunu etiraf edir və ondan yardım diləyirdilər.

Xəlifə Ömər (r) qarşısına çıxan çətin məsələlərdə tez-tez Mövla Əliyə (ə) müraciət edirdi. O, dəfələrlə etiraf etmişdir: **"Hamımızın içində ən yaxşı qəzavət edən Əlidir".** (**"əl-Kutubi-Sittə"**, səh.367; **"Səhihi-Buxari"**, həd. 4481)

Tarixçilərin yazdığına görə, Xəlifə Ömər (r) dəfələrlə söyləmişdir: **"Əgər Əli olmasaydı, Ömər həlak olardı".** (FÜS/səh. 35; HƏD c. 1,

səh. 15; oxşar hədislər üçün bax: **"Yənabilüd Məvəddə"**, c. 1, səh. 227)

Həmçinin, Xəlifə Ömər (r) deyirdi: **"Allahım, mənə elə bir gün göstərmə ki, qarşıma çətin məsələ çıxsın və Əbul-Həsən (yəni Əli) yanımda olmasın".** (Füs/səh. 35; HƏD, c. 1, səh. 15; oxşar hədislər üçün bax: **"Yənabiüd Məvəddə"**, c. 1, səh. 227)

İbn Əbi əl-Hədid Mötəzili Şafei yazır: **"Ömər tapşırmışdı ki, Əli (ə) məsciddə olduğu zaman heç kim fətva verməsin".** (yəni Əli (ə) hamıdan elmli olduğu üçün hadisələrə fətva vermək ixtiyarı da ona məxsusdur) (HƏD/s.1, səh. 15)

Əhli-sünnə alimləri etiraf etmişlər ki, **"Əgər Əli olmasaydı, Ömər həlak olardı"** cümləsini Xəlifə Ömər (r) bir dəfə deyil, dəfələrlə söyləmişdir. Rəvayətlərə nəzər saldıqda məlum olur ki, Ömər (r) bu cümləni təqribən 16 dəfəyə yaxın təkrar etmişdir. Yəni İmam Əli (ə) təqribən 16 dəfəyə yaxın Öməri (r) çətin vəziyyətdən çıxararaq məsələnin yolunu ona göstərmişdir. (İNS/səh. 321)

Əhli-sünnənin məşhur alimi Əllamə Mənavi **"Feyzül-Qədir"** kitabında Xəlifə Ömərin (r) dilindən: **"Əgər Əli olmasaydı, Ömər həlak olardı"** sözlərini xatırladıqdan sonra qeyd edir ki, Xəlifə Əbu Bəkr (r) zamanında da belə hadisələr olmuşdu. Yəni Həzrət Əli (ə) hökm verdikdən sonra Xəlifə Əbu Bəkr (r) demişdi: **"Əgər Əli olmasaydı, Əbu-Bəkr həlak olardı". (Feyzül-Qədir, c. 2, səh. 274)**

İbn Əsir **"Üsdul-Ğabə"** kitabında yazır: **"Bəzi səhabələrin dediyinə görə, Əlinin (ə) elə nümunəvi və iftixarlı keçmişi vardır ki, onun savablarını bütün insanların arasında bölsələr, adamların hamısı xeyir qazanar. Əgər biz Ömər və başqa səhabələrin Əliyə (ə) müraciət etmə hallarının hamısına toxunsaq, məsələ çox uzanar".** (**"Üsdul-Ğabə"**, c. 4, səh. 23)

Zaman-zaman Xəlifə Osman ibn Əffan (r), Müaviyə, Aişə, Abdullah ibn Ömər kimi müxaliflər də çətinlik qarşısında qaldıqda Mövla Əliyə (ə) müraciət etmiş, onun biliyindən faydalanmışlar. (**"Üsdul-Ğabə"**, səh. 239; "**Feyzül-Qədir"**, c. 1, səh. 274)

İbn Abbas təsdiq edrdi ki, hər hansı şəxs bir məsələ barədə Əlidən (ə) hədis rəvayət edib hökm verirsə, biz etiraz edib başqa fətva vermirik. Həmçinin, İbn Məsud söyləmişdir ki: "Mədinə əhalisi arasında ən yaxşı qazilik edən şəxs Əlidir (ə)" (SƏV /səh.288).

Mövla Əli (ə) də kəlamlarında özünün hamıdan elmli və ədalətli olduğunu bəyan etmiş və xalqı bu elmdən bəhrələnməyə çağırmışdır. Rəvayət edirlər ki, Mövla Əli (ə) xilafətə çatdıqdan sonra minbərə çıxıb buyurdu: **"Ey camaat, nə qədər ki, məni itirməmisiniz, bilmədiklərinizi məndən soruşun. Məndən soruşun ki, əvvəldə və axırda olanlar haqqında biliklər mənə məlumdur. Əgər hökumət taxtında əyləşsəm, "Tövrat" əhlinə (yəhudilərə) "Tövrat"la, "İncil" əhlinə (xristianlara) "İncil"lə, "Zəbur" əhlinə "Zəbur"la, "Quran" əhlinə (müsəlmanlara) "Quran"la qəzavət edərəm. Bu kitabların hər biri dil açıb deyər ki, İlahi, Əli sənin hökmlərin əsasında qəzavət etdi".** (**"İrşad"**, c. 1, səh. 29-30; **"Amali"**, səh. 341)

Mövla Əlinin (ə) qəzavət zamanı ədalət və düzlüyünü təsəvvür etmək üçün onun öz tabeliyində olan qazilərə qarşı tələbkarlığını müşahidə etmək kifayətdir. Onun hər bir vilayətə vali təyin edərkən, ona qəzavət işlərində, xüsusilə diqqətli olmağı tapşırırdı. Nümunə üçün İmam Əli (ə) tərəfindən Misirə vali göndərilən Malik Əştərə ünvanlanmış məktubdan bəzi sətirlərə diqqət yetirək. Mövla Əli (ə) idarəçilik sahəsində Malik Əştərə verdiyi müxtəlif məzmunlu tapşırıqların birində buyururdu: **"…Rəiyyət içində ən üstün şəxsi qaziliyə təyin et. Həmin şəxs işin çətinliyindən darılmasın, tərəflərin mübahisəsini həll edərkən qəzəb və kin-küdurət nümayiş etdirməsin, səhvə yol versə, inad göstərib səhvində israr etməsin, haqqı almayan zaman onu qəbul etməkdən boyun qaçırmasın. Gərək qazinin ruhuna tamahkarlıq yol tapmasın, hər məsələni həll edərkən işin dərinliyinə getməmiş tələsik hökm çıxarmasın. Qaziliyə elə adamı təyin et ki, şübhəli məsələlərdə ən uzaqgörən və ehtiyatlı, haqqı üzə çıxarmaqda ən möhkəm, şikayətlərə qulaq asmaqda ən səbirli, məsələləri həll etməkdə ən dözümlü,**

çıxardığı hökmü həyata keçirməkdə ən qətiyyətli olsun! Təriflər onu aldatmasın, yaltaq məddahlar onu yolundan azdırmasın! Belə adamların sayı çox azdır. Qazinin işlərinə həmişə nəzarət et, onun bütün maddi tələblərini ödəməyə çalış ki, camaatdan rüşvət almasına ehtiyac qalmasın. Qazi üçün şərait yarat ki, ətrafdakıların heç biri onun vəzifəsinə göz dikməsin, qazi də vəzifə başında özünü asudə hiss etsin, başa düşsün ki, dövlət adamlarının çəkişmələrindən amandadır…" (**"Nəhcül-Bəlağə"**, səh. 777-778, məktub 53)

Həzrət Əlinin (ə) bütün qəzavətlərini bir yerə toplayıb sadalamaq bəşər övladının imkanı xaricindədir. Çünki istər şiə, istərsə də əhli-sünnə alimlərinin yüzlərlə kitablarının səhifələri belə qəzavətlərin təsviri ilə doludur. Tarixdə bəzi alimlər sırf bu mövzuda irihəcmli kitablar yazmışlar.

Müəlliflərin əksəriyyəti İmamın (ə) qəzavətlərini dövrlər üzrə bölmüş, əvvəlcə Peyğəmbərin (s) sağlığında, sonra isə Xəlifə Əbu Bəkr (r), Xəlifə Ömər (r) və Xəlifə Osmanın (r) zamanında, sonda isə öz xilafəti dövründə etdiyi qəzavətləri qeyd etmişlər.

Şeyx Müfid **"Əl-İrşad"** kitabında, İbn Şəhraşub isə **"Mənaqib"** kitabında bu yolla getmişlər.

Amma son əsrin məşhur alimlərinldən sayılan mərhum Ayətullah Şeyx Mühəmməd Təqi Şüştəri **"Əmirəlmöminin Əlinin Qəzavətləri"** kitabında İmamın qəzavətlərini zaman üzrə deyil, mövzu üzrə bölərək 54 fəsildə toplamışdır.

Həzrət Əlinin (ə) qəzavətləri öz orijinallığı ilə seçilir. İmam Əlinin (ə) hökm və qəzavətlərinin əhəmiyyətini bir neçə sahədə müşahidə etmək mümkündür. Bu sahələrdən bəzilərinə aşağıda qısaca işarə edirik:

O Həzrət öz qəzavətləri ilə fiqh elminə yeniliklər gətirmişdir. İmam Əlinin (ə) fətvaları fəqihlər və müctəhidlər üçün mənbə rolunu oynamış, onlar şəriət məsələlərini öz kitablarında izah edərkən, bu fətvalara əsaslanmışlar.

ƏLİNİN (Ə) PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN TƏQDİM OLUNMASI

"Ümmətin islami sünnələrə və qəzavət qanunlarına ən biliklisi Əli ibn Əbu Talibdır (ə)". Bu məktub İmamın (ə) pak ruhiyyəsindən Əli ibn Əbu Talibədir.

Onlar əziz Peyğəmbərdən (s) eşitmişdilər ki, o həzrət Zeyd ibn Sabit, Übeyy ibn Kəb kimi şəxslərlə tanış olanda Əli (ə) barəsində buyurmuşdu: **"Sizin içinizdə qəzavət üsullarını ən yaxşı bilən Əlidir".** (**"Kifayətül-Talib"**, Nəcəf çapı, səh. 190)

Hələ Peyğəmbərin (s) kəlamının əks-sədası səhabələrin qulaqlarında idi ki, buyurdu: **"Mən elm şəhəriyəm, Əli onun qapısıdır. Hər kəs bu şəhərə daxil olmaq istəsə, gərək həmin qapıdan gəlsin".**

Belə olan halda xilafət aparatı və Peyğəmbərin (s) dostları öz müşküllərini niyə İmam Əli (ə) ilə həll etməsinlər və qulaqları ilə eşitməsinlər. Onlar öz gözləri ilə görmüş ki, Yəmən əhalisi Peyğəmbərə (s)) **"Bizə elə bir adam göndər ki, dini bizə başa salsın, İslam qanunlarını bizə öyrətsin və Allahın kitabı ilə qəzavət etsin"**,- deyəndə Rəsuli – Əkrəm (s) Mövla Əliyə (ə) üz tutub dedi: **"Ya Əli! Yəmənə tərəf yola düş və Allah dinini onlara öyrət, onları İslam qanunları ilə tanış et və onların arasında Allahın kitabı ilə qəzavət et.** (Sonra əlini Əlinin (ə) sinəsinə vurub dedi:) **Get! Allah sənin qəlbini haqqa tərəf hidayət edəcək, sənin dilini səhvdən və xətadan qoruyacaq".**

Həzrət Peyğəmbərin (s) Mövla Əli (ə) barəsində etdiyi dua elə qəbul olunmuşdu ki, İmam (ə) sonralar buyururdu: **"O zamandan indiyə kimi heç bir müşküldə şəkk etməmişəm".**

PEYĞƏMBƏR (S) DÖVRÜNDƏ ƏLİNİN (Ə) QƏZAVƏTİ

Mövla Əli (ə) təkcə xəlifələrin dövründə ən yaxşı hakim və ümmətə qarşı haqla qəzavət edən yeganə qazi deyildi. O, hələ Peyğəmbərin (s) dövründə də Yəməndə və Mədinədə camaatın ən gözəl qəzavətçisi olmuşdur. Həzrət Peyğəmbər (s) həmişə Mövla Əlinin (ə) qəzavətlərini iftixarla tərifləyir və bu yolla da özündən sonra İslam cəmiyyətinin qəzavət mərceyini camaata tanıtdırırdı.

Burada Peyğəmbərin (s) öz dövründə təsdiq etdiyi qəzavətlərindən bəzi nümunələri qeyd edirik.

Peyğəmbər (s) tərəfindən Yəmənə ezam olunan Həzrət Əlinin (ə) yanında belə bir hadisə baş verdi:

- Şiri ovlamaq istəyən bir neçə şəxs onu dərin bir çalada mühasirəyə almışdılar. Birdən onlardan birinin ayağı sürüşdü və o, canını hifz etmək üçün yanındakının əlindən yapışdı, o da o birisinin və beləliklə dördü də çalaya düşdü. Şir onlara həmlə edib yaraladı. Onların hamısı yaranın təsirindən öldülər. Onların yaxın adamlarının aralarında dava düşdü. İmam Əli (ə) hadisədən xəbərdar olduqda buyurdu: **"Mən sizin aranızda qəzavət edərəm, əgər mənim qəzavətimə razı olmasanız, davanı Peyğəmbərin (s) hüzurunda apararsınız. Dörd nəfərdən birincisinin qəyyumuna dörddə bir diyə, ikincinin qəyyumuna üçdə bir, üçüncünün qəyyumuna yarım diyə, dördüncünün qəyyumuna isə tam bir diyə verilməlidir".**

İmamdan soruşdular:

- Nə üçün birincinin qəyyumuna dörddə bir diyə verilməlidir.

İmam buyurdu:

- Çünki ondan sonra üç nəfər ölmüşdür. İkinci şəxsin qəyyumuna üçdə bir diyə verilməlidir. Çünki, ondan sonra iki nəfər ölmüşdür. Üçüncü nəfərin qəyyumuna yarım diyə verilməlidir, çünki ondan sonra bir nəfər ölmüşdür, dördüncü nəfər üçün tam diyə ödənilməlidir, çünki o, öldürülən axırıncı şəxsdir. (**"Vəsailüş-Şiə"**, 19-cu cild, səh. 175)

Öldürülənlərin yaxın adamları İmamın qəzavətinə razı olmadılar və Mədinəyə gedib əhvalatı Peyğəmbərə (s) danışdılar.

Peyğəmbər (s) buyurdu: **"Əlinin (ə) etdiyi qəzavət doğrudur".** (**"Vəsailüş-Şiə"**, 19-cu cild, səh. 175)

Bu qəzavəti sünni və şiə hədisçiləri qeyd olunduğu kimi nəql etmişlər. Başqa bir hədisdə isə belə nəql olunur.

Mövla Əli (ə) buyurdu: **"Məsələnin şərhi belədir. Birinci adam şirə yem olmalı idi. Bu zaman onun diyəsi heç kimin boynuna düşmürdü. Lakin birincinin qəyyumu ikincinin qəyyumuna üçdə bir diyə qədər verməlidir, ikincinin qəyyumu üçüncünün qəyyumuna yarım diyə miqdarında, üçüncünün qəyyumu dördüncünün qəyyumuna tam diyə verməlidir".**

Şiə alimləri əvvəlki hədisi düzgün hesab etmirlər. Çünki onun sənədində mötəbər olmayan şəxslər mövcuddur. Amma ikinci hədisə isə tamamilə etibar edirlər. Bu qəzavətdə mühüm nöqtə budur ki, İmam dördüncü şəxsin qan bahasını əvvəlki üç nəfərin qəyyumları arasında bərabər şəkildə böldü. Beləliklə də, qanbahasının üçdə birini birinci şəxsin qəyyumu ikincinin adamlarına verməli, ikincinin qəyyumu onun üçdə ikisini (öz haqqının üçdə birini birincidən aldığının üstünə qoyub və) üçüncünün adamlarına, üçüncünün də qəyyumu tam diyə verməlidir. Yəni, əvvəlkindən aldığı üçdə iki miqdar diyənin üstünə üçdə birini qoyub tam diyə şəklində dördüncünün qəyyumuna verməlidir. Bu halda dördüncü şəxsin diyəsi bərabər olaraq əvvəlki üç nəfərin arasında bölünmüş olur. (**"Cəvahirül–Kəlam"**, 6-cı cild)

Bir gün Həzrət Peyğəmbər (s) müsəlmanlarla məsciddə oturmuşdu. İki nəfər içəri daxil olub aralarındakı mübahisəni danışmağa başladılar. Məsələ belə idi ki, birinin öküzu buynuzu ilə vurub digərinin heyvanını öldürmüşdü. Öküzün sahibi öldürülən heyvanın qiymətini verməyə zamindir, yoxsa zamin deyil. Müsəlmanlardan biri dərhal cavab verir ki, ağılsız bir heyvan heç kimin malına zamin ola bilməz.

Mərhum Kuleyninin yazdığına görə, Həzrət Peyğəmbər (s) Əbu Bəkr (r) və Ömərə (r) bu məsələni həll etmələrini tapşırdı. Onların hər

ikisi belə cavab verdilər: **"Bir heyvan başqa bir heyvanı öldürmüşdür, heyvan üçün də heç bir zəmanət yoxdur".**

Peyğəmbər (s) yenidən məsələni Mövla Əliyə (ə) həvalə etdi. İmam hüquq elmində istifadə olunan ümumi bir qanun irəli sürərək müşkülü həll edib buyurdu: **"Zərəri o kəs ödəməlidir ki, o, müqəssirdir və heyvan barəsində öz vəzifəsinə əməl etməmişdir. Əgər heyvanın sahibi öz heyvanını qorumaq üçün kifayət qədər çalışıb onu yaxşı yerdə saxlamış olsaydı, öküzün sahibi də öz vəzifəsinə əməl etməyərək onu buraxmış olsaydı, bu halda öküzün sahibi müqəssirdir və gərək ona dəyən ziyanı ödəsin, amma əgər cərəyan bunun əksinə olsa, o zamin deyildir".**

Həzrət Peyğəmbər (s) bu fövqəladə və bir ümumi qanunla yanaşı olan qəzavəti eşitdikdə əllərini göyə qaldırıb dedi: **"Allaha həmd olsun ki, mənim Əhli-Beytimdən peyğəmbərlər kimi qəzavət edən bir şəxs qərar vermişdir".** (**"Üsuli-Kafi"**, 7-ci cild, səh. 352; 6-7-ci hədislər). (**"Mənaqibi ibn-Şəhraşüb"**, 1-ci cild, səh. 488)

Əlbəttə, Əmirəlmöminin Əlinin (ə) Peyğəmbər (s) dövründəki qəzavətləri qeyd etdiyimizlə qurtarmır. O həzrətin Peyğəmbərin (s) sağlığında çoxlu heyrətləndirici qəzavətləri olmuşdur. (**"Biharul-Ənvar"**, 4-cü cild, səh. 219, 240)

ÖVLADIN HƏYATI NAMİNƏ

İmam Sadiqdən (ə) nəql etmişlər ki, Mövla Əli (ə) buyurmuşdur: **"Əgər ana öləndən sonra bətnində tərpənən (yəni diri) uşaq varsa, gərək qadının qarnını yarıb, uşağı oradan çıxarsınlar".** (**"Üsul-Kafi"**, c. 3, səh. 206)

İmamın bu fətvası fiqh elmində yeni bir istiqamət açmışdır. Müctəhidlərin əməliyyə risalələrindəki müvafiq hökmün mənbələrindən biri də elə bu hədisdir.

ÖLÜ SÜMÜYÜ

Mövla Əli (ə) xilafəti dövründə bir kişi dostunun evində əmanət qoyaraq, səfərə gedir. Uzun müddət keçəndən sonra məlum olur ki, kişi səfərdə vəfat etmişdir. Arvadı və azyaşlı uşağı əmanətin ardıycan gələndə, dostu, sən onun oğlu deyilsən deyərək əmanəti qaytarmaqdan imtina edir. Çoxsaylı şikayətlərə baxmayaraq əmanətin bu oğlana məxsus olmasını isbat edə bilmirlər. Nəhayət, arvad uşağla bahəm, Mövla Əlinin (ə) hüzuruna gəlir. Vəziyyəti danışdıqdan sonra Mövla Əli (ə) uşağa atasının qəbrindən bir sümük gətirməsini xahiş edir. Oğlan atasının qəbrindən bir parça sümük götürüb, məscidə gəlir. Həzrət əmanət olan adamı da çağıraraq, camaatın hüzurunda həmin sümüyü bir neçə nəfərə verib, iyləmələrini xahiş edir. Bir-bir həmin sümüyü iyləyirlər. Sonra Mövla Əli (ə) sümüyü uşağa verərək, iyləməsini xahiş edir. Dərhal uşağın burnundan qan açılır. Həzrət buyurur: **«Əgər uşaq sümük sahibinin övladı olmasaydı, digərləri kimi onun da burnundan qan açılmazdı».** Ətrafdakılar tərəddüd edərək: «Bu təsadüf də ola bilər» dedilər. Mövla Əli (ə) yenidən həmin səhnəni təkrar etdirib, sümüyü yenə də uşağa verdi. Uşaq sümüyü iyləyəndə ikinci dəfə burnundan qan açıldı. Mövla Əli (ə) buyurdu: **«Bunun özü gen məsələsidir».** Əlavə olaraq Həzrət qonşuları çağıraraq uşağın anasının kimin həyat yoldaşı olmasını şahidlər vasitəsilə də sübuta yetirdi. Bununla da əmanət uşağa təhvil verildi.

Qeyd: Maraqlıdır 14 əsr bundan əvvəl təbabətin heç cür inkişaf edə bilmədiyi bir dövrdə, müasir labarator cihazların olmadığı bir zamanda adi bir adam bu elmi haradan əxz edə bilərdi? Heç şübhəsiz bu məsələ İlahi qüvvə olmadan mümkün ola bilməz. Görünür ki, Mövla Əli (ə) bütün bu elmləri İlahi rabitə (elm lədünni) ilə əldə etmişdir. Bu bir daha Həzrəti Peyğəmbərin (s) buyurduğu: «Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır» hədisini təsdiqləyir. **(Müəllif M. Seyidzadə)**

OĞLANIN ANASI HANSIDIR?

Xəlifə Ömərin (r) hakimiyyəti dövründə Kufədə Şüreyh qazilik edirdi. Bir gün bir kişi onun yanına gəlib dedi: **"Tanışlarımdan biri iki qadını mənə tapşırmışdı ki, onlardan muğayat olum. Qadınlardan biri azad, digəri kəniz idi. Mən hər gün qadınlara baş çəkirdim. Bir gün gedəndə gördüm ki, qadınların hər ikisinin uşağı olub. Onlardan biri oğlan, o biri isə qız dünyaya gətirib. Amma qadınların hər ikisi iddia edir ki, oğlan onundur. İndi sənin yanına gəlmişəm ki, mənə yol göstərəsən."**

Şüreyh məsələni həll edə bilməyib Mədinəyə – Xəlifə Ömərin (r) yanına gedir və əhvalatı ona danışır. Xəlifə Ömər (r) səhabələri toplayıb onların fikrini soruşur. Heç kəs cavab verə bilməyəndə çıxış yolunu yalnız Mövla Əliyə (ə) müraciət etməkdə görürlər.

Mövla Əli (ə) məsələni dinlədikdən sonra yerdən bir ovuc torpaq götürüb buyurur: **"Bu məsələni həll etmək, əyilib yerdən torpaq götürməkdən asandır".** Sonra ona bir qab gətirmələrini əmr edir. O, qabı qadınların birinə verib deyir: **"Südünü qabın içinə tök".** Qadın döşündən qaba bir qədər süd tökür. İmam Əli (ə) qabı tərəzidə çəkib kütləsini müəyyən edir. Sonra qabı boşaldıb ikinci qadına verir. O da qabı həmin səviyyəyə kimi öz südüylə doldurur. İmam (ə) bu dəfə də qabı tərəzidə çəkir. Amma qadınların südünün çəkisi bərabər olmur, birinin ağır, o birininki yüngül gəlir.

Mövla Əli (ə) südü yüngül gələn qadına buyurur: **"Qız uşağı sənindir, götür apar!"**

O biri qadına söyləyir: **"Sən də öz oğlunu götür apar!"**

Bu qəzavəti seyr edənlər təəccüb içində qalırlar. Mövla Əli (ə) üzünü Xəlifə Ömərə (r) tərəf tutub buyurur: **"Allah-Təala kişi ilə qadın arasında fərq qoymuşdur. Qadına kişidən iki dəfə az miras verib, qız anasının südünü də oğlan anasının südündən yüngül edib".** (Qəzali/səh. 179-181)

İbn Şəhraşub rəvayəti nəql etdikdən sonra yazır ki, təbiblər uşağın oğlan və ya qız olduğunu ayırmaq üçün bu üsulu əsas tutmuşlar.

Həmçinin, məşhur fəqih, mərhum Şeyx Nəraqi **"Xəzani"** kitabında yazır: **"Əgər hamilə qadının oğlan, ya qız doğacağını qabaqcadan bilmək istəsən, qadının südünü qaba töküb üstünə su əlavə et. Əgər süd suyun üzünə qalxsa, oğlan doğulacaq, əksinə olsa, qız olacaq".** (Qəzali/səh. 179-181)

QIRX QADININ SUALI

Qırx qadın Xəlifə Ömərin (r) hüzuruna gəlib ondan insanın şəhvət hissiyatı barədə soruşdular. Xəlifə Ömər (r) cavab dedi: **"Kişinin şəhvəti bir hissədir, qadının şəhvəti isə doqquz hissədir".** (Yəni qadında şəhvət hissi kişidən doqquz dəfə güclüdür.)

Qadınlar soruşdular: **"Əgər belədirsə, niyə kişilərə həm daimi nikah bağlamağa, həm şiğə etməyə, həm də kənizlə yaşamağa icazə verilir, amma qadın yalnız bir kişiyə ərə gedə bilər?"** (Yəni niyə qadın eyni zamanda bir nəfərdən artıq kişiylə yaşaya bilməz, halbuki onun şəhvətini yatırmağa ehtiyacı daha çoxdur!)

Xəlifə qadınların sualına cavab tapa bilmədiyi üçün bu barədə Mövla Əliyə (ə) müraciət etdi. İmam Əlinin (ə) əmri ilə bir qazan gətirdilər. Mövla Əli (ə) qadınlara bu qazana hərəsinin bir qab su tökməsini əmr etdi. Sonra buyurdu: **"İndi hər kəs öz suyunu qazandan geri götürsün".**

Qadınlar dedilər: **"Biz tökdüyümüz suyu necə yığaq? Axı, sular qazanda bir-birinə qarışıb, onları ayırmaq qeyri-mümkündür".**

Mövla Əli (ə) bu cavabı eşitcək buyurdu: **"Əgər qadınlara da eyni vaxtda bir neçə kişi ilə yaşamağa icazə verilsəydi, doğulan uşağların kimə mənsubluğu məlum olmazdı (çünki qadının bətnində kişilərin toxumları qazandakı sular kimi bir-birinə qarışardı)".** (**Qəzali**/səh. 200)

DİVANƏ ŞƏXSƏ CƏZA DÜŞMƏZ

Xəlifə Ömərin (r) hakimiyyəti zamanında əqli cəhətdən geridə qalan bir qadını zina etdiyi üçün həbs etdilər. Xəlifə Ömər (r) ətrafında olanlarla məsləhətləşib qadına zina cəzası vermələrini əmr etdi.

Hadisədən xəbərdar olan Mövla Əli (ə) qadının nə günah etdiyini soruşdu. Əhvalatı ona danışdılar.

Mövla Əli (ə) xəlifənin yanına gəlib dedi: **"Məgər bilmirsənmi ki, üç cür adama cəza verilməz: dəlilik halında olana, yuxuda cinayət törədən şəxsə və həddi-büluğa çatmamış uşağa?"**

Bunu eşidən Xəlifə qadını azad buraxılması haqqında dərhal göstəriş verdi (**"Kutubus-Sittə"**, səh.1544, **"Sünəni-Əbu Davud"**, həd.4399 və 4402).

Şeyx Müfid bu əhvalatı azacıq fərqlə rəvayət edərək yazır ki, İmamın (ə) hökmünü eşidən Xəlifə Ömər (r) deyibmiş: **"Allah Əlinin (ə) işlərinə səhman versin. Az qalmışdı ki, bu qadına cəza vermək üstündə günaha batıb həlak olum"** (**"əl-İrşad"**, c.1, səh 194).

Buxari öz **"Səhih"**ində hadisəni təsvir etmədən yalnız Mövla Əlinin (ə) sözlərini nəql edib (kimə dediyini göstərmədən). (**"Kutubus-Sittə"**, səh.568, **"Səhihi Buxari"**, **"Kitabül-Muhariibin"**, bab 22).

VALİDEYNƏ OXŞAMAYAN UŞAQ

Xəlifə Ömərin (r) xilafəti dövründə bir kişi öz arvadını onun hüzuruna gətirib dedi: **"Mən və arvadım qarabuğdayıyıq. Amma arvadım ağdərili uşaq dünyaya gətirib".**

Xəlifə Ömər (r) ətrafındakılara üz tutub soruşdu: **"Fikriniz nədir?"**

Onlar dedilər: **"Qadın gərək daş-qalaq olunsun. Çünki özü və əri qarabuğdayı olduqları halda, ağ uşaq doğub".** (Demək, uşağın atası da ağdərili adamdır və qadın onunla zina etmişdir).

Xəlifə qadının daş-qalaq edilməsi barədə əmr verdi.

Qadını cəza yerinə aparanda Əmirəl-möminin Əli (ə) yolda onları görüb, əhvalatı soruşdu. Ərlə arvad başlarına gələnləri İmama (ə) danışdılar.

İmam Əli (ə) kişidən soruşdu: **"Düzünü söylə, heç olubmu ki, arvadınla heyz halında yaxınlıq edəsən?"**

Kişi söylədi: **"Bir gecə arvadım heyz halında olduğunu bildirdi. Amma mən güman etdim ki, yəqin hava soyuq olduğuna görə bəhanə gətirir. Ona görə sözünə qulaq asmayıb yaxınlıq etdim".**

İmam bu dəfə qadından soruşdu: **"Sən də təsdiq edirsənmi ki, ərin həmin vəziyyətdə sənlə əlaqədə olub?"**

Qadın təsdiq etdi.

Bu zaman Mövla Əli (ə) Xəlifə Ömər (r) üçün məslənin həlli yolunu elmi dildə izah edərək daşqalaq əmrini ləğv etdirər. Sonra Həzrət Əli (ə) kişiyə söylədi: **"Evinə qayıt və bil ki, uşaq sənindir. Ağlığının isə səbəbi budur ki, rüşeymində heyz qanı nütfəyə**

qarışıb onu üstələmişdir. Uşaq böyüyəndə sizin kimi qarabuğdayı olacaq".

Doğrudan da, İmamın (ə) dediyi kimi, uşaq böyüyüb həddi-büluğa çatanda rəngi dəyişib qarabuğdayı oldu. (**"Usuli-Kafi"**, c. 5, səh. 566)

Qeyd: Mövla Əli (ə) bəzən qəzavətlər zamanı diqqətli riyazi hesabatlar əsasında hərəkətlər etmiş, bu sahədəki heyrətamiz biliyini göstərmişdir. Çox qısa müddət ərzində verilmiş həmin hökmlərlə tanış olarkən, onların dəqiqliyinə insan heyran qalmaya bilmir. Maraqlıdır ki, bəzi məsələlərin qoyuluşu ilk baxışda çaşdırıcı görünür. Sıravi oxucu özü hökm vermək istəsə, böyük ehtimal ki, səhv edə bilər. Lakin İmam Əli (ə) hökm verərkən ən xırda riyazi cəhətləri belə nəzərə almış, bir neçə dəqiqə ərzində ən düzgün qərara gəlmişdir. Onun bu qəbildən olan qəzavətlərindən bir neçəsini ardıcıllıqla qeyd edəcəyik.

ƏZİLMİŞ DİLİN DİYƏSİ

Bir kişi başqasının dilini vurub əzmişdi. Nəticədə zərərçəkənin dilinin bir hissəsi qopub düşdüyündən o, bəzi hərfləri düzgün tələffüz edə bilmirdi.

Aralarındakı mübahisəni həll etmək üçün Xəlifə Ömərin (r) yanına gəldilər. Xəlifə məsələnin həllində çətinlik çəkdi.

Bu zaman Mövla Əli (ə) məsləhət verdi ki, əvvəlcə zərərçəkənin neçə hərfi tələffüz edə bilmədiyini öyrənsinlər. Tələffüz edilə bilməyən hərflərin sayının (yəni 28-ə) nisbətini tapsınlar. Sonra dil zədəsi üçün nəzərdə tutulmuş bütöv diyənin (cərimənin) həmin nisbətdə hissəsini cinayətkardan alıb, zərərçəkənə versinlər. (Qəzali/səh. 207)

GÖZ ZƏDƏSİNİN DİYƏSİ

Bir nəfər başqasının gözünə xəsarət yetirmişdi. Nəticədə zərərçəkən şəxsin gözündə heç bir yara və ləkə əmələ gəlməsə də, görmə qabiliyyəti zəifləmişdi. Əmirəl-möminin Əli (ə) əmr etdi ki, zərərçəkən kişinin gözünü dəsmalla bağlasınlar. Bir nəfər əlində toyuq yumurtası tutub həmin adamdan azacıq uzaqda dayandı. Sonra kişidən yumurtanı görüb-görməməsini soruşdular. Cavab verdi ki, görürəm.

Əlində yumurta tutan şəxs getdikcə uzaqlaşmağa başladı. Nəhayət, elə nöqtəyə çatdı ki, həmin məsafəni ölçməli oldular. Sonra

zərərçəkənin zədələnmiş gözünü dəsmalla bağlayıb, sağlam gözünü eyni yolla yoxladılar. Yenə onun yumurtanı görmədiyi məsafəni qeyd etdilər. Həzrət Əli (ə) bu iki məsafənin nisbətini hesablayıb tapşırdı ki, bütöv göz diyəsinin həmin nisbəti miqdarında cəriməni cinayətkardan alıb zərərçəkənə versinlər (**"Üsul-Kafi"**, c. 7, səh. 323).

BİR ÖLÜNÜN BEŞ QATİLİ

Mövla Əlinin (ə) xilafəti zamanında altı nəfər Fərat çayına çimməyə getmişdi. Onlar bir-birilə zarafatlaşıb oynayır, bir-birinin başını suya basır, ayağından dartırdılar. Oyun zamanı adamlardan biri suda batıb öldü. Qalan beş nəfərdən ikisi şahdlik etdi ki, mərhumun ölümünə o biri üç nəfər bais olub. Həmin üç nəfər isə əksinə, şəhadət verib dedilər ki, mərhumu suda batıran elə həmin iki nəfərdir.

Mübahisəni həll etmək üçün Mövla Əlinin (ə) yanına gəldilər. İmam ölünün qanbahasını (diyəsini) 5 bərabər hissəyə böldü. Əmr etdi ki, pulun 3/5 hissəsini həmin iki nəfər ödəsin, 2/5 hissəsini isə qalan üç nəfər versin. (Yəni iki nəfərin hər biri ümumi diyənin 3/10 hissəsini, o biri üç nəfərin hərəsi isə diyənin 2/15 hissəsini ödəməli oldu) (**"Üsul-Kafi"**, c. 7, səh. 284; əl-İrşad, c. 1, səh. 213)

Şeyx Müfid bu hadisəni təsvir etdikdən sonra yazır: **"Bu hadisədə Həzrət Əlinin (ə) qəzavət etdiyindən daha düzgün yol yoxdur. Biz özümüz bu qəzavətin srrini öyrənməyə çalışdıq. Belə bir nəticəyə gəldik ki, çox güman, Həzrət Əlinin (ə) belə qəzavət etməsinin səbəbi aşağıdakı kimi imiş: "İmam Əli (ə) əvvəlcə üç nəfərin şahidliyini qəbul etdi, yəni hökm çıxartdı ki, ölənin qatilləri qalan iki nəfərdir. Beləliklə, üç nəfər qanbahası verməkdən azad oldu. Əvəzində isə qanbahası iki nəfərin öhdəsinə düşdü. Yəni o iki nəfərdən hər biri qanbahasının miqdarının yarısını ödəməli idi. Sonra Həzrət Əli (ə) həmin iki nəfərin şahidliyini qəbul edib onları diyə verməkdən azad etdi. Demək qalan üç nəfərin hər biri qan bahasının 1/3 hissəsini ödəməli idi. Beləliklə, 5 nəfərin hər birinin öhdəsinə düşən qanbahasının miqdarı belə oldu: Birinci qrup: Birinci adam diyənin 1/2 hissəsi, İkinci adam 1/2**

hissəsini. İkinci qrup: Üçüncü adam 1/3 hissəsini, dördüncü adam 1/3 hissəsini, beşinci adam 1/3 hissəsini.

Göründüyü kimi, bunları topladıqda qanbaha pulunun iki misli alınır. Axı, hər iki iddiaçılar qrupu ayrı-ayrılıqda bütöv diyəni ödəməli olurdular. Belə çıxırdı ki, bir nəfər ölü üçün iki nəfərlik qanbaha (yəni iki dəfə artıq məbləğ) ödənəcəkdi.

Buna görə də Həzrət Əli (ə) bir nəfərlik diyəni 5 bərabər hissəyə bölüb, hərənin payından 1/5 hissə çıxdı. Bu zaman 5 nəfərdən hər birinin öhdəsinə düşən diyənin miqdarı belə oldu:

A) Birinci qrup:	**Birinci adam**	**/2-1/5=3/10 hissə**
	İkinci adam	**1/2-1/5-3/10 hissə**
B) İkinci qrup:	**Üçüncü adam**	**/3-1/5=2/15 hissə**
	Dördüncü adam	**1/3-1/5=2/15 hissə**
	Beşinci adam	**1/3-1/5=2/15 hissə**

Birinci və ikinci adamların öhdəsinə düşən diyənin cəmi 2 x 3/10=3/5 pay oldu. Amma əgər ölünün qanbahası 5 nəfər arasında əvvəldən bərabər bölünsəydi, birinci və ikinci adamlar birlikdə diyənin 2/5 hissəsini (yəni iki adamlıq pay) verməli olacaqdılar.

Mövla Əlinin (ə) bölgüsündən sonra üçüncü, dördüncü və beşinci adamlar birlikdə diyənin 3x2/15=2/5 hissəsini ödəməyə məhkum oldular. Əgər diyə əvvəldən tərəflər arasında tam bərabər bölünsəydi, üçüncü, dördüncü və beşinci adam ümumi məbləğin 3/5 hissəsini (yəni üç adamlıq payı) verməli olacaqdılar. Deməli, belə çıxır ki, İmam Əlinin (ə) qəzavəti nəticəsində 5 nəfərdən ikisi üç nəfərin, üçü isə iki nəfərin diyə payını ödədi.

Əlbəttə, verdiyimiz bu şərh yalnız bizim öz fikrimizə əsaslanır və onun düzgün olub-olmaması barədə qəti hökm vermək bizim bilik dairəmizdən kənardır".

ŞƏRİKLİ NAHAR

İki nəfər səfərə çıxmışdı. Nahar vaxtı çatanda birlikdə yeməyə oturdular. Onlardan biri süfrəyə 3 çörək, digəri isə 5 çörək qoydu. Yeməyə başlayanda bir nəfərin yanlarından keçdiyini gördülər. Onlar həmin adamı da süfrəyə dəvət etdilər.

Hər üçü nahara başlayıb süfrədəki çörəklərin hamısını yedilər. Sonra qonaq yediyi çörəyin əvəzi olaraq 8 dirhəm çıxarıb süfrənin üstünə qoydu və onlardan ayrılıb yoluna davam etdi.

Çörək sahibləri 8 dirhəmi öz aralarında bölməyə başladılar. Süfrəyə üç çörək qoymuş şəxs pulu bərabər bölməyi təklif etdi. Beş çörək verən şəxs razı olmayıb dirhəmləri çörəklərin sayına görə bölməyin tərəfdarı olduğunu bildirdi. Qeyd etdi ki, kim süfrəyə neçə çörək qoyubsa, ona müvafiq miqdarda pul götürməlidir.

Yoldaşların arasında mübahisə yarandı. Məsələni həll etmək üçün Mövla Əlinin (ə) hüzuruna gəldilər. İmam mübahisəni dinləyib buyurdu: **"Belə kiçik məsələnin (yəni bircə dirhəmin) üstündə mübahisə etməyin, razılığa gəlin".**

Üç çörək sahibi etiraz edib dedi: **"Mən bu məsələnin kökünə getməyincə əl çəkməyəcəyəm və heç bir güzəştə razı deyiləm".**

Mövla Əli (ə) buyurdu: **"İndi ki, barışığa və güzəştə razı deyilsən, bil ki, sənə dediyindən də az pul düşür. Səkkiz dirhəmdən yalnız biri sənindir".**

Kişi təəccüblə soruşdu: **"Bu necə ola bilər?"**

Mövla Əli (ə) buyurdu: **"Məgər hər üçünüz eyni miqdarda çörək yemədinizmi?"**

Onlar dedilər: **"Bəli, üçümüzün də yediyimiz çörək eyni qədər idi".**

İmam (ə) buyurdu: **"Sizin hər biriniz 2 (tam) 2/3 çörək yemisiniz. Üç çörəyi olan şəxs özü yedikdən sonra çörəyin 1/3-i qədər artıq qaldı. 5 çörəyi olan şəxsin isə 2 (tam) 1/3 ədəd çörəyi artıq oldu. Ona görə də 3 çörəyi olana 1 dirhəm, 5 çörəyi olana 7 dirhəm düşür".** (**"Üsuli-Kafi"**, c. 7, səh. 427; **"əl-İrşad"**, c. 1, səh. 211)

Sadə riyazi hesablamalarla məsələni həll edək. Şərti olaraq 3 çörək sahibini Əmr, 5 çörək sahibini isə Zeyd adlandıraq.

Məlum olduğu kimi, Əmr süfrəyə 3 çörək, Zeyd isə 5 çörək qoymuşdu. Beləliklə, yeyilən çörəklərin cəmi 8 oldu. Yoldan ötən qonaq da onlara qoşulduqdan sonra bu üç nəfərin hər üçü təqribən eyni miqdarda çörək yedi. Belə oduqda, 8 çörəyi 3 nəfər arasında bölsək, hərənin payına 2 (tam) 2/3 çörək düşər. Yəni üç nəfərin hər biri 2 bütöv çörək və bir də çörəyin 2/3 hissəsini yeyib.

Əmr özü 2 (tam) 2/3 yedi və yediyi çörəklər üçün ona pul verilməməlidir. Çünki verilən pul qonağın yediyi çörəklər üçündür. Süfrə sahibləri öz yedikləri pay üçün pul tələb edə bilməzlər. Beləliklə, Əmrin öz yediyi payı çıxsaq, məlum olar ki, o, qonağa yalnız bir çörəyin 1/3 hissəsini vermişdir: 3-2 (tam) 2/3=1/3

Zeyd öz növbəsində 2 (tam) 2/3 çörək yemiş və qalan 2 (tam) 1/3 çörəyi qonağa vermişdir: 5-2 (tam) 2/3=2 (tam) 1/3

Deməli, qonaq Əmrin malından 1/3 çörək, Zeydin malından isə 2 (tam) 1/3 çörək yemişdir. Payların nisbətinə nəzər salsaq, görərik ki, 2 (tam) 1/3:1/3=7. Yəni Zeyd qonağa Əmrin verdiyindən 7 dəfə çox çörək vermişdir. Başqa sözlə desək, qonaq Əmrin malından 1 pay, Zeydin malından isə 7 pay çörək yemişdir. Belə isə, onun verdiyi pul da həmin nisbətdə bölünməlidir. Yəni Zeyd Əmrdən 7 dəfə çox pul almalıdır. (Çünki qonağa 7 dəfə çox çörək vermişdir). Buna görə də İmam 8 dirhəmin 1-ni Əmrə, 7-ni də Zeydə verdi.

ƏDALƏTLİ BÖLGÜ

Bir kişi vəfat edərkən üç oğluna 17 dəvə miras qoymuşdu. Özü də vəsiyyət etmişdi ki, dəvələrin tən yarısı böyük oğluna, 1/3 ortancıl oğluna, 1/9 isə kiçik oğluna verilsin. Amma kişi öləndən sonra oğullar dəvələri dəqiqliklə bölə bilmədilr. Belə olan halda Mövla Əlinin (ə) yanına gəldilər.

Mövla Əli (ə) onlardan soruşdu: **"Etiraz etmirsinizsə, mən öz malımdan bir dəvəni sizin dəvələrə əlavə edib, sonra onları aranızda bölərəm".**

Oğullar razı oldular. Mövla Əli (ə) 17 dəvəyə birini də artırdı, sayları 18 oldu. Sonra dəvələrin yarısını (yəni 9 dəvəni) birinci oğula verdi. Dəvələrin 1/3 hissəsini (yəni 6 dəvəni) ikinci oğula, 1/9 hissəsini (yəni 2 dəvəni) isə üçüncü oğula verdi. Bölgüdən sonra Həzrət Əlinin (ə) öz dəvəsi yenə onun özünə qaldı. (Qəzali/səh. 158)

Elementar riyazi hesablamadan məlum olur ki, bu üç nəfərin iddia etdiyi payların cəmi sürüdəki dəvələrin ümumi sayından az idi. Yəni birinci adam dəvələrin ümumi sayının 1/2-ni (yəni 17/2 dəvə), ikinci adam 1/3-ni (yəni 17/3 dəvə), üçüncü adam isə 1/9-ni (yəni 17/9 dəvə) tələb edirdi. Bunları toplasaq 17/2+17/3+17/9 = 16 (tam) 1/18 baş dəvə alarıq. Bu ədəd 17-dən azdır (bir dəvənin 17/18 hissəsi qədər).

Mövla Əlinin (ə) bölgüsü nəticəsində birinci adama 9 dəvə düşdü. Əslində o, tələb etdiyindən yarım dəvə qədər çox aldı.

İkinci adama 6 dəvə düşdü ki, bu da onun özünün tələb etdiyindən 1/3 dəvə qədər çoxdur.

Adambaşına düşən artıq payları toplasaq 1/2+1/3+1/9=17/18. Bu, əvvəlki hesabat zamanı dəvələrin sayınan **"itirdiyimiz"** rəqəmə bərabərdir.

Tənasübə diqqət yetirin. Birinci adam dəvələrin ümumi sayının yarısını iddia edirdi. Həzrət Əli (ə) ona bir dəvənin yarısı qədər artıq pay verdi. İkinci adam dəvələrin 1/3 hissəsini tələb edirdi. İmam ona bir dəvənin 1/9-i qədər artıq pay verdi. Üçüncü adam dəvələrin 1/9 hissəsini istəyirdi. O, bir dəvənin 1/9-i qədər artıq pay aldı.

Mövla Əli (ə) dəvələri İlahi ədalətlə üç nəfərin arasında elə böldü ki, hər üç nəfərin ayrı-ayrılıqda tələb etdiyi payın artıq paya nisbəti aldığı payın artıq paya nisbəti və aldığı payın tələb etdiyi paya nisbəti hamı üçün eynidir. Bu nisbətlərə tərəflər arasında ayrıseçkilik yoxdur. İlahi ədalət də elə bundadır.

QAZ LƏLƏYİ

Bir gün cavan bir oğlan Mövla Əlinin (ə) yanına gəlib Şureyh Qazidən ona şikayət edir. Bildirir ki, bu gecə onun otuz ədəd qazlarını həyətindən oğurlayıblar. Mən Şureyh Qaziyə şikayət verdim, o mənə kömək etmək əvəzinə şahid gətirməyimi istədi. Məgər oğurluq eləyəndə şahid olur? İmam (ə) ona dedi ki, günorta namazına məscidə gəl, sənin qazlarını oğurlayanı tapım. Cavan məscidə gəldi və minbərin dibində əyləşib öz-özünə fikirləşirdi. Görəsən, oğrunu necə tapacaq? Bu zaman Həzrət söhbətə başladı. Bu gecə filan məhəllədə filankəsin otuz qazını oğurlayıblar. Oğrunun özü də hazırda məsciddədir. Ehtiyatsızlıq üzündən qazın lələyindən biri onun papağının üstündə ilişib qalıb. Oğru dərhal əlini başına apa-

randa çoxları onu tanıdı. Bu zaman İmam oğrunu ayağa qaldırıb ona tapşırıq verdi ki, gedib qazları sahibinə qaytarsın.

AĞA VƏ NÖKƏR

Ağa ilə nökər bir-birinə çox oxşayırdılar. Çox vaxt qonşular onları səhv salırdı. Demək olar ki, nökəri paltarından tanıyırdılar. Bir gün çayda çimərkən nökər tez çıxır və ağanın paltarlarını geyinir. Ağa da məcburən çılpaq qalmasın deyə nökərin paltarlarını geyinir. Nə qədər mübahisə etsələr belə nökər inadından dönməyərək **"ağa mənəm"** deyir. Əsl ağa Şüreyh Qaziyə müraciət etsə də bir nəticə əldə olunmur.

Artıq hava qaralırdı. Ağa narahat idi ki, bu həyasız nökər onun mülkünə, arvad-uşağına sahib çıxacaq. Hadisəni eşidən Salman Farsi onu Mövla Əlinin (ə) yanına gətirir. İmam (ə) nökərə nə qədər nəsihət etsə də heç bir fayda vermir. Nökər **"ağa mənəm"** deyə inad edir. Bu zaman İmam (ə) divarda iki oyuq açdırmağı əmr edir. Və bunların hər ikisinin başını oyuqdan kənara çıxarmağı tapşırır. Öz xidmətçisi Qəmbəri onların arasında saxlayaraq tapşırıq verir ki, nə vaxt əmr verdim nökərin başını vur, vurarsan. İmam (ə) nökər üçün bəzi söhbətləri edir və çalışır ki, o inadından əl çəksin. Bütün bunlara baxmayaraq nökər dediyindən dönmür. Bu zaman İmam (ə) Qəmbərə əmr edir ki, nökərin boynunu vur. Nökər dərhal başını divarın oyuğundan geri çəkir. Hamıya məlum olur ki, İmamın əmrindən əsla narahat olmayan və başını çəkməyən əsl ağadır. İmam Əlinin (ə) əsl Qazi, elm və ədalət sahibi olması bir daha təsdiqlənir.

ŞEYTAN VƏSVƏSƏSİ

Mövla Əlinin (ə) xislətlərindən biri də səbr və dözüm idi. O, əksər anlarda səbr etməyi ibadət kimi qəbul edirdi. Bir gün dəvənin palanını təmir edirdi. Evdən bir şey gətirməyə ehtiyac oldu. Həzrət xidmətçisi olan Hüzeyfəni səslədi. Hüzeyfə divarın o tərəfində arxası üstə uzanıb cavab vermirdi. Məqsədi ədəbsizlik etmək deyildi, istəyirdi ki, Mövla Əlini (ə) təbdən çıxartsın – əsəbiləşdirsin. Mövla təkrarən çağırdı. Bir azdan Hüzeyfənin cavab vermədiyini və gəlmədiyini görəndə özü durub onun tərəfinə getdi. Bunu görən Hüzeyfə utana-

utana **"Sizi əsəbiləşdirmək istəyirdim, ya Mövla"**-deyib ayğa qalxdı və bildirdi ki, sizin səbr və dözümünüzün həddini yoxlamaq istəyirdim. Həzrət Əli (ə) təbəssüm edə-edə dedi: **"Səni bu fikrə salan şeytanı əsəbiləşdirəcəyəm".**

Ona – Hüzeyfəyə müəyyən miqdar pul verib **"səni Allah yolunda azad etdim, sərbəstsən",**-dedi. Hüzeyfə ağladı. Məni öz dərgahından uzaqlaşdırma, ey mənim ağam. Mən ölənə qədər sizin xidmətinizdə durmaq istəyirəm…

Mövla Əli (ə) belə mövlalardan idi. Şeytan onu əsəbiləşdirməklə Hüzeyfəyə əziyyət verdirmək istəyirdi. Lakin ağamız Əli (ə) öz böyük xasiyyət və rəftarı ilə Hüzeyfəyə ehtiram qoydu, Şeytanı isə əsəbiləşdirdi.

ÖVLADININ NİKAHINDA OLAN QADIN

Bir cavan Xəlifə Ömərin (r) yanına gəlib öz anasından şikayət edərək dedi: **"Allahım, mən və anam arasında hökm et".**

Xəlifə ondan soruşdu: **"Anan sənə nə edib? Nə üçün ondan Allaha şikayət edirsən?"**

Cavan belə cavab verdi: **"Anam doqquz ay məni qarnında bəsləyib, düz iki il də süd verib. İndi ki, mən böyümüşəm, yaxşı ilə pisi ayıra bilirəm, məni qovub deyir ki, sən mənim oğlum deyilsən".**

Xəlifə əmr verdi ki, qadını gətirsinlər. Qadın biləndə ki, gətirilməsinin səbəbi nədir? – tez dörd qardaşını və qırx şahidi də məhkəməyə gətirdi.

Xəlifə cavandan öz iddiasını söyləməyi istədi. Cavan öz dediklərini təkrarladı və and içdi ki, qadın mənim anamdır.

Xəlifə qadının fikrini soruşdu. Qadın cavab verdi ki, Allahı və Rəsulunu (s) şahid tuturam ki, bu oğlanı tanımıram. O məni qəbiləm və qohumlarımın yanında biabır etmək istəyir. Mən Qureyş qəbiləsindənəm. İndiyədək ərə getməmişəm və hələ də bakirəyəm. Belə olan halda necə ola bilər ki, o mənim oğlum olsun.

Xəlifə soruşdu: **"Bunlar hamısı sənin şahidlərindir?"**

O qırx nəfər şəhadət gətirdilər ki, oğlan yalan deyir və and içdilər ki, indiyədək yoldaşı olmayıb, bakirədir.

Xəlifə əmr verdi ki, oğlanı zindana atsınlar və şahidlər yoxlanılsın. Əgər onlar yalan deyirlərsə, onda onu buraxsınlar.

Məmurlar oğlanı zindana tərəf aparanda Mövla Əli (ə) ilə qarşılaşdılar. Oğlan qışqırdı: **"Ya Əli (ə)! Mənim dadıma çat. Çünki mənə zülm edirlər".** Cavan vəziyyəti İmama danışdı.

Həzrəti Əli (ə) əmr etdi ki, onu xəlifənin yanına qaytarsınlar. O qaytarıldıqda xəlifə dedi: **"Mən zindana atın demişdim. Onu nə üçün gətirmisiniz?"**

Dedilər: **"Əli (ə) göstəriş verib. Biz sizdən dəfələrlə eşitmişik ki, Əliyə (ə) müxalif çıxmayın".**

Elə bu zaman Mövla Əli (ə) daxil oldu. Əmr verdi ki, qadını gətirsinlər. Onu gətirdilər. Həzrət oğlana buyurdu ki, iddianı söylə. Cavan bir daha öz halını danışdı.

Həzrət Əli (ə) üzünü xəlifəyə tərəf tutdu və buyurdu: **"İstəsəydiniz bu iki nəfər arasında mən qəzavət edim?"**

Xəlifə dedi: **"Sübhənallah. Niyə istəməyək? Rəsulullahdan (s) eşitmişik ki, "Əli ibn Əbu Talib (ə) hamınızdan daha biliklidir".**

Həzrəti Əli (ə) qadına buyurdu: **"Şahidin var?"**

Dedi: **"Bəli. Qırx şahidim var. Bu vaxt şahidlər irəli çıxıb əvvəlki kimi şəhadət verdilər".**

Həzrət Əli (ə) buyurdu: **"Allahın hökmünə uyğun hökm edirəm. O hökm ki, Rəsulullah (s) mənə öyrədib".**

Sonra qadına buyurdu: **"Sənin işlərində başçı və ixtiyar sahibi var?"**

Qadın cavab verdi: **"Bəli. Bu dörd nəfər mənim qardaşlarımdır".**

Həzrət qadının qardaşlarına dedi: **"Siz özünüz və bacınızın icazə və ixtiyarını mənə verirsiniz?"**

Dedilər: **"Bəli. Siz bizim ixtiyar sahibimizsiniz".**

Həzrət buyurdu: **"Əzəmətli Allahın və camaatın qarşısında şəhadət verirəm ki, bu qadını bu oğlana nigahlı etdim və mehriyəsindən 400 dirhəm verirəm.** (Əlbəttə, əqd zahiri formada idi) **Sonra Qəmbərə buyurdu: Tez 400 dirhəm hazır et".**

Qəmbər 400 dirhəmi gətirdi.

Həzrət bütün pulları oğlanın ovcuna tökdü və buyurdu: **"Bu pulları götür və qadınının ətəyinə tök. Sonra onu götür apar. Onda gəlinlikdən bir iz olmamış yanıma qayıtma. Oğlan yerindən tərpənib, pulları onun ətəyinə tökdü və dedi: Qalx! Gedək".**

Elə bu vaxt qadın fəryad etdi: **"Atəş! Od! Alov!.."**

Ey Peyğəmbərin əmisi oğlu sən məni oğlumun yoldaşı edirsən? Allaha and olsun! Bu cavan mənim oğlumdur. Qardaşlarım məni bir kişiyə ərə verdilər. Bu oğlanı mən ondan dünyaya gətirmişəm. Uşaq böyüyəndə mənə dedilər ki, onun övlad olduğunu inkar et. Mən də qardaşlarımın göstərişinə əməl etdim. Lakin indi etiraf edirəm ki, o mənim oğlumdur. Ürəyim onun eşq və məhəbbəti ilə doludur. Məsələ aydın olandan sonra ana öz övladını əlindən tutub məhkəmədən gedir.

Xəlifə dedi: **"Əgər Əli (ə) olmasaydı, mən həlak olardım".**

RUM PADŞAHININ 20 SUALI

İbn Müsəyyib nəql edir ki, Xəlifə Ömər ibn Xəttab (r) deyir: **"Əbul-Həsənin həll edə bilməyəcəyi çətinliklərdən Allaha sığınıram".**

Bu sözdə xəlifənin məqsədi vardı. Bir gün Rum padşahı xəlifəyə bir məktub yazaraq bir neçə məsələyə cavab soruşurdu. Xəlifə öz səhabələrinə bu sualları ərz etdi, amma heç kəs cavab verə bilmədi.

Sonra Mövla Əlini (ə) hüzuruna istəyib ona ərz etdi. Həzrət sualları eşidəndən sonra cavablandırmağa başladı. Rum padşahının sualları aşağıdakılar idi:

Allahın yaratmadığı şey nədir?
Allahın bilmədiyi şey nədir?
Allahın yanında olmayan şey nədir?
Bütünlüklə ağız olan şey nədir?
Bütünlüklə ayaq olan şey nədir?
Bütünlüklə göz olan şey nədir?
Bütünlüklə qanad olan şey nədir?
Ailəsi və qohum əqrabası olmayan insan kimdir?
Ana bətnində olmayan 4 canlı hansıdır?
O nədir ki, nəfəs alır, amma, ruhu yoxdur?
Zəng nə deyir?

Bir dəfə yol gedən hansıdır? (O yol gedən hansıdır ki, bir dəfə yol gedib?)

O hansı ağacdır ki, süvari 100 il onun vasitəsilə yol gedir və sona çatmır. Onun kimisi dünyada nədir?

Günəş şüaları bir dəfə düşən yer hansıdır?

Susuz yetişən ağac hansıdır?

Cənnət əhli yeyirlər və içirlər və heç bir şey ifraz etmirlər. Dünyada onun misalı hansıdır?

Behişt süfrələrindəki kasaların hər birində cürbəcür yeməklər var və heç qarışmırlar. Dünyada onun misalı nədir?

Behiştdə almalardan bərəkət çıxır, lakin o almalardan heç biri əksilmir (azalmır).

İki kişinin bir kənizi var, axirətdə onlardan birinin olacaq. Bu necədir?

Cənnətin açarları hansılardır?

Əmirəl-möminin məktubu oxudu və məktubun cavabını belə yazdı.

Bismillahir rəhmanir rəhim.

Ey Rum padşahı! Mən sizin məktubunuzu oxudum. Allah və peyğəmbərlərinin qüdrət, bərəkət və köməyi ilə (xüsusilə Allahın göndərdiyi sonuncu Mühəmməd Peyğəmbərin (s)) sənin cavabını verirəm.

Allahın yaratmadığı şey Qurandır. Çünki o Allah kəlamıdır və həmçinin Allah tərəfindən göndərilmiş kitablardır.

Allahın bilmədiyi şey siz xristianların dediyidir: Allahın yoldaşı, oğlu və şəriki var. Allah övlad götürməyib və Onunla bərabər heç bir illah da yoxdur.

O nə doğandır, nə doğulan.

Allahın yanında olmayan şey zülmdür. Allah bəndələrinə zülm etməz.

Bütünlüklə ağız olan şey atəşdir. Hara düşsə yeyər.

Bütünlüklə ayaq olan şey sudur.

Bütünlüklə göz olan şey günəşdir.

Bütünlüklə qanad olan şey küləkdir.

Ailəsi olmayan insan Adəmdir.

Ana bətnində olmayan dörd canlı Musanın (ə) əsası, İbrahimin (ə) qoçu, Adəm (ə) və Həvvadır.

Ruhu olmayan, nəfəs alan sübhdür. Allah-Təala buyurur:

"Nəfəs almaqda olan sübhə and içirəm". (**"Ət-Təkvir"** surəsi, ayə 18).

Zəng deyir: Tıq, tıq, həqq, həqq, yavaş, yavaş, ədalət, ədalət, doğru, doğru; Dünya bizi aldatdı və həvəsə saldı. Əsrlərlə sipər olur. Bizim sütun və köklərimizi süst etmədən bir gün belə keçmir. Ölülərimiz xəbər verdilər ki, bu dünyadan köç edirik bəs nə üçün biz buranı özümüzə vətən tuturuq?

Bir dəfə yol gedən Sina dağıdır. O dağ ilə müqəddəs yer (Məscidül-əqsa) arasında bir neçə gün yol idi. O torpaqların niyyətində olan Bəni-İsrail Musanın (ə) fərmanına üsyan etdi. Allah da o dağdan bir parçanı qopartdı və onun üçün nurdan iki qanad qərar verdi. Çöllərdə gəzən Bəni-İsrailə kölgəlik oldu və onlarla bərabər gedirdi. Necə ki, Allah-Təala Qurani-Kərimdə buyurub:

"Bir zaman dağı (Tur dağını) yerindən qoparıb, onların (İsrail oğullarının) başlarının üstünə kölgəlik (tavan) kimi qaldırmışdıq və onlar elə güman etmişdilər ki, dağ üstlərinə düşəcək". (**"Əl-Əraf"** surəsi, ayə 171). Tövbə edəndən sonra dağ yerinə qayıtdı.

O ağac ki, süvari onun vasitəsilə 100 il yol gedir, amma sona çatmır, Tuba ağacıdır və o sidrətül-müntəhadır ki, asimanın yeddinci qatındadır. O ağaca tərəf Adəm oğullarının əməlləri qalxır və o Behişt ağaclarındandır. Behiştdə heç bir ev və saray yoxdur ki, onun budaqlarından biri olmasın.

Dünyada bunun bənzəri günəşdir. Özü birdir və şüaları hər yerdədir.

Günəşin təkcə bir dəfə düşdüyü yer dənizin yeridir ki, Bəni-İsrail oradan keçdilər, Firon və yaxınları orada qərq oldular. O vaxt Allah-Təala Musa (ə) üçün dənizi açdı və su dağlar kimi bir-birilə üzbəüz dayandı və dənizin yeri günəş şüalarından qurudu. Sonra dənizin suyu öz yerinə qayıtdı.

Susuz yetişən ağac, Yunus peyğəmbərin (ə) ağacıdır və o möcüzə idi. Allah-Təala buyurur:

"(Başı) üstündə (ona kölgə salmaq üçün) iri yarpaqlı bir ağac bitirdik". (**"Əs-Saffat"** surəsi, ayə 146).

Behişt əhli ki, yemək yeyir, amma ifraz etmirlər, dünyada bunun bənzəri ana bətnində olan uşaqdır, qidalanır amma ifraz etmir.

Behiştdə bir kasada olan cürbəcür yeməklər var və qarışmırlar. Dünyada bunun bənzəri toyuq yumurtasına bənzəyir ki, ağı və sarısı bir-birinə qarışmır.

Behişt almalarından çıxan bərəkətin dünyada bənzəri almadan çıxan qurda bənzəyir və alma dəyişmir.

Bu dünyada iki kişinin bir kənizi Axirətdə birinindir. Dünyada bənzəri də bir xurma ağacı, həm möminin malı mənim kimi, həm də bir kafirin malı sənin kimi. Axirətdə isə mənim malım olacaq, sənin yox. Çünki Axirətdə o ağac Behiştdədir, sən isə Behiştə daxil olmayacaqsan.

Behiştin açarları **"La ilahə illəllah"** və **"Mühəmmədun rəsulullah"**dır.

CİNAYƏTDƏ İŞTİRAKLA BAĞLI İCTİHAD

Sənalı bir qadın öz məşuqu ilə birlikdə ögey oğlunu öldürmüşdü. O vaxtlar Səna valisi olan Yəla ibn Üməyyə hadisə barədə xəlifə Ömərə (r) bir məktub yazdı. Məktubu alan Ömər (r) məşvərət etmək məqsədilə səhabələri yanına çağırtdırdı. Onların arasında Həzrət Əli (ə) də var idi. Ömər (r) öldürülmüş bir şəxsin yerinə iki nəfərin öldürülməsinin düzgün olmadığını söylədi. Həzrət Əli (ə) bu fikirlə razılaşmayaraq Ömərə (r) belə bir sual verdi: **"De görək, bir qrup adam bir dəvəni oğurlamaq üçün, onu birlikdə kəssələr və hərə bir parçasını götürsə, onların hər birinə oğurluq cəzası tətbiq edərdinmi?"** Ömər (r) **"bəli"**,- deyə cavab verdi. Həzrət Əli (ə) də **"bax, elə bu hərəkət də onun kimidir"**,- dedi. Nəhayət, Ömər (r) bu fikirlə razılaşdı və vali Yəla ibn Üməyyəytə belə bir cavab yazdı: **"Onların hər ikisini də öldür. Əgər bu cinayətdə bütün Səna əhli iştirak etsəydi, hamısını öldürərdim".**

Məlumdur ki, bu cinayətdə qadın əvvəlcə təşviqedici rol oynamış, sonra isə məşuqu ilə birlikdə həmin cinayəti törətmişdir. Müəyyən mənbələrə görə, sözügedən hadisə ilə bağlı verilən xəbərlərdə qadının öz məşuquna belə dediyi vurğulanır: **"Bu uşaq bizi rüsvay edəcək, onu öldür".** Məşuqu əvvəlcə qadının bu təklifini rədd etsə də, sonradan qəbul edərək qadınla birlikdə həmin cinayəti törətmiş və cəsədi də bir quyuya atmışlar. Vali Yəla ilə Ömər (r) qisasda bəra-

bərliyin qorunmasını və bir nəfərin yerinə yalnız bir nəfərin öldürülməsini əmr edən ayədən nəticə çıxararaq bir adamın yerinə iki nəfərin öldürülməsi məsələsində tərəddüd edirdilər:

"Ey iman gətirənlər! Öldürənlər üçün – azad kəs üçün azaddan, kölə üçün kölədən, qadın üçün qadından – sizə qisas almaq fərz qılındı". (**"Əl-Bəqərə"** surəsi, ayə 178),

"Biz orada yazmışıq: "Cana-can, gözə-göz, buruna-burun, qulağa-qulaq, dişə-diş". (**"Əl-Maidə"** surəsi, ayə 45).

Lakin Həzrət Əli (ə) həmin hadisəni daha gözəl təhlil etmiş və ayələrin deyildiyi mühiti nəzərə alaraq daha düzgün bir nəticə əldə etmişdir. Hansı ki, burada ayələr öldürülən bir nəfərə görə bir neçə adamın öldürülməsinin əleyhinə çıxmır. İslama qədərki ərəblər başqalarından üstün hesab etdikləri öz qəbilələrinə mənsub adamlardan biri kimi öldürüldükdə öldürənin qəbiləsindən qisas kimi bir neçə şəxsin öldürülməsini istəyirdilər. Öldürülən adam kölə olanda onun əvəzinə azad bir adamın, qadın olanda isə onun yerinə bir kişinin öldürülməsi tələb olunurdu. Belə olduqda günahsız insanlar da bundan ziyan çəkirdilər. Qurani-Kərimdə buyurulur:

"Allahın qadağan etdiyi kimi (öldürülməsi) haqq olan adam istisna olmaqla heç kəsi öldürməyin. Hər kim haqsız yerə öldürülərsə, onun qohum-əqrəbasını (qisas almaqda) ixtiyar sahibi edirik. Lakin öldürməkdə həddini aşmamalıdır". (**"Əl-İsra"** surəsi, ayə 33).

Beləliklə, ayə mətnlərinin nazil olduğu mühiti, İslam hüququnun ümumi məqsədlərini, bu barədə olan ayələri bütöv bir halda görən Həzrət Əlinin (ə) daha düzgün bir nəticə əldə etdiyini və müasir dövr hüququnda **"cinayətdə iştirak"** nəzəriyyəsi ilə dövrünün memarı olduğunu görürük.

Sonralar səhabeyi-kiram və onlardan sonra gələn İslam hüquqşünasları Həzrət Əlinin (ə) bu ictihadına istinad edərək bir nəfərin öldürülməsində iştirak edən bir neçə şəxsin öldürülməsinin qanuniliyini qəbul etmiş və bu mövzuda hüquq elminə aid neçə-neçə kitablar yazmışlar.

ALTI AYLIQ DOĞUŞ

Təzə evlənən qadın altı aydan sonra dünyaya bir uşaq gətirir. Əri bundan şübhələnərək həyat yoldaşını məhkəməyə verir. Şikayətə baxan Ömər (r) (bir rəvayətə görə isə Osman) həmin qadının zina etdiyini düşünüb onu rəcm - daş-qalaqla edam etmək cəzasına məhkum edir. Bunu görən Həzrət Əli (ə) belə deyir: **"İndi mənə diqqətlə qulaq asın! Allahın kitabına istinad edərək sizinlə mübahisə edəcəyəm. Və mənim fikrimin düzgünlüyü ortaya çıxacaq. Böyük Allah ayeyi-şərifədə belə buyurur:**

"Biz insana öz ata-anası ilə yaxşı davranmağı tövsiyə etdik. Anası onu zəhmətlə (bətnində) gəzdirir və zəhmətlə doğur. Onun (bətnində) gəzdirilməsi ilə süddən ayrılma müddəti otuz aydır". (**"Əl-Əhqaf"** surəsi, 15-ci ayə)

Başqa bir ayədə belə buyurur:

"Biz insana öz ata-anasına yaxşı baxmağı tövsiyyə etdik. Anası onu bətnində halsızlıqla gəzdirmişdir. Onun süddən kəsilməsi isə iki il ərzində olur". (**"Əl-Bəqərə"** surəsi, 233-cü ayə).

Əgər otuz aydan süddən kəsilmə müddəti olan iki ili (24 ay) çıxsaq, yerdə altı aylıq hamiləlik müddəti qalar". Bu gözəl izah tərzini qəbul edən Ömər (r) Həzrət Əlini (ə) alqışlayır. Və həmin qadına aid etdiyi cəzanı geri götürür.

İmamın qəzavətini eşidən Xəlifə Ömər (r) qadını azad etdi və bu hökmü qadınlar üçün xüsusi qərar kimi qəbul etdi (**"Əl-İrşad"**, c.1, səh.197).

Qurani-Kərimin ayələrinin mənasından belə çıxır ki, qadının hamiləlik müddəti hətta altı ay da ola bilər. Deməli, qadının cəmi altı ay ərzində uşaq sahibi olması tamamilə təbii hadisədir.

Şeyx Müfid **"Əl-İrşad"** kitabında qeyd edir ki, bu hadisədən sonra səhabələr və tabeliyində olan şəxslər müvafiq vəziyyətlərdə Mövla Əlinin (ə) verdiyi məlum hökmü tətbiq etməyə başladılar. Həmçinin, Şeyx Müfid xəbər verir ki, onun yaşadığı dövrə kimi İmamın bu fətvasına əməl edilirmiş. (**"Əl-İrşad"**, c. 1, səh. 197)

Birlikdə bu məsələni bir daha aydınlaşdıraq. Hər hansı bir məsələnin Quran və sünnə çərçivəçində həll edilməsindən söhbət gedərsə, onlara dağınıq şəkildə münasibət bildirmək doğru deyil. Məsələ

ilə bağlı olan bütün mətn və ayələri bütövlükdə nəzərdən keçirilməli, onların nazil olduğu mühit, şərait və məqsədlərinə diqqətlə baxılmalıdır. Əks təqdirdə, ayə və mətnlərlə hadisələr arasında tutarlı bir əlaqə yaratmaq mümkün olmaz. Tarixi proseslər içərisində və müasir dövrümüzdə belə nöqsanlar mühüm problemlər meydana gətirir. Yuxarıda qeyd etdiyimiz məsələ də həmin problemlərin bariz nümunəsidir. Ona görə də Mövla Əlinin (ə) məsələyə bildirdiyi münasibət daha obyektivdir.

Burada əhəmiyyətli olan başqa bir cəhət də vardır. Həzrət Peyğəmbərin (s) **"Şübhəli hesab etdiyiniz cinayətlərdə həd cəzalarını icra etməyin"** hədisi mövcud olan şübhənin müqəssirin xeyrinə olduğunu vurğulayır. Bu prinsip müasir hüquq tərəfindən də qəbul edilmişdir. O halda bir az əvvəl qeyd olunan hadisədə rəcm cəzası tətbiq edilmişdir. Halbuki belə vəziyyətdə rəcm cəzası tətbiq edilə bilməzdi.

Burada bir nüansı da nəzərə almaq lazımdır. O da budur ki, əgər kişi (ər) öz iddiasında israr edərsə, o zaman dörd şahid gətirməklə cinayət sübut olunmalıdır. Əks təqdirdə rəcm cəzası tətbiq edilə bilməz və məhkəmə də qarşılıqlı şəkildə lənətlənmədən (bu fiqhi bir məsələdir) sonra onların ayrılması haqqında hökm çıxarar.

Bütün bu cəhətləri nəzərə alsaq, Mövla Əlinin (ə) fiqhi duhasının coğrafi arealının genişliyini daha aydın görərik.

İTİRİLMİŞ ZİREH

Həzrət Əlinin (ə) xilafəti dövründə hakimlik edən və taibunun tanınmış nümayəndələrindən biri olan Qazi Şürehə bir hadisə barəsində şikayət edir. Hadisə belə olmuşdur: **"Bir dəfə Həzrət Əli (ə) zirehini dəvəsindən yerə salıb itirir və bir müddət keçdikdən sonra onu bir yəhudinin əlində görür. Həzrət Əli (ə) zirehin ona aid olduğunu söyləyib onu geri qaytarmasını tələb edir. Yəhudi isə cavabında belə deyir: "Bu, mənim zirehimdir və görürsən ki, mənim əlimdədir". Şikayətə qulaq asan Qazi Şüreyh xəlifə Həzrət Əliyə (ə) deyir: "Allaha and olsun, bilirəm ki, bu zireh sənindir. Ancaq, iddianı isbat etmək üçün iki şahid gətirməlisən". Bu zaman Həzrət Əli (ə) xidmətçisi Qənbəri və oğlu Həsəni**

(ə) çağırır. Hər ikisi onun lehinə şahidlik edirlər. Qazi Şüreyh deyir: "Bəli, xidmətçinin sənin lehinə etdiyi şahidliyini qəbul edirəm. Amma oğlunun şahidliyini qəbul edə bilmərəm". Həzrət Əli (ə) isə oğlunun atasının lehinə şahidlik etməsini mümkün hesab edirdi. Buna baxmayaraq, hakimin sözünə ehtiram göstərərək qəbul edir. Nəticədə başqa şahid tapa bilməyən Həzrət Əli (ə) irəli sürdüyü ittihamı isbat edə bilmir və Qazi Şüreyh zirehi yəhudiyə verir. Bunu görən yəhudi belə deyir: "Sən İslamın gücünə bax, dövlət başçısı – xəlifə mənimlə birlikdə şikayətçi kimi özünün təyin etdiyi hakimin hüzuruna gedir, hakim onun əleyhinə olan bir qərar çıxarır, o da bu qərara hörmət bəsləyib qəbul edir!" Bu zaman yəhudinin susmuş vicdanı onu narahat edir. O, "ya Əli, sən doğru söyləyirsən. Bu zireh sənindir" - deyə İslamı qəbul edərək müsəlman olur. Bunu görən Həzrət Əli (ə) zirehi ona hədiyyə edir və bundan əlavə ona 900 dirhəm də bağışlayır. Həmin şəxs sonralar Səffeyn döyüşündə şəhid olana qədər Həzrət Əlinin (ə) yanında qalır.

Sözügedən məsələni təhlil edərkən belə qənaətə gəlmək mümkündür ki, Mövla Əli (ə) Qurani-Kərimə və Peyğəmbər (s) sünnəsinə o qədər bağlı olmuşdur ki, iqtidarda ola-ola, İslam dövlətçiliyinin qorunması naminə malından və canından da keçməyə hazır olmuşdur. O cəmyyətdə ədalətin bərqərar edilməsi və etibarın təsis olunması üçün güclü hüquqda cəm edilməsi, haqların və vəzifələrin ayrı-ayrı şəxslərin iradəsinə deyil, müəyyən qanun və prinsiplərə tabe edilməsinə çalışmışdır. Habelə hüquq qarşısında hər kəsin bərabər olması, ixtilafların müstəqil məhkəmələr tərəfindən həll edilməsi, məhkəmə qərarına hörmət göstərilməsi bütün hüquqların önəmlə vurğuladıqları hüquqi dövlət prinsipinin ən təməl əsaslarından sayılmasına böyük ehtiramdır. Bu baxımdan Həzrət Əlinin (ə) bu hadisədə tutduğu mövqe böyük əhəmiyyət kəsb edir.

MALIN MÜHAFİZƏSİ

İtirilən və başqası tərəfindən tapılan mal barəsində verilən suallara Həzrət Peyğəmbər (s) təfsilatlı şəkildə cavab vermişdir. Bunların timsalında tapılan dəvənin hökmü də soruşulmuş, Peyğəmbər (s) cavab olaraq buyurmuşdur: **"… Dəvədən sənə nə?! Onun su tuluğu da, çarığı da yanındadır. Sahibi ona rast gələnə qədər su tapıb içər, yemək tapıb yeyər".**

Həzrət Peyğəmbərin (s), Əbu Bəkr (r) və Ömərin (r) dövründə bu məsələnin həllində qanun belə idi. Sağlam və dözümlü ayaqları sayəsində yeməyə ot, içməyə də su tapıb yaşayışını təmin edən və sahibləri tərəfindən tapılana qədər dəvə başlı-başına buraxılardı. O zamanlar heç bir kəs də onlara dəyib-dolaşmazdı. Həmçinin bu hökm mal-qaraya da şamil edilmişdi. Çünki onlar da dəvə kimi öz həyatlarını davam etdirmə gücünə malik idilər. Hətta Ömərin (r) dövründə də bu cür dəvələr o qədər çoxalmışdı ki, orda-burda balalayar, heç kəs onlara dəyməzdi. Lakin xəlifə Osmanın (r) dövründə bu dəvələrin toplanıb elan edilməsini, sahibləri tapılarsa pullarının verilməsini əmr etdi. Həzrət Əli (ə) isə Osmanın (r) fikrini qəbul etməklə yanaşı, dəvələrin satılaraq pullarının ödənilməsinin onların öz yerini verməyəcəyi və sahiblərinə ziyan olacağını nəzərə alıb onların cəm edilərək beytul-malda saxlanılmasını, sahibləri məlum olan zaman isə özlərinə verilməsini qərara aldı.

Hüquqşünaslar normaların ləfz və məqsəd ünsürünü bir insanın bədəni və ruhuna bənzədirlər. Əsas şərt hər iki ünsürü birlikdə mühafizə etməkdir. Həzrət Əlinin (ə) də burada eyni metodu nəzərə alaraq düzgün bir nəticə əldə etdiyini görürük.

Yuxarıda qeyd etdiyimiz kimi, Həzrət Peyğəmbərin (s) əsl məqsədi malın sahibinə çatması idi. Bu işi də o dövrdə dəvələri başlı-başına buraxmaqla həyata keçirmək mümkün idi. Ancaq sonralar dövr dəyişdikcə əxlaqın pozulduğu, haqq-hüquq məfhumunun zəiflədiyi və bəzi insanların harama əl uzatdığı üçün dəvələrin, mal-qaranın başlı-başına buraxılması onların məhvi demək idi. Həzrət Peyğəmbər (s) isə öz əmri ilə qətiyyən bunu nəzərdə tutmamışdı. Buna görə də dəvələrin götürülüb mühafizə edilməsi və sahibləri gələn zaman onlara geri verilməsi **"malın mühafizəsi"** prinsipinə daha çox uyğun olan bir anlayış idi. Buradan

bir daha görünür ki, Mövla Əli (ə) fiqh məsələlərini xüsusən də İslam hüququnu gözəl bilmiş və yerli-yerində tətbiq etməyi bacarmışdır.

ZİNA EDƏN QADIN

Xəlifə Ömərin (r) xilafəti dövründə yanına zina etdiyi iddia edilən bir qadını gətirirlər. Ömər də (r) öz növbəsində qadının günahı sübut olununca onu rəcm cəzasına məhkum edir. Bu xəbəri eşidən Mövla Əli (ə) **"zinanın səbəbini öyrənməliyik, bəlkə də məcburən edilmişdir"**,-deyərək qərara etiraz edir. Araşdırma aparıldıqdan sonra Əlinin (ə) sözünün doğruluğu məlum olur. Belə ki, araşdırma zamanı həmin qadının susuzluqdan həlak olma dərəcəsində olarkən bir kişi ona özünü təslim etməzsə, su verməyəcəyini söyləmiş, məcburiyyət qarşısında qalan qadın da onunla zina etmişdir. Bundan sonra Əli (ə) zəruriyyət halında olan və bu halı dəf edəcək qədər haramların mübahlaşmasını (halallığını) ifadə edən ayeyi-şərifəni oxuyur. Beləliklə, qadın cəzadan xilas olur.

Əgər bir insan şiddətli ehtiyac və təhlükə halında olan zaman qanun pozuntusuna yol verərsə, bunu adi haldakı kimi dəyərləndirərək eyni nəticəyə tabe etmək ədalət prinsipinə əsla uyğun olmaz. Buna görə də fəqihlər ayələrin mətnlərinə istinad edərək **"zərurətlər yasaq olan şeyləri mübah qılar"** şəklində hüquqi bir qayda tərtib etmiş və **"zərurətlər öz miqdarları qədər təqdir olunur"** qaydası ilə də bunun həddini müəyyənləşdirmişlər. Bu səbəbdən haramlara ancaq təhlükəni dəf edəcək qədər icazə verilmişdir. Zərurət **"hər hansı bir kimsənin qadağan edilmiş bir şeyi etmədiyi təqdirdə ölümünə bais olacaq bir haldır"** şəklində müəyyənləşdirilmişdir. Belə bir vəziyyətdə zina etmiş bir qadına, əlbəttə ki, rəcm cəzası tətbiq etmək düzgün olmazdı. Burada Əlinin (ə) bəsirət və biliyi ədalətin təcəlli etməsində önəmli bir rol oynamışdır.

ÜÇ DİRHƏMLİK KÖYNƏK

İmam Əli (ə) hakimiyyəti dövründə öz xidmətçi Qənbərlə bazara getdi və iki paltar aldı. Birinə üç dirhəm, o birinə iki dirhəm verdi.

Sonra Qəmbərə buyurdu: **"Üç dirhəmlik köynək sənindir".** Nökər dedi: **"Ey mənim mövlam, yaxşı olardı ki, bahalı köynəyi siz götürəsiniz".** İmam (ə) buyurdu: **"Sən cavansan, başqa cavanlar kimi, gözəl və səliqəli geyinməlisən. Mənim paltarım sənin paltarından yaxşı olsa, mən öz Allahımdan utanaram. Bir də ki, alan və bağışlayan mənəm, adam yoldaşına yaxşı şeyi bağışlayar. Peyğəmbərimiz (s) də tabelikdə olan adamlar haqqında belə bir göstəriş vermişdir: "Özünüz yediyiniz xörəklərdən onlara da yedirdin, geyindiyiniz libaslardan onlara da geyindirin".**

MƏSİHİ ALİMİNƏ QANEEDİCİ BİR CAVAB

Səlman Farsidən rəvayət olunur:

- Peyğəmbərin (s) vəfatından sonra bir dəstə məsihi öz yepiskopları ilə Mədinəyə gəldilər. Onlar xəlifəyə müxtəlif suallar verdilər. Xəlifə **"mənim işlərim çoxdur",**-deyə onları Mövla Əlinin (ə) hüzuruna göndərdi. Onlar İmamdan soruşdular:

- Allah haradadır?

İmam od qaladı və sonra soruşdu:

- Bu odun üzü haradadır?

Məsihi alimi dedi:

- Onun hər tərəfi üz sayılır.

İmam buyurdu:

- Heç bir oxşarı olmayan Xaliq haqqında harada deməyin də heç bir mənası yoxdur. Məşriq, Məğrib Onunkudur, hər tərəfə üzünü çevirsən, Allahın Özü və vəchidir, heç nə Ondan gizli, heç nə Onun üçün məxfi deyil.

İmam (ə) təkcə müsəlmanların və İslamın fikri, əqidə məsələlərində və nəticə etibarı ilə xəlifəyə kömək etmirdi, üstəlik bəzi vaxtlar xəlifə Quranın müfrədatlarının və lüğətlərinin təfsirində aciz qaldıqda onun da köməyinə yetişirdi.

* * *

Məmurlar şərab içmiş bir kişini xəlifənin yanına gətirdilər ki, onun üçün şərab içməyin həddini – cəzasını icra etsin. O adam iddia etdi ki, şərabın haram edilməsindən xəbərdar deyilmiş və elə bir cəmiy-

yətdə tərbiyə olunubmuş ki, onlar o vaxta qədər şərabı halal bilmişlər. Xəlifə nə edəcəyini bilmədi. Dərhal bir nəfəri Mövla Əlinin (ə) hüzuruna göndərdi və ondan bü müşkülü həll etməsini istədi.

İmam (ə) buyurdu: **"Belə olan surətdə iki nəfər etimadlı şəxs bu şərab içmiş adamı Mühacir və Ənsarın məclisinə aparsınlar və onlardan indiyə kimi şərabın haram edilməsi barədə olan ayəni bu kişi üçün tilavət edib-etməmələrini soruşsunlar. Əgər onlar şəhadət versələr ki, şərabın haram edilməsi barədə olan ayəni bu kişi üçün tilavət ediblər, onda İlahi həddini onun barəsində icra edin. Əgər tilavət etməmiş olsalar, gərək ona tövbə etdirsinlər ki, gələcəkdə dilinə şərab vurmasın, sonra isə azad etsinlər".**

Xəlifə İmamın göstərişinə əməl etdi. Sonda həmin kişi azad olundu.

Doğrudur ki, İmam xəlifələrin hakimiyyəti dövründə sükut edib heç bir məsuliyyəti qəbul etmədi. Lakin heç vaxt İslamı qoruyub müdafiə etməkdən də boyun qaçırmırdı.

* * *

Bir dəfə Rəsül-Calut (yəhudilərin rəhbəri) Quranın aşağıdakı məsələlər barədəki nəzərini Əbu Bəkrdən (r) soruşdu:

Həyatın və canlı mövcudların kökü (əsli) nədir?

Cansızlardan bir növ danışanı hansıdır?

Həmişə artıb – azalan şey nədir?

Bu xəbər Mövla Əliyə (ə) çatanda o Həzrət buyurdu: **"Quranın nəzərində həyatın əsası sudur. Qurani-Kərimdə buyurulur:** ***"Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını Sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?.."*** (**"əl-Ənbiya"** surəsi, 30-cu ayə)

Cansızlardan danışanı yer və asimandır ki, Allahın əmrinə itaət etmələrini aşkar etmişdir.

"Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan göyə üz tutdu. (Göyü yaratmaq qərarına gəldi) Ona (göyə) və yerə belə buyurdu: İstər-istəməz vücuda gəlin! Onlar da: İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!- deyə cavab verdilər". (**"Füssilət"** surəsi, 11-ci ayə)

Həmişə azalıb – çoxalan şey gecə – gündüzdür. Qurani-Kərimdə buyurulur:

"(Ya Rəsulum)! Məgər Allahın gecəni–gündüzə, gündüzü də gecəyə qatdığını (gah gündüzü, gah da gecəni uzatdığını), Günəşi və Ayı ram (sizin mənafeyinizə tabe) etdiyini görmürsənmi…" (**"Loğman"** surəsi, 29-cu ayə)

Göründüyü kimi, İmam adətən öz dediyini isbat etmək üçün Quran ayələrinə istinad edirdi. Bu da onun sözlərini daha da möhkəmləndirdi. (**"Biharül-Ənvar"**, 40-cı cild, səh. 224).

İFŞA OLUNAN TƏDBİR

Ömər İbn Xəttabın (r) xilafəti dövründə iki kişi bir qədər əmanəti bir qadının yanında qoymuş və ona tapşırmışdılar ki, yalnız hər ikisi birlikdə gəldikdə əmanəti təhvil versin. Bir müddətdən sonra onlardan biri qadının yanına gəlib dostunun öldüyünü iddia edir və əmanəti istəyir. Qadın əvvəlcə əmanəti qaytarmaqdan imtina edir. Lakin o kişi çox ciddi şəkildə iddia etdiyi üçün əmanəti ona qaytarır. Bir müddətdən sonra ikinci şəxs də gəlib əmanəti istədikdə qadın baş verən hadisəni ona danışır. Bu zaman onların arasında mübahisə başlanır. Məsələni Xəlifə Ömərə (r) çatdırırlar.

Ömər (r) qadına deyir:

- Sən əmanətə zaminsən.

Həmin məclisdə İmam Əli (ə) də iştirak edir. Qadın Xəlifə Ömərdən (r) xahiş etdi ki, İmam Əli (ə) onların arasında qəzavət etsin. Xəlifə Ömər (r) razılaşır.

- Ya Əli! Onların arasında qəzavət et.

İmam Əli (ə) o kişiyə buyurdu:

- Məgər sən də, dostun da bu qadına **"əmanəti heç birinizə təklikdə verməsin"** deməmişdinizmi?! İndi o əmanət mənim yanımdadır. Get dostunu da gətir, onu təhvil al.

Bu zaman Mövla Əli (ə) həmin qadını əmanətə zamin hesab etmədi və bununla da onların fırıldaqları aşkar oldu. Çünki Həzrət bilirdi ki, onlar bir-biri ilə sözləşmişlər və istəyirlər ki, hər biri ayrılıqda əmanəti o qadından istəsinlər, qadın da hər ikisinə dəyən ziyanı ödəsin.

HİYLƏGƏR QADININ MƏKRİ

Fitnə əhli olan bir qadın ənsardan olan təqvalı bir cavana vurulmuşdu. Ancaq nə qədər çalışırdısa onu özünə cəlb edə bilmirdi. Buna görə də ondan intiqam almaq fikrinə düşdü. Belə ki, toyuq yumurtasını sınıdırıb onun ağını paltarının iki budlarının arasındakı yerinə sürtdü və bununla da o cavanı ittiham etdi. Qadın Xəlifə Ömərə (r) bu barədə şikayət etdi:

- Ey xəlifə! Filənkəs məni rüsvay etmişdir!

Ömər (r) ənsardan olan cavanı cəzalandırmaq qərarına gəlir, amma o, **"mən heç vaxt zinaya mürtəkib olmamışam"**,- deyə and içir və Xəlifədən onun işində daha artıq diqqətli olmasını istəyir. Təsadüfən İmam Əli (ə) də orada olur. Xəlifə üzünü İmam Əliyə (ə) tutub deyir:

- Ya Əli! Bu barədə sizin nəzəriniz necədir?

İmam Əli (ə) qadının paltarındakı ağ mayeyə diqqətlə baxıb məsələnin nə yerdə olduğunu başa düşür və buyurur:

- O paltarın üstünə qaynar su tökün.

Suyu tökdükdən sonra ağlar bişib bərkiyir. İmam orada olanları başa salmaq üçün bərkimiş yumurtadan bir qədər götürüb ağzına qoyur. Daddıqdan sonra çölə atır. Sonra qadını böhtan dediyi üçün məzəmmət edir. Nəhayət, qadın öz günahını etiraf etdikdən sonra onun hiyləgərliyi aşkar olur. Bununla da ənsardan olan cavan cəza almaqdan xilas olur.

İMAMIN MÜQƏSSİRİ AŞKAR ETMƏSİ

Bir neçə qadın günahsız və iffətli bir qızı Xəlifə Ömərin (r) yanına gətirib onun zina etməsinə dair şahidlik etdilər.

Həmin o qız uşaqlıq çağlarında ata-anasını itirmişdi. Bir kişi onu himayəsinə götürüb saxlayırdı. Kişi daim səfərə gedirdi. Nəhayət qız böyüyüb ərlik ərsəsinə çatır. Kişinin arvadı ərinin o qızı öz əqdinə (kəbininə) keçirəcəyindən qorxur. Buna görə də belə bir hiylə qurur. Qonşu qadınlardan bir neçəsini öz evinə çağırır. Onlar qızı tuturlar, qadın da öz barmağı ilə qızın bəkarət pərdəsini yırtır.

Kişi səfərdən qayıtdıqda arvadı ona deyir:

- Bu qızcığaz fahişəliklə məşğul olur!. Bu hadisədə iştirak edən qadınlar da şəhadət verərək onun sözünü təsdiqləyirlər.

Kişi hadisəni Xəlifəyə çatdırır. Xəlifə hökm vermədən deyir:

- Qalxın, Əlinin (ə) yanına gedin.

Onlar hamılıqla qalxıb İmam Əlinin (ə) hüzuruna gələrək hadisəni ona danışırlar. İmam Əli (ə) o qadına buyurur:

- İddiana şahidin varmı?

Qadın dərhal cavab verir:

- Bəli, qonşu qadınlardan bəziləri şahiddir.

Qadın onları çağırır. Həzrət Əli (ə) qılıncını qınından çıxardıb qarşısına qoyaraq buyurur ki, qadınların hər birini bir hücrəyə daxil etsinlər. Sonra o kişinin arvadını çağırıb kamil istintaq aparır. Lakin o, əvvəlki kimi öz iddiasından əl çəkmək istəmir. Onu əvvəlki otağına göndərir. Sonra şahidlərdən birini çağırır, özü isə diz üstə oturub ona deyir:

- Məni tanıyırsanmı? Mən Əli ibn Əbu Talibəm. Gördüyün bu qılınc da mənim qılıncımdır. O kişinin arvadı haqqa qayıtdı. Ona aman verdim. Əgər düzünü deməsən boynunu vuracağam!

Qadın qorxudan titrəməyə başlayır və Xəlifəyə deyir:

- Ey xəlifə! Mənə aman ver, həqiqəti deyim.

İmam Əli (ə):

- De görüm!

Qadın:

- Allaha and olsun, hadisə belə oldu. O kişinin arvadı qızın gözəlliyini, camalını gördükdə ərinin onunla izdivac etməsindən qorxdu. Buna görə də bizi öz evinə çağırdı və qıza bir qədər şərab içirtdi. Biz onu tutduq, o da barmağı ilə qızın bəkarət pərdəsini yırtdı.

Bu zaman İmam Əli (ə) buyurdu:

- Allahu Əkbər! Mən Danyal Peyğəmbərdən (ə) sonra şahidlərin arasına təfriqə salaraq həqiqəti kəşf edən ilk şəxsəm!

Sonra o qıza nahaq yerə zina töhməti vuran qadınların hamısına iftira həddini (şallaq vurma) tətbiq etdi. O qadını isə qızın bəkarət diyəsini (400 dirhəm) verməyə vadar etdi. Daha sonra göstəriş verdi ki, kişi özünün cinayətkar arvadına tələq versin və həmin qızı alsın. O qızın mehriyyəsini də İmam Əli (ə) öz malından verdi.

Bu hadisə sona çatdıqdan sonra Xəlifə Ömər (r) dedi:

- Ya Əbəl-Həsən! Həzrət Danyalın hadisəsini bizə bəyan et.

İmam Əli (ə) buyurdu:

- Danyal yetim bir uşaq idi. Bəni İsraildən olan qoca bir qarı onun məişət xərclərini və ehtiyaclarını təmin etməyi öz öhdəsinə almışdı. Dövrün padşahının iki xüsusi qazisi var idi. Onların da padşahın yanına gedib-gələn bir dostları var idi. Onların dostunun arvadı çox gözəl idi. Bir gün padşah bir işi görmək üçün düzgün və əmanətdar bir şəxs axtarır. Bu məsələ haqqında o iki qazi ilə məşvərət edir və deyir:

- Bu işi yerinə yetirməyə layiqli olan bir adam tapın.

Hər iki qazi həmin dostlarını padşaha təqdim edir və onun hüzuruna gətirirlər. Padşah da həmin işi görməyi ona həvalə edir. O şəxs səfərə hazırlaşır. Lakin həmişəki kimi öz həyat yoldaşını o iki qaziyə tapşırır. Kişi səfərə getdikdən sonra hər iki qazi onun evinə gedib-gəlməyə başlayırlar. Qadınla çox ünsiyyətdə olduqlarına görə ona aşiq olur və öz istəklərini bəyan edirlər. Lakin qadın ciddi şəkildə imtina edir. Nəhayət ona deyirlər:

- Əgər dediymizə razı olmasan, səni padşahın yanında rüsvay edəcəyik! Qoy səni daş-qalaq etsin.

Qadın deyir:

- Nə istəyirsinizsə onu da edin.

O iki qazi padşahın yanına gəlib onun zina etdiyinə görə şahidlik edirlər. Padşah bu xəbəri eşitdikdə çox kədərlənir və qadının işindən heyrətlənərək deyir:

- Camaat! O abidin zina edən arvadını daş-qalaq etmək üçün hazır olun! İki qazi onun bu işinə şahidlik etmişdir!.

Bu xəbər camaat arasında söz-söhbətə səbəb olur. Padşah işi təxirə salaraq vəzirdən kömək istəyir.

Vəzir məsələni araşdırmaq üçün iki gün xalq arasında söhbət aparır. Üçüncü gün vəzir istirahət etmək üçün evindən çıxır, təsadüfən yolda oynayan uşaqlara tamaşa edir. Onların arasında olan kiçik yaşlı Danyalı tanımır. Danyal zahirdə oynayırdı. Həqiqətdə isə özünü vəzirə göstərmək üçün uşaqları öz ətrafına toplayıb sanki onlarla məşq edirdi:

- Mən padşah, sizin biriniz abidin arvadı və o iki uşaq da iki şahid olan qazi olsun. Sonra bir qədər torpaq komalayır, bir qadından qılıncı alır və uşaqlara deyir:

- Bu iki şahidin hər birinin əlindən tutun və filan yerə aparın.

Sonra o ikisindən birini çağırıb deyir:
- Düzünü deməsən səni öldürəcəyik!
O şahid deyir:
- Şəhadət verirəm ki, o qadın zina etmişdir.
Danyal deyir:
- Nə vaxt?
Deyir:
- Filan gündə.
Danyal:
- Bunu o tərəfə aparın, o birisini gətirin.
Uşaqlar da onu əvvəlki yerinə aparıb digərini gətirirlər.
Danyal ondan soruşur:
- Sən bu haqda nə deyə bilərsən?
O deyir:
- Şəhadət verirəm ki, o qadın zina etmişdir.
Nə vaxt?
- Filan gündə.
Kim ilə?
- Filan kəsin oğlu filan kəslə.
Harada?
- Filan yerdə.

O, əvvəlki şahidin dediyinin əksini deyir. Bu zaman Danyal buyurur:

- Allahu Əkbər! Yalan yerə şahidlik etdilər!

Sonra uşaqlardan birinə göstəriş verir ki, camaatın arasında car çəkib belə desin:

- O iki qazi pak və iffətli bir qadına töhmət vurmuşlar, indi onları edam etməyə hazır olun!.

Vəzir bu hadisəni müşahidə etdikdən sonra dərhal padşahın yanına gəlib gördüklərini ona deyir. Padşah o iki qazını öz hüzuruna çağırır, eşitdiyi qayda üzrə onlardan xəbər alır. Onların şəhadətlərinin bir-birinin əksinə olduğunu görür. Fərman verir ki, camaatın arasında car çəksinlər ki, o qadın pakdır. Ona bəraət verilir. Qazılar isə ona böhtan atdıqları üçün edam olunurlar.

DÖNÜŞÜ OLMAYAN SƏFƏR

Həzrət Əli (ə) məscidə daxil olub gördü ki, bir cavan ağlayır, bir neçə nəfər də ona təskinlik verir. İmam (ə) irəli gəlib cavandan soruşdu:

- Nə üçün ağlayırsan?

Cavan dedi:

- Ya Əmirəlmöminin! Şüreyh qazinin mənim barəmdə çıxartdığı hökmə görə ağlayıram. Bilmirəm, hansı əsasa görə bu hökmü vermişdir!

Sonra öz başına gələnləri anlatdı:

- Atam bu camaatla birlikdə səfərə getmişdi. Özü ilə çoxlu mal-dövlət də aparmışdı. Onlar səfərdən gəlmiş, atam isə qayıtmamışdır. Atam barəsində xəbər aldıqda deyirlər ki, səfərdə ölmüşdür. Mal-dövləti haqda soruşduqda isə deyirlər ki, onun mal-dövlətdən heç nə-yi yox idi. Onları Şüreyhin yanına apardım. Şüreyh and içdirib onları azad etdi. Halbuki, atamın özü ilə çoxlu mal-dövlət apardığını bilirdim.

Əmirəlmöminin Əli (ə) onlara buyurdu:

- Tez olun, Şüreyhin yanına qayıdın! Mən özüm o cavanın işi barəsində təhqiqat aparacağam.

Onlar qayıtdılar. İmam Əli (ə) da Şüreyhin yanına gəlib dedi:

- Onların arasında necə qəzavət etmisən?

Şüreyh:

- Ya Əmirəlmöminin! Bu cavan iddia edir ki, atası bunlarla birlikdə səfərə getmiş və özü ilə çoxlu mal-dövlət aparmışdır. Amma atası onlarla birlikdə səfərdən qayıtmayıb. Cavan onlardan atası barəsinə soruşduqda ona **"atan səfərdə ölmüşdür"**,- deyə cavab veriblər. Mən də cavana dedim: **"Öz iddiana dair şahidin varmı?" "Xeyr"**,- deyə cavab verdi. İnkar edən bu dəstəni and içdirdim və azad oldular.

Həzrət Əli (ə) Şüreyhə buyurdu:

- Çox təəssüflənirəm ki, bu cür mühüm hadisədə belə hökm vermisən!

Şüreyh:

- Bəs onun hökmü nədir?

Həzrət Əli (ə) buyurdu:

- Allaha and olsun, indi onların arasında elə hökm edərəm ki, məndən əvvəl Davud Peyğəmbərdən (ə) başqa heç kəs belə bir hökm etməyib. Ey Qənbər! Keşikçi məmurları gətir!

Qənbər onları gətirdi. Həzrət onların hər birinə bir məmur təyin etdi, sonra onların üzlərinə baxıb buyurdu:

- Nə deyirsiniz?! Belə fikirləşirsiniz ki, sizin bu cavanın atasına qarşı törətdiyiniz cinayətdən agah deyiləm?! Əgər xəbərdar olmasam, onda nadan olaram!

Sonra məmurlara buyurdu:

- Onların üzlərini bağlayın və hamısını bir-birindən ayırın.

Həzrətin göstərişi ilə onların hər birini üzləri və başları paltarla örtülmüş halda məscidin sütunlarının birinin yanında oturtdular. Sonra İmam (ə) öz katibi Abdüllah ibn Əbu Rafeni çağırıb buyurdu:

- Qələm-kağız gətir!

Özü isə qəzavət kürsüsündə əyləşdi, camaat da onun qarşısında oturdular. Həzrət camaata buyurdu:

- Mən hər vaxt **"təkbir"** (Allahu əkbər) desəm, siz də **"təkbir"** deyin.

Sonra camaatı qəzavət məclisindən çıxartdı və içəridəkilərdən birini çağırıb öz qarşısında oturtdu. Üzünü açıb Abdüllah ibn Əbi Rafeyə buyurdu:

- Bu kişinin iqrar etdiklərini yaz.

Sonra onu istintaq edib buyurdu:

- Siz və bu cavanın atası nə vaxt evinizdən xaric olmusunuz?
- Filan gündə.
- Hansı ayda?
- Filan ayda.
- Hansı ildə?
- Filan ildə.
- Bu cavanın atası öləndə harada idiniz?
- Filan yerdə.
- Kimin evində?
- Filankəsin.
- Hansı xəstəlikdən öldü?
- Filan xəstəlikdən.
- Xəstəliyi neçə gün çəkdi?
- Filan qədər.

- Hansı gündə öldü? Kim ona qüsl verib kəfənə bükdü? Kəfənin parçası nə idi? Kim ona namaz qıldı və kim onu qəbrə qoydu?

Onu tam istintaqa çəkdikdən sonra **"təkbir"** səsi ucaldı. Camaat hamılıqla **"təkbir"** dedi. **"Təkbir"** səsini eşitdikləri halda başqaları da o şəxsin həm özünün, həm də digərlərinin sirrini açmasını yəqin etdilər. Həzrətin əmri ilə yenidən onun başını və üzünü bağlayıb əvvəlki yerinə apardılar.

Sonra başqa birini hüzuruna çağırıb öz qarşısında oturtdu. Üzünü açdı və ona buyurdu:

- Elə fikirləşirsən ki, mən sizin cinayət və xəyanətinizdən agah deyiləm?

Bu zaman o, birinci şəxsin gördükləri işləri etiraf etməsinə əsla şəkk etmədi və günahını boynuna almaqdan başqa bir çıxış yolu görməyərək dedi:

- Ya Əmirəlmöminin! Mən də onlardan biri idim və cavanın atasını öldürmək istəmirdim. Bununla da öz təqsirini etiraf edərək hadisəni olduğu kimi danışdı.

İmam Əli (ə) şahidlərin hamısını bir-bir ayrı-ayrılıqda çağırıb danışdırdı. Onlar da cavanın atasını öldürüb mal-dövlətini mənimsədiklərini iqrar etdilər. Bu zaman hələ etiraf etməmiş olan birinci şəxs də deyilənləri təsdiq etdi. İmam onları cavanın atasının qan bahasını və mal-dövlətini verməyə məcbur etdi. Öldürülən şəxsin malını qaytarmaq istədikdə cavanla onların arasında kəskin ixtilaf yarandı və hər biri müəyyən məbləğ iddia etdilər. Mövla Əli (ə) öz üzüyünü və onların üzüklərini götürüb buyurdu:

- Onları bir yerə qatın. Hər kəs mənim üzüyümü bunların içərisindən tapsa, iddiasında düz demiş olar. Çünki mənim üzüyüm Allahın payıdır və Allahın payı həqiqətə çatar.

Bu məsələ həll olunduqdan sonra Şüreyh dedi:

- Ya Əmirəlmöminin! Davud peyğəmbərin (ə) hökmü nə idi?

Həzrət buyurdu:

- Davud bir küçədən keçirdi. Təsadüfən bir-biri ilə oynayan bir neçə uşaqla qarşılaşdı. Bir uşağın adının **"Matəddin"** (din öldü) çağırıldığını eşitdi. Uşağı yanına çağırıb ona dedi:

- Adın nədir?

- Matəddin.

Davud dedi:

- Bu adı kim sənə qoymuşdur?
- Atam.

Davud oğlanı anasının yanına aparıb soruşdu:

- Ey qadın! Bu uşağın adı nədir?
- Matəddin.
- Bu adı ona kim qoymuşdur?
- Atası qoymuşdur.
- Hansı münasibətlə?
- Bu oğluma hamilə olan zaman atası bir karvanla səfərə getdi, lakin onlarla qayıtmadı. Mən onun barəsində soruşduqda "ölmüşdür" deyə cavab verdilər.

Dedim:

- Bəs onun mal-dövləti necə oldu?

Dedilər:

- Onun heç nəyi yox idi!

Soruşdum:

- Mənim barəmdə sizə heç bir vəsiyyət və sifariş etmədimi?
- Yalnız bir vəsiyyət etdi. O, sənin hamilə olduğunu bildiyi üçün sifariş etdi ki, oğlan və ya qız olmağından asılı olmayaraq övladının adını "Matəddin" qoyarsan.

Davud soruşdu:

- Ərinin səfər yoldaşları ölüblər, yoxsa diridilər?
- Diridilər.
- Məni onların evinə apar.

Qadın Davudu onların evinə apardı. Davud onların hamısını bir yerə toplayıb həmin ardıcıllıqla – mənim etdiyim kimi onları dindirdi. Onların cinayəti aşkar olduqda öldürülən şəxsin qan bahasını və malını onların öhdəsinə qoyub qadına dedi:

- İndi oğlunun adını Aşəddin, yəni "din dirildi" qoy.

HƏZRƏT ƏLİYƏ (Ə) QARŞI HİYLƏGƏRLİK

Həzrət Mühəmməd (s) Mədinəyə hicrət edərkən İmam Əlini (ə) özünün Məkkədəki vəkili və naibi seçdi ki, camaatın əmanətlərini öz sahiblərinə qaytardıqdan sonra Mədinəyə gəlsin.

Mövla Əli (ə) əmanətləri sahiblərinə təhvil verdiyi günlərdə Əbu Süfyanın oğlu Hənzələ, Ümey ibn Vail Səqəfini qızışdırdı ki, Həzrətin yanına gedib səksən misqal qızıl tələb etsin. Sonra ona dedi:

- Əgər İmam Əli (ə) səndən şahid istəsə, biz qüreyşlilər sənin üçün şəhadət verəcəyik.

Bu görəcəyi işin müqabilində ona yüz misqal ağırlığında qızıl mükafat verdi. Onun içində on üç misqal ağırlığı olan boyunbağı da var idi.

Ümey Həzrət Əlinin (ə) yanına gəlib öz əmanətini istədi. Mövla Əli (ə) nə qədər axtardısa, onun adına əmanət görməyəndə yalan danışdığını yəqin etdi. Sonra, bəlkə öz iddiasından əl çəksin - deyə, ona öyüd-nəsihət verdi. Lakin öyüd-nəsihətin heç bir xeyri olmadı. Ümey israr edib deyirdi:

- Mənim Qüreyşdən şahidlərim var: Əbu Cəhl, Əkrəmə, Əqəbə ibn Əbi Muit, Əbu Süfyan və Hənzələ. Onlar mənim üçün şəhadət verəcəklər.

Mövla Əli (ə) buyurdu:

- Bu bir hiylədir ki, onu edənin yaxasına yapışacaqdır!

Sonra bütün şahidlərin hazır olub Kəbə evində oturmaları üçün göstəriş verdi. Ümeyə üz tutub buyurdu:

- De görüm, əmanətlərini Peyğəmbərə nə vaxt vermişdin?

Ümey:

- Günortaya yaxın vaxtlarda təhvil verdim və o, onları əlimdən alıb öz qulamına verdi.

Sonra Əbu Cəhli çağırdı və həmin sualı ondan soruşdu. Lakin Əbu Cəhl **"mən cavab verməyə bir lüzum görmürəm"**,- deyə özünü xilas etdi.

Ondan sonra Əbu Süfyanı çağırıb həmin sualları ondan soruşduqda Əbu Süfyan dedi:

- Gün batana yaxın vaxtlar idi ki, Ümey əmanətini Mühəmmədə verdi. O da alıb öz qoynuna qoydu.

Növbə Hənzələyə çatanda o dedi:

- Yadımdadır, günəş səmanın düz ortasında idi. Ümey əmanəti Mühəmədə verdi və o da qəbul edib qarşısına qoydu ki, gedəndə onu götürüb aparsın.

Sonra Əqəbəni çağırdı, ondan vəziyyəti soruşduqda o dedi:

- Axşam çağı idi ki, Ümey əmanəti Mühəmmədə təhvil verdi və o da əmanətləri dərhal öz evinə göndərdi.

Sonra Əkrəməni çağırıb bu əmanət məsələsini soruşduqda, o dedi:

- Sübh çağı idi ki, Ümey əmanəti Peyğəmbərə təhvil verdi. Həzrət Mühəmməd (s) onu alıb dərhal Fatimənin evinə gönədrdi.

Orada oturan Ümey bütün hadisələri müşahidə edir və onların danışıqlarındakı ziddiyyətli sözləri eşidirdi. Sonra Həzrət Əli (ə) Ümeyə dedi:

- Görürəm ki, rəngin saralıb və halın dəyişilib!

Ümey dedi:

- İndi ki, belə oldu, düzünü sənə deyəcəyəm. Çünki hiyləgər adam nicat tapmaz. Allaha and olsun, mən heç bir şeyi Mühəmmədə (s) əmanət verməməişdim. Məni bu işə Hənzələ ilə Əbu Süfyan təhrik etdilər. Üzərində Əbu Süfyanın arvadı Hindin möhürü olan dinarlar mənim yanımdadır, onu mənə mükafat vermişdilər.

Həzrət Əli (ə) buyurdu:

- Evin küncündə gizlədilən qılıncı gətirin.

Qılıncı gətirdilər. Həzrət Əli (ə) onu oradakılara göstərdi və buyurdu:

- Bu qılıncı tanıyırsınızmı?

Onlar dedilər:

- Bəli, bu Hənzələnin qılıncıdır.

Əbu Süfyan:

- Bu qılınc Hənzələdən oğurlanmışdır!

İmam Əli (ə) buyurdu:

- Əgər düz deyirsənsə, onda sənin qara qulamın Məhlənə etmişdir?

Əbu Süfyan:

- O bir iş üçün Taifə getmişdir.

İmam Əli (ə) buyurdu:

- Kaş ki, gələydi, sən də onu bir daha görəydin. Əgər düz deyirsənsə, onu çağır gəlsin.

Əbu Süfyan susdu, sonra o Həzrət Qüreyşin başçılarından on nəfərin qulamına bir yeri göstərib buyurdu ki, oranı qazsınlar. Qazdıqdan sonra birdən Məhlənin cəsədini tapdılar. O Həzrət buyurdu:

- Onu çıxarıb gətirin.

Cəsədi çıxardıb Kəbəyə tərəf apardılar. Camaat Məhlənin cansız cəsədini gördükdə heyrətə düşdülər və onun qətlə yetirilməsinin səbəbini Həzrət Əlidən (ə) soruşdular. İmam Əli (ə) buyurdu:

- Əbu Süfyanla onun oğlu bu qulamı tamahlandırmış və ona azad olmaq vədəsi verərək vadar etmişdilər ki, məni qətlə yetirsin. O da yol üstündə pusqu qurmuşdu. Mənə hücum etdikdə ona möhlət vermədən boynunu vurdum və qılıncını aldım.

Onların hiyləgərlik tədbirləri heç bir nəticə vermədi. İkinci bir hiylə işlətsələr də onun da nəticəsi ziyanlarına işlədi.

* * *

Bir kişi İmam Əlinin (ə) yanına gəlib dedi:

- Ya Əmirəlmöminin! Zina etmişəm, məni günahdan pakla (yəni cəzalandır)!

İmam Əli (ə) üzünü ondan başqa tərəfə döndərib buyurdu:

- Otur!

Sonra oradakılara dedi:

- Sizlərdən günaha mürtəkib olan bir şəxs öz günahını gizlədə bilməzmi, halbuki, Allah-Təala onu gizlətmişdir?!

(İmam bununla çatdırmaq istəyirdi ki, insan öz günahını gizlətməli, Allahdan başqa heç bir kəs üçün aşkar etməməlidir. Bununla da günahını iqrar edən şəxsə anlatmaq istəyirdi ki, iqrar etməsin.)

O kişi yenidən ayağa qalxıb dedi:

- Ya Əmirəlmöminin! Mən zina etmişəm, məni günahdan pakla!

Həzrət buyurdu:

- Sən bunu nə üçün iqrar edirsən?!

O dedi:

- Mən paklanmaq istəyirəm!

İmam Əli (ə) buyurdu:

- Tövbədən də yaxşı bir paklıq varmı?!

Bunu dedikdən sonra üzünü səhabələrə tutdu və söhbət etməyə başladı. O kişi btün bunları anlamayıb yenidən ayağa qalxıb dedi:

- Ya Əmrəlmöminin! Zina etmişəm, məni pakla!

İmam Əli (ə) buyurdu:

- Quran oxuya bilirsənmi?

Kişi dedi:

- Bəli.

Həzrət buyurdu:

- Oxu!

O kişi bir neçə ayəni düzgün şəkildə tilavət etdi. İmam (ə) yenə soruşdu:

- Allahın namaz və zəkat barəsində sənə vacib etdiyi hüquqi məsələləri bilirsənmi?

- Bəli bilirəm.

İmam Əli (ə) bir neçə məsələ soruşdu ki, kişi də cavablarını düzgün şəkildə verdi. Həzrət yenidən buyurdu:

- Xəstə deyilsən? Başında, yaxud sinəndə ağrı hiss etmirsən ki?

- Xeyr.

Həzrət Əli (ə) buyurdu:

- Vay olsun sənə! Get sənin halını özündən soruşduğum kimi, burada olmadığın vaxtda da (başqalarından) soruşacağam. Əgər qayıtmasan, səni bir daha çağırmayacağam.

O kişi uzaqlaşdıqdan sonra İmam Əli (ə) onun fiziki və ruhi vəziyyəti barədə yanındakılarından məlumat aldı. Səhabələr dedilər:

- Tam sağlamdır və halı təbiidir.

Bir azdan sonra o kişi qayıdıb dedi:

- Ya Əmirəl-möminin! Mən zina etmişəm, məni pak et!

Həzrət buyurdu:

- Əgər qayıtmasaydın, səni bir daha çağırmayacağdım. İndi ki, dördüncü dəfə iqrar edirsən, sənin barəndə Allahın hökmünü icra etmək mənə vacib oldu. (Bu dəfə) səni azad etməyəcəyik! Sonra oradakılara buyurdu:

- Siz şəriət hökmünü icra etmək üçün kifayətsiniz və başqalarına elan etməyə ehtiyac yoxdur. Sizi and verirəm Allaha, sübh vaxtı (qaranlıqda) üzlərinizə niqab salıb gəlin ki, bir-birinizi tanımayasınız. Çünki biz daş-qalaq etdiyimiz şəxsin üzünə baxmırıq.

Səhabələr o Həzrətin buyurduğuna əməl edərək, sübh çağı, hava qaranlığında təyin olunmuş yerə gəldilər. Həzrət Əli (ə) də ora gəlib buyurdu:

- Sizi and verirəm Allaha, aranızda özü belə cəzaya layiq olan bir kəs bu cəza qanununun icrasında iştirak etməsin. Çünki bir kəsin üzərində Allahın haqqı olsa, o həmin haqqın (cəzanın) oxşarını başqalarından tələb edə bilməz.

Bu zaman oradakıların çoxu qayıtdı. Ravi deyir:

- Allaha and olsun, indiyə qədər də onların kim olduğunu bilmirəm. Sonra o Həzrət dörd dənə daş götürüb ona tərəf atdıqdan sonra başqaları da ona daş vurdular.

LİVATIN HƏDDİ (cəzası)

Bir gün Həzrət Əli (ə) səhabələrlə söhbət edirdi. Bir kişi onun yanına gəlib dedi:

- Ya Əmirəlmöminin! Livat etmişəm, məni pakla!

O Həzrət buyurdu:

- Ay kişi! Belə sözlər danışma. Bəlkə əqlin qarışmışdır?

Sabahı gün o yenə Həzrətin yanına gəlib həmən sözü təkrar elədi.

İmam yenə də üzünü ona tutub buyurdu:

- Evinə qayıt, ola bilsin ki, sənin əqlində nasazlıq yaranmışdır.

O kişi öz sözünü dördüncü dəfə təkrarladı. İslam qanunlarına görə ona həd vurulması vacib olduqda Həzrət Əli (ə) buyurdu:

- Peyğəmbər (s) sənin kimilər barəsində üç cəza növü buyurmuşdur. Onlardan hansını istəyirsən seç.

- Onlar hansılardır?

Həzrət buyurdu:

- Bir qılınc zərbəsi, yəni, hara qədər çatsa; Əl-ayağını bağlayıb dağdan atmaq; Odda yandırmaq.

Kişi dedi:

- Ya Əmirəlmöminin! Bunların hansı daha ağırdır?

Həzrət buyurdu:

- Odda yandırmaq.

Kişi dedi:

Ya Əmirəlmöminin! Mən onu seçirəm.

Həzrət buyurdu:

- Yandırılmaq üçün hazır ol!

Kişi ayağa qalxıb iki rikət namaz qıldı, namazdan sonra Allah dərgahına belə ərz etdi:

- Pərvərdigara! Mən öz günahımdan (tövbə edərək) sənin dərgahına qayıdıram. Onun axirət cəzasından qorxaraq Sənin Peyğəmbərinin canişini və əmisioğlunun yanına gəlib məni paklamasını istədim. O da məni üç cəzadan birini seçməkdə ixtiyar sahibi etdi. Pərvərdi-

gara! Mən onların ən ağırını seçdim. Səndən istəyirəm ki, bu cəzanı günahımın kəffarəsi (cəriməsi) qərar verərək məni cəhənnəm odunda yandırmayasan.

Sonra ayağa qalxdı, ağlar halda onun üçün qazılan çalaya tərəf getdi, odun zəbanə çəkən şölələrinə baxdı. Bu zaman Həzrət Əli (ə) buyurdu:

- Ay kişi! Ayağa qalx! Göylərin və yerin mələklərini ağlatdın, Allah sənin tövbəni qəbul etdi. Ayağa qalx və bir daha belə günahları təkrar etmə!

SƏRXOŞ HALDA DAVA-DALAŞ

Həzrət Əlinin (ə) xilafəti dövründə ona xəbər verdilər ki, dörd nəfər sərxoş halda vuruşaraq, bir-birini bıçaqla yaralamışlar. İmam Əlinin (ə) əmri ilə onları tutub saxladılar ki, ayılandan sonra mühakimə etsin. Onlardan ikisi bir azdan məst halətində öldülər. Ölənlərin qəyyumları Həzrət Əlinin (ə) yanına gəlib sağ qalanlardan qisas alınmasını tələb etdilər. Mövla Əli (ə) onlara buyurdu:

- Siz haradan bilirsiniz ki, onları sağ qalan bu iki nəfər öldürmüşdür?! Bəlkə elə onların özü bir birini yaralayıb öldürmüşlər?

Onlar dedilər:

- Biz bilmirik. Belə isə, Allahın sizə verdiyi elmdən istifadə edərək onların arasında hökm edin.

İmam buyurdu:

- Öldürülən iki nəfərin diyəsi dörd qəbilənin hər birinin öhdəsinədir. Yaralanmış iki nəfərin yaralanma qan bahası çıxıldıqdan sonra yerdə qalan miqdar öldürülənlərin qəyyumlarına verilməlidir.

SUDA QƏRQ OLAN ADAM

Altı nəfər Fərat çayında çimir və suda oynayırdılar. Onlardan biri suya batıb boğuldu. Səbəbkarın kim olması barədə aralarında ixtilaf yarandı və münaqişənin həlli üçün Həzrət Əliyə (ə) müraciət etdilər. Onlardan iki nəfər şəhadət verərək bildirdi ki, o şəxsi bu üç nəfər batırmışlar. Həmin üç nəfər də şahidlik edib dedilər ki, o iki nəfər onu batırmışlar. Həzrət Əli (ə) onun diyəsini beş bərabər hissəyə böldü, iki hissəsini iki nəfər tərəfindən əleyhinə şahidlik edən üç nəfərin

öhdəsinə, üç hissəsini isə üç nəfər tərəfindən əleyhinə şəhadət verilən iki nəfərin öhdəsinə qoydu.

Şeyx Müfid **"İrşad"** kitabında bu hadisəni nəql edərkən yazır: **"Bu məsələdə Mövla Əlinin (ə) apardığı mühakimədən də yaxşı bir mühakimə təsəvvür olunmur"**

ÇİMDİKLƏMƏ ÖLÜMƏ SƏBƏB OLUR

Mövla Əli (ə) Yəməndə olanda o Həzrətə xəbər verdilər ki, bir qız oyun zamanı başqa bir qızı çiyninə almış, bu zaman üçüncü bir qız onu çimdikləmişdir. O da özündən asılı olmayaraq tullanmış, çiynində olan qızı yerə atmış və bu da onun ölümü ilə nəticələnmişdir.

İmam buyurdu:

- Öldürülənin diyəsinin üçdə biri onu çiyninə alan qızın, üçdə biri onu çimdikləyən qızın, qalan üçdə biri də onun öz öhdəsindədir ki, oynayarkən əbəs yerə onun çiyninə minmişdir.

Bu xəbər Peyğəmbər Əkrəmə (s) çatdıqda Mövla Əlini (ə) təsdiqləyərək onun hökmünün düzlüyünə şəhadət verir.

ƏMANƏT

Bir nəfər iki dinar, digəri isə bir dinar pulu üçüncü bir şəxsə əmanət verdilər, onun bir dinarı tələf oldu. Mövla Əli (ə) onların barəsində buyurdu:

- Qalan iki dinardan biri iki dinar sahibinə məxsusdur, digər bir dinar da o iki şəxsin arasında yarı-yarı bölünməlidir.

Bu hadisənin oxşarını mərhum Şeyx Səduq və Şeyx Tusi İmam Sadiqə (ə) istinadən nəql etmişlər:

- İki nəfər iki dirhəm pul üstündə bir-biri ilə dalaşırlar. Onlardan biri o iki dirhəmin hər ikisinin özününkü olduğunu, digəri isə birinin onun olduğunu deyirdi.

O Həzrət (ə) buyurdu:

- Bir dirhəmi iddia edən şəxs digər bir dirhəmdə heç bir haqqı olmadığını etiraf edir. Münaqişəli olan digər bir dirhəm də onların arasında yarı bölünməlidir.

İQRAR

Bir nəfər iki şəxsdən birinə min dirhəm pul borclu olduğunu iqrar etdi, lakin onlardan hansı birinə borclu olduğunu aydınlaşdırmadı. O vəziyyətdə də dünyadan köçdü. Hadisəni Mövla Əliyə (ə) çatdırdılar. Mövla Əli (ə) buyurdu:

- Əgər o iki şəxsdən biri özünün (ölən şəxsə) borc verməsinə dair şahid gətirsə, dirhəmlər ona veriləcək, əks halda onların arasında yarı bölünməlidir.

ŞAHİDLƏRƏ MÜTƏNASİB OLAN BÖLGÜ

İki nəfər bir atın sahibi olduğunu iddia edirdi. Onlardan birinin iki şahidi, digərinin isə beş şahidi var idi. Onlar məsələnin həlli üçün Mövla Əliyə (ə) müraciət etdilər. O həzrət atın (qiymətinin) iki hissəsini birinci şəxs üçün, beş hissəsini isə ikinci şəxs üçün qərar verdi.

HİYLƏGƏR QADIN

Bir qadın gecə vaxtı özünü bir kişinin kənizinə oxşatdı. Kişi də bunu öz kənizi güman edərək onunla yaxınlıq etdi. Bu hadisəni Xəlifə Ömərə (r) çatdırdılar. Xəlifə onları Mövla Əlinin (ə) yanına göndərir. Mövla Əli (ə) buyurdu:

- Kişiyə gizlində, qadına isə aşkarda hədd (cəzalandırın) vurun.

Haşiyə: Mövla Əli (ə) həmin kişinin həqiqəti bilərəkdən gizlətdiyi üçün bu hökmü verdi.

MÜXTƏLİF HÖKMLƏR

Beş nəfəri zina edən halda tutub Xəlifə Ömərin (r) yanına gətirdilər. Xəlifə onların hamısına hədd vurulmasını əmr etdi. Mövla Əli (ə) də orada idi və hadisənin nəticəsini izləyirdi. Sonra üzünü Xəlifəyə tutub buyurdu:

- Onların barəsində belə hökm versək daha düzgün olar.

Xəlifə dedi:

- Elə isə onların işi ilə özün məşğul ol.

Mövla Əli (ə) onlardan birini irəli çəkib boynunu vurdu, ikincisini daş-qalaq etdi, üçüncüsünə yüz şallaq vurdu, dördüncüsünə əlli şallaq vurdu, beşincisinə isə yalnız bir neçə şallaq zərbəsi vurdu. Xəlifə və onun ətrafındakıları heyrət bürüdü.

Xəlifə dedi:

- Ya Əbəl-Həsən! Hamısı eyni günaha batan beş nəfərə müxtəlif hökm icra etdin?!

Mövla buyurdu:

- Boynunu vurduğum birinci şəxs zimmi kafir idi. Zimmi şərtlərini pozduğuna görə, onun hökmü öldürülmək idi. Daş-qalaq etdiyim ikinci şəxsin öz arvadı var idi və onun zinası **"möhsinə"** zina idi, onun hökmü də daş-qalaq edilmək idi. Yüz şallaq vurduğum üçüncü şəxs subay idi. Həddin yarısını vurduğum dördüncü şəxs qulam idi və onun da həddi azad insanların həddinin yarısı qədərdir. Bir neçə şallaq zərbəsi ilə ədəbləndirdiyim beşinci şəxs isə dəli idi və onun həddi yoxdur, lakin bir neçə şallaqla tənbeh olunmalı idi.

HƏDDİ-BULUĞA ÇATMAYAN ŞƏXSİN ZİNASI

Həddi-buluğa çatmayan oğlan uşağı ərli bir qadınla zina etmişdi. Məsələdən xəbərdar olan Xəlifə Ömər (r) göstəriş verdi ki, qadını daş-qalaq etsinlər.

Mövla Əli (ə) ona buyurdu:

- Onu daş-qalaq etmək düzgün deyildir, ona yalnız şallaq vurulmalıdır. Çünki onunla yaxınlıq edən şəxs həddi-büluğa çatmamışdır.

TƏHDİD ÜZÜNDƏN ALINAN İQRAR

Zina ilə müttəhim olunan hamilə bir qadını Xəlifə Ömərin (r) yanına gətirdilər. Xəlifə qəzəblə ondan nə etdiyini soruşduqda, qadın zina etdiyini boynuna aldı. Xəlifə onun daş-qalaq olunmasına dair hökm verdi. Qadını cəzalandırmağa aparanda Mövla Əli (ə) onlarla rastlaşıb məmurlara buyurdu:

- Bu qadınla nə işiniz var?

- Xəlifə onun daş-qalaq olunmağına hökm verib.

Mövla Əli (ə) onlarla birlikdə Xəlifənin yanına gələrək buyurdu:

- Sən bu qadının daş-qalaq olunmasına hökm vermisən?!

Xəlifə dedi:

- Bəli! Çünki zina etdiyini özü iqrar etdi.

İmam (ə) buyurdu:

- O qadının özü günahkar olduğuna görə onun barəsində belə hökm verməyə haqlısan, amma onun bətnindəki uşaq barəsində haqqın yoxdur?! Məncə, sən onu qorxutmusan. Qadın da qorxu nəticəsində iqrar etmişdir.

Xəlifə dedi:

- Bəli, belədir.

Mövla Əli (ə) buyurdu:

- Rəsuli Əkrəmin (s) **"İşgəncə üzündən iqrar edən şəxsə həd cari edilməz. Həbs və təhdid də, etiraf edən şəxsin iqrarı da təsirsizdir"**,- deyə buyurduğunu eşitməmisənmi?!

Xəlifə o qadını azad edib dedi:

- Dünya qadınları Əli ibn Əbu Talib kimi bir şəxsiyyət doğmaqda acizdirlər!

Sonra dedi:

- Əgər Əli olmasaydı, Ömər həlak olardı!

BEYTÜL-MALIN ƏHƏMİYYƏTİ

Biri beytül-malla alınan, digəri isə bir kişinin mülkiyyətində olan iki qulam beytül-maldan oğurluq etdilər. Məsələdən xəbərdar olan Mövla Əli (ə) buyurdu:

- Beytül-malla alınan qulama həd vurulmur. Çünki Allah malının bir qismi digər qismini yemişdir.

Sonra digərini çağıraraq onun əlini kəsdi və buyurdu:

- Ona ət və yağ yedirdin ki, yarası sağalsın.

OĞRUNUN HƏBS EDİLMƏSİ

Bir oğrunu Xəlifə Ömərin (r) yanına gətirdilər. Xəlifə onun əlini kəsdirdi. O ikinci dəfə oğurluq etdikdə yenə də Xəlifənin yanına gətirdilər. Xəlifə bu dəfə onun bir ayağını kəsdi. Üçüncü dəfə oğurluq etdikdə Xəlifə onun o biri əlini kəsmək istədi. Belə olan halda Mövla Əli (ə) ona buyurdu:

- Belə iş görmə! Çünki artıq onun bir əlini və bir ayağını kəsmisən, indi onu həbs etməlisən. Həbsdə də oğurluq etsə, o zaman öldürülməlidir.

CƏZANIN BAĞIŞLANMASI

Bir nəfər Mövla Əlinin (ə) yanına gələrək oğurluq etdiyini bildirdi. İmam (ə) buyurdu:

- Qurandan bir şey bilirsənmi?
- Bəli, **"Bəqərə"** surəsini bilirəm.
- Sənin əlini o surəyə bağışladım.

Onların yanında olan Əşəs dedi:

- Ya Əli! İlahi cəza qanunlarını tətil edirsənmi?!

Mövla Əli (ə) buyurdu:

- Axı sən Allahın hökmlərindən nəyi bilirsən?! Əgər həd şahid əsasında isbat edilsə, İmam onu əfv edə, güzəştə gedə bilməz. Amma əgər həd cinayətkarın öz iqrarı əsasında sübut olunsa, İmam onu əfv etməklə həddi icra etməkdə ixtiyar sahibidir.

İPƏ-SAPA YATMAYAN HEYVAN

Mövla Əli (ə) ipə-sapa yatmayan heyvanların birinci dəfə vurduğu ziyanların zəmanətə səbəb olmasını demirdi. Lakin sonrakı dəfələrdə mal sahibini zamin bilirdi.

Haşiyə: Xəsarət vurulan birinci dəfədə mal sahibinin zamin olmamasının səbəbi onun məlumatsız olmasıdır. Lakin sonrakı dəfələrdə sahibi bu heyvanın vəziyyətindən agah olduğuna görə onu nəzarət altında saxlamağa borcludur.

ZİNA İTTİHAMI

Zinakarlıqla müttəhim olunan bir qızı Mövla Əlinin (ə) yanına gətirdilər. Həzrət o qızın müayinə edilməsinə dair göstəriş verdi. Qadınlar müayinə etdikdən sonra **"bakirədir",**- deyə cavab verdilər. İmam (ə) buyurdu:

- Mən heç vaxt bakirə qıza zina həddi icra etmərəm!

Məlum oldu ki, qızın haqqında böhtan deyilibmiş. Həzrət Əli (ə) belə hallarda qadınların şahidliyini kafi hesab edirdi.

ÜZÜRLÜ BƏHANƏ

Bir neçə nəfər Xəlifə Ömərin (r) yanına gəlib bir qadının çöldə zina etdiyinə şəhadət verdilər. Eyni zamanda qadının əri olduğunu söylədilər. Xəlifə onun daş-qalaq edilməsinə hökm verdi. Qadın Allah dərgahında üz tutaraq dedi:

- Pərvərdigara! Sən mənim günahsız olduğumu bilirsən.

Xəlifə onun sözlərindən qəzəblənib dedi:

- Şahidlərin sözünü təkzib edirsən?!

Bu hadisəni müşahidə edən Mövla Əli (ə) buyurdu:

- Qadını qaytarın, bəlkə bu əmələ yol verməkdə üzürlü bir səbəb olmuşdur.

Qadını qaytardılar, məsələnin nə yerdə olduğunu soruşduqda o, dedi:

- Bir gün mən və qonşumuzdakı kişi dəvələrimizi otarmağa aparmışdıq. Bizim dəvələrimizin südü olmadığına görə mən özümlə bir qədər su aparmışdım. Çöldə su qurtardı və çox susadım. Qonşu kişidən bir içim su istədim, o isə zina etmək şərti ilə mənə su verəcəyini bildirdi. Mən bu işi görmək istəmədim. Nəhayət, susuzluqdan öləcəyimi gördükdə məcburiyyət qarşısında qalaraq razı oldum.

Mövla Əli (ə) buyurdu:

- Allahu Əkbər! Çarəsiz vəziyyətə düşən, amma itaətsizliyə və zülmə mürtəkib olmayan şəxsə heç bir günah yoxdur.

Xəlifə bu sözləri eşitdikdə qadını azad etdi.

RAMAZANDA ŞƏRAB İÇƏNİN HÖKMÜ

Şair Nəcaşi mübarək Ramazan ayının gündüzündə şərab içmişdi. Onu Mövla Əlinin (ə) yanına gətirdilər. Həzrət ona səksən şallaq vurdurdu, gecə həbs etdi, sübh çağı da onu çağırıb yenidən iyirmi şallaq vurdu.

Nəcaşi dedi:

- Ya Əmirəlmöminin! Mənə vurduğun səksən şallaq şərab içməyə görə idi. Bəs iyirmi şallaq nə üçündür?

Mövla Əli (ə) buyurdu:

- Ramazan ayına hörmətsizlik etdiyinə və ona etinasız yanaşdığına görə!

MƏNİM DƏ BUNDAN ARTIQ CAVABIM YOX İDİ

Bir gün İmam Həsən (ə) öz atasının çıxış edəcəyi məclisdə oturmuşdu. Bir dəstə adam gəlib ondan Mövla Əlinin (ə) harada olduğunu soruşdular. İmam Həsən (ə) onlardan **"sualınız nədir?"**, - deyə soruşdu. Onlar dedilər:

- Bir nəfər öz arvadı ilə yaxınlıq etdikdən sonra həmin arvad başqa bir qızla müsahiqə (cinsiyyət üzvlərini bir-birinə sürtmək) etmiş və qız da bu yolla hamilə olmuşdur. Bunun hökmü nədir?

İmam Həsən (ə) buyurdu:

- Bu çətin bir məsələdir ki, onun cavabı Əbül-Həsənin öhdəsindədir. Lakin mən sizin cavabınızı deyəcəyəm… Əvvəla, o qadın qızın mehriyyəsini verməlidir, çünki doğuş zamanı qızın bakirəliyi aradan gedəcək. İkincisi, qadın daş-qalaq edilməlidir. Çünki əri ola-ola böyük bir günaha batmışdır. Üçüncüsü, qız övladını dünyaya gətirdikdən sonra ona zina həddi vurulmalı, övlad da nüftənin sahibinə (qadının ərinə) qaytarılmalıdır.

Onlar qayıdarkən yolda Əmirəlmöminin Əli (ə) ilə rastlaşdılar. Həzrət onlara buyurdu:

- Oğlum Həsəndən nə soruşdunuz və o, sizə nə cavab verdi?

Onlar öz suallarını və İmam Həsənin (ə) verdiyi cavabı dedilər. Həzrət buyurdu:

- Bu məsələni məndən də soruşsaydınız, bundan ayrı cavabım olmazdı.

BURADA ƏLİ GƏLMƏLİDİR!

Bir nəfər Xəlifə Ömərin (r) yanına gəlib dedi:

- Müsəlman olmazdan əvvəl arvadıma bir dəfə tələq vermişdim. Müsəlman olduqdan sonra da iki dəfə tələq vermişəm (indi onunla izdivac edə bilərəm, yoxsa mühəllil lazımdır?).

Xəlifə sükut etdi. O kişi dedi:

- Bəs nə deyirsən?!

Xəlifə dedi:

- Bu məsələyə cavab vermək üçün gərək Əli gəlsin.

O kişi Mövla Əlinin (ə) gəlişinə qədər gözlədi. Həzrət gəldikdən sonra Xəlifə o kişiyə dedi:

- İndi məsələni Əlidən soruş.

Məsələdən xəbərdar olan Mövla Əli (ə) cavabında buyurdu:

- İslam küfr halında baş verən hər bir şeyi məhv edir. Sən öz arvadınla bir daha izdivac edə bilərsən.

İTLƏ QOYUNUN FƏRQİ

Bir çöl ərəbi Mövla Əlidən (ə) soruşdu:

İtin qoyunla cütləşdiyini gördüm. Qoyunun balası hansına (itəmi, yoxsa qoyuna) aid edilir?

Mövla Əli (ə) buyurdu:

- Onun necə yemək yeməsinə bax, əgər ət yeyirsə itdir, ot yeyirsə qoyundur.

Ərəb:

- Həm ot, həm də ət yediyini görmüşəm.

Mövla Əli (ə) buyurdu:

- Onu su içərkən yoxla, əgər suyu ağzı ilə içirsə qoyundur, dili ilə yalayırsa itdir.

Ərəb:

- Hər iki qaydada su içir.

Mövla Əli (ə):

- Yol gedərkən onu yoxla, əgər qoyun sürüsünün arxasınca gedirsə itdir, sürünün ortasında, yaxud qabağında gedirsə qoyundur.

Ərəb:

- Hər iki qaydada görmüşəm.

Mövla Əli (ə):

- Onun yatmağına bax, qarnı üstündə yatırsa qoyundur, quyruğu üstündə yatırsa itdir.

Ərəb:

- Bəzən elə yatır, bəzən də belə.

Mövla Əli (ə):

- Onun başını kəs. Əgər qarnında şekəmbə (yəni ot yeyən heyvanlara məxsus mədə-bağırsaq) görsən qoyundur, əgər əma (ət yeyən heyvanlara məxsus mədə-bağırsaq) görsən itdir.

Ərəb bu incə və dəqiq məsələləri eşitməklə heyrətdən donub qalmışdı.

DONUZ SÜDÜ ƏMMİŞ QOYUNUN PAKLANMASI

Mövla Əlidən (ə) donuz südü əmən qoyunun necə paklanması barəsində soruşdular. O Həzrət buyurdu:

- Əgər südəmərlik dövrü keçibsə, ardıcıl olaraq bir neçə gün saxlanılmalı, ona ot, xurma dənəsi və çörək yedizdirilməlidir. Əgər südəmərdirsə, yeddi gün ardıcıl olaraq qoyuna əmizdirmək lazımdır.

NƏCASƏT YEYƏN HEYVANIN PAKLANMASI

Mövla Əli (ə) nəcasət yeyən əti halal heyvanların paklanması barəsində buyurdu:

- Nəcasət yemiş olan toyuğa üç gün, su quşuna beş gün, qoyuna on gün, inəyə iyirmi gün, dəvəyə qırx gün pak yemək verilməlidir. Əgər bu müddətdən qabaq onları kəssələr, əti haramdır.

KƏFƏN OĞRUSUNUN CƏZASI

Kəfən oğurlayan bir nəfəri Müaviyənin yanına gətirdilər. O, öz dostlarına dedi:

- Sizin nəzərinizcə, bunun hökmü nədir?

Dedilər:

- Onu cəzalandırıb sonra azad et.

Bu zaman bir nəfər dedi:

- Amma Əli belə hökm etməyib.

Müaviyyə soruşdu:

- Bəs necə hökm edib?

- O, deyirdi ki, kəfən oğurlayanın əlini kəsmək lazımdır, çünki o, həm oğrudur, həm də ölülərin hörmətini aradan aparandır.

OĞRUNUN TƏYİN EDİLMƏSİNDƏ SƏHV

İki nəfər Mövla Əlinin (ə) yanına gəlib bir nəfərin oğurluq etdiyinə dair şəhadət verdilər. İmam Əli (ə) onların şəhadətinə uyğun olaraq o kişinin əlini kəsdi. Bir müddətdən sonra həmin iki şahid başqa bir şəxsi o Həzrətin yanına gətirib dedilər:

- Oğru bu imiş, biz birinci kişinin oğru kimi təyin edilməsində səhvə yol vermişik.

Mövla Əli (ə) onların şahidliyini qəbul etməyib buyurdu:

- Diyənin yarısını birinci kişiyə xəsarət versinlər.

MÖVLA ƏLİ (Ə) SƏNİN ƏKSİNƏ HÖKM ETDİ!

İbn Əbi Leyla məsciddə qəzavət edərkən ondan soruşdular:

- Bir nəfər özünün torpaq sahələrini qeyri-müəyyən bir müddətə başqasına həvalə edir və həmin ildə də ölür.

İbn Əbi Leyla dedi:

- Müddəti təyin olunmadığından, torpaq sahəsi və onun mənfəəti həmin şəxsə aiddir və malikin vərəsələrinə nəql olunmur.

Təsadüfən orada olan Mühəmməd ibn Qeys, İbn Əbi Leylaya dedi:

- Amma Əli ibn Əbu Talib həmin məsciddə sənin əksinə olaraq hökm vermişdir!

İbn Əbi Leyla dedi:

- Hardan bilirsən?!

- İmam Mühəmməd Baqirin (ə) belə buyuruğunu eşitdim:

- Əli (ə) vərəsələrdən qeyriləri üçün həbs olunan (yəni yalnız bir şəxsin istifadəsi üçün təyin olunan, başqalarının isə ondan istifadə haqqı olmayan) torpaq sahələrini vərəsələrə qaytarırdı.

DOST VƏ DÜŞMƏN, YADDAŞLILIQ VƏ UNUTQANLIQ, DÜZGÜN VƏ DÜZGÜN OLMAYAN YUXU

İki məsihi Xəlifə Əbu Bəkrin (r) yanına gəlib soruşdu:

- Dostluq ilə düşmənçilik arasında fərq nədir, halbuki hər ikisi bir yerdən qaynaqlanır? Yadda saxlamaqla unutqanlığın fərqi nədir,

halbuki onların mərkəzi birdir? Düzgün yuxu ilə düzgün olmayan yuxunun fərqi nədir, halbuki hər ikisinin mənşəyi birdir?

Xəlifə onlara cavab verməkdə çətinlik çəkdi. Məsihilər Ömər ibn Xəttabın (r) yanına getdilər. O da onları Mövla Əlinin (ə) yanına göndərdi. Onlar da gəlib həmin sualları Mövla Əliyə (ə) verdilər. Mövla Əli (ə) birinci suala belə cavab verdi:

- Allah-Təala ruhları bəndələrdən iki min il qabaq yaratmışdı və onları havada məskunlaşdırmışdı. Orada bir-birilə ülfət yaradıb tanış olan ruhlar burada da bir-biri ilə tanışdırlar. Orada bir-biri ilə tanış olmayan və ünsiyyət saxlamayanlar da burada belədirlər.

Mövla Əli (ə) ikinci sualın cavabında buyurdu:

- Allah insanın qəlbində bir pərdə qərar vermişdir. Pərdə açıq olduqda qəlbdən keçən hər şey onda qalır, əks halda unudulur.

O həzrət üçüncü sualın cavabında buyurdu:

- Allah-Təala ruhu yaratdı və onun üçün bir sultan qərar verdi ki, o da nəssdir. İnsan yuxuya gedərkən ruh onun bədənindən ayrılır və o sultan qalır, mələk və pəri dəstələri ruhun yanından keçir. Düzgün olan hər bir yuxu mələkdən, yalan olan yuxular isə pərilərdəndir.

Məsihlər bu cavabı eşitməklə iman gətirib müsəlman oldular və **"Siffeyn"** müharibəsində iştirak edərək şəhadətə çatdılar.

Haşiyə: İmam Sadiqin (ə) yaddaşlı olmaq və unutqanlıq barəsində Müfəzzələ buyurduğu hədisə diqqət edək:

- Ey Müfəzzəl, Allah-Təalanın insanda yaratdığı dörd qüvvə barəsində fikirləş! Onlar aşağıdakılardır: Fikir qüvvəsi, vəhm qüvvəsi, əql qüvvəsi, hifz qüvvəsi. Onların bəşər vücudunda çox mühüm və həssas bir mövqeyi var. Məsələn, əgər insan hifzetmə qüvvəsini əldən verərsə, onun başına nələr gələcəyi, onun həyat və məişəti ilə əlaqədar işlərində necə xələllər yaranacağı, kəsb-ticarətində necə qarışıqlıq əmələ gələcəyi məlumdur. Misal üçün, əgər o, başqalarından aldığı, yaxud onlara verdiyi şeyləri unutsa, eşitdiyi, dediyi və yaxud da ona deyilənləri unutsa, olması və ya olmaması onun üçün faydalı olan şeyləri ziyanlı şeylərdən seçə bilməsə, məqsədinə çatdıran yolu heç vaxt öyrənə bilməsə, hətta oradan dəfələrlə keçmiş olsa belə, bütün ömrü boyu elm ardınca olsa da, heç bir elm öyrənə bilməz, heç bir dinə, məzhəbə etiqadı olmaz, öz təcrübələrindən istifadə edə bilməz, keçmiş mövzulardan ibrət almaz. Belə halda insan insaniyyət cərgəsindən çıxacaq.

Ayıq ol! Allahın nemətlərindən qeyd olunan bu birincisinin əhəmiyyətinə diqqət yetir. Hifzetmə nemətindən də yüksəkdə duran unutqanlıq nemətidir. Çünki əgər unutqanlıq olmasa, bir kəsə müsibət baş verən zaman ona əsla təsəlli vermək olmaz. Peşmançılıq və həsrəti aradan getməz, kinlər qəlbindən çıxmaz, bəlaları yadına salmaqla dünya nemətlərindən və ləzzətlərindən bəhrələnməz. Heç vaxt zalım padşahdan və öz düşmənindən qəflət etməz.

Görmürsənmi, Allah insanın vücudunda bir-birinə zidd olan iki qüvvəni necə yaradıb və hər biri üçün sirlər və məsləhətlər qərar verib?! Bütün əşyaları bir-birinə zidd olan iki yaradan (Yəzdan və Əhrimən) arasında bölüşdürənlər hər biri müəyyən məsləhətə malik olan bu zidd əşyalar barədə nə deyə bilər?!

QİYAMƏTDƏ BEHİŞTLƏRİN YERİ

Kəb ibn Əşrəf, Malik ibn Seyfi və Həyy ibn Əxtəb adlı üç yəhudi Ömər ibn Xəttabın (r) yanına gəlib dedilər:

- Sizin səmavi kitabınız olan Quranda deyilir:

- Behiştin genişliyi asimanlar və yer qədərdir. Halbuki əgər Qiyamətdə bir behişt bütün yeddi səmanı və yeddi yeri əhatə etsə, onda sair behiştlər harada olacaq?

Ömər ibn Xəttab (r) **"bilmirəm"**, - deyə cavab verdi. Bu zaman Mövla Əli (ə) yaxınlaşıb soruşdu:

- Nə barədə söhbət edirsiniz?

Yəhudilər öz suallarını təkrar etdilər. Mövla Əli (ə) buyurdu:

- Deyin görüm, gecə olanda gündüz hara gedir?

- Allah bilir.

- Elə behiştlərin yerini də Allah bilir.

Sonra Mövla Əli (ə) Həzrət Peyğəmbərin (s) yanına gəlib hadisəni ona danışdı. Bu zaman aşağıdakı ayə nazil oldu: ***"Əgər bilmirsinizsə, zikr əhlindən (bilənlərdən) soruşun".***

ALLAHIN QƏZAVÜ-QƏDƏRİNDƏN QÜDRƏTİNƏ SIĞINIRAM

Bir gün Mövla Əli (ə) uçmaq ərəfəsində olan bir divarın yanından keçirdi. Bu zaman o divarı görüb öz yolunu dəyişdi və başqa tərəfdən getməyə başladı. Bir kişi soruşdu:

- Ya Əmirəlmöminin! Allahın qəzasından qaçırsan?!

İmam (ə) buyurdu:

- Allahın qəzasından qədərinə tərəf qaçıram. (Yəni bu əməl Allahın qəzasından qaçmaq üçün deyildi, əksinə dini vəzifə bunu tələb edirdi).

QƏZA VƏ QƏDƏR

Həccac ibn Yusif öz dövrünün alimlərindən bir neçəsinə – Həsən Bəsriyə, Əmr ibn Übeydə, Vasil ibn Ətaya və Amil Şəbiyə məktub yazıb qəza və qədər barəsində öz nəzərlərini yazıb göndərmələrini xahiş etdi.

Həsən Bəsri cavabda yazdı:

- Bu barədə bizə çatan ən yaxşı söz Əlinin sözüdür. O, buyurur: **"Səni puç edən yeganə şey sənin yuxarın və aşağındır (övrətlə ağıza işarədir). Allah da bu kimi şeylərdən bizardır (uzaqdır)".**

Əmr ibn Übeyd belə yazır:

- Qəza və qədər barəsində eşitdiyim ən yaxşı şey Əli ibn Əbu Talibin sözüdür. O, buyurur: **"Əgər günah və məsiyət insanın öz ixtiyarı ilə olmasaydı, onda cinayətkar şəxsin barəisndə qisas hökmü yersiz və o, qisas hökmündə zülm olunmuş olardı".**

Vasil ibn Əta belə yazdı:

- Bu barədə eşitdiyim ən gözəl söz Əlinin sözüdür. O, buyurur: **"Heç ola bilərmi ki, sənin ixtiyarın olmadan Allah səni düz yola hidayət etsin və yenidən Onun Özü səni azdırsın?!"**

Amil Şəbi belə yazdı:

- Qəzvü-qədər barəsində ən gözəl kəlam Əli ibn Əbu Talibin sözüdür. O, buyurdu: **"Hər əməldən ki, tövbə edib Allah tərəfinə qayıdırsan, o əməl sənin özündəndir və hər əməl ki, onun şükrünü yerinə yetirmək üçün Allaha həmd-səna deyirsən, o, Allah tərəfindəndir".**

Bu məktublar Həccaca çatdıqda onları oxuyub dedi:

- Bu kəlamlar, əlbəttə ki, zülal çeşməsindən əxz olunmuşdur.

HƏR TƏRƏF ALLAHIN ÜZÜDÜR

Peyğəmbər Əkrəmin (s) vəfatından sonra məsihi alimlərinin böyüyü yüz nəfərlə birlikdə Mədinəyə gəlib Xəlifə Əbu Bəkrdən (r) müəyyən sualların cavabını soruşdu. Xəlifə o suallara cavab verməkdə çətinlik çəkdiyindən onları Mövla Əlinin (ə) yanına göndərdi. Onlar Mövla Əlidən (ə) soruşdular:

- Ya Əli! De görək Allahın üzü hansı tərəfdədir.

Mövla Əli (ə) buyurdu:

- Allahın yaratdıqlarından biri olan bu odun müəyyən bir üzü olmadığı halda, onu yaradanın necə üzü ola bilər. Halbuki Onun heç bir oxşarı yoxdur və Onunla əsla müqayisə olunası deyildir?! Şərq də, Qərb də Allaha məxsusdur. Hansı tərəfə üz çevirsəniz, Allahın vəchi oradadır. Allah genişlik bağışlayan elm sahibidir.

SƏN BİZİM AXTARDIĞIMIZ ADAMSAN!

İki yəhudi alimi Peyğəmbər Əkrəmə (s) çox məhəbbət və hörmət bəsləyir, çox vaxtlar o Həzrətin yanına gəlib sözlərinə qulaq asırdılar. Peyğəmbərin (s) vəfatından sonra vaxtaşırı onun canişini barəsində soruşub deyirdilər:

- Elə bir peyğəmbər olmayıb ki, dünyadan getdikdə öz Əhli-Beytindən və onunla yaxın qohumluğu olan, onun gətirdiyi qayda-qanunları ümməti arasında bərqərar edən bir şəxsi öz yerinə təyin etməsin.

Bir gün onlardan biri digərinə dedi:

- Sən bu peyğəmbərin özündən sonra təyin etdiyi xəlifəni tanıyırsanmı?

- Xeyr. Lakin mən Tövratda onun əlamət və nişanələrini oxumuşam. Onun alın tərəfdən başı tüksüz və nuranidir (işıqlıdır), camaat içərisində Peyğəmbərə ən yaxın adamdır.

Onlar Mədinəyə gəlib Peyğəmbərin (s) canişinini axtardılar. Onları Xəlifə Əbu Bəkrin (r) yanına apardılar. Onlardan biri digərinə yavaşcadan dedi:

- Bu bizim axtardığımız adam deyil.

Sonra o, Xəlifədən soruşdu:

- Sənin Peyğəmbərlə nə qohumluğun var?

Əbu Bəkr (r) dedi:

- Mən onun qəbiləsindənəm, qızım Ayişə də onun zövcəsidir.
- Bundan başqa qohumluğun varmı?
- Xeyr.
- Bizi elə bir şəxsin yanına göndər ki, səndən daha bilikli olsun. Çünki biz, bu Peyğəmbərin canişini üçün Tövratda oxuduğumuz nişanələri səndə görmürük.

Əbu Bəkr (r) bu sözləri eşitdikdə çox qəzəbləndi, sonra onları Ömər ibn Xəttabın (r) yanına göndərdi. Çünki o, bilirdi ki, əgər onlar Ömərlə (r) müxalifət etsələr, o, buna dözməyib onları cəzalandıracaq.

Onlar Ömərin (r) yanına gəlib soruşdular:
- Sənlə Peyğəmbərin nə kimi qohumluğu var?
- Mən onun qəbiləsindənəm, qızım Həfəsə də onun zövcəsidir.
- Bundan başqa qohumluğunuz varmı?
- Xeyr!
- Sən bizim axtardığımız adam deyilsən.
- Bizi elə bir adamın yanına göndər ki, səndən də bilikli olsun.

Ömər (r) onları Peyğəmbərin (s) əmisi oğlu Əlinin (ə) yanına göndərdi.

Yəhudilər Əli (ə) hüzuruna çatdıqları zaman ilk baxışda dedilər ki, bu, nişanələrini Tövratda oxuduğumuz şəxsdir. Bu, Peyğəmbərin (s) xəlifəsi və canişinidir, Həsənlə, Hüseynin atasıdır, Peyğəmbər (s) qızının əridir. O həmin şəxsdir ki, haqq ona bağlıdır.

Salamdan sonra yəhudilər soruşdular:
- Sənlə Peyğəmbərin (s) nə kimi qohumluğu var?
- Peyğəmbər (s) mənim qardaşım, mən də onun vəsisi və canişiniyəm. Ona iman gətirən ilk adamam, onun qızı Fatimənin əriyəm.
- Bu çox iftixarlı və böyük bir qohumluqdur. Bizim Tövratda oxuduğumuz nişanə ilə eynidir. Sənin Pərvərdigarın haradadır?
- Əgər istəsəniz sizə o şeylərdən xəbər verərəm ki, sizin peyğəmbəriniz Musanın (ə) dövründə baş vermişdir və sizin çətinliyinizi həll edər. Əgər istəsəniz sizi bizim Peyğəmbərimiz Mühəmmədin (s) dövründə baş verən hadisələrdən agah edərəm ki, sizin sualınızın cavabı olar.
- Bizə öz peyğəmbərimiz Musanın (ə) dövründə baş verən hadisələrdən xəbər ver.

Mövla Əli (ə)buyurdu:

- Dünyanın hər tərəfindən bir mələk olmaqla, dörd mələk gəlib bir-birlərinə çatdılar. Biri şərqdən, biri qərbdən, biri asimandan, dördüncüsü isə yerdən. Şərqdən gələn mələk qərbdən gələn mələyə dedi: **"Haradan gəlirsən"?** O mələk dedi: **"Pərvərdigarımın yanından".** Qərbdən gələn mələk də o biri mələyə dedi: **"Sən hardan gəlirsən"?** O da **"Pərvərdigarımın yanından"**,- deyə cavab verdi. Asimandan gələn mələk yerdən gələn mələyə dedi: **"Hardan gəlirsən"?.** O da **"Pərvərdigarımın yanından",** - deyə cavab verdi. Yerdən gələn mələk də göydən gələn mələkdən soruşdu: **"Sən hardan gəlirsən"?** O da cavabında **"Pərvərdigarımın yanından"**,- dedi. Bu, sizin peyğəmbəriniz Musanın dövründə baş verən sualdır ki, sizə də layiqli cavabdır. (Yəni, Allah hər bir yerdə mövcuddur).

Amma bizim Peyğəmbərin (s) dövründə baş verən hadisə aşağıdakı Quran ayəsidir: **"Sirr deyən elə bir üç nəfər olmaz ki, onların dördüncüsü Allah olmasın; elə bir beş nəfər olmaz ki, altıncısı Allah olmasın. Bundan az və ya çox elə bir danışıq yoxdur ki, Allah onlarla birgə olmasın".**

Yəhudilər dedilər:

- Ya Əli! Tövratı Musaya nazil edən Allaha and olsun ki, Peyğəmbərdən (s) sonra sən elm qapısısan...

RUHUN MƏNASI

Qeysər Rumi bir neçə dini və elmi sualları əhatə edən məktub yazaraq Ömər ibn Xəttaba (r) göndərdi. Ömər (r) onların cavabını yazmaqda Mövla Əlidən (ə) kömək istədi. Ömər (r) o Həzrətin verdiyi cavabları bir məktubda yazaraq Qeysərə göndərdi. Qeysər məktubu alıb oxuduqdan sonra cavab verənin Mövla Əli (ə) olduğunu başa düşdü. Buna görə də Mövla Əliyə (ə) belə bir məzmunda məktub yazdı: **"Sənin verdiyin cavablardan agah oldum ki, sən risalət xanədanındansan, elm və şücaətlə zinətlənmisən. İndi mənim üçün Allahın Quranda buyurduğu "Səndən ruh barəsində soruşurlar. De ki, ruh mənim əmrimdəndir" ayəsindəki "ruh"un mənasını izah et".**

Mövla Əli (ə) cavabda yazdı: **"Əmma bəəd: Ruh lətif bir nöqtə, şərif bir nur, Allahın insanı heyrətə gətirən əsrarəngiz varlıqlarındandır. Ruhu Allah Özünün dəyərli xəzinələrindən çıxartmış, onu insanın daxilində və zatında qərar vermişdir. Ruh sənin lə Allah arasında rabitə vasitəsi, Allah tərəfindən sənə həvalə olunmuş bir əmanətdir. Hər vaxt peymanən dolsa (əcəlin çatsa), ruhu səndən alacaqdır".**

BURA ELM XƏZİNƏSİDİR!

Əsbəğ ibn Nəbatə deyir: **"Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) xilafət məqamına çatıb, camaat ona beyət etdikdən sonra Peyğəmbərin (s) libasını və ayaqqabısını geyərək məscidə getmək məqsədilə evdən çıxdı. O Həzrət məscidə daxil olub tam heybət və vüqarla minbərə oturdu, barmaqlarını bir-birinə keçirdərək buyurdu: "Ey insanlar! Məni əldən verməmiş bir şey soruşun. Öz mübarək sinəsinə işarə edərək buyurdu: "Bura elm xəzinəsidir. Bura Peyğəmbərin (s) mübarək ağız suyunun dəyən yeridir. Məndən soruşun, çünki mən əvvəldəkilərin və axırdakıların elmini bilirəm".**

Bu zaman məşhur söz ustası olan Zələb camaata üz tutub dedi:

- Əbu Talibin oğlu özünün böyük məqamda olduğunu iddia edir. İndi onu pərt edəcəyəm! Ya Əmirəl möminin! Öz Rəbbini görürsənmi?

Həzrət Əli (ə) buyurdu:

- Vay olsun sənə, ey Zələb! Mən görmədiyim Allaha iman gətirməz və Ona ibadət etmərəm.

- Onun nişanələrini bizim üçün de!

Mövla Əli (ə):

- Vay olsun sənə! Zahiri gözlər Onu görə bilməz, lakin pak qəlblər iman nuru, həqiqət nuru ilə Onu müşahidə edə bilər. Mənim Pərvərdigarım yaxınlıq və uzaqlıq, hərəkət və sükunət, dayanmaq və getmək kimi işlərlə vəsf olunmaz; lətafətli olduğu halda lütf ilə vəsf edilməz; böyük olduğu halda böyüklüklə vəsf edilməz, cəlildir, lakin qatılıq və cəlalətlə vəsf olunmaz; çox mehribandır, lakin ürəyi

yananlıqla vəsf edilməz; mömindir, lakin ibadət etməklə yox; müdrikdir, lakin ləms etməklə yox; danışandır, lakin tələffüzlə yox; əşyalara daxildir, amma onlarla qaynayıb-qarışmaqla deyil; əşyalardan xaricdir, amma onlardan ayrılmaq kimi yox; hər şeyin üstündədir, heç vaxt **"hansısa bir şey Allahın yuxarısındadır"** - deyilməz; əşyalara daxildir, lakin bir şeyin digər bir şeyə daxil olduğu kimi yox; əşyalardan xaricdədir, amma bir şeyin başqasından xaric olduğu kimi yox.

Bu zaman Zələb dəhşətə gəldi və huşdan gedib yerə yıxıldı. Ayılanda dedi:

- Allaha and olsun belə bir şeyi eşitməmişdim və eşitməyəcəyəm də!

Sonra İmam Əli (ə) yenidən buyurdu:

- Məni əldən verməmiş istədiyiniz şeyi soruşun!

Bu zaman Əşəs ibn Qeys ayağa qalxıb dedi:

- Ya Əmirəl möminin! Məcuslardan hansı əsasla cizyə alırsan, halbuki onların nə peyğəmbəri var, nə də səmavi kitabları?!

İmam Əli (ə) buyurdu:

- Məcusların peyğəmbəri, səmavi kitabı var idi. Bir gecə onların padşahı şərab içib məst halda öz qızı ilə zina etdi. Sübh açılanda hamı bu hadisədən xəbərdar olub onun evini mühasirəyə aldılar və fəryad etdilər: **"Ey padşah! Sən bizim dinimizi aludə etdin, ləkələdin. Evdən çıx ki, sənə şəri həddi vuraq (cəzalandıraq)!"** Padşah qapıya gəldi, onları çağırıb dedi: **"Mənim sizə sözüm vardır. Əgər sözümü təsdiq etsəniz, onda heç bir günaha mürtəkib olmamışam, əks halda mənim barəmdə nə istəsəniz edin".**

Camaat hər tərəfdən axışıb oraya gəldi. Padşah qəsrdən çıxıb onlara dedi: **"Bilirsinizmi ki, Allah heç bir məxluqu bizim atamız Adəm və anamız Həvvadan artıq əzizləməmişdir?"**

Hamılıqla dedilər: **"Düzdür".**

Padşah sözünə davam etdi: **"Məgər Adəm öz qızlarını oğlanları ilə evləndirmədimi?"**

Dedilər: **"Düz deyirsən və haqq din də elə budur".**

Məcuslar o zamandan bəri öz məhrəmləri ilə evlənməyi halal saydılar. Allah da onlara qəzəb edərək elm nurunu qəlblərindən çıxartdı, səmavi kitablarını onların arasından götürdü. Onlar kafir və

Cəhənnəm əhlidirlər. Ey Əşəs, bil ki, münafiqlərin halı bunlardan da pisdir.

Əşəs dedi:

- Allaha and olsun! Heç vaxt belə bir cavab eşitməmişdim və gələcəkdə də eşitməyəcəyəm…

NAMAZIN BƏZİ ƏMƏLLƏRİNİN FƏLSƏFƏSİ

Bir nəfər Mövla Əlidən (ə) soruşdu:

- Təkbirətul-ehram deyən zaman əlləri yuxarı qaldırmağın mənası nədir?

Mövla Əli (ə) buyurdu:

- Mənası budur ki, Allah böyükdür, yeganədir, heç bir oxşarı yoxdur, zahiri idrak və hiss orqanları ilə dərk olunmaz.

- Rüku halında boynu dartmağın mənası nədir?

İmam (ə) buyurdu:

- Mənası budur ki, Allaha iman gətirdim, hətta boynumu vursalar belə.

- Birinci səcdənin mənası nədir?

- Mənası budur ki, **"Pərvərdigara! Sən bizi torpaqdan yaratmısan".** Başı səcdədən qaldırmağın mənası budur ki, **"Pərvərdigara! Sən bizi torpağa qaytaracaqsan"**; başı ikinci səcdədən qaldırmağın mənası budur ki, **"Pərvərdigara! Sən bir daha bizi (Qiyamət günündə) yerdən çıxardacaqsan".**

- Təşəhhüdü deyən zaman sağ ayağı sol ayağın üstünə qoymağın mənası nədir?

- Mənası budur ki, **"Pərvərdigara! Batili öldür, haqqı bərqərar et və möhkəm saxla."**

- Camaat namazında imamın **"əssəlamu əleykum"** deməsinin mənası nədir?

- İmam Allah tərəfindən olan bir mütərcimdir ki, camaata (namaz qılanlara) deyir: **"Siz Qiyamət günündə Allahın əzabından amandasınız".**

ALLAHIN NİŞANƏSİ

Bir nəfər Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Ya Əmirəl möminin! Allahı nə ilə tanıdın?

- Mənim əzm və qərarlarımı pozması ilə. Mən bir işi görməyə dair iradə və əzm etdim, maneələr və qəzavü-qədər onunla məqsədlərim arasında fasilə salaraq onun həyata keçməsinə mane oldu. Başa düşdüm ki, tədbir edən və onun axırını fikirləşən başqa bir Kəsdir.

- Hansı səbəbə görə Allaha həmd edirsən?

- Məndən necə bəlaları dəf etdiyini, həmçinin başqalarına bəlalar varid etdiyini gördükdə başa düşdüm ki, O mənə minnət qoymuşdur. Mən də Ona şükr etdim.

- Nəyə görə Onunla görüşəcəyinə bu qədər şövq bəsləyirsən?

- Öz mələklərinin və peyğəmbərlərinin ayinini mənim üçün seçdiyini, neməti mənə tamamladığını gördükdə bildim ki, məni bu qədər əzizləyən Allah heç vaxt məni unutmaz. Buna görə də Onunla görüşə müştaq oldum.

ALLAHIN YEGANƏLİYİ BARƏSİNDƏ

"Cəməl" müharibəsində Mövla Əli (ə) müharibə işlərini nizamlamağa məşğul ikən çöl ərəblərindən bir nəfər qalxıb dedi:

- Ya Əmirəl möminin! Allahın yeganə olduğunu deyirsənmi?

Bu zaman camaat hər tərəfdən ona etiraz edib dedilər:

- Görmürsən ki, Əli (ə) hansı vəziyyətdədir və onun fikri qarışıqdır?!

İmam (ə) onlara buyurdu:

- Onunla işiniz olmasın, bizim düşməndən istədiyimiz şeyləri elə bu ərəb soruşdu. Allaha yeganəlik nisbəti verilməsi dörd qismdir: onun ikisi rəvadır, ikisi isə rəva deyildir. Rəva olmayanların biri (**"Allah birdir"** deyib) ikinin müqabilində olan **"bir"**i nəzərdə tutmaqdır. Rəva olmamasının səbəbi də budur ki, Allahda iki yoxdur. Ədədlər bölməsində **"iki"**si olmayan **"bir"**, ədədlərin sırasına daxil olmur və ona bir deyilmir. Rəva olmayan digər qismi isə **"bir"** deyib cinsdən olan bir növü nəzərdə tutmaqdır. Bu da rəva deyildir, çünki bu Onun məxluqata oxşadılmasıdır, halbuki Allah belə şeylərdən pakdır.

Allah barəsində rəva olan iki qismin birincisi budur ki, Allaha yeganəlik nisbəti verməklə Onun məxluqatda və əşyalarda oxşar və misilinin olmaması nəzərdə tutulsun. Digəri də **"Allahın əhədiyyul-məna olmasıdır"** - məqsəd vücudda, təfəkkürdə və xəyalda bölgüyə məruz qalmamasıdır. Bizim Pərvərdigarımız bax belədir!

NƏCRAN YEPİSKOPUNUN SUALLARI

Nəcran tayfasının böyük alimi və dini rəhbəri Xəlifə Ömərin (r) yanına gəlib ondan bir neçə sualın cavabını soruşdu. Xəlifə bəzi sualların cavabında çətinlik çəkdiyinə görə onu İmam Əlinin (ə) yanına göndərdi. Yepsikop o həzrətin hüzuruna gəlib suallarını verib cavabların aldı. Onların bəzilərini qeyd edirik:

Yepiskop:

- Mənə o şeydən xəbər ver ki, dünya əhalisinin əlindədir, ondan istifadə edirlər, amma behişt meyvələri kimi, onda heç bir azalma müşahidə olunmur.

Mövla Əli (ə) buyurdu:

- O, Qurandır ki, dünya əhli ondan (istifadə edərək) bütün ehtiyaclarını təmin edirlər və onda heç bir nöqsan (azalma) əmələ gəlmir.

- Yer üzündə axıdılan birinci qan hansı qan idi?

- Siz məsihilərin inancına görə, o, Adəmin övladı və Qabil tərəfindən qətlə yetirilən Habilin qanı idi. Lakin belə deyildir. Yer üzündə axıdılan ilk qan Qabili dünyaya gətirdiyi zaman Həvvanın bətnindən xaric olan qan olmuşdur.

Yepiskop:

- Çox doğru cavabdır…

ƏSL MALİK ALLAHDIR!

Mövla Əlidən (ə) **"la hovlə və la quvvətə illa billah"** cümləsinin mənasını soruşduqda buyurdu: **"Mənası budur ki, biz Allahın hüzurunda, Onun bizə verdiklərindən başqa heç bir şeyə malik deyilik. Belə isə, hər vaxt, həqiqətdə Onun Özünün əsl malik olduğu bir şeyi bizə əta etsə, bizi Onun barəsində müəyyən işləri ye-**

rinə yetirməyə mükəlləf edir və hər vaxt da onu bizdən alsa, onun mükəlləfiyyətini bizim üzərimizdən götürür".

ŞƏRƏF, MÜRÜVVƏT VƏ AĞIL…

Cüveyriyə ibn Müsəhhər deyir: **"Əlinin (ə) ardınca qaçırdım".** İmam (ə) bunu hiss etdikdə mənə buyurdu:

- Bu axmaqlar yalnız onların arxasınca qaçan yaltaqların ayaqqabı səslərinə görə həlak olmuşlar. Nə üçün gəlmisən?!

Dedim:

- Gəlmişəm ki, sizdən şərəf, mürüvvət və ağlın mənasını soruşum.

İmam (ə) buyurdu:

- Hər kəsi sultan şərif hesab etsə, o, şərafətlidir. İnsanın öz həyatını islah edib məişətini bəzəməsi mürüvvətdir. Hər kəs Allahdan qorxub təqvalı olsa ağıllıdır.

ALLAHIN NEMƏTLƏRİ

Übeyy ibn Kəb Peyğəmbər Əkrəmin (s) hüzurunda bu ayəni tilavət etdi: **"Allah sizin üçün Öz aşkar və gizli nemətlərini tamamladı".**

Bu vaxt Peyğəmbər (s) Əbu Bəkr (r), Ömər (r), Osman (r), Əbu Übeydə və Əbdürrəhmanın da iştirak etdiyi məclisdə buyurdu:

- Deyin görüm, Allahın sizə verdiyi ilk nemət hansıdır?

Onların hamısı mal-dövlət, sərvət, qadın və övladdan söhbət açdılar. Sakit olduqları zaman Peyğəmbər (s) Mövla Əliyə (ə) buyurdu:

- Ya Əli! Sən də de.

Mövla Əli (ə) belə sadalamağa başladı:

- Allah məni yoxluqdan varlıq əlamətinə gətirdi, məni cansız və ruhsuz bir şey yox, canlı bir varlıq, ağılsız və unutqan yox, mütəfəkkir və huşlu bir insan qərar verdi ki, onların vasitəsilə istədiyim şeyləri dərk edəm. Varlığımda ağıl kimi parlaq bir şam qoydu, məni Öz dininə hidayət etdi, azğınçılıqdan xilas edərək əbədi həyata qayıdış yolunu mənim üçün bərqərar etdi. Məni bir kəsin mülkiyyətində yox, azad və malik olaraq yaratdı. Asimanı, yerləri və onlarda olanları mənim

itaətimdə qoydu. Bizi qadın deyil, halal qadınlarımıza hakim olan kişilər qərar verdi.

Peyğəmbər (s) onun dediyi hər cümləni **"düz deyirsən!"**, - deyə təsdiqlədi, sonra buyurdu:

- Yenə say!

Mövla Əli (ə) bu ayəni tilavət etdi: **"Əgər Allahın nemətlərini saymaq istəsəniz, heç vaxt sayıb qurtara bilməzsiniz".**

Peyğəmbər (s) təbəssüm edərək buyurdu:

- Elm və hikmət sənə halal olsun, ey Əbəl-Həsən! Sən mənim elmimin varisi və məndən sonra ümmətimin ixtilaflarını aradan qaldıransan.

XƏLİFƏ ÖMƏRİN (R) MÖVLA ƏLİDƏN (Ə) SUALLARI

Bir gün Xəlifə Ömər (r) Mövla Əliyə (ə) dedi:

- Ya Əli! Mənim bir neçə sualım var, onları peyğəmbərdən soruşmağı unutmuşdum. Sən onların cavabını verə bilərsənmi?

- Sən suallarını soruş!

Xəlifə:

- Bəzən insan yuxuda bir şeyi görür, amma ayıldıqdan sonra ondan heç bir əsər-əlamət görmür. Bəzən bir kəslə qarşılaşır və əvvəlcədən heç bir müqəddimə olmadan ona məhəbbət göstərir. Bunun əksinə olaraq, bəzən də tanımadığı şəxslərlə düşmən olur. Bəzən də bir şeyi görür, yaxud eşidir və uzun müddət onu zehnində saxlayır. Bəzən ehtiyac olmadığı surətdə onu unudur, ehtiyac duyduğu surətdə onu xatırlayır.

Mövla Əli (ə) buyurdu:

- Sənin yuxu barəsində verdiyin sualın cavabı Allah-Təalanın Quranda buyurduğudur: **"Allah, canları öldükləri zaman, eləcə də ölməyənlərin canlarını yuxuda ikən bədənlərindən ayırır. Ondan sonra Allah, ölməyinə hökm etdiyi nəfsi saxlayır (canını alır) və o nəfs ki, əcəli gəlib çatmayıbdır, müəyyən olmuş vaxta qədər (diri) saxlayır".** Yuxu ölümə bənzəyir. Ruhun insan bədənindən ayrıldığı zaman gördüyü yuxular düzgün və mələkuti yuxudur. Amma ruhun qayıtdığı zaman gördüyü yuxular batil və şeytanın rənglərindəndir.

Əvvəlcədən heç bir müqəddimə olmadan dostluq və düşmənçilik barədəki sualına gəldikdə isə, Allah ruhları bədənlərdən iki min il öncə yaratmış, onları havada və fəzada məskunlaşdırmışdır. Orada bir-birilə ünsiyyətdə olan ruhlar burada da bir-birilə ünsiyyətdədirlər. Orada bir-birinə düşmən olan puhlar burada da bir-birinə düşməndirlər.

Xatırlamaq və unutmaq barəsindəki sualına gəldikdə isə elə bir qəlb yoxdur ki, onda bir örtük və pərdə olmasın. Hər qəlb pərdənin altında gizlənsə, gördüyünü və eşitdiyini unudur, pərdələr kənara çəkildiyi zaman gördüyünü və eşitdiyini yadında saxlayır.

Xəlifə dedi:

- Düz deyirsən. Sənin olmadığın bir yerdə və ya şəhərdə Allah məni diri saxlamasın!

YEDDİ SUAL

Bir nəfər Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Yetmiş fərsənglik yoldan bura gəlmişəm ki, səndən yeddi sualın cavabını öyrənim.

1. Asimanlardan da böyük olan nədir?
2. Yerdən də geniş olan nədir?
3. Yetim uşaqdan da zərif olan nədir?
4. Oddan da çox yandıran nədir?
5. Burdan da soyuq olan nədir?
6. Dəryadan da daha ehtiyacsız olan nədir?
7. Daşdan da bərk olan nədir?

Mövla Əli (ə) buyurdu:

- Nahaq yerə töhmət vurmaq (günah cəhətindən) asimanlardan da böyükdür. Haqq, yerdən də genişdir. Sözgəzdirən adamın söz gəzdirməsi yetim uşaqdan da zəifdir. Hərislik və tamahkarlıq oddan da yandırıcıdır. Paxıldan bir şey istəmək buzdan da soyuqdur. Qənaətlə dolanan şəxsin bədəni dəryadan da ehtiyacsızdır. Kafirin qəlbi daşdan da bərkdir.

VACİB VƏ VACİBDƏN DƏ VACİB

Şafei **"Mətalibus-sual"** kitabında belə qeyd edir: **"Bir nəfər Əlinin (ə) yanına gəlib deyir:**

De görüm vacib və ondan da vacib, qəribə və ondan da qəribə, çətin və ondan da çətin, yaxın və ondan da yaxın olan şeylər nədir?

İmam (ə) bir şer oxuyaraq onun cavabını verir:

- Tövbə ilə Allah dərgahına qayıtmaq insanlar üçün vacibdir, Amma günahları tərk etmələri ondan da vacibdir. Ruzigarın gəlib getməsi qəribədir. Müsibətilər qarşısında səbirli olmaq çətindir. Lakin onun müqabilində veriləcək mükafatı itirmək ondan da çətindir. Ümid bəslənən hər bir şey yaxındır, amma ölüm onlardan da yaxındır."

NƏFSLƏRİN XASİYYƏTLƏRİ

Kumeyl ibn Ziyad buyurdu:

- Əlidən (ə) nəfsin nədən ibarət olması barəsində soruşduqda o Həzrət buyurdu:

- Hansı nəfs?

Kumeyl dedi:

- Məgər birdən artıq nəfs varmı?

Mövla Əli (ə) buyurdu:

- Dörd növ nəfs var: bitkilərə məxsus olan nami nəfs; Heyvani nəfs; Qüdsi-natiqə nəfs; Külli-ilahi nəfs. Bu nəfslərdən hər birində beş qüvvə və iki xasiyyət var: Bitkilərə məxsus olan nami nəfsin beş qüvvəsi aşağıdakılardır: Masikə, Cazibə, Hazimə, Dafiə, Mürəbbiyə. Onun iki xassəsi də nöqsan və artımdır ki, qara ciyərdən qaynaqlanır.

Heyvana məxsus olan nəfsin beş qüvvəsi var: Eşitmə, Görmə, İybilmə, Dadbilmə, Lamisə hissi. Onun iki xassəsi: razılıq və qəzəbdir ki, qəlbdən yaranırlar.

Natiqə nəfsinin beş qüvvəsi var: Fikir, Zikr, Elm, Əməl, İntibah. Bunun bədəndə mənşəyi yoxdur və mələkuti nəfsə çox oxşayır. Onun iki xassəsi isə nəzakət və hikmətdir.

Külli-ilahi nəfsin beş qüvvəsi var: Fənada əbədi qalmaq, Zillətli halda izzətli olmaq, Zəngin halda fəqirlikdə olmaq, Bəlalarda səbr etmək, Əzab-əziyyət və zəhmətdə xoşluqda olmaq. Onun iki xassəsi də helm və kərəmdir ki, onların da mənşəyi Allah-Təaladır. Quranda buyurulur: **"Ona Özümüzün müqəddəs ruhumuzdan üfürdük".** Onun qayıdış yeri də Allaha tərəfdir. Belə ki, buyurulur: **"Ey mütməin (xatircəm) nəfs və aram tapmış qəlb, bu gün Pərvərdigarının hüzuruna qayıt, elə bir halda ki, sən Ondan və O da səndən razıdır".** Əql də bu nəfslərin hamısının arasındadır ki, heç kəs təfəkkür və əndişə olmadan bir söz danışmasın.

KƏBÜL-ƏXBARIN SUALLARI

Kəbül-Əxbar Mövla Əlidən (ə) soruşdu:

- Atası olmayan kimdir? Əhli-əyalı və qohum-əqrabası olmayan kimdir? Qibləsi olmayan nədir?

Mövla Əli (ə) buyurdu:

- Atası olmayan Həzrət İsa peyğəmbərdir (ə), qohum-əqrabası olmayan babamız Adəmdir (ə), qibləsi olmayan Kəbə evidir ki, Özü qiblədir.

Mövla Əli (ə) yenidən buyurdu:

- Daha nə istəyirsən soruş!

Kəbül-Əxbar:

- Hansı üç şeydir ki, canlıdır, nə bətndə olmuş, nə də bədəndən xaric olmuşdur?

Mövla Əli (ə) buyurdu:

- Həzrət Musanın (ə) əsası, Səmud qövmünün dişi dəvəsi, İbrahimin (ə) qoçu.

Kəbül-Əxbar:

- Bir sualım qalıb, əgər ona da cavab versən, sən elə özünsən.

Mövla Əli (ə) buyurdu:

- Onu da soruş.

Kəbül-Əxbar:

- Hansı qəbir öz sahibini hərəkət etdirirdi?

Mövla Əli (ə):

- O həmin balıq idi ki, Allahın əmri ilə Yunis Peyğəmbəri (ə) uddu, sonra onu bir müddət dəryalarda gəzdirdi.

YƏHUDİNİN SUALLARI

Bir yəhudi Mövla Əlidən (ə) soruşdu:

- Mənə o şeydən xəbər ver ki, Allah üçün deyil, o şeydən xəbər ver ki, Allahın yanında deyil, o şeydən xəbər ver ki, Allah onu bilmir.

Mövla Əli (ə) buyurdu:

- Allahın bilmədiyi şey siz yəhudilərin dediyi **"Üzeyir Allahın oğludur"**,- sözüdür. Halbuki Allahın **"**Öz oğlu**"** ifadəsi barəsində heç bir xəbəri yoxdur. Allah üçün olmayan şey ona şərik qoşmaqdır. Allahın yanında olmayan şey isə bəndələrə zülm etməkdir.

Bunu eşidən yəhudi dedi:

- Şəhadət verirəm ki, Allah təkdir, Muhəmməd (s) Onun Rəsuludur. Sən Əli onun haqq vəsisisən.

RƏSUL-CALUTUN SUALLARI

Rəsul-Calut Xəlifə Əbu Bəkrdən (r) müəyyən suallar soruşdu. Heç bir cavab ala bilmədikdən sonra həmin suallarla Mövla Əliyə (ə) müraciət etdi:

- Bütün varlıqların əsli və əsası nədir?

Mövla Əli (ə) buyurdu:

- Sudur. Çünki, Allah-Təala buyurur: **"Biz bütün canlı varlıqları sudan qərar verdik".**

Rəsul-Calut:

- Hansı iki cansız varlıq danışmışdır?

Mövla Əli (ə):

- Göy və yer.

Rəsul-Calut:

- Hansı iki şey artır və azalır, camaat da onu görmür?

Mövla Əli (ə):

- Gecə və gündüz.

Rəsul-Calut:

- Hansı su idi ki, nə yerdən idi, nə də göydən?

Mövla Əli (ə):

- Süleyman peyğəmbərin (ə) Bilqeys üçün göndərdiyi su idi ki, çapılan atların tərindən əmələ gəlmişdi.

Rəsul-Calut:

- O nədir ki, ruhu olmadan tənəffüs edir?

Mövla Əli (ə): **"And olsun sübhə! O zaman ki, tənəffüs edər (açılar)".**

Rəsul-Calut:

- O nədir ki, əvvəlcə artır, sonra da azalır.

Mövla Əli (ə):

- Ayın çevrəsi.

Rəsul-Calut:

- O hansı şeydir ki, nə artır, nə də azalır?

Mövla Əli (ə):

- Dərya.

Rəsul-Calut:

- O hansı şeydir ki, azalır, amma artmır?

Mövla Əli (ə):

- Ömür.

QEYSƏRİN SUALLARI

Qeysər Rumi Xəlifə Ömər ibn Xəttabdan (r) yazılı şəkildə bir neçə suala cavab istəmişdir. Xəlifə Mövla Əlidən (ə) xahiş edir ki, bəzi cavablarda ona kömək etsin. Onları qeyd edirik:

- Hər tərəfdən ağzı olan şey oddur.
- Hər tərəfi ayaq olan sudur.
- Hər tərəfi göz olan Günəşdir.
- Hər yeri qanad olan küləkdir.
- Öz yerindən yalnız bir dəfə hərəkət edən **"Tur"** dağıdır. Bəni İsrail Allah qarşısında itaətsizlik etdikləri zaman **"Tur"** dağı onlarla Müqəddəs diyar arasında vaqe oldu. Allah ondan bir parça ayırıb, nurdan olan iki qanad qərar verdi və onların başı üstündə saxladı. Belə ki, Quranda yəhudilərə xitabən belə buyrulur: **"Yada salın o zamanı ki, sələflərinizin üzərində "Tur" dağını bulud parçası kimi qərar verdik ki, hər an düşəcəyini güman edirdilər".**
- Kölgəsinin uzunluğu yüz illik yol olan ağac **"Tuba"** ağacıdır. O da yeddinci göy – Sidrətul-Müntəhadır ki, Adəm övladlarının əməlləri ona gedib çatır. O, Behişt ağaclarındandır, Behiştdə elə bir ev - qəsr yoxdur ki, **"Tuba"** ağacının budağı onun arasında asılmış olmasın.

Onun dünyadakı oxşarı Günəşdir ki, əsli və kökü birdir, nuru isə hər yerdə vardır.

- Suvarılmadan cücərən ağac Yunus Peyğəmbərin (ə) ağacıdır ki, onun möcüzələrindən sayılır. Allah-Təala buyurur: **"Yunusun üstündə yəqtindən olan bir ağac cücərtdik".**

- Behişt əhlinin yeməyinə gəldikdə isə, onun bu dünyadakı oxşarı ana bətnində göbək yolu ilə qidalanan rüşeymdir, halbuki heç nə dəf edilmir.

- Behişt əhli üçün bir qabda rəngarəng yeməklərin bir yerə yığışmasının dünyadakı misalı yumurtaya bənzəyir, belə ki, onun içində sarı və ağ rənglər olduğu halda heç vaxt bir-birinə qarışmır.

- Almanın arasından çıxan cavan qızın dünyadakı oxşarı almanın içindən sağlam şəkildə çıxan qurddur.

HÜZEYFƏNİN SÖZLƏRİNDƏN QƏZƏBLƏNƏN XƏLİFƏ

Bir gün Xəlifə Ömər ibn Xəttab (r) Hüzeyfəni görüb dedi:

- Sübhü necə açdın?

Hüzeyfə dedi:

Allaha And olsun, elə bir halda sübhə çıxmışam ki, haqqı düşmən, fitnəni dost tuturam, görmədiyim şeyə şəhadət verirəm, məxluq olmayan şeyi hifz edirəm, dəstəmazsız namaz qılıram, yerdə elə bir şeyim var ki, Allah-Təala göylərdə onlara malik deyil.

Xəlifə bu sözləri eşitdikdə qəzəblənsə də tələsdiyi üçün ona bir söz demədən getdi. Yolda Mövla Əlini (ə) gördü. Həzrət onun narahatçılığının səbəbini soruşdu. Ömər dedi:

- Hüzeyfə ilə rastlaşdım. Necə sübh etdiyini soruşduqda **"elə bir halda sübhə çıxdım ki, haqqı xoşlamıram"**, - deyə cavab verdi.

Mövla Əli (ə) buyurdu:

- Düz deyib. Ölümdən xoşu gəlmir, halbuki o, haqqdır.

Xəlifə dedi:

- O, dedi ki, fitnəni sevirəm!

Mövla Əli (ə):

- Düz deyib. Mal dövlətini və övladlarını sevir. Allah-Təala buyurur: **"Mal-dövlətiniz və övladlarınız yalnız bir fitnə və imtahan səbəbidir".**

Xəlifə:

- O, deyir ki, görmədiyim şeyə şəhadət verirəm!

Mövla Əli (ə):

- Düz deyir. Allahın yeganəliyinə, ölməyə, dirilməyə, Behiştə, cəhənnəmə, Sirata şahidlik verir. Halbuki onların heç birini görməmişdir.

Xəlifə:

- Qeyri-məxluqu hifz edirəm sözünə nə deyirsən!

Mövla Əli (ə):

- Düz deyir. Allahın kitabını hifz edir (hafizəsində saxlayır). Hansı ki, o qeyri-məxluqdur.

Xəlifə:

- O, deyir ki, dəstəmazsız namaz qılıram!

Mövla Əli (ə):

- Düz deyir. Əmim oğlu Rəsuli-Əkrəmə (s) dəstəmazsız olaraq salavat göndərir və bu da caizdir.

Xəlifə:

- Bunların hamısından ən pisi **"mənim yerdə elə bir şeyim var ki, Allah göylərdə onlara malik deyil"** deməsidir.

Mövla Əli (ə):

- Düz demişdir. Onun arvadı və övladları var. Allah isə belə şeylərdən uzaqdır.

Bu zaman Xəlifə dedi:

- Əgər Əli ibn Əbu Talib olmasaydı, Ömər həlak olardı. (Xəlifə Ömər ibn Xəttabın (r) bu ifadəni 63 dəfə təkrar etməsi rəvayətlərdə göstərilmişdir)

BELƏ ŞƏXS ÖVLİYAULLAHDIR!

Roma padşahının göndərdiyi adamlar Xəlifə Əbu Bəkrin (r) yanına gəlib soruşdular:

- O kimdir ki, Behiştə ümidi yoxdur, nə Allahın Cəhənnəmindən, nə də Onun Özündən qorxmur, ruku və səcdə etmir, murdar qan yeyir, fitnəni sevir, haqq ilə düşməndir, görmədiyi şeyə şahidlik edir?!

Xəlifə Əbu Bəkr (r) çətinlik çəkdiyindən Mövla Əliyə (ə) müraciət etdi.

Mövla Əli (ə) sualları belə cavablandırdı:

- Belə şəxs Allah övliyalarındandır. Çünki onun ümidi yalnız Allahadır, Onun Behiştinə deyil. Allahdan qorxmur nəinki oddan; Allahın zülm edəcəyindən deyil, ədalətlə rəftar edəcəyindən qorxur. Meyit namazında ruku və səcdə etmir. Balıq və çəyirtkə yeyir, halbuki o qandan ibarətdir. Dünya malını və övladlarını sevir halbu ki, onlar fitnədir. Ölümlə düşməndir lakin o haqqdır. Behişt və Cəhənnəmin haqq olmasına şəhadət verir, halbuki onları görməyib.

YUNUS BALIĞIN QARNINDA

Mövla Əli (ə) **"Şiqşiqiyyə"** xütbəsini oxuyan zaman bir nəfər o həzrətə müəyyən suallardan ibarət bir məktub verir. İmam (ə) xütbəsini yarımçıq saxlayaraq **"hansı canlıdır ki, başqa bir canlının qarnından çıxır, amma onların arasında heç bir qohumluq əlaqəsi yoxdur?"** sualına belə cavab verir.

- O canlı Yunus ibn Məta peyğəmbər (ə) idi ki, müəyyən müddət balığın qarnında yaşayıb sonra xaric olmuşdu.

MUSA PEYĞƏMBƏRİN (Ə) ƏSASI

Mövla Əlidən (ə) soruşdular:

- O nədir ki, dirisi su içən idi, ölüsü yeyən?

O Həzrət buyurdu:

- Musa peyğəmbərin (ə) əsası idi ki, ağacın üstündə budaq olduğu zaman su içirdi, ağacdan kəsilib Musanın əlində əsa olan zaman sehirkarların düzəltdiyi əjdaha və ilanları udub yedi.

İSA PEYĞƏMBƏRİN (Ə) QUŞU

Mövla Əlidən (ə) soruşdular:

- O hansı quşdur ki, nə balası olmuşdur, nə əsli?

- O, İsanın düzəltdiyi quş idi ki, Allah-Təala Quranda buyurur: **"Ey İsa! O zamanı (yada sal) ki, palçıqdan quş şəklində düzəltdin və**

Mənim əmrimlə ona üfürdün, o da Mənim əmrimlə canlı bir quş oldu". (Həmin quş Yarasadır.)

İZDİVAC GECƏSİ OĞLAN UŞAĞI DOĞAN QADIN!

Bir nəfər Xəlifə Əbu Bəkrdən (r) soruşdu:

- Bir kişi bir qızla evlənir və həmin gecə o qız oğlan doğur. Kişi elə həmin gecə vəfat edir və kişinin mirası (əmlakı) oğlanla onun anasına qalır. Hadisənin necə olduğunu deyə bilərsənmi?

Xəlifə onun cavabında çətinlik çəkir.

Mövla Əli (ə) buyurur:

- Bu kişi o qız ilə izdivac etməmişdən qabaq qız onun kənizi idi və elə ondan da hamilə olmuşdu. Kişi onu azad etdikdən sonra öz əqdinə keçirtdi, qadın da həmin gecə doğdu. O, öldükdə mirası oğluna və onun anasına qalmalıdır.

ƏRLİ QADININ İZDİVACI

Cavan bir qadın Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Ərli bir qadın öz atasının icazəsi ilə başqası ilə evlənə bilərmi?

Orada olanlar hay-küy salaraq **"heç vaxt!"**,- deyə cavab verdilər. Mövla Əli (ə) qadına buyurdu:

- Ərini bura çağır.

Qadın ərini gətirdi. İmam Əli (ə) o kişini vadar etdi ki, öz arvadını boşasın. Kişi də azacıq belə etiraz etmədən ona tələq verdi.

Həzrət buyurdu:

- Bu qadının əri ənindir (cinsi yaxınlığa qadir deyildir).

Əri də iqrar etdi. Qadın iddə (boşanma iddəsi - 3 ay) saxlamadan başqa bir kişi ilə izdivac etdi.

Müəllifdən: (M.Seyidzadə) **"Tələq"** təbiri gətirməkdə İmamın (ə) məqsədi onun lüğətdəki mənasıdır, yəni **"azad etmək"**dir. Çünki qadının əri ənin olduğu halda əvvəlcədən əqd batildir. Bu zaman tələq verməyə heç bir ehtiyac da yoxdur.

CƏZAYA SƏBƏB OLAN İBADƏT

Mövla Əlidən (ə) soruşdular:

- Hansı ibadətdir ki: onu yerinə yetirsən də, yetirməsən də cəzaya səbəb olur?

Mövla buyurdu:

- Şərab içərək məst olmuş adamın qıldığı namaz. Çünki məst halətində namazı qılsa da, qılmasa da cəzaya layiq görülməlidir.

ƏN PAK YERDƏ EDİLƏN İBADƏTİN BATİLLİYİ

Mövla Əlidən (ə) soruşdular:

- Yer üzünün hansı pak yeridir ki, orda namaz qılmaq batildir?

Mövla buyurdu:

- Kəbə evinin damında.

Müəllifdən: Çünki orada namazın vacib şərtlərindən olan qiblə məsələsinə riayət etmək mümkün deyil.

SƏRF VƏ NƏHV
(Morfologiya və Sintaksis)

Əbul Əsvəd Duəli deyir: **"Bir gün Əlinin (ə) dərin fikrə daldığını gördükdə soruşdum:**

- Ya Əmirəl möminin! Nə barədə fikirləşirsiniz?

İmam (ə) buyurdu:

- Sizin lüğətinizdə səhvlər və xətalar görmüşəm. Bu barədə müəyyən qayda-qanunlar düzəltmək istəyirəm ki, həmin səhvləri bərpa etsin.

Dedim:

- Əgər belə etsəniz, bizi diriltmiş olarsınız. Bu lüğət də bizim xalqımız üçün yadigar qalar.

Bir neçə gündən sonra o Həzrətin yanına getdim. Üzərində aşağıdakı kəlmələr yazılmış bir vərəqi mənim qarşıma qoydu: **"Bismillahir-Rəhmanir-Rəhim. Bütün kəlmələr ya isimdir, ya feldir, ya da hərf. İsim odur ki, öz müsəmmasını aydınlaşdırsın. Fel odur ki, müsəmmanın hərəkətini göstərsin, hərfin də elə mənaları vardır**

ki, nə isimdir, nə də fel. Bu barədə dəqiq axtarışlar aparıb nəzərinə çarpanları onlara artır",-dedi. Sonra əlavə etdi: **"Bil ki, başqa baxımdan da kəlmələr üç cürdür: Zahir (adi isim); Zəmir (əvəzlik); Nə zahir, nə də zəmir olmayanlar".**

Əbul Əsvəd deyir: **"Bir qədər ədəbi mətləbi toplayıb İmamın (ə) hüzuruna apardım. Onlardan biri də kəlməyə nəsb verən (felə oxşayan) hərflər idi: "İnnə", "ənnə", "leytə", "ləəllə", "kəənnə". Lakin "lakinnə" kəlməsini qeyd etməmişdim. İmam (ə) mənə buyurdu: "Nə üçün "lakinnə"ni onların biri kimi qeyd etməmisən?"**

Dedim:

- Mənə belə gəlir ki, **"lakinnə"** onlardan deyil.

İmam (ə) buyurdu:

- Xeyr, **"lakinnə"** də onlardandır. Onu da yaz.

Nəhv alimlərindən olan Zəccac qeyd olunan qaydalara belə misal gətirir: **"Zahir dedikdə "rəcul"** (kişi), **"Zeyd", "Əmr"** və s. kimi kəlmələrdir. Zəmir dedikdə **"ənə"** (mən), **"əntə"** (sən) və **"fəələ"** kəlməsindəki **"ta"**, **"ğulam"** kəlməsindəki **"mütəkkəlim"** və xitab kafı; məsələn, sovbukə və s.-dir. Amma nə zahir, nə də zəmir olmayanlar mübhəm kəlmələrdir. **"Haza"**, **"hazihi"**, **"hata"**, **"ta"** (bunlar ismi işarədir); **"mən"** o kəs ki…), **"ma"** (o şey ki…), **"əlləzi"** (o kəs ki…), ey, (bunlar mosul isimləridir); **"kəm"** (nə qədər), **"məta"** (harada), **"əynə"** (harada) (sual isimləridir) və s.

Müəllifdən: (M.Seyidzadə) Bütün bunları deməkdə məqsəd, Mövla Əlinin (ə) pərakəndə halda olan ərəb qramatikasını kitab halına salaraq gözəl nümunə yaratdığını göstərmək idi.

LÜĞƏT

Bir nəfər Xəlifə Əbu Bəkrdən (r) **"və fakuhətən və əbba"** ayəsinin tərcüməsini soruşdu, amma o, **"əbb"** sözünün mənasında çətinlik çəkərək dedi:

- Hansı asiman mənə kölgə salsın, hansı yer məni üzərində götürsün, axı mən nə edim?! Əgər Allahın kitabı barəsində bir söz desəm, özümün də inanmadığım bir söz demiş olaram. Mən **"fakihə"**nin mənasını bilirəm. Lakin **"əbb"**in mənasını Allah daha yaxşı bilər!

Mövla Əli (ə) bu sözləri eşidəndə buyurdu:

- Sübhənallah! Məgər o bilmir ki, **"əbb"** kəlməsi çoxlu otu-ələfi olan otlaq mənasındadır?! Allah bu şərif ayədə insanların özlərinə və onların heyvanlarına əta etdyi nemətləri sadalamaq istəyir. Belə ki, onları həmin nemətlərin vasitəsi ilə qidalandırır və həyatlarına sabitlik və möhkəmlik bağışlayır.

"Kəlalə" sözünün mənası ilə bağlı İmam fikirlərini də izah etdi:

- Məgər bilmirsiniz ki, **"kəlalə"** kəlməsi ata-anadan bir olan bacı qardaşlar, həmçinin təkcə ata tərəfdən və təkcə ana tərəfdən olan bacı-qardaşlar mənasındadır?! Belə ki, Allah-Təala buyurur: ***"Ey Peyğəmbər! Səndən "kəlalə" (qardaşlar və bacılar) barəsində fətva istəyirlər. De, Allah "kəlalə" barəsində sizə fətva verəcək: Əgər sizlərdən bir kişi ölsə və onun övladı olmasa, amma bacısı olsa meyitin mirasının yarısı o bacısına çatır".***

Bu ayədə **"bacı"** dedikdə məqsəd həm ata-anadan, həm də təkcə ata tərəfdən bir olan bacı nəzərdə tutulur. Çünki fəqihlərin nəzər biliyinə əsasən, bacı o zaman mirasın yarısını irs aparır ki, ya ata-ana tərəfdən, ya da yalnız ata tərəfdən bir olsun. Başqa bir ayədə buyrulur: **"Əgər bir kişinin və ya qadının qardaşdan və yaxud bacıdan başqa bir vərəsəsi olmasa, onlardan hər biri altıda-bir qədər pay aparırlar".**

Şiə fəqihlərinin fikir birliyinə əsasən, ana tərəfdən bir olan bacı və qardaşa, tək olduqda irsdən altıda-bir, çox olduqda isə üçdə-bir qədər verilir.

Deməli, Qurani-Məcidəki **"kəlalə"** sözü aşkar şəkildə ya ata-ana tərəfdən, ya da yalnız ata, yaxud ana tərəfdən bir olan bacı-qardaş barəsində işlədilir. Şəxsi rəy də o zaman işlədilir ki, bu barədə şəri bir dəlil olmasın.

FƏSAHƏT VƏ BƏLAĞƏT

Həzrət Əli (ə) bir dəfə əlif hərfi olmayan, bir dəfə də nöqtəsi olmayan, eyni zamanda çox dəyərli və məzmunlu moizələri əhatə edən xütbə buyurmuşdur. Halbuki, əlif hərfi ərəb dilinin tərkib kəlmələrində başqa hərflərə nisbətən daha çox işlənilir. Eləcə də ərəb ədəbiyyatında nöqtəli hərflərin işlənməsi çox zəruri və lazımdır.

Lakin bütün bunlara baxmayaraq Mövla Əli (ə) möcüzəvi xütbəsində əlif və nöqtə hərflərini işlətmədən gözəl nəticə almaqla tarixə düşmüşdür. Bundan da belə görünür ki, Mövla Əli (ə) bütün ərəb dili və ədəbiyyatının ixtiraçısı olmuşdur.

Qeyd: Bu gün elm aləmində nəinki elmi ixtiraçılar, hətta müəyyən bir mətləbi deməklə başqalarından qabağa keçənlər belə fəxr edirlər!

BƏSRƏ DİYARI

Mərhum Seyid Rəzi **"Nəhcül-Bəlağə"**də qeyd edir ki, Həzrət Əli (ə) Bəsrə əhlini məzəmmət edərək buyurdu: **"Sizin torpağınız suya yaxın, göydən uzaqdır".**

İbn Əbil Hədid birinci cümlənin təfsirində demişdir ki, Bəsrənin yeri dəryanın suyuna çox yaxın olduğuna görə Fars körfəzinin sularının tüğyan etməsi nəticəsində iki dəfə – birincisi Əl-Qadir Billahın, ikincisi isə Əl-Qaim Biəmrillahın dövründə suya qərq olmuşdur.

O Həzrətin qeybdən verdiyi xəbərlərdən biri kimi bunu qeyd edirik: **"Bəsrə şəhəri qərq olacaq, onun məscidi gəminin göyərtəsi kimi qalacaqdır".** Elə İmamın (ə) buyurduğu kimi də olmuşdur.

İbni Əbil Hədid sonra qeyd edir ki, Bəsrənin səmadan uzaq olmasının mənası budur ki, rəsədxana və astronomik vasitələrlə məlum edildiyi kimi, yer üzərində nisfun-nəhar dairəsindən ən uzaqda olan abad nöqtə Bəsrə nahiyəsində yerləşən Əblə diyarıdır. Bu dəqiq və incə mətləbləri yalnız Əmirəl möminin Əli (ə) bəyan edə bilər. Çünki o Həzrət elə məsələlərdən xəbər vermişdir ki, ərəblər ümumiyyətlə, o barədə məlumatsız olmuşlar. Tədqiqatçılar və alimlərdən başqa heç kəs onu dərk edə bilməzdi. Bu da Mövla Əlinin (ə) bədii və sirli elm xəzinəsinin bilicisi olmasını göstərir.

ƏDALƏTLİ BÖLGÜ

İki nəfər birlikdə səfərə gedir. Yemək vaxtı çatanda onlardan biri süfrəyə beş, digəri isə üç çörək qoyur. Bu zaman onların yanından keçən bir nəfəri yeməyə dəvət edirlər. Yoldan ötən üçüncü şəxs yediyi çörəklərin əvəzi olaraq səkkiz dirhəm verir. Pulu bölüşdürmək istəyəndə onların arasında münaqişə yaranır. Üç çörək sahibi beş

çörək sahibinə: **"Dirhəmləri yarıbayarı bölməliyik",**-deyir. Beş çörək sahibi isə: **"Bu ədalətli bölgü deyildir. Süfrəyə qoyduğumuz çörəklərə mütənasib olaraq mənə beş dirhəm, sənə isə üç dirhəm çatmalıdır"-söyləyir.** Amma o birisi razılaşmır. Nəhayət məsələni Mövla Əliyə (ə) çatdırırlar. Həzrət buyurur:

- Gedin bir-birinizlə razılaşın. Bu kimi əhəmiyyətsiz məsələ barəsində bu qədər ixtilaf etməyin.

Onlar deyirlər:

- Hər halda, siz haqqı bizim üçün bəyan edin!

Mövla Əli (ə) dirhəmləri götürüb yeddi dirhəmi beş çörək sahibinə, bir dirhəmi isə üç çörək sahibinə verir və onlara buyurur:

- Məgər sizin hər biriniz iki çörək və çörəyin üçdə-ikisi qədər yeməmisinizmi?! (Bu da səkkizdə üç edir).

Deyirlər: - Bəli.

Mövla Əli (ə) buyurur:

- Deməli, yoldan keçən şəxsin yediyi çörəyin yeddidə üç hissəsi beş çörək sahibinin, üçdə bir hissəsi isə üç çörək sahibinindir. Pullar da bu əsasda bölüşdürülməlidir.

QƏRİBƏ ƏDƏD

Bir yəhudi Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Mənə elə bir ədəd de ki, ikiyə, üçə, dördə, beşə, altıya, yeddiyə, səkkizə, doqquza və ona qalıqsız bölünsün.

Mövla Əli (ə) dedi:

- Əgər cavabını desəm, İslamı qəbul edəcəksənmi?

- Bəli.

Mövla Əli (ə) buyurdu:

- Həftənin günlərini ilin günlərinə vur, istədiyin ədəd alınacaq.(7x360)

Yəhudi cavabın düzgün olduğunu gördükdə İslamı qəbul etdi.

Mərhum Şeyx Bəhai **"Xülasətul-Hesab"** kitabının 136-cı səhifəsində belə qeyd edir: **"Əgər ayların sayını ayın günlərinin sayına və onun hasilini də həftənin günlərinə vursan, elə bir ədəd alınır ki, qeyd olunan ədədlərin hamısına qalıqsız bölünər. Əgər "eyn" hərfi olan ədədlərin məxrəci, yəni rub, səb, tis və əşr (4,7, 9,10)**

bir-birinə vurulsa, onların hasili elə bir ədəddir ki, qeyd olunan ədədlərin hamısına qalıqsız bölünür".

BEYTÜL-MALIN BÖLÜŞDÜRÜLMƏSİ

Mövla Əli (ə) Cəməl müharibəsində düşmənlərə qələbə çaldıqdan sonra özünün mühacir və ənsardan olan köməkçiləri ilə Bəsrədəki beytül-mal saxlanan anbara daxil oldu. Dinar və dirhəmlərin kənarında dayanıb onlara xitabən buyurdu: **"Ey ağ dirhəmlər! Ey sarı qızıllar! Məndən başqasını aldadın!"**

Bir neçə an sükut etdikdən sonra dostlarına buyurdu:

- Bunları mənim səhabələrimin və mənimlə birgə olanların arasında beş yüz - beş yüz bölüşdürün.

Bu göstərişi icra etdikdən sonra bir dirhəm də belə ortada qalmır. Halbuki o Həzrətin köməkçilərinin sayı on iki min nəfər idi.

Aydındır ki, bu hadisə o zaman bu fəsildən hesab olunar ki, altı milyona qədər olan sikkələrin miqdarı o Həzrətə qabaqcadan məlum olaydı. Əks halda isə, o Həzrətin möcüzəli və qeybi xəbərlərindən hesab olunmalıdır.

Bunun oxşarını Sərvi **"Mənaqib"** kitabında (1-ci cild, səh 149) belə qeyd edir: **"Həzrət Əli (ə) öz xilafətinin əvvəllərində Mədinədə minbərə çıxıb buyurdu: "Cərgələrin arasında gəzin və camaata deyin: bir kəs mənim xilafətimdən narazıdırmı? Bu zaman camaatın səsi ucaldı, hamı bir səslə dedi: "Pərvərdigara! Biz Sənin Peyğəmbərindən və onun əmisioğlundan razıyıq, onun fərmanını cani-dildən qəbul edirik! Mövla Əli (ə) bu zaman Əmmara buyurdu: "Ey Əmmar, qalx ayağa! Beytül-malın saxlandığı yerin qapısına get və hər nəfərə üç dinar ver, mənim üçün də üç dinar gətir. Əmmar Əbul-Heysəm və müsəlmanlardan bir dəstə ilə birlikdə beytül-mala tərəf getdi. O Həzrət də minbərdən enərək Quba məscidinə yollandı. Əmmar öz yoldaşları ilə beytül-mal olan anbara daxil olanda orada üç yüz min dinar olduğunu gördülər. Camaatın da elə sayı yüz min nəfər idi. Bu zaman Əmmar orada olanlara dedi: "Allaha and olsun! O Həzrət nə camaatın sayını bilirdi, nə də dinarların miqdarını. Bunun özü də onun haqq**

olmağına bir sübutdur. Bizə vacibdir ki, onun əmrlərinə itaət edək. Camaatın arasında olan Təlhə, Zübeyr və Əqil dinarı almaqdan imtina etdilər və bununla da öz narazılıqlarını biruzə verdilər".

SƏKKİZDƏ BİRİN DOQQUZDA BİRƏ ÇEVRİLMƏSİ

Mövla Əli (ə) minbərdə xütbə oxuyarkən bir kişi ondan soruşdu:

- Bİr nəfər vəfat etmişdir, onun arvadı, atası, anası və iki qızı qalmışdır. Arvadının payı nə qədərdir?

Həzrət buyurdu:

- Onun payı səkkizdə-birdən doqquzda birə çevrilir.

Bu hadisə **"minbər məsələsi"** adı altında məşhurlaşdı.

Sərvi **"səkkizdə birin doqquzda birə çevrilməsi"** barəsində belə deyir: **"Ata ilə ananın mirasdan olan payı üst-üstə üçdə-bir, iki qızın payı üçdə-iki, arvadın payı da səkkizdə-birdir. Bu halda payların məcmusu birdən (səkkizdə bir qədər) artıq olur. Deməli, məxrəc iyirmi yeddidən bölünür və tərtiblə iyirmi yeddi paydan üçü qadına, on altısı iki qıza, səkkizi də ata-anaya bərabər şəkildə paylanır".**

Qeyd: Aydındır ki, bu cavab Əhli-sünnə əqidəsinə uyğun şəkildə verilmişdir. Onlar tərəkənin (mirasın) əslində artıq qalan payı və çatışmayan hissəsini bütün vərəsələrə bölürlər. Buna da **"ovl"** deyilir. Ovl şiə məzhəbində düzgün olmadığına görə İbn Şəhraşub bu rəvayətin izahında demişdir: **"Həzrət Əlinin (ə) cavabı ya sual şəklində, ya da sabiq xəlifələrin dediyi əsasda olmuşdur. Yaxud da sual edən şəxs məsələnin cavabını ovla etiqad bəsləyənlərin istəyi əsasında olmasını istəmişdir."**

ƏSHABİ-KƏHFİN YUXUSUNUN MÜDDƏTİ

Bir yəhudi Mövla Əlidən (ə) Əshabi-Kəhfin mağarada nə qədər yatması barəsində soruşdu. İmam Əli (ə) **"Kəhf"** surəsinin 24-cü ayəsini tilavət etdi:

"Onlar mağarada üç yüz il yatdılar və doqquz ildə artırıldı".

Yəhudi dedi:

- Bizim səmavi kitablarımızda üç yüz il qeyd olunmuşdur!

İmam buyurdu:

- Sizin iliniz şəmsidir, bizim ilimiz isə qəməri.

Müəllif: Şəmsi 365 gün olduğuna görə, üç yüz şəmsi il, qəməri illə üç yüz doqquz ilə bərabər olur. Bu barədə Əhli-Beytdən də bəzi rəvayətlər nəql olunmuşdur. Belə ki, İmam Sadiqdən (ə) soruşdular: **"Bir kişi başqası ilə bu əsasda müqavilə bağlayır ki, on insan boyu qədərində quyu qazıb on dirhəm alsın. O şəxs də yalnız bir insan qədərində quyu qazıb öz haqqını almaq istəyir. İmam (ə) buyurur: "On dirhəmi əlli beş yerə bölün. Birinci qamət bir pay, ikinci iki paydır ki, birinciyə əlavə olunduqda üç pay olur. Üçüncü qamət üç paydır ki, birinci və ikinci ilə cəm olduqda altı pay olur və s…"**

Qeyd: Bu bölgünün səbəbi budur ki, yer nə qədər çox qazılsa, iş də bir o qədər çətinləşir. İmam (ə) onun zəhmət haqqını yerin çətinliyini nəzərə alaraq bölmüşdür.

Bəli, hesab və fərizə elmində Mövla Əli (ə) hamıdan öndə gedir. Dost-düşmən də bu elmləri ondan öyrənmişdir. **"Tarixi-Təbəri"**də qeyd olunur ki, Haris Həmdani o Həzrətin fiqh, fərizə və hesab elmlərində iştirak edən görkəmli tələbələrindən olmuşdur. Şəbi deyir: **"Mən bu elmi Harisin yanında öyrənmişəm".**

ATMOSFER

Mövla Əli (ə) **"Siffeyn"** müharibəsinə getmək istəyəndə Göylərin və Yerin necə yaradılması, dağların necə inşa edilməsini göstərən bu duanı tilavət etdi: **"Pərvərdigara! Ey uca asimanların Pərvərdigarı! Yayılmaqdan qorunub saxlanan cəvvin (atmosferin) Pərvərdigarı! Sən onu (cəvvi) gecə və gündüzün gəlib-getmə yeri qərar vermisən".**

Şəhristani **"Əl-Heyətu vəl-İslam"** kitabında (səh.51) belə qeyd edir: **"Bu duada "cəvvin məkfuf" - dedikdə məqsəd budur ki, Yeri əhatə edən hava təbəqəsi öz-özlüyündə pərakəndə olmağı tələb və yayılmağa səy etdiyindən, onları müəyyən bir yerdə saxlamaq Allah-Təalanın qüdrət nişanələrindəndir.**

Eləcə də "əlləzi cəəltəhu muğizən lilləyli vən-nəhar" cümləsinin şərhində belə deyir: "Muğiz" kəlməsi suyu udan və onu özünə cəzb edən yer mənasındadır. Sanki o Həzrət gündüzü nur və gecəni qaranlıq mənasında bəyan etmiş və belə demişdir: "Pərvərdigara! Sən işığı və zülməti hava qatlarında – cəvvdə batırmısan və nurun cəvvdə batması nəticəsində gecə, qaranlığın da cəvvdə batması nəticəsində gündüz əmələ gəlir". O Həzrət belə fərz etmişdir ki, hava həm nuru, həm də zülməti udur. Hal-hazırda, uzun əsrlər keçdikdən sonra astronomlar spektroskop cihazının vasitəsilə kəşf etmişlər ki, atmosfer qatı öz tələbinə uyğun olaraq günəş şüarlarının müəyyən miqdarını udur və qalanını biz insanlar üçün buraxır. **Bu elmi kəşf fizikada onlar üçün minlərlə elm və sirri açmışdır. Lakin elm şəhərinin qapısı Əlidir (ə). Peyğəmbərdən (s) nəql olunan səhih rəvayətlərə əsasən, o, Həzrət Əliyə (ə) min elm qapısını açmışdır. Onların hər birindən də yenidən min elm qapısı açılır. Bəlkə də o Həzrətin bu möcüzəli kəlamı həmin elm qapılarından biridir ki, mühəqqiqlər və alimlər ondan minlərlə məsələni öyrənirlər.**

Allaha and olsun! Fəlsəfə fənlərini dərindən mənimsəmiş hər bir kəs o Həzrətin nurani kəlamlarına diqqət yetirsə, onun üçün hikmət və elm çeşmələri axmağa başlayar və Əli (ə) barəsində deyilən **"Əlinin kəlamı Xaliqin kəlamından aşağı, məxluqun kəlamından yuxarıdır"** sözünün doğruluğunu dərk edər.

NÜCUM (ASTRONOMİYA) ÖYRƏNMƏK

Mərhum Seyyid Rəzi **"Nəhcül-Bəlağə"**nin 76-cı xütbəsində belə qeyd edir: **"Əli (ə) xəvariclə müharibəyə gedəndə o Həzrətin dostlarından biri gəlib dedi: "Ulduzlar vəziyyəti pis göstərir. Sənin üçün qorxuram. Əgər bu gün hərəkət etsən, öz məqsədinə çatmaz, düşmənə qələbə çala bilməzsən!"**

Mövla Əli (ə) onu tənbeh edərək buyurdu:

- Yoxsa sən güman edirsən ki, yaxşı və pisi bilirsən və nəticədə camaatı doğru yola hidayət edirsən?! Hər kəs bu təsəvvüründə səni təsdiq etsə, Quranı təkzib etmiş olar. İstənilən şeylərə çatmaq və

xoşagəlməz şeyləri dəf etmək yolunda Mütəal Allahdan kömək istəməkdən ehtiyacsız olar! O zaman sənin sözünə əməl edənlər Allaha yox, sənə həmd-səna edərlər! Çünki, onları yaxşılıqlara və xoşluqlara çatdıran sən olursan. Onları xəsarətlərdən və ziyanlardan da sən amanda saxlayırsan! Nücumu (belə məqsədlər üçün) öyrənməkdən həzər edin! Onu yalnız quru və dərya yollarında istifadə etmək üçün öyrənin. Çünki bundan qeyri hallarda onun öyrənilməsi insanı kahinliyə tərəf çəkir. Münəccim kahin kimidir, kahin də sehrkar kimidir, sehrkar da kafir kimidir, kafir də cəhənnəm odundadır. Ey insanlar! Allahın adı ilə məqsədə doğru hərəkət edin!"

Müəllifdən: İbn Əsbat İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: **"Mən münəccim bir şəxs ilə bir torpaq sahəsində şərik idim. O, torpaq sahəsini bölməyi təxirə saldı, öz gümanına əsasən, yaxşı bir saatda xaric oldu və məni pis bir saatda çölə apardı ki, yaxşı pay ona düşsün. Sonra onun gümanı ilə belə bir saatda xaric olduq və yeri böldük. Təsadüfən torpağın yaxşı hissəsi mənə qismət oldu. Münəccim heyrətlə başına vurub deyirdi: "Mən indiyə qədər belə bir gün görməmişəm! Mən münəcciməm, səni pis saatda, özümü isə yaxşı saatda çıxartmışam. İndi görürəm ki, torpağın yaxşı hissəsi sənə qismət oldu!"**

İmam Sadiq (ə) buyurdu: **"İndi sənin üçün bir hədis nəql edim. Atam Rəsuli Əkrəmin (s) belə buyurduğunu nəql edir: "Hər kəs Allahdan gündüzün pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, günün əvvəlində fəqirlərə sədəqə versin. Hər kəs Allahdan gecə pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, gecənin əvvəlində sədəqə versin". Mən evdən çıxmaq istəyəndə sədəqə verdim. Bil ki, mənim bu etdiyim iş sənin münəccimliyindən qatqat yaxşı və faydalıdır."**

TƏBABƏT VƏ SAĞLAMLIQ

Mövla Əli (ə) buyurur:

- Balıq ətini ardıcıl yeməyin. Çünki bu bədəni əridib arıqladır.

- Qızmar havada qoz yemək bədəndaxili hərarəti qaldırar, bədəndə çiban əmələ gətirər. Onu qışda yemək böyrəkləri isidər və soyuqluğu dəf edər.

- Müsəlman hər vaxt zəif olsa, ət və süddən istifadə etsin.
- Bənövşə yeməklə qızdırmanın hərarətini aşağı salın.
- Axşam yeməyi yeməmək bədənin zəifləməsinə və xarab olmasına səbəb olar.
- İnək südü dərmandır, yağı şəfa bəxş edəndir. İnəyin piyi isə dərd və bəla gətirəndir.
- Hər kəs günün əvvəlində iyirmi bir dənə kişmiş yesə, heç vaxt xəstə olmaz.
- Alma yeyin, bu mədəni cilalayar.
- Armud yemək zəif qəlbi güclü, mədəni də pakizə edər.
- Sətər (mərzə; kəklikotu) mədə üçün kürk olur, dəsmalın kürkləri kimi.
- Yeməkdən qabaq azacıq duz yeyin. Əgər insanlar duzun xeyrini bilsəydilər, onu sınaqdan keçirilmiş təryakdan (zəhərin qarşısını alan maddədən) önə salardılar.
- Təxəlli vaxtı çox oturmaq babasil yaradar.
- Vəziləri ətin içərisindən çıxardın, çünki onları yemək cüzam damarını hərəkətə gətirər.
- Günəşin qarşısında həddən artıq qalmayın, çünki, sizin bədəninizin dərisini dəyişər, libası çürüdər və gizli xəstəlikləri aşkar edər.
- Rəngarəng və növbənöv yeməklər qarını böyüdər, xayalları süstləşdirər.

OĞLANIN HƏDDİ-BÜLUĞA ÇATMA ƏLAMƏTLƏRİ

Mövla Əli (ə) buyurur: **"Oğlan yalnız o vaxt həddi-büluğa çatır ki, onun döşlərində yumru əmələ gəlsin və qoltuğunun altından gələn iy hiss olunsun".**

Əskafi **"Nəqzu Osmaniyyə"** kitabında yazır: **"Əli ibn Abudullah ibn Abbas öz oğlundan on bir yaş böyük idi".**

İbn Hüzeyfə də **"Maarif"** kitabında yazır: **"Əmr ibn As öz oğlu Abdüllahdan on iki yaş böyük idi".**

Deməli onların biri 11 digəri 12 yaşda evlənmişlər

UŞAĞIN İNKİŞAFI

Mövla Əli (ə) buyurur: **"Körpə hər il öz barmaqları ilə dörd barmaq miqdarında inkişaf edir".**

YUMURTA QOYAN VƏ DOĞAN HEYVAN

Mövla Əli (ə) buyurur: **"Hansı heyvanın qulaqları başının içində olsa, yumurtlayandır, qulaqları eşiyə çıxsa, doğandır".**

ƏLƏ SÖYKƏNMƏK

Bir qadını Xəlifə Ömər ibn Xəttabın (r) yanına gətirdilər. Onun əri yaşlı bir kişi idi ki, qadınla yaxınlıq etdikdən sonra dünyadan getmişdi. Qadın da hamilə olmuş və bir oğlan uşağı dünyaya gətirmişdi. O kişinin (başqa arvaddan olan) oğlanları qadının zina etdiyini iddia edərək ona şahidlik etdilər (bununla qadının övladını ata irsindən məhrum etmək istəyidilər). Xəlifə göstəriş verdi ki, qadını daş-qalaq etsinlər.

Bunu eşidən Mövla Əli (ə) qadınla söhbət etdi. Qadın dedi:

- Ey Rəsulullahın əmisi oğlu! Mənim bir kağızım var! Xahiş edirəm buna baxın.

Mövla Əli (ə) kağızı oxuduqdan sonra onunla gələnlərə buyurdu:

- Bu qadın əri ilə evləndiyi, onunla yaxınlıq etdiyi vaxtı, eləcə də onun necəliyi bu vərəqdə qeyd olunub.

Sabahı gün Həzrət Əli (ə) həmin uşağın yaşıdlarını bir yerə yığdı, uşaqlar o qadının oğlu ilə oynamağa başladılar. Oyunu davam etdirən zaman Həzrət birdən hamısına buyurdu:

- Oturun!

Hamısı oturdu, sonra yenə **"qalxın!"** deyə fərman verdi. Bu zaman qadının oğlu qalxmaq istəyəndə iki əllərinə söykənərək qalxdı. Mövla Əli (ə) bu vəziyyəti müşahidə etdikdə oğlanı yanına çağırıb atasının mirasından ona irs verdi və onun qardaşlarının hamısına iftira atdıqları üçün həd vurdurdu.

Xəlifə dedi:

- Ya Əli, nə edirsən?!

Həzrət buyurdu:

- Oğlanın əllərinə dayanaraq qalxmasından atasının qoca və zəif olduğunu başa düşdüm. Bu bir daha göstərdi ki, o uşaq arvadın qoca ərindən dünyaya gəlmişdir.

TƏDBİR

Bir qadın özünün altı aylıq uşağını evin damında tək qoyur. Uşaq yavaş-yavaş hərəkət edərək damın novdançasına tərəf gəlir. Anası onu bu yerdə gördükdə çox iztirab və təşviş keçirirdi. Uşağı xilas etmək üçün nə qədər tədbir görürsə, onu qaytara bilmir. Qonşular nərdivan gətirdilər, lakin o da heç bir nəticə vermədi. Çünki novdança çox uzun və divardan çox aralı idi. Uşağın anası ağlayır, uşaq da ona baxıb ağlayırdı. Təhlükə də yaxın idi.

Oradan keçən Mövla Əli (ə) yaxına gəldi, bir anlığa uşağın üzünə baxdı. Bu zaman uşaq nəsə zümzümə edirdi, amma heç kəs onu başa düşmürdü. Mövla Əli (ə) buyurdu: **"Tez onunla eyni yaşda olan bir uşaq gətirin".**

Uşağı gətirdilər və o Həzrətin göstərişilə uşağı həmin uşaqla üzbəüz qoydular. İki uşaq bir-birinə baxır, uşaqlıq adətinə görə nə isə danışırdılar. Bu zaman novdançadakı uşaq geri qayıdıb evin qapısına gəldi. Beləliklə uşaq xilas oldu. Bu hadisə ilə əlaqədar camaat şadyanalıq etdilər.

CİNSİ İNSTİNKT

Mövla Əli (ə) buyurur: **"Allah şəhvəti on hissədən: doqquz hissəsini qadınlarda, bir hissəsini isə kişilərdə qərar vermişdir. Əgər Allah-Təala onlara şəhvətləri əndazəsində həya və iffət verməsəydi, nəticədə hər bir qadın on kişiyə bağlı olardı ki, bu da böyük fəlakətlərə gətirib çıxarardı".**

GÖZƏLLİK

Mövla Əli (ə) buyurur: **"Elə qadınlarla izdivac edin ki, gözləri iri, əlinin içi böyük, buğdayı rəngli, ortaboylu olsun. Əgər bu cür**

qadını seçdiyiniz zaman (ondan) razı olmasanız, onun mehriyyəsi mənim öhdəmədir".

Bu barədə məsum imamlarımızdan ümumi qanunlar və göstərişlər nəql edilmişdir

ŞƏRAB

- Hüseyn ibn Xalid deyir: **"İmam Əbul Həsəndən (ə) soruşdum ki, Peyğəmbəri-Əkrəmdən (s) bizə bir hədis gəlib çatıb. Onda deyilir: "Hər kəs şərab içsə, onun namazı qırx günə qədər qəbul olunmayacaq".**

İmam (ə) buyurdu:

- Düzdür.

- Nə üçün qırx gün olur, nə az, nə də çox olmur?

- Allah-Təala insanın xilqətini əndazədə yaratmışdır: qırx gün nüftə halında, qırx gün ələqə halında, qırx gün müzğə halında… Hər kəs şərab içsə şərab onun məşaşında (çeynəməsi mümkün olan yumşaq sümükdür) qırx gün - eynilə rüşeym halında bir halətdən digər halətə nəql olunma miqdarında - qalacaq. Bütün qidalar, yemək və içmək də belədir.

BALIQ

- İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: **"Balığın təzkiyə olunmuşmu, yoxsa özü ölmüş olduğunu bilmək üçün (onun təzkiyə olunması - sudan diri tutulmasıdır) onu suya atın. Əgər suyun üstündə arxası üstə qalsa, deməli özü ölmüşdür, əgər üzü üstə qalsa, təzkiyə olunmuşdur. Həmçinin əgər bir parça ət görüb onun təzkiyə olunmuş heyvandanmı, yoxsa özü ölmüş heyvandan olduğunu bilməsən, onun bir miqdarını odun üstünə qoy: əgər (isti vurduqda) yığılsa, təzkiyə olunmuşdur, əgər açılıb süst olsa, ölü heyvandır".**

- Həmçinin buyurmuşlar: **"Əgər balığın halal ətlimi, yoxsa haram ətli olduğunu bilməyirsənsə, əvvəlcə onun quyruğunu kəs,**

əgər onun daxilində yaşıl rəng gördünsə, əti haramdır, əgər qırmızıya çalırsa, əti halaldır".

- İmam Kazımdan (ə) belə nəql olunur: **"Əgər qadının adəti normal həddindən artıq olarsa, onun başına həna qoyulsa, əvvəlki vəziyyətinə qayıdar".**

- İmam Sadiq (ə) buyurur: **"Uşağın yeddi yaşında (süd) dişləri tökülür, on yaşında namaz qılmağa vadar edilir və yataq yerləri bir-birindən ayrı salınır, on dörd yaşında möhtəlim (özünü tanıma) olur, iyirmi iki yaşına qədər boy atır, iyirmi səkkiz yaşında əqli kamil həddə çatır, (bundan sonra) onun yalnız təcrübələri davam edir".**

BİR-BİRİNƏ YAPIŞAN İKİ UŞAQ

Xəlifə Ömər ibn Xəttabın (r) xilafəti dövründə iki uşaq bir-birinə yapışan halda doğuldu: biri diri, digəri isə ölü idi. Xəlifə dedi: **"Onları qılıncla kəsib bir-birindən ayırın."**

Mövla Əli (ə) isə göstəriş verdi ki, onları yan-yana qoyub ölənin üstünü torpaqla örtsünlər və həmin halda diriyə süd versinlər. Belə də etdilər. Bir neçə gündən sonra diriyə heç bir xəsarət dəymədən ölü uşaq ondan ayrıldı.

"SƏHM"İN MƏNASI

Bir nəfər öz mal-dövlətinin bir səhmini (ölümündən sonra xeyir işlərdə xərclənmək üçün) vəsiyyət etdi, sonra vərəsələr səhmin mənası barəsində ixtilafa düşdülər. Mövla Əli (ə) buyurdu: **"Onun mal-dövlətinin səkkizdə birini (vəsiyyət üçün) ayırın".** Sonra bu şərif ayəni tilavət etdi: **"Sədəqə səkkiz sinfə verilməlidir və onlardan hər birinə bir səhm düşür".**

"QƏDİM"İN MƏNASI

Bir nəfər özünün qədim qullarının azad edilməsinə dair vəsiyyət etdi. Onun vəsisi qədimin mənasını bilmədi. Həzrət Əli (ə) buyurdu: **"Hər qul altı ay onun mülkiyyətində olubsa, azad olunmalıdır".**

Sonra bu ayəni tilavət etdi: **“Ay üçün müəyyən mənzillər təqdir etdik (ki, ayın axırında) xurma salxımının (saplaqlarının) qurusu kimi olar”.** Xurma salxımının saplaqları, meyvəsi dərildikdən altı ay sonra quruyub nazikləşir. Deməli xurma saplaqları altı aydan sonra qədim olur…

“HİYN” KƏLMƏSİNİN MƏNASI

Bir nəfər **“bir hiyn”** (hiyn - zamana dəlalət edən kəlmədir) müddətində oruc tutmağı nəzir etmişdi. Mövla Əli (ə) ona buyurdu: **“Altı ay oruc tutmalısan. Dəlili də bu ayədir: “O, meyvəsini hər vaxtda Pərvərdigarının izni ilə verir”.** O (vaxt) da altı aydır.

“ŞEY” KƏLMƏSİNİN MƏNASI

Bir nəfər öz mal-dövlətindən bir **“şey”**i vəsiyyət etdi. Vəsilər şey kəlməsinin mənasını İmam Səccaddan (ə) soruşduqda o buyurdu: **“Şey” atam Əlinin (ə) kitabında altıda-birdir”.**

“SÜFLƏ”NİN MƏNASI

Bir nəfər Xəlifə Ömər ibn Xəttabın (r) yanına gəlib dedi:

- Arvadım mənə dedi ki, **“sən süfləsən! (yəni alçaqsan) Mən də ona dedim ki, əgər süflə olsam, sən boşanmalısan!”**

Xəlifə dedi:

- Əgər nağıl deyən, mərəkə qoparan adamları axtarırsansa süfləsən və arvadın səndən ayrılmalıdır.

Mövla Əli (ə) buyurdu:

- Xeyr, süflənin mənası belə deyil! Əgər sənin barəndə deyilən söz-söhbətlərə etinasızsansa, süfləsən.

"ZAMANI"IN MƏNASI

Bir nəfər **"bir zaman"** oruc tutacağına dair nəzir etmişdi. Mövla Əli (ə) buyurdu: **"Zaman beş ay, hiyn isə altı aydır".**

"LA ŞEYƏ" KƏLMƏSİNİN MƏNASI

Roma padşahının Müaviyədən yazılı şəkildə soruşduğu suallardan diri də **"la şeyə"** kəlməsinin mənası idi. Müaviyə onun mənasını bilmədi. Əmr As hadisədən xəbərdar olduqda dedi:

- Yaxşı bir atı satılmaq üçün Əlinin ordusuna göndər və göndərdiyin adama de ki, əgər atın qiymətini soruşsalar, de ki: **"la şeyə"**dir. Ümidvaram ki, müşkül bu yolla həll olunacaq.

Sonra bir nəfərə yaxşı bir at verib Əlinin (ə) ordusuna göndərdilər. Əli (ə) Qənbərlə birlikdə həmin kişinin yanından keçəndə Qənbərə buyurdu:

- Get atı o kişidən al!

Qənbər ona yaxınlaşıb dedi:

- Atı neçəyə satırsan?

Dedi:

- **"La şey"**ə.

Mövla Əli (ə) Qənbərə buyurdu:

- Atı ondan al!

O kişi dedi:

- Bəs mənim **"la şey"**imi kim verəcək?

Mövla Əli (ə) onu çölə apardı, ilğımı ona göstərdi və buyurdu:

- Bu **"la şey"**dir.

Kişi dedi:

- Haradan deyirsən?

Mövla Əli (ə) buyurdu:

- Quranda belə buyurulur: **"Susuz adam uzaqdan ilğımı görüb onun su olduğunu təsəvvür edir, ona yaxınlaşdıqda isə heç bir şey olmadığını görür".**

"QAMƏT"İN MƏNASI

İmam Sadiq (ə) buyurur: Atam **"Əlinin (ə) kitabında qeyd olunur ki, "bir qamət" bir zira, iki qamət iki ziradır".**

ƏVƏR (BİR GÖZLÜ)

Bir kişi Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Mən həm sizi sevirəm, həm də sizin filan düşmənizi.

Mövla Əli (ə) buyurdu:

- Sən indi əvərsən (bir gözlüsən), ya tamamilə kor ol, ya tamamilə görən (gözü açıq).

HƏCƏRUL-ƏSVƏDİN FAYDASI VƏ ZİYANI

Xəlifə Ömər ibn Xəttab (r) Həcərül-Əsvədi öpən zaman ona xitab edərək dedi:

- Bilirəm ki, sən adi bir daşsan və bir kəsə nə zərər çatdırırsan nə fayda. Əgər Peyğəmbərin (s) sənin öpdüyünü görməsəydim, heç vaxt səni öpməzdim!

Mövla Əli (ə) buyurdu:

- Bu daşın həm ziyanı var, həm də xeyri!

Xəlifə dedi:

- Necə?!

Mövla Əli (ə) buyurdu:

- Allah bəni-Adəmdən əhd-peyman aldığı zaman onlar üçün bir əhd yazdı, həmin daş da o əhdi özünə uddu. Qiyamət günündə də möminin vəfasına və kafirin inkar etməsinə dair şahidlik edəcək. Bu da Həcərül-Əsvədi ləms edən zaman oxunan duanın mənasıdır: **"Pərvərdigarə! Mən Sənə iman gətirir, Sənin kitabını təsdiq edir və Sənin əhdinə vəfalı qalıram".**

KARLIĞIN YOXLANMASI

Bir nəfər böyük bir sümük parçasını bir kişinin qulağına çırpdı. Vurulan şəxs zərbə nəticəsində eşitmə qabiliyyətini itirdiyini iddia etdi.

Mövla Əli (ə) buyurdu:

- Bir il ərzində onu nəzarət altında saxlayın və bəzən ona qəfildən bir şey edin. Əgər eşitməsi sübuta yetərsə, yaxud iki adil buna şəhadət verərsə, diyə ala bilməz, əks halda eşitməməyinə dair and içərək qulağının diyəsini almalıdır.

Bəziləri dedilər:

- Ya Əmirəlmöminin! Əgər (karlığından) bir il keçdikdən sonra onun eşitməsi sübut olunarsa, hökmü nədir?

İmam (ə) buyurdu:

- Bunun heç bir təsiri yoxdur. Ola bilsin ki, Allah eşitmə qabiliyyətini bir ildən sonra (yenidən) ona mərhəmət etsin.

Həzrət İmam Rzanın (ə) Əlidən (ə) nəql etdiyi rəvayətin davamında buyurulur: **"Əgər iddia olunan şey bütün eşitmə duyğularının əldən verilməsi olarsa… ağır yuxuya gedənə qədər bir müddət gözləyin sonra onun üstünə çığırın".**

GÖRMƏ, İYBİLMƏ VƏ DANIŞIQ QABİLİYYƏTİNİN YOXLANMASI

Mövla Əlidən (ə) soruşurlar ki, başına zərbə vurulmuş. bir adam iddia edir ki, görmə, iybilmə və danışıq qabiliyyətini itirmişdir.

Mövla Əli (ə) buyurdu:

- Əgər o düz deyirsə, ona üç diyə verilməlidir.

Soruşurlar:

- Bunu necə bilmək olar?

Mövla Əli (ə) buyurdu:

- İybilmə qabiliyyətini itirib, itirməməsini belə yoxlamaq olar ki, yarı yanmış vəziyyətdə olan bir parçanı onun burnunun altına qoyarlar, əgər o şəxs öz yerində dayanıb hərəkət etmirsə, düz demişdir, əgər başını uzaqlaşdırsa və gözlərindən yaş axsa yalan demişdir.

Görmə qabiliyyətini belə yoxlamaq olar ki, gözlərini günəşin qarşısında açıq saxlayın, əgər ixtiyarsız olaraq gözlərini qırpsa, yalan demişdir, əks halda düz demişdir.

Danışıq qabiliyyətini də belə yoxlamaq olar ki, dilinə bir iynə batırsınlar, əgər qırmızı qan çıxsa yalan demişdir, əgər qara qan çıxsa düz demişdir.

GÖRMƏ QABİLİYYƏTİNİN ZƏİFLİYİ

Bir nəfər digər bir kişinin gözünə zərbə vurmuş, nəticədə onun görmə qabiliyyəti zəifləmişdi. Amma gözünün quruluşuna xəsarət yetişməmişdi. Həzrət Əli (ə) yoxlamaq üçün bir parça ilə onun sağlam gözünü bağlatdı. Bir nəfərə də göstəriş verdi ki, yumurtanı eyibli gözünün müqabilində tutub yavaş-yavaş ondan aralansın. Nəhayət müəyyən qədər aralandıqda vurulan şəxs iddia etdi ki, onu görmür. Həmin nöqtəyə işarə qoyub sağlam gözünü də həmin qaydada yoxladı. Sonra bu iki məsafənin arasındakı fərqi aydınlaşdırdı və məlum oldu ki, onun bir gözü zəifdir.

HƏR İKİ GÖZÜN ZƏİFLİYİ

Bir nəfərin başına zərbə vurmuşdular. O Mövla Əlinin (ə) yanına gəlib bu zərbə nəticəsində hər iki gözünün zəiflədiyini iddia etdi. Həzrət (ə) onu bir yerdə oturtdu. Sonra bir yumurta ilə görmə qabiliyyətini dörd tərəfdən yoxladı. Hər dörd tərəfdə bərabər olduğu halda onun iddiasında düzgün olduğunu bildi və qəbul etdi. Sonra onunla eyni yaşda olan bir kişini çağırıb onun yanında oturtdu, əvvəlcə onun gözünün görmə qabiliyyətini dörd tərəfdən yoxladı, sonra iki məsafənin fərqini təyin etdi və vurulan şəxsə həmin miqdarda diyə verdirdi.

LAL ADAMIN AND İÇDİRİLMƏSİ

Mövla Əlidən (ə) lal adamın necə and içdirilməsi haqda soruşduqda o buyurdu:

- And olsun Allaha ki, camaatın ehtiyaclarının hamısını aradan qaldırmayınca, məni dünyadan aparmadı. Mənim üçün bir Quran gətirin!

Quran gətirdilər. İmam (ə) lal şəxsə üz tutub buyurdu:

- Bu nədir?

Lal kişi başını göyə qaldırıb Quran olduğunu başa saldı. İmam buyurdu:

- Onun qəyyumunu bura çağırın!

Qardaşını gətirdilər. İmam (ə) o kişini lal qardaşının kənarında oturtdu və buyurdu:

- Ey Qənbər! Mənim üçün qələm-kağız gətir.

Qənbər qələm-kağız gətirdi, sonra lal kişinin qardaşına buyurdu ki, qardaşına de sənlə düşmənin arasında qazi Əlidir. O kişi məsələni qardaşına başa saldı. Həzrət lalın boynundan vizrü-vəbalı götürmək üçün bir dua yazdı və onu suya salıb, buyurdu ki, bu suyu içsin. Lakin lal kişi suyu içməkdən imtina etdi. Bu zaman İmam Əli (ə) onu öz borcunu qaytarmağa imtiyazlı etdi.

ZALIM ADAMA AND İÇDİRMƏK

Mövla Əli (ə) buyurub: **"Əgər zalım bir adamı and içdirmək istəyirsinizsə, ona deyin ki, Allahın hövl və qüvvəsindən bezarlıq-yzaqlıq etsin. Əgər o, yalandan and içsə, dərhal cəzalandırılar. Amma əgər "yeganə Allaha And olsun!" - deyə and içirsə, onun cəzası dərhal çatmaz. Çünki o, Allahın yeganəliyini etiraf etmiş olur".**

TƏDBİR

Bir nəfər Mövla Əlinin (ə) yanına gəlib dedi:

- Qarşımda bir qədər xurma var idi, birdən arvadım onlardan birini götürüb yemək istədi. Mən and içdim ki, xurmanı yesə də, yeməsə də onu tələq verim.

Mövla Əli (ə) buyurdu:

- Onun yarısını yesin, yarısını isə yeməyib atsın. Bu zaman sən öz andından xilas olarsan.

ÇƏTİN AND

Bir nəfər and içmişdi ki, əgər Ramazan ayında gündür həyat yoldaşı ilə yaxınlıq etməsə, ona üç tələq versin. Sonra Mövla Əlinin (ə) yanına gəlib əhvalatı ona danışır. Həzrət buyurdu:

- Onu səfərə apar və öz andına da əməl et.

DƏMİR QAPININ ÇƏKİSİ

Bir neçə dəmirçi müştərinin təyin etdiyi ölçüdə dəmir qapı hazırladılar. Müştərilər qapını evə aparanda yolda bir nəfərlə rastlaşdılar. O qapının ağırlığı barəsində soruşduqda onlar dedilər ki, ağırlığı filan qədərdir. Amma həmin şəxs dedi ki, bunun ağırlığı heç vaxt siz deyən qədər ola bilməz Alıcılar qayıdıb satıcıdan qapının qiymətinin azaltmasını tələb etdilər. Lakin satıcı bu işdən imtina etdi. Aralarında münaqişə başlandı və onlar Mövla Əlinin (ə) yanına getdilər. Mövla Əli (ə) buyurdu:

- Qapını çaya tərəf aparın! Onu qayığa qoyun və qayığı suya batdığı miqdarda nişanlayın!

Bu işi gördükdən sonra o Həzrət buyurdu:

- İndi qapını qayıqdan yerə qoyub, həmin qayığa, həmin miqdarda suya qərq olana qədər çəkisi məlum olan xurma yükləyin. Qapının ağırlığın xurmanın ağırlığı ilə təyin edərsiniz.

QURANDAN DƏRMAN

Bir nəfər Mövla Əlinin (ə) yanına gəlib xəstəliyindən şikayət etdi. İmam (ə) ona buyurdu:

- Arvadının mehriyyəsindən bir dirhəm al və onunla bir qədər bal alıb yağış suyu ilə qarışdırıb ye.

O şəxs Mövla Əlinin (ə) göstərişinə əməl edəndən sonra şəfa tapdı.

Bu məsələni eşidənlər onun sirri ilə maraqlanıb dedilər:

- Ya Əli! Bu barədə Peyğəmbərdən (s) bir hədis nəql olunmuşdumu?

Mövla Əli (ə) buyurdu:

- Xeyr! Mən onu Quran ayələrindən əldə etmişəm. Belə ki, bir ayədə buyrulur:

"Əgər onlar öz mehriyyələrindən bir miqdarını tam razılıqla sizə versələr, yeyin, halal xoşunuz olsun!"

Başqa bir ayədə isə buyrulur:

"Onların (bal arılarının) qarınlarından rəngləri müxtəlif olan içməlilər çıxır ki, onda camaat üçün şəfa vardır".

Digə bir ayədə də buyrulur:

"Biz asimandan bərəktli su nazil etdik".

Bu ayələrin hökmünə əsasən halal-xoş olmaq, şəfa və bərəkət bu üçlükdə cəm olmuşdur. Bunları oxuduqdan sonra hər hansı bir xəstənin onların vasitəsilə sağalacağına ümidvar oldum.

HESAB

Mövla Əlidən (ə) soruşdular:

- Allah-Təala bu qədər məxluqatdan necə hesab çəkəcək?!

Mövla buyurdu:

- Onların bu qədər çoxluğu ilə belə, onlara necə ruzi verirsə.

Soruşdular:

- Onlar Allahı görmədiyi halda Allah onlardan necə hesab çəkəcək?!

Buyurdu:

- Allahı görmədikləri halda Allahın onlara ruzi verdiyi kimi.

HAQQ İLƏ BATİLİN FƏRQİ

Mövla Əli (ə) buyurur:

- Haqq ilə batil arasında dörd barmaq qədər məsafə var.

Bunun mənasını soruşduqda Həzrət dörd barmağını bağlı şəkildə qulağı ilə gözü arasında qoydu və buyurdu:

- Batil odur ki, **"eşitdim"** deyəsən, haqq isə odur ki, **"gördüm"** deyəsən.

YERLƏ GÖYÜN ARA MƏSAFƏSİ

Mövla Əlidən (ə) yerlə göy arasındakı məsafə barəsində soruşulduqda buyurdu: **"Gözün işlədiyi qədər və zülmə məruz qalanın duası qədər"**

SUYUN DADI

Mövla Əlidən (ə) suyun dadının necə olması barəsində soruşulduqda buyurdu: **"Su həyat dadı verir".**

PEYĞƏMBƏR (S) ƏLİ (Ə) BARƏSİNDƏ DUA ETDİ

Peyğəmbərin (s) dövründə bir nəfərin öküzü başqasının ulağını vurub öldürmüşdü. Peyğəmbər (s) səhabələrlə görüşəndə şikayət edənlər o Həzrətə məsələni dedilər. Ömər (r) və Əbu Bəkr (r) də səhabələrin arasında idi. Peyğəmbər (s) Əbu Bəkrə (r) üz tutub buyurdu:

- Bunların arasında mühakimə et!

Əbu Bəkr (r) dedi:

- Heç bir zəmanət yoxdur, çünki bir heyvan başqa bir heyvanı öldürmüşdür.

Peyğəmbər (s) Ömər ibn Xəttaba (r) dedi:

- Sən qəzavət et!

Ömər (r) də Əbu Bəkrin (r) sözünü təkrarladı.

Peyğəmbər (s) Əliyə (ə) üz tutub buyurdu:

- Onların arasında qəzavət et!

Mövla Əli (ə) dedi:

- Əgər öküz ulağın bağlandığı yerə daxil olmuşsa, öküzün sahibi ulağa zamindir. Əks halda isə zamin deyil.

Bu zaman Peyğəmbər (s) əllərini göyə qaldırıb dedi:

- Həmd olsun o Allaha ki, mənim ailəmdən peyğəmbərlərin qəzavəti kimi hökm edən bir şəxs qərar vermişdir.

ƏDALƏTLİ HAKİM GƏLDİ!

Cəzərənin **"Kamil"** kitabında belə qeyd olunur: **"Əli (ə) Həmadan qəbiləsindən çıxdı, yolda iki nəfərin bir-birilə savaşdığını gördü. Onları bir-birindən ayırıb yoluna davam etdi. Birdən kiminsə "kömək edin!",**-deyə səsləndiyini eşitdi. Dərhal ona tərəf gedib buyurdu: **"Kömək gəldi!"** Sonra iki nəfəri gördü. Onların biri digərindən şikayət edərək deyirdi:

- Ya Əmirəlmöminin! Bir köynəyi bu kişiyə yeddi dirhəmə satdım və şərt etdim ki, mənə salamat və eyibsiz dirhəm versin. O isə mənə bu eyibli dirhəmləri verdi. Mən onu almaqdan imtina etdim və salamat dirhəm istədim. O isə mənim üzümə bir sillə vurdu.

Mövla Əli (ə) sillə vurana buyurdu:

- Düz deyirmi?

- Bəli.

Mövla Əli (ə) buyurdu:
- Öz şərtinə əməl et!
Sonra vurulana buyurdu:
- Sən də qisasını al!
Kişi dedi:
- Bəlkə əfv edim?!
Mövla Əli (ə) buyurdu:
- İxtiyar sahibisən.
Sonra öz ətrafındakılara buyurdu:
- Onu (sillə vuranı) tutun.
Bir nəfər onu tutdu və Həzrət ona on beş qamçı zərbəsi vurub buyurdu:
- Bu, o kişiyə qarşı etdiyin hörmətsizliyin cəzasıdır!

ƏLƏQƏNİN DİYƏSİ

Bir nəfər hamilə qadının qarnına bir zərbə vurdu, nəticədə onun bətnində ələqə şəklində olan rüşeym siqt (ziyan elədi) oldu. Mövla Əli (ə) buyurdu:
- O kişi ələqənin diyəsinin – qırx dinarı o qadına verməlidir. Sonra bu ayəni tilavət etdi: ***"Həqiqətən biz insanı palçıqdan yaratdıq, sonra onu möhkəm bir yerdə (ana bətnində) qərar verdik, sonra o nütfəni bir parça qan şəklinə saldıq, sonra o qan parçasını əzilmiş ət şəklinə saldıq, sonra o əti sümüklərə döndərdik, o sümükləri də ətlə örtdük, daha sonra onu yeni bir yaradılışda qərar verdik (insan şəklinə salaraq ona ruh verdik). Xəlq edənlərin ən yaxşısı olan Allah necə də əzəmətlidir!".***
Sonra buyurdu:
- Nütfənin diyəsi iyirmi dinar, ələqənin diyəsi qırx dinar, müzğənin diyəsi altmış dinar, xilqət tamamlanmazdan qabaqkı sümük bağlanan rüşeymin diyəsi səksən dinar, ruh daxil olmamışdan qabaq kamil rüşeymin diyəsi yüz dinar, ruh daxil olduqdan sonra isə min dinardır.

ÜÇ ƏMƏLİN NƏTİCƏSİ

Mərhum Seyid Rəzi **"Xəsais"** kitabında Mövla Əlinin (ə) belə buyurduğunu qeyd edir: **"Üç əməl vardır ki, onların nəticəsi onları**

görən şəxsə aiddir: zülm etmək, əhd peymanı pozmaq, məkr və hiylə işlətmək. Belə ki, "Yunus" surəsinin 22-ci ayəsində buyrulur: ***"Ey insanlar! Sizin inadkarlıq və zülm etməyiniz elə sizin özünüzədir".***

"Fəth" surəsinin 9-cu ayəsində də buyrulur: ***"Hər kəs əhd peymanı pozsa, yalnız öz əleyhinə pozmuş olur".***

"Fatir" surəsinin 42-ci ayəsində belə deyilir: ***"Pis hiylələr yalnız öz əhlini əhatə edər".***

SARI AYAQQABI

Mövla Əli (ə) buyurur: **"Sarı ayaqqabı geyinmək qəm-qüssəni azaldır".** Çünki Allah-Təala belə buyurub: ***"O, sarı bir inəkdir ki, ona nəzər yetirənləri şadlandırar və sevincli edər".***

İLAHİ İMTAHAN

Mövla Əli (ə) xəstələnmişdi. Bir neçə nəfər o Həzrətin yanına gəlib soruşdular:

- Necə sübhə çıxdın?

Mövla Əli (ə) buyurdu:

- Pislik və şər əsasında.

Onlar dedilər:

- Sübhanəllah! Sizin kimi bir şəxs də belə sözlər deyər?!

Həzrət buyurdu:

- Allah-Təala buyurur: ***"Biz sizi xeyir və pis şeylərə mübtəla edərək imtahana çəkirik (və ölüm zamanı) Bizə tərəf qayıdarsınız".*** (**"əl-Ənbiya"**, 34) Həqiqətən **"xeyir"** sağlamlıq və ehtiyacsızlıq, **"şər"** isə imtahan və sınaq olduğuna görə fəqirlik və xəstəlikdir.

OSMAN (r) AYAĞA QALXIR…

Hill əhlindən bir neçə nəfər bir kəkliyi ovlayıb, ətini kabab edərək ehram halında olan Xəlifə Osmana (r) gətirdilər. Osman (r) dedi:

- Bunu biz ovlamamışıq, əksinə muhrim olmayan şəxslər onu ovlayıb bizim üçün gətirmişdir. Deməli, onu yeməyin bizim üçün heç bir maneəsi yoxdur.

Onlardan bir nəfər dedi:

- Əli (ə) belə ov ətinin yeyilməsini caiz bilmir.

Osman (r) Əlini (ə) çağırmaq üçün bir nəfər göndərdi. O Həzrət xeyməyə daxil olanda Osman (r) ona dedi:

- Sən bizimlə çox müxalifət edirsən!

Mövla Əli (ə) buyurdu:

- Sizin içərinizdə elə kəsləri Allaha and verirəm ki, Peyğəmbərə (s) beş ədəd dəvə quşu yumurtası gətirilən zaman (həzrətin buyurduğu sözlərə) şahid idilər və o Həzrətin **"Biz ehram halındayıq, bunları Hilldəki muhil olanlara verin"**,- deyə buyurduğunu eşitmişdilər.

Bu zaman Peyğəmbər (s) səhabələrindən on iki nəfər **"bəli, bu düzdür!"**,- deyə şəhadət verdilər. Bu zaman Osman (r) ayağa qalxıb öz xeyməsinə getdi, yeməkləri isə Hill əhlinə saxladı.

MÖVLA ƏLİNİN (Ə) FƏDAKARLIQ MƏQAMI

Mövla Əlinin (ə) İslamda çəkdiyi zəhmətlər nəinki müasir alimlər, hətta qədim və orta İslam tədqiqatçıları tərəfindən də layiqincə araşdırılmamışdır. Onlar İmam Əlinin (ə) göstərdiyi fədakarlığı adi əsgərlərlə eyni səviyyədə tutaraq böyük bir yanlışlığa yol vermişlər. Bütün bunları nəzərə alıb İmam Əli (ə) haqqında Əhli-sünnə və şiə alimlərin bəzilərinin fikirlərini onların öz tarixi mənbələrindən istifadə etməklə burada əks etdirməyi zəruri hesab edirik.

İbn Əsir öz tarixində yazır: **"Peyğəmbər (s) hər tərəfdən Qureyş qoşununun dəstələrinin hucumuna məruz qaldı. Hər bir dəstə Peyğəmbərə (s) həmlə etdikdə Əli (ə) də Peyğəmbərin (s) fərmanı ilə onların üstünə həmlə edirdi, bəzilərini öldürməklə onların dağınıq şəkilə düşməsinə səbəb olurdu. Bu hadisə Ühüddə bir neçə dəfə təkrar olundu. Bu fədakarlıq xatirinə vəhy elçisi – Cənab Cəbrail nazil oldu və Peyğəmbərin (s) yanında Əlinin (ə) comərdliyini tərifləyib dedi: "Bu, onun özündən göstərdiyi fədakarlığın ən yüksək həddidir". Allahın rəsulu da vəhy elçisinin sözünü təsdiq edib dedi: "Mən Əli ilə, Əli də mənimlədir".**

Sonra meydanda bir səs eşidildi: **"Yoxdur Əli kimi cavan, yoxdur Zülfüqar kimi kəskin qılınc".**

İbn Əbil Hədid bu hadisəni daha da ətraflı şərh edib deyir: **"Peyğəmbəri öldürmək üçün hücüm edən dəstə əlli nəfərə yaxın idi. Əli (s) də piyada olduğu halda, onları pərən-pərən salırdı. Hətta qılınc davam gətirmir, tez-tez sınırdı. Rəvayətə görə, Həzrət Peyğəmbər (s) Zülfüqar adlı qılıncı məzh o davada Əliyə (ə) verdi".**

Yuxarıda qeyd etdiyimiz hədis də mələklərin dilində - xüsusən Cənab Cəbrailin təkrar-təkrar oxuduğu nəğmə idi.

Böyük fədakarlıq göstərən Həzrət Əli (ə) pərvanə kimi Peyğəmbərin (s) başına dolanır, təkrar-təkrar yaralansa belə Peyğəmbərə (s) bir xətər toxunmağa əsla imkan vermirdi.

Dəfələrlə Həzrət Peyğəmbər (s) əlini onun yaralarının üstünə çəkir və dua edirdi.

Zülfüqarın Həzrət Əliyə (ə) hansı şəraitdə verilməsini Şeyx Səduq öz **"Xisal"** kitabında belə nəql edir: **"Əsasən Əli (ə) Peyğəmbəri (s) müdafiə etmək yolunda o qədər mətinlik və fədakarlıq göstərmişdir ki, nəhayət qılıncı sınmışdı. Peyğəmbər (s) öz qılıncını - Zülfüqarını ona verdi ki, Allah yolundakı cihadı davam etdirsin".**

İbn Əbil Hədidin yazdığına görə, Peyğəmbərin (s) köməkçilərinin əksəriyyəti qaçdığından O Həzrətə qarşı düşmən təzyiqi daha da çoxaldı.

Bəni-Kənanə və Bəni-Əbdi Mənaf qəbilələrindən bir qrup Peyğəmbərə (s) tərəf hücüm etdi. Onların arasında dörd nəfər adlı–sanlı cəngavər var idi. Bu vaxt İmam Əli (ə) pərvanə kimi Peyğəmbərin (s) ətrafına dolanır və düşmənin ona yaxınlaşmasının qarşısını alırdı. Əlli nəfərdən artıq olan bir dəstə Peyğəmbəri (s) öldürmək qəsdinə gəlmişdilər. Hər dəfə Həzrət Əlinin (s) şiddətli hucumları onları dağıdarkən düşmənlər başqa bir nöqtəyə yığışıb yenidən həmlə edirdilər. Bu həmlələrdə o dörd nəfər cəngavər və daha on nəfər fəal döyüşçü İmam Əli (ə) tərəfindən qətlə yetirildi. Yuxarıda qeyd etdiyimiz kimi, vəhy mələyi - Cəbrail-Əmin Mövla Əlinin (ə) göstərdiyi bu rəşadətini səmavi nəğmələrlə oxuyur və Peyğəmbəri (s) təbrik edirdi.

Keçmiş müharibə səhnələrində bayraqdar çox böyük bir rütbəyə malik idi və həmişə bayraq cəsur, qorxmaz və qüvvətli şəxslərə tapşırılırdı. Bayraqdarın mətin olması başqa cəngavərlərin də yüksək ruhiyyədə olmasına səbəb olurdu. Əsgərlərə ruhi və mənəvi zərbə

dəyməsin deyə, bir neçə nəfər bayraqdar təyin olunurdu ki, əgər biri öldürülsə, digəri bayrağı əlinə alıb hərəkət etsin.

Qureyş, müsəlmanların Bədr döyüşündəki igidlik və şücaətlərindən agah idi. Buna görə də öz cəsur əsgərlərindən çoxunu bayraqdar təyin etmişdi. Qureyşin bayraqdarlıq məsuliyyətini öhdəsinə götürən ilk şəxs Təlhə ibn Təlhə idi. O, həmçinin Əlinin (ə) zərbəsi ilə öldürülən ilk şəxs idi. O öldürüləndən sonra Səid ibn Təlhə, Osman ibn Təlhə, Şafe ibn Təlhə, Haris ibn Əbu Təlhə, Əziz ibn Osman, Abdullah ibn Cəmilə, İtarə ibn Şərahbil və Sovəb növbə ilə bayrağı götürmüş və hamısı da Mövla Əlinin (ə) qılınc zərbəsi ilə öldürülmüşdür.

Bu fərdlərin öldürülməsi ilə Qureyş ordusu qaçmağa başladı və beləliklə, müsəlmanların ilk qələbəsi İmam Əlinin (ə) fədakarlığı nəticəsində əldə edildi. (**"Təfsir-Qummi"**, səh. 103; **"İrşad-Mufid"**, səh. 115; **"Bihar"**, cild, 20 səh 15).

Mərhum Şeyx Mufid də öz **"İrşad"** kitabında İmam Sadiqdən (ə) nəql edir ki, Qureyşin bayraqdarları doqquz nəfər idi və hamısı da bir–birinin ardınca Əlinin (ə) zərbəsi ilə öldürüldü.

İbn Hişam öz **"Sirə"**sində adları çəkilənlərdən əlavə, başqalarının da adını qeyd etmişdir. Onun dediyinə görə, həmin şəxslər hələ ilk həmlədə Mövla Əlinin (ə) zərbələri ilə öldürülmüşlər. (İbn Hüşam, **"Sirə"**, cild, 1, səh. 81- 84).

Səd Vəqqasın, Müaviyənin hüzurunda Əmirəlmöminin (ə) barəsində xatırlatdığı üç fəzilətdən biri haqqında söhbət etdik, qalan iki fəzilət barəsində də qısaca söz açmağımız daha gözəl olar.

İmamın (ə) fəzilətlərindən biri budur ki, bütün döyüşlərdə Peyğəmbərlə (s) yanaşı həm də onun bayraqdarı olmuşdur. Amma Təbuk qəzvəsində iştirak etməmiş, Peyğəmbərin (s) fərmanı əsasında Mədinədə qalmışdır. Çünki Peyğəmbər (s) yaxşı bilirdi ki, münafiqlər Mədinədən xaric olmağını bilib üsyan etmək qərarına gələcəklər. Buna görə də Əliyə (ə) buyurdu: **"Sən mənim Əhli–Beytimin, qohum–əqrabamın və mühacirlərin himayəçisi olmalısan, bu işə mən və səndən başqa heç kimin səlahiyyəti yoxdur".**

İmam Əlinin (ə) Mədinədə qalması münafiqlərin planını pozdu. Buna görə də düşmənlər Əlinin (ə) Mədinədən çıxması üçün başqa bir tədbir töküb plan cızdılar. Beləliklə, şaiyə buraxdılar ki, **"Peyğəmbərlə (s) Əlinin (ə) münasibətləri pozulmuşdur. Əli (ə) şiddətli istini və yolun uzaq olmasını bəhanə gətirməklə Allah yolunda vuruşmaqdan imtina etmişdir".**

Hələ Peyğəmbər (s) Mədinədən çox da uzaqlaşmamışdı ki, bu şaiyə Mədinədə yayıldı. İmam (ə) onların bu töhmətinə cavab vermək üçün Peyğəmbərin (s) hüzuruna gəlib əhvalatı ona söylədi. Peyğəmbər (s) öz məşhur tarixi cümləsi ilə Əliyə (ə) təsəlli verib buyurdu: **"Razı deyilsənmi ki, mənimlə, Harunun Musa ilə olan münasibətində olasan? Amma bir fərqlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur".**

Bu hədisin şərhi ondan ibarətdir ki, Musa (ə) ilə Harun (ə) hər ikisi qardaş və eyni zamanda peyğəmbər idilər. Həzrət Peyğəmbər (s) də Mövla Əlinin (ə) onun qardaşı olduğunu, lakin peyğəmbər olmadığını bildirmək istəyirdi. Bu hədisə **"Hədisul-Mənzilət"** deyilir. Qeyd etdiyimiz kimi, Harunun (ə) malik olduğu bütün fəzilətlər eyni ilə Əliyə (ə) də mənsub idi. Bu hədis həm də İslamda olan **mütəvatir** hədislərdəndir, onu hədisçilər və sirə yazanlar öz kitablarında dönə-dönə qeyd etmişlər.

Səd Vəqqasın zikr etdiyi üçüncü məsələ Peyğəmbərin (s) Nəcran məsihiləri ilə etdiyi mübahələ məsələsidir. Onlar məsihiyyətin batil əqidələri barəsində Peyğəmbərlə (s) müzakirə apardıqdan sonra İslamı qəbul etmək istəmədilər. Amma mübahələ (yəni yalançının lənətlənməsi üçün Allaha dua etmək) üçün hazır olduqlarını elan etdilər.

Nəhayət, mübahələ vaxtı gəlib çatdı. Həzrət Peyğəmbər (s) öz yaxın adamlarının arasından yalnız dörd nəfəri bu tarixi hadisədə iştirak etmək üçün təyin etdi. Bu dörd nəfər Həzrət Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) idilər. Çünki bütün müsəlmanların arasında bu dörd nəfərdən pak, möhkəm imanlı başqa şəxslər yox idi.

Peyğəmbər (s) evindən mübahələnin icra olunduğu yerə qədər olan məsafəni xüsusi bir vəziyyətdə getdi. O, nəvələri - Hüseyni (ə) qucağına almış, Həsənin (ə) isə əlindən tutmuşdu. İmam Əli (ə) və Fatimə (ə) də onun ardınca gəlirdilər. Həzrət Peyğəmbər beləcə mübahələ yerinə qədəm qoydu. Üzünü Əhli-Beytinə tutub dedi: **"Mən nə vaxt dua etsəm, o zaman siz də "amin" deyin".**

Yəhudilərin yepiskopu **"Üsğof-Əzəm"** yanındakılardan soruşdu: **"Peyğəmbəri tanıyıram, onunla gələnlər kimlərdir?"** Ona başa saldılar ki, qızı Fatimə (ə), əmisioğlu və kürəkəni Əli (ə), iki nəvəsi Həsən (ə) və Hüseyn (ə).

Bu sözləri eşidən yepiskop vahiməyə düşərək dedi: **"Bu Mühəmməd haqq Peyğəmbərdir. Əgər o haqlı olmasaydı, bu həlakət**

(ölüm) meydanına öz yaxınlarını – ailə üzvlərini gətirməzdi. Biz elə üzləri müşahidə edirik ki, əgər mübahələ üçün Allahın dərgahına üz tutsalar, bu biyaban yandırıcı cəhənnəmə dönər və əzabın şölələri Nəcrana qədər gedib çatar".

Buna görə də onlar bu mübahələdən sərf-nəzər edib cizyə vermək məcburiyyətində qaldılar.

Ayişə (r) deyir: **"Peyğəmbər (s) mübahələ günündə özü ilə olan dörd nəfəri əbasının altına çəkib bu ayəni tilavət etdi: Həqiqətən Allah istəyir ki, bütün pislikləri siz Əhli-beytdən uzaqlaşdırsın və sizi pak-pakizə etsin".**

Zəməxşəri deyir: **"Mübahələnin sərgüzəşti və bu ayənin məfhumu "Əshabi-Kisa"**nın (**"Əshabi-Kisa" Peyğəmbər (s), Həzrət Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynə (ə) verilən addır, (yəni Ali-Əba – "əba sahibləri" deməkdir) onların fəzilətinə ən böyük şahid, İslam dininin haqq olmasına dair ən dəyərli bir sənəd sayılır".** (**"Kəşşaf"**, 1-ci cild, səh. 282-283, Razinin Təfsiri 2-ci cild, səh. 471-472)

NƏFSİNƏ QALİB GƏLMƏK

Mövla Əlinin (ə) bibisi oğlu, Bəsrə valisi Osman ibn Hüneyf əl-Ənsariyə yazdığı məktub bu gün də dünya hakimlərinə böyük bir məktəbdir. Məktubda deyilirdi: **"Bu günlərdə Bəsrədə birinin səni ziyafətə çağırdığını, sənin də ora getdiyini, çeşid-çeşid yeməklərin xoşuna gəldiyini öyrəndim. Mən bir qövmin yoxsullarının çağırılmadığı, hətta qovulduğu, zənginlərin dəvət edildiyi məclisə razılıq verib gedəcəyini sanmırdım. Çeynədiyin loxmaya bir bax, haram olduğuna şübhələnsən, onu ağzından at, halal olduğunu bilsən, azacıq ye. Sizin İmamınız dünyasını köhnəlmiş bir libas ilə, iki loxma çörəklə keçinməkdədir. Sizin belə etməyəcəyinizi bilirəm, amma çəkinib qeyrət edərək, təmiz və iffətli olmağınıza çalışıram, mənə yardım edin. Allaha and olsun ki, mən bu dünyamızda nə bir qızıl, nə də gümüş külçələri yığdım, nə qənimətlərdən mal mənimsədim, nə üzərimdə yırtılmış geyimimdən başqa libas aldım, nə də dünyada bir qarış torpağa sahib oldum. Ancaq yaşamağıma kifayət edəcək qədər libas və yemək aldım.**

Nəfsimin mənə qalib gəlməsi, ləzzətli yeməyə sövq etdirməsi bir çörək belə tapmayan, doyumluq deyilən şeyə həsrət neçə-neçə yoxsullar varkən necə mümkün ola bilər? Ətrafımda ac qarınlar, susuzluqdan yanıb qurumuş ciyərlər varkən, gecəni necə tox olaraq keçinə bilərəm?..”

LÜTFLƏ BAĞIŞLANAN ELM

Mötəbər hədislərin birində Həzrət Peyğəmbər (s) buyurmuşdur: **“Kim qırx gün nəfsi istəklərini tamamilə buraxıb həmin müddətdə Allahdan başqa heç bir şeyi nəzərdə tutmadan iş görsə və Ondan başqa heç bir şeylə yaşamasa, elm və hikmət çeşmələri onun batinindən qaynayaraq dilində cari olar”.**

Deməli, İslam lütf və feyzlə bağlanan, yəni daxildən gələn elmi qəbul edir. Əlbəttə, İslam əqli elmi də qəbul edir və davamçılarını ona doğru çağırır. Necə ki, Qurani-Kərimdə Allah-Təala Musa peyğəmbərə (ə) buyurub: ***“Bizim bir bəndəmiz var, onun yanına get və ondan elm öyrən. Biz həmin bəndəmizə öz tərəfimizdən, öz yanımızdan elm vermişik”.***

Ayeyi-Şərifədən məqsəd odur ki, o, (peyğəmbər) elmini hansısa bir insandan öyrənməyib. Allah-təala onun daxilində elm çeşmələrini öz hikmətilə qaynatmışdır. Burada isə Musa peyğəmbərə get bəndəmizdən elm öyrən deməsi müəyyən bir hikməti anlatmaq idi ki, bu əhvalatı (Mussa ilə Xızr peyğəmbər arasında olan əhvalat) Qurani-Kərim gözəl şərhlərlə açıb bəyan etmişdir.

Həmçinin Peyğəmbərimiz (s) digər bir hədisdə belə buyurub: “Əgər şeytanlar Adəm övladlarının qəlbləri ətrafında fırlanıb onda qübar və qaranlıqlar yaratmasaydı, onlar qəlb gözü ilə mələikə və ruh aləmini müşahidə edərdilər”.

Bu hədis bizim **“Camius-səadə”** kimi hədis kitablarımızda da nəql edilib. O həzrət həmçinin belə buyurub: **“Əgər sizin (yersiz) çərənçiliyiniz və artıq danışmağınız və qəlblərinizdəki çətinliklər olmasaydı, (və orada hər bir heyvan otlamasaydı) mənim gördüklərimi görər, eşitdiyim səsləri eşidərdiniz”.**

Hədisdən məqsəd budur ki, həmin şeyləri görmək və ya eşitmək üçün insanın Peyğəmbər olması lazım deyil. Bəzən Məryəm kimi peyğəmbər olmayan şəxslər də o səsləri eşidərlər.

Mövla Əli (ə) Peyğəmbərlə (s) birlikdə Hera dağında olanda 10 yaşlı uşaq idi. Peyğəmbərə (s) ilk dəfə vəhy nazil olanda və dünya o həzrət üçün başqa bir şəklə düşəndə onun qeybdən eşitdiyi səsləri Mövla Əli (ə) də eşidirdi. O həzrət bu barədə **"**Nəhcül-bəlağə**"**də belə nəql edir: **"Peyğəmbərə dedim ki, ey Allahın peyğəmbəri, ilk dəfə vəhy nazil olanda şeytanın naləsini eşitdim."**

Peyğəmbər (s) mənə dedi: **"Bəli, mən eşitdiklərimi sən də eşidirsən və mənim gördüklərimi sən də görürsən, amma buna baxmayaraq, sən peyğəmbər deyilsən".**

Buna görə də nəfsin təmizlənməsi, saflıq və nəfsi istəkləri özündən uzaqlaşdırmaq insanın qəlbini saflaşdırmaqla yanaşı, daha çox və yüksək təsirlər göstərir, onun vasitəsilə insanın daxilində elm və hikmət çeşmələri qaynayır…

KAMİL İNSANIN MƏNƏVİ RİYAZƏTİ
(Ruhi məşğələləri)

İmam Əlinin (ə) **"Nəhcül-Bəlağə"** əsəri də özü kimidir. Çünki zahir batinin nişanəsi və göstəricisidir. İnsanın sözləri onun özü kimi olur. Bu, o deməkdir ki, söz insan ruhunun maddiləşmiş forması və onun cilvəsidir. Fikrimizi daha dəqiqləşdirsək, deyə bilərik ki, alçaq ruhun sözü alçaq, uca və yüksək ruhun sözü isə ali olur. Eyni zamanda məhdud ruhun sözü birtərəfli, geniş ruhun sözü isə hərtərəflidir.

Həzrət Əli (ə) təzadlar toplusu olduğu üçün onun sözləri də təzadlıdır. Onun kəlamlarında irfan öz ali həddində, fəlsəfə özünün ən yüksək nöqtəsində, azadlıq, qəhrəmanlıq və əxlaq da ən yuxarı həddindədir. **"Nəhcül-Bəlağə"** əsəri də Mövla Əlinin (ə) özü kimi hərtərəflidir. O həzrət söhbətlərinin birində belə buyurur:.. **"Mənəviyyatla məşğul olan şəxs əqlini dirildərək nəfsini öldürür. Bu şəri çalışmaq elə bir həddə çatır ki, insanı nazikləşdirir, bədəninin ətini əridir, ruhunun sərtliklərini lətifləşdirir və onun**

ruhu incələşir. Belə bir vəziyyətdə birdən onun daxilində bir qığılcım parlayır və ona yol göstərir, o bu qapıdan digər qapıya gedərək sonda yolunun axırı olan səadət mənzilinə çatır"…

Burada İslam insanın mənəvi məşğuliyyəti və nəfsinin təmizlənib saflaşması ilə bir daha kamil insan olması fikrini təsdiq edir. Deməli, İslamda kamil insan mərhələ-mərhələ, addım-addım irəliləyən, çalışıb səy etməklə yavaş-yavaş inkişaf edən insandır. Necə ki, Həzrət Əli (ə) öz kəlamında bir daha bu fikri təsdiqləyir: **"O, bu qapıdan digər qapıya gedər, üzünə yeni qapılar açılar və mərhələləri arxada qoyaraq, sonda "səadət qapısı" adlandırılan qapıya çatar".** Ora çatmaq isə yolun sonuna çatmaq deməkdir.

"Haqqa yaxınlaşmaq" fikri düzgündürmü? Bəli, şübhəsiz ki, insan ora çatdıqdan sonra onunla Allah arasında pərdə olmur və o, qəlbinin gözü ilə Rəbbini görür. Həmin şəxs bizim kimi göyə, yerə və s. baxmaqla Allahın axtarışında olmur. Xeyr, onun üçün belə sözlər mənasızdır; Allah onun üçün yarpaq, yer, göy və digər şeylərdən də aşkardır.

Burada İmam Hüseynin (ə) bir münacatı yerinə düşərdi: **"İlahi, Səndən başqasının elə bir zühuru varmı ki, Sənin olmasın?"**

Bir nəfər həzrət Əlidən (ə) soruşur: **"Allahı görmüsənmi?"** Mövla Əli (ə) cavabında belə buyurur: **"Mən heç vaxt görmədiyim Allaha ibadət etməmişəm".**

Amma həzrət Əli (ə) həmin şəxsə Allahı adi gözlə görməyin mümkünsüzlüyünü və Onun heç bir məkana malik olmamasını belə deyir: **"Onu bu zahir gözlər görməz, qəlblər iman həqiqəti ilə Onu müşahidə edərlər".**

Burada mərhum Seyid Əzim Şirvaninin aşağıdakı misralarını deməmək insafsızlıq olar:

Ey nuri səmavati zəmin gərçi nihansan
Amma nəzəri arifi danada əyansan
Batin gözünün görməyə yox səndə qüsuru
Zahir gözü görməz səni, əlbəttə, nihansan…

ƏLİ MÜRÜVVƏTİ

Suffeyin döyüşü zamanı Müaviyə və Əlinin (ə) qoşunları Fərat kənarında bir-biriləri ilə üzləşirlər. Müaviyə göstəriş verir ki, döyüşçüləri Əli (ə) və onun qoşunu çatmamış yollarını bağlasınlar. Bu göstəriş Müaviyənin ətrafındakılarını çox sevindirir. Onlar bununla yaxşı vasitədən istifadə etdiklərini düşünsünlər. Belə ki, Əlinin qoşunu çatanda su əldə edə bilməyəcək və nəticədə qaçmaq məcburiyyəti qarşısında qalacaq.

Əli (ə) məsələdən xəbərdar olanda belə buyurur: **"Əvvəlcə müzakirə aparaq, bəlkə məsələni bu yolla həll edə bildik".** (Necə deyərlər, əl ilə açıla bilən düyünü dişlə açmayaq)

Elə bir iş görək ki, iki müsəlman dəstəsi arasında döyüş baş verməsin və qan tökülməsinin qarşısı alınsın. Sonra Müaviyəyə xitab edərək belə deyir: **"Sən biz çatmamış belə işə əl atmısan!"** Məsələnin ciddiliyini anlayan Müaviyə hərbi şura yaradaraq öz əsgər və sərkərdələri ilə müzakirə və məşvərət edir: **"Siz nə məsləhət görürsünüz? Onları su içməyə azad qoyaq, ya yox?"** Bəziləri suyun azad buraxılmasına, bəziləri isə bunun əksini bildirdilər. Əmr As isə deyir: **"Azad qoyun, çünki azad qoymasanız zor gücünə suyu sizdən alacaqlar və sizin abrınız gedəcək".** Müaviyə heç kimin sözünə baxmayıb Əlinin (ə) qoşununu azad su içməyə buraxmır və onu müharibəyə girişmək məcburiyyəti qarşısında qoyur. Belə bir vəziyyətdə Əli (ə) öz qoşunu qarşısında, təsiri minlərlə təbil, şeypur, hərbi nəğmə və marşdan yüksək olan belə bir xütbə oxudu: **"Müaviyə bir qrup azğını ətrafına toplayıb. Onlar suyu sizin üzünüzə bağlayıblar; bilirsiniz nə ediblər? Suyu sizin üzünüzə bağlayıblar. Ey mənim səhabələrim! Teşnəsiniz? Su istəyirsiniz? Mənim yanıma suyunuz olmadığı üçün gəlibsiniz? Camaat! Nə etməli olduğunuzu bilirsiniz? Əvvəlcə gərək qılınclarınızı bu rəzil qanla suvarasınız, sonra özünüz sudan içib doyasınız".** Sonra elə bir cümlə dedi ki, hamını həyəcanlandırdı. O, həyat və ölümün qəhrəmanlıq və hərbi baxımdan olan tərifini belə dedi: **"Ey camaat! Həyat nədir? Yaşamaq nə deməkdir? Ölüm nədir? Həyat torpaq üstündə yerimək, yemək və yatmaqdan ibarətdirmi? Xeyr, nə o, - həyatdır və nə də bu - ölüm! Həyat**

odur ki, öləsiniz, amma qalib gələsiniz, ölüm odur ki, sağ olasınız, amma başqalarının hökmü altında qalasınız!" Görün necə də gözəl və dahiyanə fikirlərdir?! Bu sözlərdən sonra Əlinin (ə) qoşununun qarşısını almaqmı olardı? İki dəfə hücuma keçdilər, Müaviyə və onun qoşununu sudan xeyli uzağa qovdular. Su Əlinin (ə) qoşununun ixtiyarına keçdi. Onlar suyun qabağını kəsdilər və Müaviyə susuz qaldı. Müaviyə xahiş üçün adam göndərdi. Əlinin (ə) səhabələri dedilər: "Bizim sizə su verməyimiz qeyri-mümkündür, çünki bu işi əvvəlcə biz yox, siz etdiniz və indi biz sizə su verməyəcəyik". Amma Əli (ə) belə buyurdu: **"Mən belə iş görməyəcəyəm, bu namərdlikdir, mən düşmənlə döyüş meydanında üzləşəcəyəm, bu cür təzyiqlər yolu ilə qələbə qazanmaq istəmirəm. Bu cür yollarla qələbə qazanmaq nə mənim və nə də heç bir şərəfli müsəlmanın şəninə yaraşmaz".**

Bəli, budur əsil mürüvvət və mərdliyin təcəssümü. Bəli Əlinin (ə) mürüvvəti şücaətdən də üstündür. Mövlana Cəlaləddin Ruminin Əli (ə) mədhində dediyi məsnəvilərin birində necə də gözəl buyurmuşdur.

Dər şücat şire rəbbanisti
Dər mürüvvət xod ki, danəd kisti

Yəni, şücaətdə Allahın şirisən, amma mürüvvətdə kim olduğunu yalnız özün bilirsən.

Mövlananın məqsədi budur ki, sənin mürüvvətdə kim ollduğunu heç kəs vəsf edə bilməz.

Biz Mövla Əlini (ə) burada yalnız ona əsl ədalət rəmzi olaraq məxsus bir mövqedə, görürük. Əli məhz belə də olmalı idi. O, başqa cür ola da bilməzdi…

MÖVLA ƏLİNİN (Ə) MİNACATI

Belə hallarda onun bir özü, bir də Allahı olur. Təklikdə Allahı ilə aşiqanə surətdə razi-niyaz edir və ibadət dünyasına qərq olur. Xoşbəxtlikdən **"Nəhcül-Bəlağə"**də bu barədə söhbətlər çoxdur. Əli (ə) bu barədə belə deyir: **"İlahi! Sən övliyaların üçün bütün həmdəmlərindən ən yaxınısan".** Yəni mən heç bir həmdəmlə

Sənin kimi ünsiyyətdə olmuram, mənim həmdəmim Sənsən, yalnız Səninlə olanda kimsəsiz olduğumu hiss etmirəm. Əli (ə) söhbətinin davamında belə buyurur: **"Sənə təvəkkül edənlər, Sənin hər yerdə olduğunu görürlər, çünki Sənə təvəkkül edənlərin harayına çatırsan. İlahi! Dost və aşiqlərini batini sirlərində görürsən və onların batinlərindən xəbərdarsan, onların bəsirətlərinin necə olmasını bilirsən, onların sirləri Sənə əyandır və ürəkləri Sənə doğru uçmaqdadır".**

Cümə axşamları Mövla Əlinin (ə) məxsus duası olan Kumeyl duasını oxuyun. Bu dua məzmun baxımından irfanın ən yüksək zirvələrindədir. Belə ki, siz o duanı əvvəldən axıra kimi oxusanız, orada nə dünya və nə də axirət, bəlkə dünya və axirətdən üstün şeylər - Allah, müqəddəs ilahi zata vurğun və valeh olan pərəstişkar bəndənin Haqq ilə səmimi əlaqəsini, yəni ibadətin həqiqətini görəcəksiniz. Siz Əlinin (ə) öz Allahı ilə necə razi-niyaz etdiyinin şahidi olacaqsınız. Həmçinin imam Zeynulabidinin (ə) Ramazan ayında səhər çağları Əbu Həmzə Sumalı adlı duasında öz Allahı ilə necə razi-niyaz və münacat etdiyinə diqqət edin. Bu, bizim müsəlmançılığımızın ilk addımıdır. Müsəlmançılığın ilk addımı budur ki, öz Allahımıza yaxınlaşaq. Biz Allahımızla yaxınlaşdıqdan sonra digər vəzifələrimizi, o cümlədən ictimai məsuliyyətimizi doğru düzgün yerinə yetirə bilərik. Biz dinin birtərəfli meyllər xəstəliyinə düçar olma-ması üçün müsəlmanların həmişə giriftar olduqları bu xəstəliyi kənara qoymalıyıq. İbadətin dəyərini heç vaxt azaltmamalıyıq.

İmam Sadiq (ə) ömrünün son anlarında bütün yaxın qohumlarını çağırtdırdı. Sonra gözünü axırıncı dəfə açaraq bir cümlə dedi və dünyadan köçdü. Həmin cümlə bu idi: **"Bizim şəfaətimiz namazı yüngül sayan şəxslərə nəsib olmayacaqdır!"**

HƏZRƏT ƏLİ (Ə) ELM VƏ HİKMƏT MÜCƏSSƏMƏSİ KİMİ

Belə bir gözəl deyim var: **"Saleh insanlar yad edildiyi yerə enər".** Ona görə də həzrət Əli (ə) kimi kamil bir Allah dostunun hər-tərəfli şəkildə tanıdılması Qafqaz, Türk dünyası və İslam aləmi üçün hikmət, rəhmət, ilham və bərəkət mənbəyi olacaq.

Beləliklə, o, böyuk cəsarət sahibi olduğu kimi xəlifəlik məqamında necə işləyəcəyini də Həzrət Peyğəmbərdən (s) öyrənmiş və **"Allaha and olsun ki, iki nəfər arasında hökm verərkən içimdə artıq heç bir şübhəyə düşmədim"**,-deyərək nail olduğu müvəffəqiyyəti özü də dəfələrlə ifadə etmişdi. Məhz buna görə Həzrət Əlinin (ə) fiqh haqqında biliyi, dərin qavrayışı və düzgün hökm verməsi diqqəti cəlb etmiş, səhabələr tərəfindən ifadə edilən ən xoş sözlərlə hər zaman qibtə və hörmətlə yad edilmişdi. Təkcə xəlifə Ömərin (r) dilindən çıxan Həzrət Peyğəmbərdən eşitdim **"ən düzgün hökm verəniz Əlidir"** ifadləsi onun dərin elmini əks etdirən bariz nümunələrdən biridir.

Professor Zəkəriyyə Gülər yazır: "Aişənin (r) yanında Həzrət Əlidən (ə) söhbət salınanda o, Həzrət Əlinin (ə) sünnəni ən yaxşı bilən şəxs olduğunu demişdir. O cümlədən, Abdullah ibn Əyyaş da Həzrət Əlinin (ə) sünnənin mənasını, hökm və məqsədini çox yaxşı bildiyini söyləmişdi. Bununla da, onların eyni həqiqəti vurğuladıqlarını görürük".

Həzrət Əli (ə), Rəsuli-Əkrəmə (s) aid olub-olmadığını qəti olaraq təsbit edə bilmədiyi hədislər barəsində çox böyük həssaslıq nümayiş etdirərək deyərdi: **"Bir hədis danışdığınız zaman onu sizə danışan şəxsə istinad edin. Əgər o söhbət doğru olarsa, sizin lehinizə, yalan olarsa, nəql edənin əleyhinə olar".** Həzrət Əlinin (ə) onunla həmsöhbət olan insanlara bu şəkildə xəbərdarlıq etməsi hədis üsulu elminin meydana çıxmasına zəmin hazırlayan əhəmiyyətli bir amil kimi səciyyələndirilməlidir.

Həzrət Əli (ə) Bədr, Uhud, Xəndək və Xeybər döyüşlərində iştirak edərək Peyğəmbərin (s) bayraqdarı olmuş, misli görünməmiş qəhrəmanlıqlar göstərərək zəfər və qələbə çalmışdır. Uhud və Hüneyn döyüşlərində bir çox yerdən yaralanmasına baxmayaraq, Peyğəmbəri (s) qorumaq üçün xüsusi fədakarlıq göstərmişdir. Onun Səd oğullarına göstərilən dəstəyə və Yəmənə edilən səfərə rəhbərlik etməsi, Təbuk döyüşündə Peyğəmbərin (s) vəkili kimi Mədinədə qalması, Məkkənin fəthindən sonra Kəbəni bütlərdən təmizləmə işini öz üzərinə götürməsi İslamda ən böyük fədakarlıq və qəhrəmanlıq nümunələridir.

Tarixi mənbələrə görə, Xəlifə Ömərin (r) Fələstin və Suriyaya səfəri zamanı Həzrət Əlinin (ə) Mədinədə hərbi vali kimi qalıb lazımi

göstərişlər verməsi də Əli (ə) şəxsiyyətinin İslam aləmində təsdiqi deməkdir.

Bütün bunlar onun üstünlükləri ilə yanaşı, böyük idari, siyasi və hərbi bacarığını da əks etdirir. Xeybərin fəthi əsnasında Rəsulallah (s) ilə Həzrət Əli (ə) arasında cərəyan edən dialoq çox ibrətamizdir.

Professor Z.Gülər hədis qaynaqlarından istifadə edərək yazır: **"Səhl ibn Sədin dediyinə görə, Xeybər günü Peyğəmbər (s) belə buyurdu: "Sabah bu bayrağı Allahı və Rəsulunu sevən, Allah və Rəsulunun da onu sevdiyi elə bir adama verəcəyəm ki, Allah onun vasitəsilə qələbəni müyəssər edəcəkdir. Deyilən vaxt, tezdən səhabələr Peyğəmbərin (s) yanına gəldilər. Hər kəs bayrağın ona verilməsinə ümid bəsləyirdi. Nəhayət, Rəsulallah (s) bayrağı Həzrət Əliyə (ə) verdi. Həzrət Əli (ə) belə dedi: Ya Rəsulallah, Bizim kimi olana qədər onlarla döyüşümmü? Bunu eşidən Rəsulallah (s) belə buyurdu: Onların bölgəsinə enənə qədər tələsmə, narahat olma, sonra onları İslama dəvət et və vacib olan İlahi haqq və əsasları onlara xəbər ver. Allaha and olsun ki, Allahın sənin vasitənlə bir adamı hidayətə qovuşdurması sənin üçün o dəvətlərdən daha xeyirlidir".**

Göründüyü kimi, Həzrət Əlinin (ə) Xeybər yəhudiləri ilə necə rəftar edəcəyi haqqında verdiyi sualı və Peyğəmbərdən (s) öyrəndiyi əsaslı sünnə, sülh və hərb şəraitində qeyri-müsəlmanlara qarşı tutulacaq mövqe baxımından çox böyük əhəmiyyət kəsb edir. Mövla Əlinin (ə) belə bir mövqe və rəftarı islamiyyətin inkişaf və tərəqqisini gözü götürməyənlər üçün sanki bir məktəb idi. Bununla bir daha sübut edildi ki, qeyri-müsəlmanlarla döyüş zamanı sülh təklif edilməsi və İslamın cahanşümül hüquq prinsiplərinin onlara bildirilməsi onu göstərir ki, cihad qətiyyən güc tətbiq edərək basqı və təhdidlə islamlaşdırma vasitəsi demək deyil. Bəlkə əksər vəziyyətlərdə söz və kəlamın təsiri daha böyükdür. İnsanlar qorxu altında təslim olmaqdansa, haqqı ədaləti başa düşərək qəbul etmələri daha faydalıdır. Bu, əsl İslamdır.

Tarix Həzrət Əlinin (ə) səmimiyyət, şəfqət, mərhəmət, fədakarlıq, qəhrəmanlıq məziyyətlərinə görə müstəsna bir şəxsiyyət olduğunu sübut etmişdir. Onun Cəməl, Suffeyn, Nəhrəvan kimi tarix boyunca ümməti dərin bir hüznə qərq edən arzuolunmaz hadisələrdən sonra

ona müxalif olan insanlara görə göz yaşı axıdaraq dua etməsi Həzrət Əlinin (ə) bir daha necə həssas və həlim ruhiyyəli bir insan olmasından xəbər verir.

Daha sonra professor Zəkəriyyə Gülər Kumeyl ibn Ziyadın Mövla Əli (ə) ilə mükaliməsini qeyd edərək yazır: "Kumeyl soruşdu: **"Əcəba, sənin haqq yolda olmağına, Təlhə və Zübeyrin də batil yolda olmalarına inansaq nə olar?"** Həzrət Əli (ə) də onun bu sözləri şüarlaşdırmaq istədiyini görüb belə cavab verir: **"Sən insanları haqq (islami ölçü) ilə tanımağa çalış, haqqı insanlarla tanıma. Haqqı tanı, bu zaman kimin haqlı olduğunu da bilərsən".**

Diqqətlə nəzər edək. Həzrət Əlinin (ə) Kumeylə verdiyi cavab bir tövsiyə kimi dünyada beynəlmiləlçilik, qardaşlıq anlayışını vurğulayan və insanların tanınmasında zəruri olan obyektiv İslami ölçüləri öyrədən bir sənəddir. Şübhəsiz, onun bu birləşdirici əngin siyasəti müsəlmanlar arasında yeni bir fitnə-fəsadın qarşısını almaq üçün hər zaman və hər yerdə həyata keçirilməsi zəruri olan əhəmiyyətli bir tezisdir, desək yanılmarıq.

Mövla Əlinin (ə) **"mənim haqqımda iki şəxs həlak olacaqdır. Məni olduğum məqamın xaricinə çıxaran, məndə olmayan vəsflərlə məni mədh edərək hədsiz dərəcədə sevən kimsə və məndən uzaq olan şeyləri mənə aid edib nifrət bəsləyən kimsə"** kəlamı onu İlahiləşdirən və ona nifrət yağdıranlara böyük bir söz silləsidir. Onun **"söyləyənin kim olduğuna deyil, söylədiyinə bax!"** tövsiyəsi də eyni mənanı ifadə edir. Mövla onu tərifləyənlərə həmişə deyərdi: **"Siz bununla mənə söz rüşvəti verirsiniz. İnsan özü-özünü tanıdığı kimi, digəri onu tanımaz".**

Mövla Əli (ə) kəlam elminin banisi olmaqla yanaşı, həmişə təlim-tərbiyyə fəaliyyətində ağıl və idraka əsaslanan, ecazkar kəlama, pedaqoqikaya, psixologiya və metodikaya əhəmiyyətli bir düstur axtarışında olmuş və onu həyata keçirə bilmişdir. Bu gün dünyada məşhur olan Qurani-Kərimdən sonra **"Nəhcül-Bəlağə"** kimi bir kitab buna əyani misaldır.

Həzrət Əli (ə) moizələrində yalana bənzər doğrunun işlədilməsinin əleyhinə idi. Ən sonuncu vəfat edən səhabə kimi tanınan Əbu Tüfeyl Amir əl-Leysi Həzrət Əlinin (ə) minbərdə belə dediyini söyləyir: **"İnsanlara anlayacaqları şeyləri söyləyin, anlamayacaqları**

şeylərdən vaz keçin. Allahın və Rəsulun yalançı kimi tanınmasını istəyirdinizmi?". (Allahın və Rəsulun yalançı kimi tanınmasını rəva bilməyin.)

Məhəmməd Qəvvas Qələcinin 648 səhifəlik **"Mavzuati- fiqhi Əli ibn Əbutalib"** adlı kitabı məhz Həzrət Əlinin (ə) fiqhi görüşləri və ictihadları ilkin mənbələr əsasında yazılmış və hicri 1403 – (miladi-1983-cü) ildə nəşr edilmişdir. Mövla Əlinin fiqh elminin – İslam hüququnun inkişafında da böyük rolu olmuşdur.

Heç şübhə yoxdur ki, Həzrət Əli (ə) İslam hüququ elmini bilən ən görkəmli şəxsiyyətlərindən biridir. O, Həzrət Peyğəmbər (s) məktəbindən dərs alan fəqih səhabələrin öndə gələnlərindəndir. Həzrət Əlinin (ə) fiqhi məsələləri həll etməsi, onun Quran ayələrini çox yaxşı bilməsinə, mükəmməl hüquq məntiqinə, güclü mühakimə qabiliyyətinə, bəsirətinə, biliyinə, məlumatına və bunların nəticəsində çox tutarlı hökm çıxarmasına dəlalət edir. Bu da onu göstərir ki, onun fiqh elmində tutduğu mövqeyi daha böyük həcmli təhqiqat əsərləri ilə dünya ictimaiyyətinə çatdırılmalıdır.

ƏLİ İSLAMIN KƏSƏRLİ QILINCIDIR

Zülfüqar kimi kəskin qılınc yoxdur

İslam mücahidləri haqqında söhbət gedəndə Mövla Əli (ə) şəxsiyyəti istər-istəməz hər bir müsəlmanın gözü önünə gəlir. Heç şübhəsiz ki, İslamın bir nömrəli mücahidi olan Əli (ə) döyüş meydanında dövrün silahlarından istifadə etmişdir. Belə şəxsiyətlərin minikləri də özünəməxsus olur. Bu mənada onun mindiyi at **"Dül-dül"** adı ilə məşhurdur. Onun qılıncına gəldikdə isə yəqin ki, o da təsadüfi olmaz.

Tarixi məlumatlara görə, Uhud müharibəsində qızğın vuruşan Mövla Əli (ə) kimi cəngavərə qılıınc davam gətirmirdi. Dəfələrlə sınıq qılıncla Peyğəmbərə (s) yaxınlaşıb **"kişi döyüşdə qılıncla döyüşər, mənə qılınc ver, ya Rəsulallah"**,-deyən də məhz Əli İbn Əbu Talib olub. Həzrət Peyğəmbərin (s) Zülfüqar adlı qılıncı ona verməsi də fəqət Uhud müharibəsində olmuşdur. Necə ki, Zülfüqarın adı müsəlmanların məkkəlilərlə ikinci ağır döyüşləri olan Uhudla bağlılığı əksər tarixi mənbələrdə çəkilir. Həmin döyüşdə Mövla Əlinin (ə) Zülfüqarla göstərdiyi misilsiz hünər, hətta səmavi nəğmə kimi mələklər vasitəsi ilə oxunmuşdur. Sonralar Peyğəmbər (s) bu məşhur kəlamı həmişə

təkrarlayardı: **"La fəta illa Əli, la seyfə illa Zülfüqar"** (Əlidən başqa elə bir igid, Zülfüqardan başqa kəskin bir qılınc yoxdur)

Həmin müdrik kəlamın **"La fəta"** ifadəsi sonralar Azərbaycan aşıq poeziyasında Mövla Əlinin (ə) Heydəri-Kərrar, Əbu Turab, Sahibi - Düldül, Şiri - Yəzdan, Şahi - Mərdan, Sahibi - Zülfüqar və s. kimi adları ilə yanaşı, böyük bir ilham və məhəbbət dolu hisslərlə tərənnüm olunmuşdur.

Ərəb dilinin izahlı lüğəti **"Əl-Muncud"** (səh.208) və Baranovun **"Ərəbcə-rusca lüğət"**ində (səh.604) Mövla Əlinin (ə) Zülfüqarı haqqında müfəssəl izahlar verilir. Bildirilir ki, bu qılıncdan Bədr döyüşündə (m. 622-ci ildə) istifadə olunub. Həmin döyüşdən sonra bu qılınc Peyğəmbərin (s) mülkiyyətində olmuşdur. Sonralar isə Zülfüqar Həzrət Mühəmməd (s) tərəfindən Mövla Əliyə (ə) əta olunmuşdur.

Müasir İraq tarixçisi Əbdül Cəbbar Mahmud əs-Samərrani bildirir ki, Mühəmməd Peyğəmbər (s) Uhud döyüşünə qədər həmin qılıncı sağ çiyninə keçirdiyi aşırma bağ vasitəsilə sol tərəfində kəmər yeri bərabərində əbasının altında gəzdirərmiş. Zülfüqarı görənlərin təsvirinə görə, qılıncın asılqanı – qəbzəsi gümüşdən imiş. Onun tən ortasında o üz, bu üzə on səkkiz ədəd fəqərəyə bənzər kərtiklər olmuşdur. Buna görə də ona **"Zu-l-fəqar"** (**"fəqərəli"**) adını vermişlər.

Bir çox tədqiqatçılar Zülfüqarın haradan əldə olunması barədə müxtəlif fikir və mülahizələr də irəli sürüblər. Onların bəzilərinin qənaətinə görə, haqqında bəhs etdiyimiz bu qılınc - Zülfüqar Bədr döyüşündə müsəlmanların ələ keçirdikləri qənimətlərin içərisində olmuşdur. Bu qılınc digərlərindən öz boyu, kütləsi, yaraşıqlı görkəmi və kəsərliliyi ilə seçilirmiş Peyğəmbərin (s) müasiri, əshablardan Mərzuq əs-Səqilin rəvayətinə görə o, bu qılıncı öz əlləri ilə itiləmiş və onu Peyğmbərə (s) şəxsən təqdim etmişdir.

Zülfüqar haqqında C.Zeydanın beş cildlik **"İslam Mədəniyyəti Tarixi"** adlı tədqiqat əsərində ətraflı məlumat var. Əsərin birinci cild, islamilərin döyüş sursatları ilə bağlı hissəsində Zülfüqardan da bəhs olunur: **"Əvail-islamiyyədə Həzrət Əlinin (ə) Zülfüqarı namındakı qılıncı ilə Yəmən ətrafından və kübar səhabədən Əir ibn Məd Kərbin Samsaması ismindəki bir taqım qılınclar böyləcə şöhrətgir olmuşlardı. Ehtimal ki, bu iki qılınc filəsli Rum qılınclarından idi… Zülfüqar qılıncı tarixi-islamiyyətədək böyük bir mövqe tutur. Bu qılınc sülaleyi - Həzrət Əli beytində irs təriqi ilə tənaqül etdikdən sonra Abbasilərdən üçüncü xəlifə Mehdi tərəfindən alındı. Daha sonra Hadiyə Mutaqib ibn ər-Rəşidə keçdi…**

Rəvayətə görə, bu qılınca Zülfüqar deyilməsi dəmirində on səkkiz fəqərə bulunmasından irəli gəliyor" (C.Zeydan. **"Mədəniyyəte İslamiyyət Tarixi"**, türkcəyə tərcümə. 1-ci cild. İstanbul, 1908. səh. 125)

Zeyd ibn Harisəyə istinad edən Həsəmənin rəvayətinə görə, Uhud davasına gedərkən Həzrət Əli (ə) Peyğəmbərə (s) döyüş silahının və minik vasitəsinin olmadığını bildirir. Bu zaman peyğəmbər **"buyur, bu mənim qılıncım!"**, - deyərək Zülfüqarı ona verir… Sonra isə Mövla Əlini (ə) dəvəyə mindirib Peyğəmbərlə (s) birgə Uhud döyüşünə yola salırlar.

Uhud döyüşü həm Mövla Əlinin (ə), həm də Zülfüqarın əsl sınaq imtahanları olmuşdur. Mövla Əli (ə) həmin döyüşdə bir əlində İslam bayrağı, bir əlində isə Zülfüqar müşriklərlə ciddi ölüm-dirim savaşına çıxır və İslam düşmənlərinə ağır zərbələr endirir.

Mövla Əli (ə) və Zülfüqar! Bu iki ad bir-birindən ayrılmazdır. Onlar bir-biri ilə vəhdət təşkil edir. Mövla Əlinin (ə) Xəndək döyüşündə Zülfüqarla endirdiyi bir zərbə bütün İslamı xilas etmişdir. Bu faktı Peyğəmbər (s) məşhur hədisində təsdiqləyərək buyurmuşdur: **"Xəndək günü Əlinin vurduğu zərbə Səqəleyinin (ins-cinnin) ibadətindən əfzəldir".** İslam tarixində buna "Səqəleyn" hədisi də deyilir.

Mövla Əli (ə) həmin döyüşdə məkkəlilərin məşhur pəhləvanı Əmir ibn Əbdüvədin üzərində məhz Zülfüqarla parlaq qələbə çalır.

Uhud, Xəndək, Xeybər, Cəməl, Siffeyn, Nəhrivan və s. döyüşlərdə Mövla Əlinin (ə) şöhrətini zirvələrə ucaldan Zülfüqarın sonrakı taleyi də maraqlıdır. İmamın vəfatından sonra Zülfüqar bir müddət Mövla Əli (ə) nəslinin – onun övladlarında, nəvə və nəticələrində olub. Bir gün Mədinə şəhərinin valisi Cəfər ibn Süleyman əl-Abbasi Zülfüqarı Mövla Əlinin (ə) nəticəsi Məhəmməd ibn Abdullah ibn Həsən ibn Əli ibn Əbu Talibdən (ə) dörd yüz dinara satın alır. Zülfüqar daha sonra Abbasi xəlifələrindən Mehdi (775-785), Hadi (785-786) və Harun ər-Rəşidin (786-809) əlinə keçir. Zülfüqarın sonralar xəlifə ibn əl-Mötəzilədə olması və daha sonra isə Misirdə Fatimilər sarayında saxlanması barədə də məlumatlar var.

Zülfüqarın və eləcə də digər məşhur İslam qılınclarının orta əsrlərdəki taleyi Türkiyə ilə bağlı olmuşdur. Birinci Sultan Səlim miladın 517-ci ilində qoşunla Misirə daxil olduğu zaman bu qılıncları saxlamaq üçün İstanbula göndərmişdir. Bu barədə geniş məlumatı türk professoru Ünsal Yuselın **"Əs-Süyuf əl-İslamiyyə"** (İslam qılıncları) adlı kitabında əldə etmək olar. Kitabda 99 İslam qılıncı ilə yanaşı,

Zülfüqarın da təsviri verilir. Lakin vaxtilə Topqapı Muzeynin mühafizi işləmiş Ünsal Yuselin (doğ.1935-1986) bu kitabında Zülfuqar adı ilə təsvir olunmuş qılınc bizim irəlidə, təsvirini verdiyimiz qılınca bənzəmir. Belə ki, əvvəla, Zülfüqar **"Zu-l-lisaneyni"** (iki dilli: ucu haça), ikincisi isə üstündə 18 fəqərəsi olan bir qılınc olmuşdur.

Ünsal Yuselin təsvirini verdiyi qılınc isə bütöv ağızlı, enli bir qılıncdır. Müəllifin kitabda 11-ci nömrə altında təqdim etdiyi (bu qılıncın Topqapı muzeyindəki saxlanma nömrəsidir) və uzunluğu 113 sm olan bu qılınc haqqında belə yazılmışdır: **"Bu qılınc xəlifə Əli ibn Əbu Talibə aid hesab olunur. Onun tiyəsi enlidir. Dəstəyinin və himayəedicisinin üstünə aşılanmış, qırmızı rəngli dəridən örtük çəkilmişdir. Onun dəmirində bu sözləri oxuyuruq: "La fəta illa Əli, la seyfə illa Zülfüqar".** Müəllif yazır ki, bu yazı və qılıncın üstündəki qızılı işləmələr sonrakı əsrlərə aid hesab olunur.

Bütün bunlardan bir daha aydın olur ki, Mövla Əlinin (ə) Zülfüqardan başqa da bir neçə qılıncı olmuşdur. Bu gün dünyada müxtəlif muzeylərdə Zülfüqar adı ilə təqdim olunan qılınclar əlbəttə əsl Zülfüqar deyil. Həqiqi Zülfüqar **"İsna əşəri"** əqidəsinə görə, nəslbənəsl qorunaraq 12-ci imama – Mehdi Sahibəz-Zamana (ə.c.) ötürülmüş və inşəallah zühur edəndə də Zülfüqarla birgə olacaqdır.

MÖVLA ƏLİNİN (Ə) İBADƏTİ

Gecənin qaranlığı dünyanın üzərinə pərdə salanda Mövla Əli (ə) Allah-Təalanın müqabilində, ibadət mehrabında öz məhəbbətini izhar və aşiqanə şəkildə münacat edir və kamil bir mərifətlə öz məbuduna xitab edib deyirdi: **"Ey mənim Allahım! Əgər məni sonralar – aqibətdə öz düşmənlərinlə bir cərgədə tutacaqsan, məni bəla əhli olanlar arasında Cəhənnəmə varid edəcəksən və öz dostlarının cərgəsindən ayıracaqsansa, ey mənim mövlam, onda mən sənin əzabına dözərəm, bəs ayrılığın əzabına necə dözəcəyəm?"…**

Və yaxud da başqa bir yerdə buyururdu: **"Ey mənim məbudum! Mən sənə əzabından qorxduğum üçün, sənə ibadətimin səvabını dərk etmək ümidi ilə ibadət etmirəm, bəlkə səni ibadət etməyə layiq saymışam, ona layiq bilmişəm və sənə bəndəlik edirəm"…**

Buna ən bariz sübut aşağıdakı şərafətli ayədir:

"Məgər axirətdən qorxan, Rəbbinə (Allahın mərhəmətinə) ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən müti bəndə kafirlə birdirmi?"

Mövla Əli (ə) Allaha elə bir məhəbbət bəsləyirdi ki, sanki İlahi eşqin yandırıb-yaxan atəşi onun vücudunun bütün zərrələrinə sirayət etmişdi və ibadət zamanı məbudun məhəbbət dəryasında elə qərq olurdu ki, özünü unudurdu.

İbn Əbiəl-Hədid yazır: **"Əli (ə) ibadət etmək cəhətindən hər kəsdən daha çox abid idi, onun namazı, orucu hamınınkından daha kamil idi. İnsanlar gecə namazını, ilahi zikrlərə diqqəti və müstəhəb işlər görməyi ondan öyrənirdilər. Gecələr İmamın (ə) ibadətləri və ürək yaxan nalələri dostların və düşmənlərin qəlbini əridirdi. Döyüş zamanı, düşmən oxlarının yağışı altında İmamın (ə) səcdə etməsi abidləri və gecələr sübhə qədər oyaq qalıb ibadət edənləri heyrətə salır və təəccübləndirirdi. İmam (ə) başqalarını gecə və nafilə namazlarına təşviq edirdi ki, kişilər, qadınlar və pəhrizkarlar bu dəyərli əməllərə adət etsinlər və bu, nəinki dostların, hətta düşmənlərin də çox xoşuna gəlirdi. Beləliklə, o, zahidləri və arifləri öz dalınca çəkib aparırdı".**

Nouf Bekali yazır: **"Gecə yarısı Əmirəlmöminin evdən çıxdı, Küfə valisinin yanında bizimlə görüşdə İmamdan (ə) soruşdum: "Ya Əmirəlmöminin! Siz belə əzəmət və böyüklüyünüzlə nə qədər ağlayır və necə də Allahdan qorxursunuz?" Həzrət Əli (ə) gözlərindən yaş axıda-axıda buyurdu: "Ey Nouf! Allah bizə şah damarlarımızdan da yaxındır. Bu dünyada Allah qorxusundan kim göz yaşı axıtsa, axirətdə onun gözləri ağlamayacaq".**

Mövla Əlinin (ə) həyatının başlanğıcı və sonu Allahı yad etməklə bağlı olmuşdur. O əziz insanın ömrünün tarixi bu iddiaya ən yaxşı sübutdur ki, heç bir əməlində, işində, səyində, cihadında və savaşında Allahla əlaqəsindən əl çəkməmişdir.

Bir gün Müaviyə Mövla Əlinin (ə) dostları - Ədi ibn Hatəm və Zərar ibn Zümrətdən onun əməli işləri barədə soruşdu. Müaviyə kimi daşürəkli bir insan Mövla Əlinin (ə) ruhi əzəməti, ibadət edərkən ilan vuran adam kimi qıvrıla-qıvrıla axıtdığı göz yaşları barədə eşitdikdə

elə ağlayıb ki, ətrafdakılar da onun ağladığını görüb, göz yaşı tökmüşlər.

İmam Əli (ə) özünün çox ciddi xəbərdarlıqlarından birində dostlarına demişdi: **"Allaha qarşı xəlvətdə və gizlində də günah etməkdən çəkinin. Çünki Allah özü şahid və həm də hakimdir".**

Mövla Əli (ə) Allaha bəndəliyin ölçü meyarının dəyəri və onun mərtəbələri barədə buyurur: **"Sizlərdən hər kəs özünün Allaha bəndəliyinin dəyərini bilmək istəsə və onun hüzurunda nə qədər dəyərə malik olduğunu anlamaq istəsə, düşünsün ki, günahla qarşılaşdığı zaman Allaha nə qədər inanmış, qiymət vermiş və ona müti olmamaqdan çəkinmişdir".**

MÖVLA ƏLİNİN (Ə) ŞÜCAƏTİ

Gecələr Allahına ibadət edən Mövla Əli (ə) gündüzlər mübarizə meydanlarında misilsiz bir qəhrəmanlıq göstərirdi. İmam Əli (ə) öz dövrünün qorxaqlarını sücaətə səsləyərək buyururdu: **"Mən sizi haqqa tərəf çəkirəm, ancaq siz şirin nərəsindən qorxub qaçan keçilər kimi, fərar edirsiniz".**

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: **"Əgər Xədicəi Kubranın dövləti və Əlinin (ə) şəmşiri olmasaydı, İslam möhkəmlənməzdi".**

İbn Əbil Hədid deyir: **"Əlinin (ə) sücaəti o dərəcəyə çatdı ki, keçmişin qəhrəmanlarının adını unutdurdu və gələcəyin qəhrəmanları üçün də yer qoymadı. Əli (ə) savaşlarda elə məharət, sücaət və fəzilət göstərdi ki, onun müharibədəki qəhrəmanlığı insanlar arasında qiyamətə qədər zərbül-məsələ çevrildi. Əli (ə) döyüş meydanından heç vaxt qaçmadı; o, ərəblərin məşhur pəhləvanları və adlı-sanlı döyüşçülərindən qorxub çəkinmədi və elə bir döyüşçü olmadı ki, Əli (ə) onu məğlub etməmiş olsun. Heç elə bir hal olmadı ki, Əlinin (ə) bir zərbə vurduğu adamın ikinci bir zərbəyə də ehtiyacı olsun".**

Qeyd olunan hədisləri eşidənlərin maraq dairəsini genişləndirmək üçün aşağıdakılara müraciət edək:

"Həzrət Əli (ə) İslamın başlanğıcında baş vermiş bütün savaşlarda iştirak etmiş və həmişə qalib gəlmişdir. Bütün savaş-

larda fəth və qələbə nəsimi onun bayarğının ətrafında əsirdi. O elə bir qəhrəman idi ki, heç vaxt düşmənə arxa çevirməmişdi".

O Həzrətdən sual etdilər: **"Sənin döyüş zirehinin arxası yoxdur!"**

Buyurdu: **"Mən düşmənə heç vaxt arxa çevirmirəm ki, o da mənə arxadan zərbə endirsin".** Və əlavə etdi: **"And olsun Allaha, əgər bütün ərəblər bir-birinə arxa duraraq mənimlə döyüşə girsələr, mən əsla onlara arxa çevirmərəm".**

Mövla Əliyə (ə) bəslədiyi böyük düşmənçiliyə baxmayaraq, Müaviyə deyirmiş: **"Ey Əli, əgər dünyanın Şərqi və Qərbi sənin mübarizəyə qalxsa, sən onların hamısını həlak edərsən".**

MÖVLA ƏLİNİN (Ə) MEHRİBANLIĞI VƏ MƏHƏBBƏTİ

Mövla Əli (ə) mübariz, qüdrətli və qüvvətli insan olduğu kimi, mehriban ata, qəlbi məhəbbətlə dolu bir şəxsiyyət idi. O, Mədinədə və Kufədə yetimlərə və dul qadınlara himayədarlıq etmiş, şəhər ətrafında və xərabələrdə sığınacaq tapan kasıblara və aciz qocalara həmişə su və çörək aparırdı.

Həbib ibn Əbi Sabit nəql edir: **"Beytulmala bir qədər bal gətirdilər. Həzərt Əli (ə) göstəriş verdi ki, yetim uşaqları çağırsınlar. Balı uşaqlar arasında böldüyü zaman şəxsən öz əlilə yetimlərin ağzına bal qoyurdu. Ondan soruşdular: "Bu əməl nə üçündür?"**

Həzrət Əli (ə) buyurdu: **"İmam yetimlərin atasıdır. Bu yetim uşaqların ağzına bal verirəm. Və onların itirdikləri atalarının əvəzinə onlara ata səmimiyyəti və nəvazişi göstərirəm".**

Əbu Təfil yazır: **"Əli (ə) yetimlərə elə həvəslə bal yedizdirirdi ki, səhabələrin bəzisi deyirdi: "Kaş mən də bu yetimlərdən olaydım".**

Bir gün Mövla Əli (ə) kasıb bir xristian qocanın başqalarına əl açıb diləndiyini görəndə soruşdu: **"Bu qoca kimdir?" Dedilər: "O bir xristiandır". Mövla Əli (ə) narahatçılığla buyurdu: "Nə qədər ki, gücü-taqəti vardı, işlədirdilər. İndi qocalıb deyə, onu unudublar? Onun həyatını-məişətini beytulmaldan təmin edin".**

Görəsən, bu gün dünya ictimaiyyəti – dünya siyasətçiləri 14 əsr bundan əvvəl Mövla Əlinin (ə) tolerantlığını dərk edə bilərlərmi?

Bu gün bir daha bizə sübut olub ki, Həzrət Əli (ə) sözün əsl mənasında imamdır və dünya siyasətmədarlarının önündə gedən rəhbərdir.

Mövla Əli (ə) həmçinin azlıqda qalan məzhəblərin nümayəndələri ilə alicənablıqla rəftar edirdi. İslam Peyğəmbərinin (s) yaxşı əxlaqı, səbri və təmkini bir çoxlarının iman gətirməsinə səbəb olduğu kimi, Mövla Əli (ə) də öz ədəbi, mətin və məntiqi rəftarı ilə çox sayda müsəlman olmayanları İslam dininə cəlb etmişdi.

Qısa da olsa bu mənada olan bir neçə hadisəyə diqqət edək:

"İki müsafir – biri müsəlman və digəri kitab əhli idi – yolda rastlaşdı. Söhbət əsnasında məlum oldu ki, onların məqsədlərinin müəyyən hissəsi üst-üstə düşür, eynidir. Müştərək yolları sona yetəndə müsəlman Kufə tərəfə yox, kitab əhlinin yanı ilə getməyə başladı. O, bunun səbəbini soruşanda müsəlman dedi: "Səni bir qədər müşaiyət etmək və ötürmək istəyirəm, çünki bizim Peyğəmbərimiz (s) buyurub: "İki nəfər yolda səfər yoldaşı olduqda, onların bir-birinin boynunda müəyyən haqqı olur".

Kitab əhli bu alicənab şəxslə bir qədər söhbətdən sonra dönüb müsəlman olur. Bir azdan səfər yoldaşının müsəlmanların rəhbəri Əli ibn Əbu Talib (ə) olduğunu biləndə daha çox heyrətə gəlir.

Mövla Əlinin (ə) azlıqda qalan məzhəblərə münasibəti barədə belə hekayətlər çoxdur. Bu barədə yeri gəldikcə məlumat verəcəyik.

MÖVLA ƏLİ (Ə) MƏKTƏBİNDƏ CİHAD VƏ ŞƏHADƏT

Mövla Əlinin (ə) məktəbi hərəkət və axtarış, çeviklik və çalışma məktəbidir. İctimai və fərdi həyatda mübarizə və çalışqanlıq bu məktəbin davamçılarının proqramlarının sərlövhəsidir. Şəhadət və öz mənafeyindən keçmək hər bir müsəlman fərdin və bu məktəbin davamçısının ən ali arzusunu təşkil edir. Çox təbii haldır ki, şəhadət anlamını qəbul edən hər bir məktəb heç vaxt əsarət və zillətə düçar ola bilməz.

Mövla Əlinin (ə) 63 illik həyatının özü imam, səmimiyyət və paklıq yolunda döyüş, çalışma, mücahidlik və mübarizə demək idi. Bu elə

bir döyüş idi ki, son saatlarına qədər davam edən ləzzətli anları **"Allahın Kəbəsinə and olsun ki, əzəmətli bir feyzə yetişdim"** kəlamı ilə sona yetdi.

O, xütbələrinin birində cihad və vuruşma haqqında öz baxışlarını şərh edir, onun hədəf və amalları barəsində tam anlayış yaradır, onları təsvir edir və bizə tanıtdırır. Həqiqət yolçularını aşiq olduğu Kəbəni öz məhbubuna doğru çəkir, hədəfsiz və süst adamları məzəmmət edir.

Siffeyn savaşından sonra müvəqqəti sülh yaranır. Tərəflər öhdələrinə götürürlər ki, bir ilə kimi kiçicik də olsa belə düşmənçilik və təcavüzə yol verilməyəcək. Lakin sərhəddə toplaşan Şam əsgərləri müxtəlif başçıların əmri ilə İraqa həmlə etdilər, qarət, soyğunçuluq və xəyanətdən çəkinmədilər. Onların təcavüzləri çox vaxt cavabsız qalırdı. Mövla Əlinin (ə) döyüşçüləri arasında xüsusi bir soyuqqanlıq hökm sürürdü. Onların bu hərəkəti İmam Əliyə (ə) çox ağır gəldi. O döyüşçülərin hisslərini coşdurmaq və duyğularına təsir göstərmək məqsədilə Kufə məscidində xütbə söylədi. Həmin xütbə bu gün də hiss və duyğuların bariz ifadəçisi də, soyuqqanlıq və etinasızlıq müşklünün açarıdır desək səhv etmərik. Bu xütbənin ərəbcədən tərcüməsinə nəzər salaq: **"Allah yolunda cihad və mübarizə, geniş rəhmət qapısıdır ki, xas bəndələrin üzünə açılır. Əsgərlik köynəyi dəmir bir zirehdir ki, fədakarlıq və çalışma əli ilə onu istiqanlı və fəal cavanların əyninə geyindirir. Bu iftixar köynəyi həyatda şərafət libası, ölümdən sonra isə behişt köynəyi olacaqdır…**

…Mən gecə-gündüz sizi cihada və mübarizəyə dəvət etdim. Həmişə sizin ağır eşidən qulaqlarınıza fədakarlıq və fədailik nəğməsini oxudum. Əfsus ki, mənim isti nəfəsim sizin dəmir və soyuq ürəyinizə təsir etmədi. İndi yenə də deyirəm, dünyanın ən zəlil və alçaq adamları onlardır ki, ölkələrinin küçələri yadların döyüş və at çapmaq meydanına çevrilib, adamları isə öz vəzifələrindən qaçırlar. Bu cür adamların nəsibi zillət, alçaqlıq, biabırçılıq və töhmətdən başqa bir şey deyil…

…İndi hiyləgər və aldadıcı düşmən hiylə işlədən ovçu kimi dovşanları yuxuya verərək sizləri qəflətə salır. Ruzigarı sizin gözlərinizdə qaranlığa və qara rəngə çevirir. Vilayət başçısı sizin

əlinizdən getdi, igid və fədakar rəhbərlər şamlıların əlində öldü…

Sərhədləri qorumağa təyin edilmiş mühafizə qüvvələri böyük şücaətlə müqavimət göstərdilər, son nəfəsədək və son adamlarına qədər mərdliklə şəhadət sərvətini içdilər. Şəhadətin əzəmətli feyzinə yetişdilər, lakin düşmən yenə də öz fəaliyyətindən əl çəkmədi. Qadınların və qızılların daş-qaşlarını həyasızlıq və amansızlıqla onlardan aldılar. İslama pənah gətirən başqa dinlərin tərəfdarlarını əzəb və əziyyətdən qurtarmadılar, uşaqların halına rəhm etmədilər. Qətl – qarət, soyğunçuluq və dağıntılardan sonra öz sərhədlərinə qayıtdılar. Bu zülm və cinayət çox təəccüblü, heyrətləndiricidir. Heyratamiz olması bununla bağlıdır ki, onlar öz batil və ləyaqətsiz məramlarını həyata keçirməkdə çox ciddi olub, səy və həvəs göstərirlər. Lakin siz haqq, həqiqət və düzgün məramınızı müdafiə etməkdə elə susursunuz ki, bu süstlüyünüz mənim ürəyimi qana döndərir.

Hər dəfə sizi səfərbərliyə dəvət edərkən puç bəhanələrlə və məqbul sayıla bilməyən üzürlərlə xidmətdən boyun qaçırırsınız. Qışda soyuqdan nalə edirsiniz, yayda havanın istiliyindən şikayətlənirsiniz. Əcəba siz soyuqdan və istidən qorxa-qorxa düşmən qarşısında necə səbat və müqavimət göstərəcəksiniz? Siz zahirən kişisiniz, lakin mərdanəlik və alicənablıqdan sizdə əsər-əlamət yoxdur. Siz necə və kəcavədə əyləşən təzə gəlinlərə bənzəyirsiniz. Onlar hər şey üçün xidmətçiyə və qulluqçuya möhtac olurlar. Ölkənin mühitini, istiqlaliyyət və əmin-amanlığını qorxu bilməyən ürəklə və şücaətlə hifz edən siz olmalısınız". (**"Nəhcül-bəlağə"**, "Cihad xütbəsi" Əvvəli bu ifadə ilə başlanır: **"Doğrudan da cihad rəhmət qapılarından biridir ki, Allah bu qapını xas övliyası üçün açır"**)

Başqa bir yerdə Mövla Əlinin (ə) cihad və mübarizə yolunu müdafiə etməsi xasiyyəti ilə Siffeyn döyüşünün səhnələrindən birində tanış oluruq. Həzrətin fəaliyyətinin bu cəhəti dostluq, bərabərlik və humanizm qayğılarından xəbər verir, insanın azad adamlar, mübarizələr və döyüşlər üçün seçdiyi yolun kamil meyarını nümayiş etdirir. Mövla Əlinin (ə) insanlıq yolu, insanlıq qanunları daim mübarizə və döyüşlərdə göstərilir.

Müaviyə ibn Əbi Süfyan on altı ilə yaxın idi ki, Şam əmirliyində hakimiyyətdə idi və heç kəsə bildirmədən özünə xilafət rəhbərliyi üçün şərait hazırlayırdı. Ürəyində tutduğu məqsədlər üçün bütün fürsətlərdən istifadə edirdi. Mərkəzi hökumətə itaət etməmək və xilafət iddiasında olduğunu göstərmək üçün ən yaxşı bəhanə onun üçün xəlifə Osmanın (r) öldürülmə hadisəsi idi. Xəlifə Osman (r) sağ ikən Müaviyə onun yalvarışlarına münasib cavab vermədi, tələblərini, yardım istəməsini eşitmədi, özünü görməməzliyə vurdu. Osmanın (r) qətlindən o, öz işi üçün bəhanə kimi istifadə etmək niyyətindəydi və buna nail də oldu. Belə ki, Osman (r) öldürüldü, Müaviyə təcili olaraq bundan istifadə etmək qərarına gəldi. Başqa bir tərəfdən Osmanın (r) qətlindən sonra camaat xilafət yükündən hər cəhətdən imtina edən Mövla Əlinin (ə) dövrəsinə yığışdı və onu nəyin bahasına olursa-olsun İslama rəhbərlik etməyə məcbur etdilər.

Mövla Əli (ə) məsuliyyətin rəsmi olaraq ona tərəf yönəldiyini görəndən sonra qəbul etmək məcburiyyətində qaldı. Onun rəsmi xilafəti həmin dövrün mərkəzi və xilafət evi olan Mədinədə elan olundu. Geniş İslam ölkəsinin bütün əyalətləri o dövrdə Həzrət Əlinin (ə) itaətini qəbul etdilər. Müaviyənin tabeliyində olan əyalətlər - Şam və Suriya bu işdə istisna idi. Müaviyə mərkəzi hökumətə tabe olmaqdan boyun qaçırdı. Yaranmış fürsətdən istifadə edən Müaviyə Şam və Suriyanın istiqlaliyyətini elan edərək şamlılardan ibarət güclü qoşun topladı. Bununla da qeyri-qanuni bir hakimiyyət yaratmaqla İslam dövlətinə böyük rəxnə saldı.

FƏZİLƏTLƏR TOPLUSU

Mövla Əlinin (ə) fəzilətləri barədə danışmaq son dərəcə çətindir. Məsələn, İbn Əbil-Hədid **"Nəhcül-bəlağə"**nin şərhinin müqəddiməsində yazır: **"Əlinin (ə) fəzilətləri çox məşhur və əzəmətlidir. Hər yerdə o qədər yayılıb ki, onları sadalamaq və müfəssəl şəkildə izah etmək mümkün deyil. Qısası, o Həzrətin vəsfi və fəzilətlərinin bəyan edilməsi gündüz hamıya məlum olan günün işığından və ya aylı gecədə ayın işığından danışılmasına bənzəyir. Mən yəqinlik əldə etdim ki, o Həzrətin mədhi barəsində söz danışmaq hər nə qədər kamil olsa belə, yenə də mənim söz da-**

nışmaqdakı acizliyimi və sözlərimin son həddən aşağı olmasını göstərir. Mövla Əli (ə) "Nəhcül-Bəlağə"nin üçüncü xütbəsinin əvvəlində buyurur: "Sellər (elm və maarif selləri) məndən axır və heç bir quşun mənim kamillik zirvəmə uçmaq qüdrəti yoxdur".

Düşmənləri onun fəzilətlərini inkar və ört-bastır edə bilmədilər, halbuki bildiyiniz kimi, Bəni Üməyyə dünyanın Şərq və Qərbində şahlıq edib, var gücü, bütün hiylə və kələyilə Mövla Əlinin (ə) fəzilətlərinin çırağını söndürməyə çalışıblar. Onlar camaatı Mövla Əliyə (ə) qarşı qıcıqlandırır, özlərindən onun barəsində müxtəlif nöqsanlar, çirkin iftiralar uydurur, minbərlərdə ona qarşı nasaza, nalayiq xütbələr oxutdururdular. Mövla Əlini (ə) tərifləyənləri nəinki hədələyir, hətta zindana salır, bəzilərini isə öldürtdürürdülər. O Həzrətin fəzilətləri barəsində rəvayətlərin nəql edilməsinin belə qarşısı alınır, hətta o yerə çatdırırdılar ki, uşaqlara Əli adının qoyulmasına belə mane olurdular. Bütün bunlara baxmayaraq, onun ad və xatirəsi nəinki unudulmadı, bəlkə də əksinə, məqamının ucalıq və aliliyini daha da artırdı, üstünü örtsələr də gözəl ətri hər yeri bürüyən və ürəyə yatan rayihəsi hər tərəfə yayılan müşk-ənbər kimi oldu. Saysız-hesabsız gözlərin günəşi görməsinə baxmayaraq, korun görə bilmədiyi nur kimi oldu Mövla Əli (ə)!

Onun İlahi tövhid elminin mənbəyi olmasını dünya filosofları qeyd-şərtsiz qəbul etmələri bir həqiqətdir. Nəhcül-Bəlağə əsərində buyurduğu kəlamlara nəzər salaq:

Elmlərin ən şərəflisi Allah - Təala barəsində olanıdır. Allah - Təala bütün varlıqlardan şərəfli olduğu üçün onun barəsində olan elm də bütün elmi biliklərdən şərəfli və fəzilətlidir. Habelə, bu elmin Mövla Əli (ə) sözlərindən iqtibas olunması və ondan nəql edilməsi bir daha onun xilqətini artırır. Allah - Təala barəsində olan elm və maarifin bütün yollarının başlanğıcı onunladır və onunla da sona çatıb. Məsələn, **"Nəhcül-bəlağə"**nin birinci xütbəsində tovhid və Allah barəsində elm haqqında o qədər böyük və heyranedici mətləblər var ki, böyük filosof və ariflər deyiblər: **"Əgər bütün filosoflar, mütəfəkkirlər, ariflər və tədqiqatçılar bir yerə toplaşsalar, Mövla Əlinin (ə) həmin xütbədəki təkcə "Hər şeylə birlikdədir, amma yanaşı olmadan, hər şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil"…**

FƏQİHLƏR USTADI

İlahi elmlərindən biri olan fiqh bir elm kimi şəriətin özülüdür. Bu elmin əsasını və təməlini də qoyan məhz Mövla Əlidir (ə). İslamda hər bir fiqh alimi onun açdığı cığırla gedir. Əhli-sünnənin dörd fəqih və imamının hər biri Əbu Hənifənin şagirdləridirlər. Onun özü isə İmam Cəfər Sadiqin (ə) şagirdidir. İmam Sadiq (ə) atası İmam Baqirin (ə), o da atası İmam Səccadın (ə), o da İmam Hüseynin (ə) və İmam Hüseyn (ə) də İmam Əli ibn Əbu Talibin (ə) şagirdidir. Deməli, fiqh elminin mənbəyi onun banisi İmam Əliyə (ə) gedib çıxır.

Şiə fiqhinin mənşəyi İmam Əlidir (ə). Bu barədə dəlil-sübuta heç bir ehtiyac yoxdur. Səhabələrdən isə fiqh elminə ən yaxşı bələd olanı İbn Abbasdır. O da Mövla Əlinin (ə) əmisi oğlu və şagirdlərindəndir.

Bütün fiqh alimləri Peyğəmbərdən (s) belə bir kəlam nəql ediblər: **"Sizin aranızda qəzavət elminə ən yaxşı bələd olan Əlidir".** Bu hədisə əsasən Peyğəmbər (s) səhabələrinin fiqh elminə ən yaxşı bələd olanı Mövla Əlidir (ə).

Ravilərdən nəql olunur ki, Həzrət Peyğəmbər (s) Mövla Əlini (ə) qəzavət etmək üçün Yəmənə göndərəndə belə buyurmuşdu: **"Pərvərdigara, onun qəlbini hidayət və dilini sabit et".** Peyğəmbərdən (s) bu sözü eşidən Mövla Əli (ə) deyərmiş: **"Sonralar iki nəfər arasında qəzavət edən zaman heç vaxt şəkk və tərəddüd etmədim".** Bəli, o Mövla Əli (ə) idi ki, minbərdə olanda bir qadının irs payı barəsində ona sual edən şəxsə cavabında dərhal **"irsin səkkizdə biri doqquzda birə çevrilir"**,-deyə buyurmuşdur. Bəli, Mövla Əli (ə) məhz belə bir fəqih idi.

MÖVLA ƏLİ (ə) HƏMÇİNİN TƏFSİR ALİMLƏRİNİN DƏ MÜƏLLİMİDİR

Təfsir elmi elmlərin ən maraqlısı və əhəmiyyətlisidir. Bu elm haqqında əlimizdə nə varsa, məhz Mövla Əlidən (ə) bizə miras qalmışdır. Təfsir kitablarına müraciət edən hər bir şəxs bu faktın dəqiqliyinə əsla şübhə edə bilməz. O cümlədən, Mövla Əlinin (ə) yeganə tələbəsi olan, doğma əmisi oğlu Abdullah ibn Abbas bu elmə yiyələnmiş, ömrünün sonunadək təfsir elmini İslam aləminə yaya bilmişdir. Buna baxmayaraq, İbn Abbasdan **"sənin elminin miqdarı əmin oğlu Əli (ə)**

elmi ilə müqayisədə nə qədərdir?", - deyə soruşulanda **"sahilsiz dənizə düşən bir yağışın damcısı qədər"**, - deyə cavab vermişdir. Doğrudan da ibn Abbasın bu misli-bərabəri görünməyən müqayisəsi məhz Mövla Əli (ə) şəxsiyyəti ölçüsünün miqyasında ola bilər.

MÖVLA ƏLİ (ə) HƏM DƏ İRFAN MƏNBƏYİ İDİ

İlahi elmlərin biri də məslək, həqiqət və hal elmi olan irfan və sufilikdir. Hamıya çox yaxşı məlumdur ki, İslam aləmində bu elm sahibləri öz silsilələrini o Həzrətə nisbət verirlər. Tanınmış alimlərdən Şebli, Cuneyd, Səri Səqti, Əbu Yezid Bəstami, Əbu Məhfuz Məruf Kərxi və digər böyük şəxsiyyətlər hamılıqla bu elmin bünövrəsinin Mövla Əli (ə) tərəfindən qoyulduğunu bildirirlər. Sufilər və irfan əhlinin bu günə kimi ən mühüm əlamətləri olan cod bez paltar (xüsusən də cod yundan toxunulmuş geyim dəstləri) geyinməyi bu barədə tutarlı dəlildir. Çünki onlar bu məsələni Mövla Əliyə (ə) nisbət verirlər.

ƏRƏB DİLİ ELMLƏRİNİN BANİSİ

Elmlərdən biri də ərəb dili qramatikasının kökləri və sintaksisidir. Elmi və tarixi mənbələrdən hamıya məlumdur ki, o elmi Mövla Əli (ə) ixtira etmişdir. O cümlədən, Həzrət Əli (ə) bu elmin əsasları barəsində belə buyurmuşdu: **"Kəlmə üç növdür: isim, fel və şəkilçi. Kəlmə ya məlum olur, ya da məchul. Əlamətlər dörddür: zəmmə, fəthə, kəsrə və sükun".**

Bu cür bölgü aparmaq və tərif demək möcüzəyə yaxın bir şeydir. Çünki insan adi yolla bu cür dəqiq bölgülər aparmağa qadir deyil. Buradan belə nəticə əldə etmək olar ki, adi adamlar üçün bu kimi işlərin həlli çox müşküldür.

QİRAƏT ELMİNİN MÜƏLLİMİ

Mövla Əlinin (ə) Quranı qiraət etməsi və bu müqəddəs kitabla məşğul olması barədə bütün məzhəblər və İslam firqələri yekdildirlər. Onların əqidəsi belədir ki, Həzrət Peyğəmbərin (s) zamanında Qurani-Kərimi hamıdan əvvəl əzbərləyən Mövla Əli (ə) olmuşdur.

Əgər qiraət kitablarına müraciət olunsa, məlum olar ki, qiraət elminin başçılarının hamısı ona söykənir. Məsələn, qiraət elminin başçılarından olmuş Əbu Əmr ibn Əla, Asim ibn Əbi Nəcud və başqalarının qiraəti Əbu Əbdürrəhman Süləmi Qaridən götürülüb və o da Mövla Əlinin (ə) şagirdi olaraq Quranı ondan öyrənmişdir. Bu elmin də mənbəyi əvvəldə qeyd etdiyimiz bir çox digər elmlər kimi o Həzrətə gedib çıxır.

Əgər Mövla Əlinin (ə) əxlaqi xislətlərinə, ruhi və dini fəzilətlərinə nəzər salsaq, onu çox nurani, parlaq və şərafət zirvəsində görərik.

ŞÜCAƏTLİ QƏHRƏMAN

Mövla Əlinin (ə) müharibələrdə göstərdiyi şücaət və qəhrəmanlıqları xalq arasında Qiyamətəcən zərbi-məsəl kimi istifadə ediləcək. O, elə bir pəhləvandır ki, düşmən qarşısından heç vaxt qaçmayıb və heç bir qoşundan qorxusu olmayıb. **"Nəhcül-bəlağə"**nin 45-ci məktubunda buyurulur: **"Allaha and olsun ki, əgər bütün ərəblər mənə qarşı müharibə etməyə birləşsələr, onların qabağından qaçmaram".**

Mövla Əli (ə) vuruşduğu hər bir kəsi birinci zərbədə öldürüb və heç vaxt ikinci zərbəyə ehtiyacı olmayıb. Hədislərdə buyurulub: **"Onun zərbələri həmişə tək və bir olub".**

Mövla Əli (ə) Müaviyəni camaatın onlardan birinin öldürülməsi ilə müharibələrdən can qurtarması üçün təkbətək döyüşə dəvət edəndə, Əmr ibn As Müaviyəyə dedi: **"Əli insaflı söz danışıb. Onunla təkbətək vuruşmağı qəbul et".** Müaviyə dedi: **"İndiyə kimi mənə çox məsləhət vermisən. Bircə bu gündən başqa heç vaxt mənə xəyanət etməmisən. Mənə Əbülhəsən ilə təkbətək döyüşə getmək göstərişi verirsən. Halbuki bilirsən ki, o başı bədəndən ayıran bir qəhrəmandır. Deyəsən, sən məndən sonra Şama başçı olmağa göz dikmisən və buna görə məni ölümün ağzına verirsən".**

Mövla Əli (ə) ilə vuruşda ölmüş şəxslərin qohum-əqrəbası həmin şəxsin o Həzrət tərəfindən öldürülməsi ilə fəxr ediblər. Ərəblərin məşhur pəhləvanı Əmr ibn Əbdəvud Əhzab müharibəsində Mövla Əlinin (ə) əli ilə öldürüldükdən sonra, onun bacısı, qardaşı üçün oxuduğu mərsiyədə belə deyib: **"Əgər Əmri Əlidən başqası öldürmüş olsaydı, həmişə nə qədər ki, sağam ona ağlayardım. Bəli, onu bənzəri olmayan və atası Məkkənin şərəfi olan bir şəxs öldürüb".**

Mövla Əlinin (ə) qol və biləginin gücü də dillərdə dastandır. İbn Quteybə **"Əl-Məarif"** kitabında yazır: **"Əli ibn Əbu Talib (ə) əlbəyaxa olduğu hər bir kəsin kürəyini yerə vurub. Xeybər qapısını yerindən Əli (ə) çıxara bildi və qapı yerindən qoparıldıqdan sonra bir dəstə adam gəlib onu arxaya çevirmək istədi, lakin bacarmadı. Böyüklük və ağırlığına baxmayaraq, Hubəl adlı bütü Kəbənin üstündən yerindən qopararaq atan məhz Əli (ə) olmuşdu. Mövla Əli (ə) xilafəti dövründə bütün qoşunun yerindən qoparmaqda aciz qaldığı daşı təkcə öz əli ilə yerindən çıxartdı və həmin daşın altından su çıxaraq axmağa başladı".**

SƏXAVƏT MƏDƏNİ - MƏNBƏYİ

Mövla Əlinin (ə) səxavəti bütün dünya və xüsusən də İslam aləminə məlumdur. O, oruc tutaraq aclıqdan zəifləməsinə baxmayaraq yenə də öz xörəyini başqasına verərdi.

Hansı ki, Qurani-Kərimdə bu barədə belə buyurulur:

"Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də təşəkkür istəyirik". (**"Əl-İnsan"** surəsi, 8-9-cu ayələr)

Təfsir alimləri yazır: **"Günlərin birində Əlinin (ə) dörd dirhəmdən artıq pulu yox idi. O, həmin pulun bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini gizlin və bir dirhəmini də aşkar sədəqə verdi".**

Bu zaman Qurani-Kərimdə belə bir ayə nazil oldu:

"Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Rəbbin yanında böyük mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər". (**"Əl-Bəqərə"** surəsi, 274-cü ayə)

Mövla Əlinin (ə) öz dilindən nəql olunur ki, o şəxsən özü quyudan su çəkib Mədinə yəhudilərinin bir dəstəsinin xurma ağaclarını suvararmış. Belə ki, onun əli qabar bağlayarmış və bu işdən aldığı pulu sədəqə verərmiş və acından öz qarnına daş bağlayarmış.

Bəni Mərvan dövlətinin hakimiyyəti zamanının böyüklərindən Şəbi adı ilə tanınan Amir ibn Şərahil Kufi Mövla Əlidən (ə) danışanda belə deyirdi: **"O hamıdan səxavətli idi. Ehtiyacı olan yoxsula heç vaxt "yox" cavabı verməzdi. Hətta onunla qatı düşmən olan və ona müxtəlif eyb və nalayiq əməllər nisbət vermək istiqamətində çalışan Müaviyə ibn Əbu Süfyan, Muhfən ibn Əbu Muhfən Zəbi Əlidən (ə) ayrılaraq Müaviyəyə qoşulan zaman Əli barəsində "insanların ən xəsisinin yanından gəlmişəm"-deyəndə Müaviyə dedi: "Vay olsun sənə! Əlini insanların ən xəsisi necə adlandırırsan, halbuki əgər onun bir qızıldan və bir dənə də samandan evi olmuş olsa, qızıl evi saman evdən əvvəl bağışlayar və Allah yolunda sərf edər".**

Bəli, Mövla Əli (ə) bütün var-dövlətini Allah yolunda paylayır və evi süpürüb orada namaz qılırdı. O deyirdi: **"Ey dünyanın qızıl-gümüşü! Məndən başqasını aldadın".**

Mövla Əli (ə) özündən sonra heç bir miras qoymadı. Halbuki, Şamın az bir hissəsi istisna olmaqla İslam dünyası onun əlində idi.

SƏBR VƏ HƏLİMLİK DƏRYASI

Mövla Əli (ə) səbr, həlimlik və günahdan keçmək baxımından da insanların ən çox güzəşt edəni, təqsirdən ən çox keçəni olub. O həmçinin özü barəsində pislik etmiş şəxsləri də bağışlamağı bacarardı. Mövla Əli (ə) Cəməl müharibəsində o Həzrətə qarşı ən çox ədavət bəsləyən Mərvan ibn Həkəmə qalib gəldikdən sonra onu bağışlayaraq günahından keçdi.

Abdullah ibn Zübeyr aşkar şəkildə və hamının hüzurunda Mövla Əlinin (ə) əleyhinə danışırdı. Cəməl müharibəsində də çıxış edərək ona qarşı çox ədəbsizliklər etdi və dilinə nalayiq, çirkin sözlər gətirdi. Elə həmin müharibədə Mövla Əli (ə) qalib gələrək onu əsir götürdü. Sonra onu bağışlayaraq dedi: **"Get, bundan sonra mənim gözümə görünmə".** Bundan artıq ona heç bir söz demədi.

Həmçinin Cəməl müharibəsindən sonra qatı düşmənlərindən olan Səid ibn Ası ələ keçirdi, lakin heç bir söz deməyib ondan üz döndərdi və onu sərbəst buraxdı.

Bəsrə əhalisi Mövla Əli (ə) ilə müharibə etdi, ona və övladlarına qarşı qılınc çəkdi. Onlar Həzrət Əliyə (ə) föhüş (söyüş) verdilər, ona

nifrin etdilər. Amma Mövla Əli (ə) qalib gəldikdən sonra onları bağışladı, göstəriş verdi ki, qoşunun carçıları qaçanların təqib edilməməsini, heç bir xəstə və yaralının başının kəsilməməsini, əsir alınanın öldürülməməsini, öz silahını yerə qoyanın və həmçinin qoşununa qoşulanın amanda olacağını elan etsinlər. İmam Əli (ə) bəsrəlilərin ona qarşı bütün düşmənçiliklərinə baxmayaraq onların ev və mallarını əllərindən almadı, arvad-uşaqlarını əsir götürmədi, var-dövlətlərindən heç nəyi qənimət kimi ələ keçirmədi. Halbuki, əgər istəsəydi, bütün bunları edə bilərdi. Amma o əfv edərək bağışlamaqdan başqa bir iş görmədi və Peyğəmbərin (s) Məkkənin fəthində etdiyi sünnəyə tabe oldu. O bağışladı, amma ona qarşı olan kinlər sönmədi və pisliklər unudulmadı.

FƏSAHƏT QƏHRƏMANI

Mövla Əli (ə) fəsahət və bəlağət sahiblərinin də ağasıdır. Onun fikirləri barəsində belə deyilib: **"Əlinin (ə) kəlamı Yaradanın kəlamından aşağı, yaradılmışın kəlamından üstündür. Camaat natiqlik və qələmə alma qaydalarını ondan öyrənib".**

Öz zəmanəsinin ən fəsahətli şəxslərindən və Mərvani xəlifələrinin katibi olmuş Əbdülhəmid ibn Yəhya yazır: **"Əlinin (ə) xütbələrindən yetmişini öyrəndim və bu xütbələr mənim üçün dayanmadan qaynayan fəsahət və bəlağət çeşmələri oldu".**

IV əsrin çox məşhur yazıçı və xətiblərindən İbn Nəbatə yazır: **"Əlinin (ə) xütbələrindən elə bir xəzinə əzbərlədim ki, ondan hər nə qədər işlədiməmsə fəsahət və bəlağətimin artmasına səbəb olur. Mən Əli ibn Əbu Talibin (ə) moizə və öyüd-nəsihətlərindən yüz xütbə əzbərləmişəm".**

Muhfən ibn Əbi Muhfən Mövla Əliyə (ə) kömək etməkdən əl götürüb Müaviyənin yanına gedəndə Müaviyəyə dedi: **"İnsanların söz danışmaqda ən acizinin yanından sənin yanına gəlmişəm." Müaviyə dedi: "Vay olsun sənə! And olsun Allaha ki, Qureyşə fəsahət qaydalarını ondan başqası öyrətməyib və həmin qaydaları onların arasında bir qanun şəklinə yalnız o salıb".**

Onun kəlamının cazibədarlığı və gözəlliyi barəsində yazılanların onda biri, bəlkə də iyirmidə biri fəsahət və bəlağət sahiblərinin heç biri haqqında yazılmayıb.

KAMİL ZAHİDLİK

Mövla Əli (ə) bütün zahid və pəhrizkarların başçısı və övliyaların seçilmişidir. O, bütün zahidlərə örnək olmaqla bərabər, həm də böyük məktəbdir.

Mövla Əli (ə) yemək və geyim baxımından da öz təvazökarlığı ilə hamıdan seçilmişdir. Onun paltarları çox zaman yanmamış dəridən və ya cod bezdən olardı.

Çörək ilə nəsə bir yavanlıq yemək istəyəndə ona bir az duz və ya sirkə əlavə edərdi. Bəzən də göyərtidən istifadə edərdi. Ondan da yaxşı yemək istəsəydi, bir az dəvə südü ilə kifayətlənərdi. Az bir miqdar istisna olmaqla ət yeyərdi. Necə ki, Əli (ə) Osman ibn Hüneyf Ənsarinin cavabında buyurur:

"Bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla, yeməklərdən isə iki tikə çörəklə kifayətlənib…

Allaha and olsun ki, sizin dünyanızdan qızıl toplamamışam, onun qənimətlərindən çoxlu mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir paltar hazırlamamışam. Əgər istəsəm, yolumu bir balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma, Hicazda, yaxud Yəmamədə kiminsə bir tikə çörəyə ümidsiz olması və tox halda yatdığı vaxtı yadından çıxartması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi, məndən necə də uzaqdır! Həmçinin ətrafımda ac qarın və isti ciyərlər ola-ola tox qarınla yatmaq məndən çox-çox uzaqdır". (**"Nəhcül-bəlağə"**, 45-ci məktub)

Həmçinin buyurardı: **"Qarınlarınızı heyvan qəbristanlığına döndərməyin".**

Bütün bunlarla yanaşı, o, hamıdan güclü və qüvvətli idi. Aclıq onun gücünü azaltmır, az yemək onun qüvvəsini zəiflətmirdi. O Əli (ə) idi ki, dünyanın təlağını vermişdi və Şamdan başqa bütün İslam torpaqlarının mallarının ona göndərilməsinə baxmayaraq, onların hamısını paylayar, öz yerində sərf edərdi. Bir şer oxuyardı ki, mənası belə idi: **"Bu mənim seçdiyim yol və üsuldur ki, bütün yol və üsulların ən yaxşısıdır. Çünki hər bir meyvəyığan meyvəni öz**

ağzına qoyur. Mənası budur ki, hər bir əməlin nəticəsi onu yerinə yetirənə qayıdır".

"Nəhcül-bəlağə"nin 3-cü xütbəsinin sonunda deyilir: **"Bilirsiniz ki, sizin dünyanız mənim üçün dişi keçinin burun suyundan da dəyərsizdir".**

Digər bir yerdə buyurur: **"Sizin dünyanız mənim gözümdə yabanı şabalıd ağacının acı dənəsindən də dəyərsizdir".**

Bütün bunlarla bahəm Mövla Əli çox mehriban və xoşrəftar idi.

Mövla Əli (ə) həqiqətən xoşrəftar, gülərüzlü, gözəl sözlər danışan, təbəssümlü və digər bəyənilən fəzilətlər baxımından da dillər əzbəri idi. Səsəə ibn Sohan demişdir: **"Əli (ə) bizim aramızda bizlərdən biri kimi idi. O çox təvazökar, mülayim, xoşrəftar, yaxşı davranış sahibi idi. Amma bununla belə o, elə bir heybət və əzəmətə malik idi ki, onun yanında dilimiz tutulur və özümüzü tam ədəblə aparırdıq".**

Qeys ibn Səid demişdir: **"Əli (ə) öz səhabələri ilə çox zarafatcıl və gülərüz idi. Necə ki, Allahın Peyğəmbəri (s) öz səhabələrilə zarafat edər və onlara təbəssüm edərdi. Lakin Allaha and olsun ki, bütün gülərüzlülük və zarafatcıllığına baxmayaraq, şirdən də heybətli idi və həmin heybət Əlinin (ə) təqva və pəhrizkarlığından irəli gəlirdi. Əlinin (ə) bu xüsusiyyət və xisləti indiyə kimi irsi olaraq onun dost və davamçılarına da keçib. İnsanların xasiyyəti ilə azacıq tanış olanlar onun şiə və davamçılarında belə bir xüsusiyyətin olmasını görərlər."**

İLAHİ QANUNLARIN GÖZƏTÇİSİ, ABİDLƏR ABİDİ

Mövla Əli (ə) ilahi qanunların qorunması, ilahi hökmlərin ciddi tutulması və onlardan kənara çıxanların cəzalandırılması məsələsində Qurani-Kərimdə göstərilən ehkamlara layiqincə əməl etməkdə sabitqədəm olmuşdur. O, **"Nəhcül-Bəlağə"**nin 215-ci xütbəsində İlahi hökmlərin qorunması və onlardan kənara çıxmamaq barəsində buyurur: **"Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlik edim, etmərəm".**

Allah yolunda çox möhkəm idi və Allahdan başqa heç nəyi nəzərə almırdı. Belə ki, əmisi oğluna verdiyi hakimiyyətdə heç nəyi nəzərə almadı. Həmçinin qardaşı Əqilin ondan beytülmaldan artıq mal istəməsini nəzərə almadı. Onu Allah kimi tanıyıb etiqad bəsləyən bir dəstənin cəzalandırılması barədə göstəriş verməsi də Əli (ə) əqidəsinin bariz nümunəsidir. Həzrət Əlinin (ə) haqq çərçivəsi, Allahın hökmlərinin icrası yolunda müqavimət göstərməsi, möhkəm dayanması və barışmazlığını sübut etmək üçün Cəməl, Siffeyn və Nəhrəvan müharibələrində baş vermiş hadisələrə diqqət etmək kifayətdir. Dünyada heç bir siyasətçinin onun və səhabələrinin qəhrəmanlıq və şücaətinə malik olmaması, gördüklərini görə bilməməsi qənaətinə gələ bilərik. Bunlar bəyənilən bəşəri sifətlər, xislətlər və məziyyətlərdir. Beləliklə, bir daha bizə aydın olur ki, Mövla Əli (ə) onların hamısından rəftar və davranışına tabe olunmalı imam və arxasınca gedilməli başçıdır.

Mövla Əli (ə) ibadətdə də camaatın ən abidi idi. Namaz və oruc kimi ibadətləri yerinə yetirməyə hamıdan çox çalışardı. Camaat namaz qılmağı, dua, münacat və zikrlərin necəliyini ondan öyrənirdi. Hətta **"Hərir"** gecəsində (Siffeyn müharibəsində döyüşlərin səhərə kimi şiddətli şəkildə davam etdiyi gecədə) belə, diqqəti namazda olan və döyüş meydanında yerə bir parça dəri saldırıb hər tərəfdən-sağdan, soldan, qarşıdan və arxadan keçərək ayağının altına düşən ox yağışı altında namaz qılan və həmin vəziyyətdə heç bir qorxu və vahimə keçirməyən şəxs barəsində nə demək olar?! Səcdənin çoxluğundan alnı dəvənin dizi kimi qabar bağlamış şəxs barəsində nə demək olar?!

Əgər o Həzrətin dua və münacatlarına diqqət yetirilsə, onlarda Allahın əzəmət və cəlal sahibi kimi mədh edilməsinə nəzər salınsa və onlarda Allahın izzət və heybəti müqabilində nə həddə təvazökarlıq, kiçiklik hissi, təslimçilik olmasına baxılsa, o Həzrətin ixlasının nə dərəcədə olması, həmin sirrlərin hansı qəbildən nəşət etməsi və hansı dillə cari olması məlum olar. İbadətdə son həddə çatmış və məhz bu səbəbdən **"səcdə edənlər və abidlərin ağası"** adı verilmiş İmam Əli ibn Hüseyn (ə) deyirlər: **"Babanın ibadəti müqabilində sənin ibadətin nə dərəcədədir? Buyurur: mənim ibadətim onun ibadəti müqabilində onun ibadəti Peyğəmbərin (s) ibadəti müqabilində olan kimidir".**

III FƏSİL

MÖVLA ƏLİNİN (Ə) HİCRƏTİ

Qüreyş başçıları **"Darun-nədvə"** adlanan yerdə bir araya gəlmişdilər. Həzrət Peyğəmbərə (s) Allah tərəfindən vəhy gəldi ki, o gecə yatağında yatmasın və elə gecəylə də köç etsin. **(Sireyi İbn Hişam, 1-ci cild, səh. 480 və 483).**

İslam Peyğəmbəri (s) bu İlahi fərmanı Mövla Əliyə (ə) nəql etdikdən sonra ona gecə öz yerində (Peyğəmbərin (s) yatmağı tapşırır. Bu məsələ Əlinin Peyğəmbərin evində, onun yatağında yatması, o qədər əzəmətli bir hadisəyə çevrilir ki, hətta bu barədə Qurani-Kərimdə ayə də nazil olur:

"İnsanlardan, bir nəfər var ki, Allah yolunda onun razılığı üçün öz canın satır. Allah bəndələrinə mehribandır".

Yuxarıda qeyd etdiyimiz kimi, Həzrət Peyğəmbər (s) hicrət etdikdən sonra az bir müddət keçməmiş Əbu-Vaqid Leysi bir məktub gətirib Mövla Əliyə (ə) təqdim edir. Peyğəmbər (s) hicrətin üçüncü gecəsi hələ mağarada olarkən İmam Əliyə (ə) şifahi dediklərini həmin məktubda bir daha nə edəcəyini yazıb göstəriş vermişdi. Göstərişə əsasən, İmam Əli (ə) Peyğəmbər Əhli-beytinin qadınlarını və mühacirət etməyə meyli olanlara da köməklik edib Mədinəyə aparmalı idi.

İmam Peyğəmbərin (s) camaatın əmanətləri barəsində olan vəsiyyətlərinə çox dəqiq şəkildə əməl etdikdən sonra özünün və yaxın adamlarının Mədinə səfəri üçün tədarük görməyə başladı. O, mühacirət etmək istəyənlərə məxfi şəkildə Məkkədən çıxaraq **"Zum-Tuva"** adlı yerdə karvanın onlara çatana kimi gözləmələrini xəbər göndərdi. Buna baxmayaraq, İmam Əli (ə) özü günorta çağı səfərə çıxdı və qadınları Ümmü-Əymənin oğlu Əymənin köməyi ilə kecavələrə mindirib Əbu-Vaqidə dedi: **"Dəvələri asta sür, çünki qadınlar dəvənin sürətli getməsinə dözə bilməzlər".**

İbn Şəhraşub yazır: **"Peyğəmbərin (s) əmisi Abbas Əlinin (ə) düşmənlərin gözü qarşısında Məkkəni tərk edib, qadınları da özü ilə aparmaq istəyindən xəbər tutdu. Buna görə də dayanmadan özünü Əliyə (ə) çatdırıb dedi: Mühəmməd (s) Məkkəni gizli tərk etdi. Qureyş də onu tapmaq üçün Məkkənin bütün**

nöqtələrini və ətrafını axtarır və ya axtartdırır, sən isə bu qədər adamla düşmənlərin gözü qarşısında Məkkədən necə çıxacaqsan? Bilmirsənmi ki, səni tutub saxlayacaqlar?" İmam Əli (ə) əmisinə belə cavab verdi: "Gecə mağarada Peyğəmbərlə (s) görüşdüyüm və onun mənə Haşimi qadınları ilə birlikdə mühacirət etməyimə dair göstəriş verdiyi vaxt müjdə verdi ki, bundan sonra mənə daha xətər yetişməyəcək. Mənim öz Allahıma etimadım və Mühəmmədin (s) sözünə imanım var, onun yolu mənim yolumdur. Buna görə də gündüz Qureyşin qarşısında Məkkəni tərk edəcəyəm!"

İmam Əli (ə) dəvələri aparmağı üzərinə götürən Leysin Qureyş çatmasın deyə dəvələri qovmasını görüb tələsməməsini məsləhət görərək dedi: **"Peyğəmbər mənə buyurmuşdur ki, bu yolda sənə heç bir xətər yetişməyəcək".** Sonra isə dəvələri sürməyi öz öhdəsinə alıb belə bir rəcəz oxudu: **"İşlərin idarə olunması yalnız Allahın əlindədir, ona görə də hər bədgüman şəxsi özündən uzaq et, çünki alimlərin rəbbi hər bir ehtiyac üçün kafidir".** (Şeyx Tusi, **"Amali"**, səh. 299, **"Biharül-Ənvar"**, 19-cu cild, səh. 65).

Artıq İmamın (ə) müşayiət etdiyi karvan Məkkə şəhərini xeyli arxada qoyub **"Zəcnan"** adlı yaşayış yerinə yaxınlaşırdı. Elə bu zaman uzaqdan yeddi nəfər niqablı şəxs göründü. Onlar atlarını sürətlə karvana tərəf çapırdılar. Mövla Əli (ə) qadınlar üçün baş verə biləcək hər hansı bir təhlükənin qarşısını almaq üçün Vaqid və Əymənə dərhal dəvələri yatırdıb ayaqlarının bağlanmasını göstəriş verdi. Sonra özü qadınları dəvədən düşürmək üçün kömək etdi. Bu vaxt niqablı süvarilər qılınclarını sıyırıb qəzəbdən boğazları qurumuş halda kobud ifadələr işlətməyə başladılar:

- Sən elə təsəvvür edirsən ki, bu qadınlarla birlikdə bizim əlimizdən qaça bilərsən? Hökmən geri qayıtmalısan!

- Mövla Əli (ə) dedi:

- Qayıtmasam nə olacaq?

- Dedilər:

- Səni zorla qaytararıq və yaxud başını özümüzlə apararıq.

Bunu deyib dəvələri qaldırmaq üçün onlara yaxınlaşdılar. Mövla Əli (ə) qılıncı sıyırıb onların qabağını kəsdi. Onlardan biri İmam Əliyə (ə) həmlə etdi. Mövla onun qılıncını rədd edib özünə tərəf qaytardı.

Sonra gözləri qəzəblə dolmuş halda hücum edib qılıncını Cinah adlı birisinin üstünə çəkdi. At hürkdüyündən qılınc ondan ötüb atı yaraladı. Mövla Əli (ə) yenidən hucum edib qəzəbli səslə dedi: **"Mən Mədinəyə yola düşmüşəm və Allah Rəsulunun hüzuruna yetişməkdən başqa bir məqsədim yoxdur. Hər kəs istəyir ki, mən onu tikə–tikə edib qanını axıdam, onda mənim ardımca gəlsin, yaxud mənə yaxınlaşsın!"**

Bunu deyəndən sonra Əymənə və Əbu–Vaqidə qalxıb dəvələrin ayaqlarını açmağı və yollarına davam etməyi əmr etdi.

Düşmənlər Mövla Əlinin (ə) onlarla axıra kimi vuruşmağa hazır olduğunu gördülər. Və bildilər vuruşu davam etdirsələr, bir nəfər də salamat geri dönməyəcək. Buna görə də fikirlərindən əl çəkib Məkkəyə – geriyə döndülər.

İmam Əli (ə) isə karvanla birgə Mədinəyə tərəf öz yoluna davam edib Zəcnan dağının yaxınlığında bir gün istirahət etdilər. Bu həm də başqa mühacirət etmək istəyənlərin gəlib onlara qoşulmaları üçün idi. Onlardan biri də ömrünün sonuna kimi Allah Peyğəmbərinin (s) ocağından ayrılmayan iffətli qadın – Ümmü Əymən idi.

İslam tarixşünaslığı İmam Əlinin (ə) bu yolun hamısını piyada gəldiyini yazır. Hətta bildirilir ki, yol boyu bütün mənzillərdə Allahın zikri O Həzrətin mübarək ağzından düşmədi, namazı da həmsəfərləri ilə birlikdə qıldı. Təfsirçilər bəzi ayələrin bu barədə nazil olduğunu qeyd edirlər. (Şeyx Tusi, **"Amali"**, 1-ci cild, səh. 301- 303).

"O kəslər ki, Allahı (bütün hallarda:) ayaq üstə, oturaq yerdə və ya böyrü üstə yatmış halda yad edib asimanların və yerin xilqəti (yaranışı) barəsində fikirləşirlər və deyirlər ki, İlahi, sən bu böyük xilqətin nizam–intizamını səbəbsiz və məqsədsiz olaraq yaratmamısan".

İmam Əli (ə) və onun səfər yoldaşları Mədinəyə çatarkən gördülər ki, Peyğəmbər (s) də onların görüşünə tələsir. Peyğəmbərin (s) gözü Əliyə (ə) sataşanda gördü ki, onun mübarək ayaqları şişmiş və ayağından qan damcıları axır. O, Əlini (ə) qucağına aldı və gözləri mehr–məhəbbət yaşı ilə doldu. (**"Elamül-Vəra"**, səh. 192; **"Tarixi-Kamil"**, 2 – ci cild, səh. 75)

Məkkədən gələn mühacirlər şəhər əhalisi tərəfindən mehribanlıqla qarşılandı. Mədinəlilər onları ev və digər məişət əşyaları ilə təmin etdilər. Aralarında möhkəm dostluq və qardaşlıq münasibətləri yaran-

mışdı. Həzrət Peyğəmbər (s) Quran baxımından vaxtaşırı moizə oxuyur və **"İslam qardaşlığı"**nın fəziləti haqqında onları məlumatlandırırdı. İslam Peyğəmbəri (s) həmçinin bu qardaşlıq bağlılığını möhkəmləndirmək istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi.

Qeyd edək ki, mühacirlər Mədinəyə gəldikdən sonra ilk dəfə olaraq qardaşlıq siğəsi Ənsarın iki şaxəsi - Ovs və Xəzrəc qəbilələri arasında Peyğəmbərin (s) bilavasitə iştirakı ilə bağlandı. Mədinə əhli olan və uzun illər boyu bir–biri ilə müharibə aparan bu iki qəbilə Həzrət Mühəmmədin (s) göstərdiyi səy nəticəsində qardaş oldular və olub-keçənləri unutdular.

Həzrət Peyğəmbər (s) istəyirdi ki, onun köməkçiləri – istər Ənsar olsun, istərsə də Mühacir, bir-birilə qardaş olsunlar və hər biri özü üçün bir qardaş seçsin. Çox hallarda iki Mühacir bir Ənsarla qardaşlıq əqdi bağlayıb əllərini sıxdılar.

Moizələrin birində Peyğəmbər (s) ayağa qalxıb dostlarına xitabən buyurdu: **"Dəfələrlə dediyim kimi, bu gün də deyirəm, Allah yolunda bir-birinizlə (iki-iki) qardaş olun. Aranızda qardaşlıq siğəsi oxunsun".**

Şəriətdə **"qardaşlıq siğəsi"** oxumaq doğma qardaşa bərabər olmaq deməkdir.

Tarixi mənbələrdə Həzrət Peyğəmbərin (s) fərmaişindən sonra Mühacir və Ənsar bir-biri ilə qardaşlıq əqdi bağlayanların adları qeyd olunmuşdur. Onlardan Əbu Bəkr - Ömərlə, Osman - Əbdürrəhman ibn Of ilə, Təlhə - Zübeyr ilə, Übeyy İbn Kəb - İbn Məsud ilə, Əmmar-Əbu Huzeyfə ilə, Salman-Əbu Dərda ilə və s. qardaşlıq əqdi bağlamış və bu əqdlər Peyğəmbər (s) tərəfindən təsbit olunmuşdur. Bir neçə nəfərin arasında bağlanmış bu qardaşlıq əqdi Qurani-Kərimin İslam dünyası miqyasında elan etdiyi və bütün möminləri bir-birinin qardaşı hesab etdiyindən fərqli olaraq siğə qardaşlarıdır.

Xəbərdə buyurulur ki, Peyğəmbər (s) Məscidün-Nəbidə olanların hərəsi üçün bir qardaş təyin etdi. Bu vaxt Həzrət Əli (ə) tək qaldı və onun üçün qardaş təyin olunmadı. Mövla Əlinin (ə) gözləri yaşla dolmuş halda Peyğəmbərin (s) hüzuruna gəlib dedi: **"Dostlarından hər biri üçün bir qardaş təyin etdin, amma mənimlə bir kəsin arasında qardaşlıq əqdi bağlamadın!"**

Bu zaman Həzrət Peyğəmbər (s) İmam Əliyə (ə) olan əqidə və ideya yaxınlığını bildirən öz tarixi kəlamını söylədi: **"Sən bu dünyada**

və axirətdə mənim qardaşımsan. Məni peyğəmbər seçən Allaha and olsun ki, səni yalnız özümə qardaş seçmək üçün axıra saxladım. Sən həm dünyada, həm də axirətdə mənim qardaşımsan".

Bu kəlam Əlinin (ə) Peyğəmbər (s) ilə olan mövqeyini – mənəviyyat, paklıq və dini məqsədlərlə bağlı ixlas məqamını aşkar şəkildə sübut edir.

Əhli-sünni alimlərindən olan **"Mühibiddin Təbəri"**, kitabının müəllifi öz kitabında bu həqiqəti etiraf etmişdir. (**"Ər–Riyazün–Nəzrət"** 2-ci cild, səh. 16).

Buradan **"mübahələ"** (qarğış etmə) ayəsinin əsas amili də bir daha aydın olur. Ayədə buyurulur:

"İsanın Allahın qulu və peyğəmbəri olması barədə sənə göndərilən bilikdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair sənin*lə *mübahisə edənlər olsa, onlara de: Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini dilə-yək!" (**"Ali-İmran"** surəsi, 61-ci ayə)

Təfsir alimlərinin hamısı bu ayədə əsas məqsədin Əli ibn Əbu Talib olduğunu bildirir. Qurani-Kərim onu - Əlini (ə) Nəfsi–Peyğəmbər - Peyğəmbərin özü hesab etmişdir. Çünki ruhi və fikri cazibələr təkcə iki həmfikir şəxsi bir–birinə doğru çəkmir, həm də bəzi vaxtlarda iki nəfəri bir nəfər kimi göstərir. Sanki Mövla Əli (ə) Peyğəmbərin (s) cismində ikinci bir ürək idi. Çünki Peyğəmbərin (s) - **"Sən mənim özümsən"** kəlamı adi insanların dediyi kimi sayılmaz, bu eyni həqiqətdir.

MÖVLA ƏLİNİN (Ə) VİLAYƏTİ HAQQINDA BİR NEÇƏ DƏLİL

İslam tarixi alimlərinin böyük əksəriyyəti göstərir ki, Peyğəmbər (s) öz risalətini elan etdiyi bir gündə elə özündən sonra Əlinin (ə) canişin və xilafətini də elan etmişdi.

Həzrət Peyğəmbər (s) iyirmi üç illik risaləti müddətində hərdən işarə və kinayə ilə, dəfələrlə isə aşkar şəkildə Mövla Əlinin (ə) üm-

mətin rəhbərliyinə layiq olmasını cammata çatdırmış, vəfatından sonra Mövla Əliylə (ə) çəkişmələrinə və müxalifətçilik etmələrinə ehtimal verdiyi şəxslərə öyüd - nəsihət etmiş bəzən də onları ilahi əzabla qorxutmuşdu.

Mövla Əli (ə) Allah-Təalanın əmri ilə Həcc mövsümündə əl-Bəraət surəsini – bütpərəstliyin kökünü kəsən xüsusi qətnaməni, bütün ərəb qəbilələri üçün oxudu və bu iş üçün Peyğəmbərin (s) düz yoluna arxalandı.

Qəribədir ki, Bəni Amir qəbiləsinin rəisi Peyğəmbərə (s) təklif edəndə ki, onun ayinini son nəfəsədək müdafiə etməyə bu şərtlə hazırdır ki, özündən sonra rəhbərliyi ona tapşırsın. Peyğəmbər (s) cavabda buyurdu: **"Bu iş Allahın ixtiyarındadır və hər kəsi bu iş üçün seçsə, o mənim canişinim olacaqdır".**

Beləliklə, Peyğəmbər (s) müxtəlif yerlərdə müxtəlif ibarələrlə Əlini (ə) öz canişini kimi təqdim edərək bu barədə ümmətə xəbərdarlıq edirdi: Allah Əlini canişinliyə və xilafət üçün seçmişdir. Bu iş məhz Allah-Təalanın işidir. Mən **(Peyğəmbər)** bu işdə ixtiyar sahibi deyiləm. Burada bunlardan bir neçə nümunəni qeyd edirik:

1. Besətin əvvəlində, Peyğəmbər (s) Allah tərəfindən öz qohum – əqrabasını İslama dəvət etmək barədə fərman alanda elə o məclisdə Əlini (ə) öz canişini, vəziri və xəlifəsi elan etmişdir.

2. Peyğəmbər (s) Təbukə yola düşəndə, Əlini (ə) onunla olan münasibətini Musa ilə Harunun münasibəti kimi bəyan etmiş və təkid etmişdir ki, - Nübuvvətdən başqa – Harunun malik olduğu bütün mənsəblərə malikdir.

3. Bəridəyə və digər İslam şəxsiyyətlərinə dedi: **"Məndən sonra Əli (ə) ümmətin ən layiqli rəhbəridir".**

4. Qədir-Xumda yetmiş min nəfərlik (yaxud daha çox) bir yığıncaqda Əlinin (ə) əlindən tutub onu camaata təqdim edərək camaatın bu barədə vəzifəsini müəyyənləşdirdi.

Qeyd etdiyimiz bu aşkar dəlillərdən əlavə, Peyğəmbər (s) bəzi siyasi işləri Əliyə (ə) tapşırırdı. O, bu yol ilə İslam cəmiyyətinin fikirlərini Əlinin rəhbərliyinə diqqət vermək üçün hazırlayırdı.

Elə bir vaxt gəlib çatmışdı ki, Peyğəmbər (s) hər növ bütpərəstlik nişanələrini və qeyri - insani hərəkətləri hərbi qüvvə ilə məhv etsin və zor gücündən istifadə etməklə ictimai və əxlaqi fəsadların ümdə

mənşəyi olan və insaniyyətə bir növ təcavüz sayılan bütpərəstliyin kökünü kəssin;

Allah və onun Rəsulunun bezarlığını (müşriklərdən uzaq olmaq) Minada Qurban bayramı günündə müsəlmanların hicazın bütün nöqtələrindən gələrək iştirak etdikləri böyük bir yığıncaqda elan etsin;

həmçinin o həzrətin özü, yaxud başqa bir şəxs Allah və onun peyğəmbərinin müşriklərdən bezarlığını xəbər verən əl-Bəraət surəsinin ilk ayələrini o böyük yığıncaqda oxusun və uca səslə hicaz bütpərəstlərinə elan etsin ki, onlar gərək dörd ay müddətində öz vəziyyətlərini aydınlaşdırsınlar; əgər tövhid dininə iman gətirsələr müsəlmanların cərgəsində məziyyətlərindən bəhrələnəcəklər; əgər öz inad və tərsliklərində qalsalar, dörd aydan sonra müharibəyə hazırlaşsınlar və bilsinlər ki, harada tutulsalar, öldürüləcəklər.

Əl-Bəraət surəsinin ayələri nazil olan vaxt Peyğəmbərin (s) həcc mərasimində iştirak etmək fikri yox idi. Çünki ondan qabaqkı il – Məkkənin fəth olunduğu il həcc mərasimində iştirak və qərara almışdı ki, gələn ilki həccdə iştirak etsin. (Sonralar bu həcc həccətül – vida adlandı.)

İyirmi ildən artıq idi ki, İslamın şirk və ikiallahlılıq barəsində olan məntiqi Hicaz vilayəti və müşrik ərəb qəbilələri arasında yayılmışdı. Onların təqribən hamısı İslamın bütlər və bütpərəstlər barəsində olan fikrindən xəbərdar idi. Bilirdilər ki, bütpərəstlik ata-babalardan olan qalan batil təqliddən başqa bir şey deyildir. Onların batil məbudları o qədər zəlil və xardırlar ki, təkcə başqaları barəsində bir iş görməkdə aciz deyil, hətta bir zərəri özlərindən kənar etməyə, yaxud bir fayda verməyə də qadir deyillər. Belə alçaq və biçarə məbudlar, əlbəttə, ibadətə və sitayişə layiq ola bilməzlər.

Peyğəmbərin (s) sözlərinə saf vicdanla və pak qəlblə qulaq asan şəxslər öz həyatlarında dərin dəyişikliklər edərək bütpərəstlikdən tövhidə və təkallahlığa doğru yönəldilər.

Buna görə də İlahi peyğamları çatdırmaq üçün hökmən bir nəfər seçməli idi. Əvvəlcə Əbu-Bəkri hüzuruna çağırıb Bəraət surəsinin ilk ayələrini ona öyrətdi, onu qırx nəfərlə birlikdə bu ayələri Qurban bayramı günündə onlara (müşriklərə) oxumaq üçün Məkkəyə göndərdi, Əbu-Bəkr Məkkəyə yola düşdü. Gözlənilmədən İlahi vəhy nazil oldu və Peyğəmbərə (s) əmr olundu ki, bu peyğamları gərək ya Peyğəmbərin (s) özü, yaxud onun yaxınlarından Əhli-Beytdən olan bir şəxs

camaata çatdırsın. Bu iki nəfərdən qeyrisinin bu iş üçün səlahiyyəti yoxdur. (**İbn Hişam Sirə,** 4-cü cild, səh. 545).

İndi görək vəhyin dediyi kimi, Peyğəmbərin (s) Əhli-Beytindən olan kimdir. Çox keçmədi ki, Peyğəmbəri-Əkrəm (s) Əlini (ə) çağırıb ona fərman verdi ki, Məkkəyə yola düşüb Əbu-Bəkrə çatsın və ayələri ondan alıb desin ki, İlahi vəhy Peyğəmbərə (s) əmr etmişdir ki, bu ayələri camaata ya Peyğəmbərin (s) özü, yaxud onun Əhli-beytindən olan bir şəxs oxusun və bu cəhətdən bu işin yerinə yetirilməsi ona həvalə olunmuşdur.

Mövla Əli (ə) Peyğəmbərin (s) xüsusi dəvəsinə minib Cabir və Peyğəmbərin (s) dostlarından bir qrupu ilə birlikdə Məkkəyə doğru yola düşdü, o həzrətin sözlərini Əbu-Bəkrə (r) çatdırdı, O da ayələri Əliyə (ə) təhvil verdi.

Mövla Əli (ə) Məkkəyə daxil oldu. Zilhiccə ayının onunda Cəmreyi Əqəbənin yuxarısına çıxıb uca bir səslə Bəraət surəsinin on üç ayəsini oxudu və Peyğəmbərin (s) dörd maddədən ibarət olan qətnaməsini orada iştirak edənlərin hamısına eşitdirdi. Bütün müşriklər başa düşdülər ki, öz vəzifələrini müəyyənləşdirmək üçün yalnız dörd ay möhlətləri var. Quranın ayələri və Peyğəmbərin (s) qətnaməsi müşriklərin fikirlərinə qəribə bir təsir etdi. Hələ dörd ay tamam olmamış müşriklər dəstə-dəstə İslam dininə iman gətirdilər. Hicrətin onuncu ili sona çatmamış Hicazda şirkin kökü kəsildi.

Heç şübhəsiz, alimlərin nəzərincə, xilafət ilahi bir mənsəbdir və Allah tərəfindən İslam cəmiyyətinin ən ləyaqətli və ən bilikli şəxsinə verilir. Peyğəmbərlə İmam arasında olan aydın sərhəd və hədd budur ki, Peyğəmbər (s) şəriətin əsasını qoyan, vəhyin nazil olduğu şəxsdir, həmçinin kitab sahibidir, amma baxmayaraq ki, İmam bu işlərdən heç birinə malik deyil, lakin hökumət işləri və rəhbərlikdən başqa, İmam Peyğəmbərdən (s) sonrakı dövrlərdə meydana çıxan çətin və müəmmalı dini məsələləri izah edərək aydınlaşdıran Canişin və vəsidir.

Həmçinin vəsi və xəlifə təkcə dövrün hakimi, İslamın rəhbəri, qanunların icraçısı, hüquqları qoruyan və ölkə sərhədlərinin keşikçisi yox, yeri gəlmişkən çətin məzhəbi məsələləri aydınlaşdıran müəyyən səbəblərə görə dinin banisi tərəfindən bəyan olunmayan hökmləri və qanunları təkmilləşdirən şəxsdir.

Xilafətin həqiqəti barəsində mövcud olan nəzəri ixtilaflar əsasında müsəlmanların arasında iki müxtəlif cinah vücuda gəldi ki, indiyə kimi də bu ixtilaflar qalmaqdadır. Birinci nəzəriyyəyə əsasən, Peyğəmbər (s) üçün lazım olan şərtlər İmam üçün də lazımdır. Bu şərtlər aşağıdakılardır:

1. Peyğəmbər gərək məsum (pak) olsun. Yəni bütün ömrü boyu günah iş görməsin və dini hökmləri və həqiqətləri bəyan etməkdə, camaatın məzhəbi süallarına cavab verməkdə səhvə və xətaya yol verməsin. İmam da belə olmalıdır. Hər ikisinin də dəlili eynidir.

2. Peyğəmbər şəriətdə ən bilikli şəxs olmalı və məzhəbi məsələlərdə heç biri onun üçün məxfi qalmamalıdır. İmam da Peyğəmbər zamanında bəyan olunmayan şəriət məsələlərini bəyan və təkmil edən olduğu üçün gərək dini hökmlərdə və məsələlərdə ən bilikli şəxs olsun.

3. Nübüvvət seçki yolu ilə yox, nəsb (yəni Allah tərəfindən təyin olunma) yolu ilə olmalıdır. Peyğəmbəri gərək Allah tanıtsın və onun tərəfindən peyğəmbərlik məqamına nəsib olunsun. İmam da həmçinin Allah-Təala tərəfindən Peyğəmbərə əmr olunsun və Peyğəmbər onu xəlqə tanıtsın. Çünki yalnız peyğəmbər məsumu qeyri-məsumdan seçir, dinin bütün incəliklərinə vaqif və agah olan kəsi tanıyır.

Bu üç şərt Peyğəmbər barəsində mötəbər olduğu qədər onun canişinində – imamda da mötəbərdir.

Amma ikinci nəzəriyyəyə əsasən, nübüvvətin heç bir şərti imamətdə lazım deyil. Bununla belə İmamətdə ismət, ədalət, elm, şəriətə tam agahlıq olmalıdır. Həmçinin öz ağlı və başqa müsəlmanlarla müşavirə sayəsində İslamın şan-şöhrətini, əzəmətini qorusa, cəza qanunlarını icra etməklə əmin-amanlığı bərqərar etsə və cihada dəvət etməklə İslam torpaqlarını genişləndirsə, elə bunlar kifayətdir.

Şəkk yoxdur ki, İslam dini dünyəvi və axırıncı dindir. Nə qədər ki, Peyğəmbər (s) diri idi, ümmətə rəhbərlik etmək onun öhdəsində idi. Onun vəfatından sonra rəhbərlik məqamı hökmən cəmiyyətin ən ləyaqətli fərdinə tapşırılmalı idi. Peyğəmbərdən (s) sonra rəhbərlik məqamının seçkili, yaxud intisabi (Allah tərəfindən təyin olunma) olması barədə iki nəzəriyyə mövcuddur:

Şiələrin etiqadı budur ki, rəhbərlik bir intisabi məqamdır, Peyğəmbərin canişini Allah tərəfindən təyin olunmalıdır. Halbuki, sünnilərin

etiqadları budur ki, bu məqam seçkilidir və ümmət gərək Peyğəmbərdən sonra ölkə işlərini idarə etmək üçün bir nəfər seçsin. Hər iki nəzəriyyə tərafdarları öz nəzəriyyələri üçün dəlillər gətirmişlər ki, bu dəlillər əqaid kitablarında zikr olunmuşdur. Burada araşdırıla biləcək məsələ risalət əsrinə hakim olan şəraitin təhlil olunması məsələsidir. Bu da öz növbəsində nəzəriyyədən birini isbat edə bilər.

Risalət əsrində İslamın daxili və xarici siyasəti tələb edirdi ki, Peyğəmbərin (s) canişini Allah tərəfindən və Peyğəmbərin (s) özünün vasitəsilə təyin olunsun. Çünki İslam cəmiyyəti həmişə təhdid edici xətər, yəni Roma və İran imperiyaları və münafiqlər tərəfindən müharibə, fəsad və ixtilaf törətməklə hədələnirdi. Həmçinin, ümmətin mənafeyi tələb edirdi ki, Peyğəmbər (s) siyasi bir rəhbər təyin etməklə bütün cəmiyyəti xarici düşmənə qarşı vahid bir cəbhədə birləşdirsin və düşmənin nüfuz edib hakim olması zəminini aradan qaldırsın.

İslam tarixini şərh edən alimlər yazırlar. Bu təhlükəli üçlüyün bir tərəfini Roma imperatorluğu təşkil edirdi. Bu böyük imperiya yarımadanın şimalında yerləşirdi və Peyğəmbərin (s) fikrini həmişə özünə cəlb edirdi. Roma barədə fikir onun ölüm anlarına qədər yadından çıxmadı. Müsəlmanların məsihi Roma ordusu ilə ilk hərbi toqquşmaları Hicrətin səkkizinci ilində Fələstin diyarında baş verdi. Bu toqquşma İslamın üç böyük sərkərdəsinin: Cəfər Təyyarın, Zeyd ibn Harisənin və Əbdüllah ibn Fəvahənin şəhid olması və İslam qoşununun məğlubiyyəti ilə nəticələndi.

İslam qoşununun düşmən qarşısından geri çəkilməsi Qeysər ordusunun cürətlənməsinə səbəb oldu. Hər an təzə qurulmuş İslam dövlətinin paytaxtının hücuma məruz qalması təhlükəsi gözlənilirdi.

Buna görə də Hicrətin doqquzuncu ilində Peyğəmbər (s) böyük bir ordu ilə Şam sərhədlərinə doğru hərəkət etdi ki, nəticədə hər növ hərbi toqquşmalarda özü şəxsən qoşuna rəhbərlik etsin. Başdan - başa əzab-əziyyətlə dolu olan bu səfərdə İslam ordusu öz köhnə heysiyyətini yenidən tapıb siyasi həyatını yeniləşdirə bildi. Amma bu nisbi qələbə Peyğəmbəri (s) qane etmədi. Öz xəstəliyindən bir neçə gün qabaq İslam ordusunun Üsamə ibn - Zeydin sərkərdəliyi ilə Şam sərhədlərinə gedib döyüşə hazır olmağını əmr etdi.

Üçlüyün ikinci tərəfi İran imperatorluğu idi. Məlum olduğu kimi, İran şahı Xosrov qəzəbin şiddətindən Peyğəmbərin (s) məktubunu

cırmış, onun səfirini (göndərdiyi şəxsi) təhqirlə saraydan və hətta ölkədən qovmuşdu. Hətta Yəmənin valisinə yazmışdı ki, Peyğəmbəri (s) tutsun, imtina edəcəyi surətdə onu öldürsün.

Xosrov Pərvizin Peyğəmbər (s) zamanında ölməsinə baxmayaraq, uzun müddət İranın müstəmləkəsi olan Yəmən nahiyəsinin istiqlaliyyəti məsələsi İranda Xosrov sülaləsinin gözündən yayınmırdı. Təkəbbür və lovğalıq İran siyasətçilərinə icazə vermirdi ki, belə bir qüdrətli dövlətin varlığını qəbul etsin.

Üçüncü təhlükə münafiqlər tərəfindən olan təhlükə idi. Onlar hətta Peyğəmbəri (s) öldürmək üçün Təbuk-Mədinə yolunda ona terror etmək istəyirdilər. Onlardan bəziləri öz-özünə zümzümə edirdilər ki, Peyğəmbərin (s) ölməsi ilə İslam hərəkatı sona yetəcək və hamılıqla rahat olacaqlar. (**"Tur"** surəsi, 30-32-ci ayələr).

Peyğəmbərin (s) vəfatından sonra Əbu-Süfyan hiyləyə əl atdı və Əliyə (ə) beyət etməklə müsəlmanları bir-birinə zidd olan iki cinaha parçaladı. Bir sözlə **"suyu bulandırıb balıq tutmaq"** istədi. Amma Əli (ə) onun çirkin niyyətindən xəbərdar olduğu üçün ona buyurdu: **"Allaha and olsun sənin fitnə-fəsad salmaqdan başqa bir məqsədin yoxdur! Fitnə odunu şölələndirmək təkcə sənin bugünkü işin deyil, əksinə, dəfələrlə şər yaratmaq istəmisən. Bil ki, mənim sənə ehtiyacım yoxdur".** (İbn Əsir, **"Kamil"**, 2-ci cild, səh. 220)

Münafiqlərin təxribatçılıq qüdrətləri güclü idi ki, bu barədə **"Ali–İmran"**, **"Nisa"**, **"Maidə"**, **"Ənfal"**, **"Tövbə"**, **"əl-Ənkəbut"**, **"əl-Əhzab"**, **"Mühəmməd"**, **"əl-Fəth"**, **"Mücadilə"**, **"Hədid"**, **"Münafiqun"** və **"Həşr"** surələrində də qeyd olunmuşdur.

Görəsən, İslama qarşı pusquda durmuş bu cür qüvvəli düşmənlərin mövcud olması ilə belə, düzgün olardımı ki, Peyğəmbər (s) özündən sonra yenicə əsası qoyulmuş İslam cəmiyyəti üçün dini, siyasi və s. bir rəhbər təyin etməsin? İctimai hesablamalar aşkar şəkildə göstərir ki, Peyğəmbər (s) rəhbər təyin etməklə özündən sonra hər növ ixtilafın yaranmasının qarşısını almalı, möhkəm və davamlı bir müdafiə xətti yaratmaqla İslam vəhdətini təmin etməli idi.

Hər cür xoşagəlməz hadisənin qarşısını almaq və Peyğəmbərin (s) vəfatından sonra hər dəstənin **"Əmir bizdən olmalıdır"** demələrinə imkan verməmək üçün vacib məsələ idi. Bu ictimai

hesablama bizə **"Peyğəmbərdən (s) sonra rəhbərlik məqamının vacib olması nəzəriyyəsinin düzgün və möhkəm olmasını göstərir. Ola bilsin ki, Peyğəmbər (s) elə bu və digər səbəblərə görə, besətin ilk günlərindən həyatının son anlarına qədər dəfələrlə vəsisini həm risalətin əvvəlində, həm də axırında təyin etmişdi".**

Peyğəmbər (s) öz risaləti dövründə dəfələrlə öz vəsisini təyin etmiş, imamət mövzusunu seçkili olmaqdan və ümumxalq rəyinə müraciət etmək dairəsindən çıxarmışdı.

Öz yaxın qohum-əqrəbasını İlahi əzabdan qorxudub, onları ümumi dəvətdən qabaq İslamı qəbul etməyə dair Allah tərəfindən 45 nəfərin iştirak etdiyi məclisdə belə dedi: **"Sizin aranızda mənə kömək edəcək ilk şəxs, mənim sizin içinizdəki vəsim və canişinim olacaq".** Mövla Əli (ə) onların arasından ayağa qalxıb onun risalətini təsdiq edən vaxt Peyğəmbər (s) orada olanlara üz tutub demişdi: **"Bu cavan mənim qardaşım, vəsim və canişinimdir".** Təfsirçilər və hədisçilər arasında bu hədis **"Hədis bədid – dəvət"** adı ilə məşhurdur.

MÖVLA ƏLİ (Ə) BESƏT DÖVRÜNDƏ

Mövla Əli (ə) Rəsulullahın (s) peyğəmbərliyə təyin olunduğu ilk vaxtdan etibarən İslam dinini qəbul edərək Rəsulullaha itaət etdi? Kişilərdən Rəsulullaha (s) ilk iman gətirən şəxs Əli (ə) idi. Bu bütün Əhli-sünnə tarix və hədisçilərinin təsdiq etdiyi bir həqiqətdir. Necə ki, Muhibuddin Təbəri, **"Zəxariul-Uqba"** adlı kitabında Xəlifə Ömərdən (r) belə rəvayət edir. Mən, Əbu Ubeydə və Əbu Bəkr (r) bir dəstə camaatla birlikdə idik. Bu anda Rəsulullah (s) Əli ibn Əbu Talibin (ə) çiyninə vuraraq belə dedi: **"Ey Əli! Sən möminlərin ilk iman gətirənisən. Müsəlmanlardan ilk İslamı qəbul edənsən. Sən mənə Harunun Musaya olan nisbəti kimisən".**

Rəsulullah (s) bazar ertəsi günü peyğəmbərliyə məbus olmuşdur. Həzrət Əli (ə) isə çərşənbə axşamı İslamı qəbul etmişdir. Həzrəti Əli (ə) özü də Müaviyyənin mədh olunmasına cavab olaraq göndərdiyi bir şerdə özünün İslamı qəbul edən ilk şəxs olduğuna işarə edərək

belə buyurur: **"Hamınızdan əvvəl İslamı qəbul etdim. Lakin balaca uşaq idim və həddi buluğ çağına çatmamışdım".**

Rəsulullah (s) Allahın əmrini öz yaxın əqrabalarına elan edib onların İslam dininə dəvət etdiyi gündə on yaşında olan Həzrət Əlidən (ə) başqa heç kəs onun dəvətinə lazımınca cavab vermədi. Tarixçilər bu hadisəni belə qeyd etmişlər: **"Rəsulullaha (s) "Yaxın əqrabalarını qorxut" ayəsi nazil olduqda Əbdül Mütəllib uşaqlarını dəvət edib onları Əbu Talibin evinə yığdı. Onlar 40 (qırx) nəfər idilər. Rəsulullah (s) dəvətinin doğruluğunu isbat etmək niyyəti ilə bir möcüzə göstərmək üçün bir qoyun budunu yeddi yüz qram buğda və üç litr südlə bişirib yemək hazırlanmasını əmr etdi. Ancaq onlardan biri bunun bir neçə qatını bir oturumda yeyirdi. Yemək süfrəyə gətiriləndə dəvət edilənlər gülməyə başlayıb "Mühəmməd bir adamın yeməyini belə hazırlamamışdır" – dedilər. Rəsulullah (s) "Allahın adı ilə yeyin" - buyurdu. Hamı o yeməyi yeyib doyduqda, Əbu Ləhəb: "Bu Mühəmmədin sizə etdiyi bir sehr idi" - dedi. Bu anda Rəsulullah (s) ayağa qalxıb bir neçə kəlmə dedikdən sonra belə buyurdu: "Ey Əbdül Mütəllib oğulları! Allah-Təala məni bütün xalqa ümumi olaraq və sizə də xüsusi olaraq Peyğəmbər göndərmiş və mənə "Yaxın əqrabalarını qorxut" əmrini vermişdir. Mən də sizi deyilməsi yüngül olan, tərzdə isə ağır olan iki sözə dəvət edirəm. Əgər onları qəbul etsəniz, ərəb və qeyri-ərəb ümmətlərinə hakim olarsınız. Və bütün ümmətlər sizin əmriniz altında olarlar. Onlarla Cənnətə girər və onlarla Cəhənnəm atəşindən qurtularsınız. O iki söz "Allahdan başqa bir məbudun olmadığına, Mənim də onun elçisi olduğuna şəhadət gətirməkdir". Hər kəs bu mövzuda mənim dəvətimi qəbul edər, bu risaləti həyata keçirməyimdə mənə kömək edərsə, mənim qardaşım, vəsim, vəzirim, varisim və məndən sonra xəlifəm olacaqdır. O məclisdə on yaşında olan Həzrət Əlidən (ə) başqa heç kəs cavab vermədi".**

Rəsulullahın (s) o məclisdə danışdığı anda Həzrət Əli (ə) həqiqəti görən gözlərini Rəsulullahın (s) mübarək gözlərinə dikmiş, Həzrətin (s) mübarək sözlərini dinləyirdi. Elə bu anda yalnız Əli (ə) ayağa qalxdı, şəhadət kəlmələrini açıq şəkildə dilə gətirərək **"Allahdan**

başqa bir məbudun olmadığına və Sənin də Onun qulu və Rəsulu olduğuna şəhadət verirəm”, - dedi.

Rəsulullah (s): **“Ey Əli! Sən otur” buyurdu. Üç dəfə bu sözü təkrar etdi. Hər üç dəfədə də Həzrət Əlidən (ə) başqa Onun dəvətinə cavab verən olmadı. Bundan sonra Rəsulullah (s) oradakı camaata belə buyurdu: “Bu sizin aranızda mənim qardaşım, vəsim və xəlifəmdir”.**

Bəzi kitablarda Həzrəti Əlinin (ə) özünə xitabən belə buyurduğu nəql edilmişdir: **“Ya Əli! Sən mənim qardaşım, vəzirim və məndən sonra xəlifəmsən”.**

Əbdül Müttəlib oğulları məclisdən qalxıb Rəsulullahın (s) peyğəmbərliyini ələ salaraq çıxıb getdilər. Əbu Ləhəb kinayəli bir şəkildə Əbu Talibə belə dedi: **“Bundan sonra sən öz qardaşın oğlu və öz oğluna itaət etməlisən”.**

Rəsulullahın (s) **“İnzar”** ayəsinə görə, Əbdül Müttəlib ailəsinin Allah-Təalanın ibadətinə dəvət etdiyi günə **“İnzar”** günü deyilməkdədir.

MÖVLA ƏLİNİN (Ə) ÖVLADLARI

Tarixçilər Həzrət Əlinin (ə) övladlarının sayı mövzusunda müxtəlif rəqəmlər söyləyirlər. Hətta bəziləri Mövla Əlinin (ə) 36 övladının olduğunu iddia edir. Şeyx Müfid və Əllamə Təbərsi Mövla Əlinin (ə) 27 övladı olduğunu qeyd etmişlər. Onların adları aşağıdakı kimidir:

1. **Həsən ibn Əli (ə)** - böyük oğlu.
2. **Hüseyn ibn Əli (ə)** - ikinci oğlu.
3. **Zeynəb Kübra.** (Əqilə);
4. **Zeynəb Suğra.** (Künyəsi Ümmü Gülsümdür. Bu 4 övladların anası Rəsulullahın (s) qızı və Həzrət Əlinin (ə) ilk xanımı Həzrət Fatimeyi-Zəhradır (ə).
5. **Mühəmməd Hənəfiyyə.** (Anası Cəfər ibn Qeys Hənəfiyyənin qızıdır.)
6. **Ömər.**
7. **Rüqəyyə.** (Bunlar əkiz olaraq dünyaya gəlmişlər. Anaları Rəbiə, Ümmü Həbibənin qızıdır.)
8. **Abbas** (Həzrət Əbul Fəzl).

9. **Abdullah.**
10. **Abdurrəhman.**
11. **Aun** (Oon).
12. **Fəzl** (Anaları Ummul-Bənin-Fatimədir. Bunlar Kərbəlada İmam Hüseynin qarşısında şəhadətə çatdılar).
13. **Cəfər**.
14. **Yəhya.** (Anası Ümeys, Əsmanın qızıdır. Yəhya kiçik yaşlarında (atasının şəhadətindən əvvəl) vəfat etmişdir.)
15. **Ümmül Həsən.**
16. **Rəmlə.** (Bunların anası Ürvə ibn Məsudi Səqəfinin qızı Ümmü Səiddir.)
17. **Mühəmməd Əsğər.**
18. **Əbu Bəkr.**
19. **Abdullah.** (yuxarıdakı üç nəfərin anaları Məsudu Dərmiyyənin qızı Leyladır. Bunların hər üçü Kərbəlada şəhadətə yetişmişlər.)
20. **Nəfisə.**
21. **Ummu-Gülsüm Suğra.**
22. **Əmamə.**
23. **Ümmü Sələmə.**
24. **Meymunə.**
25. **Xədicə.**
26. **Fatimə.**
27. **Ummul Kiram.**
28. **Ummu Əbiha.**
29. **Cəmanə.** (Nəfisədən başlayaraq bunların hamısı bir kənizdən olmuşdur).

Həzrət Əlinin (ə) soyu Həzrət İmam Həsən (ə), Həzrət İmam Hüseyn (ə), Mühəmməd Hənəfiyyə, və Həzrət Əbul Fəzldən (ə) törəmişdir.

MÖVLA ƏLİNİN (Ə) YEMƏYİ VƏ GEYİMİ

Mövla Əli (ə) həddindən artıq çox az yeyərmiş. Onun yeməyi əsasən arpa çörəyi olmuşdur. Lakin xəlifə olandan sonra onu da azaltmışdır.

Mövla Əli (ə) heç bir süfrədə iki növ yeməkdən yeməmişdi. Süfrədə üç-dörd nemət olsaydı belə, o, fəqət bir və ya iki yeməklə

kifayətlənərdi. Belə ki, şəhadət gecəsində qızı Ümmü Gülsüm onun üçün süd, duz və çörək qoymuşdu. Həzrət buyurdu: "**Südü apar, çörəklə duz yetər. Atanın bir süfrədə iki növ yemək yediyini nə vaxt görmüsən?".**

Həzrət Baqir (ə) belə buyurmuşdur: **"Allaha and olsun Əli (ə) qullar kimi yemək yeyib, torpağın üstündə otururdu. İki köynək alırdı, köləsinə ən yaxşısını verirdi. Əgər köynəyin qolu və ətəyi uzun olsaydı onu kəsərdi. Beş illik xilafətində daş üstünə bir daş qoymaydı, qızıl və gümüş toplamadı. Xalqa çörək və ət verirdi, özü isə arpa çörəyi yeyirdi. Allahın bəyəndiyi iki işlə qarşılaşsaydı ən çətinini seçərdi. Min qulu öz əməyi sayəsində alıb, azad buraxmışdı. Heç kəs (Rəsulullah (s) istisna olmaqla) onun etdiyi işi etməyə qadir deyildi".**

İbn Covzi yazır: **"Bir gün Abdullah ibn Rəzin Həzrət Əlinin (ə) evinə getdi. Həzrətin bir az ət suyunu arpa çörəyi ilə qarışdıraraq yediyini gördü. Abdullah dedi: Ya əmirəlmöminin! Bu nə cür yeməkdir yeyirsiniz. Siz müsəlmanların xəlifəsisiniz. Bütün beytülmal əlinizdədir və oradan tox olana qədər götürməyiniz caizdir. Həzrət Əli (ə) buyurdu: Müsəlmanların xəlifəsinə bundan artığı caiz deyildir".**

"Zahiratul Muluk" kitabında belə yazılır: **"Həzrət Əli (ə) Kufə məscidində mötəkif (gündüzləri oruc tutub, gecələri ibadətlə keçirən və ən azı üç gün zərurət halı istisna olmaqla çölə çıxmayan məsciddə qalaraq edilən ibadət) idi. İftar vaxtı bir ərəb Həzrətin yanına gəldi. Həzrət bağlı dəri kisəni açaraq arpa çörəyindən bir parça ərəbə verdi. Ərəb o çörəyi sarıcına bağladı. Sonra İmam Həsənin (ə) evinə getdi, onlarla birgə orada yemək yedi və bu yeməkdən bir az da məsciddəki fəqirə aparsam yaxşı olar, dedi. Yeməyi arpa çörəyindən olduğu üçün ona çox acıdım. İmam Həsən (ə) təbəssüm edərək: "O bizim atamız əmirəlmöminindir, nəfsi ilə belə cihad edir, dedi".**

Suveyd ibn Qəflədən belə nəql olunur: **"Bir gün Həzrət Əlinin (ə) yanına getdim. Qarşısında köhnə südün və bir az da kəpəkli**

arpa çörəyinin olduğunu gördüm. Çörək o qədər möhkəm idi ki, Həzrət onu dizi ilə qırır və yumşaldaraq yeyirdi. Mənə "yaxınlaş və bu çörəkdən ye" buyurdu, oruclu olduğumu dedikdə belə buyurdu: Rəsulullahın (s) belə dediyini eşitdim: "Kim oruclu olarkən yeməyə iştahlı olarsa, lakin Allah üçün yeməzsə, Allah ona Cənnət yeməklərindən verər və Cənnət sularından içirdər".

Suveyd əlavə edərək deyir: **"Həzrətin vəziyyətinə acıdım və xidmətçisi olan Fizzəyə dedim ki, nə üçün arpanın kəpəyini arıtlamırsan, Allahdan qorxmursan? Belə dedi: Allaha and olsun ki, kəpəyi təmizləməmiş bişirməyimi özü əmr etmişdir. Həzrət bizim danışığımızı görüb, "Fizzəyə nə dedin?" – soruşdu. Mən də "nə üçün arpanın kəpəyini təmizləməmisən?", - deyə soruşdum. Həzrət buyurdu: Atam-anam Rəsulullaha (s) fəda olsun o çörəyin kəpəyini təmizləməzdi. Allah Onu yanına götürənə qədər buğda çörəyindən üç gün belə doyunca yemədi".**

Abdullah ibn Əbi Rəfi belə deyir: **"Bayram günündə Həzrət Əlinin (ə) yanına getmişdim. Onun yanına bir dəri kisə gətirdilər. İçində qurumuş və əzilmiş arpa çörəyi gördüm. Həzrət o çörəkdən bir az yedi. Mən soruşdum ki, ya əmirəlmöminin nə üçün bu kisənin ağzını möhürləyirsən. Buyurdu ki, bu iki övladımın - Həsən (ə) və Hüseynin (ə) onu yağla yumşaltmalarından qorxuram. Həzrət çox az ət yeyirdi. O, həmişə deyərdi: "Qarnınızı heyvanların qəbirləri etməyin…"**

İMAMIN (Ə) İCTİMAİ XİDMƏTLƏRİ

Mövla Əli (ə) rəhbərlikdən uzaqlaşdırılmasına baxmayaraq özlüyündə çox böyük məsuliyyət hiss edirdi. Buna görə də İslamı qorumaq məqsədilə lazımi xidmət və vəzifələri yerinə yetirməkdən boyun qaçırmadı.

İmamın hər üç xəlifənin dövründə etdiyi xidmətlərinin ən mühümlərindən bəzilərini qeyd edirik:

- Yəhudi və Məsihi alimlərinin elmi hücumları qarşısında İslamın üsullarını və əqidə hüdudlarını müdafiə etmək, onların suallarına cavab vermək, şübhələrini aradan qaldırmaq.

- Çətin məsələlərdə, xüsusilə qəzavət işlərində xilafət aparatını hidayət edib ona yol göstərmək.

- İctimai xidmətlər:

O Həzrət həmişə yetimlərə və fəqirlərə kömək edirdi. Onun böyük və mehriban ruhu ömrünün axırına kimi fəqirlərə yardım etməkdən bir an da olsun belə, yorulmadı. Bütün bunlar İslam tarixində öz əksini tapmışdır.

Mövla Əli (ə) digər xidmətləri və fəzilətləri kimi bu sahədə də qabaqcıl idi, öz qazancı ilə min nəfər qulu alıb azad etməyə müvəffəq olmuşdu. Bütün bunların təsdiqində İmam Sadiq (ə) belə buyurur: **"Əli (ə) öz əlinin qazancı ilə min nəfər qul azad etmişdir".**

Mövla Əlinin (ə) məşğuliyyətlərindən biri əkinçilik və ağac əkmək idi. O Həzrət özünün abad etdiyi çoxlu əmlakını vəqf etmişdi.

İmam Sadiq (ə) sözünə davam edərək buyurur: **"Əmirəlmöminin bell və digər alətlərlə yerin altında gizlənən nemətləri çıxarırdı".** (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 43)

Səhabələrdən biri İmam Əlinin (ə) dəvə ilə yük apardığını görüb soruşur: **"Ya Əli, bu nə yükdür?" İmam "bu dörd min ədəd xurma ağacıdır",- deyərək yoluna davam edir. Bir müddətdən sonra həmin səhabə digər yoldaşları ilə şəhərin kənarından keçərkən Mövla Əlinin (ə) xırda xurma ağacları arasında arx çəkdiyini görüb ona yaxınlaşır. Həzrət başını yuxarı qaldırıb təbəssümlə buyurur: "Budur həmin dörd min ədəd xurma ağacından salınan bağ. Bir zamanlar bu bağ və bunun kimi susuz səhrada becərtdiyim bağlar gələcək nəslə xidmət edəcək".**

Başqa bir rəvayətdə yazırlar ki, həmişə Mövla Əli (ə) ayrı-ayrı şəhərlərdən xurma dənələri gətirərmiş. Bir dəfə də topladığı xurma dənələrini dəvə yükü ilə aparanda ondan yükün nə olduğunu soruşurlar. **"Bunlar gələcəyin xurma bağlarıdır. Allahın izni ilə onların mənfəətlərindən gələcək nəsil istifadə edəcək"**,- deyə İmam yoluna davam edibmiş.

Ravi deyir: **"İmam o dənələrdən xurma bağı saldı və sonra onu vəqf etdi".** (**"Biharül-Ənvar"**, 61-ci cild, səh. 33)

Həmçinin o Həzrətdən nəql olunmuşdur ki, **"Allah yanında əkinçilikdən gözəl bir iş yoxdur".** (**"Biharül-Ənvar"**, 23-cü cild, səh. 20)

İmam Sadiq (ə) buyurur: **"Peyğəmbər (s) Ənfaldan bir parça torpağı Əlinin (ə) ixtiyarında qoydu. Həzrət orada kəhriz qazdı. Kəhrizin suyu dəvə boynu kimi fəvvarə vururdu. İmam oranın adını Yənbü qoydu. Bu kəhrizin bol suyu oranın əhalisinin şad olmasına səbəb oldu. Onlardan biri xidmətə müvəffəq olmasına görə Əliyə (ə) müjdə verdi. Həzrət cavabında dedi: "Bu kəhriz Allah evinin ziyarətçilərinə və buradan keçən yolçulara vəqf olunmuşdur. Heç kəsin haqqı yoxdur ki, onun suyunu satsın, övladlarım da heç vaxt onu irs apara bilməzlər".** (**"Vəsailüş-Şiə"**, 13-cü cild, səh. 303)

Elə indinin özü Məkkə – Mədinə yolu üstündə Beri-Əli (Əli quyusu) adlı bir məntəqə var ki, o Həzrət həmin quyunu özü qazmışdır. İmam Sadiqin (ə) bəzi sözlərindən aydın olur ki, Mövla Əli (ə) Məkkə - Kufə yolunda da çoxlu quyu qazmışdır. (**"Mənaqib"**, 1-ci cild, səh. 323)

Mövla Əli (ə) çoxlu məscid tikmişdir ki, onların da bəzilərinin adı İslam tarixində qeyd olunmuşdur. O cümlədən, Mədinədə Məscidül-Fəth, əmisi Həmzənin qəbri kənarında, Miqatda, Kufədə və Bəsrədə də məscid tikdirmişdir. (**"Mənaqib"**, 1-ci cild, səh. 323)

Mötəbər tarixçilərin nəql etdiyinə görə, İmam Əlinin (ə) vəqf etdiyi bağ və mülklərin illik gəliri 40 min dinar olmuşdur ki, bu da bütünlüklə o dövrün yoxsullarına sərf olunurdu. Amma bu qədər bol gəlirin olmasına baxmayaraq, Həzrət Əli (ə) yaşayış xərclərini təmin etmək üçün çarəsizlikdən bəzən ya qılıncını, ya da zirehini satmaq məcburiyyətində qalırdı. (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 43)

Həzrət Əli (ə) Peyğəmbərdən eşitdiyi bu məşhur hədisə çox hörmət qoyur və ömrünü də bu hədisin dolğun mənasını həyata keçirməyə sərf etdi. Peyğəmbər (s) buyurmuşdur: **"Hər kəs bu dünyadan getsə, ölümündən sonra əvvəllər qoyduğu bu üç şeydən başqa ona bir nəsib yetişməz: onun üçün istiqfar edən saleh övlad, camaatın içərisində yaydığı gözəl ənənə və ən nəhayət özündən sonra qala biləcək yaxşı iş".** (**"Vəsailüş-Şiə",** 13-cü cild, səh. 292)

Bəli, Həzrət Əlinin (ə) vəqfnamələri özündən sonra İslamda vəqf hökmlərinin ilham mənbəyi olmaqla bərabər, həm də Həzrətin ictimai və humanist xidmətlərinə dair möhkəm və parlaq bir sənəd idi ki, bu gün də onun dostları bu gözəl ənənəni davam etdirirlər.

MÖVLA ƏLİNİN (Ə) BƏZİ XÜSUSİYYƏTLƏRİ

Mövla Əlini (ə) özümüzə örnək seçməyimiz bütün insani dəyərləri özündə əks etdirən kamillik mücəssiməsinin tamlığı olan bir insanı özümüz üçün rəhbər seçməyimiz deməkdir. İnsan müəyyən bir işin şövqündə coşduğu kimi, Mövla Əli (ə) də Haqqa tərəf cəzb olaraq çəkilir və Allaha doğru seyrdə tələtümə gəlirdi. Axşamlar, gecənin sakit qaranlıqlarında heç bir arif Mövla Əli səviyyəsinə (ə) çata bilməz. Döyüş meydanında, bədəninin yaralanmasına və hətta bəzən bədənindən bir parça ətin qopmasına baxmayaraq, diqqətini mübarizə nöqtəsində cəmləyərək heç bir şeyə əhəmiyyət vermirdi. İbadətdə elə qərq olur və İlahi eşq vücudunda elə şölələnir ki, sanki bu dünyada deyil. Bəziləri onu - Mövla Əlini (ə) belə vəsf edir: **"Onlar xalqla, xalq içində olmalarına baxmayaraq, ruhları çox ali məqamlara bağlıdır".**

Müharibələrdə böyük döyüş taktikasına malik olan Mövla Əli (ə) cəbhə xəttində ordunun təşkili və nizami ilə bağlı geniş xütbə söyləmişdir: **"Zirehsizləri geriyə, zirehliləri önə alın. Müqavimət göstərərkən, dişlərinizi sıxın, çünki bu (vəziyyət) qılıncı insanın başından uzaqlaşdırır. Qılınc vurduğunuz və ya sizə qılınc vurulduğu zaman yerinə görə əyilin və ya qalxın. Beləsi daha təsirlidir. Hər tərəfə yox, yalnız bir tərəfə baxın, bu qəlbinizə cəsarət və qüvvət verər, təmkinli olun, bu, qorxunu (sizdən) dəf edər. Bayrağınızı ucaltdığınız yerdə onu sabit tutub başınızdan buraxmayın, onu ancaq içinizdəki igidlərə verin. Savaşda düşmənlə qarşılaşınca fəal olmaq, zəif düşən qardaşına yardım etmək gərəkdir. Düşməni eləcə buraxıb öz cərgənizdə olan döyüşçü yoldaşının yanından qaçmaq doğru yol deyil. Qarşısında kimsəni tapmayan düşmən bu zaman sənin cərgə yoldaşına hücum edib onun işini bitirincə də sənə tərəf gələr. Savaşdan qaçmaq Allahın qəzəbinə**

uğramağa, zülmətə düşməyə səbəb olur". (**"Nəhcül-bəlağə"**, 124-cü xütbədən. Ankara, 1990, səh. 157-158)

Mövla Əlinin (ə) müharibə şəraiti üçün xarakterik olan əmrnaməsinə diqqət edək: **"Düşmənin üzərinə getdiyiniz, ya da düşmən üzərinizə gəldiyi zaman, qərargahınızı yüksək yerlərin önlərində, dağ ətəklərində, nəhrlərin keçid verməyən tərəflərində qurun. Həm oralardan faydalanar, həm də düşmənin şərindən qorunasınız. Savaşı bir və ya iki cəbhədə aparın. Düşmənin basqın qorxusundan əmin olmaq üçün dağ zirvələrinə, yüksək təpələrə gözətçilər qoyun. Unutmayın! Ordunun ön hissəsi əsgərlərin gözləridir, əsgərlərin gözləri də ordunun ön hissəsidir. Ayrılmaqdan çəkinin, dincəldiyiniz zaman birlikdə dincəlin, hərəkətə keçdiyiniz zaman da birlikdə hərəkət edin".** (**"Nəhcül-bəlağə"**, səh. 325-326)

Şübhəsiz ki, hər bir sıravi döyüşçünün döyüş ərəfəsində və döyüşqabağı sağlam əhval-ruhiyyəsi və fiziki mətinliyi ona döyüşdə qələbə qazanmaq üçün başlıca şərtlərdəndir. İslam ordusunun bu ali sərkərdəsini öz ordu komandirləri - qabaqcıllarına ordunun hər bir nəfərinin qayğısına qalıb, səhhət və istirahətinə diqqət yetirmək haqqında çoxlu fərmanları var. Bu baxımdan Mövla Əlinin (ə) ordu başçısı İbn Qeysə yazdığı məktubdan bəzi qeydlərilə tanış olaq: **"Səhər və axşam sərinliyində ordunu yürüşə keçir, günorta istisində onların dincliyini təmin et. Ancaq sənlə savaşanla savaş. Əsgərlərini gecənin başlanığıcında yürüşə aparma. Çünki Allah o zamanı yürüş vaxtı yox, istirahət vaxtı üçün ayırmışdır".** (**"Nəhcül-Bəlağə"**, səh. 327)

İslamın qılıncı – Allahın şiri olan Mövla Əli (ə) həm də son dərəcə mülayim və həssas qəlb sahibi idi. Onun təbiətində bütün təzadlar birləşirdi. Döyüş meydanlarında mərd aslana dönüb, düşmənin bağrını dəldiyi halda, düşmən haqq yoluna qədəm qoyardısa, onu əfv etmək keyfiyyəti həmin an yaranardı. Eyni an ağlayan zaman təbəssümü də bacarardı. Böyük humanist şəxsiyyət idi Əli (ə). Düşmən məğlubiyyətə uğradığı zaman qaçanları öldürməmək, əsirləri yaralamamaq, yaralıları qətlə yetirməmək haqqında tövsiyələri kifayət qədərdir. Bir sözlə, bütün hallarda Qurani-Kərimin və Peyğəmbər (s)

sünnəsinin əmr nəhyləri, halal-haramları, mübah və tövsiyyələri Mövla Əlinin (ə) fəaliyyətində əsas prinsip idi.

Mövla Əli (ə) fəaliyyətini izləyərkən, xüsusən də Nəhcül-Bəlağəni mütaliə edərkən bir insanda nə qədər əlvan, rəngarəng, həm də son dərəcə ali-mənəvi saflıqların vəhdətdə olduğunu müşahidə edirik. Görünür, Allah-Təala öz seçilmişlərinə tamlıq, bütövlük bəxş etməyi Özünə vacib edibmiş. Bəli, Allah-Təala onun cizgilərini qüdrət qələmi ilə cızaraq bütün məziyyətlərilə səciyyələndirmişdi. Səxavətin sanki, elə özü idi. Eyni vaxtda ədalət və zülm – zalımla barışmaz, ədalətdən xaric olmazdı. Təvazökarlıq xilqətindən gəlirdi, adil idi, zülm və zalımın barışmaz düşməni idi. Tamah və nəfsə insanı eybəcərləşdirən şər qüvvə kimi baxır və həyatı boyu insanları belə bəlalardan xilas etmək üçün çalışır, bütün qüvvə və imkanlarını bu yolda sərf etməkdən çəkinmirdi. Yaşının 58-ci baharında ona Əmirəlmöminin – müsəlmanların əmiri olmaq səadəti nəsib olmuşdu. Cəmi beş il xəlifə - İslam dövlətinin başçısı oldu (zahirdə). Bu şərəfə o, çoxdan layiq idi. Böyük Peyğəmbərin (s) Qədiri-Xum vəsiyyətinə görə, ondan sonra məhz Əli (ə) onun mübarək işinin davamçısı olmalı, ümmətə rəhbərlik etməli idi. Lakin müxtəlif səbəblərdən bu vəsiyyətin icrası çox gecikdi.

İslam zərər çəkməsin, parçalanmasın deyə Mövla Əli (ə) Məhəmməd Peyğəmbərin (s) vəfatından iyirmi beş ildən də bir qədər keçəndən sonra xəlifəlik kürsüsünə oturdu. Lakin bu müddət ərzində də onun başı çox bəlalar çəkdi. Bu bəlaların səbəbkarı yenə də müsəlmanlar – ətrafında cəmləşənlər, xəlifəlik kürsüsünə göz tikmiş nankor, üzüdönük insanlar oldu.

Bütün bunlara baxmayaraq İslamın ilk İmamı Əlinin (ə) qısa sürən xəlifəlik dövründə onun bir dövlət başçısı - Əmirəlmöminin kimi çoxşaxəli fəaliyyəti tarixin qızıl səhifələrinə həkk olundu. O, bu şərəfli, eyni zamanda məsuliyyətli vəzifəni yerinə yetirərkən yuxarıda qeyd etdiyimiz kimi, Qurani-Kərim və Peyğəmbər (ə) sünnəsindən əlavə kənar söz-söhbətlərə əhəmiyyət verməmişdi. Onun eyni zamanda öz xütbələri, məktubları, əmrnamələri də bu məqsəd üçün nəyin ki, kifayət edər, hətta dünya hakimlərinin özləri üçün böyük məktəb olaraq bu gün də qalmaqdadır. Hər hansı müəllif bu xütbələri şərh edərkən əlavə fikir yürütdüyü zaman Mövla Əlinin (ə) kəlamları önündə çox solğun və sönük görünməklə açıq-aydın seçilir və oxucu dərk edir ki,

bu sözlər, bu ifadələr Mövla Əliyə (ə) məxsus deyil. Bunlar sonradan hansısa müəllifin **"zəmanəsinin xeyrinə"** irəli sürdüyü subyektiv mülahizələrdir.

Mövla Əli (ə) tərifi sevməzdi, onu tərifləyənlərə **"mənə söz rüşvəti verməyin"**,- deyərdi. Məclislərin birində onun şərəfinə tərif söyləyənlərdən birinə belə cavab verdi: **"Əmr sahiblərinin ən aşağı sayılan vəziyyəti kütlə arasında özlərini öymək sevgisi yaratmaq, gördüyü işlərlə lovğalanmaq hissidir. Məni öyünməyi sevən, tərifli sözlər eşitmək istəyən insanların sırasına qoymağınızdan xoşlanmıram. Həmd olsun Allaha ki, belə deyiləm. Məni gözəl təriflərlə öyməyin. Tənqiddən çəkinmədən, tənqidə layiq kəslərə deyiləcək sözləri mənə də söyləyin. Xəlifəni tərif etməzlər, xəlifəni etməli olduğu halda, lakin etmədiyi işlərə görə tənqid edərlər. Haqqı söyləməyinizin mənə ağır gələcəyini düşünməyin, məni böyüklərdən görərək iltimas etməyin...**

Doğrunu söyləməkdən, haqqa çağırmaqdan, adil olaraq mənimlə müşavirədə olmaqdan çəkinməyin".

İbadət edəndə bədəninə batmış oxu dartıb çıxarırlar, amma diqqəti haqq və ibadətə elə cəzb olur ki, heç nə hiss etmir. Gecənin qaranlığında İbadət mehrabında elə ağlayır və elə sızlayır ki, heç zaman misli görünməmişdir. Gündüz olanda isə elə olur ki, sanki həmin adam deyil. Səhabələri ilə oturanda çox təbəssümlü və gülərüz olur. Gülərüzlülük Mövla Əlinin (ə) mühüm sifətlərindən olub. Onun iştirak etdiyi məclislər o qədər xoş və incə zarafatlı olub ki, hətta Əmr As kimi hiyləgər simasızlar bu səmimiyyətdən Mövla Əlinin (ə) əleyhinə təbliğat apararaq belə demişdir: **"O, xəlifəliyə yaramaz, çünki çox gülərüzdür. Gülərüz adamdan xəlifə olmaz! Xəlifə qaşqabaqlı və qaraqabaq adam olmalıdır ki, camaat ondan qorxsun".**

Mövla Əli (ə) isə bu barədə **"Nəhcül-Bəlağə"**də belə buyurur: **"Nabiqənin oğluna təəccüb edirəm ki, mənim camaatla çox səmimi olmağıma, gülərüz və zarafatcıllığıma irad tutur".**

Həzrət Əli (ə) müharibə və döyüş meydanında düşmənlə mücahid kimi üzləşdikdə də gülərüz olub. Onun bu xüsusiyyəti barəsində belə deyiblər: **"O, ibadət mehrabında çox ağlayan, döyüş meydanında isə gülən və şaddır".**

"Şübhəsiz ki, gecə (namaz qılmaq üçün) qalxmaq (çox çətin olsa da) daha əlverişli və (o zaman) söz demək (Quran oxumaq, dua etmək) daha münasibdir. Çünki gündüz (Ya Peyğəmbər!) sənin uzun-uzadı davam edən (dünyəvi) işlərin vardır…" (**"Muzzəmmil"** surəsi, 6 və 7-ci ayələr).

Gecə ibadət, gündüz isə şəxsi məişət işləri və ictimai məsələlərlə məşğul olmaq üçün nəzərdə tutulur. Mövla Əli (ə) sanki gecə bir şəxsiyyət, gündüz isə digər bir şəxsiyyət olurdu.

Bizim kamil insan barəsində işlətdiyimiz ziddiyyətlər toplumu ifadəsi Mövla Əlinin (ə) min il bundan əvvəl tanındığı sifətlərdəndir. Hətta Seyyid Razi **"Nəhcül-Bəlağə"**nin müqəddiməsində belə deyir: **"Həmişə dostlarımla söhbət zamanı irəli sürərək onları təəccübləndirdiyim mövzulardan biri Əlinin (ə) sözlərinin çoxcəhətli olmasıdır. Əlinin (ə) sözləri elə bir xüsusiyyətə malikdir ki, insanın onun sözlərinin hansı hissəsinə daxil olursa, yeni bir dünyaya daxil olduğunu görür. O, bəzən abidlər, bəzən zahidlər, bəzən filosoflar, bəzən ariflər, bəzən əsgər və zabitlər, bəzən adil hökmdarlar, bəzən qazilər, bəzən də fətva verən alimlər dünyasındadır. Əli (ə) bütün dünyalarda var və heç bir dünyada qalib deyildir.**

Cumiət fi-sifatikəl əzdad
Fəlihaza əzzət ləkəl əndad

Yəni: Ziddiyyətlər – təzadlar səndə bir yerdə toplanaraq cəmlənmişdir.

Zahidun, hakimun, həlimun, şüca,
Nasikun, fatikun, fəqirun, cəvad.

Həm həlimlik və yumşaqlığın son həddində, həm şücaətin son dərəcəsindədir. Lazım olan yerdə sənin çirkin qanları tökməyin də, qan tökməyin son dərəcəsindədir. Digər tərəfdən, ibadətin son dərəcəsinə çatmış bir abidsən. Həm yoxsul və həm də səxavətlisən! Heç nəyin yoxdur, amma bağışlayırsan. Bəzi yerlərdə rəftar və davranışın o qədər lətif və mülayimdir ki, meh bu əxlaqın lətifliyndən xəcalət çəkir. Həmçinin ruhunda o qədər şücaət və mücahidlik vardır ki, daş, filiz və cansız əşyalar onun

müqabilində əriyirlər. Sənin ruhun o lətafətli mehdir, yoxsa bu qüdrət və möhkəmliyin? Sən necə varlıqsan?!"

Deməli, kamil insan bütün insani dəyərlərdə qəhrəman olan şəxsdir. Kamil insan insanlığın bütün meydanlarında qəhrəmandır! Biz nə dərsi öyrənməliyik? Biz bir dəyərdən yapışaraq digər dəyərləri unutmaq xəstəliyinə tutulmamaq dərsini öyrənməliyik. Biz bütün dəyərlərdə qəhrəman ola bilmərik. Amma imkan daxilində mümkün olan qədər bütün dəyərləri bərabər şəkildə əldə etməyə çalışmalıyıq. Tam kamil insan olmasaq da, orta və mütənasib insan olmalıyıq. Belə olan surətdə, biz bütün meydanlarda həqiqi müsəlman kimi görünə bilərik. Deməli, kamil insanın mənası və onun ən bariz nümunəsi məhz Əli (ə) şəxsiyyətidir və biz də belə olmağa çalışmalıyıq.

MÖVLA ƏLİNİN (Ə) DÜNYAYA BAXIŞI

Peyğəmbər (s) məktəbinin müdavimi Əmirəlmöminin Əli (ə) dünyaya həmişə Quran baxımından nəzər salmışdır. Dünyanın eyni lüğəti mənasını – dəni (alçaq) əldə əsas tutaraq sözdə və əməldə eyniləşmiş və cəmiyyətə də o cür təbliğ etmişdir. Onun dünya haqqında dediyi kəlamlar çoxdur. Bir neçəsini misal çəkməklə mətləbimizi aydınlaşdırmağa çalışacağıq.

İmam Əli (ə) buyurur: **"Dünya! Mənim nəzərimdə keçinin ağzından axan bulanıq su qədər də qiymətin yoxdur."** Digər bir kəlamda isə dünyaya sanki, talaq vermiş, özündən uzaqlaşdıraraq buyurur: **"Ey dünya! Mən sənin talağını verərək, səni boşamışam, özü də üç dəfə və bundan sonra heç cür mənə qayıtmaq imkanın yoxdur. Ey dünya! Məndən uzaq ol! Allaha and olsun ki, heç vaxt sənə təslim olmayacağam ki, sən məni xar edəsən".**

Mövla Əli (ə) həmişə dünya və onun ətrafında olan şeylərə münasibətdə itaətsizlik və üsyan edib, onun ruhuna təsir göstərəcəyinə qətiyyən icazə verməmişdir. Necə ki, aşağıdakı kəlamında onu bir daha təsdiqləyir: **"Mən cilovumu sənin əlinə verməyəcəyəm ki, məni istədiyin yerə çəkib aparasan".**

Bəli, İslamın buyurduğu əsl zahidlik, tərkidünyalıq və azad yaşayaraq özünü dünya nemətlərinə satmamaq budur. Bu, məhz Mövla Əlinin (ə) əməllərində özünü tam göstərir. Dünya və dünya sərvətlə-

rinə həmişə inkarla baxan İmam Əli (ə) çox cazibəli bir ifadə ilə fikrini belə açıqlayır: **"İnsanlar dünya bazarında iki dəstədirlər: biri özlərini satıb əvəzində pul alır, ikinci dəstə isə özlərini dünyada alaraq azad olurlar".**

Yazırlar ki, bir gün o Həzrət əlində olan bir neçə dirhəm və dinara baxıb belə buyurdu: **"Ey pul! Sən nə qədər ki, mənim əlimdəsən, mənim deyilsən".** Çox maraqlıdır. Bizlər tam bunun əksini deyirik. Bəlkə də dediymizi yaxşı dərk etmirik: **"Pul nə qədər ki, cibimdədir, mənimdir, xərclədimsə, mənim deyil".** Bəli, göründüyü kimi, o Həzrətin bu cümləsi bizim sözlərimizin əks qütbündə dayanır. Mövlanın dediyi belədir: **"Sən mənim əlimdə olduğun müddətdə mən sənin olmalıyam, sənə xidmət edib keşiyini çəkməliyəm. Sən, o zaman mənim olursan ki, səni xərcləyirəm".**

Bir qısa əhvalatı nəql etməklə Mövlanın dünya və dünya malına baxışına nöqtə qoymaq istəyirəm. Həzrət Əli (ə) bir gün qəssab dükanının qabağından keçirdi. Qəssabın gözü o Həzrətə sataşan kimi dedi: **"Ya Əli! Bu gün yaxşı ət gətirmişəm, istəyirsinizsə, alın".** İmam yanında pulunun olmadığını bildirir. Qəssab deyir: **"Mən pul üçün tələsmirəm, gözləyərəm, sonra verərsən".** Həzrət belə cavab verir: **"Sən pulun gəlməsi üçün səbr etməkdənsə, mən qarnıma deyərəm o, səbr edər. Mən sənə borclu olmamağım üçün qarnımı səbr etməyə məcbur edərəm. Bu, daha yaxşıdır."** İmam başqa bir yerdə bu ifadəni belə bir təəbirlə işlədir: **"Ey qarın! Sən məndən aşağıdasan. Məni niyə məcbur edirsən ki, sənə görə başqasının qarşısında baş əyim…"**

İslam baxımından insanların **"mən"**liyini özlərinə qaytarmaq üçün onları **"mən"**dən çıxarıb **"biz"** etmək üçün batinlərini islah edib, dünya malına qul olmağa qoymamalıyıq.

İslam bərabərliyin bərqərar edilməsi və cəmiyyətdə düzlük yaranması üçün müxtəlif yollardan istifadə edir. Buna baxmayaraq, **"mən"**liyin **"biz"**ə çevrilməsi üçün də təkcə bunu qənaətbəxş saymır. İslamın fikrincə, ruhlara həqiqət hakim olmalıdır.

Biz bir çoxlarını görürük ki, mallarının çox olmasına baxmayaraq, onların **"mən"**liyi **"mən"** kimi qalmayıb və **"biz"**ə çevrilib. Amma Həzrət Əli (ə) kimi şəxsiyyətlərin **"mən"**liyi heç nələri olmayanda da

"biz" olub, əllərində hər şey olanda da! Çünki onların ruhları əşyalara bağlı olmayıb.

Mövla Əli (ə) həyatda həmişə belə olub. O, çox enişli-yoxuşlu həyat yolu keçib. O Həzrətin evində bəzən yalnız ailə üzvlərinə çatacaq miqdarda azuqə olmasına baxmayaraq, həmin azuqəni Allah yolunda füqərayə paylayıb. Bir müddət də dövrünün ən böyük ölkə və xilafət başçısı olub. Xilafət xəzinələrinin və beytul-malın bir başa sahibi olub. Bəli, Əli (ə) həmin vaxt hər cür naz-nemətlə yaşamaq və **"mən"**liyi hər cür doyurma imkanına malik olub. Amma onun **"mən"**liyi həm heç nəyə malik olmadığı və həm də hər şeyə sahib olduğu vaxt **"mən"** deyil, **"biz"** olub. Həmişə özünü unudaraq xalqının fikrini çəkib. Deməli, **"mən"**liyin **"biz"** olması üçün mülkiyyət və sahibkarlığın aradan götürülməsinin zəruriliyini vurğulayan fəlsəfə düzgün deyildir.

"Mən" və **"biz"**lərin fövqündə duran **"O"** – Qadir Allah bütün varlıqları tənzimləyir, həm bədii ifadələr, həm də ədəb-ərkan qanunları insanlar arasında öz həqiqi məcrasına düşür. Bu ariflərin nəzəriyyəsindəki mətləbdir. Əvvəlcə **"O"** olmasaydı, **"mən" "biz"**ə çevrilə bilməzdi. **"Mən"**lərin **"biz"** olma yolu onların, əvvəlcə **"O"** olmaları, yəni Allaha iman gətirmələridir. Ayəyi-şərifəyə diqqət edək:

"(Ya Məhəmməd!) Söylə: Ey kitab əhli, sizinlə bizim aramızda olan bir kəlməyə tərəf gəlin! (O bu kəlmədir ki:) Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub birbirimizi (özümüzə) rəbb qəbul etməyək!…"

Bu ayədə kitab əhlinə xitab edilib. Ey kitab əhli! Ey yəhudi, ey xristian, ey zərdüşt və ey atəşpərəstlər! Gəlin hamımız bir kəlmə və həqiqət ətrafında toplaşaq, hamımızın arasında eyni olan bir həqiqət ətrafında! Gəlin Quran ifadələrinin incəliyinə nəzər salaq. Buyurur ki, O, elə bir həqiqətdir ki, nə mənim, nə sənin, nə bizim və nə də sizindir. O, bizim hamımızındır, həm siz, həm də biz ona şərikik. O, bizim hər ikimizə, hamımıza aiddir. Peyğəmbər (s) buyurur ki, Allah hamınındır və mən iddia edə bilmərəm ki, O, xristianın, yəhudinin, zərdüştün və bütpərəstin də Allahı deyil, yalnız mənim Allahımdır. O, hamının Allahıdır və hamıya məxsusdur. İnsanın ona mənsub olması, **"mən"** yaradaraq aralarda sərhəd çəkən məhdud şeyə bağlılığı kimi deyildir. O, mən və sənin bağlandığımız zaman çəkişmə və vuruşmalara səbəb olan pul, sərvət deyil. O, elə bir həqiqətdir ki,

eyni anda hamını özündə birləşdirə bilir. Gəlin hamımız **"biz"** olaq! Hansı yolla? Vahid iman, ideya və kəlmə – Allah kəlməsi və Ona iman vasitəsilə! Gəlin hamımız **"biz"** olaq, amma bundan əvvəl hamımız **"O"** olmalıyıq. Hamımız **"O"** olduqdan, yəni bu **"mən"**lər onun müqabilində yoxa çıxdıqdan və hamımız bir rəng – **"O"**nun rəngində olduqdan sonra **"biz"** ola bilərik.

Amma hamının olan və heç kəsə məxsus olmayan həqiqət bizim Allahımızdır. Bəli, mütləq həqiqət, hamımızı və dünyanı yaradan son dönüş nöqtəsi olan Allah hamınındır, gəlin Ona tərəf tələsək, təkcə Ona itaət edək. Gəlin heç nəyi Ona şərik qoşmayaq.

Namazda Allaha sitayiş edərək Ona həmd etdikdən, yəni **"Əl-həmdu-lillahi Rəbbil aləmin"** dedikdən sonra ona xitab edirik. Çox maraqlıdır, **"Allahım təkcə Sənə ibadət edirəm və yalnız Səndən kömək istəyirəm"** demək əvəzinə, **"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!",** - deyirik. **"Mən yalnız sənə ibadət edirəm"** demirik. Namazın sonunda da **"Əssəlamu əleyna və əla ibadillahis-salihin",** yəni, **"bizə və Allahın saleh bəndələrinə salam olsun"** deyirik. Baxın, görün nə dərəcədə Allah-Təala ibadət məqamında insanları İslam vəhdətində, bir bayraq altında birləşdirir və Özünün buyurduğu kimi, **"kamil və bəyəndiyi bir din olan"** İslamı öz bütün gözəlliyi ilə – maddi və mənəvi zənginliyi ilə bizə ərmağan olaraq tövsiyə edir.

Qurani-Kərimdə buyurulur: **"Biz sizə sizin özünüzdən də yaxınıq. Bizim sizə olan yaxınlığımıız sizin özünüzə olan agahlığınızdan çoxdur və bizim zatımız sizə, sizin özünüzdən də yaxındır…"**

Diqqət edək! Görün, Quranın bu ifadəsi nə qədər düşündürücü və maraqlıdır. Həm özünün özünə hamıdan yaxın olmasını, həm də hər bir şeyə Onun Özündən də yaxındır. Çünki, Allah hər bir şeyə onun özündən daha çox **"Öz"**üdür. Əlbəttə, bu, çox yüksək və ali səviyyəli bir kəlamdır ki, insanları düşünməyə vadar edir.

İmam Əli (ə) **"Nəhcül-bəlağə"** əsərində bu bəhsə işarə edərək buyurur: **"Allah şeylərdən xaricdə və onlardan ayrı deyil, amma eyni zamanda onların daxilində də deyil".**

İkincisi, Quranı-Kərimin insanın Allaha bağlı olmasını deməsinin səbəbi onun, Allahı insan hərəkətinin son nöqtəsi hesab etməsidir və o,

insan yolunun ona tərəf getməsini bildirir. Deməli, insanın Allaha üz tutması, onun öz kamalına diqqətidir. Yəni bu, həmin gül toxumunun öz kamilliyinin son nöqtəsinə diqqəti kimidir. İnsanın Allaha tərəf getməsi onun özünə tərəf, yəni naqis **"öz"**dən kamil **"öz"**ünə doğru getməsidir.

MÖVLA ƏLİNİN (Ə) DAVRANIŞLARINDAN

Həzrət Peyğəmbər (s) buyurmuşdur: **"İnsanda dörd xasiyyət cəmləşməlidir. Elm, helm, xoş rəftar və zəmanəsini tanımaq".** İmam Əlidə (ə) nəinki bu dörd xasiyyət, bəlkə bütün məkarim – əxlaq cəmləşmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Əli (ə) şəxsiyyəti təkcə özü üçün yaşamamış o Mövla bütün insanlar üçün ümumiləşmiş bir bədən olmuşdur. O, hamının dərd və qəminə, eyni zamanda sevinclərinə şərik olmağa çalışmış və çox zamanlar da buna nail olmuşdur. İmam Əli (ə) bir şəxsin əziyyətini çəkməkdən zövq alırdı. O, başqalarının dərd və kədərinə şərik olmaqdan ləzzət alırdı. Görəsən, bu nə sirdir? Düzünü Allah bilir. İmam Əliyə (ə) görə, başqalarının dərdini çəkmək ləzzətli olduğu kimi, haqqın hicran dərdi də ləzzətlidir.

Hikmət alimlərinin yazdıqlarına görə, bəzən bir şeyin ağrılı olmasına baxmayaraq, ləzzətli olur. Çox bəsit bir misal: bədən qaşınır və onda bir növ göynəmə olur, qaşıyanda həmin yer ağrısa da, adamın ondan xoşu gəlir.

Biz insanlar həmişə bir sıra dərd və kədərlərdən qaçırıq. Amma eşq yolunda çəkilən əzab və iztirablar bizə xoşdur. Xüsusən, İlahi eşq olanda. Belə ki, imam Hüseyn (ə) müsibətində ona və onun köməklərinə, habelə əsir olmuş köməksiz övladlarına matəm saxlayanda insan acı göz yaşları tökür. İnsanın ürəyi yanmasa və o, dərd çəkməsə göz yaşı tökə bilməz. Amma eyni zamanda həmin əza məclisinə gedir, həmin dərdi hiss edərək göz yaşı tökür. Göz yaşı tökməklə səfalı bir hiss keçirir. Budur ilahi eşq, ilahi məhəbbət. Bu zaman dərd-kədər də insan üçün asanlaşır. Məhz Əli (ə) İlahi eşqinin və İlahi dərdlərin aşiqi idi.

Amma ruhu təkcə özünün olmayan bədənin işi çox çətindir, çünki onun ruhu bütün bədənlərindir. Bir ruh təkbaşına hamının ağrı-acılarını hiss edir. Bu bədən məhz Hicaz vilayətində bütün imkanlara malik olmasına baxmayaraq, iki tikə arpa çörəyi ilə kifayətlənən Əli ibn Əbu Talibdir (ə). Belə bir Əli (ə) ki, xəlifə ola-ola nimdaş paltarda gəzərdi.

Həzrət Əlinin (ə) təvazökarlıq və həlimliyinə nəzər salaq. Küçədə gedərkən çiynində su tuluğu aparan bir qadını görür. Fikirlşir ki, bu qadının su daşıması səbəbsiz deyil, ya kimsəsizdir və ya əri ona əhəmiyyət vermir. İrəli gələrək tam ədəblə belə deyir: **"Xanım, icazə verirsiniz, sizə kömək edib su tuluğunu istədiyiniz yerə götürüm? İcazə verin, bu zəhməti mən çəkim".**

Yorğun vəziyyətdə olan qadın su tuluğunu ona verir. İmam Əli (ə) həmin qadının evinə gəlir, vəziyyəti ilə maraqlanır. Nə üçün suyu özü daşıdığını soruşur. Qadın cavab verir: **"Ərim Əli ibn Əbu Talibin əsgərlərindən idi və döyüşlərin birində şəhid oldu. Mən bir neçə uşaqla tək qalmışam. Ona görə bütün ağırlıq mənim üzərimdədir".**

İmam Əli (ə) bu sözləri eşidəndə narahatçılığından bədəni od tutub yanır. Dərhal evə gəlir, çörək, ət, xurma və pul götürərək həmin qadının evinə gəlib, qapını döyür. Qadın **"kimsən"** - deyə soruşur.

"Mən sizə kömək edib su tuluğunuzu evə gətirən mömin qardaşınızam". Qadın qapını açır və Həzrət Əli (ə) içəri daxil olur. Tezliklə uşaqlar üçün xörək hazırlayır və çörək bişirməkdə qadına köməklik edir. Qadın təndir başında olanda İmam Əli (ə) evdə uşaqlara nəvaziş edir, onlara bir ata kimi qayğı göstərməyə çalışır. Bu zaman Əlini (ə) tanıyan qonşu qadınlardan biri qadına yaxınlaşıb, **"xoş ha sənin səadətinə, xəlifə Əli (ə) ilə qohumluğunuz var?"**, - deyəndə, qadın təəccüblənir. "Həzrət Əli (ə) hara, mən hara? Bu nə sözdür deyirsən?" "Bəs evində uşaqlarınla oynayan, nəvaziş edən müsəlmanların xəlifəsi Əli ibn Əbu Talibdir (ə)" – deyəndə qadın narahat olur və əmirəlmöminindən üzr istəməyə səy göstərir. Lakin Əli (ə) **"sən gərək məni bağışlayasan. Bu neçə vaxtı mənim sənin vəziyyətindən xəbər tutmamağımı mənə halal edəsən. Uşaqları bir-bir qucağına alır, mehribanlıqla "sizdən xəbərsiz qalmış Əlinin təqsirindən keçin"**,- deyir.

Bəli, əziyyət çəkən və ruhu bütün insanların olan bədən belədir. Bu, ancaq Əli (ə) ola bilərdi...

İSLAMIN NƏZƏRİ

Heç şübhəsiz, insan öz dərdini çəkməklə yanaşı, müsəlmanların da dərdinə, kədərinə şərik olmalıdır. Lakin bu şəriklik insan həddində olmalıdır. Belə ki, Allah-Təala hər bir şəxsə öz gücü çatdığı qədər yük götürmə qabiliyyəti verir. Hər qabın öz tutumu var. Kasa dolan-

dan sonra daşmalıdır. İnsan da həddindən artıq yüklənərsə, ya aradan gedər, ya da böyük xəstəliklərə düçar olar. Nəhayətdə ruh cismi tərk edib, ölümlə nəticələnməlidir. Nəticə etibarilə, biz insanlar fəqət biri-birimizə kömək məqsədilə müəyyən müddət qəmə-kədərə şərik ola bilərik. İndi gəlin, bu barədə Allah-Təalanın Qurani-Kərimdə Həzrəti Peyğəmbərə (s) xitab edərək başqalarının dərdini çəkmək, onların qeydinə qalmaq haqqında buyurduğu ayələrə diqqət edək:

"(Ya Məhəmməd! Yoxsa (kafirlər) bu Qurana inanmasalar, (səndən üz çevirib getdiklərinə görə) arxalarınca təəssüflənib özünü həlak edəcəksən?!" (**"Kəhf"** surəsi, 6-cı ayə)

"Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Peyğəmbər ayaq üstə, barmaqlarının ucunda durub o qədər namaz qılmışdı ki, mübarək qıçları şişmişdi)

(Biz onu Allah əzabından) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik)". (**"Taha"** surəsi, 2 və 3-cü ayələr)

Peyğəmbər (s) xalqın hidayət və səadəti, onların dünya əsirlikləri və giriftarçılıqlarından qurtarmaları və axirətlərinin yaxşı olmasına sonsuz həddə çalışırdı. Bütün bu xitablar buna görə Allah-Təala tərəfindən ona edilmişdir.

Digər bir ayədə isə belə buyurur:

"(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə, məşəqqətə düşməyiniz ona ağırdır, o sizi (sizin iman gətirməyinizi) çox istəyir, möminlərə şəfqətli və mərhəmətlidir." (**"Tövbə"** surəsi, 128-ci ayə)

Mövla Əli (ə) xəlifə və məmurların öz nəfslərinə sahib olub, dünyanı iki əlli tutmamalı xalqın malını göz bəbəyi kimi qorumalı olmalarını tövsiyə edir. O, bu işdə necə əziyyət çəkməsini önə çəkərək deyir: **İstəsəm mənim üçün hər bir imkan hazırdır. İstədiyim ən yaxşı yeməli, içməli və geyinməli şeyləri özüm üçün əldə edə bilərəm. Amma mənim belə etməyim qeyri-mümkündür. Mənim öz cilovumu hərislik və nəfsi istəklərimin əlinə verməyim mümkün olmayan bir şeydir".**

Görəsən İmam Əli (ə) nə üçün belə deyir? Məgər Allah-Təala bu nemətləri insanlara haram buyurub? O, bu barədə izahat verərək deyir: Xeyr, məsələ belə deyil, onlar haram deyil, halaldır. Amma məsələ bundadır ki, əgər mən burada öz qarnımı doyuzdursam, İraq,

Kufə, Yəmən, Fars körfəzi sahilləri və Hicazda kiminsə bu bir tikə çörəyə ehtiyacı ola bilər və ya bir tikə çörək əldə etməyə belə ümidi də olmasın. Mən tox qarınla yatım, amma ətrafımda ac qarınlar və susuz cigərlər olsun? Heyat, belə bir iş Əlidən uzaqdır!!

Təəssüflər olsun ki, bizlər bu gün belə şeylərə tamamilə laqeydliklə yanaşırıq.

Bəli, xalqın dərdini çəkmək buna deyərlər. İnsanlıq meyarı, daha düzgün desək, dəyərlərin ikinci anası budur. Əli (ə) söhbətinin davamında belə deyir: **"Mən Əmirəlmöminin, xəlifə və abadlıqların çoxunu əhatə etmiş İslam ölkələrinin başçısı ləqəb və xitabına qane olub özümü möminlərin ağası adlandırım, amma çətinliklərdə onlarla şərik olmayım?!"**

Bütün bunlara diqqət edəndə görürsən ki, burada söhbət başqalarının dərdlərini duymaqdan gedir. Burada Əli bədəninin ümumbəşəri dərd və kədərin məskənidir desək, yanılmarıq.

Bəli, Həzrət Əli (ə) şəxsiyyətini özümüzə meyar götürə bilsək bizim üçün böyük iftixardır. Bu kamil bir insanı özümüz üçün rəhbər seçməyimiz deməkdir. Axşamlar, gecənin sakit qaranlıqlarında heç bir arif Allah-Təalaya ibadət və itaətdə Əliyə (ə) çata bilməzdi. İmam Əli (ə) haqqın səcdəgahında tamamilə öz varlığından bixəbər olur. O Alovla ibadət nuruna elə qərq olur və İlahi eşq onun vücudunda elə şölələnir ki, sanki bu dünyada deyil.

Biz Əli (ə) haqqında mütaliə edəndə görürük ki, o Mövla döyüş meydanında düşmənlə mücahid kimi üzləşdikdə də gülərüzlü olub. Əlinin bu xüsusiyyəti barəsində belə deyiblər: **"O, ibadət mehrabında çox ağlayan, döyüş meydanında isə gülən və şaddır ".**

Onun mübarək ləqəblərindən biri **"Bəkka"**, yəni çox ağlayan, ikincisi, **"Zəhhak"**, yəni gülən mənalarını daşıyır.

Gecəni ibadət, gündüzü isə şəxsi məişət işləri və ictimai məsələlərlə məşğul olmaq üçün nəzərdə tutardı. O, Hafizi-Quran və gözəl müfəssir idi.

Həzrət Əli (ə) şəxsiyyətinin təhlili bir daha göstərir ki, onun həyatı və xüsusiyyətləri başdan-başa təzaddır. Təəccübləndirici məqamlardan biri də Əlinin (ə) sözlərinin çoxşaxəli olmasıdır. Əlinin (ə) sözləri elə bir xüsusiyyətə malikdir ki, söhbətimizin hansı hissəsinə daxil olursa, sanki yeni bir dünyaya daxil olduğunu görürük. Gülərkən ağlayan, qəzəbli ikən mülayim, yoxsul ikən səxavətli, zəif ikən

şücaətli, bir sözlə, yuxarıda dediyimiz kimi, bütün təzadlı sifətlər eyni vaxtda Əlidə(ə) cəmləşmişdir. Bəli, Əli (ə) bütün dünyalarda var və var olmağı ilə də qalibdir.

Həm həlimlik və yumşaqlığın son həddində, həm də şücaətin son dərəcəsindədir. Lazım olan yerdə sənin çirkin qanları tökməyin də, qan tökməyin son dərəcəsindədir. Digər tərəfdən, ibadətin son dərəcəsinə çatmış bir abidsən. Həm yoxsul və həm də səxavətlisən! Heç nəyin yoxdur, amma bağışlayansan. Bəzi yerlərdə rəftar və davranışın o qədər lətif və mülayimdir ki, meh bu əxlaqın lətifliyindən xəcalət çəkir. Həmçinin ruhunda o qədər şücaət və mücahidlik vardır ki, daş, filiz və cansız əşyalar onun müqabilində əriyirlər. Sənin ruhun o lətafətli mehdir, yoxsa bu qüdrət və möhkəmliyin? Heç cür başa düşmürəm, sən necə varlıqsan?! Lakin bunu deyə bilərəm ki, (Həzrəti Peyğəmbər (s) demişkən) **Əli bəşərdir, necə bəşər...**

MÖVLA ƏLİ (Ə) AİLƏ BAŞÇISI KİMİ

Mövla Əlinin (ə) zövcəsi ilə rəftarı hamı üçün həyat məktəbidir. Bu böyük şəxsiyyətin vurğunları ailə-evdarlıq məsələlərində də onun rəftar və hərəkətlərini öz ailələri üçün nümunə saymalı, ailə ocağını eşq və səfa ocağına çevirməlidir.

Mövla Əli (ə) Fatimeyi-Zəhranın (ə) məhəbbətini, misilsiz səbr və dözümünü həmişə minnətdarlıqla yad edir, onun varlığını özünün iftixarı sayır, Peyğəmbərin (s) düşmənləri ilə mübahisə və söhbətlərində bu məsələni xüsusi təkidlə qeyd edirdi.

Fatimeyi-Zəhranın (ə) şəxsən özünə bu həqiqəti dəfələrlə bildirmiş, ona bütün məşəqqətlərə səbr və mətanətlə dözdüyü üçün minnətdarlıq etmişdi.

Ancaq Fatimeyi-Zəhranın (ə) şəhadətindən sonra sanki Mövla Əli (ə) sanki gücsüz, təmkinsiz olmuşdu. Peyğəmbərin (s) vəfatından sarsılan Əli (ə) Fatimeyi-Zəhranın (ə) ayrılığını ən ağrılı dərdlərindən biri sayır və Allahdan özü üçün səbr və hövsələ diləyirdi. Mövla Əli (ə) öz həyat yoldaşının ayrılığı haqqında Allah elçisinin qəbrinə xitabən deyirdi: **“Ey Allahın elçisi, Zəhradan ayrılığın təsiri nəticəsində gücüm zəifliyə, səbrim kəmhövsələsizliyə çevrilibdir. Ey varlıq aləminin xilaskarı, sənin əmanətin əlimdən alındı. Ancaq bil ki, bundan sonra mənim hüzurum və kədərim həmişəlikdir. Fatimənin (ə) ayrılığından gecələr gözümə yuxu getməyəcəkdir”…**

Allah yolunda mübarizə aparan böyük bir mücahidin söylədiyi bu sözlər göstərir ki, Fatimə (ə) Həzrət Əlinin (ə) həyatında, ruhiyyəsində və dəyanətində necə də böyük rola malik olmuşdur. O zərif vücud Fatimeyi-Zəhraya (ə) nə qədər bağlı imiş. Onun sevgisini necə də unutmamışdı və o, hətta mehriban həyat yoldaşı şəhid olandan sonra da ona təşəkkür edirdi. Bəlkə də buradakı **"sənin qonşuluğuna köçən"** sözlərinə görə, Fatimənin (ə) – Həzrət Əlinin (ə) həyat yoldaşının naməlum qəbrinin Allah elçisinin qəbri yanında olduğunu güman etmək olar.

Mövla Əli (ə) öz ömür-gün yoldaşının dəfni zamanı mehriban və əziz Allahına müraciət edərək dedi: **"İlahi, mən sənin Peyğəmbərinin (s) qızından razıyam. İlahi, o, qəbirdən qorxur, ona rahatlıq bəxş et!".**

Baxmayaraq ki, Fatimeyi-Zəhra (ə) özü də böyük əzəmət sahibi idi, amma yenə Mövla Əlinin (ə) razılığına möhtac idi. Buna görə İmam Əli (ə) həyat yoldaşına bəslədiyi razılıq və məhəbbət hislərini Allah-Təalanın hüzurunda dilinə gətirdi.

O, kamil, bütün ləyaqətli sifətlərə malik və çoxcəhətli istedad sahibi olan bir insan idi. Mübarizə aparmaqda ərəblərin ən mübarizi, gecələr ibadət etməkdən ən yaxşı abid idi. Cəmiyyət içində ən ədalətli bir şəxs idi ki, bütün qələm sahiblərinin etirafına görə, onun ölümü ilə ədalət öldü və o, ədalətinin çoxluğundan ibadət mehrabında şəhid oldu. O, insanların ən sücaətlisi olmasına baxmayaraq, eyni zamanda yetim qarşısında diz çökərdi, rəhmət əlini onun başına çəkərdi və göz yaşı tökərdi. İnsanlara müraciət etmək məqamı gələndə o, ən fəsahətli xitablar edərdi, əlinə qələm aldığı vaxt, qələmi nitqindən iti olardı, onun qələminin damcılarından şərəfli, əvəzsiz, bəşər kəlamından uca, Allah kəlamından aşağı olan bir kitab – **"Nəhcül-Bəlağə"** yaranmışdır.

Mövla Əli (ə) kamil bir şəxsiyyət, haqq-ədalət mizanı, vəsfə, tərifə sığmaz bir insandır.

O bir atak imi həyatda özündən sonra gözəl övladlar qoydu. İmam Həsən (ə) və İmam Hüseyn kimi Behişt cavanlarının ağalarını ictimaiyyətə təqdim etdi. Fatimeyi-Zəhra nişanəsi Zeynəb və Külsüm kimi iffət ismət mücəssəməsi Kərbəla qəhrəmanları yetişdirdi. Onlara Əbəlfəzl kimi comərd və vəfalı qardaş bəxş elədi. Bir sözlə bütün övladları bir-birindən mətanətli, dəyanətli şücaətli şəxsiyyətlər idilər. Xalqa rəhnuma idilər. Ömürlərinin sonuna qədər öz nəsil-nəcabətlərinin şərəf və ləyaqətlərini qoruyub saxladılar. Bəli, şirdən şir törənər...

IV FƏSİL

MÖVLA ƏLİ (Ə) QEYRİ-MÜSƏLMAN ALİMLƏRİN GÖZÜ İLƏ

Mövla Əli (ə) ilə tanışlıq işığından daha çox faydalanmaq yollarından biri də ayrı-ayrı alim və mütəfəkkirlərin bəşər və İslam tarixinin bu nəhəng şəxsiyyəti barəsində deyilmiş fikirləri üzərində araşdırma aparmaqdır.

Bu hissədə Mövla Əlinin (ə) şəxsiyyəti, fikir dünyası və həyatı haqqında silsilə elmi məqalələri araşdırmaqla bu heyrət doğuran vücudun varlıq sirrini dərk etmək üçün başqalarının – qeyri-müsəlmanların fikir gücündən yardım alacağıq. Beləliklə, keçmişin habelə yaşadığımız əsrin adlı-sanlı mütəfəkkirləri və düşüncə sahiblərinin fikir şöləsindən istifadə edərək xilqətin bu parlaq günəşi ilə daha yaxından tanış olacağıq.

Doğrudur, bu sözlər bəşər tarixinin ən böyük şəxsiyyətlərini tanıtmaq üçün kifayət edərdi. Mövla Əliyə gəldikdə isə bu vəziyyət bir az çətinləşir. Ona görə ki, bu şəxsiyyət Allah aşiqidir. Onu tanımaq üçün ilahi eşq sahibi olmaq lazımdır... Bizim məqsədimiz buradakı yazılarla Mövla Əlinin (ə) əzəmət və böyüklüyünü göstərmək deyil. Çünki onun şəxsiyyətini tanıtmaq üçün başqalarının düşüncələrindən və dediklərindən yardım almağa heç ehtiyac yoxdur. Mövla Əlini (ə) yalnız özü ilə, öz zatının işığı ilə tanımaq lazımdır. Bir də ki, məqsədimiz Mövla Əlini (ə) başqalarının dili ilə tanıtmaq yox, onu başqalarının necə tanımasını öyrənməkdir. Əvvəlcə qeyri-müsəlman mütəfəkkir və alimlərin Mövla Əli (ə) haqqında dediklərinə və yazdıqlarına nəzər salaq.

Mövlana Cəlaləddin Ruminin dediyi kimi: (tərcümə)

Daha xoş budur ki, dilbərlərin sirri,
Başqalarının hədisində söylənilsin.

Bu beytin mənasına uyğun gələn kəlamlardan biri də düşmənin dilindən tərif eşitməkdir.

Əgər İslam alimləri, xüsusilə şiə mütəfəkkirləri Mövla Əlidən (ə) bəhs edərkən öz fikirlərini İslama olan imanla, Peyğəmbərin (s) paklıq və ismət rəmzi olan nəslinə göstərilən məhəbbətlə dəyərləndirirlərsə, qeyri-müsəlman alimlər bu bənzərsiz şəxsiyyətin həyatını yalnız elmi baxışla, tədqiqatçı və araşdırıcı gözü ilə öyrənə bilərlər. Onlar bu kamil şəxsiyyətin insani keyfiyyətlərinin tamlığından o qədər heyrətlənirlər ki, hətta dedikləri də həmin təəccüb və heyrətin təsirindən kənarda qalmamışdır. Məşhur ustad şairimiz Məhəmmədhüseyn Şəhriyarın dərin mənalı bir şerində bu barədə belə deyilir: **"…Sənin fəzilətin o qədər önəmlidir ki, düşmən də ona heyranlığını zəmanət verir və bu fəzilət daha xoşluqla təsdiqlənir…"**

Şibli Şüməyyil Zindiqi də eyni ilə bu mətləbə işarə edib Əlini vəsf edərkən bu xitabı söyləməyin lazım gəldiyini bildirmişdir: **"Əli yeganə şəxsdir ki, dünyanın Şərqi və Qərbi ondan daha əsl – həqiqi bir insan görə bilməmişdir".**

Bundan sonra gələn sözlər olsa-olsa minlərlə yazı və deyimlərin seçilmiş gül çələngidir, bir sözlə, dənizdən bir damladır. Yoxsa Mövla Əli (ə) haqqında yazılan risalə və kitabların adının siyahısını tərtib etmək istəsəydik, onlarca cild, bütöv bir kitabxana yaranardı.

CÜBRAN XƏLİL CÜBRAN LİVANİ. Qəhrəmanlıq və həyəcan dolu sətirlərin müəllifi, xaçpərəst Cübran Xəlil Mövla Əli (ə) haqqında yazır: **"Mənim əqidəmcə, Əbu Talibin övladı ilk ərəbdir ki, Ruhi-küllün yaxınlığını, zəruriliyini və insanla qırılmaz əlaqəsini əsas kimi götürmüşdür. Əli (ə) həmin ruhla gecələr ünsiyyət saxlayır və sirdaşlıq edirdi. O, ilk ərəb idi ki, Ruhi-küllün ahəngini xalqın qulağına pıçıldayırdı, xalq isə bundan qabaq belə bir nəğmə eşitməmişdi. Beləliklə, adi xalq onun işıq saçan bəlağət yollarının ortasında öz keçmişlərinin qaranlıqlarına görə heyran oldu, cahiliyyə və nadanlıq övladları isə ona düşmən kəsildilər. Əli (ə) dünyadan köçdü, öz əzəmətinin şəhidi oldu. Namaz üstündə gözünü yumdu. Onun ürəyi Pərvərdigarın şövqü ilə dolu ikən vəfat etdi. Ərəblər onun qüdrətinin məqamını tanımadılar, o günə qədər ki, ərəblərin qonşuları fars camaatı ayağa qalxdı, gövhərlə daş parçasının fərqini gördü."**

ŞİBLİ ŞÜMƏYYİL. Ərəb materialist filosofudur, kommunist məntiqinə malikdir, ateisdir, metafizikanı inkar edir. O, Mövla Əli (ə) haqqında belə deyir: **"İmam Əli ibn Əbu Talib (ə) dünya böyüklərinin böyüyü, zamanın yeganə şəxsiyyəti idi. Qərb və Şərq dünyasında, keçmişdə və indiki vaxtda öz əslinə tam bənzər ikinci belə bir şəxs görünməmişdir".**

CORC CORDAK. Başqa bir xaçpərəst yazıçısı – yəni C.Cordak beş cildlik bir əsərdə Mövla Əlinin (ə) şəxsiyyəti və məktəbi haqqında təhlillər apararaq belə söyləmişdir: **"Tarixin yanında həqiqət və gerçəklik bir cürdür, istər onu tanıyasan, istərsə də tanımayasan, fərq etməz. Adlı-sanlı şəhid, şəhidlərin böyük atası, Əli ibn Əbu Talib (ə) insan ədalətinin səsidir. Şərqin əbədi şəxsiyyətidir. Bu həmin Əli ibn Əbu Talibdir ki, ölüm və döyüşün tamamilə başqa mənasını dərk etmiş, anlamışdır. O, başqa niyyət və qəsdlə vuruşurdu, bu niyyət başqalarından fərqli idi. Səmimi zöhd və halallıqla cihad yolunu seçdi, çarəsizlərə və kimsəsizlərə məhəbbət göstərməklə qalaları fəth etdi, ədalət və insaf düşmənlərinin sarayını yerlə yeksan etdi. O, əxlaqi kəramət və ali insani sifətlər baxımından yüksək kamil bir zirvəyə yetmişdi. Ey dünya! Nə olardı ki, bütün qüdrət və gücünü işə salaydın və həmin ağılla, həmin qəlblə, həmin dillə, həmin Zülfüqarla aləmə təzə bir Əli (ə) bağışlayaydın".**

MİXAİL UEYM. Məşhur xaçpərəst yazıçı, filosof və mütəfəkkir, müasir ərəb ədəbiyyatının tanınmış nümayəndəsi olan Mixail Ueym belə yazır: **"Bir yazıçı və tarixçi nə qədər dahi və hünər sahibi olsa da, heç vaxt bir neçə min səhifədə Əli (ə) şəxsiyyətinin mükəmməl təsvirini, onun yaşadığı fitnə dolu və fırtınalı mühiti, Tanrı arasında heç kəsin eşidib görmədiyi bir ünsiyyəti yarada bilməz. Belə olduqda onun şəxsiyyətinə həsr etdiyimiz hər bir tablo istər-istəməz cılız, naqis, dumanlı və yarımçıq olacaqdır. O, nəinki təkcə döyüş və mübarizə meydanının qəhrəmanı idi, eyni zamanda özünün pak və dərin vicdanı, qətiyyətli nitqi ilə zülmkarlara qarşı amansızcasına çarpışan bir qəhrəman hesab edilirdi. Uzun illər keçsə də onun böyüklüyü və əzəməti həmişə**

bizim üçün zəngin və tükənməz bir xəzinədir. Elə bir xəzinə ki, biz ona diqqət yetirməli, bu gün, ləyaqətli və şərafətli həyat sürməyə ehtiyac duyduğumuz hər bir vaxt bu coşqun ruhdan ilham almalıyıq. Çünki o, bütün zamanlar və məkanlar üçün sonsuz təfəkkür və düşüncə qaynağı hesab edilir". (**"Əl-Qovmiyyətil-Ərəbiyyə və Soutil Ədalətil-İnsaniyyə"**, 5-ci cild, səh. 1224)

TOMAS KARLAYL. İngilis filosofu və yazıçısı Tomas Karlayl Mövla Əlinin (ə) şəxsiyyəti və tarixi əzəməti haqqında belə yazır: **"…Lakin Əli (ə) haqqında bizə təkcə bu qalır ki, onu sevək, ona məhəbbət bəsləyək. O, böyük və alicənab şəxsiyyət idi. Onun vicdan çeşməsindən xeyir və yaxşılıq qaynayırdı, ürəyindən qəhrəmanlıq və tələtüm şölələri alovlanıb qalxırdı. O, aslandan da şücaətli idi, lakin bu şücaət, lütf, səfa və rəhmət dolu bir ruhla qarışmışdı, incə insani duyğular, həlimlik və yüksəklik hissələri ilə dopdolu idi. O, Kufə şəhərində qəflətən vuruldu, hiylə ilə şəhadətə yetirildi. Bu cinayətin törənməsi onun ədalətinin hədsiz dərəcədə çox olması ilə bağlı idi, çünki o, hər bir kəsi özü kimi adil hesab edirdi. Ölüm yatağına düşdüyü zaman qılıncla onu yaralayan adam haqqında dedi: "Sağ qalsam özüm bilərəm nə edərəm, ölsəm, özünüz bilərsiniz. Əgər qisas istəsəniz, bir qılınc zərbəsinin müqabilində siz də təkcə bir zərbə vurun. Ümumiyyətlə, qisasdan keçsəniz təqvaya daha yaxındır".**

VOLTER. XVIII əsrin görkəmli fransız yazıçısı, filosofu, mütəfəkkiri və dramaturqu Volter **"Xalqların adət-ənənələri haqqında traktat"**ında müsəlman xalqlarının problemlərinə, xüsusilə İslamın başlanğıc dövrünə aid maraqlı və diqqətəlayiq mətləblərə toxunur. Müəllif bu kitabında Mövla Əlini (ə) xəlifəliyinin qanunilik baxımından sənədləşdiyini göstərmişdir. Eyni zamanda yazıçının əqidəsinə görə, İslam Peyğəmbəri (s) əmisi oğlu və kürəkəni olan Mövla Əlinin (ə) canişinliyini açıq-aydın və qətiyyətlə vəsiyyət etmişdir. Hətta ölüm yatağında olarkən öz səhabəsindən qələm və mürəkkəb istəmişdir ki, yazılı surətdə Həzrət Əlinin (ə) canişin kimi təqdim və təsdiq etsin. Volter əsərin nisbətən geniş bir bölməsində bu məsələləri təhlil edərək araşdırmış və bu vəsiyyətin yerinə yetirilməməsi barəsindən öz təəssüfünü bildirmişdir. Fransız filosofu bu barədə yazır: **"İslam Pey-**

ğəmbərinin (s) sonuncu istək və iradəsi yerinə yetmədi. O, ölüm yatağında olarkən Əlini (ə) öz canişini seçmişdi. Lakin onun vəfatından sonra bu istək həmin əsrin bir sıra nüfuz sahibləri tərəfindən nəzərə alınmadı".

BARON KARDOVO. Fransız tədqiqatçısı və tarixçisi Baron Kardovo sənədli və elmi səpkidə yazılmış əsərində şiələrin ilk imamı, İslamın böyük mücahidi və bənzərsiz mübarizi haqqında belə yazır: **"Əli - o bənzərsiz şücaət sahibi, tayı-bərabəri olmayan qəhrəman və cəsur insan, İslam Peyğəmbəri (s) ilə çiyin-çiyinə vuruşur, fəaliyyət göstərir və möcüzəsayağı qiyam edirdi. Bunlar tarixdə şan-şöhrət və əzəmətlə xatırlanır. Əli (ə) Bədr döyüşündə iyirmi yaşlı cavan idi, bir qılınc zərbəsi və qolunun zoru ilə Qüreyş süvarilərindən olan, özü də güclü və qəhrəman sayılan məşhur bir adamı iki böldü. Uhud döyüşündə peyğəmbərin qılıncını götürdü, hər bir zərbəsi ilə başları parçaladı, zirehləri yırtdı. Yəhud və Xeybər qalalarına yürüşdə bir əli ilə ağır darvazanı yerindən qoparıb başı üzərində sipərə çevirdi. İslam Peyğəmbəri (s) onu çox sevirdi, ona böyük inam və etibarı vardı. Bir dəfə peyğəmbər (s) nəzərlərini ona dikmiş halda belə söylədi: "Mən hər kim üçün mövlayamsa, Əli onun mövlasıdır".**

QABRİYEL DANGİ. Fransanın bu məşhur yazıçısı və tədqiqatçısı öz qiymətli əsərində İslamın əzəmətli şəxsiyyəti haqqında şövq və həyəcanla, coşğun bir ürəklə və özünəxas heyrətlə belə yazır: **"Əli (ə) məharətli xətib, güclü yazıçı, ali rütbəli qazi hesab edilir ki, mənəviyyat məktəbləri yaradanların və özül qoyanların ilk cərgəsində özünə görkəmli yer tutmuşdur. Onun yaratdığı məktəb aydınlıq, aşkarlıq və məntiqi möhkəmlik baxımından, həmçinin tərəqqi, yeniləşmə və daim inkişafda olması baxımından fövqəladə əhəmiyyətə malikdir. Əli (ə) iki müstəsna xüsusiyyətə malik olub ki, bu cəhətləri tarixin böyük qəhrəmanlarının heç birində tapmaq olmur. Birincisi, Əli (ə) İmam və qəhrəman adının hər ikisinin daşıyıcısı olmaqla yanaşı, eyni zamanda məğlubedilməz sərkərdə, alim və ilahiyyat bilicisi, İslamın başlanğıc dövrünün ən fəsahətli xətiblərindən sayılırdı. İkincisi, Əli (ə) sünni və şiə**

məzhəbli müsəlmanlar tərəfindən İslamın sitayiş və ehtirama layiq olan ən iftixarlı şəxsiyyəti kimi tanınmışdır. Bundan əlavə bu günə qədər İslam xalqları arasında təfriqə və ayrılıq salan bütün firqələr və məzhəblər tərəfindən rəhbər kimi qəbul edilmişdir. Sünnə əhlinin məscidlərinin kitabəsində Əlinin (ə) adı İslam Peyğəmbərinin (s) Əbu Bəkr və Ömərin adlarının yanlarında Həzrət Mühəmmədin (s) adından sonra yazılmışdır." (**"Şəhsüvari-İslam"**, Qabriyel Dangi. Tərcümeyi-Kazim İmadi, 4-cü çap, səh. 139-140-145)

NƏRSƏSAYAN. Bir zamanlar Böyük Britaniyanın Bağdaddakı səfirliyinin birinci katibi işləmiş, xaçpərəst alim və məşhur siyasi xadim olan Nərsəsayan Mövla Əli (ə) barəsində deyir: **"Əgər bu böyük Xətib Əli ibn Əbu Talib (ə) bizim əsrimizdə, elə bu gün Küfə məscidində minbərə qalxsaydı, görərdi ki, məscid Avropanın böyükləri və görkəmli adamları ilə doludur. Hamı gələrdi və öz ruhlarının onun bilik dolu dənizindən sirab etmək üçün buraya toplaşardı".** (**"Mahuvə Nəhcül-Bəlağə"**, səh. 3)

USTAD SÜLEYMAN KƏTTANİ. Livan alimi Ustad Süleyman Kəttani Mövla Əlinin (ə) şəxsiyyəti ilə özünün ilkin tanışlığı barədə belə yazır: **"İmam Əlinin (ə) həyatı ilə mənim ilk tanışlığım "Nəhcül-Bəlağə"ni və o Həzrətin xütbələri, məktubları və kəlamları toplanmış məcmuəni oxumağımla başladı. "Nəhcül-Bəlağə"nin dərin və mənalı sözləri və fikirləri mənim diqqətimi İmam Əliyə (ə) cəlb etdi. Bu isə bəşər tarixinin o böyük şəxsiyyətinin həyat və fəaliyyətini bütün incəliklərilə öyrənməyimə səbəb oldu".**

Ustad Süleyman Kəttani **"Nəhcül-Bəlağə"**nin əzəməti, onun yüksək məqamı və Mövla Əlinin (ə) gövhər saçan sözləri barədə belə yazır: **"Belə deyirlər ki, "Nəhcül-Bəlağə"nin toplanması işinə İmam Əlinin (ə) vəfatından üç əsrdən daha çox keçəndən sonra başlanılmışdır. Bu faydalı və çox qiymətli işi Seyyid Şərif Rəzi adlı bir şəxs öz öhdəsinə götürmüş, o Həzrətdən yadigar qalmış hikmətli və ibrətamiz sözlərini, kəlamlarını, məktublarını, fərmanlarını toplamış, sistemləşdirmiş və bu işi son dərəcə böyük məharət və sənətkarlıqla yerinə yetirmişdir. Seyyid Şərif Rəzi**

İmam Əlinin (ə) yaşadığı və mübarizə apardığı əsri elə hərtərəfli, dəqiq şəkildə öyrənib tədqiq etmiş və İmam Əli Əbu Talibin (ə) psixologiyasını, əhval-ruhiyyəsini elə gözəl təhlil etmişdir ki, sanki özü o dövrdə yaşamışdır".

Mövla Əlinin (ə) **"Nəhcül-Bəlağə"** kitabında toplanmış xütbələrdəki, məktublardakı sözlərin fəsahəti, bəlağəti, dərinliyi və mənəvi gözəlliyi Süleyman Kəttanini o qədər özünə valeh etmişdir ki, bütün bunlara görə, o İmamın həyatı, şəxsiyyəti, səxavəti, mərdliyi, qəhrəmanlığı və s. haqqında tədqiqat aparmış və əsərlər yazmışdır. O, Mövla Əli (ə) haqqında yazdığı kitablarını İraqda, Nəcəfül-Əşrəfdə alimlər əncüməninin 1964-1965-ci illərdə təşkil etdiyi Beynəlxalq Kitab Sərgisində **"İmam Əli (ə) - Məşəl və Qala"** adlı kitabı ilə iştirak etmiş və birinci mükafata layiq görülmüşdür. Bu müvəffəqiyyətdən ruhlanan Süleyman Kəttani İraqda keçirilən başqa bir müsabiqədə İslamın nümunəvi xanımı olan Fatimeyi-Zəhranın (ə) şəxsiyyəti ilə əlaqədar müsabiqədə **"Fatimeyi-Zəhra (ə) – Kamanda Ox Kimi"** kitabı ilə iştirak etmiş və yenidən birinci mükafatı münsiflər heyəti bu xaçpərəst yazıçıya təqdim etmişdir.

Burada xatırlamaq yerinə düşərdi ki, bu iki kitab ərəb dilindən fars dilinə tərcümə edilmiş və **"İmam Əli (ə) - Məşəl və Qala"** və **"Fatimeyi-Zəhra (ə) – Nümunəvi Qadın Kimi"** adı ilə çap olunmuşdur.

Süleyman Kəttaninin **"İmam Məhəmməd Baqir (ə)"**, **"Əl-əmir Bəhir əş-Şəhabi"**, **"Çıxışları və Məqalələri"** adlı digər kitabları da tərtib olunmuş, lakin hələ çap eldilməmişdir.

Süleyman Kəttani **"İmam Əli (ə) – Məşəl və Qala"** kitabının başlanğıcında belə yazır: **"Mənim qələmimin gücü ancaq buna çata bildi ki, dünyanın ən böyük şəxsiyyəti olan bu nadir insanın ruhunun göylərində qanad açıb uça bildim. Bu işə o zaman başladım ki, qəlbimin söz gülüstanından bir gözəl gül dəstəsi bağlamaq, o böyük şəxsiyyətin dərgahına qəbul olunacağı ümidi ilə ərməğan etmək qərarına gəldim".**

SÖVDƏ HƏMADANİ MÖVLA ƏLİ (Ə) HAQQINDA

Sövdə Həmadani - vəfadar və Mövla Əliyə (ə) vurğun olan bu qadın Müaviyyənin qarşısında heç bir tərəddüd etmədən o Həzrətə

salam göndərdi, onun haqqında belə söylədi: **"Allahın salamı o ruha olsun ki, onun peykərini (bədənini) torpaq aldı. Ədalət və insaf da onunla dəfn edildi. Allah ilə peyman bağlamışdı ki, onun yerinə heç bir əvəzi qəbul etməsin, heç bir əvəzi seçməsin. Onun pak vücudu imanla, haqq ilə yaranmış və uyğunlaşmışdı".**

SƏSƏNİN SÖZLƏRİ

Mövla Əliyə (ə) vurğun olanlardan Səsə bin Suhan Əbdi adlı birisi həmin gecə onun dəfn mərasimində iştirak etmişdir. Həzrəti dəfn edəndən sonra Səsə bir əlini ürəyinə qoydu, o biri ilə başına torpaq səpərək dedi: **"Ölüm sənə xoş olsun ki, sənin doğuluşun pak idi. Dözümün qüvvətli, cihadın böyük idi. Öz düşüncələrinə yetişdin və faydalı ticarətdə uğur qazandın. Yaradanına nazil oldun və O, sənə xoşluqla öz yaxınlığında yer verdi, qardaşın Mühəmmədəl-Mustafanın (s) dərəcəsinə yetişdin, onun dopdolu feyz camından içdin. Allahdan istədiyimiz budur ki, sənin davamçın olaq, sənin yoluna, qanun-qaydalarına və həyat tərzinə əməl edək. Sənin dostlarını sevək və düşmənlərinə düşmən olaq, sənin dostlarının cərgəsində toplaşaq. Başqalarının tapmadıqlarını sən tapdın, başqalarının yetişə bilmədiyi məqama sən yetişdin. Qardaşın Peyğəmbərin (s) xidmətində cihad etdin və Allah-Təalanın dini üçün layiqincə qiyam etdin, nəticədə sünnətləri bərpa edə bildin, sapınmaları və fitnələri islah etdin, İslam və imanı nizamlı bir hala saldın. Ən yaxşı salamları sənə göndəririk. Sənin kömək və vasitənlə müsəlmanların arxası və dayaqları birləşdi, möhkəmləndi, yollar işıqlandı, sünnətlər möhkəm halda bərqərar oldu. Peyğəmbərin (s) çağırışına ləbbeyk dedin, onun dəvətinə və köməyinə hamıdan qabaq tələsdin, ona yardımçı oldun və canınla onu hifz edib qorudun, müsəlmanların qorxu və dəhşət keçirdiyi mərhələlərdə Zülfiqar adlı qılıncınla düşmənə həmlə etdin, zülmkarların belini sındırdın, bütpərəstlik və alçaqlıq dayaqlarını dağıtdın. Yolunu azmış-**

ları torpağa və qana qəltan etdin. Sənə xoşluq arzulayırıq, ey möminlərin əmiri Əli (ə)!"

"Peyğəmbərin (s) ən yaxını, İslam dininə üz tutub yönələn ilk adam idin. Yəqinlik ruhu səndə dopdolu idi, öz möhkəm və əzmkar ürəyinlə hamıdan çox fədakar idin, xeyir və yaxşılıqlardan nəsibin hamıdan çox idi. Allah bizi sənin müsibətinin əcrindən məhrum etməsin, sənin vəfatından sonra bizi xar və zəlil etməsin".

"And olsun Allaha ki, sənin həyatın xeyirin açarı və bəşərin qıfılıdır. Əgər camaat səni qəbul etsəydi, göylərdən və yerdən onlar üçün nemətlər yağardı. Lakin onlar dünyanı axirətdən üstün tutub seçdilər, dünyaya üstünlük verdilər".

"Bəli, dünyanı seçdilər, ədalət və insaf duyğularının səsinə səs vermədilər, aqibətdə isə daşlaşmış, alçalmış və donmuş əllər camaatın içərisindən irəli uzandı və sənin kimi bir vücudu, kamil bir şəxsiyyəti – Əlini (ə) şəhid etdi."

HƏDİSLƏRDƏ GÜC VƏ QÜDRƏT

Qorxaqlıq, zəiflik, acizliyin pislənməsi, güc və qüdrətin tərifini aydınlaşdırmaq üçün bir neçə hədisə müraciət edək.

İslam Peyğəmbəri Həzrət Mühəmməd (s) buyurub: **"Möminə xəsislik və qorxaqlıq yaraşmaz".** Bəli, pul möminin can və qanı olmamalıdır. Mömin həmçinin şücaətli və qorxmaz olmalıdır. Həzrət Peyğəmbər (s) həmişə belə bir dua oxuyarmış: **"Allahummə inni əuzu bikə minəl-buxli və əuzu bikə minəl-cubn".** Yəni, İlahi mən xəsislik və qorxaqlıqdan Sənə pənah aparıram!

Mövla Əli (ə) möminlər barəsində belə buyurub: **"Möminin ruhu çaxmaq daşından da möhkəmdir".**

Həmçinin İmam Sadiq (ə) belə buyurub: **"Allah-Təala möminin özünü xar və zəlil etməsindən başqa bütün işlərini onun öz ixtiyarına buraxıb. Məgər siz Allah-Təalanın bu sözünü eşitməmisinizmi ki, buyurmuşdur: "İzzət yalnız Allah, peyğəmbər və möminlərə məxsusdur. Mömin həmişə izzətlidir və heç vaxt**

özünü xar etmir. Mömin dağdan da mətindir. Çünki dağı külüng-lə parçalamaq mümkündür, amma möminin ruhundan heç nə ilə kiçicik bir parça belə qopartmaq mümkün deyil".

İmam Baqir (ə) buyurub: **"Allah-Təala möminə üç xislət verib. Dünya və axirətdə izzət və başucalıq; hər iki dünyada uğurluluq və onların qorxu-heybətini zalımların qəlbinə salmadı. Yəni möminlər elə olurlar ki, zalımlar onların heybətindən qorxurlar".**

Qeyrət, qüvvət və güc - bu sifətlər möminlərə xasdır. Qeyrətsizlik həm də zəiflik olduğu üçün bu barədə digər hədislərə işarə edəcəyik.

Həzrət Peyğəmbər (s) buyurub: **"İbrahim peyğəmbər (ə) qeyrət sahibi olub. Amma mən ondan da qeyrətliyəm".** Sonra əlavə edə-rək buyurmuşdur: **"Allah-Təala mömin və müsəlmanlara nisbətdə qeyrətli olmayanların burunlarını kəssin!"**

O Həzrət qeyrətli Səd barəsində belə buyurub: **"Səd qeyrətlidir və mən ondan da qeyrətliyəm. Allah da qeyrəti sevir".**

Pakistanlı alim İqbal Lahurinin gözəl bir cümləsi var. O, həmin cümləni Mussolininin fikrinə cavab olaraq söyləmişdir. Mussolini deyib: **"Dəmiri olanın çörəyi də olacaq".** Yəni, əgər çörəyin olmasını istəyirsənsə, dəmir (güc və silah) əldə et! Gücü olanın çörəyi də olacaq.

İqbal Lahuri isə belə deyib: **"Dəmiri olanın çörəyi var".**

Yuxarıda qeyd etdiymiz kimi Mövla Əli (ə) buyurub: **"Möminin ruhu çaxmaq daşından da möhkəmdir".**

İqbal Lahuri isə deyir: **"Möminin ruhu dəmirdir".**

Bütün bunlardan məqsəd ondan ibarətdir ki, İslam insanları güc və qüvvətə dəvət edir.

Mövla Əli (ə) **"Nəhcül-Bəlağə"**də güc, qüdrət və qüvvətə təkid edir. O, zəiflik İslam cəmiyyətinə yaraşmaz daha təkidlə buyurur: **"Allaha and olsun ki, evlərində döyüş aparılmış bütün ümmətlər məğlub olublar".** Başqa bir xütbədə isə belə buyurur: **"Xar və zəif adam heç vaxt zülmün qarşısını ala bilməz və haqq yalnız səy və çalışqanlıqla əldə edilər".**

PEYĞƏMBƏRİN (S) RUHİ VƏ CİSMİ GÜCÜ

Rumıniyalı Konstan Vircil özünün **"Mühəmməd (s) – yenidən tanınmalı olan peyğəmbər"** adlı kitabında iki mətləbi çox gözəl canlandırıb. Onlardan biri Peyğəmbərin (s) yaşadığı cəmiyyətdəki mövqeyidir. Peyğəmbər (s) elə bir şəraitdə yaşamışdır ki, ilk əvvəl yaranmış şərait onun üçün müsaid deyildi. Onunla qələbə arasında bir tük qədər də olsun bağlılıq yox idi. Amma o Həzrət heç vaxt öz iradəsini əldən vermirdi. Peyğəmbərin (s) iradəsi bütün hallarda bir zərrə belə titrəməyən dağ kimi idi. Doğrudan da Peyğəmbərin (s) həmin 23 il ərzində ruhiyyəsi çox maraqlıdır. İnsan həmin dövrün tarixini oxuyanda heyrətə gəlir. Həzrət Mühəmmədin (s) zamanında yaşamış şair Həssan ibn Sabitdən olan aşağıdakı misrada çox düzgün olaraq deyilir:

Ləhu himəmun la muntəha likibariha
Və himmətuhus-suğra əcəllu minəddəhri.

Yəni - onun böyüklüyünün sonu olmayan himmətləri var. Ən kiçik himməti isə zəmanədən böyükdür.

Mühəmməd Peyğəmbər (s) zahiri və fiziki qüdrət baxımından da yüksək dərəcədə qüvvətli adam olub. O, həm də güclü və şücaətli olmuşdur. Kök və ya arıq deyil, ortabab və bədən qurluşu əzələli olub. Ümumiyyətlə, o Həzrətin şücaəti o dərəcədə olub ki, Mövla Əli (ə) bu barədə belə buyurub: **"Biz, çətin vəziyyətlərdə Peyğəmbərə (s) pənah aparardıq".**

Bəli, Peyğəmbər (s) şücaətli və güclü olub. Həmçinin güc və şücaəti də həmişə tərifləyib. Deməli, İslamda güc və qüdrət təriflələnib, yəni bu din, o gözəl sifətləri insan üçün lazımı dəyər kimi qiymətləndirib.

Güc və qüdrət İslamda digər insani dəyərlərlə yanaşı dayanan dəyərlərdəndir. Həmin dəyərlər əl-ələ verərək İslamın kamil insanını yaradırlar.

MÖVLA ƏLİ (Ə) ƏHLİ - SÜNNƏ QAYNAQLARINDA

Həzrət Peyğəmbərin (s) hicrətinə qədər Əhli-sünnə qaynaqlarında İmam Əli (ə) haqqında məlumata rast gəlinmir. (Bəlkə də var, amma mənə rast gəlməyib. Müəl-M.S.)

Tarixi mənbələrdə ittifaqla (sünni və şiə) danılmaz bir faktdır ki, hicrət gecəsi Peyğəmbərin (s) tövsiyəsi ilə Mövla Əli (ə) onun evində qalmış və hətta yatağında yatmaqla o Həzrəti düşmənlərdən qorumağa müvəffəq olmuşdur. Bir neçə gündən sonra Peyğəmbərdə (s) olan əmanətləri sahiblərinə qaytaran da məhz Həzrət Əli (ə) olmuşdur.

Eyni zamanda Peyğəmbərin (s) əvvəlcədən tapşırığı ilə 10 gün sonra onun qızı Fatiməni (ə), öz anasını digər yaxınları ilə birgə Qubaya, sonra Mədinəyə gətirən Əli ibn Əbu Talib (ə) olmuşdur.

Hicrətin 5-ci ayında Mədinədə mühacir və ənsar arasında qurulan qardaşlıq mərasimində Peyğəmbər (s) möminləri bir-birilə qardaş elan edəndən sonra Həzrət Əlini (ə) özünə qardaş seçmiş, ikinci ilin son ayında isə onu qızı Fatimə (ə) ilə evləndirmişdir. Bu izdivacla onlar dünyaya dörd övlad – Həsən (ə), Hüseyn (ə) və Zeynəb (ə) ilə Ümmü Gülsüm (ə) (qabaqcadan Peyğəmbər tərəfində adlanmış Möhsün zərbədən dünyaya ölü gəlmişdir.

Türkiyə Diyanət Vəqfi tərəfindən nəşr olunan İslam Ensiklopediyasında belə yazılmışdır: **"Həzrət Əli (ə) Fatimənin (ə) vəfatından sonra bir neçə dəfə evlənmişdir. Və bu izdivaclardan Məhəmməd ibn Hənəfiyyə Abbas, Əbu Bəkr, Ömər, Osman, Oun, Fəzl, Abdullah və başqaları dünyaya gəlmişlər. Tarixi mənbələrə görə, Həzrət Əlinin (ə) 18 oğlu olmuşdur. Bunlardan Abbas, Əbu Bəkr, Osman, Oun, Fəzl və Abdullah Kərbəla döyüşündə – Aşura günü İmam Hüseynin (ə) xidmətində şəhid olmuşlar".**

Təəssüflə qeyd edək ki, Həzrət Əlinin (ə) övladlarından Fatimədən (ə) sonrakı arvadlarından olan oğlanlardan yalnız Abbas (Əbül Fəzl) bizlərə daha çox tanıdılıb. Digər qardaşların adları isə çox az çəkilir. Həzrət Əli (ə) Bədr, Uhud, Xəndək və Xeybər də daxil olmaqla demək olar ki, bütün qəzvələrdə (Peyğəmbərin (s) iştirak etdiyi döyüş) və səriyyələrdə (Peyğəmbərin (s) iştirak etmədiyi döyüş) iştirak edərək Peyğəmbərin (s) bayraqdarı olub.

Uhud və Hüneyndə müxtəlif yerlərdən yaralandığı halda belə Həzrət Əli (ə) Peyğəmbəri (s) bütün varlığı ilə qorumuş, Xeybərdə ağır bir qapını qalxan yerinə işlətmiş və bu savaşın zəfərlə nəticələnməsində, yəhudilərin yenilməsində böyük rolu olmuşdur. Fədəkdə Bəni Sədə qarşı göndərilən səriyyəni və Yəmən səfərini idarə etmişdir. Onun sonuncu səfəri də çox uğurlu olmuşdur. Demək olar ki, Həzrət Əli (ə) heç bir itki vermədən Həmdan qəbiləsinə islamiyyəti qəbul etdirmişdir. Təbuk qəzvəsində Həzrət Peyğəmbərin (s) tapşırığı ilə onun vəkili olaraq Mədinədə qalmışdır. İmam Əli (ə) Peyğəmbərə (s) katiblik və vəhy katibliyi etmiş və Hüdeybiyyə qərardadını da öz əli ilə yazmışdır.

Hətta Məkkənin fəthindən sonra Kəbədəki ən hündür yerdə qoyulan Bəəl adlı bütü sındırıb aşıran da məhz Həzrət Əli (ə) olmuşdur. O, Peyğəmbərin (s) tapşırığı ilə onun çiyninə çıxaraq həmin bütü yerə aşırmışdır. İmam Əli (s) həmçinin Əşərəyi-mübəşirədən (10 nəfərdir ki, Peyğəmbər (s) onların Behiştə gedəcəklərini müjdə etmişdir) biridir.

Peyğəmbər (s) tərəfindən ona Əbu Turab – **"torpağın atası"**, Əsədullahil-Qalib – **"Allahın qələbə çalan aslanı"**, Murtəza – **"Tanrının razılığını qazanan"** ləqəb və künyələri verilmişdir. Heydər ləqəbinin özü də aslan mənasını ifadə edir.

Həzrət Əli (ə) bəstə boylu, dərisinin rəngi əsmər (qaraşın), iri qara gözlü, bəzi rəvayətlərə görə, şəhla gözlü (boza çalan qara), saçsaqqalı gümüşü və geniş, üzü gözəl və gülümsədiyi zaman nisbətən dişləri görünən və daima təbəssümlü bir şəxsiyyət olmuşdur.

Həzrət Əlinin (ə) İslamın yayılmasında və müsəlmanlar arasında elm, təqva, ixlas, səmimiyyət, fədakarlıq, şəfaət, qəhrəmanlıq və şücaət kimi yüksək əxlaqi və insani sifət-keyfiyyətlər baxımından müstəsna bir mövqeyi olmuşdur. Qurani-Kərim və sünnəti ən yaxşı bilənlərdən biri olduğunu bütün qaynaqlar təsdiq edir. O, eyni zamanda təsəvvüf dünyası üçün də qütb, mürşid mövqeyində olmuşdur.

İran təsəvvüf ədəbiyyatının zirvəsində duran, türk dünyasında böyük şöhrəti olan və Türkiyədə Mövləviyyə təriqətinin piri sayılan Mövlana Cəlaləddin Rumi əslən bəlx türklərindən olub. Altı yaşında atası Sultanul-üləma Bəhaəddinlə bərabər Bəlxdən köçüb Konyada yerləşmiş və əsərlərini orada yazıb yaratmışdır. Mövləvi şerlərini

zamanın təsəvvüf və ədəbiyyat dili olan farsca yazmışdır. Ondan türkcə və bir neçə müləmmə şer də qalmışdır. Yəni bir misra türkcə, bir misra farsca.

Proffessor Dorfesə görə, Xorasan və ya Səlcuq türkcəsiylə yazılmışdır. Mövləvi sünni təriqətində olduğu halda, Həzrət haqqında Məsnəvinin birinci dəftərində **"Savaşda düşmənin Əlinin (ə) üzünə tüpürməyi"**ni farsca şerində belə ifadə edir:

Əlidən (ə) öyrən əməldə ixlası,
Tanrı aslanın hər türlü fəsaddan pak və uzaq bil.
Savaşda bir pəhləvan düşmənini yıxdı,
Tez qılıncını çəkib onu öldürmək istədi.
O kafir Əlinin üzünə tüpürdü.
O Əli ki, peyğəmbər və vəlilərin fəxridir.
O bir adamın üzünə tüpürdü ki, səcdəgah mehrabda
Ay ona səcdə edər.
O zaman Əli (ə) qılıncını atdı və onu buraxdı.
O mübariz kafər bu işə heyran qaldı.
Və yersiz rəhmət və əfvdən heyrət etdi.
Dedi: "Qılıncı mənə sarı çəkdin,
Nədən qılıncı atıb məni buraxdın?"
Dedi: "Mən haqq yolunda qılınc vururam,
Haqq bəndəsiyəm,
Özümə məmur deyiləm.
Həqq aslanıyam,
Həvavu-nəfsimin aslanı deyiləm.
Mənim işim mənim dinimə şahiddir..."

Burada Mövləvi Həzrət Əlidən (ə) peyğəmbərlər və vəlilərin fəxri kimi bəhs edir. Və onu həvavü-həvəsdən, vəsvəsədən uzaq və ancaq haqq yolunda vuruşan bir qəhrəman kimi təsvir edir.

İslam tarixinin ən qədim (3-cü əsrin əvvəlləri) və mötəbər mənbəyi sayılan **"Tarixu-Təbəri"**də Həzrət Əlinin (ə) bəzi sifətlərindən, davranışlarından qeydlər vardır. Mən nümunə üçün birini qeyd etmək istəyirəm.

Həzrət Əlinin (ə) xəzinədarı və beytülmal məsulu Əbu Rafeh deyir: **"Bir gün Əli (ə) evə getdi. Qızı bəzənmişdi və beytülmaldan bir inci müncuq (mirvari) taxmışdı. Əli (ə) o muncuğu tanıdı və soruşdu: "Bunu hardan aldın? Vallahi, sənin əlini kəsməliyəm". Onun israrını görəndə dedim: "Ey əmirəlmöminin, Tanrıya and olsun, mən bunu qardaşı qızına ariyə ünvanı ilə özüm vermişəm. Yoxsa onun əli necə çata bilərdi. Daha bir şey söyləmədi".** (**"Tarixu-Təbəri"**, 6-cı cild, farsca tərcümədən)

Mötəbər və qədim olan Yəqubi tarixindən (292-ci il h.q) Həzrət Əlinin (ə) Cəməl müharibəsində Kümeyl ibn Ziyada dediyi sözlər barəsində iki rəvayəti oxucuların diqqətinə çatdırırıq. Bu barədə **"Nəhcül-Bəlağə"**də də nəql edilmişdir. Görün, Mövla Əli (ə) nə buyurmuşdur: **"Ey Kümeyl, xalq üç dəstədir: Tanrını nəzərdə tutan alimlər, (alimi Rəbbani,) nicat yolunun tələbələri, hər səsə səs verənlər. Elm ziyası ilə aydınlaşmamış milçəklər - əhməqlər. Bunlar bir möhkəm əsasa söykənib sığmayanlardır".**

Bir başqa yerdə deyir: **"İnsanlar ya alimdir, ya tələbə. Ey Kümeyl, elm maldan yaxşıdır. Elm səni qoruyar, sən isə malı qorumalısan. Elm hökm edəndir, amma mal tabedir. Mal toplayanlar diri ikən ölü sayılırlar. Halbuki alimlər zaman davam etdikcə diridirlər. Özləri əlimizdən getsələr də, xatirələri ürəklərimizdə qalır"** (**"Tarixu-Yəqubi"**, 2-cild. səh. 123)

"Tarixe-Yəqubi"dən daha bir nümunə demək istəyirəm: **"…Ölüm tələsən bir axtarıcıdır. Onun əlindən qurtarmaq olmaz. Qabağa gedin və qorxmayın. Çünki ölümün çarəsi yoxdur. Siz öldürməsəniz də, öləcəksiniz. Ən yaxşı ölüm öldürülməkdir. Canım əlində olana and içirəm. Mənə vurulan min qlınc zərbəsi yataqda ölməkdən daha asandır"...**

Xəlifə Ömər (r) zamanında Peyğəmbərin (s) Məkkədən Mədinəyə hicrətinin müsəlmanlara tarix başlanğıcı kimi seçilməsini o təklif etmişdir.

Həzrət Əli (ə) 586 hədis söyləmişdir. Bu hədisləri Əlidən (ə) nəql edənlər oğulları Həsən (ə) və Hüseyn (ə) və Mühəmməd İbn Hənifədən başqa, İbn Məsud, İbn Ömər, İbn Abbas, Əbu Musa Əşəri, Abdullah ibn Cəfər, Abdullah ibn Zübeyr və s. yaxınlarıdır. Mədinədə

İmam Əlinin (ə) hörməti münaqişəsiz qəbul olunurdu və çətin hallarda ona müraciət edilirdi.

Həzrət Əli (ə) Peyğəmbər (s) zamanında Qurani-Kərimi əzbərləmiş, onun məsələlərinə dərindən bələd olmuşdur. Həzrət Əlinin (ə) hüquq bilgisi və hökm verməkdəki bacarığı Ömər (r) tərəfindən **"Əsabətli hökm verənimiz Əlidir, ən yaxşı qazimiz Əlidir"** şəklində qiymətləndirilmişdir. Bu səbəbdən ilk 3 xəlifə mühüm məsələlərdə onun fikrini soruşurdular.

Fəsahət, yəni aydın danışıq və üstün xitabələri ilə tanınan Həzrət Əlinin (ə) gözəl və hikmətli sözləri qaynaqlarda nəql edilmişdir. Onun sözləri və xitabələri hicri 4-cü əsrdə şair və ədib Şərifə Rəzi (969 miladi ilində) toplayaraq **"Nəhcül-Bəlağə"** adlandırmışdır. **"Nəhcül-Bəlağə"**, yəni bəlağət elminin metodikası. Ancaq Əhli-sünnə alimləri bu sözlərin hamısının Həzrət Əliyə (ə) aid olduğuna şübhə edirlər.

İslam tarixi kitabları arasında çox mötəbər sayılan Təbəri tarixində (3-cü əsr) Qədir-Xum hadisəsinə bir işarə yoxdur. Amma Müslimün **"Fəzailüs-Səhabəsi"**ndə Zeyd ibn Ərğəmdən rəvayət edilir: (Zeyd ibn Ərğəmə özü də səhabədən, Peyğəmbərin (s) yaxın səhabələrindən biridir). **"Peyğəmbər (s) Məkkə ilə Mədinə arasında Xum suyu başında bir danışıq aparmış və Allaha həmd-səna və səhabəyə nəsihətlər verəndən sonra, onları vəfatından sonra Tanrının kitabına və Əhli-Beytə sahib çıxmağa təşviq etmişdir".**

Yenə İbn Macənin **"Sünəne ibn Macə"**dəki İbn Azibdən rəvayət edilən zəif bir hədisə görə, Peyğəmbər (s) Həccdən dönərkən yolda bir yerdə düşərgə etmiş, namaz qılınacağını bildirdikdən sonra İmam Əlinin (ə) əlindən tutmuş: **"Mən möminlərə öz canlarından daha yaxın deyiləmmi?"** sualını verdikdən və **"bəli"** cavabını alandan sonra belə demişdir: **"Mən kimin dostuyamsa, Əli də onun dostudur,** (Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır) **Allahım, onu sevənləri sən də sev. Ona düşmən olanlara Sən də düşmən ol, qəhr et. Yardım et, ona yardım edənə. Xar tut, xor bax, ona xor baxana".**

Burada **"Mövla"** sözü sevmək, dost tutmaq və ağa mənasındadır. Böyük dilçi alim Şəmsəddin Sami tərəfindən yazılan və 1894-cü ildə İstanbulda Mehran mətbəəsində çap olunan **"Qamusul-Əlamin"** IV cildində – **"Əli ibn Əbu Talib"** maddəsində onun haqqında

belə yazılmışdır: **"Həzrət Əli kərim, alicənab, adil, ziyadəsilə mərhəmətli, həkim bir şəxs olmuşdur".**

1965-ci ildə İstanbulda Maarif mətbəəsində çap edilən İslam Ensiklopediyasının **"Əli ibn Əbu Talıib"** maddəsində Həzrət Əli (ə) haqqında yazılır: **"Əli (ə) çox müttəqi, yəni təqva sahibidir, yəni günahdan özünü qoruyandır. Çox şeylərdən, eqaistlikdən özünü qorudu. Təəssüf ki, təqva sözünün nə tam türkcəsi var, nə də tam qarşılıqlı farscası".**

Bəzisi bu sözü Allahdan qorxan – deyə təbir edər. Allahdan qorxan və pis şeylərdən həzər edən, çəkinən. Əli (ə) çox müttəqidir. Aclığa qələbə çalmaq üçün qarnının üstünə ağır bır daş bağlamaq kimi vücuduna əzab etməkdən çəkinməz. Bütün varını sədəqə olaraq füqəraya paylayardı. Bu, Əhməd ibn Həmbəldəndir. Dünyanı təhqir edər və belə deyərdi: **"Dünya bir ləş, cifədir. Ondan bir parça arzu edən köpəklərə arkadaş olsun".** Öldüyü zaman üstündə yalnız 60 dirhəm pulu olmuşdu.

III xəlifə öldürüldükdən sonra Bəni Üməyyə soyuna mənsub olanlar üsyançıların qorxusundan sürətlə Mədinədən uzaqlaşdılar. Bu əsnada səhabədən Abdullah ibn Ömər, Səd ibn Əbu Vəqqas, Müğeyrə ibn Şöbə, Usamə ibn Zeyd məscidə toplaşdılar. Və yeni xəlifə olaraq Həzrət Əlini (ə) təklif etdilər. Həzrət Əli (ə) əvvəlcə bu təklifi rədd etsə də, sonradan səhabələrinin israrı ilə qəbul etmək məcburiyyətində qaldı. Beş il xəlifəlik zamanı daha çox daxili müharibələr keçən Həzrət Əli (ə) nəhayət, hicrətin 40-cı ilində 19 Ramazanda və bəzi rəvayətlərə görə, 17-ci günü səhər namazı vaxtı Kufədə xəvaricilərdən olan Əbdurrəhman ibn Mülcəm tərəfindən zəhərli xəncərlə başından yaralanmış və iki gün sonra vəfat etmişdir.

Mövla Əli (ə) haqqında hədisləri araşdırdıqda, çox maraqlı və indiyəcən üstü örtülü qalmış mətləbləri açıq-aydın şəkildə görmüş olarıq. Əhli-Beyt (ə) məktəbinin davamçılarının və eyni zamanda Əhli-sünnə alimlərinin gətirdiyi bir çox hədislərdən istifadə etməklə Mövla Əli (ə) şəxsiyyətinin pərdəarxası məqamlarını işıqlandırmağa çalışacağıq. Bəşəriyyətin uzun sürən tarixində çox az bir insanın adı Adəm övladının yaddaşına həkk olunmuşdur. Bu insanların heç də hamısı müsbət olmayıblar. Ancaq zamana, əsrlərə sığmayan, qərinələri işıq tək yaran bir insan olub ki, bu gün də bəşər tarixində bir ulduz kimi parlamaqdadır. Bu şəxsiyyət elə məhz Əlidir (ə)!

Sübanallah! Görəsən, bu üç hərfdən ibarət olan adda nələr var?!

Bu **"Əli"** adında iman, elm, əxlaq, qüvvə, xuzu, xuşu, qəzəb, səbr, güc, var-dövlət, səxavət, hikmət, mərifət, ibadət, şücaət, vilayət, nələr və nələr var…

Bu ad bizləri ucaldır, kövrəldir, qəhərləndirir. Mahiyyətini ancaq, dəlicəsinə çöllərə düşüb ahu-zar edən aşiqlər dərk edərlər.

Bu insan bizlərə ibadət, nəsihət, örnək, nümunə, yol göstərən, incə siratı genişləndirən, təfrit və ifratı, haqq ilə batili ayıran və bu kimi yollara hidayət edəndir, desək əsla səhv etmərik.

Bu təmizlk mücəssəməsi, elm şəhərinin qapısı, möminlərin vəlisi, peyğəmbərin (s) qardaşı, vəsisi və canişini, onun nəslinin davamçısı, on bir imamın atası, yaradanın övliyası, yetimlərin pənahı və s.

Əli (ə) ismi mübarəki! Əsrlər boyu bu adı tarix səhnəsindən silməyə çalışmışlar. Bu adın zəhmindən qorxub vahiməyə düşmüşlər. Ancaq Əlinin (ə) əzəməti qarşısında gücsüz və aciz olduqlarından fəqət bir şeyi qəbul etmək zorunda qalmışlar: Əlini (ə) öldürmək olar, lakin onu həyat səhnəsindən, insanların qəlbindən və ən nəhayət tarixin arxivindən silib çıxartmaq olmaz.

Yer üzündə batil ilə haqqın mübarizəsi qiyamətəcən davam edəcək. Batil və şeytani – qara qüvvələr heç də təkcə nağıllarda deyil, gündəlik həyatımızda da özlərini büruzə verirlər. Hətta Əli (ə) böyüklüyünün onlar tərəfindən də qəbul edildiyi şübhəsizdir.

Dünyaya çox insanlar gəlib getmiş. Fironlar, Şəddadlar, Əbu-Cəhllər, Müaviyyələr, Yezidlər və başqa naqis cahangirlər…

Onlar bizim yaşadığımız həyatın **"qəhrəmanları"** olmuşlar. Bu **"qəhrəmanlar"**a təəssüflər olsun ki, müasir dövrdə də rast gəlirik. Bunlar Şeytan məktəbinin xüsusi təlim görmüş müdavimləridir.

Heç şübhəsiz Şeytan biz təsəvvür etdiyimiz təkgözlü, iki buynuzlu, qəribə, əcaib bir şəkildə aramıza gəlmir. Bəzən o, gözəl geyimdə, aristokrat formada, bəzi vaxtlarda isə əba və qəbada gəlir. Belə halda o, çox qorxulu olur. Alnındakı səcdədən yaranan qabarlar, əlində uzun və yaraşıqlı təsbeh və dilində söylədiyi ilahi zikrlər bizləri aldatmaq üçün böyük bir vasitədir. Belə bir Şeytanı tanımaq çox çətin olur və bizlər elmimizin azlığından, əqidəmizin zəifliyindən onun ardıyca da getməyə hazır oluruq.

Lakin Şeytan hər hansı bir geyimdə və biçimdə olursa-olsun məsumların əqidə qapısından içəri keçə bilmir. Xüsusən də Mövla Əli

(ə) kimi məsum bir şəxsiyyət ola. Mövla Əli (ə) Şeytanı və şeytansifətləri həmişə ifşa etmişdir. Müaviyyələrin, Xəvariclərin iç üzlərini açmış, onlara öz əsl yerlərini göstərmişdir.

Mövla Əlinin (ə) ardınca gedənlərdən, onun elmindən bəhrələnənlərdən Şeytan heç vaxt əl çəkməmiş, onları məhv etməyə çalışmışdır. Bu gün də batil qüvvələrin davası Mövla Əli (ə) və onun ardıcılları ilədir. Hələ vaxtında Həzrət Mühəmmədə (s) həqarət edə bilməyən bu dəstə Peyğəmbər (s) elminin qapısına hücum çəkir, bu qapını müsəlmanların üzünə bağlamaq istəyirlər. Onlar müsəlmanları cürbəcür məzhəb və firqələrə bölməyə, zəiflədib haqq yoldan azdırmağa və beləliklə də iman qapılarını onların üzünə bağlamaqla məhv etmək istəyirlər. Lakin bir şeyi unudurlar ki, haqq incələr amma, heç zaman üzülməz.

Nəinki şiə alimləri, hətta Əhli-sünnə qardaşlarımızın səhih və mötəbər hədis kitablarından Mövla Əli (ə) haqqında olan hədisləri araşdıraraq aramıza nifaq toxumu səpənlərə kəskin dəlillərlə cavab verməyə çalışacağıq.

Hər zaman sünni və şiə məsələsini ortaya ataraq aranı qızışdırmağa səy göstərən İslam düşmənləri bu yaralı yerimizdən istifadə etməklə müqəddəs dinimizi parçalayır və bizləri qarşı-qarşıya qoymağa çalışırlar. Lakin bütün bunlara baxmayaraq, biz müsəlmanlar onların fitnələri qarşısında zaman-zaman davam gətirdiyimiz kimi, bu gün də elmi dəlillərimizlə buna hazırıq. Xüsusən Azərbaycanda məzhəb və təriqətlərin yaxınlaşması sədr-İslamda olduğu kimi, vahid bir məcrada hərəkət etməsi həmişə qorunur və bu istiqamətdə mütəmadi olaraq işlər aparılır.

Dediklərimizə əyani misal olaraq aşağıdakıları göstərə bilərik. Dörd xəlifənin hər birindən ayrı-ayrılıqda - Əbu-Bəkrdən (r) 181, Ömərdən (r) 121, Osmandan (r) 96, Əlidən (ə) isə 252 hədis nəql edilmişdir.

Əl-Buxarinin **"Əl-Camius-səhih"** və **"Ədəbül-Müfrəd"**, Tirmizinin **"Səhihe-sünən"**, İmam Əhmədin **"Müsnəd"**, Hakimin **"Əl-Müstədrək"**, Təbəraninin **"Möəmül-Ovsat"** və **"Möcəmüs-Sadiq"**, İbn Əsakirin **"Tarix"**, Deyləmininin **"Müsnədül-Firdovs"**, Əbu Nüaymın **"Hiyəl"**, İbn Əsir **"Kamil"**, Xətibin **"Tarixül-Baqdad"** kitablarında bu hədislər qeyd olunmuşdur.

Mövla Əlinin (ə) məsumluğu haqqında bu kitabda geniş məlumat verilmişdir. Burada isə bir neçə məqama toxunmaqla kifayətlənəcəyik. Onun məsum olması bu qədər kifayətdir ki, hələ 10 yaşında həddi-buluğa çatmamışdan əvvəl İslamı qəbul etmişdir. Bəlkə elə buna görə də Cənnətin qapısını Peyğəmbərdən (s) sonra açan Mövla Əlidir (ə). O nəinki özü ganahsızdır, hətta ayrı-ayrı günahkarların günahlarını da yumağa səbəb olan şəxsdir. Mövla Əli (ə) Qiyamət günü Peyğəmbər (s) tərəfindən hövzu-Kövsərə rəhbərlik edəndir. O, nəinki bu hovuzun sahibi, hətta münafiqləri buradan uzaqlaşdıran və Cənnətlə Cəhənnəmi bölüşdürəndir.

Mövla Əlinin (ə) məsumluğuna şübhə edənlərdən soruşmaq istərdim: günahkar bir insanın ad Göylər və Yer yaranmamışdan iki min il öncə Cənnətin qapısında yazıla bilərdimi? Hələ sağ ikən Cənnətdə iki Ululəzm Peyğəmbərin (s) arasında - İbrahim Xəlilullahla Xatəmül Ənbiyanın qəsrləri arasında günahkara yer verilərdimi? Günahkar bir insanın Cənnətdə bir ulduz kimi parıldaması mümkündürmü? İndi isə hədislərə müraciət etməklə çox şübhələri aradan götürəcəyik. (Türk dilində)

"Kiyamet günündə Allahın mahlukatından ilk elbise giydirilən Həzrət İbrahimdir, beyaz iki elbise giydirilecekdir. Sonra Arşın sağında durdurulur. Sonra ben çağrılırım və bana yeşil iki elbise giydirilir. Sonra Arşın solunda durdurulurum. Sonra sen çağrılırsın, ey Ali ve sen yeşil iki elbise giydirilirsin. Sonra sağımda durdurulursun. Ben çağrıldığım zaman senin de çağrılmana, ben elbise giydirilince, senin de giydirilmene və ben şefaatçı kılınınca, senin de şefaat etmene razı olmazmısın?" (İbn Cevzi)

"Cenabi-Allah, Həzret İbrahimi dost etdiyi kibi, beni de dost etdi. Cennetde benim köşkümle İbrahimin köşkü karşı karşıyadır. Ebu Talibin oğlu Həzrət Alinin köşkü isə, Həzrət İbrahimin köşkü ilə benim köşküm arasındadır. Ey iki dost arasında bulunan sevgili!.." (S.K.-Hüzeyfə)

"Sabah yıldızının dünya xalqına işıq verməsi kibi, Ali Cənnətdə parlayacaqdır". (F.R.-Enes R.A.)

"Gökler ve yer daha yaratılmadan iki bin yıl önce Cennetin kapısı üzerində şöyle yazılmışdı: "La ilahe illallah Muhammədün Rəsulullah - Allahdan başka heç bir ilah yoktur, Muhammed Aleyhisselam Allahın Resuludur. Onu Həzrət Ali ilə kuvvetlendirdim". (TV.-Cabir R.A.)

"Mirac için yürütüldüyüm gece, Arşın gövdesi üzerine şunun tesbit edilmiş olduğunu gördüm: "Şübhe yok ki, ben Allahım. Benden başka heç bir ilah yokdur. Adn Cennetini kendi küdretimle yarattım. Muhammed (A.S.) mahlukatımın seçkinidir. Onu Ali (R.A.) ile küvvetlendirdiz, ona Ali ile zafer verdim". (Ç.K.-Ebul-Hamra)

"Göge çıkarıldığım zaman, Cennete girdim ve Arşın sağ gövdesinde şöyle yazılı olduğunu gördüm: "La ilahe illallah Muhəmmedün Resulullah, onu Ali ile kuvvetlendirdim ve ona Ali ile zafer verdim". (T.B.-Ebul-Hamra)

Mövla Əlinin (ə) rəhbərliyi və imamlığı məsələsi haqqında müsəlmanların müxtəlif fikirləri var. Ümmətin rəhbəri kim olmalıdır sualının cavabı Qədir-Xumda verilmişdir. Bu barədə kitabın digər bölmələrində ətraflı bəhs etdiyimizdən aşağıdakı hədisləri Əhli-sünnə kitablarından dəlil kimi gətirməklə problemə bir daha aydınlıq gətiririk:

"Bana iman eden ve beni tisdiki eden, Ebu Talibin oğlu Aliyi veli edinsin. Çünki onun velayeti benim velayetimdir ve benim velayetim de Allahın velayetidir". (Ç.K.-Ammar R.A.)

"Allahım! Ben kimin mevlası isem, Ali de onun mevlasıdır. Allahım! Ona dostluk edene yardım et, ona düşmanlık yapana kahret, ona yardım edene nusrat ver ve koruyucusuna yardım et!" (T.B.-Habeşi R.A.)

"Bana iman edip, beni tasdik edene, Ebu Talibin oğlu Alinin vilayetini tavsiye ederim. Onu veli edinen, gerçekten beni veli edinmiştir. Beni de veli edinen, muhakkak ki, Allahı veli (yardımçı) edinmiştir. Onu seven, beni sevmiştir. Beni de seven gerçekten Allahı sevmiştir. Ona kin besleyen bana kin beslemiştir. Bana da kin besleyene, Allah Azze və Celle buğz eder". (T.B.-Ammar ibn Yasir R.A.)

Mövla Əli (ə) digər insanlardan bir çox xüsusiyyətlərinə görə fərqli və üstündür. Yuxarıda bəhs etdiyimiz məsumluq və imamlıq isə bu üstünlüyün təzahürüdür. Mövla Əli (ə) elə bir şəxsiyyətdir ki, onun üzünə baxmaq, onu zikr etməyin özü belə ibadətdir. O Həzrətin insanlar arasında olan mövqeyi, Həzrəti-Peyğəmbərin buyurduğu kimi "İxlas" surəsinin Qurani-Kərimdə tutduğu mövqeyinə uyğundur. Mövla Əli (ə) Qurani-Kərimlə bərabərdir, Qurani-Kərim də İmam Əli (ə) ilədir və Cənnətdəki hovuzda Peyğəmbərə (s) qovuşanacan onlar əsla aryılmazlar. Mövla Əli (ə) Peyğəmbərdən (s) sonra insanların ən yaxşısıdır.

Mövla Əli (ə) elə bir şəxsdir ki, Allah, Rəsulu (s) və Cəbrayıl (ə) ondan razıdırlar. O, elm şəhərinin və hikmət evinin qapısı, Peyğəmbərdən (s) sonra ümmətin ən biliklisi, Peyğəmbər (s) elminin heybəsidir. On parçaya bölünmüş hikmətin doqquzunun sahibi və qalan o bir hissəsini də digər insanlardan daha yaxşı bilənidir.

Bu barədə nəql edilən hədislərə diqqət edək:

“Cenabi Allah, dört kimseyi sevməklə bana emretti ve kendisinin de onları sevdiyini bana haber verdi. Soruldu: Ya Resulallah, isimlerini bize söyle!

Hz.Peyğamber: Ali onlardandır – bunu üç kere buyurdu, - bir de Ebu Zer, Mikdad ve Selmandır”. (TK.-Büreyde R.A.)

“Ey Ali! Cibril seni sevdigine inanıyor.

Hz.Ali dedi ki: Cibril beni sevevce dereceye ulaştım mı?

Hz.Peyğamber Aleyhisselam şöyle buyurdu: Evet, Cibrilden daha hayırlı olan Allah Azze ve Celle seni seviyor”.

“Kiyamet koptuğu zaman, Arşın sağında benim için, kırmızı yakuttan bir kubbe kurulacaktır.

İbrahim (A.S.) için de Arşın solunda yeşil yakuttan bir kubbe yapılacaktır.

- **Aramızda da Ebu Talibin oğlu Ali için beyaz inciden bir kubbe bina edilecek. İki dost arasındakı bir sevgili hakkında zannınız nedir?”** (SK. Z- Selman)

MÖVLA ƏLİ (Ə) KLASSİKLƏRİN GÖZÜ İLƏ

Bəşər tarixində adı qızıl hərflərlə yazılmağa layiq olan, möhkəm İslam əqidəsi, elm, böyük səxavət, aydın məslək, fiziki qüdrət sahibi, ulu Peyğəmbərimizin (s) əmisi oğlu və kürəkəni İmam Əli (ə) 63 illik ömründə sadə həyatı və əzəmətli əməlləri ilə elə şərəfli ad qazanmışdır ki, dünya dahiləri arasında ön sırada gedənlərdən birinə çevrilmişdir.

İslamı ilkin qəbul etmiş və onun yaşaması üçün qılıncını, zəkasını, iradəsini əsirgəməmiş İmam Əlinin (ə) nümunəsi öz dövründə də, sonrakı yüzilliklərdə də qələm sahiblərinin çox müraciət etdiyi mövzu olmuşdur.

Böyük Azərbayacan şairi Nizami Gəncəviyə də Mövla Əlinin (ə) bir sıra nümunəvi keyfiyyətləri haqqında söz söyləmək nəsib olmuşdur.

Nizami çox güman ki, Mühəmməd Peyğəmbərə (s), Əli Əsədullaha (Allahın şirinə), **"Elm şəhərinin qapısı"**na bir çox şeirlər həsr etmişdir. Lakin şairin **"Divan"**ı əldə olmadığından onun birinci İmamımıza münasibətini bildirən qəsidəsinin təhlili ilə kifayətlənirik.

Tarixdən məlum olduğu kimi, İslamın varlığına hədsiz qorxu törədən, yeddi qaladan ibarət Xeybər yəhudiləri ilə müqəddəs müharibə məhz İmam Əlinin (ə) misilsiz rəşadəti sayəsində qələbə ilə nəticələnmişdir. Mənbələr göstərir ki, Mühəmməd Peyğəmbər (s) döyüşdə ordunu irəli aparacaq üç bayraqdan birini Mövla Əliyə (ə) vermişdir.

Mənbələrdə deyilir: **"Həzrət Peyğəmbər (s) Naim qalasını almaq üçün Əbu Bəkri (r) göndərdi. Ancaq o, qalanı ala bilmədi. Sonra Ömər ibn Xəttabı (r) göndərdi. Tale ona da yar olmadı. Yəhudilər yenidən qapıları açıb hücum edərək onları geri oturtdular. Həzrət Peyğəmbər (s) dedi: "Sabah ələmi Allahın və Rəsulun sevdiyi bir adama verəcəyəm".** Və ertəsi gün ələmi Mövla Əliyə (ə) verib döyüşə göndərdi.

Mövla Əli (ə) Naim qalasından sonra çox məşhur döyüşçü və basılmaz pəhləvan Mərhəbın başçılıq etdiyi Kamusun qalasına hücum edib ağır bir döyüşdə Mərhəbı qətlə yetirərək bu qalanı da aldı. O zaman ona Xeybər Fatehi adı verildi.

Şeyx Nizami də öz qəsidəsində həmin mövzuya toxunaraq, şöhrəti tarixi işıqlandıran bu məşhur qüdrət sahibinə münasibətini gözəl söz inciləri ilə belə ifadə etmişdir:

Qəm əlindən o şəxs xilas olmuşdur ki, başını
Fələk qüdrətli şəhriyarın ayağına qoymuşdur.
O cəngavər ki, döyüş günündə nizəsinin ağacı
Müharibə bağında baş bəhəri gətirər.
Nəcəf şahı ki, döyüş günündə onun qılıncından
Rustəm və İsfəndiyar baş qurtara bilməmişlər.
Müharibə günündə onun qılıncı ilə axıdılan qan seli
Döyüş meydanından başları (yuyub) aparar.
Yüz illik yol qısa olsa da, qisas alarkən
(Düşmənin) başını Zülfüqarla ayağına salar.

N.Gəncəvi bu böyük insanın digər xüsusiyyətlərinə də toxunmağı özünə borc bilmişdir. Mövla Əlinin (ə) dostluqda sədaqətinə, həqiqətin üzünə sidqlə baxmağına işarə edən şair qəsidəsində oxucusuna sözügedən şəxsiyyətdən ibrət götürməyə, onunla dostluqda hətta günəşdən belə üz döndərməyə çağırır.

Ey nigar, sənin surətindən utandığı üçün şəkil çəkərkən
Rəssamın qələmi başını aşağı salmışdır.

İslam mövzusunda Mövla Əli (ə) barəsində yazılan elmi-tarixi kitablarda da şairin təxəyyülü təsdiqlənir: **"Və bir daha seçkin bir insandan söz açılır. Elə bir insan ki, şairanə təbir kənarda dursun, doğrusu, qələm onu vəsf edə bilməz. O, tövsifdən yüksək, düşüncədən və söz cövhərindən uca idi".**

Şeyx Nizami İmam Əlinin (ə) səxavətindən söz açarkən elə təşbehlər seçmişdir ki, məmduhunun həqiqətən də ölçüyəgəlməz insani keyfiyyətini təbiətdən daha yüksəyə qaldırmağa gücü çatsın. Şair bütün yaradıcılıq qüdrətini səfərbər edərkən Həzrət Əlinin (ə) səxavətlilik keyfiyyətini sanki dənizin, okeanın üzərinə köçürür:

Dərya məgər sənin səxavətindən bir söz eşitmişdir?
Yoxsa çaylar ona tərəf nə üçün baş alıb gedir.

Şair bənzəyənlə bənzədilən arasında oxşarlığı o qədər təbii verir ki, oxucu sanki, dəryanın səxavəti məhz İmam Əlidən (ə) öyrəndiyinə inanır. Axı insanlar axışıb Mövla Əliyə (ə) tərəf gəldikləri kimi, çaylar da axıb dəryaya üz tuturlar.

Özündən əvvəlki şairləri, alimləri kölgədə qoyan və gələcəyi xeyli qabaqlayan dahi qələm sahibi Şeyx Nizami Ay və Günəşlə Mövla Əli (ə) arasında dərin bağlılıq kəşf edərək yazır:

Günəş necə onun qəbrini axtarar (arzulayar).
Səhər açılarkən başını dağ başına qoyar (yüksələr).
Onun dərgahına səcdə etmək üçün
Allah gecə və gündüzə Ay və Günəş başlarını vermişdir.
Axşam çağı məzarının torpağında Aymı nur saçdı?
Ya boz ənbər içində tər çiçək açdı?…
Səni görmək üçün hər səhər gündüzün şahı (Günəş)
Göy hasarı günbəzindən (fələkdən, üfüqdən) başını çıxarır.

Qüvvətli, orijinal tapıntı və olduqca dərin bədii fikirdir. Milyon illərlə Yer kürəsinə, eləcə də planetlər sisteminə işıq saçan Günəşin, başımıza dolanan Ayın məhz Əli (ə) üçün dünyaya gəldikləri, bu böyük insanın bir gün dünyasını dəyişəcəyini bildiklərindən, əvvəl başına dolanıb, sonra qəbrini axtardıqları, qarşısında səcdəyə getdikləri oxucu qəlbinə sirayət edir və onu inandırır.

Məgər Nizami dağın Əlidən (ə) aldığı əzəmətlə iftixar etdiyini, başını göylərə qaldırdığını söyləyəndə inanmırıqmı? Və ya dəryalarda köməksiz qalmış gəmi sürücülərinin Əlinin (ə) murad küləyi kimi sahilə çatdıqlarını xəbər verəndə inanmırıqmı? Yaxud, əksinə, onun qəzəbinin səmum yelindən çəmənlərdəki gül əvəzinə tikanlarda od baş qaldırdığına şübhə edirikmi?

Nizami bəşəriyyətin tarix boyu düşdüyü zillət, çəkdiyi əziyyətləri, uğradığı şər işləri aradan götürmək üçün də yeganə vasitəni İmam Əlinin (ə) varlığında axtarır. Bütün varlığı ilə inanır ki, əgər xalqı dara çəkən şərə qarşı Mövla Əli (ə) qılınc çəkərsə, azadlıq əldə edilər, bəşər şərdən qurtarar. Məkkə, Mədinə günəşinə – Mühəmməd Peyğəmbərin (s) ruhuna üz tutan şair dünyanı bürümüş cin-şeytana qarşı mübarizə üçün ondan xahiş edir ki, ər oğlu əri - Əlini (ə) meydana

göndərsin. Şair heç zaman fikrindən dönmədiyini, Əli (ə) aşiqi olduğunu yazır: **"Əlinin (ə) eşqində sabitqədəməm".**

Şeyx Nizami təsdiq edir ki, öz şeirləri ilə İmamın (ə) şəninə xoş sözlər söyləmiş, ilhamı onun şövqüylə hər yeri gəzmiş, böyük insana sevgi keçidində ayaq əvəzinə baş qoymuşdur:

Səni vəsf edən nəzmim elə məğrur bir gözəldir ki,
Minlərlə tər inci baş qaldırar (üzə çıxar).

Belə isə səbəb nədir ki, Nizaminin məğrur poeziyası Mövla Əlinin (ə) tərifinə can atır? Axı İmam Əli (ə) söyləmişdi: **"Özgəsinə qul olma, çünki Allah səni azad yaratmışdır".**

Şeiri diqqətlə oxuduqda aydın olur ki, bu mədh-səna təbii şəkildə öz qidasını Mövla Əlinin (ə) öz şəxsiyyətindən alır. Nəhəng qollu-budaqlı, misilsiz bir poeziyanın kamil bir nümunəsi olan bu qəsidənin mənbəyi məhz İslam dünyasının dayağı üzərində toplanmışdır:

Şeirimin mənbəyi meyvəsi olan bir ağacdır
Bağda ağac meyvə yükündən başını aşağı sallayır.

Ulu Nizami İslami düşüncədə özünə möhkəm yer tapmış ideyanı öz şeirində bədii inam kimi səsləndirir və təsdiqləyir. Bu da Mövla Əlinin (ə) Qiyamət günü sorğu-sualda iştirak edəcəyi ideyasıdır. Qəsidəsində şair bu ideyaya toxunur və inamının qətiliyi meydana çıxır.

Şübhəsiz ki, bu dünya dahisi Nizaminin uzaqgörənliyi olduğundan, 830 il ərzində bəşəriyyət tərəfindən tərəddüdsüz qəbul edilmişdir. Çünki qələm sahibi ürəkdən inanır ki, Qiyamət günü sübh tezdən məhşər ayağında dayanmış İmam Əli (ə) ilk soruşulanlar sırasında öz lütfü ilə həqiqətpərəst şairin yaralı ürəyinə məlhəm qoyacaqdır. Qəsidənin sonunda Gəncə köklü böyük qələm sahibi özünə və ittihaf etdiyi şəxsə müraciətlə yazır:

Axırda başı uca olmaq istəsən, Nizami,
Onu tərif etmək fikrindən baş qaçırma!

Ey şah, qiyamət gününün şəhərində
Mən yazıq torpaqdan baş qaldıranda mənə rəhm et!

Göründüyü kimi, biz Mövla Əliyə (ə) verilən qiyməti yalnız N.Gəncəvinin yaradıcılığında izlədik. Lakin şairin poeziyasına salınan ötəri nəzər də **"Allahın şirinə"**, **"Elm şəhərinin qapısı"**na, **"Nəhcül-Bəlağə"**nin, **"Divani Əmir"**in sahibinə verilən qiymətin zənginliyini, yüksəkliyini göstərir. Azərbaycan ədəbiyyatının klassiklərindən Şah İsmayıl Xətai, Füzuli, Əmani, Nəbati, Seyid Əzim Şirvani, Əbülhəsən Raci, Məhəmmədhüseyn Şəhriyar kimi onlarca şairin hər birinin yaradıcılığında Mövla Əli (ə) dühası öz parlaq tərənnümünü tapmışdır.

FÜZULİNİN "HƏDİQƏTÜS-SÜƏADA" ƏSƏRİNDƏ MÖVLA ƏLİ (Ə)

Klassik Azərbaycan yazılı ədəbiyyatında Mövla Əlinin (ə) ən parlaq və dolğun bədii obrazını yaradan dahi söz ustadı Məhəmməd Füzuli olmuşdur. Əslən azərbaycanlı olan, lakin uşaqlığından müqəddəs Kərbəla torpağında yaşayan M.Füzuli klassik Azərbaycan bədii nəsrinin ən gözəl nümunəsi olan **"Hədiqətüs-süəada"** (**"Xoşbəxtlər bağı"**) kimi misilsiz bir sənət əsəri yaratmışdır. Füzuli **"Hədiqətüs-süəda"**nı qələmə alarkən bu mövzuda özündən əvvəl ərəb və fars dillərində yazılmış çoxsaylı mötəbər qaynaqlardan bəhrələnmişdir. Həmin qaynaqlar sırasında dövrünün məşhur və nüfuzlu ilahiyyat alimi, yazıçısı Mövlana Hüseyn Vaiz Kaşifinin (ölüm tarixi 1504-cu il) fars dilində yazdığı **"Rövzətüş-şühəda"**ya iqtida qılaraq yazmışdır. **"Hədiqətüs-süəda"**nın **"Rövzətüş-şühəda"**ya bənzərliyini hər iki əsərin məzmunu, hətta adları belə təsdiq edir.

Əsər bütövlükdə Həzrət Mühəmməd Peyğəmbər (s) və qızı Fatimeyi-Zəhranın, əmisi oğlu və kürəkəni Əli ibn Əbu Talibin və İmam Hüseynin həyatını əhatə edir. Əsasən Kərbəla faciəsindən bəhs edən bu əsər müqəddimə, on bab və xatimədən ibarətdir. M.Füzuli üçün böyük səadət və başucalığı gətirən bu əsər onun şah əsəridir desək, yanılmarıq.

Əsər qafiyəli nəsrlə yazılmış, ona məzmunu ilə bağlı çoxsaylı şeir parçaları da daxil etmişdir. Şair əsərdə Quran ayələrindən, Peyğəmbər (s) hədislərindən də istifadə etmişdir.

Yuxarıda qeyd etdiymiz kimi **"Hədiqətüs-süəada"** əsəri İmam Hüseynin (ə) qətlə yetirilməsi ilə bağlı hadisələrin təsvirini özündə ehtiva edir. Bundan əlavə əsərdə Kərbəla vaqiəsi ilə birbaşa bağlı olan başqa hadisələrdən də – ayrı-ayrı peyğəmbərlərin, Həzrət Rəsulun (s), Həzrət Fatimə (ə), İmam Əli (ə) və İmam Həsənin (ə) həyatının ayrı-ayrı anlarından, xüsusilə də şəhidlik mövzusu ilə bağlı olan məqamlardan da bəhs olunur.

On fəsildən ibarət olan kitabın beşinci fəsli ayrıca olaraq İmam Əliyə (ə) həsr olunmuşdur. "Həzrət Murtəza Əli vəfatın bəyan edər" adlanan həmin fəslin giriş hissəsində Qurani-Kərimə üz tutan şair **"Ali-İmran"** surəsində buyurulan ayəyə diqqət edir:

"Allah yolunda ölənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi (Cənnət ruzisi) yeyirlər".

Şair bununla da İmam Əlinin (ə) İlahi dərgahında ən şərəfli yer tutduğunu göstərir. Müəllif daha sonra İmam Əlinin (ə) əzəmət və şərəfinin dəlil-sübutu olaraq İmam Əhməd Hənbəldən nümunə gətirirərək yazır: **"Əkbəri-səhabənin heç birindən ol miqdar fəzail və mənaqib ki, Əli ibn Əbu Talibdən yetmişdir, yetməmişdir".**

Füzuli Mövla Əlinin (ə) Kəbədə doğulması faktına xüsusi diqqət yetirir:

Murtəza bir dürri-dəryayi-vilayətdir kim,
Hərəmi-Kəbədir ol dürri-yetimin sədəfi,
Qeyrdən əşrəf əğər olsa, anınçündür kim,
Hərəmi-Kəbədən ol kəsb qılıbdır şərəfi.

Dahi şair Mövla Əliyə (ə) bu mübarək adın Mühəmməd Peyğəmbər (s) tərəfindən verilməsini, o Həzrətin əmirəlmöminə olan sonsuz məhəbbətini də xüsusi vurğulayır. Hətta bu məsələdə İmam Tirmizidən iqtibas gətirir: **"Salmana sual etdilər ki, "İfrati-məhəbbəti-Murtəzaya səbəb nədir?"**

Salman qayıtdı: **"Həzrət Mustafadan eşitdim ki, buyurdu: "Hər kim məni sevər, Əlini (ə) sevər və hər kim Əlini (ə) sevməz, məni sevməz".**

Mühəmməd Peyğəmbərin (s) Allah-Təalaya üz tutaraq Mövla Əli (ə) üçün dua etməsini təsvir edən Füzuli o Həzrətin Böyük Yaradandan Əli ibn Əbu Talibə (ə) məhəbbət bəsləməsini, onun düşmənlərinə isə **"ədavət qurmağı"** təmənna etməsini bəyan edir.

"Hədiqətüs-süəda" əsərində Mühəmməd Peyğəmbərin (s) dövründə İslam dini uğrunda aparılan müharibələrdə Mövla Əlinin (ə) göstərdiyi misilsiz qəhrəmanlığı şair tərəfindən xüsusi vurğulanır. Yəhudilərin alınmaz qala saydıqları Xeybər üzərinə yürüşdə Həzrət Mühəmmədin (s) İslam bayrağını məhz Mövla Əliyə (ə) etibar etməsi barədə belə deyilir. Peyğəmbər (s) buyurdu: **"Yarın rayəti bir kim-səyə versəm, gərək ki, çehreyi-mübarəkində nuri "Yuhibbullahü və Rəsuluhu" (Allahı və Allahın Rəsulunu (s) o sevər (direxşan və nasiyeyi-pakında nişani" - "Yuhibbuhu Allahu və Rəsuluhu (Allah və Allahın Rəsulu (s) onu sevər).**

Əsərdə həmçinin Taif şəhərinin İslam qoşunu tərəfindən mühasi-rəyə alınması ilə bağlı da belə bir səhnə təsvir olunur. Şəhər mühasirədə olarkən Həzrət Peyğəmbər (s) Mövla Əli (ə) ilə uzun müddət məsləhətləşir. Bunu görən qoşun əhli Həzrətə (s) üz tutaraq təəccüblə soruşur: **"Aya sahabi-vəhyə nə ehtiyaci-müşavirət?".** Həzrət Mühəmməd (s) buyurur: **"Əli ilə döyüş barədə məsləhətləşməyi öz fikrimlə etmirəm, bu işi mənə Allah-Təala əmr etmişdir".**

Bu səhnəni təsvir edən Füzuli iki məsələni aydınlaşdırmağa nail olur:

Birincisi, Həzrət Mühəmməd (s) İslam dini uğrundakı ən həssas və çətin döyüşlərdə sərkərdəliyi məhz Mövla Əliyə (ə) etibar edirmiş.

İkincisi, Mövla Əli (ə) müqəddəs və bəyənilmiş bir şəxsiyyət olmuşdur. Dahi şair bu fikrini aşağıdakı şeri ilə daha da qüvvətləndirməyə çalışır:

Ol idi məhrəmi-Rəsulullah,
Sirri-zatü sifatdan agah.
Katibi-nəqşi-nameyi-tənzil,

Xazini-gənci-xaneyi-təvil,
Afitabi-sipehri-fəzlü kəmal,
Növbahari-riyazi-cahü-calal.

Bu misralarda şair Allahın Rəsuluna (s) daha yaxın olan Mövla Əlini (ə) İlahi sirlərdən xəbərdar bir şəxsiyyət kimi xarakterizə edir. Eyni zamanda onu fəzilət və ağıl-kamal göylərinin günəşi, ad-san və şan-şöhrət zatının yeni açılmış gülü adlandırır.

Dahi şair bu fikrinin təsdiqi və davamı olaraq İslam Peyğəmbərinin (ə) Mövla Əli (ə) ilə bağlı buyurduğu məşhur kəlamlarını da yada salır: **"Əli (ə) məndəndir və mən də ondanam"**, **"Ey Əli, Harunun Musaya yaxın olduğu kimi sən də mənə yaxınsan"**, **"Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır".**

Sonuncu hədisi-şərifin məzmunu Mövla Əlinin (ə) elm, bilik sahəsində zəhmətləri, xüsusən də ilahiyyat elmində nə dərəcədə yüksək potensiala malik olduğunu göstərir. Əlbəttə, bu elmi-kəsbi deyil, Mövla Əliyə (ə) Allah-Təala tərəfindən bəxş olunmuş böyük bir nemət və hədiyyədir. Allah-Təalanın buyurduğu kimi: **"Kimə hikmət əta eləsəm, elə bil ona böyük və çoxlu xeyrlər vermişəm".**

Məhz Mövla Əli ibn Əbu Talib (ə) belə bir bəxşişə nail olanların ən birincisidir. Belə olmasaydı Peyğəmbər (s) özünü elmin şəhəri, onu isə qapısı adlandırmazdı.

Füzuli **"Hədiqətüs-süəda"** əsərində bu fikirlə bağlı İmam Əliyə (ə) məxsus bir məşhur kəlam da qeyd edir: **"Ərşdən başqa, məndən nə istəsəniz, soruşun".**

Əsərdə Mövla Əlinin (ə) dərin elm və zəkasından, yüksək əxlaqi keyfiyyətlərindən söz açarkən onun həyatı ilə bağlı müəyyən nümunələr verilir. Mövla Əlinin (ə) elm və bilik dəryasından söz açan şair belə qeyd edir: **"O Həzrət bir dəfə məsciddə olarkən buyurur: Ruhum qəbzeyi-qüdrətində olan məbud həqiqiçin ki, əgər fərman yetib, Zəbur, Tövrat və İncil təkəllüm qılsalar, mən cəmi əsrarlarından xəbər verərdim".** Göründüyü kimi Mövla Əli (ə) Qurani-Kərimlə yanaşı, başqa səmavi kitabların da sirlərindən xəbərdar idi.

Füzuli Mövla Əlinin (ə) xasiyyəti, səmimiyyəti və hədsiz dərəcədə səbr-təmkin sahibi olması faktını da maraqlı bir səhnə ilə təsvir edir:

“İmam bir gün öz xidmətçilərindən birini dəfələrlə uca səslə çağırmasına baxmayaraq, xidmətçi bilə-bilə ona cavab vermir. Mövla bu hərəkətinin səbəbini soruşduqda isə o, deyir: “Ya Əli, istədim ki, səni qəzəbnak edim”. Əli ona belə cavab verir: “Ey qafil, mən o kimsəyəm ki, səni bu imtahana məmur edəni qəzabnak edərəm”. (Yəni şeytanı)

Böyük söz ustadı Füzuli əsərdə Mövla Əlinin (ə) sadəliyini və təvazökarlığını yüksək bir ustalıqla qələmə almışdır. Bir gün İmam bazardan yemək şeyləri alır və özü ilə götürərkən xidmətçilərindən biri deyir: **“Ya Əmirəlmöminin, icazə verin, onları mən götürüm”.** İmam Əli (ə) ona belə cavab verir: **“Yük daşıma haqqı ailə başçısının üzərinə düşər”.** Xidmətçi: **“Ya Əli, sən xəlifəsən, bu iş sənə yaraşmaz”**,-deyə təəccübləndikdə Mövla buyurur: **“İnsanın kamalı ailəsi üçün yük daşımaqla azalmaz”.**

Mövla Əlinin (ə) yüksək səxavət sahibi olması üzərində xüsusi dayanan şair onunla bağlı hadisəni belə təsvir edir: **“Dörd dirhəm pulu olan İmam onlardan birini gizli, birini aşkar, birini gecə, o birisini isə gündüz sədəqə verdi”.** Bununla bağlı Qurani-Kərimə ayə nazil olur. Həzrət Peyğəmbər (s) ayənin məzmunu ilə tanış olandan sonra məlum olur ki, bu işi Əli ibn Əbu Talib görmüşdür. Elə məhz ayə də onun haqqında nazil olmuşdur. Şair bu əsərdə eyni ilə həmin ayəni misal gətirməklə Mövla Əlinin (ə) şərəf və ləyaqətini, İlahi əməllərini önə çəkir:

“Onlar ki, mallarını gecə və gündüz, gizli və aşkar Allah yolunda sərf edərlər…” (**“əl-Bəqərə”** surəsi, 274-cü ayə)

Göründüyü kimi ayədəki işarələr Mövla Əli (ə) şərəfində nazil olmuşdur.

Əsərdə şair Mövla Əlinin (ə) yuxarıda sadaladığımız digər xüsusiyyətləri ilə yanaşı, yoxsula, yetimə və əsirə əl tutmasından da söz açır. Burada da Füzuli Qurani-Kərimə müraciət edir:

“Onlar Allah rizasını qazanmaq üçün yoxsula, yetimə və əsirə yemək verirlər”. (**“əd-Dəhr”** (İnsan) surəsi, 8-ci ayə)

Şairin qənaətincə, Qurani-Kərimin **“Maidə”** surəsinin 55-ci ayəsində əks olunan ***“…Onlar rüku halında zəkat verərlər..”*** – ayəsinin mənası da Mövla Əlinin (ə) təbiətindəki bu əxlaqi dəyəri sübut edir.

Füzuli Mövla Əlinin (ə) xəlifə olduğu dövrdə dünya malına göz dikmədiyini, gözü, könlü tox bir şəxsiyyət olduğunu xüsusi vurğulayır. Şair Mövla Əlinin (ə) bu əxlaqi keyfiyyətlərini onun öz dili ilə nəzmə çəkərək belə deyir:

Olsa zər xurşid, anı hifz etməzəm gərdun misal,
Nüqrə mah olsa, ana xurşidvəş salmam nəzər.
Rifətim babımdadır xaki-siyəh, xurşidü mah,
Himmətim yanındadır torpağə yeksan simu zər.

Mövla Əlinin (ə) kəramətlərindən söz açan şair bu məsələ ilə bağlı Əbdurrəhman Caminin "**Şəvahidün-Nübüvvət"** əsərinə istinad edərək yazır: **"Mövla Əli (ə) Siffeyn döyüşünə gedərkən qoşun əhlinin içməli suya ehtiyacı olur. Onlar bir kilsə rahibindən yaxınlıqda bulaq olub-olmamasını soruşduqda rahib suyun çox uzaqda olduğunu bildirir. Bunu eşidən İmam Əli (ə) qoşun əhlinə yaxınlıqdakı böyük bir qayalığı göstərərək deyir: orada böyük bir daş var onu qaldırın, altındakı bulağı görəcəksiniz. Qoşun əhli nə qədər çalışsa da, daşı yerindən tərpədə bilmir. İmam Əli (ə) özü həmin daşı qaldırır və onun altından bulaq çıxır. İmam Əlinin (ə) bu kəramətini görən rahib o Həzrətdən soruşur: "Ey əziz, sən Rəsulmusan?" İmam Əli (ə) buyurur: "Yox, mən vəsiyyi-Rəsulam". Rahib yəhudilərin kitabında belə bir bulağın Rəsul və ya vəsiyyi-Rəsul tərəfindən aşkar ediləcəyi barədə xəbər verildiyini deyərək, İmamın bu kəramətinə görə İslam dininə iman gətirir və o Həzrətin ordusuna qoşulur".**

Belə səhnələrdən biri də Mövla Əli (ə) qoşununun Nəhrəvan kənarında xəvaric üzərinə yürüşü zamanı baş verir. Burada yenə də rahiblə üzləşən Mövla Əli (ə) onun dayandığı yerin altında, içində pul və yazılar olan zərf olduğunu bildirir. Rahib İmamın sözlərinin doğru olduğunu gördükdə heyrətlənir və sidq ürəklə İslam dininə müşərrəf olur.

Füzuli həmçinin Mövla Əlinin (ə) igidlik və qəhrəmanlıqları sırasında o Həzrətin cavanlığı dövründə Bədr və Uhud döyüşlərində göstərdiyi misilsiz rəşadətini də xüsusi qeyd edir. Elə məhz bu qəhrəmanlığın bariz nəticəsi kimi İlahi tərəfdən mələklərin dilinin

əzbəri olan **"La Fəta illa Əli, la seyfə illa Zülfiqar"** (Əlidən başqa cavan, Zülfiqardan başqa qılınc yoxdur) məşhur hədisinin yarandığını göstərir. Füzuli Mövla Əlinin (ə) o dövrün məşhur pəhləvanları sayılan Əmr və Əntərə qalib gəlməsini, Xeybər qalasını almasını yada salaraq yazır:

Bir sərvərin ki, şöhreyi-hüsni-xisali çün
Vəssafi "həl-əta" ola, məddahi "innəma",
Layiq degil ki, eyləyə xürşid zatının
Damani-iqtisalını aludə hər Süha

"Hədiqətüs-süəda" əsərində şair əsas mövzu kimi Mövla Əlinin (ə) qətlə yetirilməsi faktına – o Həzrətin (ə) şəhadəti məsələsinə daha çox diqqət ayırır. İmamın qətlini ürək ağrısı ilə qələmə alan söz sərrafı Füzuli İslam aləmindəki bu müdhiş və qəmli hadisəyə olduqca təsirli və yanıqlı şer parçaları da həsr edir. O, Mövla Əlinin (ə) qətlini həm də **"dinə qəsd"**, **"şəriət binasının dağıdılması"**, **"İslam məbədinin torpaqla yeksan edilməsi"** kimi xarakterizə edərək yazır:

Ey sipehri-bivəfa, bihudə dövran eylədin,
Qəsdi-din etdin, binayi-şəri viran eylədin.

Sərnigün qıldın ibadət mənbərü mehrabini,
Məbədi-İslami torpaq ilə yeksan eylədin.

Ləşkəri-İslami qoydun sərvərü sərdarsız,
Noldu, ey zalim ki, qəsdi-Şahi-mərdan eylədin.

Füzuli **"Hədiqətüs-süəda"** əsərinin **"Seyyidül-Mürsəlin-keyfiyyəti-vəfatın bəyan edər"** adlanan üçüncü babında İslam Peyğəmbərinin (s) vida həccindən qayıtması səhnəsini təsvir edərkən Qədiri-Xumda o Həzrətin (ə) camaatla birgə namaz qıldıqdan sonra səhabənin yanında Mövla Əlinin (ə) əlindən tutaraq onun haqqında aşağıdakı sözləri buyurmasını qeyd edir:

Hər kimin mövlası idim, Əli anın mövlasıdır;
İlahi, anınla ədavət qılana ədavət qıl;
Anınla dost olana dostluq et;
Anı xar tutanı xar tut;
Ana nüsrət verənə nüsrət ver;
Müqarin eylə həqqi ana, qanda olursa.

Şeirin sonuncu misrası: Müqarin eylə… mənasının izahına ehtiyac duyulur: İlahi haqqı Əliyə yaxın et, harada olusa olsun.

Şair həmçinin İslam Peyğəmbərinin (s) həyatının son günlərində, xüsusilə də son anlarında Mövla Əlinin (ə) gecə-gündüz onun yanında olmasını, ona xidmət etməsini, o Həzrətin vəsiyyətlərini dinləməsini, əmanətlərini qəbul etməsini əsərdə ətraflı qeyd edir. Şair Peyğəmbərin (s) son anda Mövla Əlini (ə) yanına çağırıb hamının gözü qarşısında yorğanını onun başına örtməklə xəlvəti danışıqlarını da xatırlayaraq, İmamın öz dilindən çıxan kəlamları yazır: **"Həzrət Rəsul mənə min bab elm təlim qıldı ki, hər birindən dəxi mənə min bab məftuh oldu".**

"Hədiqətüs-süəda"nın **"Fatimeyi-Zəhra vəfatın əyan edər"** adlanan dördüncü babında isə şair Mövla Əlini (ə) günün oxucularına qayğıkeş bir ailə başçısı, ləyaqətli bir ər kimi təqdim edir.

Fatimənin ölümü Mövla Əlini (ə) son dərəcə sarsıdır. Canından çox istədiyi əzizini qəbrə qoyarkən: "Ya Rəsuləllah əmanətə layiqincə hörmət edə bilmədim" deməsi ərşin mələklərini belə şurə gətirir. "Bundan sonra Fatiməsiz evə necə gedim" deməsi aləmləri dərdə gətirdi. Bütün bunlar Mövla Əlinin həyat yoldaşına olan sonsuz məhəbbətinin təzahürü idi.

Əsərdə Mövla Əlinin (ə) dəfnindən sonra Həsən və Hüseyn (ə) oğlanlarının geri dönərkən yolda bir fəqirə rast gəlmələri səhnəsi də, çox maraqlıdır. Onun hüzn ilə, uca səslə ağlaması onların nəzərini özünə cəlb edir. Səbəbini soruşanda deyir: **"Ey əzizlər, bən qərib məhcuram, möhnətim çox, qəmxarum yox." Dedilər: "Bu ovqatda qəmxarun Kim idi".** Dedi: **"Bir il miqdaridür ki, hər gün bu şəhərdən bir şəxs üzərimə gəlib bənimlə müvanisət qılıb cəmi mayəhtəcüm hazır edib gedərdi."** Dedilər: **"İsmi nədür?"** Dedi: **"İsmin sordum cavab verdi ki, bənüm mərhəmətüm rizayi**

həqq üçündür, şöhrət üçün degül". Dedilər: **"Surət və heyəti nədir?"** Dedi: **"Bən əəmayəm. Amma bu qədər bilirəm ki, iki gündür üzərimdən qədəm çəkib. Əhvalımdan nəzər, iltifat deriğ edibdür."** Dedilər: **"Nişanəyi ətvari nədür?"** Dedi: **"İştiğari təsbeh və təhlüldür. Həqqən ki, sədayi təsbeh və təhlilinə mələikdən cavab eşitdim. Bəlkə dərü divardən təəzzim və təkrimun ehsas etdim. Və hər saaət məcalistündən məsrur olub deyərdi ki, "miskinün calisün miskinən" və qəribün calisun qəribən."** (Miskin miskinlə oturar, qərib də qəriblə.)

Şəhzadələr bu xəbərdən giryan olub ayitdilər: **"Ey dərviş! Əli ibn Əbu Talib nişanələridir".** Və dərviş ayitdi: **"Ey məxtunzadələr, ana nə vağe oldu".** Dedilər: **"Bir bədbəxt ani şəhid etdi və halə biz anun mərqədindən gəlürüz."** Dərviş ol xəbərdən müstərib olab fəqanə başladı, ayitdi: **"Ey şəhzadələr, cəddi buzurguvarınuz və pədər alimiğdarunuz hörməti həqqi üçün ki, bəni ol sərvərin məzarı üzərinə hidayət qılın." Şəhzadələr rəhm edib bir əlin Həsən, bir əlin Hüseyn tutub Həzrət Əmirin mədfən şərifinə yetürdilər. Ol dərviş qəbr üzərinə düşüb ayitdi: "İlahi bu mərğəd şərif hörməti həqiçün bəni qəmxarisiz qoyma. Ol qəmxarə vasil et. Duası müvafiq hök qəza olub filhal nəğd cani nisar mərğədü şah mərdan etdi."**

Şair Füzuli burada bir beyt deməklə o dərvişin şərafətini bəyan edir:

Qətrə dəryaya itdisal etdi,
Zərrə xurşidə intiğal etdi.

Şəhzadələr ol dərvişin üzərinə nəmaz edib həm ol məzödə dəfn etdilər…

Sonda bu xırda vaqeəni mərhum Füzulinin öz dili ilə verməkdə məqsədim **"Hədiqətüs-süəda"** əsərinin dilini qoruyub saxlamaqdır. (Müəllif)

MÖVLA ƏLİ (Ə) ŞƏHRİYAR POEZİYASINDA

İmam Əli (ə) varlığı və yüksək əxlaqi keyfiyyətləri bütün zamanlarda olduğu kimi, XX əsr Azərbaycan və qardaş İran ədəbiyyatının parlaq simalarından olan Məhəmmədrza Şəhriyarın ədəbi yaradıcılığında da mühüm yer tutur. Şəhriyar Həzrət Əlini (ə) hərtərəfli təhlil etməklə yüksək keyfiyyətlərini mədh etmiş və onun bəzi məqamlarını nəzmə çəkməklə qiymətli incilər yaratmışdır.

Bildiyimiz kimi, Həzrət Əli (ə) öz növbəsində Qurani-Kərimdən və Peyğəmbərimizin (s) hədislərindən istifadə etməklə **"Nəhcül-Bəlağə"** kimi möhtəşəm bir əsər yaratmışdır. Hansı ki, dünya alimləri Qurani-Kərimdən və Peyğəmbər (s) hədislərindən sonra məhz **"Nəhcül-Bəlağə"**ni böyük elmi mənbə hesab edirlər. Şəhriyar da öz növbəsində belə bir şəxsiyyətin qapısında xidmət etməyi özünə şərəf bilmiş və bunu ədəbi yaradıcılığında sübut etməyə çalışmışdır. O, bu müqəddəs şəxsiyyətin müdrik kəlamlarından, istifadə etməklə öz şer nümunələrini daha da zənginləşdirmişdir.

Allah-Təala Qurani-Kərimdə elm əhli üçün dərəcələr ayırmışdır. Bu baxımdan Həzrət Peyğəmbərimiz (s) də **"Alimin mürəkkəbi şəhidin qanından əfzəldir"**,-deyə buyurmuşdur. Bəli, ləyaqət, şərəf və fəzilət yalnız elm əhlinə yaraşır. Ustad Şəhriyar İmam Əlinin (ə) elmi haqqında hədis deyimini nəql və tərcümədən istifadə etməklə çox şeirlərinə daxil etmişdir.

Şəhriyar həm də müasir cəmiyyətin mürəkkəb inkişafını şeir dili ilə dərin məzmunlu kəlamlardan özünəməxsus məharətlə istifadə edərək oxucuya çatdırır. O, bildirmək istəyir ki, İslam dininin möhkəm özülü var və orada Əli (ə) kimi bir şəxsiyyət onun xidmətində dayanıb. Aşağıdakı beytlərə diqqət edək:

Hay verin Allaha, şeytanı qoyun tək qalsın,
Tovlanıb, tovlanmağın da, bala, əndazəsi var.
Allahın şəhri Nəbidir, qapısı Şah Vəli,
Deşik axtarma, bu şəhrin belə darvazası var.

Doğrudan da, böyük sənətkar, Ustad Şəhriyar bu dörd misrada Həzrət Peyğəmbərimizin (s) məşhur hədisini qüdrət qələmi ilə bir misrada verə bilmişdir. **"Allahın şəhri Nəbidir, qapısı Şah Vəli"**,-

deməklə **"Mən elmin şəhəriyəm, Əli onun qapısıdır"** hədisini az sözlə, lakin məna tutumunda geniş şəkildə bəyan etmişdir.

Sonra şair böyük səxavət simvolu olan Mövla Əlinin (ə) hətta namaz üstündə dilənçiyə öz üzüyünü bağışlaması ayəsini şeir dili ilə hikmətamiz şəkildə fars dilində qələmə almışdır. Lakin biz həmin şeiri Mübariz Əlizadənin eyni tərcüməsində verməklə oxucunu çətinliyə salmaq istəmirik:

Əli, ey hümayi-rəhmət, ələm eyləyən Xudanı!
O hüma ki, sayəsində edər hifz masəvanı.

Könül: istəsən Xudanı biləsən, Əlini yad et,
Tanıdım Əlini – vallah, tanıdım o dəm Xudanı.

Yuxarıdakı iki beytdə şair **"Allahı tanımaq istəyirsən əgər, Əlini (ə) mütaliyə elə, onu tanı, əgər Əlini (ə) tanısan, and olsun Allaha, Allahı tanıyarsan",-** deyir ustad Şəhriyar.

İki dünyada fənadan bir əsər belə tapılmaz.
Əgər öz əlinə alsa Əli çeşmeyi-bəqanı.

Su çilə doyunca rəhmət buludu ki, bu cəhənnəm
Qəzəb atəşində yoxsa külə döndərər cahanı!

Bu iki beytə nəzər salanda İmam Əlini (ə) Cənnət çeşməsi adlandırmaqla **"şəfaət onun əlindədir"**,-deyir. Və əgər Əli (ə) rəhmət buludundan Cəhənnəm oduna su çiləsə şübhəsiz dünya odunu söndürməyə qadirdir, deməklə Həzrət Peyğəmbərin (s) hədisini yad edir, Əlini (ə) Gövsər bulağının saqisi, Cənnət və Cəhənnəmin bölgü aparanı adlandırır.

Gedib ey yazıq dilənçi, qapsını döy Əlinin,
Ki, üzük verib şah eylər kərəmilə hər gədanı!

Əsas mətləb yuxarıdakı beytdə açıq-aşkar aydınlaşır ki, yuxarıdakı ayəyi-şərifədə deyilən zəkat məsələsi öz əksini tapır. Qısa da olsa həmin əhvalatı təqdim etmək yerinə düşərdi.

Bir gün Həzrət Peyğəmbər (s) məsciddə moizə edir. Bu zaman bir sail içəri daxil olub məscid əhlindən köməklik diləyir. Üç dəfə uca səslə kömək diləyən dilənçiyə məscid əhlindən heç kim yardım etmir. Bu zaman Həzrət Əli (ə) məscidin bir tərəfində namaz qılırmış.

Peyğəmbərin (s) moizəsi pozulmasın deyibən, İmam Əli (ə) ruku halətində əlini yuxarı qaldırıb sailə barmağındakı üzüyü çıxarmasını işarə edir. Sail üzüyü çıxarıb onun üçün dua edir. Bu zaman Həzrət Peyğəmbər (s) moizəni kəsir və hamının gözü qarşısında mələkut aləmindən Allah-Təalanın vəhyini qəbul edərək, həmən ayəni tilavət edir və **"əhsən olsun sənə, ey Əli, Allah sənə təhsin dedi və hali-həyatda heç kimin edə bilməyəcəyi savab işi namaz üstündə, ruku halətində etdiyini bəyəndi"**,- deyə bildirir. Ustad Şəhriyar bu əhvalatı yuxarıda qeyd etdiyimiz kimi, bir beytdə böyük ustalıqla vermiş və **"Ki, üzük verib şah eylər kərəmilə hər gədanı"**, - deməklə Əlinin (ə) şərafətli işini bir daha qiymətləndirə bilmişdir.

Əlidən savayı kimdən elə bir oğul doğulmuş,
Ki, tanıtdıra cahanda şühədayi – Kərbəlanı?

Edər əhd dosta qurban verə var-yoxunu, dostlar,
Fəqət, hansı dost Əli tək edər əhdinə vəfanı?!

İmam Hüseyn (ə) aşiqi olan Şəhriyar getdikcə ülviyyətə qalxaraq Əlini (ə) - həqiqi Allah aşiqini Hüseyn aşurası ilə əzəmətləndirərək yazır. Əlbəttə, Əli (ə) kimi şəxsiyyətdən – atadan, Hüseyn (ə) kimi Kərbəla şəhidlərinin ağası doğular və dünyaya şəhidlik mənsəbini tanıtdırar.

Deyə bilmərəm Xudadır, bəşər ad verəm-xətadır,
Çağıram nə adla bilməm şəhi-mülki-Lafətanı?!

Qan axır iki gözümdən, tələs, ey nəsimi-rəhmət,
Onun astanından al, mənə xaki-tutiyanı.

O ümidlə ki, ayağın tozunu ziyarət etsin,
Qapına ürək sözümlə yola salmışam səbanı.

Sən, Əli, qəzasevənsən, bizi dinlə, binəvayıq,
Uzaq eylə canımızdan kərəminlə hər qəzanı!

Onun eşqi ilə ney tək necə mən gəlim fəğanə
Ki, Lisani-qeyb xoşdur edə vird bu nəvanı:

“Gecə sübhətək ümidim bunadır, səhər nəsimi
Verə aşina pəyamı, edə şad aşinanı”

Qulaq as gecə o “Ya həq” quşuna ki, Şəhriyara,
Biləsən nə xoşdur açmaq gecə dosta macəranı.

Şeirin tərcüməsi açıq və başa düşülən olduğu üçün hamısını şərh etməyə ehtiyac duymadıq. Lakin bunu demək lazımdır ki, Şəhriyar bildirmək istəyir ki, Əlini (ə) tanıyan Allahını tanıyar…

Bəli, Əli (ə) Vəliyullahdır. Necə ki, **“vəli”** sözünün mənası Allah kəlamında aşağıdakı ayədə açıq-aydın verilmişdir:

“Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənləridir. O kəslər ki, (Allaha) boyun əyərək namaz qılır və ruku halında zəkat verirlər”. (**“əl-Maidə”** surəsi, 55-ci ayə)

Təfsirçilər Qurani-Kərimin bəzi ayələrində məhz İmam Əliyə (ə) və onun nümunəvi ailəsinə münasibət bildirildiyini qeyd edirlər:

“Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.” (**“əd-Dəhr”** surəsi, 8-ci ayə)

İmam Əliyə (ə) məxsus və İslam dinində nümunəvi bir əxlaq səciyyəsi kimi yerini tapmış səxavət mücəssəməsi məhz Əli (ə) kimi bir şəxsiyyətin ailəsində kamilləşə bilərdi. Bu haqda da Şəhriyarın bədii baxışlarına nəzər salaq:

- Əlinin şir balaları bu gecə şamsızdırlar...

- Heç kəs özü ac ola-ola yeməyini başqasına – fəqirə verməz, yalnız İslam məktəbi bu tərbiyəni təlim edə bilər.

Əlinin (ə) fəziləti haqqında Qurani-Kərimin ayələrindən bəhrələnən M.Şəhriyar başqa bir şeirində də gözəl istifadə etmiş, ifadələri olduğu kimi saxlaya bilmişdir:

“Həl ətə” sənin fəzilətin barədə deyilib,
“Lov-lakə” sənin alicənablığından “la fəta”dır, ya Əli!

Və ya başqa bir şeirində səxavəti o dərəcəyə çatdırmışdır ki, nəinki malından, hətta övladlarından və canından səxavət edən Mövla Əli (ə) övladlarını bu cür qiymətləndirir aşiq Şəhriyar:

Hüseynin növhəsin Dilriş yazanda,
Müsəlman səhlidir ki, kafər ağlar.

Kor olmuş gözlərin qan tutdu Şimrin,
Ki, görsün öz əlində xəncər ağlar.

Hüseynin köynəgi Zəhra əlində,
Çəkər qiyha qiyamət, məhşər ağlar.

Atanda Hərəmlə ox Kərbəladə,
Görəydin düşmən ağlar, ləşkər ağlar.

Qucağında görəydin Ümmi Leyla,
Alıb nəşi-Əliyyi-Əkbər ağlar.

Rübab nisgil döşündə süd görəndə,
Əliyyi-Əsğəri yad eylər ağlar.

Başında kakili-Əkbər həvası,
Yel ağlar, sünbül ağlar, ənbər ağlar.

Yazanda ali-Taha növhəsin mən,
Qələm gördüm sızıldar, dəftər ağlar.

Əli, Şəqqülqəmər, mehrab tilit qan,
Qulaq ver məscid oxşar, minbər ağlar.

Əlidən Şəhriyar sən bir işarə,
Qucaqlar qəbri Malik Əştər ağlar

Həzrət Əli (ə) öz elmi, helmi, gövhərbar kəlamı və ikibaşlı zülfüqarı ilə tovhid bayrağını yüksəklərə qaldırmış, hər iki aləmdə mömin-ləri şərəfləndirə bilmişdir. Təfsirçilər İmam Əlinin (ə) İslam aləmində çəkdiyi zəhmətini Qurani-Kərimin ayrı-ayrı surələrində müəyyən rəmz və işarələrlə bəyan olunduğunu qətiyyətlə söyləmişlər. Hətta Əli (ə) haqqında 300 yaxın ayənin varlığı artıq sübuta yetirilmişdir.

Dərin fikirlər və hikmət mənbəyi olan **"Nəhcül-Bəlağə"**də göründüyü kimi, Qurani-Kərim ünvanlı müqəddəs elmi qaynağın dərindərin qatları İmam Əlini (ə) heyran etmişdir. Onun **"Nəhcül-Bəlağə"**də söylədiyi kəlamlar böyük şairin diqqətini də uca Tanrının qüdrətli dərgahına doğru yönəldir. Ustad Şəhriyar şeirlərinin birində öz şair inamını ifadə edərək yazır:

Get, ehtiyacın varsa Allahdan istə,
Mətləbin həlli kafü nundan asılıdır.

Qurani-Kərimdə bu mətləb eyni ifadələrlə verilmişdir:

"Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyruğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar". (**"Yasin"** surəsi, 82-ci ayə)

İmam Əlinin (ə) özünün buyurduğu kimi, **"bütün bildiklərimi peyğəmbərdən əxz etmişəm"** kəlamı sözün əsl mənasında eyni həqiqətdir. Peyğəmbər (s) qucağında göz açan, onun təlim-tərbiyəsi ilə böyüyən Əlinin (ə) bunu deməyə haqqı var. Hələ 10 yaşında ikən Həzrət Peyğəmbərə (s) risalət əmanəti tapşırıldı. Bu zaman yenə də birinci ona əl verib, biət edən 10 yaşlı Əli ibn Əbu Talib idi. Əlinin (ə) həyat yolunun fəzilətləri məhz Peyğəmbərin (s) dəyərli kəlamları və yaşayış tərzi olmuşdur.

Ustad Şəhriyar aşağıdakı şerdə sanki, Həzrət Əli (ə) və övladlarının həyat tərzini bu cür qələmə almışdır:

Yıxılıb Dinin evi, rehlət edib xətmi-Rəsul,
Çırpılıb din qapısı Həzrəti-Zəhra başına.

Siqt olub Möhsüni, Zəhra özü də oldu şəhid,
Kül ələndi o zamandan bəri dünya başına.

Kərbəla faciəsi bəzrin əkib başlandı,
Ta qiyamət nə qopa Zeynəbi-Kübra başına.

Müddəi olmadı fərmani-qədirə təslim,
Gör nə tufan gətirib ümməti-Taha başına.

Məşvərət əmri-ilahidə olurmu?-Heyhat!
Çəkdilər cəbr ilə mövlanı da Şura başına.

Həzrəti-Fatimənin qəbri də məhcur oldu,
Çadiri-ismətini saldı Sürəyya başına.

Ümmət olmazsa, imamət də olar xanənişin,
Dolanar Kəbə də getdikcə kəlisa başına.

Bu olan işdi ki, axşamçağı Allah çobanı,
Çöldə Allah davarın boşlaya bica başına.

Ümmətin əksəri məsdaqi-ləqəd-həqqəl-qövl,
O həvari yığışanmazdı Məsiha başına.

Müslimin dörd nəfəri mömin olub Səlman tək,
Yusifin eşqi düşər dibdə Züleyxa başına.

Gölgəsi taci-səadət bu şəhadət şövqi,
Özü bir quş ki, qonub Sidrəvü Tuba başına.

Şəhriyar, gəldi Hüseynin səsi, aşurası,
Ta düşə eşqi-şəhadət dili-şeyda başına.

Ustad Şəhriyarın Mövla Əli (ə) eşqində yazdığı nəzmləri heç şübhəsiz Quran və Hədisi-Nəbəvidən xali deyil. O, öz yaradıcılığında Əhl-beyt məhəbbətini məhz Qurani-Kərimdən, Həzrət Peyğəmbərin (s) buyurduğu mötəbər hədislərdən və gövhərbar kəlamlarından iqtibas edərək şer formasına salmışdır. Yuxarıda qeyd etdiklərimiz hədislərdən biri də kitaba ad qoyulmuş mübarək hədisin bir hissəsidir: **"Mən elmin şəhəriyəm, Əli onun qapısıdır".** Şübhəsiz ki, elm istəyində olanlar həmin qapıdan daxil olacaqlar. O qapı da məhz möminlərin ağası, Cənnətlə Cəhənnəmin bölgüsünü aparan, 11 imamın atası Əli ibn Əbu Talibdir.

Mən Əliyəm, şahi-vilayət, iki dünyaya bəhər.
Rəsul elmin şəhridir, mən də onun qapısı.

Bütün varlığı mənəviyyat mücəssəməsi olan Həzrət Əli (ə) vaxtı ilə buyurduğu şerlərində də elmlə ədəbin vəhdətini gözəl söz

nümunələri ilə az sözdə böyük mənalar ehtiva edərək **"Divani Əmir"** kitabında yazır (şerin tərcüməsi):

Gözəllik insanın geyimində, keçimində deyil,
Onun elm və ədəbindədir.

Yetim atası ölənə deməzlər,
Əsl yetim ağlı olmayan və atası məlum olmayandır.

Əlbəttə, klassiklərimiz zaman-zaman mövla Əlinin (ə) qiymətli şeir nümunələrindən istifadə etmiş və hərə özünəməxsus bir tərzdə onlardan bəhrələnməyə çalışmışdır. Məsələn:

Elmin, ədəbin, mərifətin varsa buyur gəl,
Yoxsa bu cahan aləminə olma bir əngəl.

Və ya:

Elmlə, ədəblə tapılar şərəf
Mirvari də olmasa nə lazım sədəf.

Başqa birində:

Baran yerinə göydən əgər dürr yağarsa,
Nadan olanın sahəsinə danəsi düşməz.

Göründüyü kimi, minlərlə beytləri misal gətirmək olar ki, İmam Əlinin (ə) buyurduğu nəzmlərdən istifadə olunmuş, bu günümüzə qədər gəlib çatmışdır…

Əlbəttə, Şəhriyar sehrindən, onun şeir dünyasından uzaqlaşmaq mümkün deyil. Yenə də mətləbə qayıdaraq ustadın Hilali-Məhərrəm şeirində Əli (ə) övladlarına - bir sözlə, Əhl-beytə olan məhəbbətinin aşkar təzahürünün şahidi oluruq:

Məhərrəmdir, xanım Zeynəb əzası,
Bizi səslər Hüseynin Kərbəlası.
Yolu bağlı qalıb düşmən əlində
Daha zəvvarının yox səs sədası.

Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

Çağır Şahi-Nəcəf gəlsin hərayə,
Cihad ilə açaq yol Kərbəlayə.
Əlinin Zülfüqari dada çatsın,
Hüseyn qurbanları gəlsin Minayə
Bu gün Kərbübəla viran olubdur,
Hüseyn öz qanına qəltan olubdur.

Ustad Şəhriyar cəmiyyətin problemlərini həll etmək üçün öz şeirlərində İmam Əlini (ə) nümunə göstərir. Beləliklə, bütün çətinliklərin həll olunmasında ən böyük qüvvə və dəstəyi İmam Əliyə (ə) sığınmaqda görür. Və hətta bir az da irəli gedib İslam inqilabından əvvəlki rejimin dəhşətlərini ümumiləşdirərək qurtuluş üçün O Həzrətdən imdad diləyərək yazır:

Başlara sovrular saman,
Gözləri doldurub zaman.
Ya Əli, ya İmam-zaman.
Dada çatın ki, dardayıq.
Qardu, küləkdi, qardayıq.

Dövrun sosial-ictimai çətinliklərindən cana doymuş şair **"Heydər-baba"** əsərindəki fəryadı ilə Səhənd dağına müraciət edərək təkcə İranın deyil, dünyada şərin kökünü kəsmək üçün Əli dərgahından sanki kömək istəyir O, Həzrət Əlini (ə) **"şərrin qənimi"** adlandırır və onun gücünə, fədakarlığına arxalanır. O, Özü də seyid olduğu üçün iftixarla onun övladlarından biri kimi – söz qılıncının kəsərindən istifadə edən şair balası kimi, haqq və ədalət mücəssəməsi sayır özünü ustad Şəhriyar.

Mən Əli (ə) oğluyam, azadələrin mərdi-muradi,
O qaranlıqlara məşəl, o işıqlıqlara hadi,
Həqqə-imana munadi,
Başda sınmaz sipərim, əldə kütəlməz qılıncım var.

V FƏSİL

MÖVLA ƏLİNİN (Ə) MÜƏYYƏN FƏZİLƏT VƏ KAMALLARI

Mövla Əlinin (ə) sair məxluqatdan fəzilət anlamı Allah və onun Rəsulunun (s) yanında çox yüksək olmuşdur, desək yanılmarıq. Bu barədə Həzrət Peyğəmbərimiz (s) dəfələrlə moizələrində buyurmuş və hətta Əlinin (ə) əlindən tutaraq onu xalqa xüsusi təqdim etmişdir.

Həzrət Peyğəmbərimiz (s) nəinki öz sağlığında, hətta vəfatından sonra da İmam Əli (ə) üçün bir neçə fəzilət qoymuş və gövhərbar hədislərində bu barədə dönə-dönə vurğulamışdır. Bunlardan biri də Peyğəmbər (s) məscidinin ətrafında tikilən evlərin qapısı məsələsi idi. Belə ki, Peyğəmbər Allah-Təalanın əmri ilə göstəriş verdi ki, Əli ibn Əbu Talibin (ə) evindən başqa bütün evlərin məscidə tərəf açılan qapıları bağlansın. Bu iş Peyğəmbərin (s) dostlarının çoxuna ağır gəldi. Buna görə Peyğəmbər (s) minbərə çıxıb buyurdu: **"Böyük Allah mənə əmr etmiş ki, Əlinin evinin qapısından başqa məscidə açılan bütün qapılar bağlansın. Mən heç vaxt bir qapının bağlanması, yaxud başqa bir qapının açıq saxlanılması haqda özümdən göstəriş verməræm. Bu məsələlərdə mən Allahın əmrinə itaət edirəm".**(**"Müsnədi - Əhməd"**, 3-cü cild, səh. 369; **"Ər-riyazün-nəzrət"**, 3-cü cild, səh. 192 və. s.).

O gündən etibarən Peyğəmbərin (s) dostları bu işi Mövla Əli (ə) üçün böyük bir fəzilət hesab etdilər. Hətta ikinci xəlifə Ömər ibn Xəttab (r) sonralar deyirdi: **"Kaş Əliyə nəsib olan o üç fəzilət mənə nəsib olaydı".** O fəzilətlər aşağıdakılardır:

1. Peyğəmbərin (s) öz qızını ona verməsi.

2. Əlinin (ə) evindən başqa məscidə açılan bütün evlərin qapılarının bağlanması.

3. Xeybər müharibəsində Peyğəmbərin (s) bayrağı Əliyə (ə) verməsi. (**"Müsnədi Əhməd"**, 2-ci cild, səh. 26)

İmam Əli (ə) İlahi əmr və İslamın ali qanununa əsasən gəncliyinin gözəl çağlarında ailə qurmaq istəyirdi. Adi insanlardan fərqli olaraq bu işi həyata keçirmək onun üçün çətin idi. Çünki Mövla Əli (ə) kimi

bir şəxsiyyət həyat yoldaşı seçərkən heç vaxt nisbi və müvəqqəti bir rahatlıqla kifayətlənə bilməzdi. O Həzrət elə bir həyat yoldaşı seçməlidi ki, bütün yaxşı keyfiyyətlər - iman, təqva, elm, bilik, dünyagörüş, nəciblik və əsli-nəcabət onda cəmləşsin. Belə bir müsbət keyfiyyətlərə və həlim xasiyyətə malik qadın isə o dövrdə Peyğəmbərin (s) qızı məhz Fatimeyi – Zəhra (ə) ola bilərdi. Heç şübhəsiz ki, gözəlliklər heç zaman xalqın gözündən yayınmır. Fatimeyi-Zəhranın (ə) Peyğəmbər (s) qızı kimi yuxarı silkə aid olması insanların daha çox diqqətini cəlb edirdi. Bu baxımdan zəmanəsinin varlı-karlı adamları Fatimeyi-Zəhraya (ə) sahib olmaq üçün bütün vasitələrdən istifadə edirdilər.

Hətta Mövla Əlidən (ə) əvvəl Əbu–Bəkr (r) və Ömər ibn Xəttab (r) da Peyğəmbərin (s) qızı ilə evlənmək üçün hazırlaşdıqlarını elan etmişdilər. Lakin bir az əvvəl – yuxarıda qeyd etdiyimiz kimi, hər ikisi Peyğəmbərdən (s) **"Zəhranı ərə vermək üçün İlahi vəhy gözləyirəm"** cavabını eşitmişlər.

Həzrət Zəhra (ə) ilə evlənməkdən ümüdsüz olanlar Ovs qəbiləsinin rəisi Səd Məazla məsləhətləşdi və aydın oldu ki, Həzrət Əlidən (ə) başqa Zəhra (ə) ilə evlənməyə münasib tay yoxdur. Habelə Həzrət Peyğəmbərin (s) də bu barədə fikri məhz Mövla Əli (ə) idi. Buna görə də Əlini (ə) axtarıb onun fikrini öyrənməyə çalışdılar. Nəhayət onu Ənsarın birinin bağında tapdılar. Bu zaman Həzrət Əli (ə) öz dəvəsi ilə xurma ağaclarını suvarmaqla məşğul idi. Onlar Əliyə (ə) üz tutub dedilər: **"Qureyşin əşrəfləri Peyğəmbərin (s) qızına elçiliyə gediblər və Həzrət Mühəmməd də (s) onlara "Zəhranın işi Allahın iznindən asılıdr" cavabını vermişdir. Əgər sən Fatimə (ə) üçün elçilik etsən, münasib cavab eşidəcəksən. Lazım olsa mal-dövlət sarıdan sənə kömək etməyə hazırıq".**

Bu sözləri eşidən Əlinin (ə) gözləri sevinc yaşları ilə doldu: **"Mənim Peyğəmbərin (s) qızına meyl və məhəbbətim var"** deyib işini saxladı və Peyğəmbərin (s) evinə tərəf yollandı. Həmin gün Peyğəmbər (s) Ümmü Sələmənin evində idi. Evin qapısı döyüləndə Peyğəmbər (s) dərhal Ümmü Sələməyə buyurdu: **"Qalx ayağa qapını aç! Bu gələn Allahın və onun Rəsulunun sevdiyi bir şəxsdir"**.

Ümmü Sələmə deyir: **"Peyğəmbərin (s) tərifləyiyi bu şəxsi tanımaq şövqü mənə elə təsir etmişdi ki, qapını açmağa gedəndə az qaldı ki, ayaqlarım bir-birinə dolaşsın. Mən qapını açanda qarşımda Əlini (ə) gördüm. O, evə daxil olub Peyğəmbərin (s) hüzurunda əyləşdi. Amma həya və Peyğəmbərin (s) məhzərinin əzəməti onun söz deməsinə mane olurdu. Ona görə də, başını aşağı salmışdı. Ortalığa sükut çökmüşdü".** Nəhayət, Peyğəmbər (s) sükutu pozub dedi:

– Elə bil bir iş üçün gəlmisən?

Əli (ə) icazə alıb söhbətə başladı:

– Mənim risalət ailəsi ilə qohumluğum, din yolunda sabitqədəm olmağım, İslamın inkişafında etdiyim cihad və səylərim ya Rəsulallah (s) Sizə aydındır.

Peyğəmbər (s) buyurdu:

– Sənin məqamın bu deyilənlərdən də yüksəkdir!

Mövla Əli (ə) dedi:

– Fatiməni (ə) Sizdən istəməyə gəlmişəm. İmam

Əli (ə) sonuncu sözünü deyib utancaq halda başını aşağı saldı.

Qeyd: Burada bir məsələyə diqqət edək. Göründüyü kimi, Mövla Əli (ə) təklifini irəli sürdükdə öz təqva və parlaq xidmətlərinə arxalanır və bu yolla hamıya öyrədir ki, üstün olmağın meyarı gözəllik, sərvət və mənsəb yox, iman və təqvadır.

Mühəmməd Peyğəmbər (s) qadının da həyat yoldaşını azad şəkildə seçmək qanunundan istifadə edib buyurdu:

- Sizdən əvvəl başqaları da qızıma elçiliyə gəlmişdilər. Mən onların istəkləri barədə qızımla məsləhətləşdim, amma Fatimənin (ə) üzündə onlara qarşı şiddətli narazılıq hiss etdim. İndi sizin istəyiniz barədə də onunla məsləhətləşərəm.

Peyğəmbər (s) Zəhranın (ə) otağına daxil oldu. Zəhra (ə) ayağa qalxıb əbanı o Həzrətin çiynindən götürdü və ayaqqabılarını çıxarıb mübarək ayaqlarını yudu. Sonra dəstəmaz alıb Peyğəmbərin (s) hüzurunda əyləşdi. Peyğəmbər (s) öz qızı ilə söhbətə belə başladı: **"Əbu Talibin oğlu Əlinin (ə) İslamdakı fəzilət və məqamı bizə aydındır. Mən Allahdan istəmişdim ki, səni məxluqunun içində**

ən yaxşı şəxsə qismət etsin və hazırda o, sənə elçiliyə gəlmişdir. Bu barədə nə deyirsən?"

Zəhra (ə) dərin sükuta daldı, amma üzünü Peyğəmbərdən (s) döndərmədi və hətta kiçik bir narazılıq belə onun üzündə zahir olmadı. Peyğəmbər (s) ayağa qalxıb buyurdu: **"Allahu əkbər! Qızımın susması onun razılıq əlamətidir".**

Həzrət Peyğəmbər (s) bu xoş xəbəri Mövla Əliyə (ə) çatdırıb toy üçün tədarük görməyi məsləhət bildi.

Qeyd: Dünya qanunlarında gün kimi aydın olan məsələlərdən biri də ərlə-arvadın bir-birinə tay olmasıdır. İslam baxımından da bu qanun **Qurani-Kərimdə** öz əksini tapmış və İlahi bir əmr kimi zaman-zaman öz hökmündə bərqərardır. **Ayeyi-şərifdə** buyurulur: **"Cavanları nigaha gətirin – evləndirin. Xüsusən salehləri bir-birinə qovuşdurun. Əgər tərəflər yoxsul olsalar, Allah-Təala öz fəzilətindən onları varlı edər. Allahın elmi genişdir"**. **(Ən-Nur surəsi ayə 32)**

Baxmayaraq ki, İslam dinində bütün müsəlmanlar hüquqi cəhətdən bərabərdir, lakin iman və əqidə cəhətdən fərqli olmalarına şübhə yoxdur. Onların bir-birinə tay və bərabər olmaları ilə bahəm, ailə quran müsəlman qadın öz həmsəri ilə ruhi və fikri nöqteyi–nəzərdən bərabər olmalıdırlar. Əks halda ailə bərqərar olmaz və az bir zamanda dağılar. Bu qanun ali dərəcədə əxlaqi fəzilətlərə, dərin düşüncə və biliyə malik olan ismətli və pəhrizkar qadınlara da aiddir. Ailə qurmaqda ümdə məqsəd olan həyat boyu arxayınlıq və rahatlıq yaratmaq bu məsələyə riayət etmədən təmin olunmur. Onların arasında əxlaqi uyğunluq, ruhi bərabərlik və cazibə kölgə salmayınca ailə qurmaq lazımı səviyyədə olmayacaq.

Bu deyilənləri nəzərə alsaq, Peyğəmbərə (s) olan İlahi xitabın mahiyyəti də aydın olar: **"Əgər Əlini yaratmasaydım, yer üzündə sənin qızın Fatiməyə layiq bir adam tapılmazdı"**. (**"Biharül-Ənvar"**, 43-cü cild, səh. 9)

Aydındır ki, onun şəninə layiq olmaq məqam və ruhi cəhətdən olan bərabərlikdir.

Artıq Həzrət Əli (ə) Peyğəmbərin (s) xoş xəbərindən sonra toy üçün hazırlıq görməyə başladı. Amma dünya malından bir qılıncı, bir zireh – vuruş paltarı və bir dəvəsi var idi. Qılınc və zireh ilə Allah

yolunda cihad edir, dəvə ilə isə Mədinə bağlarında işləyərək öz zəhməti ilə dolanırdı.

Elçilik və əqd oxunma mərasimindən sonra əziz həyat yoldaşı üçün lazımı şərait yaratmağı və müştərək həyata başlamağın yollarını aradı. Həzrət Peyğəmbər (s) məsləhət bildi ki, qılınc sənə cihad etmək üçündür, lakin sənin zirehə ehtiyacın yoxdur. Çünki sən düşmənə arxa çevirmirsən. Zirehi satıb toy xərcini onunla ödəyərsən. Zireh dörd yüz dirhəmə satıldı. Peyğəmbər (s) onun bir qədərini Bilala verdi ki, Zəhra (ə) üçün ətir alsın, qalanını isə Əmmar Yasir və başqa dostlarına verdi ki, Əli (ə) və Zəhra (ə) üçün ev əşyaları alsınlar.

Əgər müsəlmanlar diqqət etsələr, Zəhranın (ə) – İslamın böyük qadınının cehizlərinin tərkibi ilə tanış olsalar, özlərinin həyat şəraitini yaxşıca dərk edə bilərlər. Peyğəmbərin (s) göndərdiyi şəxslər bazardan qayıtdılar. Onlar Zəhra (ə) üçün aşağıdakı şeyləri almışdılar:

- Bir köynək (7 dirhəm)
- Bir yaylıq (1 dirhəm)
- Bütün bədəni örtməyən bir qara dəsmal
- Çubuqdan və xurma lifindən düzəldilmiş təxt
- Biri xurma lifindən, biri isə yundan olan iki Misir kətanlı döşək
- Dörd ədəd balınc: ikisi yundan, ikisi də xurma lifindən
- Pərdə
- Hicri həsir
- Əl daşı (taxılı üyütmək üçün)
- Böyük teşt
- Su məşgi (dəridən)
- Süd üçün taxta kasa
- Su üçün taxta qab
- Aftafa
- Böyük mis qab
- Bir neçə kuzə
- Gümüş qolbağ

Peyğəmbərin (s) dostları aldıqları şeyləri o Həzrətə təqdim etdilər.

Peyğəmbər qızının ev vəsaitlərinə baxa-baxa buyurdu: “**İlahi, qab-qacaqlarının çoxunu saxsı təşkil edənlərin həyatını mübarək et”!** (**“Biahrül-Ənvar”**, 43-cü cild, səh. 97; **“Kəşfül-Ğummə”**, 1-ci)

Peyğəmbərin (s) qızının mehriyyəsi beş yüz dirhəm (hər dirhəm bir misqal gümüşə bərabərdir) idi.

Həzrət Peyğəmbərin (s) əziz qızının toy mərasimi çox sadə keçirilirdi. Nigahdan bir ay keçəndən sonra Peyğəmbərin (s) arvadları Əliyə (ə) dedilər: **"Niyə həyat yoldaşını öz evinə aparmırsan"?**

Mövla Əli (ə) bu iş üçün hazırlaşdığını bəyan etdi.

Ümmü Əymən Peyğəmbərin (s) hüzuruna gəlib dedi: **"Əgər Xədicə (ə) sağ olsaydı, qızı Fatimənin (ə) toy mərasimində çox şad olardı"**.

Peyğəmbər (s) Xədicənin adını eşitdikdə gözləri yaşla doldu və dedi: **"Hamı məni təkzib edən bir vaxtda o məni təsdiq etdi və Allah dinini yaymaqda mənə kömək etdi".** (**"Biharül-Ənvar"**, 43-cü cild, səh. 130)

Ümmü Əymən dedi: **"Fatiməni (ə) öz ərinin evinə yola salmaqla hamını sevindirin"!**

Həzrət Mühəmməd (s) otaqlardan birini Zəhranın (ə) toy gecəsi üçün hazırlayıb onu bu gecə üçün bəzəməyə göstəriş verdi.

Artıq gəlini evinə aparmağın vaxtı gəlib çatdı. Peyğəmbər (s) Zəhranı (ə) yanına çağıraraq ona dua edib buyurdu: **"Allah dünya və axirətdə səni xətalardan hifz etsin"!**

Bunu deyib hər ikisinə göstəriş verdi ki, Allah evinə tərəf yollansınlar. Və Səlman kimi görkəmli şəxsiyyətə Zəhra (ə) minən dəvənin yüyənini tutmasını tapşırdı. Həzrət Mühəmməd (s) bu yol ilə də əziz qızının yüksək məqamını bildirdi.

Bəylə-gəlin zifaf otağına daxil olanda hər ikisi xəcalətdən gözlərini yerə dikmişdilər. Peyğəmbər (s) otağa daxil oldu və əlində olan qabdakı suyu təbərrük olaraq qızının üzünə çiləyib hər ikisinə belə dua etdi: **"Pərvədigara, bu mənim qızım və camaatın içində ən məhbub (sevimli) olan kəsdir. Pərvədigara, bu mənim qardaşım və camaatın içində mənə əziz olan şəxsdir. İlahi, bunların məhəbbət tellərini daha da möhkəmləndir…"**

Həzrət Əlinin (ə) fəzilətləri saysız-hesabsızdır. Yuxarıda qeyd etdiklərimiz demək olar ki, dəryadan bir damla bərabərindədir. Biz burada İmamın fəzilətlərinin bəzilərini də qeyd etməyi məqsədəmüvafiq hesab edirik. Bunlar aşağıdakılardır:

- Həzrət Əlinin (ə) hamıdan əvvəl Peyğəmbərə (s) iman gətirməsi;

- Həzrət Əlinin (ə) Rəsulullahın (s) qardaşı olması;

- Mövla Əlinin (ə) hamıdan çox Peyğəmbərin (s) xüsusiyyətlərinə yiyələnməsi;

- Həzrət Əlinin (ə) ayağını Peyğəmbərin (s) çiyninə qoyub Kəbənin damına çıxaraq orada olan bütləri yerə ataraq sındırması; (**"Biharül-Ənvar"**, 38-ci cild, 70-ci səh)

- Rəsulullahın (s) həm yaşadığı dövrdə, həm də dünyadan gedəndən sonrakı dövrdə öz həyat yoldaşlarını Həzrət Əliyə (ə) tapşırması;

- Peyğəmbərin (s) onu hamıdan çox istəməsi. Hətta Rəsulullah (s) həmişə buyurardı: **"Əlinin (ə) mənə olan nisbəti, başımın bədənimə olan nisbəti kimidir"**.

Mövla Əli (ə) buyurub: **"Bir dəfə Rəsulullahın (s) yanına getmək istədim. Peyğəmbər (s) öz evində idi. Mən otağa daxil olmaq üçün qapını döyərək, icazə istədim. Peyğəmbər (s) buyurdu: "Ya Əli, mənim evim öz evindir. Bəs nə üçün icazə istəyirsən? "**

Dedim: **"Ya Rəsulullah (s), icazə alandan sonra evə daxil olmaq istəyirəm"**.

Buyurdu: **"Ya Əli (ə), Allah istəyəni sən də istəyirsən və özünü İlahi əxlaqlarla zinətləndirirsən. Ya Əli (ə), sən mənim qardaşımsan. Allah-Təala səndən gizlin bir sirr mənə göndərməyibdir. Sən məndən sonra vəsimsən. Səni xalq içində məzlum edəcəklər. Ya Əli (ə) sənlə olan mənimlədir və səndən ayrı olan məndən də ayrıdır. Hər kəs desə mən səni çox istəyirəm, lakin Əlini (ə) özümə düşmən bilirəm, yalan deyir. Çünki, Allah-Təala məni və səni bir nurdan yaradıbdır"**.

Həzrət Əli (ə) **"Xəndəq"** müharibəsində Əmr ibn Əbdüvədlə döyüşdü. Mövla Əlinin (ə) ona vurduğu zərbə Peyğəmbərin (s) ümmətinin Qiyamətə qədərki əməllərindən üstünlüyü haqda Həzrət Mühəmməd (s) buyurdu: **"Həqiqətən Əlinin (ə) zərbəsi səğəleynin – cin və insin ibadətindən üstündür"**.

Xəlifə Əbu Bəkr (r) və xəlifə Ömər (r) **"Xeybər"** müharibəsində İslamın bayrağını götürüb döyüş meydanına yollandılar. Lakin onlar düşmən qarşısında müqavimət göstərə bilməyib geri çəkildilər. Peyğəmbər (s) buyurdu: **"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah və Rəsulu onu çox istəyir, həmçinin o, Allahı və Rəsulunu çox istəyir. O, elə bir şəxsdir ki, döyüş zamanı arası kəsilmədən düşmənə hücum edir və heç vaxt döyüş meydanında düşmən qarşısından qaçmaz. O, Allahın köməyi ilə "Xeybəri" fəth etməyincə geri qayıtmayacaq".**

Səhər açıldı. Peyğəmbər (s) İslam bayrağını Həzrət Əliyə (ə) verdi. Həzrət Əli (ə) meydana yollandı. O, düşmən pəhləvanlarından biri olan Mərhəbi Cəhənnəmə vasil etdi. Sonra Xeybər qalasının qapısını yerindən qopartdı və Xeybəri fəth etdi.

- Mühacirlər (Peyğəmbərin (s) hökmü ilə Məkkədən Mədinəyə hicrət edən – köçən müsəlmanlara **"mühacir"** deyilir) Peyğəmbərin (s) göstərişi ilə Məkkə şəhərindən Mədinəyə köçdülər. Bu ona görə idi ki, müşriklər və kafirlər müsəlmanlara həddindən artıq əzab-əziyyət verirdilər. Onlar, Mədinədə Peyğəmbər məscidinin ətrafında özləri üçün ev tikdilər. Hər evdən bir qapı məscidin içinə açılırdı.

Necə ki, yuxarıda hədis eynilə nəql olundu.

- Həzrət Əli (ə) peyğəmbərlərin xüsusiyyətlərinə malik idi. Bu barədə Həzrət Peyğəmbər (s) belə buyurmuşdu: **"Hər kəs Adəmin (ə) elmini, Nuhun (ə) hikmətini, İbrahimin (ə) səxavət və helmini, Süleymanın (ə) gülər üzünü, Davudun (ə) zöhdünü və Yusifin (ə) cəmalını müşahidə etmək istəyirsə, Əliyə (ə) baxsın".**

- Mələklər Həzrət Əlini (ə) çox istəyirdilər və o Həzrətin xidmətçisi olmağa iftixar edirdilər. Ona görə Allah-Təala yeddinci göydə Əlinin (ə) simasında bir mələk xəlq etdi. Hər gün 70 min mələk onu ziyarət edir və ziyarətin savabını Həzrət Əlinin (ə) aşiqləri üçün göndərirlər.

- Həzrət Əli (ə) üçün dəsmal ilə bir vedrə **"Kovsər"** hovuzunun suyundan nazil oldu. O, həmin su ilə yuyunandan sonra dəsmalla özünü quruladı. (**"Biharül-Ənvar"**, 39-cu cild, səh. 114)

Başqa bir rəvayətdə nəql olunur ki, müharibələrin birində namaz üçün dəstnəmaz almağa su tapa bilmədi. Bu zaman Cəbrayıl su və Mikayıl dəsmal gətirdi. Əli (ə) dəstnəmaz alıb dəsmalla əl-üzünü sildi. (**"Biharül-Ənvar"**, 39-cu cild, səh. 116)

- Allah tərəfindən Peyğəmbər (s) və Həzrət Əli (ə) üçün çoxlu töhfələr, hədiyyələr nazil olub. O cümlədən nar, üzüm, heyva və s.

- Həzrət Əli (ə) Behişt və Cəhənnəmi bir-birindən ayırandır.

- Həmçinin o Həzrət **"Kövsər"** hovuzunun saqisi su paylayanıdır. Dünya və axirətdə Peyğəmbərin (s) pərçəmdarıdır (bayraqdarıdır).

- Həzrət Əlini (ə) istəmək iman, onu düşmən tutmaq isə küfürdür. Onun vilayəti (hökumətçiliyi) Allah və Peyğəmbərin (s) vilayətidir. Onunla ədavət saxlamaq Allah və Peyğəmbərlə (s) ədavət saxlamaqdır.

- Həzrət Əlinin (ə) vilayətini hər kəs qəbul etsə İlahi əzabdan amanda qalacaq. Əgər bütün bəşəriyyətin qəlbində Həzrət Əlinin (ə) məhəbbəti olsaydı, Allah-Təala Cəhənnəm odunu xəlq etməzdi. Od ağacı yandırdığı kimi, Əlinin (ə) məhəbbəti də günahları yandırır.

- Həzrət Əlinin (ə) misalı **"Qul huvəllahu əhəd"** misalı kimidir. Yəni hər kəs bir dəfə **"Qul huvəllahu əhəd"**i oxusa, elə bil ki, Quranın üçdə bir hissəsini oxuyub, hər kəs iki dəfə oxusa, elə bil ki, Quranın üçdə iki hissəsini oxuyub, hər kəs üç dəfə oxusa, elə bil ki, Quranın hamısını oxuyubdur. Eləcə də hər kəs Əlinin (ə) məhəbbətini dili ilə iqrar etsə, imanının üçdə bir hissəsini ələ gətirmiş olar, hər kəs Əlini (ə) həm dildə, həm də qəlbən istəsə, imanın üçdə iki hissəsini qazanmış olar, hər kəs dildə və qəlbdə həzrəti sevəndən sonra əməldə də ona kömək etsə, imanın hamısını ələ gətirmiş olar. (**"Biharül-Ənvar"**, 39-cu cild, 193-cü səh.)

Peyğəmbərin (s) səhabələri münafiq və ikiüzlü insanların nişanəsini, Həzrət Əli (ə) düşmənçilik edənlərdə bilir. Əli (ə) ilə düşmənçilik edənlər ya zinadan, ya da heyzdən əmələ gələnlər olublar.

Həzrət Mühəmməd Peyğəmbər (s) Mövla Əliyə (ə) buyurub: **"Səni halalzadədən başqa heç kəs istəmir və səni zinadan əmələ gəlmiş adamdan başqa heç kəs özünə düşmən tutmur. Səni yalnız mömin adam istəyir və yalnız kafir adam sənlə düşmənçilik edir".** (**"Biharül-Ənvar"**, 39-cu cild, səh. 300)

"Əli ibn Əbu Talibi (ə) sevmək yaxşılıqdır, hər kəsin qəlbində onun məhəbbəti olsa, ona heç bir zərər yetişməz. Onunla düşmənçilik etmək günahdır, hər kəs Əliyə (ə) düşmənçilik etsə, heç bir yaxşı iş ona fayda verməz" (Yenə orada, səh. 304)

"Əlinin (ə) şiələri Qiyamət günü nicat tapanlardır".

İbn Abbas rəvayət edir ki, Həssan ibn Sabiti **"Mina"**da gördüm. Rəsulullah (s) və əshabı da orada idi. Rəsulullah (s) buyurdu: **"Ey müsəlmanlar! Bu Əli ibn Əbu Talib ərəbin seyyididir, mənim vəsiyyimdir. Onun mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Lakin məndən sonra peyğəmbər gəlməyəcək. Əgər tövbə edən şəxsin qəlbində Əlinin (ə) məhəbbəti olmasa, onun tövbəsi qəbul olmayacaq".**

Sonra Peyğəmbər (s) üzünü Həssan ibn Sabitə tutub buyurdu: **"Ey Həssan, bu barədə bir şeir de! "**

Həssan bu şeiri dedi. Şeirin məzmunu:

"Heç bir tövbə edənin tövbəsi Əlinin (ə) məhəbbəti olmadan qəbul olmaz. Əli (ə) Allahın rəsulunun (s) qardaşı və kürəkənidir. Kürəkən səhabə ilə bərabər deyil. Kim Əli (ə) kimi ola bilər, halbuki, günəş o Həzrət üçün məğribdən geri qaytarıldı". (**"Biharül-Ənvar"**, 37-ci cild, səh. 260)

- Həzrət Əliyə (ə) tohin etmək küfrdür. Hər kəs hədis kitablarına müraciət etsə, görəcək ki, Həzrət Əliyə (ə) tohin edənlər bu dünyanın özündə də İlahi əzaba düçar olublar. Məsələn:

Bir kişi Əliyə (ə) tohin etdi. O, bu işinə görə dəvənin ayağı altında qalıb həlak oldu;

Bir nəfər xətib o Həzrətə söyüş verdiyi üçün kor oldu;

Əbu Əbdüllah Əlmühəddis Əlinin (ə) fəzilətini inkar etdiyi üçün kor oldu;

Dəməşqli bir xətib Həzrəti təhqir etdiyinə görə onun zahiri görünüşü it sifətinə çevrildi;

Azan verən bir nəfər Əliyə (ə) söyüş verdiyinə görə, donuz sifətinə düşdü, başqa bir kişinin sifəti kömür kimi qaraldı;

Həzrət Əli (ə) ona tohin edənlərdən birinin boğazını yuxuda sıxdı;

O Həzrəti təhqir edənlərdən bir dəstəsi, o cümlədən Əhməd ibn Həmdun Mosuli yatdıqları yerdə həlak oldular;

Mühəmməd ibn İbadın qonşusu Həzrətə tohin edirdi. Nəhayət, yatdığı yerdə onun başı bədənindən ayrıldı;

Haris ibn Nöman Həzrət Əlinin (ə) imamətini inkar etdi. Allah-Təala ona böyük əzab nazil etdi. (**"Biharül-Ənvar"**, 40-cı cild, səh. 127)

- Həzrət Əli (ə) xalqın ən böyük alimidir. O, həmişə Rəsulullahın (ə) xidmətində idi və nübüvvətin elm xəzinəsindən bəhrələnirdi. Peyğəmbər (s) dünyadan gedən zaman elmin min qapısını Həzrət Əlinin (ə) üzünə açdı, hər qapıdan da min qapı açıldı. (**"Biharül-Ənvar"**, 40-cı cild, səh. 127)

Peyğəmbər (s) buyurub: **"Mən elmin şəhəri. Əli (ə) onun qapısıdır".**

Çox vaxt İlahi hökmlər əshab üçün qaranlıq qalırdı. Onlar qarşıya çıxan məsələnin qarşısında aciz qaldıqları üçün Həzrət Əliyə (ə) müraciət edir və məsələnin hökmünü öyrənirdilər. Əshabların bəzisi səhf fətva verən zaman Həzrət Əli (ə) onları hidayət edirdi. Elə buna görə də xəlifə Ömər (r) dəfələrlə deyib: **"Əgər Əli (ə) olmasaydı, Ömər (r) həlak olardı".**

Xəlifə Ömər (r) başqa bir yerdə deyib: **"Əli (ə) olmayan yerdə qarşıya çıxan müşküldən Allaha pənah aparıram".**

Məlumatı olanlar və alimlər üçün gün kimi aydındır ki, heç vaxt Həzrət Əli (ə) bir hökmdə belə onlara müraciət etməmişdir.

İbn Əbil Hədid deyir: **"Bütün alimlər Həzrət Əlinin (ə) şagirdləridir, desəm yanılmaram".**

- Həzrət Əlinin (ə) zehni fövqəladə güclü idi. O, Peyğəmbərin (s) bütün dediklərini hifz edib əzbər bilirdi.

Allah-Təala tərəfindən gələn bütün xəbərləri Rəsulullah (s) Əliyə (ə) buyururdu.

"Əl-Haqqəh" surəsinin 12-ci ayəsi Həzrət Əlinin (ə) haqqında nazil olması şübhə doğurmur. Həmin ayə bundan ibarətdir:

"Ona görə ki, bunu (möminlərə nicat verib kafirləri məhv etməyimizi) sizə bir ibrət dərsi edək və dərk edən (öyüd-nəsihəti cani-dildən dinləyən) qulaq bunu eşidib yadda saxlasın".

Ərəblər Həzrət Əlini (ə) **"əql"** adlandırırdılar. Mövla Əli (ə) özü müxtəlif yerlərdə öz elminin çoxluğundan xəbər verirdi. Necə ki, ömrünün axırıncı günlərində dəfələrlə bu cümləni təkrar edib buyurmuşdur: **"Ay camaat, nə qədər ki, mən sizin aranızdan getməmişəm hər nə istəyirsiniz, soruşun! "**

Camaat həmişə çətin məsələləri Mövla Əlidən (ə) soruşur və cavabını eşidib qane olurdu.

Təəccüblüdür ki, hər kəs Həzrət Əlidən (ə) sonra belə bir məqamı (bütün elmlərə sahib olmağı) iddia edibdirsə, zillət və xarlıq içində rüsvay olubdur. Necə ki, Nasir Abbasinin padşahlıq dövründə Müqatil ibn Süleyman, İbn Cövzi və Vaiz Bağdadi bu məqamı iddia edərək rüsvay oldular.

Həzrət Əli (ə) qeybi xəbərləri bilir və lazım olan vaxt xəbər verirdi. Həzrətin xəbər verdiyi qeybi xəbərlərin sayı-hesabı yoxdur. Biz burada həmin xəbərlərdən bir neçəsini qeyd edirik:

1. Mövla Əli (ə) dəfələrlə buyurmuş idi ki, İbn Mülcəm mənim başımı zərbətləyəcək və saqqalımı başımın qanına boyayacaq;

2. Mövla Əli (ə) İmam Həsənin (ə) zəhərlə şəhid edilməsini xəbər vermişdi;

3. Mövla Əli (ə) çox vaxt övladı Hüseynin (ə) şəhadətindən xəbər verirdi. O, bir dəfə Kərbəla səhrasından keçərkən şəhidlərin qətilgahını, qadınların olduğu yerləri və dəvələrin dayanacaq yerlərini göstərib oğlu Hüseynin (ə) məzlumiyyətinə görə çox ağladı;

4. Mövla Əli (ə) Bərra ibn Azibə dedi ki, sən İmam Hüseynin (ə) şəhid olduğu dövrə qədər ömür sürəcəksən, amma oğlum Hüseynə (ə) kömək etməyəcəksən;

5. Mövla Əli (ə) xəbər vermişdi ki, məndən sonra Müaviyyə yaşayacaq və müsəlmanların hakimiyyətini qəsb edəcək;

6. Mövla Əli (ə) Həccac ibn Yusif Səqəfinin hökumətindən, Yusif ibn Ömərdən və onların kütləvi qırğınından, həmçinin Bəni Üməyyənin dövründə camaatın giriftarçılığından xəbər vermişdi;

7. Həzrət Əli (ə) **"Nəhrəvan-Xəvariclərindən"**, onların çaydan keçməsindən, ölümlərindən və Xəvaricin sərkərdəsi Zussüdyənin öldürülməsindən xəbər vermişdi;

8. Həzrət Əli (ə) öz əshabının bir dəstəsinin başına gələcək işləri və onların necə öldürüləcəyini xəbər vermişdi. O, həm də Cüveyrət ibn Müsəhhərin və Rüşeyd Həcərinin əl-ayağının kəsilməsini və onların dar ağacından asılmasını əvvəlcədən demişdi. Həmçinin Qənbərin, Kümeylin, Hücr ibn Ədinin, Meysəm Təmmarın necə öldürüləcəyini, onun Əmr ibn Hərisin evinin yaxınlığında dar ağacından asılmasını və dar ağacının Meysəmə göstərdiyi xurma ağacından hazırlanacağını bildirmişdi;

9. Xalid ibn Ürfətin zəlalət qoşununa sərkərdəlik etməsini;

10. "Nakisin", **"Qasitin"** və **"Mariqinin"** döyüşməsini;

11. Təlhə və Zübeyrin xəyanətini qabaqcadan deməsi;

Onlar beyəti sındıraraq Həzrət Əliylə (ə) qarşı müharibəyə hazırlaşmaq məqsədilə Məkkəyə tərəf getmək istəyirdilər. Onlar dedilər: **"Biz ümrə həccinə gedirik".** Həzrət Əli (ə) buyurdu: **"Xeyr, siz Bəsrə şəhərinə getmək istəyirsiniz".** Sonra Həzrət Əli (ə) öz əshabına buyurdu ki, bundan sonra siz Təlhə və Zübeyri böyük qoşunla görəcəksiniz...

12. Həzrət Əli (ə) Salmanın Mədain şəhərində dünyadan getdiyi vaxt onun vəfatını camaata xəbər verməsi və özünün teyyül-ərz ilə Mədainə – Salmanın dəfninə gəlməsi;

13. O, Həzrət **"Bəni-Üməyyə"** və **"Bəni Abbas"**ın xilafətindən xəbər vermişdi. Mövla Əli (ə) xütbələrinin birində **"Bəni Abbas"** xəlifələrinin bəzi xüsusiyyətlərinə işarə etməsi, o cümlədən **"Səffanın"** mehribanlığını, **"Mənsurun"** qan tökməsini, **"Rəşidin"** böyük səltənətini, **"Məmunun"** biliciliyini, **"Mütəvəkkilin"** inadkarlığını və oğlunun onu öldürməsini, **"Mötəmidin"** Sahibi Zənc ilə müharibə etdiyi üçün çoxlu zəhmət çəkməsini, **"Müqtədirin"** öldürülməsini və onun üç oğlunun yəni Razi, Müttəqi və Mütinin xilafətə çatmasını qabaqcadan xəbər vermişdi.

14. Həzrət Əli (ə) Kufədə baş verəcək fitnələri və orada zülm bayrağını əllərinə alan zalım sərkərdələrin bəlalara düşməsini xəbər vermişdi.

15. Həzrət Əli (ə) **"Ziqar"**da İbn Abbasa buyurdu: **"Min nəfərdən ibarət olan bir qoşun bizə kömək etməyə gələcək".**

16. Həzrət **"Hələku"** qoşununun və onun fitnələrini xəbər vermişdi.

17. Həzrət Əli (ə) **"Cəməl"** müharibəsindən sonra Bəsrə şəhərindəki çıxışında zəncilərin əli ilə bəsrəlilərin öldürülməsini xəbər vermişdi.

18. Həzrət Əli (ə) Dəccal və dünyada baş verəcək hadisələr haqqında da əvvəlcədən xəbər vermişdi.

19. Mövla Əli (ə) buyurub: **"Gələcəkdə Bağdad adlı şəhər qurulacaq".**

20. Həzrət Əli (ə) buyurub: **"And olsun Allaha, sizin şəhəriniz (Bəsrə) suyun içində qərq olacaq, elə qərq olacaq ki, onun məscidi dəryada quşun sinəsi göründüyü kimi görünəcək".**

21. Həzrət Əli (ə) Abdullah ibn Zübeyr haqqında buyurub: **"Kinli və paxıl hiyləgərin məqsədi** (xəlifə olmaq niyyəti) **vardır. Lakin o, məqsədinə çatmayacaq. O, tələ qurub dünyanı ovlamaq istəyir".**

22. Həzrət Əli (ə) Mühəmməd ibn Əbdullah Məhzin öldürülməsini xəbər vermişdi.

23. Həzrət Əlinin (ə) buyurduğu qeybi xəbərlərdən biri də Mühəmmədin qardaşı İbrahimin Vasit və Kufə şəhərinin arasında öldürülməsidir. Həzrət bu barədə buyurur: **"Aşkar olandan sonra "Baxəmrada" öldürüləcək. O, düşmənə qələbə çalandan sonra məğlub olacaq".** Sonra əlavə edir: **"Onu bir nəfər naməlum ovçu ovlayacaq və onunla da dünyadan gedəcək. Ah! Həmin ovçu nə qədər qorxmaz və bədbəxtdir. Əli-qolu şil olsun!"**

24. Həzrət Əli (ə) başqa bir yerdə öz qeybi xəbərində buyurub: **"Həmin vaxt Qirvanın sahibi aşkar olacaq… O, Zilbidanın nəslindəndir və əbanı özünə bükər".** Həzrət burada Fəxxidə qətlə yetirilənlər, məğribdə Ələviyyə sultanlarının səltənəti və İsmailiyyə sultanları haqqında xəbər verir.

25. Həzrət Əli (ə) Ali-Bəvəyh sultanları haqqında buyurur: **"Deyləmandan bir neçə övlad törəyəcək və onlar balıq övlayacaqlar…"** Sonra Həzrət sözünə davam edir: **"Onlar Bağdadı fəth edəcəklər və xəlifələri qovacaqlar".**

26. Həzrət Əli (ə) Mərvanın (Mərvan ibn Həkəm Əməvi, Mərvan Əməvinin ikinci xəlifəsi olub. O, hicrinin 64-cü ilində Yezidin ölümündən və Müaviyyə ibn Yezidin istefa verməsindən sonra Şamda xəlifə oldu. Onun hökmranlığı 5 aydan az davam etdi.) haqqında buyurub: **"Agah olun ki, o, qısa bir müddətdə hakimiyyətdə olacaq. Onun hökmranlığının müddəti itin öz burnunu yalaması qədər olacaq. O, 4 cəngavərin atası olacaq. Ümmət onun və övladlarının əlində giriftar olacaq".**

27. Həzrət Əli (ə) öz qeybi xəbərlərində Bəni Abbasın xilafəti və türklərin onlara qalib gəlməsini də xəbər vermişdi.

Həzrət Əli (ə) Rəsulullahdan (s) sonra xalqın içində ən zahid (ən sadə həyat sürən şəxsə zahid deyilir) şəxs idi.

Bütün zahidlər onun zöhdü qarşısında məğlub idilər. Ona zahidlərin ağası deyirdilər. Heç vaxt doyunca xörək yemədi. Geyimi də hamınınkından sadə idi. Az hallarda çörəklə yanaşı, başqa bir şey - ya zeytun yağı, ya da duz yeyərdi.

Bu barədə Həzrət Əlinin (ə) Bəsrənin valisi Osman ibn Hüneyfə yazdığı bir məktuba nəzər salaq. İmam yazırdı: **"Sizin imamınız Əli (ə) bu dünyada iki köhnə paltara və iki tikə quru çörəyə kifayət etdi…"**

Sonra Həzrət məktubun davamında qeyd edir: **"Əgər mən istəsəydim, xalis bal və buğda çörəyi yeyərdim, ipək paltarlar geyərdim. Lakin, heç vaxt həvavu-həvəs mənə qalib gələ bilməz. Ola bilsin ki, Hicazda ya Yəmamədə bir nəfər müsəlman çörək tapa bilmir və ac qarına yatır. Belə olan surətdə mən tox qarına yatım və mənim ətrafımdakılar ac qalsınlar? Onlar ac qala-qala məni "möminlərin ağası" ləqəbi ilə çağırsınlar, lakin mən fəqirlərin çətinliklərinə, qəm-qüssələrinə şərik olmayım?!.."** (**"Nəhcül-Bəlağə"**, 3-cü cild, 78-ci səh. 45-ci məktub)

Hər kəs Həzrət Əlinin (ə) xütbələrini, kəlamlarını mütaliə etsə, onun dünyaya etinasızlığına və həddindən artıq zöhdünə yəqinlik tapar. Həzrət Əli (ə) buyurur: **"Allaha and olsun, sizin dünyanız mənim gözümdə dəri xəstəliyinə düçar olmuş şəxsin əlindəki donuz sümüyündən də qiymətsizdir".** (**"Nəhcül-Bəlağə"**, 3-cü cild, səh. 205)

Mövla Əli (ə) insanların ən çox ibadət edəni, abidlərin ağası və yol göstərənidir.

Onun namazı hamının namazından fərqli və orucu da hamının orucundan çox olardı. Allah bəndələri gecə namazını və müstəhəb namazları Mövla Əlidən (ə) öyrəniblər. Onun nurlu alnında səcdənin çoxluğundan əlamət var idi.

Müharibələrin birində Həzrət Əlinin (ə) bədəninin bud nahiyyəsinə ox batmışdı. Oxun ağrısı dözülməz idi. Dedilər ki, İmam namaza duranda hissiz olur, o zaman ağrını hiss etməz. Buna görə, onun namaza durmasını gözlədilər. Mövla Əli (ə) namaz qıldığı zaman oxu budundan çıxardılar və ağrı hiss olunmaz oldu. Çünki, Əli

(ə) namaz qıldığı vaxt bütün diqqəti Allah-Təalaya yönəlir və Haqq-Təaladan başqa heç bir şey haqqında fikirləşmirdi.

Həzrət Əli (ə) hər gecə min rukət namaz qılardı. Bəzi vaxt İlahi qorxunun nəticəsində ürəyi gedir və bihuş olurdu. Bir dəfə Həzrətin kənizindən soruşurdular:

- Həzrət Əlinin (ə) namazı Ramazan (orucluq) ayında necə idi?

Kəniz dedi:

- Ramazan və Şəvval ayı Əli (ə) üçün eynidir. O, bütün gecələri ibadətlə keçirir.

Dördüncü imamımız Əli İbn Hüseyn (ə) həddindən artıq ibadət etdiyi üçün ona **"Zeynülabidin"** – ibadətçilərin zinətlisi deyilirdi. Lakin Əli ibn Əbu Talibin (ə) ibadətinə heç kimin qüdrəti çatmazdı. Əslində Zeynülabidin ləqəbi Mövla Əliyə (ə) şamil idi...

Bir dəfə Zirar Həzrət Əli (ə) haqqında Müaviyyəyə dedi: **"Ey kaş, onu ibadət mehrabında (namaz qıldığı yerdə) görəydin. Elə ki, gecə öz qara donunu hər yerə sərirdi və ulduzlar aşağı enirdi, qaranlıq çoxalırdı Mövla öz mübarək saqqalını əlinə tutub, ilan çalmış adam kimi qıvrılır və müsibətə düşmüş şəxs kimi ağlayaraq, buyururdu: "Ey dünya, mənim dalımca düşmüsən və məni ələ keçirmək arzusundasan? Heç vaxt, heç vaxt! Bu mümkün olan iş deyil! Mənim sənə ehtiyacım yoxdur. Sənə üç dəfə tələq verdim, daha heç vaxt sənə sarı qayıtmayacağam. Sonra Həzrət buyururdu: "Ah, ah, aman axirət səfərimin uzunluğundan, azuqəmin azlığından və yolun çətinliyindən narahatam".**

Zirar deyir: **"Müaviyyə ağladı və dedi:" Ey Zirar, daha bəsdir. Allaha and olsun, Əli (ə) sən dediyin kimi idi. Allah ona rəhmət eyləsin!" Və sonra əlavə etdi: Dünya doğumdan düşdü (qısır oldu) bir daha Əlik imi oğul doğa bilməz. عقمت الدنيا أن تلد مثل علي**

Həmçinin Həzrət Əlinin (ə) artıq dərəcədə səxavətli olması da gün kimi aydındır. Bu mətləb çox aydın olduğuna görə artıq izaha ehtiyac duyulmur. Həzrət gündüzlər oruc tutar, gecələri ac qarına ibadət edərdi. Öz yeməyini başqalarına verərdi. **"Həl əta"** surəsi onun bəxşişi barəsində nazil olmuşdur. Ayədə buyurulur:

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər".

"(Və Sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik".

"Həqiqətən biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin gündən (üzlərin dəhşətindən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı Qiyamət günündən qorxuruq!)" (**"əl-İnsan"** surəsi, 8-10-cu ayələr)

Həzrət işləyir və aldığı əməkhaqqının çoxunu sədəqə verirdi.

Əbu Tüfəyl deyir: **"Görürdüm o Həzrət, yetimləri öz yanına çağırıb onlara bal yedirtdi və onlara elə məhəbbət göstərdi ki, Həzrətin bəzi səhabələri – dostları yetim olmağı arzu etdilər".** (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 29)

Günlərin birində köçəri bir kişi Mövla Əlidən (ə) bir şey istədi. Həzrət ona **"min verin!"**,- deyə, buyurdu.

Həzrət Əlinin (ə) vəkili soruşdu: **"Qızıl ya gümüş? – yəni, min dinar, ya min dirhəm?"**

Mövla Əli (ə) buyurdu: **"Onların hər ikisi mənim nəzərimdə daşdır. Köçəri kişi üçün hansı faydalıdır onu verin".**

Həzrət Əlinin (ə) düşməni Müaviyyə İmamın səxavəti haqqında belə şəhadət verir: **"Əgər Əlinin (ə) bir evi qızılla və o birisi samanla dolu olsaydı, əvvəl qızılı son dinarına qədər sədəqə verərdi".**

Rəvayət olunmuşdur ki, **"Yənbu"** adlı bir yerdə o Həzrət üçün quyu qazdılar və buradan su fəvvarə vurdu. Su fəvvarə kimi çıxdığı üçün bu yeri **"Yənbu"** (bulaq) adlandırdılar. Sonra Mövlaya gözaydınlığı verdilər. Həzrət buyurdu: **"Bu gözaydınlığını gələcək nəslə verin!"** Sonra Həzrət əlavə etdi: **"O su Allah evinə - Kəbəyə, buradan keçib gedənlər və hacılar üçün həmişəlik ehsandır. Heç kəsə satılmaz və bağışlanmaz. Hər kəs onu satsa, ya başqasına bağışlasa, Allahın, mələklərin və camaatın lənəti ona olsun!"** (**"Biharül-Ənvar"**, 42-ci cild, səh. 71)

Seyyid ibn Tavus **"Kəşvül-mühəccə"** kitabında rəvayət edir ki, bir dəfə İmam Əli (ə) buyurdu: **"Mən Fatimə (ə) ilə evlənən zaman heç bir şeyim yox idi, amma bu gün mənim var-dövlətim bəni-**

Haşim arasında bölünsə, onların hamısına çatar və maddi vəziyyətlərini yaxşılaşdırar".

İbn Tavus əlavə edərək deyir: **"Mövla Əli (ə) bütün malını vəqf etdi. Onun arpa-buğdasının qiyməti 40 min əşrəfiyə (qızıl pul) bərabər idi. Bununla belə Həzrət öz qılıncını satan zaman belə buyurdu: "Kim mənim qılıncımı alar? Əlbəttə, əgər mənim şam yeməyim olsaydı, onu satmazdım".**

Mövla Əli (ə) həm də xoş xasiyyətli və gülərüz şəxsiyyət idi.

Bu mətləb o qədər məşhurdur ki, hətta Əlinin (ə) düşmənləri bu xüsusiyyəti onun eybi sayardılar.

Əmr İbn As deyirdi: **"O, çox zarafat edir".** Əlbəttə, Əmr İbn As Ömər İbn Xəttabın (r) dediyi sözü təkrar edirdi. O, İmam Əlinin (ə) xəlifə seçilməməsi üçün **"Əli (ə) çox zarafat edir"**,- deyə, **vaxtında bunu eyb saymışdı.**

Bir gün Müaviyyə Qeys ibn Sədə dedi: **"Allah Əbul-Həsəni (ə) (Əlinin (ə) künyəsi) rəhmət etsin, çox gülərüz və zarafatçıl idi".**

Qeys dedi: **"Bəli, düz deyirsən. Allahın Rəsulu (s) da öz səhabələri ilə zarafat edərdi və həmişə gülərüzlü idi. Ey Müaviyyə! Sən zahirdə belə dedin ki, guya onu tərifləyirsən, amma həqiqətdə sən o cənabı pislədin. And olsun Allaha, Əli (ə) gülərüzlü və zarafatcıl olmaqla yanaşı, hamıdan heybətli idi. Lakin onun heybəti təqva sayəsində idi. Şamın alçaqlarının təsəvvür etdikləri – sənin heybətin kimi deyil".**

Bir gün Mövla Əli (ə) xurma satanların yanından keçəndə bir kənizin ağladığını gördü. Ondan **"niyə ağlayırsan?"**,- deyə, soruşanda kəniz dedi: **"Ağam (sahibim) xurma almaq üçün mənə bir dirhəm verdi. Xurmanı alıb apardım, amma o, bəyənmədi. İndi gətirmişəm qaytaram, xurma satan isə geri götürmür".**

Mövla Əli (ə) xurma satana buyurdu: **"Ey Allahın bəndəsi, bu kənizdir və onun heç bir ixtiyarı yoxdur. Onun dirhəmini qaytar, öz xurmanı geri al!"**

Xurma satan Həzrət Əlinin (ə) sinəsindən vurub onu geri itələdi. Camaat xurma satana dedi: **"Ey kişi, deyəsən tanımadın, bu Əmirəlmöminin Əlidir (ə)".**

Xurma satan bərk qorxdu və malını alıb dirhəmi kənizə qaytardı. Sonra üzünü Mövla Əliyə (ə) tutub bağışlanmasını istədi. Həzrət buyurdu: **"Əgər işində düz olsan, səni tez bağışlayaram".**

Həzrət Əli (ə) artıq dərəcədə təvazökar bir şəxsiyyət idi.

O, ev üçün odun gətirir, su çəkir, evi süpürür, öz ayaqqabısına yamaq vururdu. Bəzi vaxtlarda qoca arvadların su qabını alıb mənzil başına çatdırardı. Həmişə yetimlər üçün çiynində yemək aparardı. Bazarlarda tənha gəzər, yolunu azanlara yol göstərər, acizlərə kömək edərdi.

Bir kişi oğlu ilə o Həzrətin qonağı oldu. Yeməkdən sonra Qənbər (Əlinin (ə) qulamı) əl yumaq üçün su gətirdi. Həzrət qabı ondan alıb qonağın əlinə su tökdü. Ona and verdi ki, arxayınlıqla əlini yusun və elə təsəvvür etsin ki, Qənbər onun əlinə su tökür. Qonaq əlini yuyandan sonra Mövla Əli (ə) oğlu Mühəmməd Hənəfiyyəni çağırıb buyurdu: **"Ey əziz oğlum! Əgər qonağın oğlu bizə tək gəlsəydi, özüm onun əlinə su tökərdim. Lakin atası ilə gəlib və Allah-Təala ata və oğul arasında fərq qoyubdur. Ata atanın əlinə su töksün, oğul da oğulun əlinə su töksün. Sonra Mühəmməd qonağın oğlunun əlinə su tökdü".** (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 54)

Bir gün Həzrət Əli (ə) ata minib harasa getmək istəyirdi. Onun əshabı da Həzrətin arxasınca piyada yola düşdülər.

Həzrət buyurdu: **"Bir hacətiniz vardır"?**

Dedilər: **"Xeyir, istəyirik sənin lə birlikdə gedək".**

Həzrət buyurdu: **"Geri qayıdın! Piyadanın atlı ilə həmrah olması atlı üçün pislik, piyada üçün isə xarlıqdır".** (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 55)

Əbu Talib Məkki deyir: **"Həzrət Əli (ə) əlində xurma və balıq yol gedərkən ona təəccüblə baxan adamlara buyurdu: "Öz ailəsinə xidmət edən kamil şəxsin kamalından bir şey azalmır".**

Həzrət Əli (ə) fövqəladə şücaətli idi.

Həzrətin şücaətini dost-düşmən hamı təsdiq edir. Bütün tarixi sənədlərdə göstərilir ki, Mövla Əli (ə) zəmanəsinin bütün pəhləvanlarına qalib gəlib və heç vaxt döyüşdən qaçmayıb. Həzrətin iştirak etdiyi Bədr, Uhud, Xeybər, Əhzab, Cəməl, Siffeyn və s. döyüşlərə nəzər saldıqda bütün bunlar daha aydın görünür. Mövla Əlinin (ə)

qılıncı həmişə dəmir zirehlər, polad papaqlar üzərinə enər və onu parçalayıb düşməni məhv edərdi.

Həzrət Əli (ə) bu döyüşlərdə qeyri-adi bir iş görmürdü. Onun qüvvə və şücaəti Allahın bəşərə verdiyi eyni güc və mərdlik simvolu olan şücaətdən ibarət idi. Həzrətin döyüşləri və döyüşlərdə göstərdiyi şücaətlər Qiyamət gününə qədər dillər əzbəri olacaq və heç vaxt yaddan çıxmayacaq. Əli (ə) elə şücaətli bir şəxs idi ki, heç vaxt döyüşdən qaçmayıb və qoşunun sayı da onu qorxutmayıb.

Mövla Əlinin (ə) elçilərindən olan Tirmah ibn Ədi Müaviyənin yanında olanda onun Əliyə (ə) yazdığı **"sənlə döyüşmək üçün böyük bir qoşunla gələcəyəm"** ifadəsinə təbəssüm edərək belə dedi: **"Sənin Əlini (ə) böyük qoşunla qorxutmağın, ördəyi çoxlu sudan (böyük çaydan) qorxutmağa bənzəyir. Əlinin (ə) qoşun dəryasından nə qorxusu var? Onun uzun dimdikli bir xoruzu var ki, (Malik Əştərə işarə edir) sənin bütün qoşununu buğda kimi dənləyib çinadanına yığar. Nəinki Əli (ə) özü olsun!"**

Ümumiyyətlə, düşmən heç vaxt Həzrətin müqabilində iman gətirməkdən başqa bir çarə yolu tapmamışdır. Mövla Əli (ə) həmişə bir dəfə zərbə vurardı. O zərbədən sonra ikinciyə ehtiyac olmazdı. Onun öldürdüyü pəhləvanların qəbilə başçıları onların Əli (ə) qılıncı ilə qətlə yetiriləmələri ilə fəxr edərdilər. Bunlardan biri Əmr ibn Əbdüvədin bacısı, qardaşının başı üstündə oxuduğu mərsiyədə belə dedi: **"Əgər Əmri Əlidən (ə) başqası öldürsəydi, ömrüm boyu ona ağlayardım. Amma onun qatili şücaətdə yeganə, kəramətdə yüksək bir şəxsiyyətdir. Qardaşımın onun əlində ölməsi ar deyil".**

Bir an o Həzrətin qarşısında duran pəhləvanların övladları və qohum-qəbilələri həmişə onunla fəxr edib öyünərdilər. Tarixdə qeyd olunur ki, kafir ölkələrin padşahları belə, öz məbədlərində o cənabın surətini (şəklini) çəkirdilər. Türk və Ali-Bəveyh padşahlarının bir qrupu o Həzrətin şəklini təbərrük, düşmənə qələbə çalmaq naminə öz qılıncları üzərində çəkib özləri ilə gəzdirirdilər.

O, həzrətin qüvvəsi aləmdə dillər əzbəridir. Heç kim onun kimi qüvvətli olmayıb, hünər və şücaətdə onun dərəcəsinə yetişməyib. Xeybər qalasının qapısını möcüzəli əli ilə yerindən qopardan məhz Mövla Əli (ə) olmuşdur. Bir dəstə adamın ağır bir daşı quyunun

üstündən götürə bilmədikləri halda Mövla Əli (ə) təkbaşına bu işi görə bilmişdir. Hətta onun haqqındakı qəsidələrdə bu ibarət çoxlarının dilinin əzbəri olmuşdur: **"Ey 44 kişinin yerindən tərpədə bilmədiyi qapını yerindən qopardan…"**

İbn Şəhraşub **"Mənaqibe Əli ibn Əbu Talib"** kitabında o həzrətin qüvvəsi barəsində çoxlu hədislər nəql etmişdir. Məsələn, o Həzrətin uşaqlıq vaxtında bələyinin kəndirini qırması, beşikdə olan zaman ilanın boğazından sıxıb onu öldürməsi və s.

O Həzrətin Kufə və Məşhəd məscidinin sutunlarında barmağının izi, Təkrit, Musel və s. yerlərdə ayağının izi, Məkkədə Sur dağında böyük bir daşın üzərində və Badiyə dağlarında nizəsinin əsəri çox qədim zamanlardan tanınmış və bu günümüzədək qorunub saxlanılmışdır.

Deyilənə görə, Mövla Əli (ə) hər kimin əlini möhkəm sıxsaydı, o adamın nəfəsi daralar, dözülməz vəziyyətə düşərdi. Hətta əgər qüvvəsini bir az da artırsaydı, həmin adamın ölümünə səbəb olardı.

Mübahisələrin birində Mövla Əli (ə) dəyirman daşının miləsini boyunbağı kimi Xalid ibn Vəlidin boynuna asdı. Heç kim onu xilas edə bilmədi. Nəhayət, o Həzrət özü onu tikə-tikə edib Xalidi xilas etdi. Həmçinin rəvayət olunur ki, Həzrət Əli (ə) Xalidin boğazını iki barmağı ilə elə divara sıxdı ki, az qaldı həlak olsun. Yazırlar ki, ağrının şiddətinə dözə bilməyən Xalid elə qışqırdı ki, hətta paltarını da batırdı.

Mövla Əlinin (ə) uşaqlıq çağlarında süd qardaşını quyuda asılı vəziyyətdə saxlaması və bu kimi çoxlu rəvayətlər tarixi sənədlərdə açıq-aşkar yazılmışdır.

Mövla Əlinin (ə) maraqlı və möcüzəli işlərindən biri də onun uzun illər Peyğəmbərin (s) yanında kafirlərlə cihad etməsidir. O, öz xilafəti dövründə Cəməl, Siffeyn və Nəhrəvan Xəvarici döyüşlərində şücaətlə vuruşmuş, heç vaxt məğlub olmamışdır. Həmçinin heç vaxt da ağır yaralanmamışdır. Həmişə öz rəqibinə qələbə çalardı. Onunla döyüşə çıxan heç vaxt canını qurtara bilmirdi. Döyüşdüyü bayraq altında bütün düşmənləri məğlub etmiş və heç vaxt düşmən qoşununun çoxluğundan qorxmamışdır. Həmişə şir kimi nərə çəkib düşmən qoşununa hücum edərdi.

Movla Əli (ə) fəsihlərin fəsihi idi.

Onun fəsahət və bəlağətdə tayı-bərabəri olmamışdır. Təsadüfi deyil ki, **"Nəhcül-Bəlağə"** kitabı da o Həzrətin bəlağətli kəlamlarından meydana gəlmişdir. Hətta Müaviyyə kimi düşməni də bu həqiqətə iqrar edib deyir: **"And olsun Allaha, Qüreyş tayfası üçün fəsahət və bəlağət yolunu Əlidən (ə) başqa heç kim açа bilməmişdir. Söz və danışıq qanununu o vaxta qədər Əlidən (ə) başqa heç kim təlim etməmişdir".**

Fəsahət və bəlağət mütəxəssisləri o Həzrətin kəlamının tərifində belə deyirlər: **"Əlinin (ə) kəlamı, Allah kəlamından aşağı, məxluqatın kəlamından isə yuxarıdır".** Buna **"Nəhcül-Bəlağə"** kitabı ən yaxşı sübutdur.

Ərəb mühasibləri xitabə və yazmaq üslubunu Əlidən (ə) öyrəniblər. Mərvanın xəzinə hesabdarı olan Əbdülhəmid Mövla Əlinin (ə) kəlamlarından yüz fəslini əzbər bilirdi.

Divan yazanların və yazıçıların əqidəsi bundan ibarət idi ki, əgər Əlinin (ə) kəlamı, xütbələri, bəlağət və fəsahəti olmasaydı, heç kim vali və qoşun sərkərdələrinə doğru-düzgün bir məktub yaza bilməzdi.

Bir gün Həzrət minbərdən aşağı enərkən camaat onun fəsahət və bəlağətini tərifləyib dedilər: **"Biz səndən başqa fəsahətli, bəlağətli bir adam tanımırıq və nə də eşitməmişik".** Həzrət təbəssüm edib buyurdu: **"Axı necə belə olmamalıyam, bir halda ki, Məkkədə (Kəbənin içində) doğulmuşam".**

Mövla Əli (ə) kəlamlarının fəsahət və hikmətinin həddini Allah və onun Rəsulu gözəl bilirdi. Heç kim o Həzrətin kəlam və xütbələri kimi bir şey yazmağı nəinki bacarmazmış, hətta xəyalına belə gətirə bilməzmiş. Əgər bəzi Əhli-sünnə alimləri **"Şiqşiqiyyə xütbəsini"** həzrətin xütbələrindən saymayıb, onu Seyyid Rəziyə – böyük şiyə aliminə – **"Nəhcül-Bəlağəni"** toplayana nisbət veriblərsə, bu da başqa bir məsələyə görə olub. O da bundan ibarətdir ki, həmin alimlər xəlifələrin Mövla Əlinin (ə) haqqını qəsb etdiklərini ört-basdır etməyə çalışmışlar. Amma bütün bunlara baxmayaraq ədəbiyyatşünaslara və elm əhlinə onların sözlərinin zəif və dəlilsiz olması heç də gizli deyil. Bir çox alimlər Seyyid Rəzi doğulmamışdan qabaq bu xütbənin keçmiş kitablarda olmasını qeyd etmişlər. İbn Əbil Hədidin, ərəb fəsihləri və ədəbiyyat alimlərinin rəyi budur ki, Seyyid Rəzi və

başqaları heç vaxt bu kəlmələrlə xütbə söyləmək qabiliyyətinə malik ola bilməzdilər.

Mövla Əlinin (ə) İlahi sübutu üçün lazım gəldikdə ölüləri diriltməsi və xəstələrə şəfa verməsi barəsində etdiyi dualar qəbul olunurdu. Bunlardan Babildə – İraqın Hillə şəhəri yaxınlığında çürüməkdə olan kəllənin dirilərək o Həzrət ilə danışmasını misal gətirə bilərik. Tarixi sənədlərə görə, hətta bu möcüzənin sübutu olaraq orada **"Cümcümə"** (yəni kəllə) adı ilə məşhurlaşan bir məscid də tikilmişdir. Həmin məscidin əlamətləri indi də Hillə ərazisində **"Rəddiş-Şəms"** (Günəşin qaytarılması) məscidinin yaxınlığında qalmaqdadır.

Əshabi-Kəhf barəsində Bəsat hədisində belə nəql olunur: **"Əmirəlmöminin (ə) öz səhabələrindən bir neçəsini hava ilə Əshabi-Kəhfə salam vermələrini əmr edir. Lakin heç bir cavab almırlar. Səhabələr hamı eşidir ki, aşikar dildə Əshabi-Kəhf Mövla Əlinin (ə) salamının cavabını alırlar".**

Rəvayətlərin birində deyilir. Peyğəmbər (s) xəstə idi. Əmirəlmöminin Əli (ə) o Həzrətin əyadətinə – görüşünə gəldi, əlini Peyğəmbərin (s) mübarək sinəsinə qoyub dedi: **"Ey qızdırma! Allahın rəsulunun bədənindən çıx!"** Deyirlər ki, elə həmin an qızdırma Peyğəmbərin (s) bədənini tərk etdi. Həzrəti-Rəsul (s) qalxıb oturdu.

İmam Əli (ə) Siffeyn döyüşündə Hişam ibn Ədiy Həmadaninin kəsilmiş əlini birləşdirib sağaltdı. Bu hadisə çoxlarına qəribə gəlsə də təsdiq üçün əyani vəsait kimi hamının gözü qarşısında baş vermişdir.

Həzrət Əlinin (ə) bir neçə nəfərin haqqında etdiyi nifrin – qarğışın Allah dərgahında qəbul olması da möcüzələrdən biridir.

Həzrət Əli (ə) Bəsir ibn Ərtatın haqqında qarğış etdi ki, ağlını itirsin. O, qısa bir müddətdə dəli oldu. Dəliliyi ondan ibarət idi ki, həmişə bir qılınc və bir mütəkkə istəyirdi. Ağacdan düzəlmiş bir qılınc və bir mütəkkəni ona verdilər. O, qılınc ilə özündən gedib yıxılana qədər mütəkkəyə vururdu. Bu hal onda ölüb Cəhənnəmə vasil olana qədər davam etdi.

İmam Əli (ə) Təlhə və Zübeyr haqqında da qarğış etdi ki, pislik və zillət içində ölsünlər. Əmr ibn Yərmuz Zübeyri Bəsrənin yaxınlığındakı "Vadiyyüs-Siba"da yatdığı yerdə öldürüb cəsədini torpağa basdırdı. Təlhəni isə Mərvan ibn Həkəm Cəməl döyüşündə ox ilə vurdu. Ox onun damarını qırdı. Səhrada qızmar günəş altında qan yavaş-yavaş Təlhənin bədənindən axdı və zillətlə həlak oldu.

Təlhə can verərkən təkrar-təkrar deyirdi: **"Qüreyş tayfasında heç bir kişinin qanı mənim qanım kimi hədər olmadı".**

Cinn və heyvanların o Həzrətə itaət etmələri də Mövla Əlinin (ə) fəzilətlərindəndir.

Bu mətləb şir və Cüveyrə ibn Müshər hədisində aydınlaşır.

Cüveyrə səfər zamanı bir şir ilə rastlaşıb ona salam verərək dedi: **"Əmirəlmöminin (ə) mənə sənin zərərindən aman verib. Şir bunu eşidən kimi, beş dəfə nərə çəkərək geri dönüb getdi".** (**"Biharül-Ənvar"**, 41-ci cild, 245-ci səh.)

Həzrətin Kufə minbərində əjdaha ilə danışması; quşların, canavarların və balıqların o Həzrət ilə söhbəti; Fərat çayının balıqlarının o həzrətə salam verməsi; O Həzrətin ayaqqabısını qarğanın götürməsi və onun içindən ilanın düşməsi; Azərbaycanlı kişi və onun xam dəvəsinin hekayəsi; Yəhudi kişinin mallarının itməsi və İmam Əlinin (ə) əmri ilə cinlərin onları tapıb gətirməsi; Əqiq və sair vadilərdə həzrətin cinlərdən beyət alması və b. (**"Biharül-Ənvar"**, 41-ci cild)

Mövla Əlinin (ə) həmçinin təbiət və bitkilər üzərində bir çox möcüzələri də müşahidə olunmuşdur. Onlardan Mədinədə Peyğəmbər (s) dövründə günəşin o Həzrət üçün geri qaytarılması, Peyğəmbər (s) dünyadan gedəndən sonra **"Babil"** ərazisində günəşin geri qaytarılması və s.

Bu fövqəladə hadisəni sünni və şiə alimləri öz hədislərində nəql etmişlər. Bəzi alimlər günəşin geri qaytarılmasının mümkün olması haqqında kitab da yazıblar. Hətta sünni və şiə şairlərindən bir neçəsi bu hadisəni nəzmə də çəkmişlər. (**"Biharül-Ənvər"**, 41-ci cild, Rəddi-Şəms fəsli)

Xəlifə Əbu Bəkrin (r) dövründə Mədinə şəhərində güclü bir zəlzələ baş verdi. Zəlzələ dayanmırdı. Mövla Əlinin (ə) duası ilə zəlzələ dayandı və yer sakitləşdi. (**"Biharül-Ənvar"**, 41-ci cild, səh. 254)

Əmirəlmöminin Əlinin (ə) əlində kiçik bir daşın dilə gəlib danışması da onun fəzilətlərindəndir.

Habelə Mövla Əlidə (ə) **"Teyyül-ərz"** (bir şəxsin, bir anda və maddi vasitə olmadan uzun bir məsafəni getməsinə **"Teyyül-ərz"** deyilir) etmə qabiliyyəti də var idi. O, **"Teyyül-ərz"** vasitəsi ilə Mədain şəhərində vəfat edən Peyğəmbərin (s) əziz səhabəsi Salman

Farsinin cənazəsinin yanına getmiş, ona qüsl vermiş, kəfənə büküb dəfn etmişdir. Halbuki, Salman vəfat edəndə Həzrət Əli (ə) Mədinə şəhərində idi. Əgər adi zaman hesabı ilə getsəydi, şübhəsiz ki, o Həzrət ən azı bir həftəlik yol qət etmiş olardı. Bu müddətdə isə insan cəsədi Mədain kimi isti bir ölkədə pis vəziyyətə düşərdi.

Mövla Əlinin (ə) möcüzələrindən biri də **"Bəsat"** hadisəsidir. Əbu Hüreyrə Həzrət Əlinin (ə) yanına gəlib öz ailəsi üçün darıxdığını və onları görmək istədiyini bildirməklə ondan kömək istədi. Mövla Əli (ə) də onu **"Teyyül-ərz"** vasitəsiylə evinə apardı.

Həzrətin zifaf gecəsində yer kürəsində olan xəbərlərin ona çatması da fəzilətlərindəndir.

Bir şəxs Mövla Əlidən (ə) borc almağa gəlmişdi. Mövla da onu naümüd qaytarmamaq üçün Allahdan rica etməklə daşı qızıl edib ona verdi.

İmam Əli (ə) divara söykənib oturmuşdu. Birdən divar aşmaq istədi. Həzrətin **"dayan!"** əmrinə divar dayandı.

Ecazlardan biri də dəmir zirehin o Həzrətin əlində yumşalmasıdır. Xalid ibn Vəlid deyir: **"Gördüm ki, həzrət zirehin həlqələrini əli ilə təmir edir. Mənə buyurdu: Ey Xalid! Allah bizim bərəkətimizə görə, Davudun (ə) əlində dəmiri yumşaltdı".**

Mədinədə xurma ağacları Mövla Əli (ə) və Peyğəmbərin (s) fəzilətinə şəhadət verdilər. Həzrət həmin xurma ağaclarının adını **"Seyhani"** qoydu.

Həzrət Əlinin (ə) möcüzəsi ilə quru armud ağacı yaşıllaşdı, yay (kaman) əjdahaya, ilana çevrildi.

Yəmən ərazisində ağac və daş-kəsək Mövla Əliyə salam verirdilər.

Fərat çayı coşub-daşan zaman İmam Əli (ə) onun sakitləşməsinə və suyun azalmasına əmr etdi və belə də oldu. (**"Biharül Ənvar"**, 41-ci cild.)

Mövla Əli (ə) xoştəbiət insan idi. Ona pislik edənləri bağışlayardı. Həzrətin öz düşmənləri ilə etdiyi rəftar buna əyani misaldır. Mərvan ibn Həkəm və Əbdüllah ibn Zübeyr Cəməl müharibəsində o Həzrətin əsiri oldular, amma İmam Əli (ə) onları əziyyət vermədən azad etdi. Həzrət Əli (ə) Cəməl müharibəsində Peyğəmbərin (s) əyalı Ayişə (r) ilə son dərəcədə mehriban rəftar edib, onu Mədinəyə qaytardı.

Bəsrə əhalisi İmam Əli (ə) və onun övladlarına qılınc çəkdilər, Mövlanı təhqir etdilər. Lakin bütün bunlara baxmayaraq Mövla Əli (ə) qələbə çaldıqdan sonra böyüklük edib onlara aman verdi, mal-dövlətlərini qarət etməyə qoymadı.

Mövla Əlinin (ə) bu xüsusiyyəti Müaviyyə ilə Siffeyndəki döyüşündə daha çox nəzərə çarpır. Müaviyyə qoşunu tez tərpənərək Fərat çayının su hövzəsini ələ keçirməklə Mövla Əli (ə) və onun qoşununun su içməsinə icazə vermədi. **"Qoy susuzluqdan həlak olsunlar və döyüşə ehtiyac olmasın",**-dedilər.

Amma Mövla Əli (ə) su hövzəsini ələ keçirərkən buyurdu: **"Yox! And olsun Allaha! Mən onlar kimi etməyəcəyəm. Qələbə çalmaq üçün mənə qılınc kifayət edər".**

Sonra əmr etdi ki, suyun yolunu bir tərəfdən Müaviyyənin qoşunu üçün açıq qoysunlar.

Həzrət tədbir və siyasi cəhətdən hamıdan çox mahir və Allahın dininin icrasında hamıdan ciddi idi. Özünün kəlamına nəzər salaq: **"Heyhat! Əgər Allahdan qorxmasaydım və təqvam mənə mane olmasaydı, ərəblərin hamısından çox mən hiylə yollarına əl atardım".**

Həzrət Əli (ə) din məsələlərində o qədər ciddi idi ki, hətta öz övladları və qohumları ilə başqaları arasında fərq də qoymurdu. Bu mətləb Həzrətin qardaşı Əqil və əmisi oğlu İbn Abbasla etdiyi rəftarda daha da aydınlaşır. **"Əsəl"** (bal) hədisinə və Ümmü Gülsümün boyunbağını ariyə (müvəqqəti istifadə üçün alınan şey) almasına diqqət etdikdə, görürük ki, o Həzrət öz övladı ilə də həmin rəftarı edirdi. (**"Mənaqibe-Şəhraşub"**, 2 cild, səh. 107-108)

Həzrət Əli (ə) bəxşiş etdiyi zaman öz bacısı Ümmi Hani və onun əcəm (qeyri-ərəb) kənizi arasında fərq qoymayıb, hər ikisinə 20 dirhəm verdi. Həmçinin Əqil ilə zənci kişinin arasında da fərq qoymamasını tarixi sənədlərdən görürük. Hətta o hadisədən sonra Əqil narazılıq edib dedi: **"Məni Mədinənin qara zəncisi ilə bərabər tutursan?"**

Mövla Əli (ə) təbəssüm edib buyurdu: **"Sənin ondan nə üstünlüyün vardır? İnsanın üstünlüyü tez müsəlman olmaqda və başqasından təqvalı olmağındadır".**

Rəvayət edirlər ki, Cəfər Təyyarın oğlu Abdullah əmisi İmam Əliyə (ə) dedi: **"Ey Əmirəlmöminin! Əgər əmr etsəydin dolanışığım üçün mənə bir şey versəydilər, yaxşı olardı. And olsun Allaha, ailəmi saxlamağa heç nəyim yoxdur. Bir atım var, gərək onu satıb ailəmi dolandıram".**

Mövla Əli (ə) buyurdu: **"And olsun Allaha, sənə verməyə heç nəyim yoxdur. Ancaq istəsən gərək əmin oğurluq edib sənə versin. Bu da heç vaxt mümkün olan şey deyil".**

Rəvayət edirlər ki, bir gün bir nəfər İmam Əlinin (ə) yanına gələrək ondan aşağıdakı suallara cavab verməsini xahiş edir:

"Ey Əli, mənə de görüm, həyatda insan üçün nə vacibdir və ondan daha vacib olanı nədir?"

"Nə qəribədir və ondan daha qəribə olanı nədir?"

"Nə çətindir və ondan daha çətin nəyi hesab edirsən?"

"Adama həyatda nə yaxındır və ondan daha yaxın olanı nədir?"

Əli ibn Əbu Talib (ə) həmin suallara şerlə belə cavab vermişdir. Şerin azərbaycanca tərcüməsi aşağıdakı kimidir:

Həyatda hər kəsə vacibdir, gərək
Dönə pis əməldən tövbə edərək.
Lakin ən vacibi budur, biləsən,
Biryolluq əl çəkə günah etməkdən.
Sorursan, dünyada əcaib nədir?
Zaman gərdişidir bil, qəribədir.
Ondan da qəribə – bu sirr deyildir,
İnsanın həyatda qafilliyidir.
Dözmək çox çətindir hər müsibətə,
Olmur səbr eyləmək dərdə, zillətə.
Lakin dar ayaqda ərz edim indi,
Səvabı fövt etmək daha çətindi.
Səndən uzaq deyil məramı, hər an
Ona yetişərsən əzmində olsan.
Ancaq ondan yaxın zalım əcəl var,
O nə vaxt istəsə, hər kəsi haqlar.

Mövla Əli (ə) yeganə şəxsdir ki, Kəbədə - Allahın evində dünyaya göz açdı. Nə ondan qabaq, nə də ondan sonra Kəbə evində doğum olmayıb. Bu fəzilət fəqət Mövla Əliyə (ə) nəsib olmuşdur.

Bu mübarək təvəllüd Peyğəmbərin (s) təvəllüdündən 30 il keçəndən sonra, rəcəb ayının 13-də cümə günü tarixin şanlı səhifəsinə yazıldı. Bəli, doğrudan da bu fəzilətə yalnız Həzrət Əli (ə) malikdir.

Məkkənin ən şərəfli yeri hərəmdir. Hərəmin ən şərəfli yeri məsciddir. Məscidin ən şərəfli məkanı Kəbədir. Bu şərəfli məkanda Mövla Əlidən (ə) başqa heç kim dünyaya göz açmamışdır...

QƏSİDƏ

(Mövla Əli (ə) haqqında)

Kəbəyi həqdə məqam basəfasən ya Əli.
Məşərü miğatu ərkanü minasən ya Əli.

Məsçidi əqsadəsən oldun İmami-əmbiya,
Əmbiyavü olviyada Pişivasən ya Əli.

Batinü Peyğəmbər idi, batinin ey sirri Həqq,
Muqtadasən, müqtədayi əmbiyasən ya Əli.

Mərhəbun qətlində gəldi suyi Həqdən mərhəba,
Dəhridə müstucubi səd mərhəbasən ya Əli.

Nuri ruxsarindən oldu dəhri nurani tamam,
Məniyi ayati "şəmsi və zuha"sən ya Əli.

Nazil oldu şəninə "hinün minəddəhr" ayəsi,
Sənsən asan ifhişaru "Həl-əta"sən ya Əli.

Kəşfi islama kifayət eylədi bir zərbətun
Nasiri din padşahi "Qul-kəfa"sən ya Əli,

Sailin etdin rukuində əta ənguştərin,
Oldu zahir kim vəliyyu "innəma"sən ya Əli,

Müjdəyi-didar idi həqq verdi əhli cənnətə,
Aləmə mənzur olan vəch liqasən ya Əli.

Eyni mişkat ayəsi "Allahu nurun" məzhəli,
Məzhəri-ənvari-həqq nuri-Xudasən ya Əli.

Qisseyi meraci sən nəql eylədin Peyğəmbərə,
Məhrəmi-sirri-hərimi-Kibriyasən ya Əli.

Hökmünə yeksər müsəxxərdür sənin cinnü pəri,
Səndədir xatəm Süleymani-səxasən ya Əli.

Xilqətü aləmdən ey movla vücudundur qərəz,
İllətü ğaiyyi cümlə masəvasən ya Əli.

Sən də var ey şahi aləm dərd üsyan çarəsi,
Aləmin dərdinə billah sən dəvasan ya Əli.

Hikməti-feyzünlə sən çox misləri zərr eylədin,
Cövhəri-iksiri-əzəm kimyasən ya Əli.

Bəxş qıldın sailə ta kim qətar nağəni,
Söylədi Qəmbər ki dəryayi-ətasən ya Əli.

Əl aman ey şahi dəryadil məni eylə əta,
Xaki payindən məni etmə cüda sən ya Əli.

Dəşti-Ərzəndə səni Salman çağırdı dadinə,
Şir əlindən eylədün aldun rəha sən ya Əli.

Həzrəti Haruna sən etdin xilafət bixilaf,
Eylədün Musa əsasin əjdaha sən ya Əli.

Rəhlət Peyqəmbər-axir zamandan sonra çox,
Sahati-aləmdə gördün ibtilasən ya Əli.

Biət üçün gah bağlandı yədullah qolların,
Gahi qaldın bikəsü biəqrabasən ya Əli.

Gah düşərsən müşkülatü dəhrə ey Müşkülgüşa,
Gah zəmanə əhlinə Müşkülgüşasən ya Əli.

İki fərzəndi giramidü Şübeyrü Şəbbərün,
Səfhəyi Tovratidə sən İlyasan ya Əli.

Adını vermiş nişan İncilü Tovratu Zəbur,
Şəkki yox kim şahi aləm Şintiyasan ya Əli.

MÖVLA ƏLİNİN (Ə) İMAM HƏSƏNƏ MƏKTUBU
(məktub 31)

(Bu vəsiyyətnamə) yoxluq və ölümə yaxın olan, zamanı (onun keçərliyi və çətinliklərini) etiraf edən, ömür və həyata arxa çevirmiş, dövrana (onun çətinliklərinə) təslim, dünyaya bədbin, ölülərin evlərində məskunlaşmış və sabah (yaxın olan ölüm günü) ondan köçəcək atadan (xalqın hidayəti və düz yola gətirilməsi barəsində) əldə edilməz bir şey arzulayan, məhv olanların (ölülərin) yolu ilə gedən, (müxtəlif) xəstəliklərə hədəf, zamanın girovu olan, müsibət və qəmlərə nişangah, dünyaya qul (onun xoşagəlməz rəftarına düçar), hiylə və yalan diyarının (yaxşılarının səadət və xoşbəxtliyi və pis əməllərinin bədbəxtliyinin) taciri, (borc yiyəsi kimi öz borcunu almayınca əl çəkməyən xəstəliklərə, ölümlə nəticələnən hadisələrə və) puçluqlara borclu, (əlindən qurtarmaq mümkün olmayan) ölümə əsir, möhnətlərə müttəfiq, qəm-qüssəyə yoldaş (insan möhnət və qəm-qüssədən ayrılmır və sanki onlardan ayrılmamağa və yoldaş olmağa and içib), bəla və dərdlərə nişan, nəfsin istəklərinin ayağına düşmüş və (birləşəcəyi) ölülərin canişini olan oğula!

Dünyanın mənə arxa çevirməsi, dövranın mənə itaətsizlik etməsi və axirətin mənə üz tutması barəsində bildiklərim məni başqasını yada salmaq və məndən sonra qalacaq (ev, var-dövlət və övlad kimi) şeylər üçün çalışmaqdan saxlayır. (Çünki belə bir vaxtda kimisə yada salmaq və ya nəyinsə qəmini çəkmək münasib deyil. Gərək səadət və xoşbəxtliyə səbəb olan fəzilətlər əldə etməyin fikrində olum). Amma mənə camaatın qəm-qüssəsi deyil, yalnız öz qəm-kədərim aid edildiyi üçün (nə vaxt öz İşimdən başqa işi, öz qəmimdən başqa qəmi yadımdan çıxartdımsa) düşüncəm məni təstiqləyərək arzu və nəfsin istəklərindən saxladı, işimin həqiqətini (dünyadan köçməyi) aşkar etdi. Sonra məni onda oyun-oyuncaq olmayan səy və tələşə və yalanla qarışıq olmayan doğruluğa vadar etdi. (Xülasə, dünyanın mənə arxa çevirdiyini və axirət səfərinə hazırlaşmağın zəruriliyini gördüyüm üçün öz işimdən başqa işlər üçün olan hər bir düşüncəni özümdən uzaqlaşdırdım). Amma səni vücudumun bir

parçası gördüm (çünki övlad insanın bir parçasıdır), hətta vücudumun hamısı hesab etdim (çünki övlad valideynin yerini tutaraq adını qoruyur). Belə ki, sənə bir şey gəlsə, mənə gəlmiş kimidir və əgər ölüm səni haqlasa, məni haqlamış kimidir. (Qısası, sənin işlərin barəsində düşünməyim öz işim üçün düşünmək kimidir). Sənin işin məni öz işlərim qəm-qüssəyə saldığı kimi kədərləndirir. Buna görə də (həmin səbəbdən) sağ qalmağımdan və ya ölməyimdən asılı olmayaraq bu məktuba möhkəm arxalanaraq onu sənə yazdım. (Bu elə bir vəsiyyətnamədir ki, əgər sən ona əməl etsən, mənim qəlbim rahat olar).

Oğulcan, sənə təqvalı olaraq Allahdan qorxmağı, Onun əmr və hökmlərinə tabe olmağı, qəlbini Onu yada salaraq abadlaşdırmağı (çünki bina evin kamilliyi olduğu kimi Allahı yad etmək də nəfsin kamillik amilidir) və Onun (itaət və tabeçilik) ipindən yapışmağı tövsiyə edir, tapşırıram. Əgər sən ondan yapışsan, hansı səbəb hansı ip sənin lə Allah arasında olan ip və səbəbdən möhkəm ola bilər?!

Qəlbini öyüd-nəsihətlə (elm, hikmət və axirəti yada salmaqla) dirilt, zahidliklə (dünyaya ürək bağlamamaqla) öldür, yəqin və inamla (Allah və Peyğəmbərə iman gətirməklə) qüvvətləndir, hikmətlə (Allahın hökmlərini bilməklə) nurlandır, ölümü yada salmaqla zəlil və xar et (nəfsi istəklərə tabe olma) və (dünyanın) fanilik və yoxluğu etiraf etməyə məcbur et (onu dünyanın yox olacağını iqrar etməyə vadar et ki, oranın əbədi diyar olmasını zənn etməsin). Dünyanın pisliklərı və dərdləri ilə gözüaçıq et (ki, ona etimad etməsin), zamanın (acı hadisələrinin) hücumu və gecə ilə gündüzün pis keçməsi (insanın istək və arzularına uyğun olmaması) ilə qorxut. Keçənlərin xəbərləri (onların sərgüzəştlərinin necəliyi) ilə tanış edərək səndən qabaqkıların başına gələnləri onun yadına sal. Onların diyarlarını, qalıqlarını və nişanələrini gəz, dolan, nə etdiklərinə, haradan köçdükləri və harada düşüb yerləşdiklərinə nəzər sal. Görəcəksən ki, onlar dostlardan ayrılaraq qürbət və tənhalıq diyarına düşüblər. Az müddət sonra sən də onlardan biri olacaqsan. Belə isə (layiqli əməllərlə) öz mənzil və uyuyacağın yeri abadlaşdır, axirətini dünyaya satma. Bilmədiyin şey barəsində söhbət etmə. Azğınlıq olmasından qorxduğun yoldan (onunla getməkdən) çəkin. Çünki

azğınlıq sərgərdanlığı zamanı özünü saxlamaq, qorxulu işlər görməkdən daha yaxşıdır. Yaxşı işlərə əmr et ki, yaxşılardan olasan. Pis işləri əlinlə, dilinlə qadağan et. Öz səy və tələşınla onları (pis işləri) yerinə yetirən kəsdən ayrıl. Allah yolunda (din düşmənlərinə və pis işlərə əmr edən nəfsə qarşı) Ona layiq tərzdə cihad et. (İmkan və bacarığın olan qədər cihad etməkdən çəkinmə). Allah yolunda heç kəsin tənəsindən qorxub çəkinmə. (Başqalarını yaxşı işlərə əmr edərək pis əməllərdən çəkindirməkdə və digər İlahi hökmlərin icrasında kiminsə tənə vurması, sənə boynunda olan vəzifəni yerinə yetirməyə mane olmasın). Harada olmağından və hansı çətinliklə üzləşməyindən asılı olmayaraq haqq-həqiqət uğrunda (ona yardım etmək üçün) çalış. (Bu yolda qarşıya çıxan heç bir hadisədən üz çevirmə). Dində elm əldə et. (Onun hökmlərini öyrən). Özünü xoşagəlməz işlərə səbr etməyə adət ver. Haqq yolda səbrli olmaq necə də gözəl xasiyyətdir! Bütün işlərində öz nəfsini Allahına tapşır. Çünki sən (belə olan halda) onu qüdrətli sığınacağa və qoruyucuya tapşırmış olursan. İstədiyin şeyi ancaq Rəbbindən istə (Ondan başqasına üz tutma). Çünki bağışlamaq və vermək də Onun əlindədir, məhrum etmək də. (Hər bir işdə Allahdan) çoxlu xeyir dilə. Mənim vəsiyyət və tapşırığım barəsində dərrakə və fikir işlət, ondan üz çevirmə. Çünki sözün ən xeyirlisi və gözəli onun fayda verənidir (qulaq asanın eşidərək ona uyğun rəftar etmədiyi deyil, eşidərək əməl etdiyidir). Bil ki, (sahibinə) fayda verməyən bilikdə xeyir yoxdur. Öyrənilməsi münasib olmayan (sehr, cadu və bu kimi din və məzhəbə zidd) elmdən fayda əldə edilməz.

Oğulcan, qocalaraq yaşlaşdığımı, zəiflik və süstlüyümün artmaqda olmasını görüb sənə vəsiyyət etməyə tələsdim. Zehnimdə olanları sənə çatdırmamış ölüm məni haqlayaraq və ya bədənimdə çatışmazlıq yarandığı kimi, düşüncəmdə də nöqsan yaranar, yaxud bəzi nəfsi istəklər və ya dünya fitnələri səni məndən tez qabaqlayaraq (nəfsi istəklərə tabeçilik və dünyaya ürəkdən bağlanmaq sənə hakim olmamışdan vəsiyyət etdim ki, birdən mənim öyüd-nəsihətlərimi qəbul etməzsən) və üsyankar dəvəyə dönərsən, deyə onda bir sıra fəzilətlər yazdım. Gəncin qəlbi (toxum səpilməmiş) boş yer kimidir. Hansı toxum səpilsə, onu da qəbul edər (bitirər). Buna görə də ürəyin (dün-

yaya vurğunluq səbəbindən) bərkiməmiş və ağıl dərrakən (boş və puç işlərə) mübtəla olmamış səni ədəbləndirməyə başladım. (Din, hikmət, bilik və ibrət qaydalarını sənə xatırlatdım) ki, öz işlərində tam düşüncə ilə təcrübə edənlərin sənin axtarmaq və sınaqdan keçirmək ehtiyacını aradan qaldırdıqları şeyə üz tutasan. Təcrübə etməyə möhtac olmayasan və sınaqdan keçirməkdən qurtulasan. Beləliklə, bizim (çox zəhmətlə) əldə etdiyimiz ədəb (zəhmətsiz olaraq) sənə çatar və bizim üçün qaranlıq (gizlin və naməlum) olan şey sənə aydın olar.

Oğulcan, məndən əvvəlkilərin ömrü kimi (uzun) ömür sürməsəm də, onların işlərinə nəzər salıb xəbərləri barəsində düşünərək onlardan qalan şeyləri seyr etmişəm. Nəticədə onlardan biri (kimi) olmuşam. Hətta onların işləri barəsində mənə çatan şeylərə görə, sanki birincisindən sonuncusuna kimi hamısı ilə yaşamışam. Beləliklə, onların saf işlərinin yaxşısını, bulanlığı pisindən və xeyirini ziyanından seçdim. Sənin üçün bir daha hər bir işin gözəlini seçdim. Bəyənilmişini istədim, onun qaranlıq və naməlum olanını (mətəlliyə səbəb olanını) səndən uzaqlaşdırdım. Sənin işin, məni, mehriban atanı vadar edən şeyə vadar etdiyi vaxt və səni tərbiyə etmək, ədəbləndirmək qərarına gəlmək zamanı belə məsləhət gördüm ki, bu işi həyata (yeni) üz tutduğum zəmanəni yeni dərk etdiyim (gənc və yeniyetməlik) pak niyyətlə təmiz nəfsə malik olduğum vaxtda görüm. Bu işə Allahın kitabı, Onun təvili (yozumu) İslamın (həqiqi) yolları, şəriət hökmləri və Allahın halal-haramını öyrətməklə başlayıram. Səni təlim etmək üçün Allahın kitabından başqa bir şeylə başlamıram. Sonra xalqın nəfsi istəklər və (ziddiyyətli) rənglərə uymaları səbəbindən (əqidə və şəri hökmlərdə) şübhələrə düşüb ixtilafa düçar olduqları şey barəsində sənin şübhəyə düşəcəyindən qorxdum. Onu sənin yadına salmağa meylim olmasa da, mənim üçün onu möhkəmləndirmək, səni həlak və məhv edəcəyindən əmin olmadığım işdə təkbaşına buraxmaqdan daha xoşdur. Allahın onda sənə qurtuluş və nicat müvəffəqiyyəti əta etməsini və səni düz yola hidayət etməsini diləyirəm. Beləliklə, bunları sənə vəsiyyət edirəm.

Oğulcan, bil ki, vəsiyyətimdən öyrənəcəyin ən yaxşı şey Allahdan çəkinərək qorxmağın, Allahın sənə vacib etdiyinə kifayətlənməyin və (Əbu Talib Seyyidüş Şühəda Həmzə və Cəfəri Təyyar kimi) keçmiş babaların və əməli-saleh Əhli-Beytin qoyub getdiklərini əldə etməyindir. Çünki sən fikirləşərək düşündüyün kimi onlar da öz sayıq düşüncələrini əldən vermədilər (özlərinə diqqət yetirərək səadət və xoşbəxtlik tapdılar) beləliklə, nəticədə düşüncə onların bildiklərini yerinə yetiməyə və vəzifə daşımadıqlarından çəkinməyə yönəltdi (onlar özlərinə aşkar və məlum olan şeylərə inanaraq ona uyğun davrandılar qaranlıq və naməlum qalan şeylərdən isə uzaqlaşdılar) beləliklə, əgər nəfsin sənin qohumlarının (təcrübə edərək) keçdiklərini onlar kimi bilməməsinə baxmayraq, qəbul etməkdən boyun qaçırırsa, sənin bu barəndəki istəyin şübhələrə (qatmaqarışıq sözlərə) girişərək mübahisə və çəkişmələrə daxil olmaq deyil, başa düşmək, çalışmaq və elmi bilik əldə etmək olmalıdır. Ona nəzər salıb barəsində düşüncəyə dalandan qabaq müvəffəqiyyət qazanmağın üçün öz Allahından kömək istə. Ona üz tut və səni şəkk-şübhəyə salan, zəlalət və azğınlığa aparan bütün pis işləri tərk et. Beləliklə, ürəyinin təmizlənib saflaşaraq, təvazökar və itaətkar olaması fikrinin kamilləşərək (pərakəndəlikdən uzaqlaşıb) cəmlənməsini və o barədəki səyinin məqsədyönlü olmasını yəqin etdikdən sonra (bu vəsiyyətnamədə dediklərimə nəzər sal və barəsində fikirləş). Əgər istədiyin fikir və düşüncə rahatlığını əldə edə bilməsə (ürəyin pak və itaətkar olmasa, düşüncələrin pərakəndə olsa, müxtəlif məqsədlərə malik olsan) bil ki, öz önünü görməyən dəvə kimi anlaqsız addım atır və zülmət qaranlıqlara (azğınlıqlara) düşürsən. Anlayışı olmadan bilmədiyi yol ilə gedən və ya (haqqı batilə) qatışdıran kimsə dini istəyən adam deyil! Belə olan halda dayanmaq və özünü saxlamaq (ağıl və elmin hökmünə) daha yaxındır.

Buna görə də oğulcan, mənim vəsiyyət və tapşırığımı yaxşı anla. Bil ki, ölümün sahibi həyatın da sahibidir. Yaradan öldürəndir, yox edən, qaytarandır, (bəla və çətinliklərə) düçar edən, nicat verəndir. (xülasə, işlərdə şəriksiz Allahdan başqa təsiredici yoxdur) dünya ancaq Allahın nemətləri, imtahanları, axirət cəzası və bizim bilmədiyimiz şeylərdən istədiyin müəyyən şey üzərində dayanır. Buna görə də işlərdən hansısa sənə çətin

gələndə, (onun hikmət və məsləhətə əsaslanmamasını sanma) onu sənin ondan xəbərsizliyini və nadanlığını hesab et. Çünki sən yaradılışın əvvəlində nadan idin. Sonra bilik sahibi oldun. Sənin (hikmət və məsləhətini) bilmədiyin düşüncənin barəsində sərgərdan qaldığı görmənin azlığı və sonra görüb dərk etdiyin şeylər çoxdur. Buna görə də Yaradan, ruzi verən gözəl adam əndamını xəlq edəndən (Onun rəhmət ipindən) yapış. İbadət və bəndəliyin Ona olsun, Ona üz tut, qorxun Ondan olsun.

Oğulcan, bil ki, Allah barəsində Peyğəmbər (s) kimi heç kəs xəbər verməyib. Belə isə onu öz (səadət və xoşbəxtlik) bayraqdarın hesab et, Onu (əzab və çətinliklərdən) nicat və qurtuluş rəhbərin bil. Mən (bu barədə) sənə öyüd-nəsihət verməkdə heç nəyi əsirgəmədim. Sən özün üçün (öz xeyrin üçün) fikir və düşüncələrində hər nə qədər səy və təlaş etsən də heç vaxt mənim sənin üçün olan fikir və düşüncələrin həddinə çata bilməzsən.

Oğulcan, bil ki, əgər Rəbbinin şəriki olsaydı, sənin (hidayət edilməyin) üçün onun da peyğəmbərləri gələr, onun səltənət və hökmdarlıq nişanələrini görər, iş və sifətlərini tanıyardın. Amma Allah, Özünü vəsf etdiyi kimi təkdir. Səltənətində heç kəs Ona qarşı çıxmır. O heç vaxt zavala uğramır və həmişə olub (əbədi və əzəlidir). O hər şeydən əvvəldir, amma (say mənasında yox) əvvəl olmaq və birinciliksiz. Həmçinin hər şeydən axırdır, sonluqsuz.

O, rübubiyyətinin (Allahçılığın) qəlb və ya gözün əhatə etməsi nəticəsində isbat edilməsindən böyükdür. Buna görə də Onun sifətlərini (deyilən kimi) dərk etdikdən sonra, itaət və bəndəlik axtarışında, əzab və cəzasından qorxmaqda, qəzəbindən (rəhmətindən uzaqlaşmaqdan) çəkinməkdə qədir-qiyməti kiçik, qüdrəti az, acizliyi çox və Rəbbinə ehtiyacı böyük olan sənin kimisinə necə davranmaq layiqdirsə, elə hərəkt et. Çünki, O, sənə yaxşılıqdan başqa bir şey etməyib və səni çirkin işlərdən başqa bir şeydən çəkindirməyib.

Oğulcan, səni dünyadan, onun necəliyi, aradan getməsi və əldən-ələ keçməsindən xəbərdar etdim. Sənə axirətdən və həmin diyardan onun əhli üçün hazırlanmış şeylərdən xəbər verdim. Dünya və axirət işləri barəsində sənin üçün misallar da

çəkdim ki, onlardan ibrət götürərək, ardınca gedəsən! Dünyanı sınaqdan keçirib tanıyan kimsə (arzu və istəklərinə) uyğun olmayan qəhətlik və dar yerdən, su və yeməyi bol yaşıllıqları (geniş) olan yerə səfər edən müsafirlər dəstəsi kimidir. Onlar öz diyar və yerlərinin gen-bolluğuna çatmaq üçün yolun əziyyətləri, dostların uzaqlığı, səfərin çətinlikləri və yeməklərinin pisliyinə dözərlər.

Beləliklə, həmin çətinliklərdən əziyyət və ağrı-acı hiss etməzlər. (Öz) Yığdıqlarının həmin yolda xərclənməsindən bir ziyan görməzlər. Onlar üçün onları mənzil və yerlərə yaxınlaşdıran şeydən sevimli bir şey yoxdur. Dünyaya aldanan (və axirətə göz yuman) şəxs isə yeyib-içməyi bol, naz-neməti çox və (arzu istəklərinə) müvafiq mənzildə olan və sonra ordan qəhətlik və darısqal yerə gələn dəstə kimidir. Gözlənilmədən yeni yerə çatan və ona doğru hərəkət edən zaman, onlar üçün (əvvəl) olduqları yerdən ayrılmaqdan acı və ağır şey yoxdur!

Oğulcan, özünü sənlə başqası arasında olan şeydə tərəzi et. Beləliklə, özün üçün bəyəndiyin şeyi başqası üçün də bəyən. Özün üçün istəmədiyin şeyi, başqası üçün də istəmə. Necə ki, sənə zülm edilməsini istəmirsən, sən də zülm etmə. Sənə yaxşılıq edilməsini istədiyin kimi, sən də yaxşılıq et. Başqalarında çirkin saydığın şeyi, özündə də çirkin say. Sən özün başqaları barəsində məmnun və razı olub rəva bildiyin şeyi, başqalarının da sənə rəva bilmələrindən razı ol. Bildiyin az olsa da, bilmədiyin şeyi demə. Sənə deyilməsini istəmədiyin şeyi (sən də başqalarına) demə. Bil ki, məğrurluq və özünü bəyənmək xoşagəlməz və haqqa zidd bir xüsusiyyətdir, ağıla ziyan gətirər. Beləliklə, öz yaşayış və dolanışığını təmin etmək üçün çalış. Başqaları üçün xəzinədarlıq etmə. (Hərisliklə mal və sərvət yığaraq onu başqaları üçün saxlama.) Öz doğru yoluna çatanda (haqq yolu tapanda) isə, Rəbbin müqabilində ən təvazökar və itaətçi halda ol.

Bil ki, qarşında uzaq məsafəli, uzun və çox qorxulu bir yol var. Sən orada yaxşılıq axtarışına və yükünün (günah və itaətsizliklərdən) yüngül olması ilə birgə səni məqsədə çatdıracaq miqdarda azuqə götürməyə də möhtacsan. Buna görə də arxana taqət və bacarığından artıq yük götürmə ki, ağırlığı səni incidər (və yolda qalaraq başqalarına çata bilməzsən). Sənin

azuqəni Qiyamət gününə aparacaq və sabah, sən möhtac olduğun zaman, onu sənə qaytaracaq möhtac – imkansız bir adam tapsan, qənimət bil və azuqəni ona yüklə. Nə qədər ki, imkanın var ona çox kömək et. Çünki ola bilər ki, (ehtiyac günü) onu axtarasan və tapmayasan. Sənin ehtiyacın olmayan zaman səndən borc istəyəni qənimət bil ki, möhtac olduğun gündə onu sənə qaytarsın.

Bil ki, sənin qarşında çox təhlükəli və çətin bir keçid var. Orada yükü yüngül olan yükü ağır olandan xoşhaldır. Ağır tərpənən sürətlə gedəndən pis və aciz vəziyyətdədir. Həmin yolda sənin enəcək yerin mütləq ya cənnətdir, ya da od. Buna görə də (həmin diyara) çatmamışdan özün üçün qabaqcadan hazırlıq görən göndər (ki, sənin üçün asayiş və rahatlıq yeri əldə etsin). Getməmişdən qabaq mənzil hazırla ki, ölümündən sonra razı salmaq vasitələri yoxdur və heç kəs dünyaya qayıtmır. (Orada yaxşı iş görmək mümkün deyil ki, günahdan keçsinlər, həmçinin dünyaya qayıtmaq olmur ki, pis işlərə görə tövbə edilsin).

Bil ki, göylər və yerin xəzinələri (qüdrətli və bacarıqlı) əllərində olan Allahın sənə dua etmək və istəmək icazəsi və (onların) qəbul edilməsinə zəmanət verib. Sənə (istədiyini) vermək üçün istəməyini, mehribanlıq etməsi üçün rəhmət və mehribanlıq diləməyini əmr edib. Sənin lə Özü arasında Onu səndən ayıracaq bir kimsə qoymayıb. Səni Onun yanına şəfaətçi və vasitəçi aparmağa məcbur etməyib. Pis iş görəndə tövbə etməyinə mane olmayıb, (günahına görə) cəza verməyə tələsməyib. Səni rüsvay edilməyə layiq olduğun yerdə rüsvay etməyib. Tövbənin qəbul edilməsində səni əziyyətə salmayıb. Günahlara görə səni sıxıntıya salmayıb və rəhmətindən naümid etməyib. Hətta sənin özünü günahdan saxlamağını yaxşı iş (görmək) kimi dəyərləndirib. Sənin günah və pis işini bir günah, yaxşı və gözəl işini isə ona bərabər hesab edib. Sənin üçün tövbə, peşman olaraq qayıtmaq və razı salmaq qapısı açıb. Beləliklə, nə vaxt çağırsan, səsini eşidər, nə vaxt Onunla münacat və razi-niyaz etsən, qəlbinin sirrini bilər. Belə isə istəyini Ona çatdırarsan, ürəyinin sirrini Onun yanında açarsan və dərd-qəmindən Ona şikayət edər, Onunla dərdləşərsən. Ondan istəyərsən çətinliklə-

rinin çarəsini, kömək və yardım diləyərsən Ondan. Ömür uzunluğu, can sağlığı və ruzi bolluğu kimi başqalarının verə bilmədikləri şeyləri, Onun rəhmət xəzinələrindən istəyərsən. Sənə Ondan istəmək icazəsi verməklə, xəzinələrinin açarlarını sənin əllərinə verib. Beləliklə, istədiyin zaman dua vasitəsi ilə nemətlərinin qapılarını açar, bir-birinin ardınca rəhmət yağışlarının gəlməsini istəyərsən. Allahın sənə gec cavab verərək (dualarını) gec qəbul etməsi səni naümid etməməlidir. Çünki bəxşiş niyyət miqdarında olur. (Duanın qəbul olunması niyyətin saflığı və daimiliyindən asılıdır.) Ola bilər, sənin duanın qəbul edilməsi (ona görə) təxirə düşsün ki, istəyənin mükafatı daha böyük, ümidvar olanın bəxşişi daha çox olsun. (çünki duanın qəbul olunması nə qədər geciksə, istək daha da artar və daha yaxşı razi-niyaz edilər. Nəticədə həmin şəxs bəxşiş edilməyə daha çox layiq olar.) Çox şey var ki, onu (Allah-Təaladan) istəyərsən və o sənə verilməz. Amma dünyada və axirətdə sənə ondan daha yaxşısı verilər. Yaxud da duan sənin üçün daha yaxşı olan şeyə görə qəbul edilməz. Çox vaxt da elə şey istəyirsən ki, o sənə veriləcəyi təqdirdə dinin məhv olar. Buna görə də gərək gözəlliyi sənə qalan, günah və əzabı isə səndən uzaq olan şeyi istəyəsən. (Xülasə, əbədi səadət və xoşbəxtliyə səbəb olan şeyi istə. İstəklərin çoxu dünya malı və sərvət barəsində olduğu üçün, İmam (ə) onu məzəmmət edərək belə buyurur: Mal sənə qalmır. Sən də ona qalmayacaqsan. Axirətdə sənin lə birgə olmayacaq ki, sənə xeyir versin və sən də həmişə dünyada qalıb ondan bəhrələnməyəcəksən).

Bil ki, sən dünya üçün deyil, yox olmaq üçün və yaşamaq üçün deyil, ölmək üçün yaradılmısan. Sən köç edilən yerdə, müvəqqəti diyarda və axirətə gedən yoldasan. (Buna görə də belə bir yerə ürək bağlamaq rəva deyil). Sən əlindən qaçanın qurtula bilmədiyi və axtaranın əldən çıxarmadığı ölüm üçün bir ovsan və ölüm onu mütləq haqlayacaqdır. Belə isə ölümün səni özünə "ondan tövbə edirəm" deyib etdiyin günah zamanı haqlayaraq sənin lə (həmin tövbə etmək barəsindəki) fikrin arasında ayrılıq salmasından qorx və çəkin. (Əgər belə olsa) həmin vəziyyətdə sən özünü məhv etmisən. (Çünki ağıldan uzaq, belə fikirlə günah edib onun cəzasına düçar olmusan.)

Oğulcan, ölümü və qəflətdən düşəcəyin ölümdən sonrakı hadisələri çox yada sal ki, o sənin yanına gələnə kimi özünü hazırlayıb (silahını taxaraq) kəmərini bağlamış olasan. Nəbadə ölüm səni qəflətən haqlasın və (sən ona hazır olmadığın üçün) sənə qalib gəlsin! Dünya əhlinin dünyaya ürək bağlamaları, güvənmələri, hərislikləri və onun üstündə bir-birilə düşmənçilik etmələrinin səni aldatmasından qorx. Çünki Allah səni ondan xəbərdar edib. Dünya özü də özünü sənin üçün vəsf edib və pisliklərini açıb göstərib. Dünyapərəstlər hürən itlər və ov axtaran yırtıcılardır. Onların bəzilərinin bəzilərindən xoşu gəlmir və bir-birilərinin üstünə qışqırır, güclüsü zəifini yeyir. Onların böyüyü zor gücünə kiçiyinə ziyan vurur. Onlar ayaqları bağlanmış dördayaqlılardır. Digər qismi isə buraxılmış heyvanlardırlar ki, ağıllarını itiriblər və azğınlığa düşmüşlər. Onlar quru və sərt çöldə zərər və ziyan otlamaq üçün buraxılmış dördayaqlılardır! Onların nə qoruyacaq çobanları, nə də otaranları var! Dünya onları korluq və azğınlıq yollarına aparır, onların gözlərini hidayət və nicat nişanələrini görməkdən örtüb. Beləliklə, onlar onun azğınlığında sərgərdandırlar və onun naz-nemətləri içərisində qərq olublar. (Ona vurğunluq və ürək bağlamaları nəticəsində) onu öz rəbbləri ediblər. Bu cür, dünya onlarla oynayır (ağıllarını oğurlayır) və onlar da dünya ilə oynayırlar (başlarını ona qatıblar). Ondan sonra gələcək (ölüm, çətinliklər, qiyamət günü kimi) şeyləri unudublar!

Bir az döz və möhlət ver ki, qaranlıq açılsın. Deyəsən, kəcavələr çatdı (səfərdə olanlar gəldilər)! Tələsənin birləşəcəyi vaxt yaxındadır. (Dünyaya könül verənlər tezliklə, hələ əbədi yerinə çatıb düşərgə salmamış qabaqkı karvana çatacaq və əməllərinin cəzasını alacaqlar).

Oğulcan, bil ki, gecə-gündüz dəvə ilə yol gedən kimsə özü yol getməsə də, miniyi onu aparar. İstirahət və dincəlməkdə olsa da yolu qət edər.

Yəqin bil və inan ki, heç vaxt öz arzuna çata bilməyəcək və heç vaxt ölümündən qurtula bilməyəcəksən. Sən səndən əvvəlkilərin yolundasan. Qazanılan şeydə səy və tələşını gözəlləşdir (həris olma ki, onun axırı həlak və məhv olmaqdır). Çünki çox çalışmaqlar var ki, malın əldən çıxmasına səbəb olur. Hər

çalışan tapmaz və hər ortayollu ümidsiz və məhrum olmaz. Nəfsin səni saysız nemətlərə çatdırsa da, onu bütün alçaqlıq və rəzilliklərdən üstün tut, əzizlə. Çünki nəfsindən sərf etdiyin şeyin müqabilində, onu əvəz edəcək bir şey tapa bilməyəcəksən. Başqasına qul olma. Allah səni azad yaradıb. Pisliklə qazanılan xeyrin harası xeyirdir?! Çətinliklə əldə edilən asanlığın nə xeyri var?!

Tamah və hərislik miniklərinin səni sürətlə həlak suyunun başına aparmasından çəkin. Əgər sənin lə Allah arasında başqa nemət sahibinin olmamasına bacarığın çatsa, et bunu! Çünki sən öz payını tapacaq, hissəni əldə edəcəksən! Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allahdan çatan az (ruzi-mal), Onun yaratdıqlarından gələn çoxdan daha üstün və əzizdir, hərçənd ki, hər şey Ondandır.

Susmağın nəticəsində əldən çıxan şeyi əldə etmək danışmağın nəticəsində əldən çıxan şeyi geri qaytarmaqdan daha asandır. Qabda olan şeyin qorunması onun qapağının bərk bağlanmasından asılıdır. Mənə sənin öz əlində olanı qoruyub saxlamağın başqasının əlində olanı istəməyindən daha xoşdur. Ümidsizliyin acısı başqalarına əl açmaqdan daha yaxşıdır. İffətli və ismətli iş, günah və xəta ilə olan varlılıqdan daha xeyirlidir. İnsan öz sirrini daha yaxşı qoruyur. Çox çalışanlar var ki, çalışdıqları şey onlara ziyan gətirir. Çox danışan hərzəçi olar. (Öz dünya və axirət işləri barəsində) düşünən bəsirətə çatar. Yaxşı işlər görənə qoşul ki, onlardan olasan. Pislərdən ayrıl ki, onlardan olmayasan. Haram nə qədər də pis yeməkdir!

Zülmün ən pisi zəif və acizə zülm etməkdir. Yumşaqlıq və mehribanlığın sərtlik və kobudluq sayıldığı yerdə, sərtlik və kobüdluq yumşaqlıq və mehribanlıqdır. Çox vaxt dərman dərd, dərd isə dərman olar. (bəzən birinə yoxsulluq və xəstəlik məsləhət və xeyir olur, varlılıq və sağlamlıq yox). Çox vaxt öyüd verməsi gözlənilməyən kəs öyüd verər, öyüd verməsi istənilən kimsə isə xəyanət edər. Arzulara dalmaqdan və güvənməkdən çəkin. Çünki arzu axmaqların və ağlı az olanların sərmayəsidir. Ağıl təcrübələri yadda saxlamaq, qorumaqdır. (Ağıllı adam təcrübələri əldən verməz. Ağılsız isə onları tez yaddan çıxardar). Etdiyin ən yaxşı təcrübə sənə öyüd verən təcrübədir. Fürsət olan zaman o şey qəmə çevrilməmişdən qabaq tələs. Hər

axtaran tapmaz və həmçinin hər səfərə gedən geri dönməz. Ziyanlardan biri də azuqəni əldən vermək və axirəti bərbad etməkdir. Hər bir işin sonu var. (Ağıllı o adamdır ki, işin sonunu fikirləşir). Sənin üçün nə təqdir edilibsə, tezliklə sənə çatacaq. (Bu qədər əziyyət çəkmə və öz din və dünyanı bərbad etmə. Mal və sərvət əldə etmək üçün dəniz və çöllükləri qət edən) tacir özünü məhvə və təhlükəyə atır. Nə çox, elə az (mal) var ki, bərəkəti çoxdan daha artıqdır. (İsmətli peşə sahibinin əldə etdiyi şeyin xeyir-bərəkəti həm dünyada, həm də axirətdə günahkar varlının sərvətindən daha üstündür).

Alçaq, xar köməkçidən və (nifaq və ikiüzlülükdə) günahlandırılan dostdan xeyir yoxdur. (Çünki həmin köməkçinin imkanı olsaydı, özünü zillət və xarlıqdan qurtarardı. İkiüzlü dost da ona görə ki, həmin şəxsə inam yoxdur. Çünki o öz xeyrini güdər və dosta ziyan dəyməsi barədə fikirləşməz, qayğılanmaz). Nə qədər ki, zəmanənin cavan miniyi sənə ram olub, onunla asan və yüngül davran. Özünü bir şeyin çoxuna göz dikib təhlükəyə atma. Mindiyin dəvənin itaətsizlik etməsindən çəkin! Özünü qardaşın (dindaş və dostun) səndən ayrılanda ona yaxınlaşmağa, üz döndərəndə mehribanlıq və dostluğa, simiclik edərək əsirgəyəndə ona bəxşiş etməyə, sərtlik edəndə ona qarşı yumşaq olmağa və o, pis iş görəndə üzr istəməyə vadar et. Deyilənləri öz yerindən başqa yerdə işlətməkdən (münafiqlə bu cür davranmaqdan) və ya onları ləyaqətsiz (alçaq) adamlarla münasibət etməkdən çəkin. (Çünki münafiq və ləyaqətsiz adama yaxşılıq etmək şoranlığa toxum səpməkdir). Dostunun düşməni ilə dostluq etmə. Əgər belə etsən, öz dostunla düşmənçilik etmiş olarsan. Öz qardaşına saf öyüd ver, (onun sənin öyüdünə münasibəti) istər yaxşı olsun, istərsə də pis. Qəzəbini qurtum-qurtum ud (özünü cilovla). Çünki mən sonda ondan şirin və dadlı bir içki görmədim. Sənə qarşı qəzəbli və kobud olanla yumşaq davran. Çünki (sənin yumşaqlığın onu utandırar və) tezliklə o sənə qarşı yumşalar. (Müqabil tərəf başa düşən adam olanda belə etmək lazımdır. Başa düşən adam olmasa isə onun qəzəbi müqabilində sərtlik etmək lazımdır). Düşməninlə yaxşı və xoş davran. Bu, iki qələbədən (intiqam olaraq onu cəzasına çatdırmaqdan və ya güzəşt edərək ona yaxşılıq etməyin birin-

dən) daha şirindir. Qardaşınla (dindaş və dostunla) münasibətlərini kəsmək istəyəndə dostluq yerinin bir azını saxla ki, həmin dost nə vaxtsa o dostluq yeri ilə qarşılaşsa ora qayıda bilsin. Sənin haqqında yaxşı və xoş fikirdə olanın zənnini doğrult. (O səni yaxşı bildiyi və səndən yaxşılıq umduğu üçün, xeyri və yaxşı işləri tərk etmək rəva deyil). Aranızdakı dostluğa güvənib – arxalanıb qardaşının haqqını pozma. Haqqını pozduğun kimsə qardaşın deyil. Ailən və qohumların sənə nisbətdə camaatın ən bədbəxti olmamalıdırlar. (Yaxınların bəxşiş və yaxşılıq edilmək baxımından başqalarından daha üstündürlər. Necə deyərlər: "Evə gərək olan çıraq məscidə yaraşmaz"). Səndən uzaq gəzənlə heç vaxt tanışlıq etmə. (Çünki səndən xoşlanmayan adamla tanış olmaq insanın həqir və xar olmasına və özünə zülm etməsinə səbəb olur). Gərək qardaşının (dindaş və dostunun) səndən ayrılmaq bacarığı sənin onunla birləşməyindən və (həmçinin) onun pislik etməsi sənin yaxşılıqlarından üstün olmasın. (Xülasə, o nə qədər ayrılmağa şərait yaratsa da, sən birləşməyə səbəb olan şeyləri önə çək.) Sənə zülm edənin zülmü gözündə böyüməsin. Çünki o öz ziyanına (zalımlar üçün müəyyən edilmiş cəzaya) və sənin xeyrinə (sənin zülm və sitəmə səbr etməyə vəd edilmiş mükafata nail olmağına) çalışır. Səni sevindirənin mükafatı sənin onu qəmləndirməyin deyil!

Oğulcan, bil ki, ruzi iki qisimdir: bir ruzini sən axtarırsın, bir ruzi isə səni axtarır və sən ona tərəf getməsən belə sənə çatar. Ehtiyac və yoxsulluq zamanı özünü alçaltmaq, varlı ikən isə zülm və kobudluq etmək necə də çirkin xasiyyətdir! Sənin dünyadan qazancın yalnız öz yerini (əbədi axirətini) abadlaşdırmağa sərf etdiyin miqdardır. (Bundan başqa sərf etdiyin və ya özündən sonra qoyub getdiyin şeylərin sənə xeyri olmayacaq və onlar əlindən yapışmayacaqlar). Əgər əlindən çıxan şey üçün ah-zar edib inləyirsənsə, onda sənə çatmayan şeylərə görə də ağlayaraq nalə qopar. Artıq baş vermiş şeylərə əsaslanıb, olmayanlara dəlil gətir. (Gördüyün şeylərə baxıb, görmədiyin şeyləri dərk et ki, gözüaçıq və işbilənlərdən olasan.) Çünki işlər (dünyanın işləri) bir-birinə bənzəyir. İncidilərkən əziyyət verməyincə öyüddən faydalanmayanlardan olma. Çünki ağıllı adam ədəb vermək və öyrətməklə öyüdlənər, heyvanlar isə kötək yeməyincə tabe olmazlar. Sənə üz tutan qəm-qüssələri

təmkinli düşüncələr və (Allah-Təalaya olan) gözəl inamla özündən uzaqlaşdır. (Allahın istəyinə tabe ol ki, sənin səadət və xoşbəxtliyin ondadır.) Kim düz və orta yolu tərk etsə, haqdan uzaqlaşıb özünə zülm edir. Dost qohum yerindədir. (Qohumun barəsində riayət etdiyin şeyləri, onun barəsində də etməlisən.) Dost o kəsdir ki, gizlində də düz olsun. (Dostunun hüzurunda etdiklərini o olmayanda da həmin cür etsin. Belə olmasa münafiq və ikiüzlüdür və öz xeyrinə görə özünü dost kimi göstərir.) Nəfsi istəklər korluğa bərabərdir. (Kor bir şey görmədiyi kimi, nəfsi istəklər əsiri də qəlbi kor olduğu üçün yaxşı ilə pisi və öz xeyri ilə ziyanı bir-birindən ayıra bilmir.) Çox uzaq var ki, yaxından da yaxındır və çox yaxın var ki, uzaqdan da uzaqdır. (Çox vaxt yad insana xeyir verər, qohum isə ziyan vurar.) Qərib o adamdır ki, dostu yoxdur. (hətta öz vətənində olsa belə) Haqqı (düz söz və əməli) aşanın yolu daralar. Öz qədir və məqamına uyğun (hərəkət edən) adamın qədr-qiyməti həmişəlik qalar. Əldə edərək yapışmalı olduğun ən möhkəm səbəb və ip sənin lə Allah arasında olandır. (Allahın ipindən yapışan kəs heç kəsə möhtac olmaz.) Sənin barəndə laqeyid olan (xeyrinlə ziyanını bir hesab edən) kəs sənin düşmənindir. Bəzən tamah və hərislik (insanı) fəlakətə sürükləyəndə ümidsizlik əldə etmək olar. (Çox vaxt insan zərər və bədbəxtçiliyinə səbəb olan şeyə tamah salır və həmin şeydən ümidsizləşmək ondan istifadə etmək kimidir.) Hər yırtığı (çirkinlik) açmazlar (açaraq üzə çıxarmağın yaxşı deyil). Hər fürsət ələ düşməz. (Elə isə onu qənimət bil və əldən vermə.) Çox vaxt görən (ağıllı) adam düz yolunda səhvə düşür, kor isə (nadan ağılsız) nicat yolunu tapır. Pisliyi təxirə sal, gecikdir. Çünki istədiyin vaxt ona tərəf tələsə bilərsən. Nadanla əlaqəni kəsmək, ondan ayrılmaq ağıllı ilə münasibət qurmağa bərabərdir. Kim zəmanədən əmin olsa, zəmanə ona xəyanət edər. Kim onu böyük sansa onu zəlil və xar edər. Hər ox atanın oxu hədəfə çatmaz. Hökmdar (onun düşüncə və rəftarı) dəyişəndə, zəmanə (vəziyyət) də dəyişər. Yoldan qabaq yol yoldaşını, evdən qabaq isə qonşunu soruş.

Başqasından nəql etsən belə, gülünc söz danışmaqdan çəkin. (Çünki o, insanın başqalarının yolunda kiçilməsinə səbəb olur.)

Qadınlarla məsləhətləşməkdən çəkin. Çünki onların nəzər və düşüncələri zəifliyə, qərarları isə süstlüyə doğru gedir. Hicab və örtüklə (ora-bura) baxmalarının qarşısını al. (Çölə çıxıb gözlərinin camaata sataşmasına icazə vermə.) Çünki hicabın möhkəmliyi (hicab örtmək və onunla zinətlənmək) onları daha yaxşı qoruyur. (Hər nə qədər hicabla olsalar, pozğunçuluqdan qorunmuş olarlar.) Onların çölə çıxmaları sənin onların yanına (kişi və qadınlığından asılı olmayaraq) inanılmayan və etibar edilməyən adamlar gətirməyindən pis deyil. Əgər bacarsan belə et ki, səndən başqasını tanımasın. Qadını ona aid olmayan işə hakim etmə. Çünki qadın iş buyuruqçusu deyil, güldür (gül kimidir. Buna görə də onu işləri yerinə yetirməkdən saxla). Onu əzizləyəndə ona aid olan şeylərdən kənara çıxma. Onu tamaha salma ki, başqası üçün şəfaət etsin, vasitəçilik etsin. Qısqanclıq edilməməli yerdə qısqanclıq etmək və pis gümana düşməkdən çəkin. (İffətli qadın barəsində pis gümana düşüb, heç nədən özündən çıxma.) Çünki bu iş düz qadını əyriliyə və (nalayiq işlərdən uzaqlıq zinəti ilə) bəzənmiş qadını tərəddüdə və (o barədə) fikirləşməyə vadar edər. Əlin altında olanların və işçilərinin hər biri üçün bir iş müəyyənləşdir ki, (yerinə yetirməsə) həmin işə görə ondan yapışaraq sorğu-suala tuta biləsən. Çünki bu üsul onların sənin işlərini bir-birinin boynuna ata bilməmələri üçün daha münasibdir. Qohumlarına hörmət et, onları əzizlə. Çünki onlar sənin uçan qol-qanadlarındır, əsilköküdürlər ki, onlara qayıdırsan (Onlardan kömək və yardım alırsan və başucalığın onlarladır); sənin (yardımçı) əlindirlər ki, onlarla (düşmənə) hücum edirsən (qələbə qazanırsan).

Sənin din və dünyanı Allah yanında əmanət qoyuram (ki, qorusun və qarşıya çıxacaq hər bir pis hadisədən saxlasın). Ondan sənin üçün indi və gələcəkdə, dünya və axirətdə ən gözəl təqdir və istəyini diləyirəm. Salama layiq kimsəyə salam olsun!

ZƏKAT BARƏSİNDƏ MƏKTUB

Mövla Əlinin (ə) bilavasitə bu işlə məşğul olan məmurlara məktubları da az deyil.

"Heç bir müsəlmanı istəmədiyi halda hürküdüb yanına getmə. Malından, Allahın haqqı olanından artığını alma: birisi yox desə, israr etmə, haqqını verəcək kimsəni tapdığın zaman da onu qorxudub hürkütməkdən, kobud davranmaqdan, müamilə etməkdən çəkin".

"Fəqirlərdən, taqətdən düşmüş, yoxsul, zəif kimsələrdən ortaqların var. Biz sənin haqqına vəfa göstərməkdəyik, sən də onların haqqına vəfalı ol. Əgər bunu etməsən, insanların çox qismi Qiyamət günündə düşmənin olar. Fəqirlər, miskinlər, borclular, haqqını istəyən yoxsullar və yolda qalanların düşməni olan kimsənin əzabı Allah yanıında nə qədər şiddətlidir…"

Mövla Əli (ə) son dərəcədə kövrək idi. Yalnız insanlara deyil, dilsiz heyvanlara belə riqqətli münasibətində bu kövrəklik özünü göstərirdi. Onun zəkat məsələsi ilə bağlı valilərinə göndərdiyi məktublarından birinə diqqət edək: **"…Malı toplayan məmuruna dəvəni – yavrusundan ayırmamasını, südünü tamah edərək almamasını, çünki bu, yavruya zərər verər, minərək yormamasını, südlərini sağarkən adil davranmasını, yürüməkdən əzab çəkən heyvanları yavaş sürməsini tənbeh et. Suya rastlaşınca sulasın, otlağı bol olan yerdən götürməsin".**

Adi şəraitdə, adi iş adamının belə təsərrüfat qayğısına qalması, əlbəttə, adi bir haldır və burada fövqəladəlik axtarmaq da gülünc görünə bilər. Fövqəladəlik birinci İmamın – Əlinin (ə) düşmənlərinin sağdan da, soldan da ona meydan sulayıb hakimiyyəti ələ keçirmək naminə törətdikləri müharibə və qırğınlar şəraitində belə Əli tamlığı (ə), Əli (ə) bütövlüyündə, onun öz həssas, kövrək **"mən"**inin İlahi kamilliyinə sadiq qalmasındadır. Bəli, o, çox çətin, şərəfli yol keçmişdi, həyatı boyu İslamın müxalifləri ilə vuruşmuş, İslam bayrağını ucalardan uca tutmuşdu. Əfsus, son vuruşlar əvvəlkilərin təkrarı deyildi. Son vuruşlar qardaşın qardaşla müharibəsi idi. Bu vuruş onu sarsıtmaya bilməzdi. Lakin o, hadisələrin gedişatından sarsılsa da, öz vüqarını itirmədi, bir tərəfdən bədxahlarına qarşı haqq döyüşünə girişdi, o biri tərəfdən xilafətin, onun vilayət və əyalətlərinin dirçəlişi üçün cizgilər, məramnamələr hazırlayıb, ümmətin sərəncamına verdi.

İMANIN VƏ KÜFRÜN ŞÖBƏLƏRİ HAQQINDA DEYİLƏN XÜTBƏ

Allah-Təala başladığı hər nəyi və hər şeyi özü üçün bəyənmək istədi. Sevdiyi hər bir şeyi öz Xaliqliyi üçün ixtisas seçdi. Sevdiyi şeylərdən biri də imandır ki, onu bəyəndi və öz adından (mömünün adından, yəni aman verən) ayırdı. İmana tərəf qədəm atan hər xalqın yollarını asan elədi. İman pillələrini möhkəm və uca etdi. İmanı istəyənlərə izzət, imana daxil olanlar üçün aman qalası qərar verdi. İmanı yol gedənlərə göstərici, asudəçilik istəyənlərə bəzən dindarlar üçün inam, pənah aparanlar üçün pənahgah, Allahla əlaqə bağlayanlara qırılmaz ip, söhbət edənlər üçün dəlil, ariflər üçün şərəf, danışanlar üçün hikmət, işıq sevənlər üçün nur, düşmənçilik edənlər üçün dəlil, dəlalət edənlər üçün qələbə, elm üçün yaddaş, ravilər (rəvayət edənlər) üçün hədis, qazilər üçün hökm, hədis danışanlar üçün helm, sonunu fikirləşənlər üçün ağıl, dərin fikirlilər üçün fəhm, ağıllılar üçün yəqin, məqsəd sahibləri üçün görkəmlik, iti fikirlilər üçün nişanə, nəsihət əhli üçün ibrət, mömünlər üçün nicat, layiqli adamlar üçün Allah dostluğu, ehtiyatlı adamlar üçün məqam və ucalıq, təvəkkül edənlər üçün söykənəcək, Allaha söykənənlər üçün asudəlik, yaxşı adamlar üçün nişanə, səbr edənlər üçün qalxan, pəhrizkarlar üçün libas, yüksələnlər üçün paklıq, müsəlmanlar üçün əmniyyət və doğru danışanlar üçün ruh olaraq buyurdu.

İman haqqın kökü, hidayət yolunun işığı, böyüklüyü iftixar, sifəti isə yaxşılıq etməkdir. İmanın işıqlı yolu, əhatəedici işığı və uca hədəfi vardır. Bu meydanda müsabiqə üçün hazırlıq asandır. Atları hazır, mükafatları qiymətli, oturacaqları rahat, suvariləri isə böyük şəxsiyyətlərdir.

İmanın yol göstəriciləri: Saleh əməllər, çıraq və iffət.
Ölüm: Nəhayət
Hazırlıq mərkəzi: Dünya
Meydan: Qiyamət
Caizə (mükafat): Behişt.
Uduzanların cəzası: Cəhənnəm
Vəsaiti: Pəhrizkarlıq,
Atlıları: Yaxşı iş görənlər.

İman ilə layiqli işlər görmək olar. Layiqli işlərlə də dini və dünyanı abad etmək mümkündür. Dindarlıq ölümdən qorxmaq üçün səbəbdir. Ölüm dünyanın sonu, axirət aləminə keçiddir.

Dünya axirətlə üzbəüz dayanıb. Qiyamət Behiştin keçididir. Behişt Cəhənnəm əhli üçün həsrətdir...

Pəhrizkarlıq elə bir hədəfdir ki, hər kəs ardınca gedsə, nicat tapar. Hər kəs ona əməl etsə, peşman olmaz. Ziyankarlar isə günahla ziyan görərlər.

İmanın 4 pilləsi var: Səbr, yəqin, ədalət və cihad.

Səbrin də ayrılıqda 4 şöbəsi var. Behiştə müjdə, Allah əzabından qorxmaq, dünyadan əlaqəni kəsmək, ölümə və yaşayışın sonuna hazır olmaq.

Hər kəsin Behiştə meyli varsa, dünya ləzzətlərindən gözün çəksin.

Hər kəs əzab odundan (Cəhənnəmdən) qorxursa, haramdan əl çəksin. Hər kəs dünyadan ürəyini çəksə, sanki müsibətlər onun üçün asan olar. Hər kəsin axirət aləminə gözü olsa, xeyir işlərə tələsər.

Yəqin üçün də 4 şöbə var: Bəsirət, hikmətin dəqiqliyinə diqqətli olmaq, ibrət götürmək və öndə gedənlərə nümunə. Hər kəsin bəsirət gözü varsa, hikmətin dəqiqliyini tanıyar. Hər kəs hikmətin dəqiqliyinə diqqət yetirərsə ibrətin səbəblərini tanıyar. Hər kəs ibrətləri ayıra bilsə, doğru yolu tapacaq. Hər kəs ki, yaxşı işləri fəhm etsə, sanki bütün millət və xalqlarla bir yerdədir və onların sərgüzəştlərini yaxından görür.

Ədalət də öz növbəsində 4 şöbədən ibarətdir: Dərin düşüncə, dərin elm, hikmət çiçəyi və helm bağı. Hər kəs fəhm etsə, bütün elmləri açar. Hər kəs ki, hikməti tanısa, yolunu itirməz. Hər kəsin elmi olsa, işdə tənbəllik etməz və xalq arasında bəyənilər.

Cihad da 4 şöbədir: Əmr bə-məruf (tanıdığın adamı düz yola çəkmək), nəhy əz-munkər (pis yoldan çəkindirmək), müqavimət göstərmək (şeytana – nəfsə) və fasiqlərlə düşmənçilik etmək.

Hər kəs əmr bə-məruf etsə, mömünlərə qüvvət verər. Hər kəs nəhy əz-munkər etsə kafirləri əsəbləşdirər. Hər kəs şeytana müqavimət göstərsə, öz vəzifəsini yerinə yetirər. Hər kəs fasiqlərlə düşmənçilik etsə, Allaha görə qəzəblənər və hər kəs Allaha görə qəzəblənsə, Allah da onun üçün (düşmənlərinə) qəzəblənər, yəni

onun qəzəbinə kömək edər. Budur imanın həqiqəti və onun şöbələrinin dayağı.

Küfrün də 4 sütunu var: Fisq, quluvv (yüksəlmək arzusunda olmaq) şəkk və şübhə.

Fisqin də özünün 4 şöbəsi var: Cəfa, ürəyin korluğu, qəflət, dikbaşlıq.

Cəfa mömünlərin işini təhqir edib alçaldar, ruhaniləri əsəbləşdirər və günaha sövq edər. Ürək körluğu batini unudar, Allah və Peyğəmbərin (s) zikrini yaddan çıxararaq tündxasiyyət edər, Allah ilə vuruşar, şeytan həmişə onunla olar, özündən xəbərsiz cinayət işlədərək məğlub olar.

Yolunu azmağı haqlı bilər, arzular onu aldadar, artıq iş-işdən keçib pərdələr açılandan sonra inanmadığı əzabverəni Allah-Təala ona aşkar edər. Hər kəs həsrət şəkib şəkkə düşsə, Allah ona qəhərlə əzab verər, öz qüdrəti ilə onu susdurar və cəlalı ilə onu kiçildər. Belələri heç zaman xatırlamaz ki, həyatda çoxlu günah və təqsirləri ola-ola Allah-Təala onlara möhlət vermişdi.

Quluvvun da (yüksəlmək arzusunda olmaq) 4 şöbəsi var: Təəmmuğ - yəni vas-vasılıq, niza (ziddiyyət), kəcrəvi (tərslik), şiqac (təfriqəçilik).

Hər kəs təəmmuğ etsə, həqqə çatmaz. Heyran və sərgərdan qalmaqdan başqa, əli bir yerə çatmaz. Bir fitnə yatmamış o biri fitnəni qaldırar. Hər kəs ki, düşmənçilik toxumunu səpsə, həmişə süst və zəif olar, işləri bir-birinin ardınca puç olar. Hər kəs gəcrəvilik etsə, yaxşını pis görər, pisi yaxşı hesab edər. Hər kəs nifaq salsa, çarə yollarını üzünə bağlayar və işləri müşkül olar.

Şəkkin də 4 şöbəsi var: Mübahisə etmək, çətinliklərdən qorxmaq, iki ürəkli və tez təslim olmaq.

Mübahisə edən adamın Allah nemətlərindən əli üzülər. Çətinliklərdən qorxan tez geri çəkilər, iki ürəkli adam sanki yerində sayar, hətta geridə qalanlar belə gəlib ona çatar. Dünya və axirət çətinliklərinin həlli yolunu tapa bilməyən və tez təslim olan, hər iki aləmdə həlak olar.

Nifaqın da 4 sütunu var: Havapərəst (özünü sevmək), səhlənkarlıq, qəzəb və tamah.

Havapərəstliyin də 4 şöbəsi var: Sitəm və zülm etmək, təcavüz, şəhvət və günah.

Hər kəs sitəm etsə, çoxlu zərbələr görəcək, tək qalar düşmənləri onun ziddinə hərəkət edər.

Hər kəs təcavüz etsə, işin aqibətindən salamat qurtarmaz (ürəyi xəstə olar).

Hər kəs şəhvətlərə aludə olsa, həsrət girdabında üzəcək.

Hər kəs günahı özünə peşə seçsə, bilərəkdən yol itirmiş olar.

Səhlənkarlığın şöbələrinə isə qorxu, qürur, süründürməçilik və arzu daxildir.

Qorxu insanı həqdən döndərər. Qürurlu olmaq axirətin müqəssirçiliyinə gətirib çıxarar.

Süründürməçilik kor-korana hərəkətə səbəb olar. Arzu insanın gözlərini gələcəyə dikər və ona imkan verməz ki, keçmişə və bu gününə nəzər salsın.

Qəzəbin şöbəsi: təkəbbür, fəxr, hamiyyət (qeyrət çəkən) və əsəbilik. Hər kəs təkəbbürlü olsa, qabağa getmək əvəzinə geri qalar. Hər kəs fəxr etsə, puç olar. Hər kəs hamiyyətə düçar olsa, çətinlik çəkər və səhv etməkdən əl çəkməz. Hər kəs əsəbi olsa zülm edər.

Tamahın da 4 şöbəsi var: Şadlıq, naz, təbəxtar-ləğbazi və təkəbbür. Çox şadlıq etmək Allah yanında bəyənilməmiş sifətdir. Qurani-Kərimdə buyurulub: **"Allah fəxr edənləri sevmir".**

Təkəbbürlü adam yaxşı ilə pis arasında oyun-oynayan məşğuliyyətçidir. O özü ilə məşğuldur, heç kəsdən və heç yerdən xəbəri olmaz. Bəli, budur nifaqın şöbələri.

Allah-Təala bəndələrinə qəhr edəndir, qüdrəti kamildir, qüvvəsi möhkəmdir, bərəkəti artıqdır, hikməti aydındır, dəlilləri məğlub olunmazdır, dini xalisdir, özü haqdır, yaxşılıqları əzablarından çoxdur, müqəddəmdir, nəsibi pakdır, surəti – töhid Allahın nəcibliyinə dəlalət edir. Mizanı ədalətdir, göndərdikləri peyğəmbərlər onu təbliğ edirlər, qoruyucuları hazırdır, pis işləri günah adlandırır, günahı fitnə, fitnəni də aludəçilik. Yaxşılıqları qənimət, razılığını tövbə, tövbəni də pakedici amil bilmişdir.

Hər kəs tövbə etsə, yolunu tapar. Hər kəs fitnəyə qoşuldusa, yolu itirər. Ancaq günahını etiraf edib Allah tərəfinə qayıtsa nicat tapar və Allahın vədələrini görəcək. İnsan müqəssir olmayınca bəlaya layiq görülməz. Tam müqəssirçilikdən sonra fəlakətə yetişər.

Allah! Allah! Nə qədər gözəldir tövbə etmək, Allahın rəhmətilə müjdələnmək. Hər kəs Allahın itaətinə müvəffəq olsa, onun kəramətini görəcək. Əks təqdirdə hər kəs ardıcıl günah etsə, onun əzabını dadacaq.

O CƏNABIN KUMEYL İBN ZİYADLA SÖHBƏTİ

Kumeyl, bu ürəklər qabdır, elə qab ki, hər şeydən artıq dərəcədə qoruyandır. Nə deyirəmsə yadında saxla. Camaat üç dəstədir: Allahpərəst-alim, elm və nicat yolunu öyrənən tələbə və axmaqlar ki, qoyun sifətdirlər. Hər səsin ardınca qaçarlar. Milçək kimi hər küləklə uçarlar. Nə elmin nurundan işıqlanarlar ki, öz yollarını tanısınlar, nə də xatircəm bir səngərə pənah apararlar ki, nicat tapsınlar.

Kumeyl, elm maldan artıqdır. Elm səni qoruyandır, malı isə sən qoruyursan. Malı paylayarsan əskilər, elmi paylamaqla artar. Elm hakimdir, mal isə məhkum. Elm ilə malı mühakimə edərlər.

Kumeyl, alimlərlə dostluq bir dindir ki, onun müqabilində mükafat verərlər. Həyatda itaət kəsbinin vasitəsi və ölümdən sonra gözəl addır. Mal elə ki, əldən getdi, mənfəəti də onun ardınca gedər. Ömrü boyu sərvət toplayanlar özləri də ölüdürlər. Halbu ki, alimlər nə qədər dünya var diridirlər. Cüssələri nəzərlərdən pünhan, işləri isə ürəklərdə sabitdir. Sonra əlini mübarək sinəsinə işarə edib buyurdular: xəbərdar ol ki, bura elm ilə doludur. Amma əfsus ki, onun üçün bir xəzinədar tapa bilmirəm. Bəli, iti düşüncəli adamlar var, lakin nə faydası əmin deyillər. Dinin ayətlərini dünya yolunda işlədirlər. Allahın dəlilləri ilə Allahın dostlarının davasına gedirlər. Nemətləri günaha sərf edirlər. Və ya başqa bir dəstə haqq əhllərinə təslimdirlər, amma dəqiq dünya görüşləri yoxdur. Azacıq şübhə ilə şəkkə düşürlər. Bu iki dəstənin heç biri elm öyrənmək səlahiyyəti və ləyaqəti yoxdur. Və ya üçüncü dəstə ki, ləzzət əsirləridirlər, şəhvət dalınca gedirlər. Dördüncü dəstə ki, ürəkləri mal-dövlətdir və sərvət toplamaq fikirlərindədirlər. Bu iki dəstə də nə din qoruyucularıdırlar, nə də yəqin əhiləri. Hər şeydən artıq bunlara qalan otlayan dörd ayaqlılardır. Bəli, belə elmi yükləyib ölümə aparırlar. Amma belə deyil ki, elm və alim bütünlüklə məhv olsun. Həyat üzü heç vaxt Allahın höccətlərindən boş olmaz. İstər aşikar və məşhur ola, ya qorxulu və üstü örtülü. Allahın höccətləri aradan getməz və kitab daşıyanları üzülməz. Bunlar hardadırlar? Bu dəstələrin sayı az və məqamları böyükdür. Allah-Təala onların əli ilə öz höccətlərini qoruyandır, ta gələcək nəsillərə də onların misalını çatdıracaq. Elmin bəhrəsini onların qəlbində yetişdirəcək. Elm bu dəstələri iman həqiqətlərinə çatdırar, ruh yəqinliyini tapacaq və bunlardan o şeylər ki, ləzzətpərəst əyyaşlar

nahamar və çətin bilərlər, onlar asan deyillər. Mömin odur ki, hər nə biz deyirik, o da desin. Hər kəs zidd olsa, bizdən dala qalıb. Hər kəs bizimlə olmasa, Cəhənnəmin aşağı təbəqəsindədir.

Kumeyl, hər kəsin sinəsində dərd varsa, sinəsindən xəlt ağzına gələr (hər kəsin ürəyində sirri varsa, onu sözdə dilinə gətirər). Elə ki, bir adam bir mətləbi bizdən sənin üçün danışa və xahiş edə ki, gizli saxla, heç vaxt onu faş etmə ki, bu günahın tövbəsi yoxdur. Əgər tövbəsi yoxdur, deməli od töməsidir (yəni odda yanacaq).

Kumeyl, Mühəmməd (s) və övladlarının sirrini faş etmək tövbə qəbul etmir. Əgər biri dözməsə, sənə desə, sən də mömün olmayan şəxsə danışma.

Kumeyl, hər çətinlikdə Allahı köməyə çağır, qoy Allah sənə kömək olsun. Hər nemətə şükr elə ki, artsın. Elə ki, ruzin gec çatdı, istiğfar elə, qoy Allah ruzini artırsın.

Kumeyl, bizi sevməklə malını və övladlarını şeytanın şərikliyindən qoru.

Kumeyl, vacibi namazı tərk etməyə icazə yoxdur. Nafilə (müstəhəbbi) namazların qılınmasına da çətinlik yoxdur.

Kumeyl, sənin günahların yaxşılıqlardan, bilmədiyin bildiyindən çoxdur. O nemətləri ki, Allah sənə verib, əməllərinə görə çoxdur.

Kumeyl, sən Allahın nemət və bəxşişlərindən bəhrəsiz deyilsən. Heç vaxt Allaha zikr və şükr etməyi unutma.

Kumeyl, o adamlardan olma ki, Quranda Allah onların haqqında buyurub: ***"Allahı yaddan çıxartdılar, Allah da Özünü onların yadından çıxartdı. Onları fasiq hesab elədi və onlar həqqə fasiqdirlər".*** (**"əl-Həşr"** surəsi, 20-ci ayə).

Kumeyl, namaz qılmaq, oruc tutmaq və sədəqə vermək şən deyil, şən odur ki, təmiz qəlbə və Allah bəyənən kamil əməllə namaza durasan. Bax gör, harada və nəyin üstündə durmusan. Əgər durduğun yer və fərş halal və layiq deyilsə, etdiyin ibadətlər qəbul olunmaz.

Kumeyl, dil ürəkdən qidalanar, ürək yediyin xörəklərdən qüvvə alar. Bax, gör ürəyə və bədənə necə qüvvə verirsən. Əgər halal olmasa Allaha etdiyin təsbeh və şükrlər də qəbul olunmaz.

Kumeyl, anla və bil ki, biz heç kəsə icazə vermərik xalqın əmanətinə xəyanət etsinlər. Hər kəs bu barədə məndən icazəli bir şey danışsa belə, hədər deyib və günah edib, Cəhənnəm odunda

yanmağa layiqdir. Mən and içirəm ki, Peyğəmbər (ə) ölümdən bir saat əvvəl üç dəfə buyurdu: **"Ey Əbülhəsən (Əlinin adıdır) əmanəti sahiblərinə qaytar yaxşı adam ola ya pis adam ola. Əmanət kiçik ola, ya böyük ola, hətta iynə və sap da olsa".**

Kumeyl, cihad ədaləti hakimin hökümündən başqa rəva deyil, qənimət də fəzilətli hakimin əli ilə halaldır.

Kumeyl, əgər Peyğəmbər (s) xalqın arasında olmaya, yer üzündə pəhrizkar mömünlər ola və istəyərlər xalqı Allaha tərəf dəvət etsinlər (Peyğəmbərin vəzifələrini ifa etmək istəsələr) bu əməldə ya səhv edərlər, ya düz. And olsun Allaha səhv edərlər. O zaman səhv etməzlər ki, Allah onları layiq bilə və məqam sahibi edə.

Kumeyl, din Allah tərəfindəndir və onun rəhbərliyi heç kəsdən bəyənilməyib, ancaq Rəsul, ya Nəbi, ya da Vəsiy (Rəsul 313 Peyğəmbərlərə deyilir, Nəbi-yerdə qalanlara, Vəsiy 313 nəfərin davamçılarına deyilir) olalar.

Kumeyl, Allah Kərim, Həlim, rəhm edən və əzəmət sahibidir. Bu əxlaqı bizə tanıtdırıb və bizə göstəriş verib ki, biz də o cür olaq və camaata bildirək. Biz ixtilafsız bu əmanətləri qəbul edib icra etdik, inkar etmədən təsdiq etdik.

Kumeyl, Allaha and osun, mən çox da mail deyiləm insanlar mənə itaət etsinlər və çox da arzu etmirəm ki, mənim göstərişlərimə müxalif çıxmasınlar. Mən Əmirəlmöminənəm deyibən məni o adla çağırsınlar və mənə layiq xörəklər bişirsinlər.

Kumeyl, onlar (dünyapərəstlər) fani dünyanın bəhrələrinə nail oldular. Biz isə həmişəlik axirətə çatdıq, necə ki, hamımız axirətə tərəf gedirik və Allahın razılığı ilə yaratdığı behiştin ali dərəcələrinə yetişəcəyik. O behişt ki, Allah pərhizkarlara bəxş edəcək.

Kumeyl, o adama ki, behiştdə yer yoxdur, ona dərdverici cəhənnəmlə müjdə ver.

Kumeyl, mən həmişə Allahın tofiqinə şükr edənəm, indi əgər istəsən durub gedə bilərsən. Hələlik kafidir.

Sonrakı görüşlərdə əlavə edərək buyurdu:

Kumeyl, bərəkət o kəsin malındandır ki, zəkat verə. Mömünlər ilə qardaşlıq, qohumlarla bir ola.

Kumeyl, qohumlarına iman ilə biganələrdən artıq hissə ver, onlarla mehriban ol. Binəvalara təsədduq (sədəqə) elə.

Kumeyl, saili məhrum etmə, əgər para üzüm ya xurma da olsa, sədəqə Allah yanında artar.

Kumeyl, mömünün gözəlliyi təvazökarlığıdır. Onün camalı iffətidir, şərəfi dini anlamağıdır. İzzəti qeylü-qaldan özünü qorumağıdır.

Kumeyl, hər sinifdən bir dəstə şərəflidir. Heç vaxt xəsislərlə lap söhbət etmək də olsa, oturub-durma. Onlarla ol, onlardan olma. Allah Quranda buyurub: ***"Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlmədiklərini dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər".*** (**"əl-Furqan"** surəsi, 63-cü ayə)

Kumeyl, zülm edənlərin qapısını döymə, heç vaxt onlarla kəsbkarlıq-şəriklik etmə. Onlara ehtiram edib təzim etməkdən qorun və bacarsan onların məclisinə getmə. Bu dediyim işlər Allahı qəzəbləndirər. Əgər məcburən onların məclisində olsan, Allaha pənah apar və Ona təvəkkül et. Onların şərindən Allaha sığın, başını aşağı sal, cinayətkarların üzünə baxma, ürəyində onların etdikləri ilə razılaşma. Aşikara necə ki, eşidərlər Allahı əzəmətlə yad elə. **"Allahu-Əkbər"** de, bəlkə bu yolla onların şərindən nicat tapasan.

Kumeyl, sevimli itaət Allahı iğrar edəndən sonra vilayətdir, yəni tovhid, nubuvvət və imamət, iffət, pəhrizkarlıq və səbr etməkdir.

Kumeyl, yoxsulluğunu izhar etmə, izzətnəfsli ol. Pərdə arxasında Allaha görə səbr elə.

Kumeyl, öz sirrini qardaşına açmaqdan qorxma, amma bil ki, qardaşın kimdir? Qardaşın o adamdır ki, çətinliklərdə səni atıb qaçmaya, qanbaha vermək boynuna gəlsə, o zaman özünü kənara çəkməyə, ehtiyacını ona bildirmədən özü sənin ehtiyacını təmin edə və səni naçarlıqda qoymaya. Əgər qardaşın dövlətlidirsə, onu yoxsullara kömək etməkdə islah elə. Budur qardaşlıq.

Kumeyl, mömün mömünün güzgüsüdür, necə ki, insan eybini güzgüdə görür, onun vücuduna baxır, ehtiyacını ödəyir və halını yaxşılaşdırır.

Kumeyl, mömünlər qardaşdırlar, heç kəs bir şeyi qardaşından əsirgəməz.

Kumeyl, əgər qardaşını sevirsənsə, deməli, onun etdiklərini sən də et. (oruc tutmaq, gecə oyaq qalmaq, mal və can fəda etmək kimi) O şeylər ki, nadanlar ondan qorxurlar (təklik, gecənin qaranlığı, əlin

boşluğu, qəriblik və s.), mömünlər onlardan qorxmazlar, çünki həmmunisdirlər. Dünyada bədənləri ilə ibadət edərlər, ruhları isə mələkuti-əlayə bağlanar.

Kumeyl, bunlar Allah ilə xəlq arasında əmindirlər, yer üzünün xəlifələri, şəhərlərində çıraq, dinləri üçün dəvət etməyə çox müştağdırlar.

Kumeyl, Allahdan özüm üçün və sənin üçün (bunları oxuyub dinləyənlər üçün) bağışlanmağımızı istəyirəm.

Kumeyl, hər şey üçün Allahın adını dilinə cari elə və de: **"La hövlə vəla qüvvətə illah və billah".** Allaha təvəkkül et. Bizi yada sal, bizim adımızı çək və bizə salam göndər. Öz varlığını necə qoruya bilirsən qoru ki, o günün şərindən amanda olasan.

Kumeyl, Allah Peyğəmbərə (s), Peyğəmbər (s) də mənə ədəb öyrətdi. Mən də öz növbəmdə camaata və möminlərə təlim-tərbiyə qaydalarını öyrətməkdə kömək etməyə söz vermişəm.

Kumeyl, elə bir elm yoxdur ki, mən onu başlamayım. Və elə bir sirr yoxdur ki, **"Qaim"** (on ikinci imam) onu axıra çatdırmasın.

Kumeyl, Peyğəmbər (s) əhli-beytinin silsiləsi bir nəsildirlər ki, hamı bir-birindən Allah tanıyan və bilicidirlər. Qurandan iqtibas olunub Həzrət İbrahimin (ə) nəslinin paklığı kimidir.

Kumeyl, elmi, ədəbi bizdən öyrən ki, bizdən olasan. Başqalarından öyrənmə. (o adamlardan öyrənmə ki, adlarına əlim deyirlər, quyudan başqa bir yol tanımırlar).

Kumeyl, mərifət yolundan başqa ehtiyaclı və qiymətli yol yoxdur.

Kumeyl, xörək yeyəndə Allahın adı ki, heç bir dərdə ziyan yetirməz və hər pislik üçün dərmandır, dilinə gətir.

Kumeyl, öz xörəyini başqası ilə ye və paxıllıq etmə. Sən bir şəxsə ruzu vermisənsə (qonaq öz ruzisini yeyər) ona görə, Allah sənə çoxlu mükafat verəcək. Süfrə başında xoşrəftar ol. Sənin oturanı darıxdırma! Xidmətçini incitmə və onun üstünə qışqırma.

Kumeyl, xörəyi aram ilə ye. Qoy sənin yoldaşın da doysun və digər qonaqlar da istifadə etsin.

Kumeyl, yeməkdən sonra Allaha təşəkkür və uca səslə şükr elə. Qoy başqaları da şükr eləsin, sənin muzdun artıq olar.

Kumeyl, mədəni yeməklə doldurma, su və nəfəs üçün yer saxla. Nə qədər ki, iştaha var əlini çək ki, yediyin nuş olsun. Bədənin salamatlığı az yeməkdə və az su içməkdədir. Vəssəlam…

MÖVLA ƏLİNİN (Ə) DİBAĞ ADI İLƏ TANINMIŞ XÜTBƏSİ

Allaha şükürlər olsun ki, məxluqatı yaradan, sübhü açandır! Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur, yeganədir, şəriki yoxdur, Mühəmməd (ona və övladlarına salam olsun) onun elçisidir.

Ey Allahın bəndələri, Allah dərgahına yaxınlaşmağın ən gözəl yolu Allaha və onun Peyğəmbərlərinə iman gətirməkdir. O şeylərə ki, Peyğəmbərlər Allah tərəfindən vəhy gətiriblər. Allah yolunda cihad etmək İslamın ən uca qalasıdır. **"La ilahə illəllah"** kəlməsi insanın namazı bərpa etmək ayinidir. Maldan zəkat vermək vacibdir.

Ramazan ayında oruc tutmaq cəhənnəm odundan qorunmaq üçün möhkəm hasardır.

Həcc və ümrə ziyarətini etmək yoxsulluğu aradan götürən, günahı yuyan və behiştə getməyə səbəb olan vasitədir.

Yaxın və uzaq qohumları yoxlamaq dövləti artırar, ömrü uzadar.

Gizli sədəqə vermək səhvləri örtər, Allahın qəzəb odunu söndürər. Aşkar sədəqə vermək pis ölümün qarşısını alar, həmçinin yaxşı işlər pis hərəkətlərin qoruyucusudur.

Allahı çox yad edin. Allahı çox yada salmaq insanı xalq arasında nifaq salmaqdan saxlayar. Allah pəhrizkarlara verdiyi vədəsinə xilaf çıxmaz.

Peyğəmbərin həyat tərzindən ibrət götürün, onun adətlərinə əməl edin ki, onlar ən gözəl adətlərdir. Allahın Quranını öyrənin ki, ən gözəl danışıq və yaxşı nəsihətdir. Quranı dərk edin. O insan qəlbinə həyat bəxş edən bahar nəfəsi kimidir.

Quranın nurundan dərman kimi istifadə edin ki, insanın sinəsinə şəfa verəndir. Quranı yaxşı və gözəl avazla oxuyun ki, onu dinləyənin qəlbinə nüfuz etsin. Necə ki, Allah Quranda buyurub:

"Zaman ki, sizin üçün Quran oxundu qulaq asın və sakit olun ki, Allahın rəhmətinə yetişəsiniz". (**"əl-Əraf"** surəsi, 204-cü ayə)

Quran elmini öyrəndiniz, ona əməl edin ki, nicat tapasınız. Allahın bəndələri! Bilin ki, əməlsiz alim sərgərdan gəzən nadan kimidir ki, nadanlıq huşsuzluğundan ayılmır.

Ey Allah bəndələri! Batil xəyallara ürəkdə yol verməyin ki, şəkkə düşərsiz və şəkk etməyin ki, din işlərinizi yüngülləşdirərsiz. Öz işinizdən ötrü şəriətə yol açmayın, şəriətin başına papaq qoymayın

ki, münafiq olarsız. Şəriət qaydalarına çarə tapmaq, axmaq yol axtarmaq insanı fəlakətə gətirər.

Pəhrizkarlıq və Allahdan qorxmaq aqibəti fikirləşmək deməkdir. Allaha qürur (məğrur olmaq) etməmək ismətdir.

Ey Allah bəndələri! O adamın ki, öz halına ürəyi yanır Allaha hamısından çox itaət edər. O adam ki, özü üçün bədxahdır hamısından çox Allaha günah edəndir. Hər kəs Allaha itaət etsə onun amanında olar.

Allahdan yəqinlik istəyin. Yəqinlik dinin baş hissəsidir və Ondan bağışlanmağınızı istəyin ki, ən yüksək nemət bəlalardan azad olmaqdır.

Allahdan tofiq istəyin, dünya və axirət üçün onu qənimət bilin. O, çox möhkəm bir sütundur. Qəlbin aramlığı üçün ən gözəl sifət yəqinlikdir və yəqinliyin gözəl nümunəsi pəhrizkarlıqdır. İşin gözəlliyi qabaqcadan düşünülməsindədir. İşlərin ən pisi lüzumsuz yenilik gətirilməkdədir ki, dində hər bir belə yenilik etmək bidətdir və hər bir bidət də yolu itirməkdir. Çox qüdrətlər var ki, gözəl adətlərimizi pozub viran edib. Uduzan o adamdır ki, dinində aldanıb. Xoşbəxt o adamdır ki, başqasının başına gələn bəlalardan ibrət götürsün və bədbəxt o adamdır ki, nəfsinin həvəsləri onu aldatsın.

Ey Allah bəndələri! Bilin ki, azacıq da riya Allaha şərik qərar vermək kimidir. Əməldə xalislik yəqinlikdir. Nəfsə tabe olmaq isə insanı cəhənnəmə çəkər. Həvəslərin ardınca gedən adamlarla oturub-durmaq Quran hökmlərini sənin yadından çıxardar. Şeytanın felini artırar ki, kafirliyə doğru gətirər. Günahkarların əməli Allahın qəzəbinə bais olduğu kimi Allahın qəzəbi də cəhənnəm oduna baisdir.

Qadınlarla çox oturub-durmaq qəlbi öldürər. Naməhrəmlərin ardınca çox göz gəzdirmək şeytan torudur, ondan qorunun.

Padşahlarla ehtiyatsızlıq etmək qığılcım kimi yandırıcıdır.

Doğru danışın, Allah doğru danışanları sevir.

Yalandan çəkinin ki, yalan danışmaq imandan uzaqdır.

Həqq danışın ki, həqq danışan kimi tanınasınız.

Əmanətləri sahiblərinə qaytarın.

Sizdən uzaqlaşan qohumlarla ünsiyyət yaradın, o adamlardan ki, sizi məhrum ediblər yaxşı əməllərinizlə – ehsan etməklə birləşin.

Əhdi-peymanda vəfadar olun.

Qəzavətdə (mühakimə edəndə) ədalətli olun.

Elə ki, zülm gördünüz səbr edin. Sizə bir pislik etsələr, onu bağışlayın. Necə ki, insan özü də onu bağışlamalarını sevir. Aranızda bir-birinizə hörmətsizlik etməyin. Çox zarafat etməyin. Birini digərinə acıqlandırmayın, böyüklük göstərin, bir-birinizdən qeybət etməyin. Sevərsinizmi, ölü qardaşınızın ətini qopardıb yeyəsiniz?

Həsəd aparmayın, həsəd imanı yeyər, necə ki, od odunu yandırıb yeyir.

Bir-birinizlə düşmənçilik etməyin. Bu sizin dünyanızı və axirətinizi puç edər. Hamıya salam edin və salamın cavabını tam qaytarın.

Dul qadınlara və yetim uşaqlara rəhm edin. Əlsiz-ayaqsızlara, məzlumlara, sitəm olunanlara, yolda qalanlara, saillərə kömək edin. Məzlumlara arxa olun. Allahın vacib bildiklərini icra edin. Allah yolunda çalışın, cihad edin. Qonaqlara yüksək səmimiyyət göstərin. Beş vaxt namazı vaxtında qılın. Hər kim belə etsə, Allah yanında ucalar.

Namazın nafilələrini tərk etməyin. Hər kəs Allaha görə yaxşı iş görsə, onun üçün yüksək qazancdır.

"…Hər kəs (vacibdən əlavə) könüllü olaraq yaxşı bir iş görərsə, Allah (onun etdiyi yaxşı işdən) razı qalandır (əvəzini verəndir), (onu) biləndir". (**"əl-Bəqərə"** surəsi, 158-ci ayə)

"…Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir". (**"əl-Maidə"** surəsi, 2-ci ayə)

"Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün". (**"Ali-İmran"** surəsi, 102-ci ayə)

Ey Allahın bəndələri! Bilin ki, uzun arzular ağlı aparar, yalan vədlər verər, qəflət gətirər və həsrətə bais olar.

Arzulara bənd olmayın, o, insanı aldadandır. Əgər istəyinizə çatdınız, şükr edin ki, başqa istəklərə də çatasınız. Allah-Təala elan edib mömün müsəlmanlara yaxşılıqlar edəcək, onların şükr etmələrinə neməti artıracaq, Behişt kimi gözəl məqamı onlara bəxş edəcək və cəhənnəm kimi əzablı bir yerdən uzaqlaşdıracaq.

Bilin, sizin üçün ən qorxulu olan iki şey var: Uzun arzular və nəfsə tabe olmaq. Bilin, dünya sizə arxa çevirib və puçluğunu bildirib. Axirət isə sizi qarşılayır və sizə yaxşı müjdələr verir. Bilin, bu

gün hazırlıq və məşq günüdür. Sabah isə müsabiqədir. Qabaqcılların yeri Behişt, uduzanların yeri isə cəhənnəmdir. Bilin, siz gecə-gündüzdə möhlət axtarırsız, amma onun arxasınca ölümdür ki, tez-tələsik özünü çatdırır. Hər kəs ölümdən qabaq o möhlətdə xalis niyyətlə Allaha görə əməl etsə, ona mənfəət versə, ölüm ona bir ziyan verməz. Əks halda ziyankar kimi dünyadan gedəcək.

Ey Allahın bəndələri! Əgər istəsəniz dininiz möhkəm ola namazı vaxtında qılın, Allah evinin ziyarətinə tələsin. Qohumlarınızla barışın! Qiyamət əzabından qorxun, saili boş qaytarmayın, köməksizlərə ehtiram edin, Quranı öyrənin və ona əməl edin. Doğru danışın, əhd-peymana vəfa edin, əmanəti sahiblərinə çatdırın. Savab işlərə rağib olun. Günahdan çəkinin. Malla-canla Allah yolunda cihad edin. Dünyadan axirət üçün o qədər tuşə (yol azuqəsi) götürün ki, əbədi həlakətdən sizə nicat versin. Xeyir işlər edin ki, o günkü gün sizin köməyiniz olsun. Bu sözləri deməklə Allahdan özüm üçün və sizin üçün bağışlanmağı istəyirəm.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

"NƏHCÜL-BƏLAĞƏ" SAHİBİ

Qürani-Kərim və Nəhcül-fəsahədən sonra deyə bilərəm ki, bəşər tarixində **"Nəhcül-Bəlağə"** üçüncü elmi əsərdir. Əlbəttə, Qurani-Kərim Allah kəlamıdır. Əgər Quranı sıra sayından çıxartsaq Peyğəmbərin hədis və kəlamlarından sonra **"Nəhcül-Bəlağə"** ikinci yerdə duran bəşər kəlamıdır desək, yanılmarıq. **"Nəhcül-Bəlağə"** Seyyid Rəzinin İmam Əlinin (ə) fərmanlarını, məktublarını və qısa kəlamlarını toplayaraq, toplum şəklinə saldığı kitabdır. Mərhum Seyyid Rəzi özü ədəbiyyatçı olduğu üçün həzrət Əlinin (ə) yalnız ədəbi baxımdan gözəlliyin zirvəsində olan kəlamlarını toplayıb. Ondan sonrakı **"Nəhcül-Bəlağə"**də təqribən 229 xütbə var, halbüki Seyyid Rəzidən yüz il qabaq yaşamış, Məsudi özünün **"Mürucuz-Zəhəb"** kitabında yazır: **"İndi camaatın əlində Əlinin təqribən, 480 xütbəsi mövcuddur".** Bütün bu tarixi dəlil və sənədlərə görə, demək olar ki, **"Nəhcül-Bəlağə"** Seyyid Rəzidən qabaq da toplanılmışdır. Deməli, Əlinin (ə) xütbələri mövcud **"Nəhcül-Bəlağə"**dəkindən daha çox olub və Seyyid Rəzi onların hamısını toplaya bilməmişdir.

Bütün bunları hələlik bir tərəfə qoysaq və nəzərə alsaq, görərik ki, zaman-zaman alimlər İmam Əlinin (ə) bu elmi əsərini müxtəlif mənbəələrdən toplayaraq **"Nəhcül-Bəlağə"** adlı qiymətli kitab ərsəyə gətirmişlər. Bu kitabda müxtəlif ünsürlər vardır. **"Nəhcül-Bəlağə"**ni oxuyarkən bəzən Qurani-Kərimin hikmətli və insan tərbiyyəsində mühüm rolu olan tarixi hadisələri bəzən də dünya alimlərinin məşhurlarından olan İbni Sinanın, Cəlaləddin Ruminin və ya Muhyiddin Ərəbinin ideyalarını yada salır və təhlil etdikcə yenidən imam Əlinin (ə) əsərinin sehrinə düşürsən. **"Nəhcül-Bəlağə"**ni mütaliə etdikcə biz, Əlidə (ə) bütün insani keyfiyyətlərin və dəyərlərin cəmləşdiyini görürük, çünki bu, söz deyən şəxsin ruhi təcəllisidir. Bu zaman insan Əli (ə) kəlamlarının əzəməti qarşısında özünün nə qədər kiçik olduğunu təsəvvür edir.

Bəli, sözün əsl mənasında bu, belədir. Təqribən yüz il bundan əvvələ kimi cəmiyyətimiz Mövla Əlini (ə) bir zahid və abid kimi tanıyır, moizə edən din xadimləri də **"Nəhcül-Bəlağə"**nin zahidlik və axirət barəsindəki xütbələri oxuyur, onları təhlil edirdilər. Sanki onların **"Nəhcül-Bəlağə"**nin digər xütbələrindən xəbərləri yox idi və onların haqqında heç danışmırdılar da. Səbəbi də çox aydındır. Belə ki, cəmiyyət onları həzm edə bilmir, fəqət müəyyən dini dəyərlərə üz tutmuşdu. Bəlkə, həmin şərait yüz il də davam etsəydi, heç kəs Həzrət Əlinin (ə) Malik Əştərə yazdığı ictimai-siyasi göstərişlər xəzinəsi olan fərmanını oxumazdı. Çünki cəmiyyətdə həmin əhval-ruhiyyə yox idi. Məsələn, həzrət Əlinin (ə) belə bir kəlamı var: **"Peyğəmbərdən dəfələrlə eşitdim, O cənab belə buyurardı: "Zəif təbəqəsinin güclülər qarşısında dayanaraq dili dolaşmadan öz haqqını tələb etmək mərhələsinə çatmayan heç bir ümmət müqəddəsləşə bilməz".**

Bu müqəddəs kəlamı oxuduqca min dəfə bunun sahibinə, Həzrəti Peyğəmbərə (s) rəhmət deyir, düşünürsən, bəli bu kəlamı ancaq Allah elçisi deyə bilər. Şübhəsiz ki, yüz il bundan qabaqkı cəmiyyət bu və ya bunun kimi olan kəlamların qiymət və dəyərini bəlkə də dərk edə bilməzdi. Peyğəmbər asitanında – o müqəddəs ailədə tərbiyə almış Əli (ə) məhz belə kəlamları və onların daxilində olan bütün insani dəyərləri söyləməyə qadir idi. **"Nəhcül-Bəlağə"** əsəri tamlıqla əlimizə keçməsə də, lakin bu günümüzə gəlib çatan və əlimizdə

olan bu qiymətli hissələri Əli (ə) şəxsiyyətinin həyat tarixini, kimliyini, onun həmişəyaşar gövhərbar və inci kəlamlarını mütaliə etməklə biz insanları həyatın keşməkeşli əzablarından və iyrənc çirkablarından xilas edir, axirət aləminə - xoşbəxtlik və əbədiyyət sarayına aparmağa kömək edir. Bəli, budur Əli (ə) şəxsiyyəti. Bütün bunları ancaq **"Nəhcül-Bəlağə"** əsərindən əxz etmək olar.

Bütün bunları deməklə **"Nəhcül-Bəlağə"** əsərinin mahiyyətini oxuduqca dərk edir, dərk etdikcə onun təhlili və şərhinə böyük ehtiyac duyur və oxuduqca yenidən oxumaq istəyirsən. Nələr yoxdur bu əsərdə? Ayrı-ayrı şəhərlərin valilərinə göndərdiyi məktublar, onların haqqında imzaladığı fərmanlar, sərəncamlar, tövsiyələr, əmrlər, qadağalar və s. İmam Əlinin (ə) Kumeyl ibn Ziyada etdiyi tövsiyələr insan qəlbinin dərinliklərində olan qəmdən, kədərdən xəbər verir. İnsanların biri-digərinə inamı, etibarı, əmanətdarlığı xüsusilə bu əsərdə bariz şəkildə özünü göstərir.

Rəvayət Kumeyl ibn Ziyaddandır. O, deyir: **"Səhrada insan ayağı dəyməyən bir məkanda Əli (ə) dərindən bir ah çəkib belə dedi: "Ey Kumeyl ibni Ziyad! İnsanın qəlbi bir qaba bənzəyir ki, onların ən yaxşısı tutumu çox olan və içindəkini yaxşı saxlayandır. Sənə dediklərimə yaxşı qulaq as, bunları yadda saxla..."**

İmam söhbət etdikcə belə şikayətlənirdi: **"Əfsuslar olsun ki, ürəyimdəkiləri deməyə layiq sirr saxlayan insanlar tapa bilmirəm. Amma belə də deyil ki, belələri yoxdur. Həmişə, bütün dövrlərdə belə adamlar olublar…"**

"…Bəsirətin son həddində olan həqiqi elm onlara uz tutub və onlar tam yəqinlik məqamına çatıblar. Onlar yəqinlik ruhuna birləşiblər və onlar arasında fasilə yoxdur. Əyyaş və maddəpərəst adamlara çox çətin gələn şeylər, onlara çox asan və rahat gəlir. Nadanların qorxaraq vəhşət etdikləri şey, yəni haqq ilə – Allah-Təala ilə xəlvətdə münacat etmək onların ülfət mənbəyi, ünsiyyət ocağıdır. Bunlar dünyada camaatla bir yerdədirlər, amma uca aləmə cəzb edilmiş ruhlarla! Bu dünyada olmaları ilə yanaşı, həm də bu dünyada yoxdurlar. Həm bu dünyadadırlar, həm də başqa aləmdə."

Əli şəxsiyyətini təhlil emək bizim kimi naqis əqil sahiblərinə sözün əsl mənasında çox çətindir. Əli (ə) dəryasından su götürmək öz ifadəmlə desəm, hər kəsin mərifət qabının qədərincə olacaq. Belə bir zərbiməsəl var: **"Dəryanın suyunu çəkib qurtarmaq olmaz, susuzluq qədər içmək olar".**

Mövla Əli (ə) təkcə özü üçün yaşamayıb. O, bütün insanların dərdini çəkən, dərdi onlarla bölüşən şəxsiyyət olub. O, ümumbəşəri dərd çəkib, Əlinin (ə) dərdləri, irfani dərddir. Əli (ə) həqiqi aşiqdir. O, ibadət edərkən özündən uzaqlaşaraq elə bir mərhələyə çatır ki, məhbub və məşuqunun eşqi ilə elə isinir ki, ətrafında baş verənlərdən xəbərsiz olur, hətta ayağına batmış oxu çəkib çıxardanda ağrısına dözmədiyi halda, namaz üstə olarkən əsla hiss etməyib ki, oxu necə çıxartdılar. Bəli, bu ancaq Əlidə (ə) ola bilərdi. İnsanın dərdi budur, yəni Haqqdan uzaqlığı, Onun zatına yaxınlaşmaq arzu və şövqü və Ona yaxınlaşmaq dərdi! İnsan Haqq olan varlığın zatına çatmayınca bu iztirab və sıxıntı həmişə öz yerində qalacaqdır. İnsan başını həyatın müxtəlif naz-nemətlərilə, habelə, müvəqqəti həzz hissləri ilə qarışdırsa belə, bir azdan həmin şeylər bir əyləncə kimi aradan gedəcək, fəqət, boş bir həsrət və xatirə qalacaqdır, lakin həqiqət isə ayrı bir şeydir. Qurani-Kərimdə bu mətləb daha gözəl ifadə olunur:

"O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!" (**"**Rəd**"** surəsi, 28-ci ayə)

Ayənin təhlilinə varanda düşünürsən ki, doğrudan da insan həyatda həmişə nigarançılıq içərisində yaşayır. Fəqət, o zaman xatircəm olur ki, çətinliklərdə ona ümid verib, dayaq olursan. Biz Allahı yad etməklə – zikr etməklə bütün çətinliklərdən və ümidsizliklərdən xatircəm oluruq.

Quran buyurur ki, qəlblər yalnız və yalnız bir şey ilə iztirab və nigarançılıqlardan uzaqlaşaraq aram tapa bilər, o da Haqqı zikr etmək, yada salmaq və onun Zatı ilə ünsiyyətdə olmaqdır...

"Nəhcül-Bəlağə"nin tərtibi aydın göstərir ki, Seyyid Rəzi ifadə, bəyan, təqlid və təqdim etmək baxımından böyük təcrübə sahibi olmuşdur.

"Nəhcül-Bəlağə"də nələr öz əksini tapmışlar? Hər şeydən əvvəl, Mövla Əlinin (ə) psixologiyası, daxili aləmi, əhval-ruhiyyəsi, əxlaqı

burada elə doğru-düzgün əks etdirilmişdir ki, sanki günəş şüalarının işığı billur camın üstünə düşüb şəfəq saçır.

Mövla Əli (ə) həyatı boyu elə iş görməmişdir ki, ədalətdən, insafdan uzaq olsun, yüksək, ali, ilahi, asimani mahiyyət daşımasın. Bütün əməllərində onun təmiz, pak ruhu öz ifadəsini tapmışdır və ona görə də **"Nəhcül-Bəlağə"**də toplanmış fərmanları, məktubları, bəyanatları, sülh, əhd, müharibə, müqavilə barədə deyimləri, hətta hər cümləsi belə onun böyük mənəvi aləmini nümayiş etdirir.

Bəzi özündənmüştəbeh insanlar hesab edir ki, **"Nəhcül-Bəlağə"**də cəm olmuş mətnlər, ibrətamiz, nəsihətamiz hikmətli sözlər və deyimlər Həzrət Əlinin (ə) özünə məxsus olmayıb, onun qələmindən çıxmayıb. Əlbəttə, bu kimi fikirlər ağ yalandır, yanlışdır və əsası yoxdur. Bu kitabdakı bütün yazılarda Peyğəmbərdən (s) sonra İslamın ən böyük şəxsiyyəti olan İmam Əli ibn Əbu Talibin (ə) müqəddəs, ilahi nəfəsi duyulmaqdadır.

QURAN VƏ "NƏHCÜL-BƏLAĞƏ"DƏN NÜMUNƏLƏR

Qurani-Kərimin bu barədə ibarətinə diqqət edin:

"Bu dünyada (Allahın dəlillərini, möcüzələrini görməyib gözü və qəlbi) kor olan axirətdə də kor olar və (haqq) yoldan daha da çox azar". (**"əl-İsra"** surəsi, 72-ci ayə)

İmamlar və başqaları bu ayənin təfsirində deyiblər ki, məqsəd bu deyil ki, kimin zahiri gözləri bu dünyada kordursa, o dünyada da kor olacaq. Əgər belə olsaydı, İmam Cəfər Sadiqin (ə) səhabələrindən olmuş Əbu Bəsir o dünyada necə də pis vəziyyətdə olardı?! Xeyr! Məqsəd ondan ibarətdir ki, kimin batini gözləri kor olsa həqiqəti, Allahın aşkar nişanələrini və iman gətirməli olduğu şeyləri görməsə axirət dünyasında məhşərə kor gətiriləcəkdir. Əgər fərz etsək ki, bir nəfər bütün yaxşı əməlləri yerinə yetirib, insanları yaxşı əməllərə dəvət edərək pis işlərdən çəkindirib, dünyada pəhrizkar, təqva əhli kimi yaşayıb və bütün ömrünü insanlara yaxşılıq etməkdə sərf edib, amma Allaha iman gətirməyib, məad və varlıq aləmini tanımayıb, belə olduqda həmin insan doğrudan da kordur və axirətdə kor olmasına da heç bir şübhə ola bilməz. Biz **"insanın əməli düz olmalıdır, imanı olmasa da olar"** ifadəsini işlədənlərə Fəxr Razinin aşağıdakı rübaisi ilə cavab versək, yerinə düşər:

Tərsəm berəvəm aləme can nadide
Birun rəvəm əz cəhancan nadide
Dər aləme can çun rəvəm əz aləme tən
Dər aləme tən aləme can nadide

Mənası:

"Qorxuram bu dünyadan gedəm, amma dünyanı görməyəm"dən məqsədi qapı, pəncərə, yer-göy, dəniz, ulduz və s. şeyləri görmək deyil, ürəyimdəki gözün açılmamasından, İslamın iman adlandırdığı, dünyanın ruhu, başlanğıcı, sonu və s. dərk etmədən ölməkdən qorxuram" deməkdir. Alim deyir ki, mən bədən aləmində olarkən ruh aləmini görməmişəmsə, bu aləmdən ruh aləminə köçəndə oranı necə görə bilərəm? Mən onu burada – dünyada olarkən görməli idim, lakin bacarmadım. Fəxr Razi bu rübaidə **"əl-İsra"** surəsinin 72-ci ayəsini çox mükəmməl surətdə açıqlayıb.

Qurani-Kərimin başqa bir yerində belə buyurulur:

"O, belə deyər: Ey Rəbbim! Nə üçün məni məhşərə kor olaraq gətirdin, halbuki mən (dünyada hər şeyi) görürdüm".

"(Allah) buyurar: Elədir, amma sənə ayələrimiz (möcüzələrimiz, qüdrətimizə dəlalət edən əlamətlər) gəldi, sən isə (özünü görməməzliyə vurub) onları unutdun (iman gətirmədin). Bu gün eləcə də sən unudulacaqsan!" (**"Taha"** surəsi, 125-126-cı ayələr)

Qiyamət günü məhşərə kor gətirilən bəndə etiraz edərək deyəcək: **"Ey Rəbbim! Nə üçün məni məhşərə kor halında gətirdin, mənim dünyada gözüm görürdü, nə üçün burada kor olmuşam? Ona xitab olunacaq ki, dünyada malik olduğun göz bura üçün yaramır. Burada başqa göz lazımdır və sən özün həmin gözü dünyada kor edibsən, buna görə də burada korsan. Bizim dünyada nişanələrimiz, dəlil və sübutlarımız var idi. Sən, həmin nişanə, dəlil və sübutlardan istifadə edib bizi görmək, tanıyaraq həqiqəti dərk etmək əvəzinə, orada onları heç saydın, tanımaq istəmədin. Ona görə də həqiqət aləminə - məhşərə kor gətirilirsən. Bu dünyada yalnız həqiqəti görmək, bəsirət aləmini dərk etmək faydalıdır".**

Eyni mətləbi Qurani-Kərim digər surədə belə buyurur:

"Xeyr, o gün Rəbbinin mərhəmətindən məhrum olacaqlar".
"Sonra Cəhənnəmə varid olacaqlar".
"Sonra da onlara: Bu sizin (dünyada) yalan saydığınız (Cəhənnəmdir!) – deyiləcəkdir." (**"əl-Müttəffifin"** surəsi, 15-17-ci ayələr)

Bütün bunlardan sonra Allah-Təala İslam Peyğəmbərinə (s) belələrindən əl çəkməsini göstəriş verir və bildirir ki, dünyada onların gözlərini pərdə tutdu, onlar həqiqəti, haqqı görə bilmədilər, budur imanın mənası. Bəli, həqiqətdə insan dunyaya axirət aləmini görməsi və haqqı eşitməsi üçün gəlmişdir. Təəssüflər olsun ki, kor və kar oldu və eləcə də dünyanı tərk etdi.

Elmi-ədəbi məclislərdə və ali məktəb auditoriyalarında gənclərin dini ədəbiyyatla maraqlanmalarını, mütaliə etmələrini, xüsusilə Mövla Əlinin (ə) **"Nəhcül-Bəlağə"** əsərinə diqqət yetirmələrini dəfələrlə tövsiyyə etmişəm. Orada bəhs edilən mövzuda - göz və qulaqlar barəsində açılan söhbətlərə diqqət etsələr, həqiqi imanın nə olduğunu artıq dərk edəcəklər. Həzrət Əli (ə) yalnız iman və etiqadın təməlindən danışmır, o, həm də imanın və etiqadın əsas dəyərlərini bəyan edir, açıqlayır.

İmam Əli (ə) **"Nəhcül-Bəlağə"**də Allah adamı barəsində belə buyurur: **"Onların Allah çağırmaq, istiğfar edərək onda qərq olmaqla yanaşı, batinlərində bağışlanma mehi əsir".** Yəni, onlar bağışlandıqlarını hiss edir və duyurlar. İmam başqa bir yerdə belə buyurur:

"Bütün dövrlərdə fikir və batinlərində öz Allahları ilə söhbət edən, Onu dinləyən insanlar vardır". Yəni Allah həmişə onlarla fikir və ağıllarında danışır, söhbət edir.

Deməli, İslamda Allahı, varlıq aləminin vasitələri olan mələkləri, İlahi feyz və bərəkətin bizlərə çatmasında digər vasitələr olan peyğəmbərləri və Allah övliyalarını tanımaq, bu dünyaya nə üçün gəldiyimizi və hara getdiyimizi bilmək və həmçinin istər-istəməz hamının Allaha doğru qayıdacağını (yəni məadı) dərk etmək əsas meyarlardandır. Həqiqət və gerçəkliklərə iman gətirmək əsasdır və bu, əsaslı olmaqla yanaşı, həm də islam ideologiyasının əqli və etiqad təməlidir. Buna görə də heç vaxt nə əməli mənaya, nə də imanı əmələ qurban vermək olmaz.

Bəli, doğrudan da elmlə əməl gərək vəhdət daşıya. Əks təqdirdə heç birinin faydası yoxdur. Həzrət Peyğəmbərimiz (s) buyurmuşdur: **"Hər kim qırx gün nəfsi istəklərini tamamilə buraxıb Allahdan başqa heç bir şeyi nəzərdə tutmadan iş görsə, Allah-Təala elm və hikmət çeşmələrini onun dilinə cari edər. Deməli, İslam lütf və feyzlə bağlanan, yəni daxildən qaynayaraq çıxan elmi qəbul edir. Bu, o demək deyil ki, İslam əqli elmi qəbul etmir. Əlbəttə, bütün əqli elmlər İslam baxımından məqbuldur və davamçılarını da ona doğru çağırır. Necə ki, Allah-Təala Qurani-Kərimdə Musa peyğəmbərə (ə) buyurur: "Bizim bir bəndəmiz var, onun yanına get və ondan elm öyrən. Biz həmin bəndəmizə öz tərəfimizdən, öz yanımızdan elm vermişik".**

Həzrət Peyğəmbər (s) kamil insanlar haqqında buyurmuşdur: **"Əgər şeytanlar Adəm övladlarının qəlblərində qübar və qaranlıqlar yaratmasaydı, onlar qəlb gözü ilə mələikə və ruh aləmini müşahidə edərdilər".** Bu hədis həmçinin **"Camius-səadət"** kimi hədis kitablarında da nəql edilib. Həzrət digər bir hədisdə isə belə buyurmuşdur: **"Əgər sizin yersiz çərənləməyiniz, artıq danışmağınız və qəlblərinizdə çəmənliklər olmasaydı (orada hər bir heyvan otlamasaydı), mənim gördüklərimi görər, eşitdiyim səsləri eşidərdiniz".**

Bu söylənənlərdə məqsəd həmin şeyləri görmək və ya eşitmək üçün insanın Peyğəmbər olması lazım deyil. Hər bir insan özünü o dərəcəyə çatdıra bilər. Məsələn, Quranda verilən xəbərlərə görə, Məryəm (ə) peyğəmbər olmadığı halda, həmin səsləri eşitmək qabiliyyətinə malik olmuşdur.

İmam Əli (ə) Peyğəmbərlə (s) birlikdə Hera dağında olanda 10 yaşında idi. Peyğəmbərə (s) ilk dəfə vəhy nazil olanda o, həzrət vəhyin gücündən başqa bir şəklə düşəndə onun qeybdən eşitdiyi səsləri Mövla Əli (ə) də eşidirdi. Bu barədə o, "Nəhcül-Bəlağə"də belə nəql edir: **"Peyğəmbərə dedim: Ey Allahın Peyğəmbəri! İlk dəfə vəhy nazil olanda şeytanın naləsini eşitdim. Peyğəmbər (s) mənə dedi: Bəli, mən eşitdiklərimi sən də eşidərsən və mənim gördüklərimi sən də görərsən, amma buna baxmayaraq mən sonuncu peyğəmbər olduğum üçün sən peyğəmbər deyilsən".**

Buna görə də nəfsin təmizlənməsi insanın qəlbini saflaşdırır və bu saflıq vasitəsilə insanın daxilində elm və hikmət çeşmələri qaynayır.

ƏLİ (Ə) KƏLAMINDA ALLAH QÜDRƏTİ

İslamda qüdrət və gücə dəvət məsələsində heç bir şübhə yoxdur. Quran ayələri və hədislərin aşkar məntiqi bunu bir daha sübuta yetirir. Hətta əcnəbi tədqiqatçılar İslamı digər dinlər içərisində məhz bu xüsusiyyəti ilə tanıyıblar. Onlardan Vill Dorant **"Svilizasiya tarixi"** kitabının İslam mədəniyyəti barəsində olan XI cildində belə deyib: **"Heç bir din İslam qədər camaatı qüdrət və gücə dəvət etməyib".**

Bu barədə Quranda çoxlu mətləblər var. Müqəddəs kitabda Həzrət Yəhyaya (ə) xitab edilərək belə buyurulur:

"...Ey Yəhya! Kitabdan bərk yapış!..." (**"Məryəm"** surəsi, 12-ci ayə)

Qurani-Kərimin digər surəsində isə belə buyurulur:

"Şübhəsiz ki, Allah öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!" (**"Səff"** surəsi, 4-cü ayə)

Digər bir yerdə isə buyurur:

"Məhəmməd (s) Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) ruku edən, səcdəyə qapanan, Allahdan rica və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir..." (**"əl-Fəth"** surəsi, 29-u ayə).

Qeyd edək ki, Qurani-Kərimdə buna bənzər ayələr çoxdur.

Şücaət İslamda mədh edilmiş həqiqətlərdəndir. İslamda izzət, yəni möhkəm və mətin məqama malik olmaq və heç kəsin insanı xar edərək alçalda bilməməsi gücə malik olmaq da bəyənilən işlərdəndir. Qurani-Kərimdə düşmənlə üz-üzə gəlmək barəsindəki ayələr daha çox diqqəti cəlb edir. Müqəddəs kitabda buyurulur:

"(Ey möminlər!) Allahın düşmənini və öz düşmənlərinizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin..." (**"Ənfal"** surəsi, 60-cı ayə)

Digər bir ayədə isə belə buyurur:

"(Ey möminlər! Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!" **("əl-Bəqərə"** surəsi, 90-cı ayə)

Gördüyünüz kimi, ayədə həddi aşmaq qadağan edilib. Bu, o deməkdir ki, düşmənlə döyüşəndə də haqq-ədaləti unutmaq olmaz. Alimlər bu ayənin təfsirində deyiblər ki, düşmənlə döyüşəndə vuruşunuzu, düşmən döyüşü davam etdirənə kimi davam etdirin. Əgər düşmən **"təslim oldum"**,-deyərək silahını yerə qoysa, siz də silah işlətməyin, çünki bundan sonra silah işlətmək həddi aşmaq və təcavüz deməkdir. Qocaları, qadın və uşaqları öldürməyin, onlara toxunmayın, döyüş meydanından kənara çıxmış adamla işiniz olmasın, yalnız sizinlə döyüşən adamla, var gücünüzlə vuruşun. Bunlar Qurani-Kərimdə olan hökmlərdir və bu ilahi kitabda buna bənzər digər ayələr də var.

Hədislərdə və İmam Əlinin (ə) **"Nəhcül-Bəlağə"**sində bir daha qorxaqlıq, zəiflik və acizlik pislənmiş, güc və qüdrət tərifləmişdir.

İslam Peyğəmbəri (s) Həzrət Mühəmməd (s) buyurub: **"Möminə xəsislik və qorxaqlıq yaraşmaz".**

Bəli, pul möminin canı və qanı olmamalıdır və o, həmçinin şücaətli və qorxmaz olmalıdır. Peyğəmbər (s) həmçinin belə bir dua oxuyarmış: **"Allahummə inni əuzu bikə minəl-buxli və əuzu bikə minəl-cubbi".** Yəni, İlahi, mən xəsislik və qorxaqlıqdan Sənə pənah aparıram!

Əmirəlmöminin Əli (ə) isə mömin barəsində belə buyurub: **"Möminin ruhu çaxmaq daşından da möhkəmdir".**

İmam Sadiq (ə) isə **"Allah-Təala möminin özünü xar və zəlil etməsindən başqa bütün işlərini onun öz ixtiyarına buraxıb. Məgər siz Allah-Təalanın bu sözünü eşitməmisinizmi ki, buyurub: "İzzət yalnız Allah, peyğəmbər və möminlərə məxsusdur". Mömin həmişə izzətlidir və heç vaxt özünü xar etmir. Mömin dağdan da mətindir. Çünki dağı külünglə parçalamaq mümkündür, amma möminin ruhundan heç nə ilə kiçicik bir parça belə qopartmaq mümkün deyil"**,-deyə möminin həqiqi qiymətini bu cür vermişdir.

İmam Baqir (ə) də bu haqda belə buyurub: **"Allah-Təala möminə üç xüsusiyyət vermişdir: Dünya və axirətdə izzət və başıucalıq; hər iki aləmdə uğur və zalımın qəlbində onlardan olan qorxu və heybət. Yəni, möminlər elə olurlar ki, zalımlar onların heybətli baxışından qorxurlar".**

Yuxarıda qeyd etdiyimiz kimi bu iki hədisi eyni məzmunda veririk:

Qeyrət, qüvvət və güc, qeyrətsizlik isə zəiflik əlamətidir. Bu barədə də hədislər deyilmişdir. İslam Peyğəmbəri (s) buyurub: **"İbrahim peyğəmbər (ə) qeyrətli olub və mən ondan da qeyrətliyəm. Allah-Təala mömin və müsəlmanlara nisbətdə qeyrətli olmayanların burunlarını kəssin!"**

Diqqət edin. Görün, Mövla Əli (ə) **"Nəhcül-Bəlağə"**də güc və qüdrəti nə dərəcədə təkidlə müsəlmanlara buyurmuşdur. Zəifliyi isə İslam cəmiyyətinə yaraşmaz sifət kimi göstərmiş və pisləmişdir. O həzrət buyurur: **"Allaha and olsun ki, evlərində döyüş aparılmış bütün ümmətlər məğlub olublar."**

Başqa bir xütbədə isə belə buyurur: **"Xar və zəif adam heç vaxt zülmün qarşısını ala bilməz və haqq yalnız səy və çalışqanlıqla əldə edilər".**

Budur, Mövla Əli (ə) kəlamında olan qeyrət, qüvvət və güc simvolu.

HAQQ ALINMALIDIR, XOŞLA VERMƏZLƏR

Haqqın alınması və yaxud da verilməsi ilə bağlı İslam ədəbiyyatında, xüsusilə Fiqhində müxtəlif fikirlər var. Heç şübhəsiz ki, haqq batmır və nə vaxtsa öz sahibinə çatmalıdır. Bəzən haqqı tanımyanlar, daha doğrusu İslamdan boyun qaçıranlar **"qurban olum o günə, üstündən bir gün keçə"** zərb-məsəlini əsas tutaraq haqqı tanımadıqları kimi haqqı ödəməkdən də boyun qaçırırlar. Bu zaman əlbəttə, insan öz haqqını tələb etməli, həyatın axarına buraxmamalıdır. Lazım gələrsə, zor gücünə də olsa haqqını geri almalıdır. Bu İslamın əsas qanunlarındandır.

Bəzi dünyəvi fikirlərdə isə deyilir ki, haqq alınmalıdır. Bəziləri tərəddüd edərək haqqın alınmalı və ya verilməli olmasını mühüm məsələ hesab edirlər. Digərləri isə sual altında qalaraq bu fikirdədirlər ki,

insanlar haqqı öz istək və razılıqları ilə sahibinə verməlidirlər, yoxsa haqq sahibi onu özü tələb edərək almalıdır? Bir neçə məktəblərin fikri budur ki, haqq verilməlidir. Yəni, zalım aldığı haqqı öz sahibinə qaytarmalıdır. Amma əgər qaytarmasalar, gözləmək lazımdır. Onların fikrincə, haqq alınmalı deyil, verilməlidir. Guya xristianlıq özü məhz bu əsasda qurulub. Onlar bu qənaətdədirlər. Zalıma xəbərdarlıq edib haqqın qaytarılmasını deməlisən, amma zor etməməlisən. Hətta belə bir ifadənin işlədilməsini tövsiyə etmişlər: **"Ey haqqı tapdanmış şəxs! Biz zalıma sənin haqqının qaytarılmasını tövsiyə edərək ondan xahiş edəcəyik. Sən heç vaxt öz haqqını almaq üçün qiyam və üsyan etməməlisən. Çünki bu insanlıq və əxlaqa yaraşmayan bir işdir".** Bunların fikrincə, haqq verilməlidir.

Digər bir qrup isə haqqın yalnız alınmalı olmasını deyir. Onlar deyirlər ki, məgər kimsənin haqqını qəsb etmiş şəxsin gəlib həmin haqqı qaytarması mümkündürmü? Bu fikir sahibləri insanlıq hissləri və vicdan məsələsini inkar edirlər.

Yuxarıda qeyd etdiymiz kimi İslam baxımından isə haqq həm alınmalı, həm də verilməlidir. Belə ki, İslami nöqteyi-nəzərdən haqqın əldə edlməsi üçün ikitərəfli mübarizə aparmaq lazımdır. İslam özünü təlim-tərbiyə üsulları ilə kiminsə haqqını qəsb etmiş şəxsi haqqı qaytarmağa hazırlayır və bu işdə müəyyən qədər uğur da qazanıb. Amma bununla kifayətlənməyərək haqqı yeyilmiş şəxsə deyir ki, haqq alınmalıdır və sən öz haqqını əldə etmək üçün qiyam edərək onu geri almağa müvəffəq olmalısan.

Bu barədə biz yenə Əmirəlmöminin İmam Əlinin (ə) **"Nəhcül-Bəlağə"**sinə müraciət edək. Həzrət Əli (ə) Misirin hakimi Malik Əştərə yazdığı məktubunda Peyğəmbərdən (s) bir cümlə nəql edərək buyurub: **"Mən Peyğəmbərin (s) dəfələrlə bu sözləri dediyini eşitmişəm: Heç bir ümmət, zəiflərin güclülərdən haqqını dili pəltək vurmadan (cəsarətlə) almaq mərhələsinə çatmayınca müqəddəs sayılaraq sitayiş edilməz".** (Yəni yüksək məqamlara çatmaz) Məqsəd budur ki, İslam öz haqqını tələb edə bilməyən zəif insanları qəbul etmir. İslam baxımından öz haqlarını tələb edə bilməyən, xar olub alçalan cəmiyyət İslam cəmiyyəti ola bilməz.

Mövla Əlinin (ə) digər məşhur bir kəlamında buyurulur: **"Zalım ilə məzlumu eyni cəhənnəmdə yandıracaqlar. Məzlum fəryad edib**

deyəcək: Mənə zülm olunub, mən niyə yanmalıyam. Ona cavab veriləcək ki, sən ona görə yanırsan ki, sənə zülm olunanda səsini çıxardıb öz haqqını tələb etməmisən…"

Yenə də yuxarıdakı fikrimizə qayıdaraq deyirik: budur İslam - müsəlman cəsur və zirək olmalıdır. O, öz haqqını heç kimdə qoymamalıdır. Peyğəmbərin buyurduğu kimi: **"Müsəlman zahirən canavar, batinən qoyun kimi həlim olmalıdır".** Qorx o adamdan ki, zahirən özünü qoyun kimi apara, batinən canavar ola. (M.S.)

Bəli, İslam Peyğəmbərinin (s) başlıca xüsusiyyətlərindən biri də ruhən və cismən güc və qüvvət sahibi olmasıdır.

Tarixə nəzər salaq! Həzrət Peyğəmbərin (s) həyatını mütaliə edəndə əsasən iki mətləb gözümüzün önündə canlanmalıdır. Onun biri Peyğəmbərin (s) yaşadığı cəmiyyətdəki mövqeyidir. Peyğəmbər (s) elə bir şəraitdə yaşamışdır ki, onun siyasi-ictimai baxımdan heç bir ümid yeri olmayıb. Hətta bütün şərait ona qarşı idi. Onunla qələbə arasında heç tük qədər də olsun ümid yox idi. Bütün bunlara baxmayaraq, o həzrət heç vaxt öz iradəsini əldən vermirdi. Peyğəmbərin (s) iradəsi titrəməyən dağa bənzəyirdi. İyirmi üç il ərzində apardığı İslami təbliğat onun ruhiyyəsinin ən maraqlı və təhlil olunası bir məktəb idi ki, bütün dövrlərdə öz bəhrəsini verməkdədir. O dövürləri müaliyə eləyəndə heyrətlənməyə bilmirsən.

İkinci ən mühüm amil isə Peyğəmbərin (s) zahiri və fiziki qüdrət baxımından qüvvətli adam olmasıdır. O, həm də güc və şücaət sahibi idi. Onun bədən forması qəhrəman və igid pəhləvanlar kimi cüssəli olub. Nə çox kök, nə də arıq idi. Ümumiyyətlə, götürəndə Peyğəmbərin (s) şücaəti o dərəcədə yüksək olub ki, İmam Əli (ə) şəxsən onun haqqında belə buyurub: **"Biz çətin vəziyyətlərdə həmişə Peyğəmbərə (s) pənah aparırdıq".**

Tarixi mənbələrdən bizə məlum olan və Peyğəmbərin (s) şücaətindən bəhs edən bir səhnəni xatırlamaq yerinə düşərdi. Bu hadisə Peyğəmbərin (s) Xədicə ilə evlənməmişdən əvvəlki dövrünə təsadüf edir. Belə ki, təyin olunmuş bir gündə Əbu Cəhl onu güləşmə səhnəsinə dəvət edir. Əbu Cəhl yarıçılpaq vəziyyətdə, özünəməxsus şerlər oxuyaraq Peyğəmbəri (s) bir rəqib kimi meydana dəvət edir. Əbu Cəhlə görə, Peyğəmbəri (s) bu cür xar edib səhnədən uzaqlaşdırmaq üçün munasib məqam idi. Amma hadisələr tam onun fikrinin əksinə cərəyan etdi. Peyğəmbər (s) onun dəvətini qəbul edib

soyunmadan özünəməxsus bir vüqarla meydana girdi və Əbu Cəhlin rahat güləşməsi üçün bütün imkanları yaratdı. Nəhayət, Əbu Cəhli başı üstə qaldırıb elə yerə vurdu ki, o, bir neçə dəqiqə yerindən qalxa bilmədi. Rəvayətə görə, o güləşin zərbindən Əbu Cəhl ölənə qədər əziyyət çəkdi. Bu səhnənin şahidlərindən biri də Xədicəi-Kübra idi. Onun Peyğəmbərə (s) əyal olmasının bir səbəbi də həmin güləş səhnəsində Həzrət Mühəmmədin (s) yüksək şücaət göstərməsi olmuşdur...

Bəli, Peyğəmbər (s) şücaətli və güclü olduğu kimi, özü də güc və şücaəti həmişə tərifləyib. Məhz buna görə də müsəlmanlar dünyada həmişə ədalətli güc mövqeyində olmuş, haqqın tələbində mübariz olmağı insanlar üçün lazımı dəyər kimi qiymətləndirmişlər. Onun bariz nümunəsi olaraq Mövla Əli (ə) kimi şəxsiyyətlərin yetişməsi, həm sözdə, həm də əməldə özünü göstərməsi və özü kimi kamil insanlar yetirməyə nail olmasıdır.

MÖVLA ƏLİ (Ə) VƏ İSLAMIN SOSİAL-İQTİSADİ PRİNSİPLƏRİ

Qurani-Kərimdə Allah-Təala **"həqiqətdə din Allah yanında İslamdır"** şüarı ilə İslam dinini öz bütün məziyyətləri ilə bəyənmiş və kamil bir formada axirəzzaman Peyğəmbərin (s) ümməti üçün yer üzünə nazil etmişdir. Yenə Özünün buyurduğu kimi yaş və quruda nə varsa, Qurani-mübində o haqda bəyanat vermişdir. Bu baxımdan İslam dini həmçinin dövlətçilik prinsiplərindən çıxış edərək sosial və iqtisadi məsələləri də inkişaf etdirmək hüququna malikdir. Heç şübhə yoxdur ki, dövlətin idarə olunmasında iqtisadiyyatın rolu böyükdür.

İslam həmçinin fitrət və həqiqət dinidir. O, bütün metodlarla reallıq müstəvisi üzrə nümunəvi formaya yüksəlməyə səy etdiyi kimi, xarici həqiqətlərə, habelə fitrət həqiqətinə də diqqətsiz yanaşmır. İslam doğru iqtisadi vəziyyəti naminə öz proqramında insan reallığını, onun motivlərini və yaşadığı yerin gerçəkliklərini nəzərə alıb cəmiyyətin rifah halının yaxşılaşdırılmasına böyük əhəmiyyət verir.

İqtisadi münasibətlərdən danışarkən qeyd etməliyik ki, müqəddəs kitab olan Qurani-Kərimdə də bu barədə söhbət açılır. Xüsusən də Allah-Təala Öz nemətlərini zikr etdikdən sonra belə buyurur: **"Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməyəcəksi-**

niz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur". İslam bu problemin hər iki tərəfini həll etmək üçün bütün mümkün səylərdən maksimum istifadə edir.

İlkin olaraq istehsalın inkişafı nəticəsində yaranan nemətlərdən istifadə qaydalarının xüsusi ölçüdə nizamlanması.

Sonrakı mərhələdə sosial ədalət və bərabərliyi həyata keçirmək. Yəni istehsal olunan maddi nemətlərin cəmiyyətdə düzgün istifadə olunması.

Qurani-Kərimdə və Həzrət Peyğəmbərin (s) sünnəsində bu məsələlər sədr-İslamda tam şəkildə istifadə olunmasa da, sonralar yavaş-yavaş İslam dövlətlərinin coğrafi arelı böyüdükcə sosial-iqtisadi məsələlər də geniş miqyas şəklini ala bildi.

Mövla Əlinin (ə) xəlifəlik dövründə isə iqtisadiyyat sözün əsl mənasında daha gözəl vüsət alaraq İslam dövlətlərini möhkəmlətdi. Bütün bunlar Mövla Əlinin (ə) valilərə göndərdiyi məktublarda öz əksini tapmışdır. Bu barədə **"Nəhcül-Bəlağə"**nin bir çox mətnlərində geniş qeyd olunub. Moizələrində və göndərdiyi məktublarda İmam Əli (ə) hesab edirdi ki, ədalət və bərabərlik prinsipinə nail olmadan iqtisadi inkişafa nail olmaq olmaz. Bunların hər ikisi xalq və hökumətin öz vəzifələrinə əməl etməkdə müştərək olduqları məsələlərdir.

Ədalət və bərabərliyin təmin olunması və yaşayış səviyyəsində iqtisadi tarazlığın həyata keçməsi üçün kasıb təbəqəni varlının həddinə yüksəltmək istiqamətində çalışmaq lazımdır. Müasir dövrümüzdə bir zərb-məsələ çevrilən **"Əl tutmaq, əlidən qalıb"** kəlamı yuxarıda qeyd etdiyimiz məsələnin demək olar ki, yarısından çoxunu həll edir. Bəli, Mövla Əlinin (ə) buyurduğu digər bir kəlama diqqət edək: **"Əgər, bir şəxsin əlində torpaq, su varsa və bu adam kasıbam deyə şikayətlənərsə, Qiyamət günü məsuliyyət daşıyır".** Bu kəlamda nə qədər müdhiş zənginliyin olduğunu görməmək ən azı insafsızlıqdır. Qurani-Kərimə nəzərən bütün şeylərin diriliyi su ilədir – su həyatdır və bu kimi digər ifadələrin işlədilməsi iqtisadiyyatın eyni deyilmi?

Qeyd: İxtiyarında bir parça torpaq və suyu olan hər hansı bir fərd ən azı mövsümü bitkiləri, tərəvəz məhsullarını əkib becərərsə, heç olmasa, ailəsinin gündəlik ruzisini təmin edə bilməzmi? Bu ən azı çayxanalarda oturub qızıldan qiymətli vaxtını səmərəsiz keçirməkdən daha yaxşı deyilmi? Məgər, tonlar qramlardan, milyonlar qəpiqlərdən

əmələ gəlmirmi? **"Dama-dama göl olar"** zərb-məsəli insanların yaddaşından niyə silinməlidir? İslamın qızıl dövrlərinə nəzər salaq. Qızmar günəş altında tək-tənha arxlar çəkən, xurma bağları becərən, quyular qazan, onun suyunu müəyyən vasitələrlə bağlara yönəldən Əli ibn Əbu Talib - İslam xəlifəsi deyildimi? Dəvə ilə susuz səhraya yük daşıyan Mövla Əlini görən o dövrün çayxana qabağında dayananları həcv məqsədilə **"yenə səhraya nə daşıyırsan?"** soruşanda, **"4 min xurma ağacı aparıram"**,- deyən o həzrətə gülənlər də tapılırdı. Amma altı aydan sonra susuz bir səhranın bağ-bağata – laləzərə çevrildiyini görəndə Mövla Əlidən (ə) üzr istəmək məcburiyyətində qalırdılar. Bəli, əlin qabarı və rənci ilə dolanmağın özü ibadətdir. Mövla Əli (ə) bunu özündən demirdi. Əmisi oğlu Peyğəmbərin (s) həyat tərzindən, yaşayışın məntiqi mənzərəsindən dərs almışdı. Özünün buyurduğu kimi: **"Cabir ibn Abdullah Ənsarini gördüm, Peyğəmbərin (s) meracdan gəlməsini təbrik edirdi. Əlini o həzrətin əlindən çəkmək istəyəndə, həzrət səbəbini soruşdu. Cabir isə "əlim qabarlıdır, qorxuram mübarək əlini incidə Ya Rəsullallah",- deyərkən Peyğəmbər onun əlini yuxarı qaldırıb öpdü və dedi: Allah-Təala iki nəfərə həbibullah deyib. Biri mən Məhəmməd həbibullah, biri də əl-kasibu həbibullah. Mən Allahın dostunun əlini öpürəm. Bu qabarlı, zəhmətkeş əl, Allah dostunun əlidir".**

Deməli, ruzi verən Allahdır. Amma onu torpağa sancmaq lazımdır. Əkib becərtmədən Allahdan ruzi diləmək öz-özünü aldatmaqdan da pisdir.

Həmişə aşağıdan yuxarı baxmaq lazım deyil, insan gərək bir az özündən aşağı da baxa bilsin. Bir anlığa keçib gəldiyin həyat yollarına nəzər sal. Məktəbdə şagirdlik dövrünü, məhəllə uşaqlarını, əsgərlik və səfər yoldaşlarını ani olaraq kino lenti kimi nəzərdən keçir və kimin harada olduğunu, kimin dünyasını dəyişdiyini düşün. O zaman öz-özünə razılaşıb, insafən Allaha şükr edərsən. Bilirsinizmi, bu dediklərim nəyə bənzəyir? Həmişə qardaşının köhnə ayaqqabısını geyinən şəxs giley edərək qonşu həyətdən keçirmiş. Bu zaman hər iki ayaqdan məhrum olan bir cavanı gördü. Dərhal Allaha tərəf üz tutub tövbə-inabəyə başladı: İlahi ayaqlarıma dəymə, Səndən təzə ayaqqabı istəmirəm, dedi

Mövla Əlinin (ə) **"Divani-Əmir"** kitabında dediyi bir şerin sonuncu bəndləri belədir: **Yediyin və geydiyin sənindir, qalanları isə vərəsələrindir. Cavabını da sən verəcəksən** (Halal-haramlıq).

Bütün bunlardan belə bir qənaətə gəlmək olur ki, gecə-gündüz özünü fələyin dəminə verib halal-haram, yetim, sağır malı, beytülmal və digər şəriətimizdə qadağa olunmuş dünya malı toplayıb Qiyamət günü cavab vermək məsuliyyətindənsə, bir tikə halala qane olub, rahat yaşamaq ən qiymətli yaşam tərzidir.

Mövla Əlinin (ə) **"Nəhcül-Bəlağə"**sində israfçılığın qarşısını almağı, israfçı və dəbdəbə sevən təbəqənin həyat səviyyəsini təbii həddə gətirməyi lazım bilən hikmətli mətnlər də var. Belə olan halda həyat səviyyələri arasında məqbul fərqdən başqa heç nə qalmır. Bu da bir tərəfdən onların yaxınlığı, digər tərəfdən isə istehsala daha çox nail olmaq üçün hərəkətverici maddi impulsun qalmasına zəmanət verir. İslamın irəli sürdüyü və Mövla Əlinin (ə) öz xəlifəliyi dövründə tətbiq etdiyi əzəməti görmək üçün onları ötəri şəkildə də olsa izləmək, müşahidə etmək, görmək və yaşamaq lazımdır. Bu zaman artıq biz Mövla Əlinin (ə) bu istiqamətdə həyata keçirdiyi iqtisadi tədbirləri az da olsa nəzərdən keçirmiş olarıq.

Mövla Əlinin (ə) bədxərclik və azxərcləmə məsələlərinə münasibəti də ürəkaçandır. Məsələn, bir gün Mövla Əli (ə) İbn Ziyad əl-Harisinin evinin genişliyini görüb buyurur: **"Dünyada bu geniş evi neyləyirsən? Axirətdə buna, dünyadakından daha çox möhtac deyilsənmi? Bəli, əgər axirətdə də belə bir evə sahib olmaq istəyirsənsə, dünyadakı bu evdə qonaqları qəbul etməli, doyurmalısan. Qohumlarını çağırmalı, onlarla görüşməlisən. Bu evdə sənə vacib olan şeyləri ayırıb ehtiyacı olanlara verməlisən. Belə etsən, axirətdə də buna nail olarsan".**

İmam Əlinin (ə) **"Nəhcül-Bəlağə"**si müasir dövrümüzdə də insan üçün maddi tərəflərə metodoloji baxış irəli sürən təlimatlarla zəngindir. **"Kim ibrətlə ona baxarsa, onu bəsirət sahibi edər, amma kim ona şəhvətlə, həsrətlə baxarsa, onu kor edər".** Gözəl kəlamdır, elə deyilmi?

İstər dövlətin, istərsə də ayrı-ayrı fərdlərin iqtisadi imkanlarının yaxşı olmasının zəruri səbəblərindən biri də bədxərclik etməməkdir.

Məsələn, hər hansı bir məmur çalışdığı təşkilatdan onun üçün ayrılmış xidməti avtomobildən ailəsi üçün də istifadə edir. Eyni zamanda onun üçün nəzərdə tutulan artıq yanacaq sərf edərək israfçılığa yol vermiş olur. Beləliklə, bir neçə təşkilatda belə hal təkrar olunsa, onda yaranacaq vəziyyəti təsəvvür etmək çətin deyil.

Mövla Əli (ə) hər zaman ehtiyacı olan insanların ağrı-acılarından narahat olub və dəbdəbəli həyat sürən, israfçı kəsləri bu yoldan çəkindirməyə çalışıb. Mövla Əli (ə) ibrətamiz kəlamlarının birində belə buyurur: **"Leşə yaxınlaşdılar. Onu yeməklə rüsvay oldular, lakin ona öyrəşdilər. Kim bir şeyə eşq salıb aludə olarsa, bəsirəti kor olar, qəlbi xəstələnər. Çünki o, doğru olmayan nəzərlə baxır. İstəklər və şəhvətlər onun ağlını korlayar, dünya onun qəlbini puç edər, özünü sanki unudar…"**

Təbii ki, bu tip insanlar özlərini o qədər unudarlar ki, ölümün nə vaxt yaxınlaşdığını belə hiss etməzlər. Onda da artıq gec olar, iş-işdən keçər, peşmançılıq fayda verməz. İmam Əli (ə) bu haqda buyurur: **"Ölüm vaxtı ona bəzi işlər aydın olanda peşmançılıqdan barmağını dişləyər. İnsan ömür sürdüyü vaxtlarda istədiklərinə çatsa da ölgünlük göstərər və arzu edər ki, qibtə etdiyi və həsəd apardığı adamlar onun özü olmadan bunlara nail olsun".** Mövla sözünə davam edərək buyurur: **"Öz adamları arasında leşə çevrildi. Əlbəttə, onlar bundan dəhşətə gəldilər və ondan uzaqlaşdılar. Çünki o, nə ağlayanı ovundurur, nə də çağırana cavab verir".** (**"Nəhcül-Bəlağə"**, səh. 160-161)

Mövla Əlinin (ə) tərcümeyi-halını və həyatını dərindən öyrənərkən onun şəxsən cəmiyyətin maddi-mənəvi problemlərini həll etməyə aid diqqətəlayiq addımlar atdığını görmüş oluruq. Buna nümunə olaraq Əbu Neyzərin fikirlərini diqqətə çatdıraq:

"Bir gün Həzrət Əli (ə) təşrif gətirdi. Mən tarlada əkinlə məşğul idim. Buyurdu: "Yeməyə nəyin var"? Dedim: "Öz məhsulumuzdan bişirdiyimiz hazır yeməyimiz var, lakin sizin şəninizə layiq deyil". Buyurdu: "Mən əllərimi yuyunca siz onu hazırlayın". Həzrət Əli (ə) su arxının qırağında oturdu, əllərini yudu və qayıtdı. Yağsız bişirilmiş balqabaq gətirdim. Bir az yedi və yenidən arxın qırağına qayıtdı, əllərini yuyandan sonra

buyurdu: "Az miqdar yeməklə doyan qarının xatirinə özlərini Cəhənnəm atəşinə atan (layiq bilən) insanlar necə də bədbəxtdirlər". Sonra buyurdu: "O külüngü bura gətir!" Külüngü götürüb quyu qazmağa başladı. Bir müddət külüng çaldı və yoruldu. Quyudan çıxdı, mübarək alnı tərləmişdi. Tərini sildi, bir az yorğunluğunu aldı, yenidən külüngü götürüb işə başladı. Mən quyunun yanında idim. Birdən su fəvvarə vurdu. O, quyudan çıxdı və buyurdu: Allahı şahid çağırıram ki, bu su ümumxalq vəqfidir. Mənə qələm və kağız gətirin. Mən onun dediklərini gətirdim. O Həzrət yazdı: Bismillahir-rəhmanir-rəhim! Mən, Allahın bəndəsi Əli əmirəlmöminin bu suyu (quyunu) Mədinənin bütün kasıb adamları və xaricdən gələn, yorğun müsafirlər üçün qərar verdim."

Bu, Mövla Əlinin (ə) gözəlliklərlə dolu həyatından gözəl bir nümunə idi. Mövla Əli (ə) dərhal evə gəlir, şəfqət dolu ürəklə dəstamaz alır, üzü qibləyə tərəf dayanır, böyük Allah qarşısında tam xüzu və xüşu vəziyyətində namaz qılır, yəni **"İlahi, əgər Əli Əbu Talib oğlu öz ətrafında, cəmiyyət ətrafında fırlanırsa bunlar Sənin üçündür və Əlinin qul olması da məhz Sənin xatirin üçündür".**

Bütün insanları həyatları boyu müşahidə edən **"dünya malı, dünyada qalacaq"**,-deyimi İslamda da bu və ya digər formada xüsusi qeyd olunur. Məsələn, Mövla Əli (ə) xütbələrinin birində buyurur: **"Dünyanın dövləti əldən-ələ keçər, dünya yaşayışı durulmaz, bulandıqca bulanar. Şirin suyu acıdar, dilə-dodağa acı tam verər. Qidası zəhərdir, adamı öldürər. Yapışmağa, tütmağa hər şeyi çürükdür, qopar, tutanın əlində qalar. Dünyada diri olan ölümü gözləməkdədir. Sağ-salamat olan adam isə bu gün-sabah xəstəliyə çatmaqdadır. Malı-mülkü alınmış, talan edilmişdir. Orada ucalan məğlub edilmiş, dünya malına sahib olan möhnətə düşmüşdür…**

…Yaxşı, bu dünyanı bunun üçünmü seçirsiniz? Buna görəmi könlünüzü ona verirsiniz, ona inanırsınız, onunla qol-boyun olursunuz?!" (**"Nəhcül-Bəlağə"**, səh.165)

Bu məsələ ilə bağlı Həzrət Əlinin (ə) ibrətamiz kəlamlarının bəzilərini ardıcıllıqla diqqətə çatdırırıq:

"Əgər bilsəydiniz ki, sizin bilmədiyiniz hansı şeyləri mən bilirəm, dağlara çıxıb öz işlərinizə görə, ağlayar, özünüzü ora-bura vurar, mal-dövlətinizi keşikçisiz, xələfsiz atıb gedərdiniz".

"Əlçatmaz şeylərə ümid edənləri, dəbdəbəli binalar tikənləri, çox sərvət toplayanları görmədinizmi?! Onların evləri qəbirlərə, topladıqları isə puça çıxdı, var-dövlətləri varislərə, zövcələri isə başqa qövmlərə qaldı".

"Gör, axirət üçün yaradılan bu dunyada nələr edir! Azdan da məhrum edilən və yalnız onun aidiyyat və hesabı ona qalan kəs mal-dövlətlə nələr edir!"

Bütün insanları sadə və imanlı olmağa dəvət edən Mövla Əli (ə) Həzrət Peyğəmbər (s) haqqında danışaraq belə deyərdi:

"Allahın Peyğəmbəri (s) yerdə əyləşib yemək yeyirdi, qullara məxsus bir tərzdə otururdu, ayaqqabısını özü yamayırdı, paltarlarının cırılmış yerlərini öz əli ilə yamayırdı, yəhərsiz ulağa minirdi, yanında biri də olsa, tərkinə götürürdü. Bir gün o Həzrət evə gəlib gördü ki, evinin qapısının üstündə şəkillər olan bir pərdə asılıb. Zövcələrindən birinə buyurdu ki, bunu mənim gö-zümdən uzaq edin, ona baxdıqca dünya zinətini xatırlayıram"...

Mövla Əli (ə) İbn Ziyada məktubunda yazırdı: **"Qənaətlə xərclə, israfçılıqdan uzaqlaşıb, bu gündən axirət dünyasını yadına sal, sənə lazım olan qədər mal saxla və onun bir qismini isə axirət gününə göndər, ehtiyaclı olacaq gününü nəzərə al, sən Allah yanında lovğalıq edirsən və bununla belə istəyirsən ki, Allah sənə təvazökarların əcrini versin?! Sən rifah içərisində ola-ola, zəifə və dul qadınlara əl tutmadığın halda sədəqə verənlərin savabının sənə vacib edilməsini istəyirsən?! Bu qətidir ki, insan keçmişdə gördüyü işlərin müqabilində nə verirsə, qarşısına çıxır…"**

İMAM – DÜNYANIN KÖNÜL ALANI

İbn Əbil Hədid Mötəzili Mövla Əliyə (ə) qarşı vurğunluq və sevgisini bildirərək belə yazır: **"Mən zimmə əhlinin (kitab əhli olan yəhudi və xristianların) Peyğəmbərin (s) nübüvvətini inkar etmələrinə, sevdikləri filosofların şəriət əhli ilə qalmaqalda olmalarına baxmayaraq təzim etdikləri, Rum şahlarının qılıncı çiynindən asaraq döyüşmək üçün ətəyini çırmalamış halda şəklini kilsə və ibadətgahlarında həkk etdirdikləri, Türk və Deyləm padşahlarının şəklini qılınclarına oydurduqları şəxs barəsində nə deyim? Əzududdövlə ibn Buyə, Ruknuddövlə və həmçinin Alp Arslanın, onun oğlu Məlik şahın qılınclarında Əlinin şəkli işlənmişdi. Sanki onlar o Həzrətin şəklini zəfər və qələbə üçün yaxşı fal kimi özləri ilə gəzdirirdilər.**

Mən hamının sevdiyi və özünü ona nisbət verməklə yaxşılıq və gözəlliyini daha da artırmağa çalışdığı şəxs barəsində nə deyim? Hətta bütün mərdlik və igidlik sahibləri özlərini ona nisbət verirlər. Bu barədə bir kitab yazılıb və onda dəlillərlə sübut olunub ki, mərdlik və igidlik kamalı ona məxsusdur. Ona mərd və igidlərin başçısı ləqəbi veriblər. Həmin şəxslər öz yollarını Uhud müharibəsi günü eşidilmiş və səma carçısının – Cənab Cəbrayılın qeybdən fəryad qopardığı "Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur" şüarı əsasında möhkəmləndiriblər.

Mən atası Bəthanın ağası, Qüreyşin şeyxi və Məkkənin böyüyü olmuş şəxs barəsində nə deyim? Deyirlər ki, yoxsul bir şəxsin başçı və ağa olması çox nadir hadisədir. Əbu Talib yoxsul olmasına baxmayaraq ağa və başçı oldu və Qüreyş onu "şeyx" adlandırırdı"... (Cild 1, səh-29).

Əfif Kendinin nəql etdiyi hədisdə deyilir ki, Həzrət Peyğəmbərin (s) dəvətinin əvvəlində onu bir gənc və bir qadın ilə birlikdə namaz qılan görüb. Kendi deyir ki, Abbasdan soruşdum: **"Bu nə məsələdir?"** Abbas dedi: **"Bu kişi mənim qardaşım oğludur və camaat üçün Allahın peyğəmbəri olmasını güman edir.** Qardaşım oğlu olan bu gəncdən və peyğəmbərlik iddiası edənin arvadı olan bu qadından

başqa heç kəs bu əqidəsində ona tabe olmur**"**. Əfif deyir: Abbasa dedim: **"Bu barədə sizin nəzəriniz nədir?"** Dedi: **"Şeyxin nə deməsini gözləyirik". Onun şeyxdən məqsədi Əbu Talib idi. Əbu Talib uşaqlıqdan Peyğəmbəri öz himayəsinə götürmüşdü və böyüyəndən sonra da onu himayə edir, Qüreyş müşriklərinin şərindən qoruyurdu. Əbu Talib Peyğəmbərə görə çoxlu məzəmmət və əzablara qatlaşmalı olub. O, Həzrətə kömək olmaqda səbr edərək müqavimət göstərib. Rəvayətdə deyilir ki, Əbu Talibin ölümündən sonra Peyğəmbərə (s) vəhy olundu ki, sənin köməkçi və yardımçın dünyadan köçdüyü üçün Məkkədən xaric ol".**

Mövla Əli (ə) belə bir atası olmaq şərafətinə malik olmaqdan əlavə, ona əmisi oğlu Mühəmmədin (s) bütün keçmiş və gələcək nəsillərin başçısı olması və Cəfər Təyyar kimi qardaşının olması şərəfi də nəsib olub. O Cəfər ki, Peyğəmbər (s) ona buyurub: **"Ey Cəfər, sən əxlaq və xasiyyət baxımından mənə oxşayırsan". Cəfər Peyğəmbərin bu sözlərindən çox sevindi və güldü. Mövla Əlinin (ə) həyat yoldaşı hər iki dünya qadınlarının xanımı, iki oğlu Həsənlə Hüseyn (ə) Cənnət cavanlarının başçısıdır. Onun ata və ana tərəfdən olan bütün əcdadları Peyğəmbərin (s) babalarıdır. O, Peyğəmbərin əti, qanı ilə yoğrulub. Allah Adəmi (ə) yaradan zamandan onlar bir-birilərindən ayrı olmayıblar və nəhayət, Əbdül Müttəlibdən iki qardaşa, yəni Abdullah ilə Əbu Talibə keçiblər. Abdullah ilə Əbu Talibin anaları da birdir və o iki qardaşdan bəşəriyyətin iki rəhbər və başçısı yaranıb. Onlardan biri birinci və digəri ikinci, biri qorxudan, digəri hidayət edən və yol göstərəndir.**

Tövhid və təkallahlılığa imanda bütün xeyirlərdə hamını ötmüş şəxsdən - Allahın elçisi Mühəmməd Mustafadan (s) başqa heç kəs onu ötmədi və ondan qabağa düşmədi.

Hədis əhlinin əqidəsinə görə, Mövla Əli (ə) Peyğəmbərə (s) ilk tabe olmuş şəxs olub. Mövla Əlinin (ə) özü bu barədə belə buyurmuşdur: **"Mən böyük doğruçu və ilk ayılanam. Hamıdan əvvəl İslama üz tutdum, müsəlman oldum və onların hamısından qabaq namaz qıldım".**

İbn Əbil Hədid Mötəzili Mövla Əli (ə) barəsində bu şövqlü mətləbləri bəyan etdikdən sonra yazır: **"Bu, Əli (ə) fəzilətlərinin çox az bir hissəsi idi ki, mən qısa və az da olsa, onları deməyi özümə lazım, bac və vacib bildim. Əslində isə Əli (ə) fəzilətlərini bəyan etmək üçün böyük kitablar yazmağa ehtiyac vardır".**

Bu böyük İslam alimi və Mövla Əli (ə) kəlamının şərhçisi öz şərhinin altıncı cildinin 376-cı səhifəsində o Həzrətin 86-cı xütbəsindəki **"Peyğəmbərin Əhli-Beytini Quranı qoyduğunuz ən yaxşı yerlərə endirin, yerləşdirin"** kəlamının şərhində deyir: **"Əlinin bu kəlamında böyük bir sirr vardır. Həmin sirr budur ki, o, müsəlmanlara Peyğəmbərin (s) Əhli-Beytini əzəmət və ehtiram baxımından Quran kimi bilmələri, onlara tabe olmağı Qurana tabe olmaları kimi dəyərləndirmələri göstərişini verir".**

İbn Əbil Hədid daha sonra yazır: **"Əgər irad tutub desəniz ki: "Bu mətləb Peyğəmbərin Əhli-Beytinin də Quran kimi səhv, xətadan məsum və uzaq olmasına dəlalət edir. Belədirsə, əhli-sünnədən olan mötəzilə alimlərinin bu barədə nəzəri nədir"?** Böyük mötəzilə alimlərindən olmuş Əbu Mühəmməd ibn Məttəvih **"Əl-Kifayə"** kitabında tam aşkar şəkildə Mövla Əlinin (ə) məsum olması məsələsini açıqlayır. Hərçənd ki, onun fikrincə, imamət üçün məsumluq şərt deyil. Lakin müxtəlif hədis və rəvayətlər Mövla Əlinin (ə) məsum olmasına dəlalət edir. Biz dəlillər əsasında bu mətləbin gizlin və aşkar cəhətləri barəsində tam yəqinliyə malikik. Bu məsumluq elə bir şeydir ki, Peyğəmbərin (s) səhabələri arasında yalnız İmam Əliyə (ə) məxsusdur və başqaları ondan məhrumdurlar.

Hər halda Mövla Əli (ə) fəzilətləri və İlahi məqamı barəsində danışmaq nə qədər çətin və mümkünsüz olsa belə, bəzi məqamlara toxunaraq azacıq məlumat verə bildik.

Belə bir deyimi təkrarlamaq məncə irad sayılmaz: **"Dənizin suyunu çəkib qurtarmaq olmaz. Susuzluq qədəri içmək olar".** Buna görə də Mövla Əlinin (ə) fəzilət və üstünlüklərinin bəyanı barəsində bununla kifayətlənirik. Onun ədaləti barəsində araşdırma aparmağı oxucuların ixtiyarına buraxırıq. Mövla Əli (ə) həqiqətən də canlı ədalət simvolu olub və bəşər tarixi üçün ədalətin gerçək mənasına çevrilib. Bu barədə böyük xristian alimi Corc Cordanın gözəl deyimi ilə söhbətimizi yekunlaşdırırıq: **"Əli ibadət mehrabında ədalətinin şiddətinə görə öldürüldü".**

MÖVLA ƏLİ (Ə) VƏ KƏLAM

Kəlam elmi deyildiyi kimi, Peyğəmbər (s) vücudunun nişanələri, nübüvvət və risaləti isbat edən dəlillərdən biridir. Nübüvvət və peyğəmbərlik iddiasında olan şəxsin danışıq, davranış, rəftar və digər cəhətləri onun peyğəmbərliyini isbat edən ən böyük dəlilidir. Bu məsələ eynilə imamət barəsində də mövcuddur. İmam və peyğəmbərin canişini danışıq, davranış, elm, əxlaq və vücudunun bütün digər cəhətlərində Peyğəmbər (ə) kimi olmalıdır.

Mövla Əlinin (ə) kəlam və sözləri, o Həzrətin imam və peyğəmbərin canişini olmasına qəti və tutarlı mənbədir. Çünki onun kəlamları onları deyənin hədsiz əzəmət və böyüklüyünü göstərir. Heç bir mütəfəkkirin düşüncələrinin onun möhkəm və uca zirvələrinə qalxmaq qüdrəti yoxdur. O, İlahi elm və maarif sellərinin töküldüyü uca bir qüllədir. Bu söz və məsəl bütün İslam alimləri və tədqiqatçıları arasında məşhur və hamı tərəfindən qəbul olunandır ki, Mövla Əlinin (ə) kəlamı sözlərin ən üstünüdür və Mürtəzanın (s) dedikləri bəyəniləndir.

O Həzrətin sözlərinə vurğunluq onun öz zamanından başlanıb və hətta düşmənləri də bunu etiraf ediblər.

Müaviyə ibn Əbu Süfyan dəfələrlə belə deyib: **"And olsun Allaha ki, fəsahəti Qüreyş qəbiləsinə Əlidən başqası gətirməyib. Onu gözəlləşdirən və uca zirvəyə çatdıran Əlidir".**

Halbuki məlum olduğu kimi, Qüreyş ərəblərin ən fəsahətli qəbilələrindəndir. Həm keçmişdə, həm də müasir dünyamızda bu qəbilədən çoxlu xətib və şairlər çıxıb.

Mövla Əlinin (ə) həyatından sonra da bu heyranlıq davam edib və İslamın ilkin əsrlərindən xətiblər, yazıçılar, şairlər o Həzrəti xütbə söyləmək və natiqlikdə özlərinə nümunə seçiblər, onun kəlamının heyranediciliyini və gözəlliyini açıqlayıblar.

Zəmanəsinin ən məşhur yazıçı və natiqlərindən, Mərvani xəlifəsi Mərvan ibn Məhəmmədin katibi olmuş və barəsində **"yazı yazmaq sənəti Əbdülhəmid ilə başladı"**,-deyilən Əbdülhəmid ibn Yəhya Amiri yazır: **"Əlinin xütbələrindən yetmişini əzbərlədim və həmin xütbələr mənim zehnimdə dayanmadan qaynayırdı…"**

Cahiz ləqəbi ilə tanınan, ərəb ədəbiyyatının atası sayılan və Məsudinin keçmiş yazıçıların ən fəsahətlisi adlandırdığı Əbu Osman Əmr ibn Bəhr (255 h.q. ilində vəfat edib) Mövla Əlinin (ə) **"hər bir insanın qiyməti onun sevdiyi şey miqdarındadır"** kəlamını nəql etdikdən sonra yazır: **"Əgər Əlinin kəlamlarından əlimizdə olandan başqa heç nə olmasaydı, təkcə o, dərdimizə çarə üçün bəs edər və ehtiyaclarımızı ödəyərdi. Bu kəlam həddindən artıq gözəl, yetərli və kamilliyin son zirvəsindədir. Çünki ən gözəl söz ən azı səni çox təmin edən və mənası yetərli olandır".**

Məşhur ərəb yazıçısı, xətibi, Hələbdə Seyfuddövlənin vaxtında xütbə oxumaq məqamına malik olmuş İbn Nəbatə Əbdürrəhim ibn Məhəmməd ibn İsmayıl (374 h.q. ilində vəfat edib) yazır: **"Əlinin (ə) xütbələrindən elə bir xəzinə əzbərlədim ki, ondan hər nə qədər xərcləyir və işlədirəmsə, fəsahət və bəlağətimin artmasına səbəb olur. Mən Əli ibn Əbu Talibin moizə və öyüd-nəsihətlərindən yüz xütbə əzbərləmişəm".**

İslam alimləri arasında **"Nəhcül-Bəlağə"**nin ən böyük sərhçilərindən olmuş İbn Əbil Hədid Mötəzili (656 h.q ilində vəfat edib) bu kitabın 216-cı xütbəsini şərh edərkən Mövla Əlinin (ə) kəlamlarının gözəlliyi və fövqəladə təsiri barəsində bəzi mətləbləri bəyan etdikdən sonra yazır: **"Həqiqətən mən bu şəxsə təəccüb edirəm ki, müharibədə şir kimi cəsarətlə xütbə oxuyur. Elə həmin vaxt əgər moizə etmək istəsə, elə moizə edir ki, elə bil tam guşənişinlikdə olub və heç vaxt ət (isti yemək) yeməyən və qan tökməyən rahib və zahidlərdəndir. O, bəzən ərəbin məşhur qəhrəman və cəsurları, bəzən böyük yunan filosof və alimləri, bəzən də Bəni İsrail abidləri Yuhənna və Məsih ibn Məryəm, İlahi şəxsiyyətlər kimidir!.."**

"Əlinin kəlamı insan kəlamından üstün, Allah kəlamından aşağıdır",-deyən İslam alimləri Mövla Əlini (ə) məhz bu cür qiymətləndirə bilmişlər.

ƏLİ (Ə) ÖLÜM YATAĞINDA

Sədr İslamda - besətin başlanğıcında müsəlmanlar öz ali məqsədlərinə çatmaq üçün ən çətin işgəncələrə və əziyyətlərə dözmək məcburiyyətində qalırdılar. Düşmənlərin İslamı qəbul etməməsinə səbəb ata-babalarının xürafat dolu əqidələri, bütlərin məqamını hifz etmək, qövmi və sinfi imtiyazlara iftixar etmək və irsi olaraq bir-birinə keçən qəbilə kin-küdurətləri idi. Bu maneələr yalnız İslamın qüdrətli ordusu vasitəsilə aradan qaldırıldı.

Əgər insan hər hansı bir şeyə olan imanı müəyyən bir həddə çatdırıb, onu öz can və malından üstün hesab edərsə, onda hökmən o şeyin yolunda başdan keçib varlığını ona fəda edəcəkdir. Qurani – Kərim bu həqiqəti aşağıdakı ayədə əks etdirmişdir:

"Möminlər Allaha və onun Peyğəmbərinə iman gətirib ona heç vaxt tərəddüd (şəkk) etməyən, öz mal və canları ilə Allah yolunda çalışanlardır. Onlar həqiqətən öz imanlarında sadiqdirlər". (**"əl-Hücurat"** surəsi, 15-ci ayə).

Məkkə qüreyşləri müsəlmanlara o qədər təzyiq göstərdilər ki, hətta onları öz doğma vətənlərindən xaric etməyə nail oldular. Məcburiyyət qarşısında qalaraq müsəlmanların böyük bir hissəsi Həbəşistana mühacirət etdilər.

Bəni–Haşim tayfasının, xüsusilə, Əbu Talibin oğlu Əlini və Peyğəmbəri (s) himayə etməsinə baxmayaraq, Cəfər ibn Əbu – Talib (Əlinin böyük qardaşı) besətin beşinci ilində Həbəşistana mühacirət edən dəstə ilə getmək məcburiyyətində qaldı. Onlar ta hicrətin yeddinci ilinə qədər (yəni Xeybərin fəthinə qədər) orada qalıb öz dinlərini qorudular.

Besətin onuncu ilində Peyğəmbərin ən böyük himayəçisi və müdafiəçisi olan Əbu Talib vəfat etdi. Əziz əmisinin vəfatından bir–iki gün keçməmiş mehriban həyat yoldaşı və Peyğəmbərin (s) müqəddəs amalı yolunda bütün var-dövlətini ona bəxş edən Xədicə də vəfat etdi. Bu iki böyük himayədarların vəfatı ilə əlaqədar müsəlmanlara qarşı olan təzyiqlər bir az da artdı. Hətta besətin on üçüncü ilində Qureyş başçıları ümumi bir yığıncaqda Peyğəmbəri (s) həbs etmək, öldürmək və ya sürgün etməklə tövhid çırağını söndürmək qərarına gəldilər. Bunun üçün Qureyşin başçıları hər qəbilədən bir nəfərin seçilməsini və onlarla birlikdə gecə yarısı Peyğəmbərin (s)

evinə hücum edib onu yatağında qətlə yetirmək planını qurdular. Beləliklə, həm müşriklər onun təbliğatından rahat olacaq, həm də onun qanı ərəb qəbilələrinin hamısının boynuna düşəcəkdi. Bu bir daha ona görə idi ki, daha Bəni-Haşim tayfası qanın tökülməsində şərik olan bütün qəbilələrlə mübarizəyə qalxıb intiqam ala bilməsinlər.

Allah-Təalanın əmri ilə cənab Cəbrail Peyğəmbəri (s) müşriklərin fitnəli planından xəbərdar etdi. İlahi əmri ona çatdıraraq tezliklə Məkkəni tərk edib Yəsribə getməsini tapşırdı.

Nəhayət, müşriklərin müəyyən etdikləri gecə gəlib çatdı. Məkkə və Peyğəmbərin (s) evi qaranlığa dalmışdı. Qureyşin silahlı məmurlarının hərəsi bir tərəfdən Peyğəmbərin (s) evinə tərəf irəliləyirdilər. Peyğəmbər (s) onların xəbəri olmadan müəyyən bir yolla elə evi tərk etməli idi ki, nəzər yetirəndə onun, evdə öz yatağında yatmış olduğu təsəvvür olunsun. Bu planı icra etmək üçün canından keçən bir nəfər onun yatağında yatmalı, Peyğəmbərin (s) yaşıl mələfəsini üstünə çəkməli idi. Bu da ona görə idi ki, müşriklər onun evdən çıxmasını təsəvvürlərinə belə gətirməsinlər. Nəticədə onların diqqəti yalnız Peyğəmbərin (s) evinə yönələcək, Məkkənin küçələrində və Yəsribə tərəf uzanan yolda maneçilik törətməyəcəklər. Amma kim öz canından keçib belə bir ağır məsuliyyətin altına girib Peyğəmbərin (s) ölüm yatağında yatar? Belə fədakar insan hökmən Peyğəmbərə (s) hamıdan əvvəl iman gətirib besətin əvvəlindən onun xidmətində dayanan bir şəxs oldu. Bəli, bu ləyaqətli şəxs Mövla Əlidən (ə) başqa kim ola bilərdi. Buna görə də Peyğəmbər (s) üzünü Həzrət Əliyə (ə) tutub dedi: **"Qureyş müşrikləri mənim qətlimə xüsusi bir plan hazırlamış və qərara almışlar ki, kütləvi şəkildə evimə hücum edib məni yataqda ikən öldürsünlər. Bu səbəbə görə, Allah tərəfindən mənə əmr olunub ki, Məkkəni tərk edim. Gərək bu gecə mənim yatağımda yatıb o yaşıl parçaya bürünəsən ki, onlar hələ də mənim evdə olduğumu və yatağımda rahatca yatdığımı təsəvvür edib məni təqib etməsinlər".**

Mövla Əli (ə) Peyğəmbərdən (s) soruşdu: **"Sizin yatağınızda yatmaqla, siz sağ-salamat Yəsribə gedib çıxa bilərsinizmi?"** Peyğəmbər (s) buyurdu: **"Allahın vəhy mələyi mənə bu barədə**

təminat verib, sən narahat olma". Mövla Əli (s) buyurdu: **"Min canım olsa, sənin yolunda fədadır ey Allahın Peyğəmbəri".** Həzrət Əli (ə) Peyğəmbərin (s) sözünə əməl edib ertədən onun yatağında uzandı.

Qüreyşlər evi mühasirəyə almışdılar. Hər dəfə hücum etmək istəyəndə Peyğəmbərin (s) əmisi Əbu Ləhəb **"bir az gözləyin, hələ tezdir"**,- deyib onları yubadırdı. Sonralar bunun səbəbini soruşanda **"arvad-uşaqların narahatçılığına görə belə edirdim"** demişdir. Artıq dan yeri ağarırdı. Qureyş Əbu Ləhəbə əhəmiyyət verməyib evə soxuldular. Peyğəmbərin (s) yatağına yaxınlaşanda Əli ibn Əbu Talibi (ə) qəzəblə yataqdan qalxan gördülər. Təəccüblə soruşdular: **"Bəs, Mühəmməd (s) hanı?"** Həzrət Əli (ə) buyurdu: **"O, məni yatağında yatırdıb özü şəhəri tərk etdi".**

Qurani–Kərim Mövla Əlinin (ə) bu misilsiz hünər və fədakarlığının bütün əsrlərdə əbədi qalsın deyə, bir ayədə tərifləyir və onu ölümünü gözünün qarşısına alaraq, Allahın razılığını əldə edən möminlərdən hesab edir. Ayənin özünə diqqət edək:

"İnsanların elə si də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır". (**"əl-Bəqərə"** surəsi, 207-ci ayə).

Əksər tarix yazanlar Həzrət Mühəmmədin (s) düşmənlərin mühasirəsindən asanlıqla, hiss olunmadan çıxmasının möcüzəli sirrini **"Yasin"** surəsinin 9-cu ayəsindən istifadə etməsi ilə əlaqələndirirlər. Həzrət bu ayəni oxuya-oxuya onların arasından çıxdı və onlar onu görmədilər. Qurani-Kərimdə buyurulur:

"Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də (Allahın qüdrətinə dəlalət edən əlamətləri) görmürlər. (Kafirlərin qəlb gözü kor edilmiş, bütün iman yolları üzlərinə bağlanmışdır. Onlar zahirən görsələr də, mənən kordurlar".

Bəli, mümkündür ki, Allah-Təala istədiyi zaman öz Peyğəmbərinə (s) kömək etsin. Lakin burada Allah-Təala öz Peyğəmbərinə qeyri–adi möcüzə ilə nicat vermək istəmədi. Əgər belə olsaydı, o zaman Əlini (ə) Peyğəmbərin (s) yatağında yatırtmazdı. Və ya Peyğəmbər (s) bir neçə gün **"Sovr"** mağarasında o çətin şəraitdə gizlənməzdi.

Bütün bu olmuş hadisələr Həzrət Peyğəmbərin (s) ağıl və zəkasının məhsulu idi.

Bəzi rəvayətlərdə deyilir ki, Peyğəmbər (s) onların mürgüləməyindən istifadə edib çıxa bilmişdir. Bu fikrin özü də həqiqətdən uzaqdır. Mümkün deyil ki, qırx nəfərə yaxın silahlı bir dəstə belə bir məsuliyyətli işdə səhlənkarlığa yol versin.

Lakin bu fikri də söyləmək olar ki, Peyğəmbər (s) ev mühasirəyə alınmamışdan əvvəl evdən çıxmış olsun. (**"Tarixi – Təbəri"**, 2-ci cild, səh. 97)

Peyğəmbərin (s) evinin Qüreyş qatilləri tərəfindən mühasirəyə alındığı gecədə Həzrət Əlinin (ə) fədakarlığı danılmaz bir həqiqətdir. Təfsirçilər bu hadisə ilə əlaqədar yuxarıda qeyd etdiyimiz ayənin təfsirində onun məhz Mövla Əli (ə) haqqında nazil olmasını qeyd etmişlər. Amma gözlərində pərdə, ürəklərində Əliyə (ə) qarşı ədavət və kin olanlar bu böyük və tarixi fəziləti başqa cür təfsir etmiş, onun əzəmət və fədakarlığını azaltmağa çalışmışlar. Əhli-sünnənin tanınmış alimlərindən olan Cafiz belə yazır: **"Əlinin Peyğəmbərin yerində yatmasını heç vaxt itaət və böyük fəzilət hesab etmək olmaz, çünki Peyğəmbər ona təminat vermişdi ki, əgər onun yerində yatsa, ona heç bir ziyan yetişməyəcək".** (**"Əl-Osmaniyyə"**, səh. 45).

İbn Teymiyyə Dəməşqi bu sözə əlavə edərək yazır: **"Əli başqa yolla da bilirdi ki, öldürülməyəcək, çünki Peyğəmbər ona demişdi ki, sabah Məkkədə müəyyən bir yerdə elan etsin ki, hər kəsin Mühəmmədin yanında əmanəti olmuş olsa, gəlib götürsün. Əli Peyğəmbərin ona buyurduğu işdən yaxşıca başa düşdü ki, əgər o həzrətin yerində yatsa, ona heç bir zərər toxunmayacaq və salamat qalacaqdır".**

Bunlara əsasən, heç də inandırıcı deyil ki, Peyğəmbər (s) belə bir şeyi demiş olsun və əgər demiş olsa da, hər iki məsələni (xətərin yetişməməsi və camaatın əmanətlərinin qaytarılması) elə həmin ilk gecədə deməsi heç cür məlum deyil. Bu hadisə şiə və sünnü alimlərinin bəziləri tərəfindən bir neçə cür nəql olunmuşdur.

Məşhur alim mərhum Şeyx Tusi özünün **"Amali"** kitabında Peyğəmbərin (s) salamat qurtarması ilə nəticələnən hicrət hadisəsinin ardını belə yazır: **"Hicrət gecəsi keçib getdi. Əli (ə) Peyğəmbərin (s) gizləndiyi yerdən xəbərdar idi və Peyğəmbərin**

səfərinə lazım olan şeyləri tədarük görmək üçün gecə vaxtı onunla görüşməli idi". (**"Əyanüş-Şiə"**, 1-ci cild, səh. 237)

Həzrət Peyğəmbər (s) üç gecə **"Sovr"** mağarasında qaldı. Gecələrin birində Mövla Əli (ə) və Xədicənin oğlu Hind ibn Əbu–Halə mağaraya gedib Peyğəmbərlə (s) görüşüb danışdılar.

Peyğəmbər (s) Əliyə (ə) aşağıdakı göstərişləri verdi:

1. "Mən və mənim səfər yoldaşım üçün iki dəvə hazırla". Bu vaxt Əbu Bəkr (r) dedi: **"Mən əvvəlcədən bu iş üçün iki dəvə hazırlamışdım".**

Peyğəmbər buyurdu ki, bu iki dəvənin pulunu ödəyəcəyim halda səndən qəbul edərəm. Sonra Mövla Əliyə (ə) dəvələrin pulunun ödənilməsini tapşırdı.

2. Mən Qüreyşin əmin adamıyam, elə indinin özündə də camaatın əmanətləri mənim evimdədir. Sabah gərək Məkkədə müəyyən olunmuş bir yerdə dayanıb uca səslə elan edəsən ki, hər kəsin Mühəmmədin (s) yanında əmanəti varsa, gəlib aparsın.

3. Əmanətləri qaytarandan sonra özün də mühacirət etmək üçün hazırlaşmalısan. Mənim məktubum sənə çatan kimi qızım Fatiməni, öz anan Fatiməni və Zübeyr ibn Əbdül – Müttəlibin qızı Fatiməni özünlə gətir. Əgər Bəni-Haşimdən də hər kəs mühacirət etmək istəsə, onların da mühacirət etmələri üçün hazırlıq gör. Sonra buyurdu: **"Bundan sonra səni izləyən hər bir xətər aradan qaldırılmışdır və sənə heç bir xətər toxunmayacaq".**

Qeyd: Axırıncı bu cümlə elə İbn Hişamın **"Siyrə"**sində və Təbərinin öz tarixində qeyd etdikləri cümlədir. Buna əsasən, əgər Peyğəmbər (s) Mövla Əliyə (ə) təminat vermişdisə də, bu, hicrət gecəsi yox, sonrakı gecələrdə olmuşdur. Və əgər Əliyə (ə) əmanətləri qaytarmaq haqqında fərman vermişdisə də, bu **"leylətül–məbit"**də yox, ikinci, yaxud da üçüncü gecədə olmuşdur.

Hələbi öz **"Siyrə"**sində yazır: **"Peyğəmbərin mağarada olduğu gecələrdən birində Əli onun hüzuruna yetişdi. O gecə Peyğəmbər Əliyə göstəriş verdi ki, camaatın əmanətlərini qaytarsın və Peyğəmbərin qalan borclarını ödəsin".** (**"Siyreyi – Hələbi"**, 2-ci cild, səh. 36-37).

"Əd–Dürrül–Mənsur" kitabının müəllifi nəql edir ki, hicrət gecəsindən sonra İmam Əlinin (ə) Mühəmməd Peyğəmbərlə (s) görüşü olmuşdur. (**"Siyreyi– Hələbi"**, 2-ci cild, səh. 36-37)

Qeyd: İki tarixi sənəd təsdiq edir ki, Mövla Əlinin (ə) o gecədəki işi fədakarlıqdan başqa bir şey deyildi. O Həzrət həqiqətən Allah yolunda öldürülüb şəhid olmağa hazır idi. Həmin tarixi sənədlər aşağıdakılardır:

1. İmam Əlinin (ə) bu tarixi hadisə ilə əlaqədar olaraq dediyi və Siyutinin də öz təfsirində həmçinin Qəzzalinin **"Ehyaül-Ulum"** kitabında nəql etdikləri o Həzrətin fədakarlığına dair aşkar bir sübutdur. **"Mən öz canımı yer üzünün ən yaxşı bir şəxsi, Allah evini və hicri – İsmayılı təvaf edən ən qiymətli bir şəxs üçün sipər etdim. O möhtərəm şəxs Mühəmməd idi. Kafirlər onun qətli üçün plan çəkdikləri vaxt mən bu işə iqdam etdim. Amma mənim Allahım onu düşmənlərin hiyləsindən qurtardı. Mən onun yerində gecələdim, düşmənlərin hücumunu gözləyirdim, özümü ölümə və əsir olmağa hazırlamışdım".** (**"Biharül-Ənvar"**, 19-cu cild, səh. 39

2. Əhli-sünnə və şiə alimləri nəql etmişlər ki, o gecə Allah-Təala özünün iki böyük mələyinə (Cəbrail və Mikailə) xitab edərək buyurdu: **"Əgər mən sizin birinizə həyat, digərinizə ölüm hökmü versəm, hansınız ölümü qəbul edib həyatı o birinizə verərsiniz?"** Bu anda onlardan heç biri ölümü qəbul edərək, o birisinin yolunda canından keçməyə razı olmadı. Sonra Allah-Təala o iki mələyə xitab etdi: **"Yerə enin və Əlinin ölümü necə qəbul edib özünü Peyğəmbərə fəda etdiyini görün, sonra onu düşmənlərin şərindən saxlayın".** (**"Biharül-Ənvar"**, 19-cu cild, səh. 39, Qəzzalinin **"Ehyaül-Ulum"** kitabından)

Uzun bir zamanın keçməsindən istifadə edərək belə böyük bir fəzilətin üstünə pərdə çəkmək istəsələr də, Mövla Əlinin (ə) bu əməli dost və düşmən gözündə ən böyük bir fədakarlıq sayılır. Ömər ibn Xəttabın (r) fərmanı ilə təşkil olunan altı nəfərlik Şurada da Mövla Əli (ə) bu böyük fəziləti yada salaraq üzünü onlara tutub dedi: **"Sizi and verirəm Allaha, məndən başqa bir kəs var idimi ki, Peyğəmbər Həra mağarasında olanda ona yemək aparsın? Məndən başqası**

var idimi ki, onun yerində yatıb özünü ona gələn bəlalara sipər etsin"? Bir ağızdan dedilər: "Vallah, (Allaha and olsun) səndən başqası olmayıbdır"! (**"Xisal-Şeyx Səduq"**, 2-ci cild, səh. 123; **"Ehticac-Təbərsi"**, səh. 74).

Mərhum Seyyid İbn-Tavusun Həzrət Əlinin (ə) fədakarlığı barədə gözəl bir təhlili var. Müəllif onu İsmayılın fədakarlığı və habelə atası İbrahim peyğəmbərin (ə) qarşısında sədaqətlə təslim olmasına oxşadaraq İmam Əlinin (ə) o gecəki işinin ən yüksək bir fədakarlıq olduğunu bəyan etmişdir. (**"İqbal"**, səh. 593; **"Biharül-Ənvar"**, 19-cu cild. səh. 98).

ƏLİ (Ə) ÖLÜMÜNÜN SON SAATLARINDA

Mövla Əlinin (ə) həyatının son günlərinin ən heyrətamiz mərhələsi təqribən qırx beş saat olub.

Mövla Əlinin (ə) həyatının təqribən o iki günü – qırx beş saatı Əhli-beyt üçün ən həyacanlı anlar olmuşdur ki, bu da o Həzrətin zərbətlənməsindən vəfatına kimi olan dövrü əhatə edir. Onun kamil insan olması burada, yəni ölümlə üzbəüz dayandığı anda daha çox aşkar olur.

Mövla Əlinin (ə) ölümlə üzləşərkən göstərdiyi ilk əməl nədən ibarət olub?

Qılınc, o Həzrətin mübarək başına dəyəndə ondan iki cümlə eşidilib. Həmin cümlələrin biri **"Kəbənin Rəbbinə and olsun ki, feyzə-muradıma nail oldum"** – yəni şəhadətə yetişdim, şəhadət mənim üçün böyük səadət və uğurdur, ikincisi isə **"bu şəxsi tutun"** sözləri olmuşdur.

Mövla Əlini (ə) gətirib yatağında uzatdılar. Onun yarasını müalicə etmək üçün Kufədə yaşayan adlı-sanlı təbib Əsir ibn Əmri gətirdilər. Təbib dövrün mövcud müalicə və müayinə üsulları ilə o Həzrəti yoxladı və qılıncın zəhərlə suvarıldığını və onun qana keçdiyini başa düşdü. Buna görə də bu dərdin əlacsız olduğunu fəqət İmam Həsənə (ə) bildirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, əlacsız xəstənin dərdinin düzəlməyəcəyini onun özünə deyil, yaxın adamlarına deyirlər. Buna baxmayaraq, həkim bilirdi ki, Əlinin (ə) vəziyyətini onun özünə də demək

lazımdır. Buna görə də belə dedi: **"Ey Əmirəlmöminin, vəsiyyətin varsa, buyur!"**

Ümmü Gülsüm əzəli və əbədi lənət sahibi olan İbn Mülcəmi görəndə ona dedi: **"Mənim atam sənə nə etmişdi? Mən atamın sağalacağına, üzüqaralığın isə sənə qalacağına ümid bəsləyirəm".**

Ümmü Gülsüm bu sözləri deyəndə İbn Mülcəm danışmağa başladı: **"Arxayın ola bilərsən, mən həmin qılıncı min dirhəmə almışam, min dirhəm də vermişəm ki, onu zəhərlə suvasınlar, mən o qılınca o qədər zəhər yedirtmişəm ki, əgər Kufə əhalisinin başına birdən dəysəydi, hamısını bir yerdə öldürərdi. Atanın sağ qalmayacağından tam arxayın ola bilərsən".**

Mövla Əlinin (ə) heyranediciliyi və insani keyfiyyətləri özünü burada göstərir. Vəsiyyətlərindən biri də **"əsirinizlə xoş davranın"** sözləri olur. Sonra isə belə deyir: **"Ey Əbdül Müttəlib övladları! Mən dünyadan köçdükdən sonra camaatın arasına düşüb, "Əmirəlmöminin şəhid oldu, filankəs qatili təhrik etdi, filankəsin bu işdə əli var"**, – **deyib onu-bunu günahlandırmayın. Sizin bu söhbətlərin dalınca getməyinizi istəmirəm. Mənim qatilim bir nəfərdir".**

Sonra üzünü İmam Həsənə (ə) tutub buyurdu: **"Oğlum Həsən! Məndən sonra onun ixtiyarı sənin əlindədir, azad etmək istəsən, edərsən, qisas almaq istəsən isə, yadında qalsın ki, o sənin atana bir zərbə vurub. Sən də ona bir zərbə vurarsan, ölsə ölüb, ölməsə də ölməyib".**

Sonra yenə öz qatilinin vəziyyəti ilə maraqlanıb, ona yemək və su verilməsini soruşur. O Həzrətə süd gətirirlər. Mövla Əli (ə) süddən bir az içib kasanı ətrafındakılara verərək belə deyir: **"Qalanını həmin adama verin ki, ac qalmasın".**

İmam Əlinin (ə) düşməni ilə bu cür rəftarını Mövlana Cəlaləddin Rumi öz "Məsnəvi"sində belə vermişdir:

Dər şocaət şiri-Rəbbanisti.
Dər morovvət xod ki, danəd kisti?

Yəni, **"Şücaətdə Allahın şiri olmağın şübhəsizdir, mürüvvətdə isə kim olduğunu sən özün daha yaxşı bilirsən".**

Bunlar Əlinin (ə) mərdliyi və insanlığıdır. O, ölüm yatağına düşüb və halı getdikcə pisləşir, zəhər müqəddəs bədəninə daha çox təsir edirdi. Ətrafındakılar, səhabələri narahat olur, ağlayır və nalə çəkirdilər. Amma Mövla Əlinin (ə) dodaqlarının təbəssümlə dolu olduğunu görürdülər. Mövla Əli (ə) həmin vəziyyətdə belə buyurur: **"Allaha and olsun ki, başıma gələn mənim bəyənmədiyim şey deyil, xeyir! Allah yolunda şəhid olmaq həmişə mənim arzum olub, mənə ibadət halında şəhid olmaqdan daha yaxşı nə ola bilər".**

Sonra ərəblər arasında çox məşhur olan bir misalı çəkir. Ərəblər səhralarda köçəri həyat sürdükləri üçün su və ot olan yerlərdə məskən salardılar. Həmin yerin su və otu qurtarmayınca ordan köçməzdilər. Su və ot qurtardıqdan sonra isə başqa yerdə su və ot tapıb ora köçərdilər. Gündüzlər hava çox isti olduğu üçün onlar bəzən su olan yer tapmaq üçün gecələr axtarışa çıxardılar. Gecə su dalınca gedən şəxsə **"qarib"** deyirdilər. İndi Mövla Əli (ə) camaatı başa salmaq üçün belə deyir: **"Ey camaat! Gecə vaxtı su axtaran və birdən su tapan adam necə sevinər? Mən zülmətli bir gecədə su tapan və öz məşuquna çatan aşiq kimiyəm".**

Duş vəqte səhər əz qosse necatəm dadənd
Vandəran nimeye şəb abe həyatəm dadənd
Çe mübarək səhəri budo çe fərxonde şəbi
On şəbe qədre ke in tazə bəratəm dadənd

Bu beyt **"Kəbənin Rəbbinə and olsun ki, muradıma nail oldum"** cümləsinin mənasını tərənnüm etdirir. **"Məni qüssədən qurtardılar"** mənasındadır. Həzrət Əlinin (ə) ən təlatümlü və hərarətli sözləri həmin 45 saatda deyilib. O, Ramazanın 19-cu günü, dan yerinin sökülməsinin ilkin vaxtlarında zərbətləndi və 21-ci gecəsi, gecə yarı müqəddəs ruhu asimana pərvaz etdi.

Şeirin dördüncü misrasında deyildiyi kimi "O qədr gecəsi ki, mənə yeni bəraət verdilər" deməklə həyatdan gözlərini yumdu...

Mövla Əlinin (ə) ömrünün son anlarında hamı onun yatağı ətrafında toplaşmışdı. Zəhər mübarək bədəninə çox təsir etmişdi və buna görə də, bəzən özündən gedir, bihuş olurdu. Amma huşa gələn kimi yenə də o həzrətin dilindən hikmət və nəsihət dolu dürri-gövhər tökülürdü. Onun son kəlamı iyirmi maddədə bəyan etdiyi hərarətli və şövqlü moizələri idi. O, həmin moizədə əvvəl Həsən və Hüseynə, sonra isə digər ailə üzvlərinə xitab edib: **"Həsənim, Hüseynim! Ey bütün övladlarım və qiyamətə kimi sözüm onlara çatacaq insanlar, sizinləyəm!"** (Yəni, Əli (ə) bizə, sizə və Qiyamətə qədər yaşayacaq olan insanlara da xitab etmişdir).

O, bu kəlmələri ilə İslamın hərtərəfliliyini bəyan edib: **"Sizə yetimləri, bir daha yetimləri tapşırıram! Sizə Allahın kitabını, Quranı tapşırıram! Sizə qonşularınızı, bir daha qonşularınızı tövsiyə edirəm! Rəbbinizin evi barəsində Allahdan, Allahdan qorxun, namazınızı heç vaxt təxirə salmayın…"**

Fikrində olan mətləbləri dedikdən sonra gözlər Mövla Əlinin (ə) dodaqlarına dikilir, onun halının dəyişdiyi və müqəddəs alnının tərlədiyi müşahidə olunur. Artıq Mövla Əlinin (ə) gözləri ətrafındakılardan üzülürdü. İnsanların göz və qulaqları bir daha nə demək istədiyini bilmək üçün o Həzrətin dodaqlarına dikilmişdi. Bir də gördülər ki, Mövla Əlinin (ə) **"Əşhədu ənla ilahə illəllah və Əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu"** səsi ucaldı.

La hovlə vəla qüvvəta illa billahil əliyyil əzim!

MÖVLA ƏLİNİN (Ə) ŞƏHADƏTİ

Bəzi tarixçilər Mövla Əlinin (ə) şəhadətini belə nəql edirlər.

Mövla Əli (ə) hicrətin 40-cı ili bir namərd fərdin – İbn Mülcəmin vasitəsilə Kufədə ibadət mehrabında şəhadətə yetişdi. O Həzrətin qatilinin adı Əbdür-Rəhman İbn Mülcəm Muradi idi. Bir gün İbn Mülcəm Muradi Mövla Əlinin (ə) xidmətinə gəlir və bir qılınc hədiyyəsi gətirir. Mövla Əli (ə) töhvəni camaatın içində almayaraq buyurur: **"Mənim qatilim sənsən".**

İbn Mülcəm dedi: **"Ey Əmirəlmöminin! Heç vaxt məndən həzrətinizə qarşı belə hərəkət baş verə bilməz. Mən ki, sənə xidmət etmək üçün vətənimdən ayrılıb qürbətə gəlmişəm".**

Həzrət Əli (ə) dedi: **"Ey ibn Mülcəm! hər halda mənim həyatıma sən son qoyacaqsan".**

Kufə camaatı Nəhrəvan qələbəsi münasibətilə şadlıq etdikləri zaman ibn Mülcəm dar-ül-imarədən evinə gedərkən gördü ki, bir evin qapısı açıldı, oradan bir neçə qadın çıxdı. Onların arasında biri olduqca gözəl idi. İbn Mülcəm yaxınlaşıb onun kim olduğunu soruşdu. Qadın cavab verir: **"Bəni Təmim qəbiləsindənəm. Adım Quttamdır. Ərdə deyiləm".** Quttamın gözəlliyi İbn Mülcəmdə ona qarşı məhəbbət oyatdı və Quttama dedi: **"Ey Quttam! Məni özünə qul kimi qəbul et!"** Quttam dedi: **"Bu, böyük işdir, böyüklərimlə məsləhət edərəm, qohumlarımdan, dostlarımdan izin almamış mümkün deyil".** Quttam mənzilinə daxil oldu. İbn Mülcəm eşikdə dayanıb cavab gözlədi. Bir qədər sonra Quttam eyvana çıxıb ibn Mülcəmə dedi: **"Mən razıyam mehriyyəmi verməyə qüdrətin çatar?"**

İbn Mülcəm soruşdu: **"Mehriyyən nədir?"** Quttam dedi: **"Mənim mehriyyəm üç şeydir: 3 min Bağdad dirhəmi, bir kəniz və bir də Əli ibn Əbu Talibin öldürülməsi".** İbn Mülcəm dedi: **"Ey Quttam, dirhəm və kəniz mümkündür. Amma Əlinin öldürülməsi böyük və qorxulu işdir."** Quttam dedi: **"Kənizdən keçdim, amma Əlinin öldürülməsi vacibdir. Çünki mənim qardaşım və 10 nəfər qohumum xəvariclərin dəstəsində idilər. Onlar Əlinin qılıncı ilə öldürülmüşlər. Ondan bu intiqamı almayınca rahat olmayacağam. Mənim ərim ancaq bu işi görən adam olacaq".**

Söhbət əsnasında İbn Mülcəmin yadına Əli ibn Əbu Talibin dedikləri düşdü və fikirləşdi ki, görünür, bu iş olmalıymış.

İbn Mülcəm dedi: **"Ey Quttam, mən bu işi görərəm, amma bu şərtlə ki, ona bir zərbə vuracağam. Razısanmı?"** Quttam cavab verdi: **"Razıyam. Həmçinin bir neçə adam verəcəyəm ki, sənə kömək etsinlər və səni qorusunlar. Əgər sözün doğrudursa, qılıncını mənə ver ki, şərtimizi pozmayasan".** İbn Mülcəm qılıncını ona verib evinə getdi.

Həmin gün Həzrət Əmir Nəhrəvandan qayıdırdı. Kufə əhalisi onu qarşılamağa çıxmışdı. Mövla Əli (ə) Came məscidinə gəldi, iki rükət namaz qıldı, övladları, əyan və əşrəflə görüşüb xütbə oxudu. Hamını Cənnətə ümidli və Cəhənnəmdən xəbərdar etdikdən sonra sağ tərə-

fində dayanan İmam Həsəndən (ə) soruşdu: **"Oğlum, Ramazandan neçə gün getdi".** Sonra sol tərəfində dayanmış İmam Hüseyndən (ə) soruşdu: **"Oğlum, Ramazandan neçə gün qalıb".** Hər ikisi lazımı cavabı verdilər. Əmirəlmöminin əlini saqqalına çəkib dedi: **"Bu ayda mənim qanım bu məsciddə töküləcək. Mənim qatilim də bu məsciddədir".**

İbn Mülcəm bu sözlərdən dəhşətə gəlib xəlvətdə Həzrət Əmirin yanına gəlib dedi: **"Ya Əmirəlmöminin! Səndən xahişim budur ki, əmr edəsən, mənim əllərimi kəssinlər. Mövla Əli (ə) dedi: "Mən günahdan əvvəl qisas almaram, amma Rəsul-Əkrəm mənə xəbər verdi ki, sənin qatilin Muradi qəbiləsindən olacaq, sənə öz muradı üçün zərbə vuracaq, amma muradına yetməyəcək. Ya ibn Mülcəm! Sənə bir xəbər verim ki, sözlərimin doğru olduğunu yoxlayasan. Sən uşaq olan vaxtı sənin dayən bir yəhudi qadın idi. Yəhudi bir gün hirslənib sənə dedi: "Ey Salehin dəvəsini öldürən qatildən betər olan qatil".**

İbn Mülcəm dedi: **"Ya Əmirəlmöminin doğrudur".** Bundan sonra o, mütəəssir olub getdi.

Mövla Əli (ə) məsciddən evinə gəldi. O, bir gecə İmam Həsənin (ə), bir gecə İmam Hüseynin (ə) evində iftar edərdi, amma heç yerdə üç tikədən çox yeməzdi. Ondan soruşurdular: **"Ya Əmirəlmöminin az yeməyin (ə) səbəbi nədir?"** O dedi: **"Haqq ilə görüş vaxtı yaxındır, təmizliyi gözləmək istəyirəm".**

Mövla Əli (ə) Ramazan ayının 19-da sübhə qədər ibadət etdi. Hər saatda bir dəfə evindən çıxıb göy üzünə baxır və deyirdi: **"Rəsulullah doğru deyirmiş. Haqdır ki, onun dediyi səhv olmaz. Lövhi-möhfuzda yazılan heç vaxt pozulmaz".**

Sübh oldu, xoruzlar banladı, müəzzinlərin səsi gəldi. Mövla Əli (ə) məscidə tələsirdi.

Həmin gecə İbn Mülcəm Quttamın evinə gəldi. Quttam İbn Mülcəmin qılıncına zəhər sürtdü. O, Mərvan Təmimi və Şis Behtərini də bu qətlə cəlb etdi. Bu üç nəfər bütün gecəni şərab içib yatdılar. Quttam azan səsini eşidən kimi onları oyatdı: "Durun, Əli məsciddə təkdir". İbn Mülcəm həmin iki nəfərlə tələsik məscidə gəldilər.

Mərvan və Şis qərarlaşdırdılar ki, hərəsi məscidin qapısının bir tərəfində dursunlar. İbn Mülcəm isə məscidin içində gözləsin. Əvvəlcə bu iki nəfər zərbə endirməli idilər, əgər müvəffəq olmasalar, işi İbn Mülcəm tamamlamalı idi. Onlar məscidə gəlib çatdılar, yerə uzanıb özlərini yatmış göstərdilər. Həzrət Əli (ə) məscidə ayaq basdıqda Məvran Təmimi ona ox atdı, lakin ox məscidin qapısının tağına dəydi. Şis ibn Bəhr Mövla Əliyə (ə) hücum etməyə cürət etmədi. Onlar aradan çıxıb qaçdılar. Həzrət Əli (ə) ziyarət namazını qılıb yatanları bir-bir oyatdı və ibn Mülcəmi də ayağı ilə tərpədib dedi: **"Qalx namaz qıl".** Sonra mehraba girib namaz qılmağa başladı. İmam birinci səcdədən baş qaldırdığı zaman İbn Mülcəm onun başına bir qılınc vurdu. Əmirəlmöminin (ə) **"Kəbənin sahibinə and olsun ki, feyzə yetişdim",** – deyərək yerə yıxıldı. İbn Mülcəm dəhşət içində məsciddən çıxdı və küçədə **"Əmirəlmöminin öldürüldü",**-deyə qışqıra-qışqıra qaçdı.

Bu xəbəri eşidən Kufə əhli kiçikdən böyüyə məscidə tərəf axışdılar. İmam Həsən (ə) və İmam Hüseyn (ə) gəlib atalarını yaralanmış halda gördülər. Həzrət Əli (ə) o halətdə Allaha həmdu sənalar edirdi: **"Şükr olsun Allaha ki, mənə şəhidlik nəsib oldu. Bu nişanə ilə Allahın dərgahına gedəcəyəm. Rəsulullahın, Zəhranın, Seyydiş-Şühəda Həmzənin, Cəfəri Təyyarın görüşünə gedəcəyəm".**

Mövla Əlinin (ə) yarasını bağlayıb ona kimin qəsd etdiyini soruşdular. Mövla Əli (ə) buyurdu: **"Səbr edin, bilinəcək, bu işi tutan kəsi haqq özü aşkar edəcək".**

Bundan bir qədər sonra Şis ibn Bəhrin küçə ilə tələsik getdiyini görən bir şəxs ondan şübhələnib soruşdu: **"Olmaya Əmirəlmöminin qatili sənsən?"** Şis inkar etmək istədi, amma özü də bilmədən təsdiq etdi. Kufə əhli onu daşqalaq etdilər.

İbn Mülcəm isə məsciddən çıxıb evinə gələndə kufəlilərdən biri onu görüb şübhələndi. İbn Mülcəm evdə silahını çıxarıb geyimini dəyişdiyi zaman həmin kufəli otağa daxil olub soruşdu: **"Əmirəlmöminin qatili sənsənmi?"** İbn Mülcəm **"yox"** demək istədi, amma **"hə"** dedi. Kufəli onu tutub məscidə gətirdi. Həzrət Əli (ə) ona dedi: **"Qardaş, məgər məndən əminlik yox idi ki, məni öldürmək istədin?"** İbn Mülcəm cavab verdi: **"Məazəllah"** (Allaha pənah

aparıram). Həzərət Əli (ə) dedi: **"Bəs, nə səbəbə mənə qəsd etdin"?** İbn Mülcəm cavab verdi: **"Ey Əmir, mən səndən yaxşılıqdan başqa heç bir şey görməmişəm. Amma nə etmək olar, Allahın işi təqdir edilmiş qədərdir."** Mövla Əli (ə) buyurdu: **"Onu həbs edin, nə qədər ki, mən sağam yeyib-içdiyimdən ona da verin və əziyyət verməyin. Əgər sağ qalsam, ixtiyar mənimdir, əgər ölsəm o, mənə bir zərbə vurub, siz də ona bir zərbə vurun".**

İmam Həsən (ə) və İmam Hüseyn (ə) Həzrət Əlini (ə) bir xalça üstündə məsciddən çıxardılar. Artıq sübh açılmışdı. Həzrət Əli (ə) buyurdu: **"Övladlarım, məni gün çıxan tərəfə tutun".** O, üzünü gün çıxan tərəfə tutub dedi: **"Ey sübh, səni and verirəm Allaha, qiyamət günü şəhadət verəsən ki, Həzrət Rəsuldan namaz öyrəndiyim gündən bu günə kimi sən məni yuxulu görməmisən, mən həmişə səni oyaq qarşılamışam".** Sonra üzünü göyə tərəf tutub dedi: **"İlahi, sən bu hadisəyə şahidsən. Qiyamət günündə 124 min peyğəmbər övliyaların ruhları və bütün şəhidlər göy altında hazır olduqları vaxt şəhadət verin".**

Ətrafdakılar bu sözlərdən sonra ağladılar. Əhli-beyt fəqan etdikdə Mövla Əli (ə) onlara təsəlli verib buyurdu: **"Mən Mustafa və Zəhra ilə görüşə gedirəm. Mənim üçün təəssüf etməyin, əzab çəkməyin. Çünki mən gecə yuxuda gördüm ki, Həzrət Rəsul mübarək əli ilə üzümdən tozu silirdi. Bu, onu göstərir ki, ruhumun üzündən bədənimin tozu silinir".**

Ümmü Gülsüm ibn Mülcəmi həbsdə görüb soruşdu ki, ey bədbəxt bu nə işi idi tutdun? Sənin vurduğun yara təsir etməyəcək, sənin halın necə olacaq? İbn Mülcəm dedi: **"Ey xatun, mən o qılıncı min qızıla alıb, min qızıl da verib ona zəhər sürtmüşəm. Bu yaradan sağalmaq mümkün deyil".**

Həzrət Əlinin (ə) üstünə həkim gətirdilər. Həkim yaranı yoxlayıb dedi: **"Bu yara zəhərli qılınc ilə vurulub, müalicəsi mümkün deyil".**

Ramazan ayının 21-də Həzrət Əli (ə) vəsiyyət yazdı. Oğlanları İmam Həsən (ə) və İmam Hüseynə (ə) tapşırdı: **"Məni tabuta qoyub qəribeynə aparın. Orada zümrüd rəngli bir daş görəcəksiniz. Mənim qəbrim oradadır".** Mövla Əli (ə) övladları ilə vidalaşdı,

onlara dedi ki, çıxıb qapıda gözləsinlər və vəfatından sonra içəri girsinlər. Hamı otaqdan çıxdı. Təkcə Ümmü Gülsüm qapını açıb geri döndü və atasına baxıb ağladı. Mövla Əli (ə) dedi: **"Qızım, atanın qapısını ört".**

İmam Həsən (ə) və İmam Hüseyn (ə) Mövla Əlini (ə) dəfn edib qayıdanda bir fəqirə rast gəldilər. Onun halını soruşduqda fəqir dedi: **"Mən xəstə və qərib adamam, möhnətim çox, qeydimə qalan yoxdur".** Ondan soruşdular: **"Bəs, bu vaxta qədər sənin qeydinə kim qalırdı"?** O, cavab verdi: **"Bir il hər axşam bir şəxs yanıma gələr və mənə yemək gətirərdi".** Dedilər: **"Onun adı nə idi"?** O, cavab verdi: **"Adını soruşdum, dedi mənim etdiyim Allah razılığı üçündür, şöhrət üçün deyil".** Ondan soruşdular: **"Onun görkəmi necə idi"?** Cavab verdi: **"Mən koram, amma iki gündür ki, həmin adam gəlmir".** Soruşdular: **"Onun rəftarı necə idi"?** Kimsəsiz adam cavab verdi: **"İşi Allaha dua etmək və halal olsun demək idi. Həqiqətdir ki, o, bunları deyəndə mən mələklərin cavabını eşidirdim, divarların təzim etdiyini hiss edirdim. Mənimlə həmsöhbət olmaqdan sevinir və tez-tez deyirdi: yoxsulla yoxsul, qəriblə qərib".**

İmam Həsən (ə) və İmam Hüseyn (ə) dedilər: **"Ey fəqir, bu adam Əli ibn Əbu Talib idi".** Fəqir soruşdu: **"Ona nə olub"?** Dedilər: **"Bir bədbəxt onu şəhid etdi".** Həmin fəqir bu xəbərdən ağlayıb dedi: **"Sizi and verirəm babanız Peyğəmbərin (s) və atanız Əmirəlmöminin hörmətinə məni imamın qəbri üstünə aparın".** Sonra bir əlindən Həsən (ə) bir əlindən Hüseyn (ə) tutub onu İmamın qəbri üstünə gətirdilər. Fəqir qəbrin üstündə diz çöküb dedi: **"İlahi, bu pak qəbrin hörmətinə məni dərdimi çəkən adamdan ayırma, məni onunla qovuşdur".**

PARLAQ ÇIRAĞIN SÖNMƏSİ

İslamın bariz şəxsiyyəti, düşüncə və elm dünyasının parlaq işığı, bəşər tarixinin əbədiyyət dastanı Kufədə qürub edib söndü. Lakin onun fikirləri, düşüncələri, təlimləri və göstərdiyi yollar, göstərişlər, irşadlar həmin şəhadət anlarından başlayaraq dünya durduqca insanların həyat yollarında cərəyan edəcəkdir.

Bu əbədiyyət soraqlı şəxsiyyətə salamlar olsun. Ona dünyaya göz açan ləhzədə, həyatda yaşadığı anlarda, gözünü həyata bağladığı andan sonrakı vaxtlar üçün, mübarək və pak ruhuna salamlar və yenə də salamlar olsun.

Mövla Əli (ə) - İslam ədalətinin bu bariz nümunəsi öz şərafətli ömür yolu və əsərləri ilə ictimai ədaləti həmişə bir İlahi təklif, bir Tanrı vəzifəsi və cəmiyyətin dəyişməz namusu kimi tanıyır. O, bu müqəddəs işdə qüsur olmasını nəinki məqbul saymır, bəlkə əksinə, bu fikirdədir ki, belə hallarda bitərəf bir tamaşaçı olmaq, başa düşən bir müsəlman üçün bağışlanılmaz günahdır.

Onun mübarək fərmanlarının hər birində görürük ki, Mövla Əli (ə) öz seçilmiş müvəkkillərinə müraciət edərək onu zülmdən, özbaşınalıqdan xəyanət və qəsdən, rüşvətdən çəkindirmişdir. O, verdiyi fərmanlarda yaltaqlıq və ikiüzlülüyü rədd edir, üstünlük və imtiyaz meyarını sədaqət və çalışmaqda görürdü. Xidmət edənlə xaini bir-birindən ayırd etməyi əyalət və vilayət rəhbərlərinin mühüm vəzifəsi hesab edirdi, bu iki məfhum arasında bərabərliyi heç cür məqbul saymırdı.

Digər tərəfdən, başqalarının hüquqlarına təcavüz və zülm edən hər bir adamın rütbə məqamından asılı olmayaraq cəzalandırılmasını zəruri hesab edirdi. Mövla Əli (ə) belə söyləyir: **"Xainlərin tənbeh edilməsi və cəzalandırılması zəruri olduğu kimi, həqiqi xidmət edənlərin həvəsləndirilməsi və yüksəlişi də vacibdır".**

Mövla Əlinin (ə) **"Malik Əştərin əhdnaməsi"** adlanan əbədi və tarixi nizamnaməsi dünya tarixində şöhrət qazanmışdır. Bu əsər bəşər tarixinin ən insanpərvər qanun kitabıdır desək yanılmarıq. Həmin qanun öz parlaq fəsillərində təqva və fəzilət qaydasını, dünyanı idarə etmək üsulunu, xalqı sevmək və milləti saxlamaq yollarını müasirlərə və gələcək nəsillərə öyrədir.

Bu heyrət doğuran və qəribə qanun, İmam Əlinin (ə) həyəcan və qəhrəmanlıq nidası ilə zənginləşərək, ölkənin adamlarını ayrı-ayrı hər fərdi mənəviyyat, sədaqət, şərafət və fəzilətə elə bir tərzdə dəvət edir ki, hətta Mövla Əlinin (ə) düşmənləri də bu dəvətin dayaq və əsaslarının qanunda bərabərlik, qardaşlıq və ədalət meyarlarına insani baxımdan isə mənəviyyat və azadlığı sevmək anlamına söykəndiyini tarix boyu etiraf etməli olmuşlar.

İmamın bu fərmanı o əziz həzrətin ən mühüm sifarişlərindəndir ki, ümumi hüquqları, şəxsi müdafiə məsələlərini, hər bir müsəlman fərdin həyat yolunu aydınlaşdırmış və təyin etmişdir.

Mövla Əlinin fərmanları bütün demokratik dövlətlərin dövlətidarəetmə qanunlarının ən alisi və ədalətlisidir. Bunlara hamının böyük ehtiyaca var.

Mövla Əli (ə) dövlətlə millət arasında olan zəruri əlaqələrin möhkəmləndirilməsi üçün onların arasında etimadın və inamın bərqərar edilməsini vacib sayırdı. Eyni zamanda bu iki tərəf arasında yaxşı əlaqə və münasibətin yaradılması hökumətin möhkəmliyini, dövlətin qüdrət və istehkam dayağını, xalqın rifah və asayişini ilkin zəruri şərtlərindən biri hesab edirdi.

Fərmanların əksəriyyətində millətin dözümlü olması, möhkəmliyi və güclü ordunun olması ilə şərtləndirilirdi. Ordu üçün adamları və hərbi mütəxəssisləri seçərkən onun keçmişinə, nəcabətinə, nəslinə o qədər də əhəmiyyət verilmir, bəlkə əksinə, onun alicənablığı, şücaəti, böyüklüyü, seçim üçün meyar və ölçü kimi qəbul edilir. İslam ordusunun zabiti bu əhdnamədə sadalanan qanunlara görə gərək əmin, pak, üzr qəbul edən, xoşqəlbli, təmiz və alicənab olsun.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

VI FƏSİL

MƏŞHUR DİN ALİMLƏRİNİN MÖVLA ƏLİ HAQQINDA NƏZMLƏ BUYURDUQLARI MƏDHLƏR

الشّافعي

إذا في مجلس نذكر عليا و سبطيه و فاطمة الزكية
يقال تجاوزوا يا قوم هذا فهذا من حديث الرافضية
برءت إلى المهيمن من اناس يرون الرفض حب الفاطمية

Şafei

Əli, Fatimədən düşəndə söhbət,
Pak övladlarına edərkən rəğbət.
Söylərlər ki, onlar rafizidirlər,
Boş-boş bu söhbətlə etməyin hünər.
Əhli-beytçün bunu deyən kəslərdən,
Pənah aparıram Yaradana mən.

يا آل بيت رسول الله حبكم فرض من الله في القرآن أنزله
يكفيكم من عظيم الفخر أنكم من لم يصل عليكم لا صلاة له

Ey Əhli-beyt, sizi sevmək hikməti,
Vacib buyurulub Quranda qəti.
Böyük fəxrinizi bilməyən bir kəs,
Nahaq göstərməsin namaza həvəs.
Əhli-beyt qədrini bilməyən qafil,
Qıldığı namazı eyləyər batil.

إلام إلام و حتي متي اعاتب في حب هذا الفتي
وهل زوجت فاطم غيره وفي غيره هل أتي(هل أتي)

Söylə haçanadək bu cavanın mən,
Danlaq görəcəyəm məhəbbətindən.
Ondan qeyri kimə yar olub Zəhra?
Ondan qeyri kimə gəldi «Həl, əta».

الشّافعي

عليّ حبه جنّة قسيم النّا رو الجنة
وصيّ المصطفي حقا إمام الانس والجنة

ديوان الشافعى:68-83

Şafei

Əli məhəbbəti qalxandır həmən,
Odur Cənnət, cəhənnəm qismət edən.
Haqq vəsidir Mustafaya şübhə yox,
İnsu cinnə imam – rəhbərlik edən.

«Divani Şafei» səh 68-83

بولس سلامه

جلجل الحق في المسيحي حتي عد من فرط حبه علويا
أنا من يعشق البطولة والإلها م و العدل والخلاق الرضيّا
فإذا لم يكن عليّ نبيّا فلقد كان خلقه نبويّا
أنت ربّ العالمين إلهي فأنلهم حنانك الأبويّا
و أنلني ثواب سطّرت كفّي فهاج الدموع في مقليّا
سفر خير الأنام من بعد طه ما رأي الكون مثله آدميّا
يا سماء اشهدي و يا أرض قرّي واخشعي إنّني ذكرت عليّا

Bules Səlamə

Haqq Məsihidə etdi təcəlla,
İfratda ələvi sayıldı hətta.
Aşiqəm ilhama və ədalətə,
Hər gözəl əxlaqa, hər şücaətə.
Baxmayaraq Əli deyil peyğəmbər,
Vardır xulqu onun Peyğəmbər qədər.
Atanın övlada olan eşqi tək,
İlahi, onların qayğısını çək.
Mənə səvabını ver hər sözümün,
Gözümdə quruyub yaşı gözümün.

Sən «Ta Ha»dan sonra oldun mötəbər,
Ki, onun kimisin görməyib bəşər.
Şahid ol ey səma, təzim et ey yer,
Əlini yad etdim, sən də salam ver.

وله ايضا

هو فخر التاريخ لا فخر شعب يدّعيه و يصطفيه وليّا
لا تقل شيعة هواة عليّ إنّ في كلّ منصف شيعيّا
إنّما الشمس للنواظر عيد كلّ طرف يري الشعاع السنيّا
(بولس سلامه:عيد الغدير:ص-307-312.)

Tarixin fəxridir, bir xalqın deyil,
Allah onu seçib, təyin edib, bil.
Demə şiələrdir Əliyə kömək,
Hər insafı olan şiədir gerçək.
Aşiqə bayramdır görmək günəşi,
Şüayla birləşər gözün atəşi.

(Bules Səlamə. «Eydül Ğədir» 307-312)

الخطيب الخوارزميّ

ألا هل من فتي كأبي تراب إمام طاهر فوق التراب
إذا ما مقلتي رمدت فكحلي تراب مسّ نعل أبي تراب
هو البكّاء في المحراب لكن هو الضحّاك في يوم الحراب
كأنّ الناس كلّهم قشور ومولانا عليّ كاللّباب
ولايته بلا ريب كطوق علي رغم المعاطس في الرقاب
ففاطمة و مولانا عليّ ونجلاه سروري في الكتاب
(ألأميني:ألغدير-4-397)

Xətib Xarəzmi

Varmı comərd olan Əbu Turab tək,
Ən uca, ən pak bir imamdır bişəkk.
Əgər göz ağrıyıb, versə mənə qəm,
Əli ayağının tozudur sürməm.

Tökərdi səcdədə gözündən qanı,
Gülüb, sevincəkdi o, cəng zamanı.
Dünyaya cövhərdir əgərçi imam,
Camaat ərəzdir yanında tamam.
Vilayəti-Əli boyunbağıdır,
Təkəbbür əhlinə bir göz dağıdır.
Həm də dostlar üçün olur bir bəzək,
Burnunu düşmənin yerə sürtərək.
Fatimə və Əli, Hüsenlə Həsən,
Əməl dəftərimi edir müstəhsən.

(Əl-Əmini «əl Ğədir» 4-397)

الخطيب الخوارزميّ

إنّ عليّ بن أبي طالب خير الوري و الطالب الغالب
خير الوري و الطالب الغالب بعد النّبيّ ابن أبي طالب

(ابن شهر آشوب:مناقب آل أبي طالب:3-67-71)

Xətib Xarəzmi

Əli bəşərdə ən üstün insandır,
Haqq tələb edəndir, qalib olandır.
Peyğəmbərdən sonra odur ən ali,
Çünki ədalətdə yoxdur misalı.

(İbn Şəhraşub «Mənağib
Al Əbi-Talib» 3-67-71)

ألعبدي

وإنّك وجهه الباقي وعين له ترعي الخلائق أجمعينا

Əl-Əbdi

Əli Eynullahdır, Əli Yədullah,
Onu sərvər etdi xilqətə Allah.

وله أيضا

يا عليّ بن أبي طالب يابن الأول يا حجاب الله والباب القديم الأزلي
أنت أنت الروة الوثقي التي لم تفصل أنت باب الله من يأتيك منه يصل

(ابن شهر آشوب:مناقب آل أبي طالب:3-274)

Əl-Əbdi

Əli, ey məzhəri-əvvəlü axır,
Allahın hicabı səndədir zahir.
Açılan qapısan əbədiyyətə,
Əzəli bir qulpsan sən həqiqətə.
Kim keçsə qapından çatar Allaha,
Qapını tapmayan batar günaha.

(İbn Şəhraşub «Mənağib Al-Əbi-Talib» 3-274)

عبد المنعم الفرطوسي

سئل المصطفي بأيّ لسان لك يوحي الخطاب ربّ العطاء
قال يوحيه في لسان عليّ وسألت الباري بوقت النداء
أنت خاطبتني بصوتك حقّا أمّ بصوت الوصيّ من أصفيائى
قال:إنّي لا أشبه النّاس طرّا أنا شيئ و لست كالأشياء
من سناك الذاكي خلقت عليّا وهو نور خلقته من سنائى
و أحبّ العباد بعد اطّلاعي لك بالغيب سيّدالأوصياء
فأتاك الخطاب بالوحي منّي بلسان الحبيب من أوليائى
ليكون اطمينان نفسك أمرا ثابتا باليقين دون انتفاء

(ملحمة أهل البيت:1-78)

Əbdül Munim Firtusi

Soruşdular Mustəfadan danışanda sən Allahla,
Hansı dildə danışırsan söylə bizə ey Mustəfa.
Cavab verdi o pakibin, dedi; bir gün nida vaxtı,
Üz tutaraq Allahıma soruşdum ki, barı Xuda,
O səslə ki, Sən mənimlə danışırsan tanış səsdir,
Dinlədikcə söhbətini yada düşür, Şiri-Xuda.

Mənə dedi Yaradan ki, ey bəşərin ən alisi,
Bir Varlığam bənzərim yox, nə insanam, nə də əşya.
Sənin o pak məqamından, bir də mənim öz nurumdan,
Yaranıbdır aləmlərin iftixarı o Murtəza.
Mən sənինlə danışıram, həbibinin öz dililə,
Ta ki, səndə mütməinlik hasil edə o səs-səda.

(Məlhəmə «Əhlil-beyt» 1-78)

ألملاّ مهر علي

ها عليّ بشر كيف بشر ربه فيه تجلّي و ظهر
هو والمبدأ شمس و ضياء هو والواجب شمس و قمر
أذن الله وعين الباري يا له صاحب سمع و بصر
علة الكون ولولاه لما كان للعالم عين وأثر
فلك في فلك فيه نجوم صدف في صدف فيه درر
جنس الأجناس عليّ و بنوه نوع الأنواع إلي حاديعشر
كلّ من مات ولم يعرفهم موته موت حمار و بقر
قوسه قوس صعود ونزول سهمه سهم قضاء و قدر
ما رمى رمية إلاّ و كفي ما غزي غزوة إلاّ و ظفر
أسدالله إذا صال و صاح أبو الأيتام إذا جاد و برّ
بوتراب وكنوز العالم عنده نحو تراب و مدر
من له صاحبة كالزهراء أو سليل كشبير و شبر
أيّها الخصم تذكّر سندا متنه صحّ بنصّ و خبر
إذ أتي أحمد خمّ غدير بعليّ و علي الرّحل نبر
قال من كنت أنا مولاه فعليّ له مولي و مفر

Molla Mehrəli

İmam Əli bir bəşərdir, amma bilsən, necə bəşər?
Allah onda zahir olub, təcəlladan verər xəbər.
Qəsəm olsun İlahiyə, bir günəşdir onun üzü,
O vacibəl-vücudə mən and içərəm, budur düzü.
O duyanı, o görəni Allah duyar, Allah görər,
O olmasa bu aləmdən olmaz idi zərrə əsər.

Fələk, fələk içindədir batinində ulduz yanar,
Sədəf, sədəf içindədir daxilində bir dürr var.
Yaranmışın ən alisi Əli, on bir övladıdır,
Onu tanımadan ölmək, ölümün ən bərbadıdır.
Məhəbbətlə qalxan kaman, düşmənləri endirəndir,
Atdığı ox, Allah oxu, ünvanına göndərəndir.
Döyüşlərdə zəfər çaldı, nərəsində bir Şirdir o,
Çox comərddir, əl tutandır, sabirdir o, şakirdir o.
Bir adıdır Əbu Turab, çünki torpaq atasıdır,
Dünya malı nəzərində onunçun gil parçasıdır.
Fatimeyi-Zəhra kimi iffət, ismət mənbəyi var,
Sülaləsi Şəbər ilə, Şübeyr ilə davam tapar.
Sən ey düşmən, səhih olan bu hədisi gəl sal yada,
Əlin göyə qaldıraraq Əhməd dedi, Qədir Xumda.
«Mən hər kimin mövlasıyam, Əli onun mövlasıdır,
Kim məni ağa bilirsə, Əli onun ağasıdır».

الشيخ محمود عبّاس العاملي

فوحقّ آيات الكتاب المنزل و مكوّن الأكوان ذي المجد العليّ
و بحقّ هادينا النبيّ المرسل ما حاز كلّ المكرمات سوي عليّ
و سواه لا عين لديه ولا أثر
أنت خير الأنام من بعد طه و بهذا قد جائت الأنباء
و حديث المشويّ ينبأ عنه يا له خير طائر وشواء
أنت صنو الهادي و أنت أخوه أفهل أنت والقصيّ سواء
أنت ثاني الثقلين و ابناك سبطا أحمد ثمّ فاطم الزهراء
أنتم علّة العوالم طرّا حيث لولاكم الوجود فناء
أنتم للورى سفينة نوح ليس عنها للعالمين غناء
أنتم للورى أمان كما الشهب أمان لمن حوته السماء

(العلاّمة السيّد علي نقي الحيدري:كتاب الوصي-122)

Şeyx Mahmud Abbas Amuli

And olsun Quranın ayələrinə,
And olsun varlığa, varlıq verənə.
Bizə hadi olan Nəbi haqqına,
Bir də ki Allahın əzəmətinə.

Fəzilətlər Əlidə cəmləşdi, bil,
Bu şərəfə bir kimsə layiq deyil.

* * *

Ən üstün şəxssən «Ta Ha»dan sonra,
«Cücə kəbab» edər bunu rəvayət.
Allaha Əlidən yaxın kimsə yox,
Kimdə var Əlidə olan fəzilət.

Sən Əhmədin özü, həm qardaşısan,
Qeyri kimsə deyil, sənlə bərabər.
Sən «Səğəleyn»dən ikincisisən,
Əmanət qoyubdur səni Peyğəmbər.

Əhli-beyt baisdir bütün aləmə,
Nuhun gəmisi tək xilaskarsınız.
Sizə insanların ehtiyacı var,
Xalqa yol göstərən ulduzlarsınız.

(Əllamə Seyid Əli Nəği Əl Heydəri
«Kitabul Vəsi» 122)

حسّان بن ثابت

له الحوض لا شكّ يحيي به فمن شاء أسقي برغم العدي
و من ناصب القوم لم يسقه ويدعو إلي الورد للأولياء

(ابن شهر آشوب:مناقب آل أبي طالب:2-162-164)

Həssan ibn Sabit

Əlidir aləmdə Saqiyi-Kövsər,
Cənnətdə əlindən dostlar su içər.
Düşmənlərə olmaz bu sudan qismət,
Ora Allah dostu olunar dəvət.

(ibn Şəhraşub
«Mənaqib Al Əbi-Talib» 2-162-164)

السيّد علي نقي الهنديّ

لم يكن في كعبة الرّحمن مولود سواه
إذ تعلي في البرايا عن مثيل في علاه
وتولّي ذكره في محكم الذكر الإله
أيقول الغرّ فيه بعد هذا لست أدري
أقبلت فاطمة حاملة خير جنين
جاء مخلوقا بنور القدس لا الماء المهين
و تردّي منظر اللاّهوت بين العالمين
كيف قد اودع في جنب و صدر؟ لست أدري
أقبلت تدعو و قد جاء بها داء المخاض
نحو جذع النخل من ألطاف ذي اللطف المفاض
فدعت خالقها الباري بأحشاء مراض
كيف ضجّت كيف عجّت كيف ناحت؟ لست أدري
لست أدري غير أنّ البيت قد ردّ الجواب
بابتسام في جدار البيت أضحي منه باب
دخلت فانجاب فيه البشر عن محض اللّباب
إنما أدري بهذا غير هذا لست أدري
كيف أدري و هو سرّ فيه قد حار العقول
حادث في اليوم لكن لم يزل أصل أصول
مظهرالله لكن لا اتّحاد لا حلول
غاية الإدراك أن أدري بأنّي لست أدري
ولد الطهر عليّ من تسامي في علاه؟
فاهتدي فيه فريق و فريق فيه تاه
ضلّ أقوام فظنّوا أنّه حقّا إله
أم جنون العشق هذا لا يجازي؟ لست أدري

(ألأميني:ألغدير-6-37)

Seyid Əli Nəğı Hindi

Ondan özgə Kəbədə bir kimsə mövlud olmadı,
Ən uca kəs tək onu hər dəfə Haqq xatırladı.
Daima Quranda Allahdan sora gəldi adı,
Haqqını korlar necə inkar edibdir, bilmirəm.

Hamiləykən Fatimə üz tutdu Kəbə səmtinə,
Bir xeyirli şəxsi çün salmışdı Xaliq bətninə.
Aləmi-lahuti sarmışdı, o qarın, o sinə,
Onda hər əmni necə pərkar edibdir, bilmirəm.

Allaha üz tutdu ağrı təndə etdikcə şərar,
Xurma nəxli tək, açıb əl lütfə oldu intizar.
Ağladı, can narahat, bətnin hər üzvü tarmar,
Hansı yolla güc tapıb, rəftar edibdir bilmirəm.

Onu billəm ki, o saat beyt ona verdi cavab,
Bir qapı açdı divarda, oldu daxil ol cənab.
Bilməmək bilməkdi, bildi ki, olur əqlim xərab,
Kim bu dərki, dərkimə vadar edibdir bilmirəm.

Bir uşaq gəldi cahana adı, Haqqın zirvəsi,
O Əli ki, yaxşılarçun oldu nurun qibləsi.
Onla ayrıldı tamam dostilə düşmən pərdəsi,
Kim onu Allah bilib, aşkar edibdir bilmirəm.

(Əl Əmini. «Əl Ğədir» 6-37)

Şeirləri ərəbcədən tərcümə edib nəzmə çəkən
Qazi Hacı Mirəziz Seyidzadədir

KLASSİKLƏRİMİZ VƏ MÜASİR ŞAİRLƏRİMİZİN MÖVLA ƏLİ HAQQINDA YAZDIQLARI NƏZM VƏ QƏSİDƏLƏR

SEYİD İMADƏDDİN NƏSİMİ

YA ƏLİ SƏNDƏN MƏDƏD

Eşq əlindən yandı canım ya Əli, səndən mədəd
Mən qəribü binəvayəm, ya Əli, səndən mədəd!

Sən mənim lütfi kərəmdən dərdimə bir çarə qıl
Şah sənsən, mən gədayəm, ya Əli, səndən mədəd.

Həqq-Təala öz nurundan xoş yaratmış şahımı,
Qüdrəti-sirri-Xudasan, ya Əli, səndən mədəd

Kim Mühəmmədi Əlidən ayırır, lənət ona
Ləhməki-ləhmi deyilmi, ya Əli, səndən mədəd.

Həm Xədicə, Fatimə ibni-bəni binti Əsəd
Mədəni-dürri-həqiqət, ya Əli, səndən mədəd.

Bəndeyi xəllaqi-hüsn oldum əzəldə, ta ədəd,
Nuri-eyni-Mustəfasan, ya Əli, səndən mədəd.

Hər Rəcəb ayində gördüm neçə möcüz göstərir,
Şah Hüseynin səduqində ya Əli, səndən mədəd.

Cümlə övladi yenə səndən zühur oldu tamam,
Adı Zeynülabdindir, ya Əli, səndən mədəd.

Baqirü, Sadiq yolunda qurban etdim canımı,
Museyi Kazım inayət ya Əli, səndən mədəd.

Bir təvafe Kəbeyi-Şahi-Xorasan eylədim
Yetmiş iki həcci-əkbər ya Əli, səndən mədəd.

Həm Təqiyyü, həm Nəqiyyü varisi-dini-Nəbi,
Dövləti Ali-Əbasan, ya Əli, səndən mədəd.

Ol imami Əsgəridir, yəni ki, xəllaqi hüsn,
Könlüm ondan şad oldu ya Əli, səndən mədəd.

Ey Mühəmməd Məhdiyi-Sahibzəman eylə zühur,
Aləmi Küffar tutdu ya Əli, səndən mədəd.

Səd həzaran lənəti-Dəvvari-Davər hər zaman
Bər Yəzidi-toxmi-mərdan, ya Əli, səndən mədəd.

Ey Nəsimiyi-şikəstə, həqdən istərsən nicat,
Cüreyi-tovhid sənsən, ya Əli, səndən mədəd.

YA MÜHƏMMƏD YA ƏLİ

Hər du aləm sərvərisiz ya Mühəmməd, ya Əli,
Cümlənin həm behtərisiz ya Mühəmməd, ya Əli.

Dü cəhanın afitabısız yenə həm afitab,
Həm zülmat ənvərisiz ya Mühəmməd, ya Əli.

Şəninizə gəldi həm «Ta-Ha»vu «Yasin», «Həl-əta»,
«Vəzzüha»nın dəftərisiz ya Mühəmməd, ya Əli.

Ayəti-Lövlak ilə həm afitabın mənisi
Ləhməki ləhmi deyilsiz ya Mühəmməd, ya Əli.?

Mədəni-sidqü səfasən, həm yenə lütfü kərəm,
«Ləməkan»ın gövhərisiz ya Mühəmməd, ya Əli.

Dürri şəhvari gühərbar lütfünüzdür bigüman,
Həm sədəfin gövhərisiz ya Mühəmməd, ya Əli.

Hadiyi-rəhbər çü sizsiz cümlə aləmdə bu gün,
Cümlə hazır mənzərəsiz ya Mühəmməd, ya Əli.

Ömrü-mərufun bəyani sizdən oldu aləmə,
Nəhy işlərdən bərisiz ya Mühəmməd, ya Əli.

Ol zamanda qıldınız cüm-cümə əhya rişəki,
Padişahi «Bər-bər»isiz ya Mühəmməd, ya Əli.

Ol Çöbəl tək ziri-dəsti yenə sən qətl eylədin,
Öldürən həm Əntərisiz, ya Mühəmməd, ya Əli.

Anla ki, gündə şəfaət sizdən umar xasü am,
Həm Rəsuli Heydərisiz, ya Mühəmməd, ya Əli.

Fatimə Zəhra Bətulu qürrətül-eyni-Rəsul,
Şəhpərü həm şəhpərisiz, ya Mühəmməd, ya Əli.

Şah Zeynalabidindir ol imamı rəhnüma,
Şah Baqir Cəfərisiz ya Mühəmməd, ya Əli.

Museyi-Kazım rizavü həm Təqiyyü, həm Nəqi,
Həm Həsənül-Əsgərisiz ya Mühəmməd, ya Əli.

Məhdiyi-Sahibzəmansan Hadiyi-insü mələk,
Əvvəlü həm axirisiz ya Mühəmməd, ya Əli.

Bi fəqirü binəva hərdəm dilər sizdən dua
Lütf ilə ehsan yerisiz ya Mühəmməd, ya Əli.

Cün Nəsimi mədhinizdə bir zamandır söyləsin,
Gecə-gündüz zakirisiz ya Mühəmməd, ya Əli.

«MÜRƏBBE»

Mən qulami-xanədanəm, padişahımdır Əli,
Ehtiyacım onadır, püştü pənahımdır Əli,
Könlümü qıldı münəvvər, mehri-mahımdır Əli,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

Gəldilər həqdən bəyani-sirri ağaz etdilər,
Sözlərindən aləmin mülkünə pərvaz etdilər,
Həmdülillah biz gədayi-məhrəmi-raz etdilər,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

Cəhd edib canü könüldən bulmuşam mən rəhbəri,
Gəzməzəm heyvan kimi ruyi-zəmində sər-səri,
Bixəbərdir bu müəmmadan olan divü pəri,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

On səkkiz min aləmin içində sultanlardur,
Ərseyi-meydan içində mərdi-meydanlardur,
Baxdığımca hər nəzərdə gördüyüm onlardur,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

Ta əzəldən padişahımdır Həsən xülqi-Riza,
Dünyəvu üqba səri-tacim Hüseyni-Kərbəla,
Nuri-çeşmimdir mənim, nuri-İmam Zeynüləba,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

Cani-dildən bəndeyi-Baqir, qulami-Cəfərəm,
Museyi-Kazım Əli Musa Rizayə nökərəm,
Şah Təqivu ba Nəqi yolunda xaki-kəmtərəm,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

Zümreyi nacidünüz həm Əsgəriyyə Əsgərüz,
Mehdiyi-Sahib-zəmanə biz təvalla eylərüz,
Ey Nəsimi, həmdu lillah yolumuzda işlərüz,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

QƏSİDƏ

Gözünü aç, gör ey talib, Əlidir dü kana sərvər,
Mühəmməd mədəni kandır, Əlidir qiyməti-gövhər.

Mühəmməd elmə kan oldu, Əli nitqi bəyan oldu,
Ona sirlər əyan oldu, Əlidir xaçeyi-Qənbər.

Əlidir cümlənin cani, Mühəmməddir onun kanı,
Həqiqətdir Əli şəni, Əlidir yari-Peybəmbər.

Həzaran cümlə cümbüşlər, Əli əmr eyləsə işlər,
Varır yaylar, gəlir qışlar, Əlidir cismi-can pərgər.

Əli əvvəl, Əli axır, Əli batin, Əli zahir,
Əlidir nur ilə ənvər, Əlidir şəmsu mahənvər.

Nə bilsin cahilu nadan Mühəmməd ya Əli kimdir,
Mühəmməd sahibi-dindir, Əlidir cümlədən behtər.

Əlidir ol Vəliyyuuah, Əlidir məzhəri-Allah,
Əlidir nur ilə Vallah, Münəvvərdur bu həft əxtər.

Əli eyni-inayətdir, Əli nuri-hidayətdir.
Əli miri-bəşarətdir, Əlidir şah hər səfdər.

Əli vahid, Əli övlad, Əli fərzü, Əli sünnət,
Əlidir cümleyi-rəhmət, Əlidir şafei-məhşər.

Əli sübhan, Əli sultan, Əli cənnət, Əli rizvan,
Əli dindir, Əli imam, Əlidir mir hər ləşkər.

Əlidir vəsf olan Heydər, Əlidir Qəleyi-Xeybər
Əlidir qatili-Əntər, Əlidir mir hər keşvər.

Nəsiminin dili-canı, münəvvərdir Əli nuru,
Əli vali, Əli vala, Əli sərvər, Əli Səfdər.

ƏLİDİR

Mənim canımda cananım Əlidir,
Tənimdə zati-sübhanım Əlidir.

Zühur edər eşit gər aşinasən,
Mənim küfrümdə imanım Əlidir.

Əlidən oldu zatullah məşhud,
Ki ol mənidə yəzdanım Əlidir.

Əlidir babi-hadiyi-Peyğəmbər
Namazü zikrü ərkanım Əlidir.

Nəsimi mehri-Heydər eyləgil kəşf
Ki, ləfzü cümlə ehsanım Əlidir.

* * *

Ta əzəldən bil mənim könlümdə Sultandır Əli,
Həm əlif, həm nöqteyi, həm hərfi-Qurandır Əli.

Bağladı ifritə divan dəstini Gəhvarədə,
Həm duran ərşin yolunda şiri-Yəzdandır Əli.

Bir nəzər qıldı Mədinədən şəhi-Düldülsəvar,
Asiyabanlara bek şəbbürdə kəşandır Əli.

Museyi-İmran həm oldur, Yusifi-Kənan həm,
Həm Xəlilin narinə dəfi-gülüstandır Əli.

İsmi Heydər şahi-Qəmbər gör Nəsiri çün dedi:
Yetmiş iki parə qıldı dedi Sübhandır Əli.

Həm qopartdı qapısını Xeybərin ol dəmdə kim,
Həm olan Ruhil-Əminə piri xəndandır Əli.

Ol Mühəmməd Mustafadur, həm kilidi-Cənnəti,
Saqeyi-Kösər həm oldur cümleyi-candır Əli.

Şah Həsən xulqi - Rizadır, həm Hüseyni-Kərbəla,
Həm dini izhar edən, həm kəşfi-pünhandır Əli.

Həm Mühəmməd Baqiri, Həm Cəfəri Sadiq deyim,
Həm həqiqət Kəbəsi, həm qiblə imandır Əli.

Kazim ol sultan Əli, Musa Rzadır cümlədə,
Kəşfi-ərbabi-vilayət, nuri-Rəhmandir Əli.

Şah Təqidir bu cahan, mülkünə sultan bu Nəqi,
Həm vilayət şəhridir, həm bəhri-ümmandır Əli.

Həm Mühəmməd Mehdiyi-Sahib-Zaman oldur tamam,
Həm Məsihanın dəmi, həm Xizri-dövrandır Əli.

Həm görən, həm göstərən nizə səkanu həm kaman,
Həm xəvaric gözlərinə tiri-peykandır Əli.

Həm kəvakib, həm qəmər, həm afitabi-xavəri,
İsmi rəsmi, fövqi təhti, mədəni-kandır Əli.

Bu Nəsimi məddəhi-Heydər, qulami-Heydəri,
Zülfüqarı xarici boynunda bürrandır Əli

* * *

Pərdə altında kim, oldu şəmsi-dövran aşkar,
Şiri-yezdandır, könül, ahusunu qıldı şikar.

Ol Əliyyil-Murtəza kim, könlümün məqsudidir,
Sirrin izhar etmək üçün uş ədəmdən oldu var.

Ol Əmirül-Mömünin bişək imami-cüzvü küll,
Əhli-təhqiqə iki aləmdə oldur ixtiyar .

Əvvəlü axir Əlidir, zahirü batin Əli,
Bir günəşdir kim, yüzünə qonmadı ğəmdən ğübar.

Uş hədisi Mustafadır la fətə illa Əli,
Həm Nəbinin sözüdür, la seyfə illa Zülfüqar.

Şəhr elminə Əliyyun babuha dedi, Rəsul,
Bəs Əli payində xak olmaq gərəkdir, xaksar.

Canü dildən mədh oxur Seyyid Nəsimi şah üçün,
Həm bu On İki İmama sidq ilə məddahvar.

MOLLA MUHƏMMƏD FÜZULİ

Mənə Xaliq o şərt ilə veribdir hüsnü-göftarı,
Ki, Mövla gülşənində bülbülü-dastansəra olsun.

Gah alsın «innəma» bağındakı güllərdən ilhamı,
Sapa inci düzərkən dürcü bəhri «Həl-əta» olsun.

Gəda tək ummaram pay süfrəsindən bir kəsin, əmma.
Könül istər Əlinin asitanında gəda olsun.

Dilim varmaz Əlidən qeyri bir sultanı mədh etsin,
Budur arzum ki, məmduhim Əliyyi-Mürtəza olsun.

* * *

Əzbər olmuşdur dilimdə şanlı namin, Ya Əli!
Mən kiməm, aləmdə bir kəmtər qulamın, Ya Əli!

Şükr ola Allaha kim, sayə salıbdır başıma,
Dövləti-iqbal ilə lütfi-müdamın, Ya Əli!

Kim nicat istər Qiyamətdə gərəkdir saxlaya
Taəti-həq tək həmişə ehtiramın, Ya Əli!

Cümlə insanlar, mələklər «Kəbə»tək məbəd sanır,
Hər yeri kim orda olmuşdur məqamın, Ya Əli!

Lütfi-süfrəndən sənin hər ləhzədə min feyz alır
Bir Füzuli vird edir həmdü-səlamın, Ya Əli!

ŞAH İSMAYIL XƏTAİ

TUYĞULAR

Ya Əli, canım sənə olsun fəda,
«Qul kəfa»dır şəninə həqdən nida.
Bu Xətai könlünə qıldın nüzul,
Mərhəba, ey şahi-aləm, mərhəba.

Mustəfa fəxri-cəhan, sən həmdəmi,
Zatunuz həm ləhmi anın həmdəmi.
Ey Xətai, bil Əlidir, bigüman,
«Qabi-Qövseyn»in rümuzi məhrəmi.

Mən Hüseyni məzhəbəm, şahın qulu,
Yəni kim, mənidir Allahın qulu,
Ey Xətai, padişah olmaz kişi,
Olmayınca uş bu dərgahın qulu.

Zatın Allah məzhəridir, ya Əli,
Kibrü kin səndən bəridir, ya Əli.
Bu Xətai, Qeysərü xaqani-Cəm,
Qənbərinin, Qənbəridir, ya Əli.

Sayeyi-xurşidi-Sübhandır Əli,
Əhli-fəqrə Şahi-Mərdandır Əli,
Ey Xətai, geymiş Aslan kisvətin,
Laləkan qəsrində dərbandır Əli.

Ol Əlidir aləmə ümmid olan,
Ol Əlidir dünyada tədric olan,
Ol Əlidir, ey Xətai, bixəta,
Dünyəvü üqbadə həm cavid olan.

Gər Əlinin mülki-insandır yeri,
Dər həqiqət ərşi-Rəhmandır yeri.

Ey Xətai, kimdə var mehri-Əli,
Rəhməti-Həqq, bağı-Rizvandır yeri.

Mən məvali məzhəbəm, rahım Əli,
Hacətim, zikrim, nəzərgahım Əli.
Oldu «ənqa»tək Xətai bivücud,
Qafi-qüdrət, sirri-Allahım Əli.

QƏZƏL

Din Mühəmməd dinidir, səlla əla sahib vüqar,
Kövsərin suyun verən şahım Əlidir şəhsüvar.

Həm səxidir, həm səxadır, kainatın eynidir.
Kimsə nə bilir, anın sirrin bilir Pərvərdigar.

Dedilər kim, bu cəhanın nuri kimdir, kim ola?
Mir Həsəndir, Şah Hüseynin Ali oldu yadigar.

Daş yarıldı, çıxdı Düldül yəhərü yügən ilə,
Ey münafiq, yola gəlgil, eyləmə şahdan fərar.

Handa varsan, ey Xətai, sən bu ləfzi söyləgil,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar».

YA ƏLİ, SƏNDƏN MƏDƏD

Hüsn ilə ziba imişsən, Ya Əli, səndən mədəd,
Görk icində ba imişsən, Ya Əli, səndən mədəd.

Eşq ilə məşuqu aşiq səndə olmuşdur zühur,
Sirri-mövla imişsən, Ya Əli səndən mədəd.

Eşq oxurlar adını rahi-həqiqətdə sənin,
Eşq ilə şeyda imşsən, Ya Əli, səndən mədəd.

Övliyalar, ənbiyalar çoxdurur, illa ki, sən,
Cümlədən əla imişsən, Ya Əli, səndən mədəd.

Möminə irşad edirsən lütfü ehsanu kərəm,
Kafirə qovğa imişsən, Ya Əli, səndən mədəd.

Yerdə, göydə istəmir şol kör münafiqlər səni,
Zahirən peyda imişsən, Ya Əli, səndən mədəd.

On səkkiz min aləmin sirdaş sənin sirrindədir,
Mürşidi-bina imişsən, Ya Əli, səndən mədəd.

Qismәti-ruzi-əzəldə həm müini-Müstəfa,
Nərgizi-şəhla imişsən, Ya Əli, səndən mədəd.

Ança kim, seyr eylədim,cəzdim vüçudum şəhrini,
Misli-bihəmta imişsən, Ya Əli, səndən mədəd.

Bu Xətai xəstədil birliginə iqrar edir,
Vahidi-yekta imişsən, Ya Əli, səndən mədəd.

SEYİD ƏZİM ŞİRVANİ

Qəsidə

Hər kimün mövlası aləmdə Şəhi-Mərdan olur,
Çəkməsin qəm ki, onun hər müşgülü asan olur.

Olsa hər kim gəşteyi-Ali-Peyğəmbər sakini,
Baki olmaz dəhridə, gər gündə yüz tufan olur.

Ol şahənşahi fələkrüfət cəhati mədələt,
Kim sələtinlər onun dərgahına dərban olur.

Ol imami-dini-dünya kim, onun inkarına,
Dininə, dünyasına yüz nəqsu yüz nöqsan olur.

Ol şahənşahi-vilayət kim, şəbi-meracdə,
Xani-qurbində onun şahi-Rüsul mehman olur.

Baxsa hər kim ki, həqarətlə onun dərgahına,
Çeşminə billah ki, hər müjgani bir peykan olur.

Bilmiyən vacib sücudi-asitani-dövlətin,
Gər mələkdə, gər bəşərdə rütbəyi-şeytan olur,

Olmayan qail imamətlə bu mövla həqqinə,
Gər yüz il taət qılırsa cümləsi üsyan olur.

Kim ki, ixlasilə tutsa bu şəhin damanını,
Qədridə Miqdadü, Buzər, rütbədə Səlman olur.

Sənsən ol şahi-«Qədir-Xum»mi ki, Həqdən şəninə,
Müstəfayə ayəyi-təbliğ üçün fərman olur.

Sənsən ol şahi qəza fərman ki, İbrahim üçün,
Atəşi-Nəmrudi hikmətlə, güli-reyhan olur.

Olmasaydın Xizrə rəhbər, ey dəlili-kainat,
Həşrə tək səhralər içrə Xızri sərgərdan olur.

Guşəyi-zindan mühibbi-Heydərə gülzar olur,
Düşməni-bidinlərə gülzarilər zindan olur.

Ol imami-Həqq kim, hübbi onun möminlərə,
Sinədə rövnəq qərari-məşəli-iman olur.

Gərçi İsmayıl üçün xalq ildə bir qurban kəsir,
Səndən ötrü gündə aləm, ya Əli, qurban olur.

Sənsən ol sərvər ki, Qənbərtək qara xadimlərin,
Hər biri məna ilə bir Yusifi-Kənan olur.

Sənsən ol Müşgülguşa kim, ya Əli, adın sənin,
Sidqilə yad eyləyən hər müşküli asan olur.

Çəkməsin hər iki dünya ara bir zərrə ğəm,
Hər kimin Mövlası aləmdə şəhi-Mərdan olur.

Ya Əli, sənsən o mövla kim, mühübbün dəhridə,
Gər yüz il cürm eyləsə müstovcibi-ğufran olur.

Seyyidi-biçarə bir kəmtər qulamındır sənin,
Lütfilə qılsan nəzər,həm rütbeyi-Həssan olur.

Əli

Ey nuri bəxşi-barigəhi-kibriya Əli,
Vey xaki-barigahi olan kimiya Əli.

Zillətsərayi-dəhr sənlə tapıb nicat,
Ey asimani rüfətə şəmsiz züha-Əli.

Salmazdı bu cahana ziya olmasaydı gər,
Xaki-rəhin günəş gözünə tutiya Əli.

Su verməsəydi aləmə əbri-inayətin,
Ruyi-zəmində bitməz idi bir giyah Əli.

Dəstindədir həmişə sənin xaməyi-qədər,
Təhti-təsərrüfündədi lövhi-qəza Əli.

Bir zərbətində var Səqəleynin ibadəti,
Var kimdə böylə rütbəvü qədri-bəha Əli.

Mədhində kafi olsa idi «Qul-kəfa» əgər,
Xətmi Rüsul edərdi ona iktifa Əli.

Hansı fəzilətin deyim,ey nuri-övliya
Ey babi-şəhri-elmi-Rəsuli-Xuda Əli.

Ol «İnnəma vəliyyikumullah»idən murad,
Sənsən bu xəlqi aləmə ey pişiva Əli.

Əngüştərilə saili sən eylədin qəni,
Sənsən bu əhli aləmə rəsmi-səxa Əli.

Sənsən o rəhmidil şəhi-miskin nəvayi kim,
Şənində nazil oldu sənin «Həl-əta» Əli.

Beytül-həram oldu məqami vilayətin,
Zinət səninlə Mərva tapıb,həm Səfa Əli.

Seyyid olub dəxil sənə,var ümidi kim,
Məhşər günündə eyləyəsən sən dəva Əli.

* * *

Hər kimin mövlası aləmdə şəhi-mərdan olur.
Çəkməsin qəm ki, onun hər müşkili asan olur.

Olsa hər kim gəştiyi Ali Peyğəmbər sakini,
Baki olmaz dəhridə gər gündə yüz tufan olur.

Hər kimin Heydəri - Kərrar tək mövlası var,
Xatiri xoş könlü xürrəm daima şadan olur.

Xassə bu mövsüm ki, ecazi yədi – Şiri - xuda,
Dini həqq şayaninə bir hüccət burhan olur.

Ol şəhənşahi fələk rufət cahan mödələt,
Kim sələtinlər onun dərgahinə dərban olur.

Dəst həqq nəfs Nəbi mir ərəb şah əcəm,
Kim onun bir bəndəsi aləmlərə sultan olur.

Ol imami - dini dövlət kim onun inkarının
Dininə dünyasına yüz nəqsü yüz nöqsan olur

Ol şəhənşahi vilayət kim şəbi - meracda
Xanu qurbində onun şahu rusul mehman olur

Eyliyibdir tazədən bu möcüzi izhar kim
Şadlıqdan xəlqi aləm gül kimi xəndan olur

Dövlətin ol asitanın ehtiramın sidq ilə
Aqibət paşa kimi öz qanına qəltan olur

Baxsa hər kimsə həqarətlə onun dərgahına
Çeşminə billah ki, hər müjgani bir peykan olur

Bilməyən vacib sücud asitan dövlətin
Gər mələkdür gər bəşər həmrütbəyi şeytan olur

Olmuyan qail imamətlə bu mövla həqqinə
Gər yüz il taət qılırsa cümləsi üsyan olur

Kim ki, ixlas ilə tutsa bu şəhun dəmanını
Qədrdə Miqdadu Buzər, rütbədə Səlman olur

Ey Xuda, ol rövzəi pürətri xuld asarə kim
Kəmtərin xadimləri ol rövzənin rizvan olur

Caməi istəbrəğu sündusdən alır xələtin
Hər o kəs kim şuri eşqindən onun üryan olur

Hər iki dünyada Həssan rütbəsin dərk eyləyər
Murtəzanın kim ki, osafında mədhətxan olur

Ya Əli, bu tazə möcüz bir zümmərdir edər
Çeşmi xəsmi kur əgər kim əfiyi ğursan olur

Bu səadətdən sönür hərdəm mübahət eyləsən
Məzhərü ecazin ey şəh xutteyi - Şirvan olur

Xaki Şirvan eyləsin sair biladə fəxrlər
Kim bu möcüzün qubari tutiyayi can olur

Nefti xumdan cuş qılmaq mocubu heyrət deyil
Yetsə gər hökmün sənin hər qətrə bir ümman olur

Sənsən o şahi qədirxum ki həqdən şənüvə
Mustəfayə ayəyi təbliğ üçün fərman olur

Sənsən ol şahi fəza fərman ki İbrahim üçün
Atəşi Nəmrud hökmünlə gülü reyhan olur

Olmasan gər Xızra rəhbər ey dəlili kainat
Həşrə tək səhralar içrə Xızrı sərgərdan olur

* * *

Aləm içrə mətləyi-ənvar sənsən ya Əli.
Çərxi izzət sabiti-səyyar sənsən ya Əli.

“Kuntu kənzən məxfiyyən əhbəbtu ən öörəf” deyən,
Kəlməyi-həqq sahibi-güftar sənsən ya Əli.

Zati-pakindür məşiyyət xəlqi qıldın aləmi,
Eyləyən afaqi yoxdan var sənsən ya Əli.

Aləmə məlul biillət vücudundur sənun,
İllətə nöh günbədi-dəvvar sənsən ya Əli.

Sən zühur oldun cahanə zahir oldu zat həqq,
Zat həqqi eyləyən izhar sənsən ya Əli.

Aləmu Adəm tefil zat pakundur sənun,
Sadiru əvvəl şəhi-əbrar sənsən ya Əli.

Tövbəyi Adəm sən ilə oldu aləmdə qəbul,
Nəqsi yoxdur söyləsəm Ğəffar sənsən ya Əli.

Xatib “ya nar kuni” sənsən ey nur Xuda,
Nar nəmrudi qılan gülzar sənsən ya Əli.

Oldi Nuhə fulk məşhun üzrə lütfün Naxuda,
Hin tufan məmtəri-əmtar sənsən ya Əli.

Salihə qıldın ətalar nağə səng xarədən,
Qovm Adə sərsəri-qəhhar sənsən ya Əli.

Verdi Əyyub tənəfkarə şəfa lütfün sənun,
Yunisə bətn səməkdə yar sənsən ya Əli.

“Rəbb ərini” söylədi Musa əgərçi Turudə,
Ol təcəlladən oldiyi didar sənsən ya Əli.

Didəyi-Yəqubə verdi feyz didarun ziya,
Yusifə zindan ara dildar sənsən ya Əli.

Zindəyi ənfas pakündür məsihalər sənün,
Aləmi əhya edən sərdar sənsən ya Əli.

Nitq pakindür sənun “eynən tüsəmma səlsəbil”,
Cənnət içrə təcriyil-ənhar sənsən ya Əli.

Qoydun ey nur Xuda mehr nübuvvət üstə pa,
Kəbədən bütlər yıxan huşyar sənsən ya Əli.

Qətl mərhəbdə sənə həqdən yetişdi mərhaba,
Qatilul-kuffar vəl əşrar sənsən ya Əli.

Cinni-insun taətindən əfzəl oldi zərbətun,
Ruz xəndəq qatil kuffar sənsən ya Əli.

Kimdu kim Əmr ibni Əntər zərbuvə tab eyləsun,
Şiri-Davər qüdrəti-Cəbbar sənsən ya Əli.

Ey şəhi-Xeybərguşa sultani-iqlimi-səxa,
Vəqt bəxşiş qıl zəmu zuxxar sənsən ya Əli.

Yar ğar oldi Rəsul gərçi ğeyri zahirən,
Batinən ol şahə yar ğar sənsən ya Əli.

Hər peyəmbər batinində batin idi batinün,
Yar faş Əhmədi-Muxtar sənsən ya Əli.

Çox bəlalar dəf qıldın Əhmədi-Məhmudidən,
Dafeyi dərdü-qəmu bisyar sənsən ya Əli.

Eylədün sərh ğürər yeri Süleymana əta,
Ləhni Davudun nükatu vari sənsən ya Əli.

Çərx fəzl qədr burc kokəbi-ehda əşər,
Bəhr pak löliyi şəhvar sənsən ya Əli.

Olmamışdı qalib Adəm muxəmmər tinidən,
Zat həqqə eyləyən iqrar sənsən ya Əli.

Sənsən Adəm, həzrəti Adəm sənə fərzənddur,
Nöqtəi "səlsal kəlfəxxar" sənsən ya Əli.

Gülşən bağ risalətdə gül idi Fatimə,
Ol gülün ətrin alan əttar sənsən ya Əli.

Olmasaydın olmaz idi kimsə kuffu Fatimə,
Küffu ol siddiqeyi əthar sənsən ya Əli.

Həmlə üstən həmlə izhar eyləyən kafirlərə,
Xəsm əfkən heydəri-kərrar sənsən ya Əli.

Fazil Şirvaniyan kim nəsl pakundur sənun,
Zat pakunda olan asar sənsən ya Əli.

Lütf həqq ağayi-ağayan ağa Seyid Əzim,
Sanki Şirvandan bizə ğəmxar sənsən ya Əli.

Seyyidin nitqi-kəlami, fikri-zikri, ruzi-şəb,
Təbi muzunundakı əşar sənsən ya Əli.

Bir kəlaf ilə gəlir Seyyid sənun bazaruva,
Bu əcuzə Yusif bazari sənsən ya Əli.

Bir yüzü qarə qulundur bipənah dərbədər,
Qoyma xar olsun şəhi-əbrar sənsən ya Əli.

ABDULLA ŞAİQ

Sən idin

Əli, o bəzmi-ələstə açan liva sən idin,
Səriri-silsileyi fəxri-ənbiya sən idin.

Həmin o silsileyi-vəhdətə qılan dəvət,
O məçlis içrə qılan valiyi-Xuda sən idin.

Nə mey var idi, nə saqi, nə ismi sağəri-həq,
O bəzm ara-çağıran, ləfzi saqiya sən idin.

Meyi-məvəddəti-mənayi-saqiyi-əzəli,
Ümmid olan o meyə əsli-müddəa sən idin.

Həqqi həqiqətə həqdən ləkə həqaiq olan,
Həqqin həqiqətinin ümdəsi həqa sən idin.

Olan sifati münşəqq, sifati-vəhdətdən,
Məharimi-hərəmi-qeybi-kibriya sən idin.

Yaranmamışdı nə aləm, nə xilqəti-Adəm,
Binayi-xilqəti-cəmə qoyan bina sən idin.

Xəlilə atəşi-Nəmrudi gülüstan, Nuhi
Edən tələtümi-girdabidən rəha sən idin.

Sən olmusan «Yədi-beyza» o dəsti-Müsadə,
Tələlü ilə edən şəşəə cəla sən idin.

Rəsuli-Əkrəm edən vəqtdə aləmi merac,
Pəsi-hicabidə tərhi-səda, səda sən idin.

Nüzul eyləməmişdi Peyğəmbərə Quran,
Edən tilavəti «Vəşşəmsü Vəzzuha» sən idin.

Rümuzi «Yasin»ü, «Ta-ha» və fövqü ər-rəhman,
Bəraət ayəsinə mətni-«Qul kəfa» sən idin.

Ümumi nasə sən idin Peyğəmbəri tanıdan,
Çirağı-dini edən gün kimi ziya sən idin.

Nə sirridir qocalan vəqtidə kecib başdan,
İbadət üstə görən zərbəti-cəfa sən idin.

Qəbul edib ölümü ümmətə şəfaət üçün,
Qoyan nişaneyi-övzai-Kərbəla sən idin.

Baxıb Hüseynin o səhradə gör müsibətini,
Hüseyndir əhli-əza, sahibi-əza sən idin.

Yazam müsibəti-Kərbübəla tamam olmaz,
Qoyan müsibəti bu aləmə, bina sən idin.

Səgəm dərgahində, vəfasızam, kərəm et,
Hamı vəfasıza billəm edən vəfa sən idin.

Görüb yuxuda cəmalın müvəffəqul-feyzəm,
Verən bu «Şaiq»inin təbinə cəla sən idin.

SEYİD ƏBÜLQASİM NƏBATİ

QƏSİDƏ

Saqiya, dur badə ver, açıldı gül, gəldi bahar,
Əbri-rəhmət eylədi səhravü bağı laləzar.
Nalə çək bülbül kimi, dur rəqsə gəl divanəvar,
Məsti-məstanə bu ismi söylə hərdəm aşkar:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Balığın qarnında Yunis oldu çün zarü həzin,
Taqəti tağ oldu, səbri getdi, oldu çox qəmim,
Hazır oldu ol zaman yanında Cibrili-Əmin,
Söylədi, qəmdən xilas ol, eylə bu zikri həmin;
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Həzrəti-Əyyubi çün etdi bəlayə həqq nisar,
Nişi-kirman eylədi can səqfini çün zəxmdar,
Çünki tabı qalmadı, getdi əlindən ixtiyar,
Ta ki, zikr etdi bu ismi, oldu qəmdən rəstgar:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Adəmi şeytan çü etdi bağı-Rizvandan cüda,
Bikəsu tənhavü sərgərdan gəzərdi hər yana,
Bir tərəf Həvva fərağı, bir tərəf rənci-Sena,
Aqibət bu zikri etdi oldu hiçrandan rəha;
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

İstədi yandırsın İbrahimi ta Nəmrudi-dun,
Məncəniqə qoydu, atdı naru nurə sərnigun,
Taki düşdü atəşə ol dəm o Mərdi-Zifunun,
Atəşi etdi gülüstan, söylədi bu ismi çün;

«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Çünki Xeybər qələsində qaldı aciz Mustəfa,
Naümid oldu ki, hasil olmaz oldu müddəa,
Gəldi ta ki, Cəbrəil gətirdi fərmani-Xuda,
Söylədi, bu zikri təkrar et ki, gəlsin Murtəza:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Heydəri-Səftər qopardı çünki Babi-Xeybəri,
Qıldı qalxan başina onu ərənlər sərvəri,
İki böldü şir tək ol dəmdə əmrü Əntəri,
Söylədi göydə mələklər, yerdə insanü pəri:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Dəşti-ərzəndə cü etdi şir Səlmanı əsir,
Acizü biçarə qaldı, tapmadı bir dəstgir,
Üz tutub dərgahi-həqqə ağladı ol mərd pir,
Zahir oldu onda bir dəm şahsuvari-şirigir:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Çün Səlasil qələsində oldu Əhməd bimədar,
Nazil oldu peyki-Rəhman, Cəbrəil, Namdar,
Söylədi, qoy mancaniqə at Əlini biqərar,
Fəth edə bir ləhzədə, söylə bu ismi aşkar:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Çünki Peyğəmbər Ühüd rəzmində qaldı bipənah,
Gövhəri-dəndanı sındı, oldu halı çox təbah,
Ləşkəri buldu həzimət, getdi əldən dəstgah,
Zikr edib bu ismi-paki çəkdi canından bir ah:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Ruzi-əvvəl Cəbrəildən ta ki, həqq etdi sual,
«Sən nə kimsən?, Mən kiməm»-söylə cəvabın olma lal,
Dedi: «Sən, sən mən mənəm»- od tutdu yandı pəru bal,
Mültəci oldu bu ismə ta ki, rəf oldu məlal,
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

Ey Nəbati, mədhi-şahi daim eylə aşkar,
Ta ki, olsunlar xəvariçlər həsəddən kürü kar,
Hasil oldu ta muradım, qafil olma zinhar,
Söylə bu ismi-əzimi dəmbədəm bi ixtiyar:
«Şahi-Mərdan, Şiri-Yəzdan, Heydəri-Düldülsəvar,
La fəta illa Əli, la seyfə illa Zülfüqar».

MOLLA PƏNAH VAQİF

Görmədim müxəmməsindən bir parça

…Ey xoş ol kəslər Mühəmməd Mustəfanı sevdilər,
Saqiyi Kövsər Əliyyəl Murtəzanı sevdilər.
Fatimə oğlu Həsən, həmçu Hüseyni sevdilər.
Çardah məsum tək müşkül quşanı sevdilər,
Dəxi onlardan gözəl yaxşı cəmaət görmədim.

Ya imaməl cinnü vəl insü şəhənşahi-ümur,
Getdi din əldən bu gundən böylə sən eylə zühur,
Qoyma kim şeytani-məlun eyləyə imanə zur,
Şöleyi hüsnünlə bəxş et tazədən dünyaya nur.
Kim şəriət məşəlində istiqamət görmədim.

Göz ağardı ruzigarım oldu gün-gündən siyah,
Etmədim səd heyfi kim bir mah ruxsarə nigah,
Qədrbilməz həmdəmimlə ömrümü etdim təbah,
Vaqifə ya Rəbbəna, öz lütfini eylə pənah,
Səndən özgə kimsədən lütfü inaət görmədim.

AŞIQ ABBAS TUFARQANLI

Edəndi

Damadi-Peyğəmbər, ziynəti-mənbər,
Məhşərdə şiəyə imdad edəndi.
Kərəmin kanidür sahibi-Qənbər,
İmamət vəçhində irşad edəndi.

Zitaha qəsabi, ziyasın kəmər,
«İnna» və «fətəhna» «Ya Hü» taci-sər,
O gün ki, Cəbrail qalmışdı bisər,
Ona təlim verib ifad edəndi.

Mahi-hidayətdi, nuri-münəvvər,
Barmaqla şəqq etdi səmadə qəmər,
Adəm sifətində xatimə sərvər,
Qurani-məcidi irad edəndi.

Haq-Təala yaradıb bir belə sərvər,
Əmirəl-möminin, imami-əkbər,
Qəbr evində gəlir nəkiru munkər,
O anda Abbası bir yad edəndi.

XƏSTƏ QASIM TİKMƏDAŞLI

Qoşma

Əli Düldül mindi, Mühəmməd Buraq,
Aləmin şəhpəri o şahi-çiraq,
Əbazər Əlini eylədi qonaq,
Qırx yerdə dedilər mənzilgahını.

Yığıldı bir yerə təmamən hamı,
Cəm oldu ortaya dini-islamı,
«Fatimə and içdi mən oldum namı
Eşiyə qoymayıb qədəmgahını»

Qəbul oldu Molla Qasım duası,
Silindi, könlümün qalmadı pası,
Cəbrail vəhy gətdi: «eyləmə bəhsi,
Əli ərşdə açıb səcdəgahını».

AŞIQ ƏHMƏD RÜSTƏMOV

Əlidir mənim

Pənahım Allahdır, Nəbim Mühəmməd,
Əvvəlki, imamım Əlidir mənim,
Sidqiylə çağırsam, sahibi qüdrət,
Müşgüldə gümanım Əlidir mənim.

Cənnəti-Rizvanda sərvim, çəmənim,
Adın zikr edəndə titrər bədənim,
Varlığım, taqətim, sidri-kəfənim,
Məzhəbim, imanım Əlidir mənim.

Qeyrətli Əbbası, Ələmdar olan,
Səkinəsi əsir, Zeynəbi giryan,
Xeybərdə xişm ilə Zülfüqar çalan,
Ol şiri-Sübhanım Əlidir mənim.

Dünya sakin olub qərar tutanda,
O nurda xəlq olub Əhməd, bil onda,
Ərəsat günündə, məhşər qopanda,
Ol Şahi-Mərdanım Əlidir mənim.
Natiqi Quranım Əlidir mənim,
Müşgüldə gümanım Əlidir mənim.

ZİKRİ ƏRDƏBİLİ

İnkar edən vilayəti-övladi-Heydərə,
Billah gəlir cəzada üzüqara məhşərə.

Hər kəs onu vəsiyyi-bilafəsl bilməsə,
Müşrikdü, ağ olubdu cənabi-Peyğəmbərə,

Ey meyl edən cifeyi-dünyayə, yatmısan,
Aldanma dövlətə, özüvü salma şeştərə.

Dünyadən ötrü danma Əlinin vilayətin
Şəkk eyləmə vilayəti-övladi-Heydərə.

Zikri, həmişə daməni-Mövlayə çəng vur,
Bağla müdam, eşqivi mövlayi-Qənbərə.

Hubbi-Əli ola hər kimin qəlbində zərrəcə,
Alnı açıq, inan, gələcək ruzi-məhşərə.

MÜHƏMMƏD ƏMİN DİLSUZ

Axır Həccidə peyəmbər Ğədiri-Xummidə,
Aləmə car Verdi ol sərvər Ğədiri-Xummidə.

Hökm edüb naqə cihazından əshab ol zaman,
Verdilər tərtib bir minbər Ğədiri-Xummidə.

Çıxdı ol şəh minbər üstə, qıldı bir xütbə bəyan,
Eylədi həmdi-şəhi-davər Ğədiri-Xummidə.

Bəd həmdi-Xaliqi-Davər buyurdi Mustəfa:
Guş edün yaran mənə yeksər Ğədiri-Xummidə,

Həqqdən yetmiş mənə bu hökm çox təkid ilə,
Cəbrail açmışdı imdi pər Ğədiri-Xummidə.

Nazil eylüb Həqq mənə bu dəmdə «Bəlliğ» ayəsin,
Hökm qılmış Xaliqi-Əkbər Ğədiri-Xummidə.

Bu Əlini hamu kəs Həqqə vəli bilsün əgər,
Canişinimdir mənim Heydər Ğədiri-Xummidə.

Gətdi minbərdə əli üstə Əlini Mustəfa,
Xəlq gördi hamu sər ta sər Ğədiri-Xummidə.

Söylədi: Mən hər kimün mövlasıyam, mövlasıdır,
Həqq edüb bu sərvəri sərvər Ğədiri-Xummidə.

Eyliyüb Həqq bu Əlinün taətin vacib bizə,
«Əyyühənnas», olmayun kafər, Ğədiri-Xummidə.

Bu Əlinün düşməni napakdır, görməz Behişt,
Həqq edibdir dustin əthər Ğədiri-Xummidə.

Oldi razi Həq sizün İslam dinüzdən bu gün,
Siz vəli bilsəz Əlini gər Ğədiri-Xummidə.

Eyliyübdür Xaliqi-aləm buni ruzi-ələst,
Ayeyi- «qul innəma» əfsər, Ğədiri-Xummidə.

Hər iki dünya Əlini qəlbdən sevsin gərək,
Qəlbdən hər kim məni istər, Ğədiri-Xummidə.

Bu Əlini lütf ilə Xəllaqi-aləm eyliyüb,
Zatına miraat, həm məzhər Ğədiri-Xummidə.

Gər bunun vəsfin edəmta Həşr olunca dəmbədəm,
Olmaz on bindən biri əzhər Ğədiri-Xummidə.

Bu Əlini Xaliqi-aləm edibdir lütf ilə,
Aləmi-imkan üçün Ğədiri-Xummidə.

Bu Əlini eyliyibdir Xaliqi-cinnü bəşər,
Ərşü fərşü aləmə ləngər Ğədiri-Xummidə.

Bu Əlidir Qasimi Xüldü Cəhənnəm hakimi,
İnsü cinnü əkbəru əsğər Ğədiri-Xummidə.

Bu Əlini eyliyibdir Xaliqi-aləm sizə,
Sahibü mövlavü həm rəhbər Ğədiri-Xummidə.

Bu Əlidir baisi-icadi-mövcudatdır,
Bu Əlidir saqiyi-Kövsər Ğədiri-Xummidə.

Bu Əlinün nuri-pakindən münəvvərdir müdam,
Mehrü mahü cümleyi-əxtər Ğədiri-Xummidə.

Bu Əlinün daməni-pakın dutan tapmış nicat,
Dutmayan tapmış halakətlər Ğədiri-Xummidə.

Bu Əlinün vardu hübbündə Behiştü qəsrü hur,
Həqq qoyub büğzündə həm əxtər Ğədiri-Xummidə.

Bu Əlinün beyətin etməz qəbul üç kimsənə,
Xayinü tərsavü həm münkər Ğədiri-Xummidə.

Buğzilə etmüb vəlinün beyətini ol gün qəbul,
Qoydi inkarı o üç əbtər Ğədiri-Xummidə.

Beyət etdi zahirən ol gün əgər xurdü kibar,
Leyk batində necə əbtər Ğədiri-Xummidə.

Bir birinə məşvərət etdilə ol mürtəddilər:
Qoymaruq buə mri dutsun sər Ğədiri-Xummidə.

Əvvəl ol kəs kim dedi: «Bəxxin lək», ey mövlayi-din!
Etdi inkari-vilayət hər Ğədiri-Xummidə.

Gərçi zahirdə xilafət etdilər bir neçə gün,
Leyk həqqi kim edər müzmər Ğədiri-Xummidə.

Həddi yox bir kimsə Həqqün nurunu pamal edə,
Həqq edüb öz nurunu ənvər Ğədiri-Xummidə.

Yetməz itmamə bu mövla vəsfi ta ruzi-cəza,
Bağliyə Dilsuz min dəftər Ğədiri-Xummidə.

Çün Süleymanə gətürdi MUR bir rani-mələx,
Töhfəmi mövla qəbul eylər Ğədiri-Xummidə.

HACI MAİL

Əli

Əhli-ürfanə könül, bir ismi-pünhandır Əli,
Kimsə bilməz ki, necə bir əhli-irfandır Əli.

Kainatın hər işin tapşırmış İzəd Heydərə,
İxtiyardari-cəmii-çərxi-dövrandır Əli.

Mən ona Əjdər deyim, Səfdər deyim, Kərrar ya,
Hər nə dersəm var yeri çün Ali-İmrandır Əli.

Bir Yədullah ismi bəsdir arifü dana üçün,
Bu adı bir kimsə almıb dəsti-Yəzdandır Əli.

Hatəmi-Tai səxavətlə olub məşhur gər,
Leyk dünyada səxa əhlinə Soltandır Əli.

Köçdü Hatəm qalmadı zərrə səxasından əsər,
Öz səxasilə olan hala bu əlandır Əli.

Yox Peyğəmbərdən sora bir kəs Əliyə tay ola,
Batinin gör, zahirən hərçəndki insandır Əli.

O, imami-möminindir sərvəri-İslami-din,
Gərçi İslam cismisə, ol cismə bir candır Əli.

Olmasaydı Zülfüqar əldən gedərdi dinimiz,
«La fəta illa Əli»yə bunca burhandır Əli.

Bir qəzavət olmayıb keçsin Əlisiz şəridə,
Düşmənani-müslimə bir Şiri-Meydandır Əli.

Bir qılınc xəndəkdə vurdu, ol Əmir Əb dəvudə,
İndi də «əhsən» mələklərdən nümayandır Əli.

Buxl ilə mehrabidə düşmən ona qəsd eylədi,
Dini-İslama özü, övladı, qurbandır Əli.

Onları qətl eyləyənlər özləri bəs noldular?
Yox onlardan bir əsər, amma nümayandır Əli.

Qədr ilə zinət verib el qəbrinə övladının,
Həm Nəcəfdə, qəbri-nuri mahi-tabandır, Əli.

Pərdə çəkmək haqq olan bir kimsəyə, mümkün deyil,
Haqqudur kari-Əli, həm haqqa şayandır Əli.

Həm Əli, bir alimi-bimislidir, aləm bilir,
Natiqi-Quran olub, kəşşafi-Qurandır Əli.

Sayeyi-Quran kimi Nəhcül-Bəlağə ad alıb,
Bu kitab ilə odur kim, fövqəl insandır Əli.

Həm Əli şairliyi inkar olunmaz bəhsidir,
Aç oxu «Divan»ını, bir gör nə divandır Əli.

Tirə təbimlə necə mədhi-Əlidən bəhs açım,
Cümlə şairlər dilində bunca dastandır Əli.

Bəlkə bir beytim ola, ol şahə xoş gəlsin, dedim,
Əfv edə təqsirimi çün şahi-rizvandır Əli.

Aşiqi-nəsli-Əliyəm həm bunu Tanrım bilir,
Ta nə qədri mənzilim mülki-Süleymandır, Əli.

Bu məhəbbətlə əgər üqbayə gəlsəm, mütləqa,
İçdiyim Kövsər, ənisim huri-qılmandır Əli.

Saymaq ilə bəllidir məndə qurtarmaz məsiyət,
Əlli il ömrüm keçib, könlümsə nalandır Əli.

Qoymadı dünya işi hərgiz tədarük etməyə,
Gördüyüm işdən könül hər gün peşimandır, Əli.

Yoxdu şayəstə əməl, Mail baxa, ümmid edə,
Sənsən ancaq bir ümidi, bir də Sübhandır, Əli.

ƏNVƏR NƏZƏRLİ

Əli

Dürri-şəhvari-Xuda, bir ləli-gövhərsən, Əli,
Məzhəri-nuri-İlahi, Vəhyə cövhərsən, Əli.

Ənbiyalar, həm mələklər aldı səndən təlimi,
Çünki sən Həqqi-Təaladan münəvvərsən, Əli.

Kaşifi-şəri Xudasan Övliyalar cəminə,
Məktəbi-şər-idə bir piri-müəmmərsən, Əli.

Xatirinçün xəlq edib dünyanı Allah, ey Əziz,
Dövri-aləm sənlədir, dünyaya məhvərsən, Əli.

Kani-əsrari-İlahi, məxzəni-elmü hünər,
Lövheyi-məhfuztək əsrarə dəftərsən, Əli.

Zahir İslami edən, olmuş Mühəmməd-Mustafa,
Şəmsi-dinin ol Nəbidir, sənsə əxtərsən Əli.

Etiqadın, beyətin, imanın, amalın təmiz,
Rövzeyi-rizvandakı güldən müəttərsən, Əli.

Xəlq olan gündən sənə qardaş demiş Xətmi-rüsul,
Yar olan qardaşına mərdi-hünərvərsən, Əli.

Həm qılıncıyla, həm elmiylə salan şur aləmə,
Kəsb edən «Şiri-Xuda» namini bir ərsən, Əli.

Ərz edib Peyğəmbəri-Əkrəm ki, elmin şəhriyəm,
Şəhri-elmə həm buyurmuşdur ki, sən dərsən, Əli.

Ey zəka ümmanı, ey dürdaneyi-elmü hünər,
Alimü şairlərə ustadu sərvərsən, Əli.

Bəxş edib bir sən kimi nuri-Xuda – Xaliq sənə,
Bəxtəvərsən, çünki, damadi-Peyğəmbərsən, Əli.

Şənivə gəlmiş mübarək ayələr, «Quran»da çün,
Sən Nəbi varisi, həqq nurinə məzhərsən Əli.

Sən imami əvvəlisən müslimin ya Mürtəza,
On bir övladın müdavim, gör nə zivərsən, Əli.

Ya Əli, aşiqlərin görməz cəhənnəm atəşi,
Lütf edən əhli-behiştə cami-Kövsərsən, Əli.

Zalımın qəhharısan, məzlumlarınsa munisi,
Həqqi nahəqdən seçən münsifi-davərsən, Əli.

Ey səxavət mədəni, sənsən kömək möminlərə,
Müstəhəqqə, yoxsula, miskinə yavərsən, Əli.

Vurmadın beytül-mala əl ehtiyacın olsa da,
Bağladın təqvaya bel, hər rəncə şakərsən, Əli.

Səndən əvvəl üç xəlifə olmuş xilafət başçısı,
Həm xilafət, həm imamət üzrə rəhbərsən, Əli.

Tapmağa layiq sənin şəninə bir söz acizəm,
Əsədullah, Bülhəsən, Kərrar, Heydərsən, Əli.

Çardah məsum ilə Dərgahi-həqqin əşrəfi,
Ruzi-axərdə şəfii-əhli-məhşərsən, Əli.

Çəkmərəm əl damənindən həşrəcən bir dəm sənin,
Çakəri-sadiqinəm, çün həqqə çakərsən, Əli.

Qalmışıq kafər əlində çün girifdar, et mədəd,
Zərbi-dəstin, qəhr ilən küffarə göstər sən, Əli.

«La fəta illa Əli, la seyfə illa Zülfüqar»
Söyləmişdir Mustafa, dillərdə əzbərsən, Əli.

Ya Əmirəl-möminin, qəlbimdəsən, ruhumdasan,
Ey fəda canım sənə, mövlayi-Ənvərsən, Əli.

HACI ƏLƏMDAR MAHİR

Həzrət Əli (ə) haqqında

Bir gülün eşqi dili-zarımda tutmuşdur qərar,
Könlümü zövqü səfayi-eşqi etmiş laləzar,
Gəldiyim gündən cahanə xeyli müddətdir ki, var,
Lövhi-dildə xameyi iman yazıbdır bir şüar:
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Baş əyər görcək vüqarın izz ilə hər dağ ona,
Paybus etsin deyə həsrət çəkir torpağ ona,
Cümlə ariflər məhəbbətlən olub müştağ ona,
Hər qədər ki, insü cinni xəlq edib Pərvərdigar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Əhli-təqva, əhli-iman, əhli-ürfandır Əli,
Fatehi-Xeybər, vəliyyi-həqqi-Sübhandır Əli,
Murtəzadır, şahi-Mərdan, şiri-Yəzdandır Əli,
Təkcə bu misra yetər ki, kimdir ol Düldülsüvar:
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Olsa da dünyada yüz dövlətli insan Cəm kimi,
Cümlə varın versə də bir kəs əgər Hatəm kimi,
Tutsa da meydani-cəngi sərvəran Rüstəm kimi,
Qoysa da bir ad əgər aləmdə çox-çox tiğdar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Yox sözüm, elm əhli, iman əhli çox insan olub,
Ya ki, çoxlar zərbi-dəstiylən gəlib sultan olub,
Sanma onlardan biri misli-şəhi-Mərdan olub,
Şübhəsiz dünyaya insanlar gəlibdir bişümar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Sənsən elmü helmdə fərzanələr-fərzanəsi,
Təxtü taci-eşqidə dürdanələr-dürdanəsi,
Ey səxavü ədldə mərdanələr-mərdanəsi,

Söyləmişdir vəsfi-zatında Rəsuli-Kirdigar:
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Ya Əli, ey cümlə xaqanlar sənə kəmtər qulam,
Rahi-eşqində xoşa ol aşiqə tutmuş məqam,
Mahirəm xaki-dərində bir gəda tək sübhü şam,
Tutiyi-dil dəmbədəm təkrar edər biixtiyar:
«La fəta illa Əli, la seyfə illa Zülfüqar»

Hərət Əli-nin (ə) mövludu haqqında (Tərkibənd)

Ey yuman göz cümlə dünyanın ziyanü sudinə,
Ey itaət eyləyən min şövq ilə Məbudinə,
Ey yetən canın fəda etməklə öz məqsudinə,
İstərəm bir şeir ithaf eyləyim mövludinə,
Yetdiyin mərdanə məqsudin mübarək ya Əli!
Pürsəfa, pürnur mövludun mübarək, ya Əli!

Yoxdu mislin gərçi axtarsam da yeksər aləmi,
Sənsən heyran eyləyən ancaq sərasər aləmi,
Nuri-zatındır edən bunca münəvvər aləmi,
Səndən ötrü xəlq edibdir Həyyü Davər aləmi,
Həq yanında çox müəzzəmdir məqamın, ya Əli!
Ol səbəbdən vacib olmuş ehtiramın, ya Əli!

Kim ruxi-dildarə candan aşiq olmuş sən kimi?
Kim canın verməkdən ötrü şaiq olmuş sən kimi?
Kim rəhi-eşqində yarın sadiq olmuş sən kimi?
Hansı aşiq bəzmi-yarə layiq olmuş sən kimi?
Yoxdu bir aşiq sənə olsun bərabər, ya Əli!
Tək yaratmışdır səni Xəllaqi-Əkbər, ya Əli!

Sən səxavət, sən kəramət, sən şücaət kanısan,
Həm mətanət, həm dəyanət, həm ədalət kanısan,
Sən elə bir sadiq aşiqsən, sədaqət kanısan,

Aləmi heyran edən bir elmü hikmət kanısan,
Sən ədəbsən, sən elmsən, sən zəkasan, ya Əli!
Mənbəi-sidqü vəfa, kani-səxasan, ya Əli!

Çox-çox evlərdə sevincə, sən səbəbkar olmusan,
Binəvayə, bikəsə, biçarəyə yar olmusan,
Bilmisən dərd əhlidir hər kim ki, qəmxar olmusan,
Daima məzluma hər yerdə havadar olmusan,
Həm bizə imdada yet, çək Zülfüqarın, ya Əli!
Qana döndər bu ədular ruzigarın, ya Əli!

Dil açar biganələr İslamə min təhqir ilən,
Cəhd edərlər məhvinə yüz hiyləvü tədbir ilən,
Sinəsin sədparə etməkçün durublar tir ilən,
Qətlinə amadədirlər tir ilən, şəmşir ilən,
Həmlə eylərlər bizə hər sübhü axşam, ya Əli!
Qoyma yad əllərdə qalsın dini-İslam, ya Əli!

Sən vəliyyi-həqsən, şiri-Xudasan şübhəsiz,
Eyni-nuri-zati-paki-Müstəfasan şübhəsiz,
Sən imamət mülkünə bir «Lafətasən» şübhəsiz,
Ərsəgahi-həşrdə mülkülgüşasan şübhəsiz,
Mahiri-biçarəyə lütf et şəfaət, ya Əli!
Binəvadır, rəhm qıl tapsın səadət, ya Əli!

HACI ARİF BUZOVNALI

Əlinin (ə) mövludu

Əli mövlududur, ey şiə, sədaqət göstər,
Bu günü bayram elə, dərdə qənaət göstər.

Fərəhindən bu gün ehzazə gəlib «Kəbə» evi,
O müqəddəs yerin eşqində dəyanət göstər.

Fürsət ikən Əli vəssafı ol imkanınca,
Aşkar eylə nihan eşqi, məharət göstər.

Neçə əslində Əli aşiqisən eylə sübut,
Şad olub şiəliyindən bir əlamət göstər.

Əli cəngin demirəm ərsədə təsvirə gətir,
Sən barı nitqin ilə eyni şücaət göstər.

Bu günün eşqinə vird eylə «vəfa» kəlməsini,
Müjdə ver Xaliqi-Yektaya, fərasət göstər.

Sən də, ey alim olan, susma Əli bəhsində,
Bəşərə batini-Qurandan işarət göstər.

Hansı məntiq ilə söz nitqdə mənaya gəlir,
Bir-bir isbat eyləyib ali fəsahət göstər.

Əli gər qəleyi-Xeybərdə qiyamət qoparıb,
Sən onun şəninin uğrunda qiyamət göstər.

«Əli məndəndi, mən ondan» - buyurub çünki Nəbi,
Bu sözün dərkinə, ey şiə cəsarət göstər.

Gör kimin oğlu, kimin yarı, kimin valisidir,
Müstəhəqq olmağa bu bəzmə ləyaqət göstər.

Sakit ol məclisi-mövladə, oyat qəflətüvi,
Qonağa, sən necədir bizdə bu adət göstər.

Əli «əl tutmağını» yad elə ey varı olan,
Bir heç olmazsa bu gün xəlqə səxavət göstər.

Əlinin şad günüdür, bir kəsi naşad eləmə,
Bacarırsansa pərişanə himayət göstər.

Xaliq Adildi ki, xəlq etdi Şəhi-Mərdanı,
Ona şükr etmək ilə sən də ədalət göstər.

Arifa, ver sözə mənanı Əli eşqi ilə,
Necə bu eşq eləyib qəlbini qarət göstər.

Ya Əli, nəqs sözümlə səni təbrik edirəm,
Cürmümü əfv elə, üqbadə şəfaət göstər.

HACI YAŞAR CAHİD

Olmaz idi

Olmasaydı Əli, din içrə səfa olmaz idi,
Murtəzasız nə səfa ruha qida olmaz idi.

O Əlidir bizə göstərdi həqiqət yolunu,
Yoxsa ondan səvayi rahi-huda olmaz idi.

Əliyə söylədi mizani-ədalət o Nəbi
Əli olmazsa ədalətli-qəza olmaz idi.

Rəxtixabında yatıbdır o Peyğəmbərdən ötür,
Ki Əli tək bu işə kimsə riza olmaz idi.

Zülfüqar ilə Əmribni Əbdəvüd başına,
Vurmasaydı Əli, küfr-əhli gəda olmaz idi.

Bir əlilə qoparıb çəngidə Xeybər qapısın,
Əlisiz kimsədə bil öylə şuca olmaz idi.

Vurduğu zərbəyə xatir o Əli şənində,
«La fəta» kəlməsi göylərdə səda olmaz idi.

Vurmasaydı yerə yüzlərcə o aslan kürəyin,
Adı dillərdə bu gün şiri-Xuda olmaz idi.

Olmasaydı Əli layiq o zaman Xaliqdən,
«həl əta» surəsi Məhmudə nida olmaz idi.

Verdi ənguştərini sailə əsnayi-namaz,
Kimsə əshabidə bir böylə səxa olmaz idi.

Danmasaydı Əlinin haqqını nadanlar əgər,
İndi din icrə inan birçə xəta olmaz idi.

Uymasaydı o zaman munkiri-mövlaya çoxu,
İndi Mövlayi-Əlidən o cüda olmaz idi.

Hansı millət ki, Əlisizdi ona yox çarə,
Olara indi düçar dərdi bəla olmaz idi.

Cahida dərk edə bilsəydik Əli həqqini biz,
Əlidən qeyri zikir dildə dua olmaz idi.

AXUND HACI SOLTAN HÜSEYNQULU OĞLU

KEÇ

Gər Əli aşiqisən cümlə bu dünyadan keç,
Tut Əli damənini, müshəfi-dəryadan keç.

Əhli-İslamə yəqin babi-Əlidəndi nicat,
Özgə bir kəsdə səxa yoxdu, bu xülyadan keç.

Yer Əli, göy Əli, əvvəl Əli, axir Əli.
Sözü duymaqdan ötür mənbəyi-mənadan keç.

Əli eşqilə dönür yazə ömür fəsli-xəzan,
Uyma hüsnə, xəzan istə, güli-rənadan keç.

Gecə-gündüz Əli zikrin elə ta halın var,
Amma cəhd eylə nə gerçək, nə də röyadan keç.

Soltanın dürrünə istərsən əgər müştərilik,
Sənə dünya yetirən ləli-müsəffadan keç.

ƏLİDİR

Mömin sayılan hər kəsin ünvanı Əlidir,
Təqvadə mükəmməl olanın canı Əlidir.

Bildinmi necə əfv elədi Adəmi Xaliq,
Bu məğfirətin rəhməti-ğufranı Əlidir.

Xəlq eylədi əvvəlcə Əli nurunu Allah,
Dünyayə səbəb xilqəti-fərmanı-Əlidir.

Fironu necə qərq elədi Həzrəti Musa,
Dəryani bölən möcüzi-bürhanı Əlidir.

İbrahim üçün atəşi döndərdi İlahi,
Bir gülşənə ki, bülbülü nalanı Əlidir.

İnsanı çəkib daridən ərşə aparandır,
Aləmdəki müşküllərin asanı Əlidir.

Meraca gedib Əhmədi Məhmud Mühəmməd,
Kəşf etdi, bəşər dərdini dərmanı Əlidir.

Yerdən göyə merac elədi «Nəhcül-Bəlağə»
Ümmul-kitabın qardaşı Quranı Əlidir.

Bir mah Mühəmməddi, nəbilər ona ulduz,
Bu mənzərənin bürcisi-Keyvanı Əlidir.

Hatəmdə səxavət var idi, sözdü deyirlər,
Mövzu bu səxavətdisə ümmanı Əlidir.

Kim ki, onu sevdi, ona Cənnət nə gərəkdir,
Aşiqlərinin rövzeyi-Rizvanı Əlidir.

Sidq ilə onu daima sevmiş Hacı Soltan,
Sadiq olanın daimi Sultanı Əlidir.

DAĞLI

Bir badə gətir saqi, içim bixətər olsun,
Qəlbim ola sakit nə kədərdən əsər olsun.

O badəni ver çöhrəyi-güldən çəkilübdür,
Reyhan kimi həm ətri onun müşki-tər olsun.

Ol badə ki, iman gülünün ətri var onda,
Bağbanı Əli qəyrəz onun bir nəfər olsun.

Ol badə ki, xoş rəngdədir, hər dərdə davadır,
Ol badəni hər kimsə içə bəxtəvər olsun.

İçsə onu hər aşiq əgər Heydər əlindən,
Saqi ola Heydər içərəm hər qədər olsun.

Çox həsrətini çəkmişəm ol piri-muqanun,
Gəlsin mənə bu rahidə ol rahibər olsun.

Versinlər qulaq bu sözümə əhli-məarif,
Dünyadə sözüm həzrəti-xeyrul-bəşər olsun.

Mən istəmərəm əhli-məçaz içdiyi meydən,
Rəncidə edəm xəlqi işim şuri-şər olsun.

Nəfsün belə atəşkədədir yoxdur əlaci,
Öldürməyəsən nəfsüvi hərgiz səmər olsun.

Hər gün eşidib «zaiqətül mövt»i sədasın,
Yetdi əcəlün ah bu səfərdən həzər olsun.

Yığdın neçə il zəhmət ilən dövləti-malun,
Yat, yövmi-qiyamət ayılarsan səhər olsun.

Getdin bu cahandan yetişib varisə malun,
Talan eləyiblər maluvi hər qədər olsun.

Üç gün tutulubdur sənə yas etdilər əfqan,
Kimdir sənə bundan sonra ta nöhəgər olsun.

Sən söylər idin mali-cahan hami mənimdir,
Heç qıymaz idin dirhəminə bir xətər olsun.

Zikr eylə xuda namini, tap feyz səadət,
Bəlkə əməlindən sənə nəxli-səmər olsun.

Göndər Salavat Əhmədi-Muxtarə həmişə,
Rəğbətlə de kim layiqi-xeyrəl-bəşər olsun.

Bax gör Əliyə bir nə fəzilət verib Allah,
Yox əhli-bəşərdə elə kəs bir nəfər olsun.

Quranidə vəsf eyləyib Allah Əli namın,
Kimdür belə mövla kimi bir taçi-sər olsun.

Məsciddə verib sailə əngüştəri, Heydər,
Qiymətdə tapılmaz ona ləli-göhər olsun.

Qüvvətdə, rəşadətdə, səxavətdə Əliyə,
Hatəm nədi, Rüstəm nədi, haşa nökər olsun.

Dünyadə bizi badə nə sərməst eliyibdür,
Qoymaz bizi bir xeyri əməldən əsər olsun.

Dəviyyi-təvəlladə, təbərradə dayansun,
Zənnim budur haşa, sənə xofu xətər olsun.

Yad eyləginən ali-əba çəkmiş əzabı,
Yan şam kimi, hər bir dəmi-ahun şərər olsun.

Sal yadə Hüseynin qəmu ənduhu məlalın,
Qurban elə mövlayə gərək canü sər olsun.

Hüzzarilə tök göz yaşını mahi-əzadə,
Hər kəs eşidə «Dağlı» sözün çeşmi tər olsun.

Hər namı Əli Heydəri-Kərar ola bilməz

Hər kimsənə din mülkünə sərdar ola bilməz,
Hər namı Əli Heydəri-Kərrar ola bilməz.

Salari-ərəb, miri-cahan, şiri-Xudadır,
Bir kimsə bu dəvidə tələbkar ola bilməz.

Bir sirri-xəfiyyadır Əli ərzü səmada,
İdrak onu dərk eyləməz izhar ola bilməz.

Cəbrailə ustad o idi xilqəti-əvvəl,
Həqdir bu sözüm qeyri səzavar ola bilməz.

İzn oldu qoyub payini kitfinə Rəsulun,
Çün xaneyi həqdir dedi küffar ola bilməz.

Tökdü yerə üç yüz neçə büt Kəbə evində,
Məhrəm hərəmə yar edib əğyar ola bilməz.

Bir zərbətilə Əbdəvüdi xaksər etdi,
Ol Əmri kimi zalimi qəddar ola bilməz.

«Yövmu səqəleyn» ayəsi Peyğəmbərə gəldi,
Allah buyuran ayədi inkar ola öilməz.

Gər xilqəti-aləmdə nə qədr olsa ibadət,
Bais Əlidür, başqa səbəbkar ola bilməz.

Bir əldə ələm, nəsr-minəllahi dilində,
Fateh Əlidür qeyrisi zinhar ola bilməz.

Bir tiği-düsər saldı bölüb Mərhəbi-duni,
Düzəxdədi əlan daha bidar ola bilməz.

Taətdə, səxavətdə, dəyanətdə Əli tək,
Peyğəmbərə yar, həqqə havadar ola bilməz.

Allah tanıdı Heydəri həm bir də Peyğəmbər,
Biganə bu əsrarə xəbərdar ola bilməz.

Peyğəmbərə qurban edib övladını, canın,
Can nəqdi ilə kimsə fədakar ola bilməz.

Bir saqeyi-kövsər kimi bir bəndeyi-xaliq,
Gəzsən bu cahan mülkünə dəyyar ola bilməz.

Dünyadə fəqir övrətə, miskinə, yetimə,
Heydər kimi vallahi tərəfdar ola bilməz.

Çoxlar Əlinin həqqini dandı, dedi nahəq,
Ol Maviyə tək bircə xətakar ola bilməz.

Ləl qədrini sərraf bilər, qeyrisi bilməz,
Ahəngər olan lələ xiridar ola ölməz.

Kim satmasa bazari-məhəbbətdə mətain,
Qəflətdə yatar daxili-bazar ola bilməz.

Din zahir olub Heydəri-Kərrarın əliylə,
Din mülkünə Heydər kimi Salar ola bilməz.

Kim tutsa Əli damənini «Dağlı» ürəklə,
La şübhə Qiyamətdə günahkar ola bilməz.

SEYİD ƏLİ ƏKBƏR OCAQ NEJAD

Əli şəmsi şərəf şiri-Xudadır,
Əli bəhri-kərəm miri-hüdadır.

Əli simayi həq ruhi-vilayət,
Səxavət mənbəyi eyni-səxadır.

Nizami-xilqətə mənayi bəyyin,
Əli nuri-zəmin, nuri-səmadır.

Əli, məşuqi-rəbb, Mövludi-Kəbə,
Kəmali lütfidir məhzi ətadır.

Əli şərti-qəbuli-zöhdi-iman,
Vücudi məxfəri Ali-Əbadır.

Əli məhzi-riza, dəryayi rəhmət,
Sədaqət məxzəni kani-vəfadır.

Əbul-əytamu yaru mustəməndan,
İmamül müttəqi müşgül quşadır.

Əli Faruq, miyani həqqi-batil,
Fəna-fillahdi həqqə fədadır.

Adı məzlumi-tarixi-zəmanə,
Özü şərhi hədisi «mən bəka»dır.

Məqami silmidə təslimi mütləq,
O Mövla fatehi «qalu bəla»dır.

Həqiqət məzhəri əbdi həqiqi,
Təriqi həqqə arifdir, fənadır.

Verən sovti duası ərşə zinət,
Səfayi səcdəsi eynü sənadır.

Yapış Seyid Əlinin damənindən,
Vilayət daməni rəmzi-bəqadır.

İSTANBUL ŞƏHƏRİ
KADİR AKARAS

İMAMET VƏ VİLAYET

Tüm kevn u mekana amir sensin sen
Buna hem kevn u hem mekan şahittir
Emrin ile döner devr-i kainat
Buna zemin u asuman şahittir

Halil tek kurbanla geldi Mina'ya
Buna Meş'ar, buna Mina şahittir
Sen onlarca kurban verdin Allah'a
Buna sahray-ı Kerbela şahittir

Destan olmuş dillere sabr-ı Eyyub
Sen bir de bak Ali kızı Zeyneb'e
Sabrıyla eyledi Eyyub'u mahcub
Buna hem Kufe hem de Şam şahittir

Hacer yedi kere sa'y etti durdu
Buna Merve buna Safa şahittir
Zeyneb bu kurbandan ona koşardı
Buna yetmiş iki kurban şahittir

Vasfı söze sığmaz O'dur bir tane
Buna alem, buna Adem şahittir
Gadir-i Hum çölü velayet neme
Buna Cibril, buna Hatem şahittir

"İnni Tarikum"u söyledi gitti
"Sakaleyn"e şahid etti ümmeti
O gitti, ardından sözler de bitti
Buna Medine hem Mekke şahittir

Rukn-i alem sarsıldı mezalimden
Uzak düştü ümmet hakkın nurundan

"Beyt-ul Ahzan" doğdu zulm-i zalimden
Buna eşk u suz-i Zehra, şahittir

Hill u Harem bakardı mahzun mahzun
Ki olmuştu Kabe'nin oğlu mazlum
O put kırarken bazıları o gün
Putperestti; buna Ka'be şahittir

Tevhidin merkezi Kabe'dir düşün
Kabe'de doğmuş Emir-ül Mu'minin
Demek ki şartıdır imam tevhidin
Buna cümle Hill u Harem şahittir

İSTANBUL-MƏDİNƏ
MUSA AYDIN

CENNET-UL BAQİ

Hak nasib eyledi vardım bir gece
Baqi kenarında durdum bir gece

Sürurla karışık garir bir hüzün
Sarmıştı canımı o an büsbütün

Biliyor musunuz nereye gittim?
Birden on dört asır geriye gittim

Ya Rab, nakşolunmuş bu topraklara
İbretlerle dolu bin bir hatıra

Ya Rab, buralarda Resul gezerdi
Ali'yle Zehra-yı Betul gezerdi

Burada oynardı Hasan, Hüseyin
Buraya inerdi Cibril-i Emin

Burada dururdu saf saf mu'minler
Tekbir sesleriyle inlerdi her yer

Burada açardı iman gülleri
Buradan coşardı cihad selleri

Nereye bakarsan Resul kokuyor
Sanki Bilal çıkmış ezan okuyor

Ama ey Allah'ın yüce Resulü
Gidişinle soldu, hakikat gülü

Korktukların bir bir hakikat oldu
Makam, dünya hırsı kalplere doldu

Tenha kaldı, hakkın mizanı Ali
Büküldü yeniden İslamın beli

Ya Rab, nerede o vefalı dostlar?
Selman u Ebuzer, Mikdad u Ammar?

Bir Ravzaya, bir de Baqiye baktım
Bağrım parelendi, ağıtlar yaktım

Baqiden göklere gurbetin sesi
Yükselip ağlatır aşık herkesi

Baba kucağında mazlum evlatlar
Nice yükselmesin göğe feryatlar?

Dedim adın Senin cenneti hanı?
Sana kıyan vallah canidir cani!

Ah ey Baqi Senin gül bağın nerde?
Neden karanlıksın, çerağın nerde?

Biliyorum sözün çoktur ey Baqi
Ama söze hacet yoktur ey Baqi

Bu lisan-ı halin yeterdir Bize
Oktan, kılıçlardan beterdir Bize

Bu halin arife irfandır Senin
Sessizliğin gizli tufandır Senin

Nerdesen Mevla Sahib-ez-Zaman
Gel gör dostlarının hali perişan

İsa nefesli Yar, anan bekliyor
Acıları henüz dinmek bilmiyor

Yaradır henüz sır dolu sinesi
Dinmemiş göz yaşı, vaveyla sesi

Gel de dinsin artık Zehra fığanı
Beyt-üs Sürur olsun "Beyt-ül Ahzan"ı

Gel ey Mevla göstər "Gizli Makber"i
Gel bəyan eyle o "Sırr-ı Etheri"

QAZİ HACI MİRƏZİZİ SEYİDZADƏ
(Əziz Pünhan)

Mövla Əliyə Qədir-Xum günü münasibətilə

Fəsli-yaz oldu yenə güllər açıldı laləzar,
Canu dildən sorğu etdi, bir sədayi-xoşgüvar.
Söylə kimdir xilqəti-aləmə bais, əslikar?
Olmasaydı gər vücudu, olmaz idi hər nə var,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Bəs vücudi-xilqətə bais bu xaqan kimdi, kim?
Aləmi-imkana şaiq, Şahi-Mərdan kimdi, kim?
Ənbiyavu övliyaya pişivayan kimdi, kim?
Həm vilayət şəinə layiqu şayan kimdi, kim?
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Dünyavu aləm,yox idi nə bir vücudi-bəşər,
Nə var idi yer, nə göylər, nə kəhkəşandan əsər.
Yaradıb Xaliqi-aləm neçə nurani göhər,
Əlləməl-Əsma edib Adəmə təlim bahünər,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Göylərə merac edəndə, çünki Xətmi-ənbiya,
Bildi ki, onla gedir, nəfsi-mübarək Şintiya.
Bir şirin ləfz ilə səslərdi onu çün İliya,
Həm təam meyl eylədi, orda onunla bahəya,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Yatdı Peyğəmbər yerində, canını təslim edən,
Küfr dünyanı igidliklə tamam müslim edən,
Başu canından ahıl vaxtında şövq ilə keçən,
Bu yol ilə yenə də ümmətə şəfaət edən,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Kim qopartdı iki barmaqla o babi-Xeybəri,
Nərəsindən titrədi həm oynadı yer məhvəri.
Bircə zərbətlə iki böldü ol Əmru Əntəri,
Heç zaman meydani-cəngdə bir qədəm qoymub geri,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Çün Ühüd rəzmində bu mətləb olubdur aşkar,
Vurdular Peyğəmbərə yarə, edərlər səngsar.
Bir cavanı gördülər, cövlan edərdi biqəqrar,
Gah Peyəmbərdən difa, gahi qoşuna həmləvar,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Cəngi-Xəndəkdə kim idi Əbdəvudi tən bölən,
Şəninə «Siqleyn» hədisin həm Peyəmbər vəsf edən.
Küfru zülmatın içindən, nuri-İslam kəşf edən,
İnsu cinnin xidmətindən çox savablar əxz edən,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Kimdir ol mütləq cavan, yovmu Qədirin məzhəri?
«Kuntu Mövlahu» hədisi oldu dillər əzbəri.
Söylədi Xəttab, «bəxxun, bəxxun» ey din sərvəri,
Haqq Vəsi oldun bu gündən Mustəfanın əthəri,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Ya Əli səndən savay kimdür bu şənu rütbədə,
Hökm Allah ilə mövlud ola beytül-Kəbədə.
Ənbiyavu, Övliya həsrət çəkər bu məbədə,
Dostların şad, düşmənin qəmgin olar bu nöqtədə,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Ey Əziz Pünhan, baban mədhin həmişə vird elə,
Haqq Mövlanı tanıtdır, düşmənə dərd elə.
Qoy həsəd çəksin suyun isti, xörəyin sərd elə,
Bəlkə Mövlanı tanıdı, gətti adın bir dilə,
Bu gözəl ismi mələklər söyləmişlər aşkar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

* * *

Ziyayi-eyn kəmalatu vəssəfadu Əli,
Qulubi-mömininə «şəms vəzzühadu» Əli.

Çırağ məzhəb din həm də ziveri-iman,
Fəzayi-elmdə əvvəl və intihadu Əli.

Əli məhəbbəti hər bir günahı dəf eylər,
Mərizə həmçü şəfa eyn tutiyadu Əli.

Deyib Rəsuli-Xuda «Zəyyinu məcalisəkum»,
O gövhərbar kəlami Mustafada «ba»du Əli.

«Əlif, lam» ilə «mim» məniyi kəlamullah,
İşarəsi onadur nuri-Kibriyadu Əli.

Gəlibdü şəninə üçyüz həm ayəyi-Quran,
Bilən bilir yenə zahirdə «Həl-əta»du Əli.

Muqəttiat hurufatda olub mübhəm,
Vəleyk rəmzilə məşhur «Ta»vu «Ha»du Əli.

Kəmal mərifəti gün kimi ziya salmış,
Həqiqət əhlinə kaşifdu «innəma»du Əli.

Füzundu zərbəsi səqleyndən buyurdu Rəsul,
Cəngi-Xəndəkdə hamı müslimə şəfadu Əli.

Buyurmuş elmə qapı çünki elm şəhəri onu,
İlahi elmə gedən rahi-basəfadu Əli.

Sədəf dəhanı ilə hasil etdi dürri-yetim,
Fəsahət ilə bəlağətdə rəhnümadu Əli.

Əlidən özgə cavan yox nə Zülfüqar kimi tiğ,
Səmada soti-mələiklə bərməladu Əli.

Yeganə Kəbədə mövlud olan bəşər Əlidur,
Bu möcüz ilə bütün aləmə ziyadu Əli.

Həqiqi dostlarına bəxş edər o, «Xuld Bərin»,
Kəramət əhlidi çün şahi-övliyadu Əli.

Verəydi şölə Əziz Pünhana fəzilətdən,
Bu şəhrə çün qapıdur yar Mustafadu Əli.

KƏRBALAYİ ATİF

YA ƏLİ!

Kimsə olmaz Sən kimi Rəbbinə sadiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Əhli islama əzəl gündən sədaqət rəmzisən,
Bizlər üçün daima, ey Pir, ləyaqət rəmzisən.
Dönmədin bir an yolundan, çün dəyanət rəmzisən,
Hər müsəlman istər olsun, Sənə layiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Elmi-İslam nurusan, həm rəhnümasan bizlərə,
Elmin ilə nur verirsən qəlblərə, həm gözlərə.
Cəhlü, zillət həm qaranlıq çevrilər gündüzlərə,
Yaradıb bizlərə örnək Səni Xaliq , ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Şəhri-elmə qapı oldun, həm Hüseynin müəllimi,
Kərbəla şahinə verdin həm şəhidlik təlimi.
Bu şəhadətdə nədir məqsəd, çoxuna bəllimi?
İstəmirdin rəhbər olsun dinə fasiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Harda cəng oldusa islamın yolunda, getmisən,
Daima kafirləri Sən qanına qərq etmisən.
Məzluma arxa, yetimlər dadına Sən yetmisən,
Çün xəbər vermiş bizə Müxbiri-Sadiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Mali-dünyaya bir an olsun belə çəng vurmadın,
Üç tələq verdin ona, sahib durub, ər olmadın.
Ədlu insaf eylədin, bir kimsəyə fərq qoymadın,
Xeyr əməldə sənə olmaz bir müvafiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Sənlə dostluq, Allah ilə dostluq etməkdir yəqin,
Sənlə düşmənlik edən, Allaha düşməndir yəqin.
Kəbədə dünyaya gəldin, hökmi-Yəzdandır yəqin,
Sənsən həm şeytanlara göylərdə tariq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Hələ də dərk etmirik Mövla Əli, qiymətini,
Düşünüb, anlamırıq hər sözü, hər söhbətini.
Çoxları şeytana uymuş, itirib millətini,
Rəhnüma ol bizlərə, Allaha şaiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Atifəm, etdim ziyarət qəbrini, zikr eylərəm,
Sən kimi vardır imamım Rəbbimə şükr eylərəm.
Oxuram «Nəhcül-Bəlağə», hər zaman fikr eylərəm,
Görməyib dünya sənin tək böylə natiq, ya Əli!
Hər kim Allahı sevirsə, sənə aşiq, ya Əli!

Son olaraq bir neçə mötəbər hədisi qeyd etməklə kitaba xatimə veririk:

Peyğəmbər (s) buyurub: «Ey əmmar, Əliyə itaət etmək, mənə itaət etmək deməkdir. Mənə itaət etmək də Allaha itaət etmək deməkdir». («Fəraidussimteyn» cild1, səh 178. Əllamə Əl-Cəvini).

Əli (ə) buyurur ki, «Rəsulullah buyurdu: «Ey Əli, sən Allahın höccətisən, sən Allahın qapısısan, sən Allaha gedən yolsan, sən ən böyük xəbərsən, sən düz yolsan, sən ən ali bir misalsan, sən müsəlmanların imamı, əmirəl-möminin, vəsilərin ən yaxşısı, ən doğrudanışanların ağasısan. Ey Əli, sən ən böyük faruqsan (haqla batili ayıran), ən böyük siddiqsən (doğrucul). Sənin dəstən, mənim dəstəmdir, mənimsə dəstəm Allahın dəstəsidir. Sənin düşmənlərinin dəstəsi isə şeytanın dəstəsidir».». («Yənabiul Məvaddə» 95-ci bab, səh 496).

Rəsulullah buyurub: «Allah-Təala Əlini, həyat yoldaşını, övladlarını öz yaratdıqlarına höccət qərar verib. Onlar ümmətin içində elmin qapılarıdır. Kim onların vasitəsilə hidayət tapsa, doğru yola hidayətlənib». («Şəvahidut-Tənzil» cild 1, səh 58. Hakim Həskani).

Ümmü Sələmə deyir: «Rəsulullahın belə buyurduğunu eşitdim: «Əli Quran ilə və Quran Əli ilədir. Bunlar bir-birindən ayrılmayacaqlar, ta Kövsər hovuzunda mənə qovuşacaqlar».».

Son qeyd: Əlbəttə əziz oxucu, əziz Əlisevərlər, hörmətli Əhli-Beyt aşiqləri! Kitabın əvvəlində yazdığımız kimi Mövla Əli (ə) haqqında yazmaq, onun şəni-şərafəti barədə yazılanları cəm etmək dəryadan bir damla su götürmək kimidir. Daha doğrusu şair demişkən: "Dəryanın suyunu çəkib qurtarmaq olmaz, susuzluq qədər içmək olar".

"Kövsər" hovuzunun ətrafında görüşənədək…

(Müəllif M.M.Seyidzadə)

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

-“Mizanül-Hikmət”.Muhammməd Reyşəhri.Qum darul hədis 1375

-“Nəhcül-Bəlağə”. İmam Əli(ə)-ın xütbələri.Darul mərifə-Beyrut

-“Vəsailüş - Şiə”.Əl hurr Amuli.Mehr-Qum 1414

-“Mustədrəku Səfinətül-Bihar”.Şeyx Əli Namazi Şahrudi. Muəssisətun nəşrul-islami.1419

-Əli (ə)- Ayineyi Həqqnüma,

-“Biharül Ənvar”. Muhammməd Baqir Məclisi.Muəssisətul vəfa.Beyrut-Lubnan.1403-1983

-“Əl-Ğədir”.Şeyx Əbdül-Hüseyn Əmini. Darul-kiabil-Ərəbi Beyrut. 1379.

-“Tuhəfül-Üqul”.İbni Şübə ərani. Muəssisəti nəşruil islami.1404

-“Qoftare-Fəlsəfiye-Kudək”

-“Əl-Ədalətül-İnsaniyyəh”

-“Müstədrəkül-Vəsail”Mühəqqiq Nuri Təbərsi. Müəssisətu Alil Beyt. 1408.

-“Həzrət Əli (ə)”, Tehran. 1370.

-“Divane-Şəhriyar”. Tərcümə: Mircəlal Zəkiyev. Tehran, 1371.

-“Tarixe-Bağdad”.Əbibəkr Əhməd ibni Əli Xətib Bağdadi.Darul kutubil elmiyyə.1417

-“Rəvail-hikəm fi əşaril-İmam Əli ibn Əbu Talib”.

-“Mənaqib”. Əlmuvəffəq ibni Əhməd ibni Muhammməd. Muəssisəti nəşruil islami.1411

-“Nəhcül-Bəlağə”. Farsca tərcümə: Seyid Cəfər Şəhidi. Tehran. 1369.

-“Kitabu tarixil kəbir”.Əbi Əbdillah İsmail ibni İbrahim Buxari.Məktəbətul İslamiyyə-Diyar Bəkr.

-“Furuul-Kafi”.Şeyx Kuleyni. Darul kitabil islamiyyə.1388

-“Siyəru-Əlam” Zəhəbi. Müəssisətur-risalə Beyrut.1413

-“Tarixi-xüləfa”.

-“Usuli-Kafi”. Şeyx Kuleyni.Darul kitabil islamiyyə.1388

-“Fədailus-Səhabə”. İmam Əhməd ibni Hənbəl.Darul kutubil ilmiyyə.Beyrut Lubnan.

-“Qəvaidut-Təhdis”. Ədi əl-Qari.

-Şərhu Nəhcül Bəlağə. İbn Əbil-Hədid. Darul ihyail-kutubil-arabiyyə Beyrut.1415

-“Məsnu”. Ədi əl-Qari.

-“Səhih əl-Buxari”. Muhammməd ibni İsmail Əlbuxari.Darul fikr-Beyrut.1401

-“Camiu bəyan”. İbn Cərir Təbəri. Darul fikr-Beyrut.1415.

-“Səhihu Muslim”. Muslim ibni Həccac Nisaburi.Darul Fikr-Beyrut.

-“Sünənnül-Kübra” .Beyhəqi. Heydərabad, 1354

-“Fəthül-Bari”. İbn Həcər əl-Əsqəlani. Qahirə, 1407/1987

-“Camiul-Bəyan”. İbn Cərir ət-Təbəri. Beyrut, 1412/1992.

-“Əl-Mizan fi təfsiril-Quran”. Əllamə Təbətəbai, Beyrut, 1393/1973.

-“Rəvaiul-Bəyan”, Qahirə, 1416/1995.

-“Suç teorisi”.Qayıxan İçel. İstanbul. 1999.

-“Cəza hüququ”. Ayxan Öndər. İstanbul, 1992.

-“Ət-Təşriül-cinai əl-İslami”. Əbdül-Qadir Üdəh, Beyrut. 1415/1994

-“Təfsirül-Quranil-Əzim”. İbn Kəsir. Qahirə, 1390/1971.

-“Əl-İxtiyar”. Mövsili. Qahirə (tarixsizdir).

-“Sunənu İbn Macə”.Muhəmməd ibni Yəzid Qəzvini.Darul fikr.Beyrut

-“Əl-Məbsut”. Səraxsi. Qahirə, 1324-31

-“Mən la Yəhduruhul-fəqih”.İbn Babəveyh əl-Qumi, Beyrut, 1411/1991.

-“Əl-Müntəqa”. Əbul-Vəlid əl-Baci, Qahirə 1332, VI, 140; İbn Hazm, “Əl-Mühəlla”. Nəşr edən Əhməd M.Şakir, Qahirə, (tarixsizdir),

Məktəbin fiqhil-İslami, Qahirə, 1378/1958, s.84-86

-“Ət-Turuqul-Hükmiyyə”. İbn QəyyimM.Cəlil Qazi, Qahirə, 1977.

-“Dürərül-Hükkam”.Əli Heydər. İstanbul, 1330.

-“Nəzəriyyətüd-daruratiş-şəriyyə”. Bağdad, 1399/1979.

-“Əl-Kütübüs-Sittə”. Şeyx Saleh ibn Əbul Əziz Alüş-Şeyxin redaktəsi ilə. Əl-Riyad. 1999. (ərəb dilində)

-“Qəzavəthayi-Əmirəlmöminin Əli(ə)”.Ayətullah Şeyx Məhəmməd Təqi Şüştəri. Tehran. 1365. (fars dilində)

-“Əl-İrşad fi mərifəti-hüccəcül-ilahi-ələl-ibad”.Şeyx Müfid. (ərəb-fars dillərində)

-“Fəzailül-Xəmisə minəs-Sihahis-sittə”.Seyyid Mürtəza Hüseyni-Firuzabadi. Tehran. 1371. (ərəb dilində)

-“Əl-Füsülil-Mühimmə-fi əhvalil-Əimmə”. İbn Səbbağ Maliki Məkki. (Nəcəf çapından; nəşr ili yoxdur) (ərəb dilində)

-“ƏL-Fusulul Muhimmə fi təlifil-ummə h”. Əbdul Cəbbar Şərarə.Muəssisətus səqəleynis səqafiyyə-Beyrut.1420

-“Uşudul-Ğabə fi mərifətis-səhabə”. İbn Əsir. Beyrut. 1374-77. (ərəb dilində)

-“Əs-Səvaiqül-mühriqə fir-rəddi əla əhlil bid-i vəz-zindiq”.Həcər Heysəmi Bədir Yayınevi, İstanbul. 1990 (türk dilində)

-“Təcəlliyi-fəzilət”. İbn Əbil-Hədid Mötəzili Şafeinin “Nəhcül-Bəlağə şəhri”ndən seçmələr. 1375. (ərəb-fars dillərində)

-“Əmali” Şeyx Səduq. Nəşri-İslamiyyə 1370. (ərəb-fars dillərində)

-“Nəhcül-Həqq və Kəşfüs-Sidq”. Əlamə Hilli. Darül-hicrə, Qum. 1414. (ərəb dilində)

-“Məfatihül-Cinan”. Şeyx Abbas Qummi. Dəftəri-Nəşri-Fərhəngi-islami, 1370. (fars dilində)

-“İnsaf dər imamət”. Ayətullah Seyyid Məhəmməd Baqir Xonsari. Nəşri-Səduq, 1371. (fars dilində)

-“Əli fil-kitabi vəs-sünnə”.Hüseyn Şakiri Nəcəfi Darül-müvərrəxil-ərəbi, Beyrut. 1996. (ərəb dilində)

-“Seyri dər Səhihhyen”.Məhəmməd Sadiq Nəcmi. Dəftəri-intişarati-islami. 1376. (fars dilində)

-“Ayini-Kişvərdari əz Didgahi-İmam Əli (ə)” Ayətullah Məhəmməd Fazil Lənkərani. Tehran. 1373. (fars dilində).

-“Cəvahirul Mətalib fi Mənaqibil-Cəlil Əli ibn Əbi Talib (ə) ”Muhammməd ibn Əhməd Dəməşqi. Məcməu İhyais-Səqafətil-İslamiyyə. Qum-1415

-“Seyrətu İmam Əli(ə)”.Əhməd ibni Muhəmməd Bəkri.Mətbəətul Mənar-Tunis (ili yoxdur)

-“Musnəd Əhməd”.İmam Əhməd ibni Hənbəl. Darus-Sadir Beyrut.

-“Məsələtun fi Nassi əla Əli (ə)”. Şeyx Mufid. Darul-Mufid Beyrut.1414.

-“Məqamul İmami Əmirəlmuminin(ə)”.Nəcmuddin Şərif Əskəri.Əladabun Nəcəf. (ili yoxdur).

-“Əl-Covhərətu fi nəsəbil İmam Əli va Alihi(ə)”.Muhammməd ibni Əbibiəkr Ənsari. Muassisətul aləm-Beyrut.1402.

-“Tarixul-Uməm val-Muluk”. İbni Cərir Təbəri. muassisətul ələmi-Beyrut. (ili yoxdur).

-“Əl-İmamətu vas-Siyasə”. Əbi Muhammməd Abdullah ibni Muslim ibni Quteybə.İntişarate şərife Rəzi Qum.1413.

-“Əlməsabihu fi isbatil İmamə”.Əhməd Həmiduddin Kermani.Darul Muntəzər Beyrut.1416.

-“Əşşəfa-Bitarifi huquqil Mustəfa”.Darul fikr-Beyrut.1409.

-“Nəşətut təşəyyi vaş-şia”.Muhammməd Baqir Sədr. Mətbəatul-Quds.1417.

-“Məal Mustəfa”. Doktor Bintuş Şati. Darul kitabil ərabi Beyrut.1392.

-“Həyatu Əmir (ə) ”.Şeyx Muhammməd. Muassisətu nəşril İslami.1417.

-“Əl-İmam Əli (ə) fi Arail-Xuləfa”.Şeyx Məhdi. Muassisətul-Məarifil İslamiyyə.1420.

-“Məvaddətu Əhlil Beyt va Fəzilihim fil kitabi vas Sunnəti”.Mərkəzur risalə.Naşir-mərkəzur risalə.1419.

-“Huququl Alil-Beyt”.Şeyx Muhamməd Hüseyn Əlhacc Amuli.Mətbəə mehr.1415.

-“Dəlailul-İmamə”.Şeyx Əbi Cəfər Muhamməd ibni Rustəm Təbəri. Muəssisətul-Besə Qum.1413.

-“Xəsaisul-Əimmə”.Əşşərif Rəzi. Məcməul-Buhusil İslamiyyə Məşhəd.1406.

-“Təfzilu Əmirilmuminin Əli (ə)”. Şeyx Mufid. Darul Mufid Beyrut-Lubnan.1414.

-“Əl-Usulul-Muhimmə fi Usulil-Əimmə”.Əlhurr Amuli. Muassiasatu məarifil-İslami Qum.1418.

-“Əsluş-Şiə va Usuluha”.Kaşiful Ğita.Muassisatul İmam Əli(ə). (ili yoxdur).

-“Bahsul-Havlal-Vilayə”. Muhamməd Baqir Sədr. Darut-təarif Beyrut.1399.

-“Əl-İmamə fi Əhəmmil-Kutubil-Kəlamiyyə”. Seyyid Əli Hüseyni Milani. Naşir-Mehr Qum.1413.

-“Hədisul-Kisa fi Məsadiril-Hədis”. Əl-ənsari Pakistani. ullah Həsən. Ənvarul-Huda.1415.

-“Əl-munaziratu fil İmamə”.Abd- Şeyx Süleyman Qunduzi Hənəfi. “Yənabi-ül-müvəddə lizəvil-qürba”. 1416. (ərəb dilində)

- İbn Əsir. “Üşüdül-Ğabə fi mərifətis-səhabə”. Beyrut. 1374-77. (ərəb dilində)

- Həcər Heysəmi. “Əs-Səvaiqül-mühriqə fir-rəddi əla əhlil bid-i vəz-zindiq”. Bədir yayınevi, İstanbul. 1990 (türk dilində)

-“Təcəlliyi-fəzilət”. İbn Əbi əl-Hədid Mötəzili Şafeinin “Nəhcül-Bəlağə şəhri”ndən seçmələr. 1375. (ərəb-fars dillərində)

- Əlamə Hilli. “Nəhcül-Həqq və Kəşfüs-Sidq”. Darül-hicrə, Qum. 1414. (ərəb dilində)

- Şeyx Abbas Qummi. “Məfatihül-Cinan”. Dəftəri-nəşri-fərhəngi-islami, 1370. (fars dilində)

- Hüseyn Şakiri Nəcəfi. “Əli fil-kitabi vəs-Sünnə”. Darül-müvərrəxil-ərəbi, Beyrut. 1996. (ərəb dilində)

- Məhəmməd Sadiq Nəcmi. “Seyri dər Səhihhyen”. Dəftəri-intişarati-islami. 1376. (fars dilində)

-“İslam hüququnda zərurət halı”.Mustafa Baktır. Ankara (tarixsizdir), Aksağ yayın evi.

-“Qurani-Kərim”. Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsilə. Bakı, Azərnəşr, 1992.

-“Məhəmməd Füzuli”. Hədiqətüs-Süəada. Tərtib edənlər: Əlyar Səfərli, Möhsün Nağısoylu, Nəsib Göyüşov. Bakı, Gənclik, 1993

-“Hədiqətüs-Süəada”. Xoşbəxtlər bağı. Mövlana multanüş-şüəra, şeyxül-üdəba, əfzəlül-füzəla Molla Məhəmməd ibn Süleyman əl-müləqqəb bil-Füzuli. Müasir əlifbaya tətbiq edən və artırmanın müəllifi Həsən Məcidzadə Savalan. Ümumdünya Əhli-beyt (ə) cəmiyyətinin nəşri, Qum, 1374 (ərəb əlifbası ilə)

-“Azərbaycan məhəbbət dastanları”.Tərtib edənlər: Məmmədhüseyn Təhmasib, Təhmasib Fərzəliyev, İsrafil Abbasov, Nurəddin Seyidov, Bakı, Elm, 1979.

-“Həzrət Mühəmməd (s) və həyatı”. Əli Himmət Bərqi, Osman Kəskioğlu. Ankara, 1993.

-“Lirika”. Nizami Gəncəvi. Bakı, 1983. Filoloji tərcümə: Mübariz Əlizadə.

-“Sirlər xəzinəsi”.Nizami Gəncəvi. Bakı. 1981. Tərcümə: Süleyman Rüstəm, Abbasəli Sarovlu.

-“İsgəndərnamə”.Nizami Gəncəvi. Bakı. 1982.

-“Divane-türki”. M.Şəhriyar. Bakı. 1993.

MÜNDƏRİCAT

ELMİN QAPISINA GİRİŞ 3
ELMİN QAPISINA BİR BAXIŞ 9

ÖN SÖZ 13

I FƏSİL

ƏHLİ-BEYT HAQQINDA BİR NEÇƏ SÖZ 23
HƏZRƏT ƏLİNİN (Ə) SƏADƏTLİ DOĞUMU VƏ NƏSƏBİ 50
İMAMƏT NƏ DEMƏKDİR? 55
İMAMƏTİN FƏLSƏFƏSİ 63
İMAMƏT BARƏSİNDƏ İKİ NƏZƏRİYYƏ 66
QƏDİR-XUM HADİSƏSİ 71
ŞİƏ SÖZÜNÜN MƏNASI VƏ YARANMA TARİXİ 78
İSLAM XƏLİFƏLƏRİ NECƏ TƏYİN OLUNDU? 80
ƏLİNİN (Ə) XİLAFƏTƏ MÜNASİBƏTİ 83
ELM ŞƏHƏRİNİN QAPISI 86
SƏHABƏLƏRDƏN HAMISI ƏDALƏTLİ DEYİL 92
ƏMR SAHİBLƏRİ VƏ ƏHLİ-BEYT KİMLƏRDİR? 94
HƏZRƏT ƏLİNİN (Ə) ƏSHABI 103
ƏLİ (Ə) NƏ ÜÇÜN SƏBR EDİRDİ? 106
İYİRMİ BEŞ İL SÜKUT 108

II FƏSİL

MÖVLA ƏLİ (Ə) HAQQINDA AYƏ VƏ HƏDİSLƏR 115
“NƏHCÜL-BƏLAĞƏ” ƏLİ (Ə) – PARLAQ SİMA 156
MÖVLA ƏLİNİN (Ə) İMAMƏTİNİ SÜBUT EDƏN
BƏZİ HƏDİSLƏR 158
MÜSƏLMANLARIN QARDAŞLIĞI 167
İMAM ƏLİ (Ə) XƏLİFƏLƏRİN YEGANƏ MƏHKƏMƏ
VƏ FİKİR MƏNBƏYİ İDİ 169
İSLAMDA İMAN GƏTİRƏN İLK ŞƏXS 170
MÖVLA ƏLİNİN (Ə) ELM VƏ HİKMƏTİ 174
MÖVLA ƏLİ (Ə) VƏ ALLAHTANIMA 180
MÖVLA ƏLİNİN (Ə) İMAN VƏ İBADƏTİ 185
AZADLIQ ANLAMI MÖVLA ƏLİNİN (Ə) GÖZÜ İLƏ 196
MÖVLA ƏLİNİN (Ə) ƏDALƏTİ 199
İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ 211
ƏLİNİN (Ə) PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN
TƏQDİM OLUNMASI 216
PEYĞƏMBƏR (S) DÖVRÜNDƏ ƏLİNİN (Ə) QƏZAVƏTİ 217
ÖVLADIN HƏYATI NAMİNƏ 219
ÖLÜ SÜMÜYÜ 220
OĞLANIN ANASI HANSIDIR? 221
QIRX QADININ SUALI 222
DİVANƏ ŞƏXSƏ CƏZA DÜŞMƏZ 222
VALİDEYNƏ OXŞAMAYAN UŞAQ 223
ƏZİLMİŞ DİLİN DİYƏSİ 224

GÖZ ZƏDƏSİNİN DİYƏSİ 224
BİR ÖLÜNÜN BEŞ QATİLİ 225
ŞƏRİKLİ NAHAR 227
ƏDALƏTLİ BÖLGÜ 228
QAZ LƏLƏYİ 229
AĞA VƏ NÖKƏR 230
ŞEYTAN VƏSVƏSƏSİ 230
ÖVLADININ NİKAHINDA OLAN QADIN 231
RUM PADŞAHININ 20 SUALI 233
CİNAYƏTDƏ İŞTİRAKLA BAĞLI İCTİHAD 236
ALTI AYLIQ DOĞUŞ 238
İTİRİLMİŞ ZİREH 239
MALIN MÜHAFİZƏSİ 241
ZİNA EDƏN QADIN 242
ÜÇ DİRHƏMLİK KÖYNƏK 242
MƏSİHİ ALİMİNƏ QANEEDİCİ BİR CAVAB 243
İFŞA OLUNAN TƏDBİR 245
HİYLƏGƏR QADININ MƏKRİ 246
İMAMIN MÜQƏSSİRİ AŞKAR ETMƏSİ 246
DÖNÜŞÜ OLMAYAN SƏFƏR 250
HƏZRƏT ƏLİYƏ (Ə) QARŞI HİYLƏGƏRLİK 253
LİVATIN HƏDDİ (cəzası) 258
SƏRXOŞ HALDA DAVA-DALAŞ 259
SUDA QƏRQ OLAN ADAM 259
ÇİMDİKLƏMƏ ÖLÜMƏ SƏBƏB OLUR 260

ƏMANƏT 260
İQRAR 261
ŞAHİDLƏRƏ MÜTƏNASİB OLAN BÖLGÜ 261
HİYLƏGƏR QADIN 261
MÜXTƏLİF HÖKMLƏR 261
HƏDDİ-BULUĞA ÇATMAYAN ŞƏXSİN ZİNASI 262
TƏHDİD ÜZÜNDƏN ALINAN İQRAR 262
BEYTÜL-MALIN ƏHƏMİYYƏTİ 263
OĞRUNUN HƏBS EDİLMƏSİ 263
CƏZANIN BAĞIŞLANMASI 264
İPƏ-SAPA YATMAYAN HEYVAN 264
ZİNA İTTİHAMI 264
ÜZÜRLÜ BƏHANƏ 265
RAMAZANDA ŞƏRAB İÇƏNİN HÖKMÜ 265
MƏNİM DƏ BUNDAN ARTIQ CAVABIM YOX İDİ 266
BURADA ƏLİ GƏLMƏLİDİR! 266
İTLƏ QOYUNUN FƏRQİ 267
DONUZ SÜDÜ ƏMMİŞ QOYUNUN PAKLANMASI 268
NƏCASƏT YEYƏN HEYVANIN PAKLANMASI 268
KƏFƏN OĞRUSUNUN CƏZASI 268
OĞRUNUN TƏYİN EDİLMƏSİNDƏ SƏHV 269
MÖVLA ƏLİ (Ə) SƏNİN ƏKSİNƏ HÖKM ETDİ! 269
DOST VƏ DÜŞMƏN, YADDAŞLILIQ VƏ UNUTQANLIQ,
DÜZGÜN VƏ DÜZGÜN OLMAYAN YUXU 269
QİYAMƏTDƏ BEHİŞTLƏRİN YERİ 271

ALLAHIN QƏZAVÜ-QƏDƏRİNDƏN QÜDRƏTİNƏ SIĞINIRAM 271
QƏZA VƏ QƏDƏR 272
HƏR TƏRƏF ALLAHIN ÜZÜDÜR 273
SƏN BİZİM AXTARDIĞIMIZ ADAMSAN! 273
RUHUN MƏNASI 275
BURA ELM XƏZİNƏSİDİR! 276
NAMAZIN BƏZİ ƏMƏLLƏRİNİN FƏLSƏFƏSİ 278
ALLAHIN NİŞANƏSİ 279
ALLAHIN YEGANƏLİYİ BARƏSİNDƏ 279
NƏCRAN YEPİSKOPUNUN SUALLARI 280
ƏSL MALİK ALLAHDIR! 280
ŞƏRƏF MÜRÜVVƏT VƏ AĞIL 281
ALLAHIN NEMƏTLƏRİ 281
XƏLİFƏ ÖMƏRİN (R) MÖVLA ƏLİDƏN (Ə) SUALLARI 282
YEDDİ SUAL 283
VACİB VƏ VACİBDƏN DƏ VACİB 284
NƏFSLƏRİN XASİYYƏTLƏRİ 284
KƏBÜL-ƏXBARIN SUALLARI 285
YƏHUDİNİN SUALLARI 286
RƏSUL-CALUTUN SUALLARI 286
QEYSƏRİN SUALLARI 287
HÜZEYFƏNİN SÖZLƏRİNDƏN QƏZƏBLƏNƏN XƏLİFƏ 288
BELƏ ŞƏXS ÖVLİYAULLAHDIR! 289
YUNUS BALIĞIN QARNINDA 290
MUSA PEYĞƏMBƏRİN (Ə) ƏSASI 290

İSA PEYĞƏMBƏRİN (Ə) QUŞU 290
İZDİVAC GECƏSİ OĞLAN UŞAĞI DOĞAN QADIN! 291
ƏRLİ QADININ İZDİVACI 291
CƏZAYA SƏBƏB OLAN İBADƏT 292
ƏN PAK YERDƏ EDİLƏN İBADƏTİN BATİLLİYİ 292
SƏRF VƏ NƏHV 292
LÜĞƏT 293
FƏSAHƏT VƏ BƏLAĞƏT 294
BƏSRƏ DİYARI 295
ƏDALƏTLİ BÖLGÜ 295
QƏRİBƏ ƏDƏD 296
BEYTÜL-MALIN BÖLÜŞDÜRÜLMƏSİ 297
SƏKKİZDƏ BİRİN DOQQUZDA BİRƏ ÇEVRİLMƏSİ 298
ƏSHABİ-KƏHFİN YUXUSUNUN MÜDDƏTİ 298
ATMOSFER 299
NÜCUM (ASTRONOMİYA) ÖYRƏNMƏK 300
TƏBABƏT VƏ SAĞLAMLIQ 301
OĞLANIN HƏDDİ-BÜLUĞA ÇATMA ƏLAMƏTLƏRİ 302
UŞAĞIN İNKİŞAFI 303
YUMURTA QOYAN VƏ DOĞAN HEYVAN 303
ƏLƏ SÖYKƏNMƏK 303
TƏDBİR 304
CİNSİ İNSTİNKT 304
GÖZƏLLİK 304
ŞƏRAB 305

BALIQ 305
BİR-BİRİNƏ YAPIŞAN İKİ UŞAQ 306
“SƏHM”İN MƏNASI 306
“QƏDİM”İN MƏNASI 306
“HİYN” KƏLMƏSİNİN MƏNASI 307
“ŞEY” KƏLMƏSİNİN MƏNASI 307
“SÜFLƏ”NİN MƏNASI 307
“ZAMANI”IN MƏNASI 308
“LA ŞEYƏ” KƏLMƏSİNİN MƏNASI 308
“QAMƏT”İN MƏNASI 309
ƏVƏR (BİR GÖZLÜ) 309
HƏCƏRUL-ƏSVƏDİN FAYDASI VƏ ZİYANI 309
KARLIĞIN YOXLANMASI 309
GÖRMƏ, İYBİLMƏ VƏ DANIŞIQ
QABİLİYYƏTİNİN YOXLANMASI 310
GÖRMƏ QABİLİYYƏTİNİN ZƏİFLİYİ 311
HƏR İKİ GÖZÜN ZƏİFLİYİ 311
LAL ADAMIN AND İÇDİRİLMƏSİ 311
ZALIM ADAMA AND İÇDİRMƏK 312
TƏDBİR 312
ÇƏTİN AND 312
DƏMİR QAPININ ÇƏKİSİ 313
QURANDAN DƏRMAN 313
HESAB 314
HAQQ İLƏ BATİLİN FƏRQİ 314

YERLƏ GÖYÜN ARA MƏSAFƏSİ 314
SUYUN DADI 314
PEYĞƏMBƏR (S) ƏLİ (Ə) BARƏSİNDƏ DUA ETDİ 315
ƏDALƏTLİ HAKİM GƏLDİ! 315
ƏLƏQƏNİN DİYƏSİ 316
ÜÇ ƏMƏLİN NƏTİCƏSİ 316
SARI AYAQQABI 317
İLAHİ İMTAHAN 317
OSMAN (r) AYAĞA QALXIR 317
MÖVLA ƏLİNİN (Ə) FƏDAKARLIQ MƏQAMI 318
NƏFSİNƏ QALİB GƏLMƏK 322
LÜTFLƏ BAĞIŞLANAN ELM 323
KAMİL İNSANIN MƏNƏVİ RİYAZƏTİ 324
ƏLİ MÜRÜVVƏTİ 326
MÖVLA ƏLİNİN (Ə) MİNACATI 327
HƏZRƏT ƏLİ (Ə) ELM VƏ HİKMƏT MÜCƏSSƏMƏSİ KİMİ 328
ƏLİ İSLAMIN KƏSƏRLİ QILINCIDIR 332
MÖVLA ƏLİNİN (Ə) İBADƏTİ 335
MÖVLA ƏLİNİN (Ə) ŞÜCAƏTİ 337
MÖVLA ƏLİNİN (Ə) MEHRİBANLIĞI VƏ MƏHƏBBƏTİ 338
MÖVLA ƏLİ (Ə) MƏKTƏBİNDƏ CİHAD VƏ ŞƏHADƏT 339
FƏZİLƏTLƏR TOPLUSU 342
FƏQİHLƏR USTADI 344

MÖVLA ƏLİ (ə) HƏMÇİNİN TƏFSİR ALİMLƏRİNİN
DƏ MÜƏLLİMİDİR 344
MÖVLA ƏLİ (ə) HƏM DƏ İRFAN MƏNBƏYİ İDİ 345
ƏRƏB DİLİ ELMLƏRİNİN BANİSİ 345
QİRAƏT ELMİNİN MÜƏLLİMİ 345
ŞÜCAƏTLİ QƏHRƏMAN 346
SƏXAVƏT MƏDƏNİ - MƏNBƏYİ 347
SƏBR VƏ HƏLİMLİK DƏRYASI 348
FƏSAHƏT QƏHRƏMANI 349
KAMİL ZAHİDLİK 350
İLAHİ QANUNLARIN GÖZƏTÇİSİ, ABİDLƏR ABİDİ 351

III FƏSİL

MÖVLA ƏLİNİN (Ə) HİCRƏTİ 353
MÖVLA ƏLİNİN (Ə) VİLAYƏTİ HAQQINDA BİR NEÇƏ DƏLİL 357
MÖVLA ƏLİ (Ə) BESƏT DÖVRÜNDƏ 364
MÖVLA ƏLİNİN (Ə) ÖVLADLARI 366
MÖVLA ƏLİNİN (Ə) YEMƏYİ VƏ GEYİMİ 367
İMAMIN (Ə) İCTİMAİ XİDMƏTLƏRİ 369
MÖVLA ƏLİNİN (Ə) BƏZİ XÜSUSİYYƏTLƏRİ 372
MÖVLA ƏLİNİN (Ə) DÜNYAYA BAXIŞI 377
MÖVLA ƏLİNİN (Ə) DAVRANIŞLARINDAN 381
İSLAMIN NƏZƏRİ 382
MÖVLA ƏLİ (Ə) AİLƏ BAŞÇISI KİMİ 385

IV FƏSİL

MÖVLA ƏLİ (Ə) QEYRİ-MÜSƏLMAN ALİMLƏRİN GÖZÜ İLƏ..... 387
SÖVDƏ HƏMADANİ MÖVLA ƏLİ (Ə) HAQQINDA 393
SƏSƏNİN SÖZLƏRİ..... 394
HƏDİSLƏRDƏ GÜC VƏ QÜDRƏT 397
PEYĞƏMBƏRİN (S) RUHİ VƏ CİSMİ GÜCÜ 398
MÖVLA ƏLİ (Ə) ƏHLİ - SÜNNƏ QAYNAQLARINDA 409
MÖVLA ƏLİ (Ə) KLASSİKLƏRİN GÖZÜ İLƏ..... 426
FÜZULİNİN “HƏDİQƏTÜS-SÜƏADA” ƏSƏRİNDƏ
MÖVLA ƏLİ (Ə) 413
MÖVLA ƏLİ (Ə) ŞƏHRİYAR POEZİYASINDA 422

V FƏSİL

MÖVLA ƏLİNİN (Ə) MÜƏYYƏN FƏZİLƏT VƏ KAMALLARI 431
QƏSİDƏ..... 458
MÖVLA ƏLİNİN (Ə) İMAM HƏSƏNƏ MƏKTUBU 461
ZƏKAT BARƏSİNDƏ MƏKTUB..... 476
İMANIN VƏ KÜFRÜN ŞÖBƏLƏRİ HAQQINDA
DEYİLƏN XÜTBƏ 477
O CƏNABIN KUMEYL İBN ZİYADLA SÖHBƏTİ 481
MÖVLA ƏLİNİN (Ə) DİBAĞ ADI İLƏ TANINMIŞ XÜTBƏSİ 486
“NƏHCÜL-BƏLAĞƏ” SAHİBİ..... 489
QURAN VƏ “NƏHCÜL-BƏLAĞƏ”DƏN NÜMUNƏLƏR 493

ƏLİ (Ə) KƏLAMINDA ALLAH QÜDRƏTİ 497
HAQQ ALINMALIDIR, XOŞLA VERMƏZLƏR 499
MÖVLA ƏLİ (Ə) VƏ İSLAMIN SOSİAL-İQTİSADİ PRİNSİPLƏRİ 502
İMAM – BÜTÜN DÜNYANIN KÖNÜL ALANI 509
MÖVLA ƏLİ (Ə) VƏ KƏLAM 512
ƏLİ (Ə) ÖLÜM YATAĞINDA 514
ƏLİ (Ə) ÖLÜMÜNÜN SON SAATLARINDA 520
MÖVLA ƏLİNİN (Ə) ŞƏHADƏTİ 523
PARLAQ ÇIRAĞIN SÖNMƏSİ 529

VI FƏSİL

MƏŞHUR DİN ALİMLƏRİNİN MÖVLA ƏLİ HAQQINDA NƏZMLƏ BUYURDUQLARI MƏDHLƏR 531
KLASSİKLƏRİMİZ VƏ MÜASİR ŞAİRLƏRİMİZİN MÖVLA ƏLİ HAQQINDA YAZDIQLARI NƏZM VƏ QƏSİDƏLƏR 541
SEYİD İMADƏDDİN NƏSİMİ 541
MOLLA MUHƏMMƏD FÜZULİ 549
ŞAH İSMAYIL XƏTAİ 550
SEYİD ƏZİM ŞİRVANİ 553
ABDULLA ŞAİQ 561
SEYİD ƏBÜLQASİM NƏBATİ 563
MOLLA PƏNAH VAQİF 566
AŞIQ ABBAS TUFARQANLI 567
XƏSTƏ QASIM TİKMƏDAŞLI 568

AŞIQ ƏHMƏD RÜSTƏMOV 569
ZİKRİ ƏRDƏBİLİ 570
MÜHƏMMƏD ƏMİN DİLSUZ 570
HACI MAİL 573
ƏNVƏR NƏZƏRLİ 575
HACI ƏLƏMDAR MAHİR 578
HACI ARİF BUZOVNALI 580
HACI YAŞAR CAHİD 582
AXUND HACI SOLTAN HÜSEYNQULU OĞLU 583
SEYİD ƏLİ ƏKBƏR OCAQ NEJAD 589
KADİR AKARAS 591
MUSA AYDIN 592
QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ 595
KƏRBALAYİ ATİF 599
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT 602

Texniki redaktor və dizayner:
Cəsarət Qasımov
Korrektor:
Rubabə Atakişiyeva
Rəssam:
Maqsud Abdullayev

QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ

ELMİN QAPISI

Yığılmağa verilib: 05.05.2006.
Çapa imzalanıb: 25.05.2007.
Formatı: 70x100 1/16. Həcmi: 38,5.
Sirfariş № 73. Tiraj 2000.

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05
mətbəəsində çap olunub